HEYDƏR ƏLİYEV

çıxışlar • nitqlər

bəyanatlar • müsahibələr

məktublar • məruzələr

müraciətlər • fərmanlar

AZƏRNƏŞR
BAKI-2010

HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

otuz ikinci kitab

yanvar, 2001 - mart, 2001

AZƏRNƏŞR
BAKI-2010

BBK 32

Ə 56

Buraxılışına məsul
akademik

RAMİZ MEHDİYEV

ƏLİYEV HEYDƏR

Ə 56 **Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2010, 512 səh.

Müstəqil Azərbaycan dövlətinin ümummilli lideri Heydər Əliyevin oxuculara təqdim olunan bu növbəti cildində Azərbaycana gələn beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərin, danışıqların, Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin inkişafını əks etdirən Bakı bəyannaməsinin materialları dərc olunmuşdur.

Kitabda ulu öndərin Fransaya rəsmi səfəri zamanı bu ölkənin prezidenti Jak Şirak ilə, digər yüksək vəzifəli şəxslərlə apardığı danışıqları, Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə, AŞ Parlament Assambleyasının sessiiyasında Azərbaycanın milli mənafeyini əks etdirən nitqi, mətbuat orqanlarına verdiyi müsahibələri, Azərbaycan, Fransa və Ermənistan prezidentlərinin görüşləri və bəyanatları, Azərbaycan–Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid materiallar da verilmişdir.

Bütün cildlərdə olduğu kimi bu cilddə də Prezident Heydər Əliyevin Pespublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişinə, eləcə də ictimai-siyasi həyatın mühüm məsələlərinə dair materialları da öz əksini tapmışdır.

Ə $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2010}}$ **BBK-32**

© Azərnəşr, 2010

BEYNƏLXALQ TƏŞKİLATLARIN – AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ, ATƏT-in PARLAMENT ASSAMBLEYASININ VƏ AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN «AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

6 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, mən sizi Azərbaycanda salamlayıram. Azərbaycanda, bəlkə də, müxtəlif ölkələrin parlamentlərinin üzvləri, yaxud da səfirləri bu qədər birlikdə olmamışdılar. Mən görürəm ki, Avropada bizim ölkəmizə, xalqımıza diqqət get-gedə artır. Güman edirəm, təkcə diqqət yox, yəqin ki, qayğı da artır. Ona görə mən sizinlə görüşümdən çox məmnunam.

Aydındır, siz nə məqsədlə gəlmisiniz. Biz bu barədə sizinlə əvvəllər də görüşmüşdük. Keçən dəfə görüşəndə belə fikrə gəlmişdik ki, bir də görüşəcəyik. İndi vaxt gəlib çatıbdır. Siz Azərbaycandasınız. Biz də sizin gəlişinizlə əlaqədar və ümumiyyətlə, parlamentə təkrar seçkilərin keçirilməsi ilə əlaqədar çox işlər görmüşük. Güman edirəm ki, sabah bu işlərin nəticəsini müşahidə edə biləcəksiniz. Buyurun, sizi dinləyirəm.

P a u l a K o k k o n e n (*ATƏT-in Parlament Assambleyasının müşahidə missiyasının rəhbəri, Finlandiya parlamentinin üzvü, ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi*) Cənab Prezident, bizi qəbul etdiyinizə görə çox sağ olun. Mən təəssüf edirəm ki, keçən dəfə, dekabr ayında burada olarkən

sonuncu görüşə qatıla bilməmişdim. Amma yenidən Azərbaycana gəlməyimdən çox məmnunam. Burada həmkarlarımızla birlikdə olmağımızdan, görüşməyimizdən çox şadıq. Biz söhbət edəndə bir-birimizə söylədik ki, Azərbaycan sanki «Nokia» mobil telefonuna bənzəyir. Adamları burada bir-biri ilə calaşdırır, birləşdirir.

Cənab Prezident, biz doğrudan da onu müşahidə etmişik ki, təkrar seçkilərin keçirilməsi irəliyə doğru bir addımdır, inkişafdır. Biz Azərbaycanın bu addımlarını dəstəkləmək və Qərb təsisatlarına inteqrasiyasını gücləndirmək məqsədi ilə Sizin ölkənizə gəlmişik. Demokratiya quruculuğu əməkdaşlıq deməkdir, həm dövlətlər arasında, həm də dövlətin özünün daxilində baş verən əməkdaşlıqdır.

Cənab Prezident, məlumatımız var – Siz hakimiyyət orqanlarına lazımi göstərişlər vermisiniz ki, seçkilərdə saxtakarlıq olmasın, hər şey açıq-aydın, şəffaf şəraitdə keçsin. Bilirik ki, belə bir göstərişi cənab Pənahov da müvafiq orqanlarına veribdir. Biz yenə də narahatıq, ehtiyat edirik ki, bəlkə yenə də müəyyən çatışmazlıqlar ola bilər.

Andreas Gross (*Avropa Şurası Parlament Assambleyasının Seçkiləri Müşahidə üzrə Xüsusi Komitənin sədri*): Cənab Prezident, bizim üçün vaxt ayırdığınıza görə mən də Sizə minnətdarlığımı bildirmək istəyirəm. Heç olmasa, seçki dairələrinin bir qismində təkrar seçkilərin keçirilməsi barədə qərarın qəbul olunmasını biz xoş məramla atılmış və tərəqqiyə doğru addım kimi qiymətləndirmişik. Belə bir addımın atılmasında bizim də iştirakımız ona yönəlmişdi ki, cəmiyyətdə olan qüvvələr arasında qarşılıqlı inamın möhkəmləndirilməsinə doğru addımlar ataq, yardım edək. Amma bu qısa müddətdəki müşahidələrimiz belə qənaətə gəlməyə bizi sövq edir ki, cəmiyyətdə gözlədiyimiz inamın yaranmasına tam nail olmaq mümkün olmayıbdır. Cənab Prezident, ona görə də mən Sizə belə bir sualla müraciət etmək istəyirəm. Siz bunu necə

izah edərdiniz ki, seçkiyə bir gün qalsa da, cəmiyyətdə qüvvələr arasında qarşılıqlı inamın yaradılmasına çox da nail olmaq mümkün olmamışdır.

Heydər Əliyev: Mən bunu anlamıram. Fikrinizi bir az dəqiqləşdirin.

Andreas Qross: Belə mühüm tədbirlə qarşılaşan ölkələrdə, adətən, seçkinin keçirilməsinin təzahürləri olan ictimai debatların aparılmasının, təbliğat işinin təşkil edilməsinin əlamətləri görünür. Belə günləri yaşayan ölkələrdə, adətən, insanlar bazar günü seçkiyə gedib səs vermək əhval-ruhiyyəsinə köklənmiş olurlar. Demokratiya üçün ən təhlükəli hal nə müxalifətdir, nə də başqa fikirdə olmaqdır. Demokratiya üçün ən təhlükəli hal etinasızlıqdır.

Bizim nümayəndələrimizin bir qismi artıq iki həftədir, bir qismi isə bir həftədir Azərbaycandadırlar. Biz burada ictimaiyyət arasında seçkilərlə əlaqədar qızğın fəallığın olduğunu görmürük. Düzdür, bəzi partiyalar bu seçkilərdə iştirak edir, digərləri isə iştirak etmirlər. Baxmayaraq ki, onların iştirak etməsi üçün biz də müəyyən cəhdlər göstərdik, bu prosesə töhfə verməyə çalışdıq. Bəzi partiyalarda isə bütün bu prosesin özünə inam qalmayıbdır, azdır. Sualım ondan ibarətdir ki, Sizcə, ölkədə baş verən bu proseslərə ictimaiyyətdə və siyasi partiyalarda inam, etibar nə üçün daha çox olmadı?

Heydər Əliyev: İndi başa düşdüm. Birincisi, mən bilmirəm siz nəyi nəzərdə tutursunuz? Burada ayın 7-də bütün respublika üzrə seçki keçirilmir, sadəcə, ayrı-ayrı dairələrdə, 11 dairədə seçki keçirilir. Siz bilirsiniz, seçkinin qanunu onu tələb edir ki, ümumi seçkilərdə iştirak edən partiyalar, yaxud da fərdi namizədlər öz təbliğat işlərini qururlar və aparırlar. Bunun üçün onlar kütləvi informasiya vasitələrindən istifadə edirlər. Bir də dairələrin çərçivəsində öz işlərini aparırlar. Mən hesab edirəm ki, bu işlər gedir. Amma ümumi respublika miqyasında bunu müşahidə etmək bir az çətindir.

Çünki bu, birincisi, majoritar prinsip əsasında dairələrdə keçirilən seçkilərdir. Mənə verilən məlumata görə, hər bir dairədə həm lazımi təşkilati iş aparılıbdır, həm də namizədlər öz seçiciləri ilə görüşlər keçiriblər və seçilmək üçün lazımi tədbirlər görüblər. 11 dairədə orta hesabla bir yerə 8 namizəd vardır. Demək, bunun özü insanların fəallığını göstərir. Burada etinasızlıq haqqında danışmağa əsas yoxdur. Mən bəzən baxıram, namizədlər bizim televiziya vasitəsilə də çıxış edirlər. Onlar dövlət televiziyasından pulsuz istifadə edirlər. Özəl televiziyalarda isə yəqin ki, müəyyən pul verir və çıxış edirlər. Mən görürəm, özəl televiziyanın nümayəndələri burada oturublar, onlar da bilirlər ki, çıxışlar olur. Bir də deyirəm, bu, ümumxalq seçkiləri deyil, bu, ayrı-ayrı dairələrdə ayrı-ayrı namizədlərin seçilməsi üçün aparılan işdir. Bu işi isə birinci növbədə, seçilmək üçün namizədliyini vermiş insanlar özləri aparırlar. Seçki dairələri isə onlara şərait yaradır. Dövlət, icra orqanları bu işlərə qarışa bilməz və bir daha göstəriş vermişik ki, qarışmasınlar.

Mən ikinci tərəfi başa düşürəm, siz nə demək istəyirsiniz. Bu da ondan ibarətdir ki, partiyaların bəziləri bu seçkidə iştirak etməkdən imtina ediblər. Məsələn, onlardan Müsavat Partiyası əvvəldən seçkilərdə iştirak etməkdən imtina edibdir. Milli İstiqlal Partiyası – mən görürəm, bizim qəzetlərdə yazırlar, özəl televiziyada hər gün verilişlər verilir – bir gün deyirlər ki, biz seçkiyə gedirik, o biri gün deyirlər, getmirik.

Mən bildiyimə görə, hər halda, mətbuatdan aldığım məlumata görə, onlar, nəhayət, partiyanın üzvlərinə səlahiyyət veriblər ki, kim istəyir seçilsin. Milli İstiqlal Partiyasının bizə məlum olan bir çox fəalları gəlib dairələrdə ərizə veriblər, imza yığıblar, qeydiyyatdan keçiblər və seçilmək üçün çox işlər aparıblar. Ancaq ayın 4-də onlardan bəziləri dairələrə müraciət ediblər ki, seçkidən imtina edirlər. Ancaq hamısı yox. Milli İstiqlal Partiyasının 6 nəfər nümayəndəsi seçkilərdə iştirak edir. Xalq Cəbhəsi Partiyasından 4 nəfər, Yurddaş

Partiyasından 1 nəfər iştirak edir. Bir nəfər Sosial-Demokrat Partiyasından iştirak edir. Mən müxalifət partiyalarını deyirəm. Amma partiyalar var ki, onlar orta mövqedədirlər, nə müxalifətdədirlər, nə də iqtidarda. Onların da nümayəndələri iştirak edirlər. Biz hansısa partiyanı məcbur edə bilmərik ki, daha çox namizəd verin.

Məsələn, Milli İstiqlal Partiyasının çox tanınmış, hörmətli rəhbərlərindən biri Şadman Hüseynov 7-ci dairədə ərizə verib, imza toplayıb, qeydə alınmışdı. Hətta plakatlarını gətirmişdi ki, istifadə etsin. Ayın 4-də gəlib deyib ki, bizim partiya qərar çıxarıbdır, mən namizədliyimi geri götürürəm. Soruşurlar ki, nə üçün? Deyir ki, partiya belə qərar çıxarıbdır. Mən bunu ayın 4-də axşam eşidəndə çox təəssüf etdim. Çünki o şəxs dörd il, Avropa Şurasında bizim namizədliyimiz dövrümüzdən indiyə qədər Azərbaycan nümayəndə heyətinin üzvü olubdur və özü də orada çox fəal işləyibdir. Amma indi biz ona nə təsir edə bilərik, nə də onu məcbur edə bilərik.

Ümumiyyətlə, bir çox namizədlər bitərəfdirlər, heç bir partiyaya daxil deyillər. Ancaq siz bilirsiniz ki, Azərbaycanda partiyalar əhalinin bütün hissəsini təmsil etmirlər. Əhalinin əksəriyyəti bitərəfdir. Heç bir partiyaya daxil deyil və heç bir partiya ilə də əlaqəsi yoxdur. Deputatlığa namizədlərdən 49-u bitərəfdir. Yəni, biz bu məsələləri tənzimləyə bilmərik. Ona görə mən hesab etmirəm ki, əhalidə etinasızlıq vardır.

Bir şeyi də nəzərə almaq lazımdır ki, əsas seçki keçirilən zaman bir neçə ay ölkə üzrə ümumi təbliğat aparılır. Partiyalar öz təbliğatını aparır, müstəqil deputatlar öz təbliğatını aparır. Bu, əhalinin, demək olar ki, əksər hissəsini əhatə edir. Amma indi tutaq ki, Yasamal rayonundakı 7 nömrəli dairədə beş-altı namizəd vardır. Orada, yaxud Xətai rayonunda, Sabunçu rayonunda – mən Bakını götürürəm – seçkinin keçirilməsinə heç kəsin marağı yoxdur. Bizdə 100 majoritar dairə var. Biri var ki, noyabrın 5-dəki kimi onların hamısına seçki

keçirilsin, biri də var ki, 11 dairədə keçirilsin. Təbiidir, sonuncusu ümumrespublika probleminə çevrilə bilməz. Ona görə, ola bilər hansısa rayonda hansı dairədə seçki keçiriləcəyindən heç xəbərləri də yoxdur. Ancaq mənə verilən məlumatdan bilirəm ki, namizədlər çox fəal iş aparırlar. Bəziləri də, dediyim kimi, əvvəl namizədliyini veriblər, qeydiyyatdan keçiblər, sonra namizədliyini geri götürüblər. Bu halda da heç bir şey etmək mümkün deyildir. Real vəziyyət bundan ibarətdir.

P a u l a K o k k o n e n: Cənab Prezident, icazə verin, öncə sözü səfirlərə verim, sonra Avropa Şurasında Azərbaycan üzrə məruzəçiyə söz verərəm.

P y e t r o E r k o l e A Q O (*Avropa Şurası Nazirlər Komitəsinin «Aqo» monitorinq qrupunun rəhbəri, Avropa Şurasında İtaliyanın səfiri*): Cənab Prezident, icazə verin, mən də Avropa Şurası Nazirlər Komitəsinin «Aqo» monitorinq qrupu adından, səfirlərin təmsilçisi kimi, Sizə müraciət edim. Olduqca məmnunam ki, biz Avropa Şurasının Nazirlər Komitəsinin nümayəndə heyətinin, ATƏT və Avropa Şurasının Parlament Assambleyalarının nümayəndə heyətlərinin birgə əməkdaşlıq edərək, bu seçkiləri müşahidə etməsini görürük.

Ötən ilin iyun ayında – o vaxt İtaliya Avropa Şurası Nazirlər Komitəsinin sədri vəzifəsini daşıyırdı – ölkəmizin naziri ilə sizin regionu ziyarət etdik. Məqsədimiz regiondakı vəziyyətlə əlaqədar, məxsusi olaraq Azərbaycanın və Ermənistanın Avropa Şurasına qəbul edilməsi ilə bağlı AŞPA-ya məruzə hazırlamaq idi.

Cənab Prezident, bildiyiniz kimi, İtaliya Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etdiyi vaxt Azərbaycanın və Ermənistanın tezliklə Avropa Şurasına qəbul olunmaları üçün əlindən gələn səyləri göstərdi. Lakin Azərbaycanda noyabrın 5-də keçirilmiş seçkilərin yekunu qənaətbəxş olmadığına görə, Avropa Şurasında aparılan müzakirələrdə belə nəticəyə gəlindi ki, həmin ölkələrin Avropa Şurasına qəbul edilməsi iki

mərhələdə həyata keçirilsin. Nazirlər Komitəsinin sonuncu iclasında qərar verildi ki, Avropa Şurasına qəbul olunmaq üçün hər iki ölkəyə dəvət göndərilsin və bu dəvət yanvar ayında imzalanma mərasimi ilə rəsmiləşdirilsin.

Bu qərarı rəsmiləşdirmək üçün 13 ölkənin təmsilçilərindən ibarət monitorinq qrupu yaradıldı və həmin qrupun rəhbəri mənəm. Məqsədimiz bu ölkəni ziyarət edərək, buradakı vəziyyətlə əlaqədar məruzə hazırlamaq və yanvar ayının 17-də Nazirlər Komitəsinin iclasında onlara tövsiyə verməkdir. Əgər hər şey qaydasında getsə, ATƏT-in və Avropa Şurasının Parlament Assambleyalarının, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun pozitiv rəyini alsaq, onlar təkrar seçkilərin yaxşı keçməsi barədə rəy versələr, onda biz Avropa Şurasının Nazirlər Komitəsinə tövsiyə edəcəyik ki, yanvar ayının sonuncu həftəsində AŞPA-nın iclasında Azərbaycanın və Ermənistanın AŞ-ya qəbulunu rəsmi surətdə təsdiqləsinlər.

Cənab Prezident, onu da bildirmək istəyirəm ki, Sizin hökumətinizin təmsilçisi cənab Araz Əzimov Strasburqa gələrək, bizimlə və cənab Qross ilə, habelə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbərliyi ilə görüşlər keçirdi. Həmin görüşlər nəticəsində biz ümumi məsləhətləşmələrdən sonra belə qənaətə gəldik ki, Azərbaycan hökuməti 5 noyabr seçkilərindən sonra müəyyən çatışmazlıqların aradan qaldırılması üçün lazımi addımlar atıbdır. Ona görə qərara aldıq ki, belə bir nümayəndə heyəti ilə Azərbaycana gələk. Lakin eyni zamanda cənab Qrossun dediyi kimi, bizdə hələ də bəzi narahatçılıqlar qalmaqdadır.

Şübhəsiz, biz istərdik ki, seçkilərdə bütün müxalifət partiyaları iştirak etsinlər. Bəzi müxalifət partiyalarının seçkilərdə iştirak etməməsi ilə əlaqədar Sizin verdiyiniz izahatı nəzərə alırıq. Ola bilər ki, bu partiyalar parlament seçkilərin-

də iştirak etməməyi özlərinin strategiyalarının tərkib hissəsi sayırlar.

Biz Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədri ilə keçirdiyimiz görüşdən razı qalmışıq. Qənaətbəxş məlumat almışıq ki, 11 dairənin hər birində, heç olmasa, bir müxalifət nümayəndəsi namizədliyini irəli sürübdür. Yəni müxalifət nümayəndələri də iştirak edirlər. Bu da prülarizmin göstəricisidir. Amma bununla bərabər, hesab edirik ki, gərək seçkilər sərbəst, azad, ədalətli olsun və noyabrın 5-də müşahidə edilmiş ciddi çatışmazlıqlar bu dəfə olmasın.

Bildirmək istəyirəm ki, onu da məmnuniyyətlə qəbul etdik ki, bütün Azərbaycan cəmiyyəti, o cümlədən də müxalifət partiyalarının təmsilçiləri Azərbaycanın Avropa Şurasına qəbul olunmasını ali məqsəd hesab edirlər. Onlar da Azərbaycanın Avropa Şurasına qəbul olunmasını istəyirlər. Ona görə hesab edirik ki, bu məsələ, yəni Azərbaycanın Avropa Şurasına qəbul olunması bütün cəmiyyətin arzusu və istəyidir.

Bizdə olan digər narahatçılıq əhalinin seçkilərdə iştirakı məsələsidir. Başqa sözlə desək, narahatçılığımız var, ola bilsin ki, 25 faizlik kvorum olmasın. Əgər belə olarsa, yəni müəyyən dairələrdə seçicilərin 25 faizi səsvermədə iştirak etməsə, o zaman həmin dairələrdə seçkinin nəticələri ləğv olunmalıdır.

Bir daha demək istəyirəm və ümidvarıq ki, Avropa Şurasının, ATƏT-in Parlament Assambleyalarının burada olan nümayəndələrinin təsdiqindən sonra, yəni müşahidəçilərin rəylərini aldıqdan sonra, qismən də olsa, müxalifətin də bu seçkilərdə iştirak etməsi nəzərə alınmaqla, Azərbaycanın Avropa Şurasına qəbul olunması barədə müsbət tövsiyə verə biləcəyik. Xüsusi bildirirəm ki, Azərbaycanın Avropa Şurasına qəbulunu təmin etmək hazırda qarşımızda duran məqsəd olsa da, bu, yalnız başlanğıc nöqtədir. Yəni Azərbaycan ilə Avropa Şurası arasındakı əməkdaşlığın başlanğıcıdır. Ümidvarıq ki, bu əməkdaşlıq nəticəsində Avropa Şurasının təcrü-

bəsi ilə Azərbaycanda demokratiyanın daha da dərinləşməsi üçün birgə səylər qoyacağıq və buna nail ola biləcəyik.

Bir daha bəyan etmək istəyirəm ki, Sizin hökumətiniz əməkdaşlıq xəttini, demokratik cəmiyyət quruculuğu xəttini yaxşı qoruyub saxlamışdır.

H e y d ə r Ə l i y e v: Hörmətli cənab səfir, təşəkkür edirəm. Azərbaycanın Avropa Şurasına daxil olmaq prosesi haqqında, ölkənizin Avropa Şurasına sədrlik etdiyi zaman görülən işlər haqqında verdiyiniz geniş məlumat məni çox məmnun edir. Hərçənd, biz hesab edirik ki, həmin prosesdə ayrı-ayrı komitələrdə, komissiyalarda Azərbaycana qarşı qeyri-ədalətli fikirlər də söylənilibdir. Biz nöqsanlarımız haqqında ədalətli sözlərin hamısını qəbul edirik. Ancaq ədalətsiz fikirlər, təbiidir ki, bizi narahat edir və bunları qəbul edə bilmərik. Bütün bu proses zamanı biz bildirmişik və bu gün də bildiririk ki, Azərbaycan Avropa Şurasına daxil olmaq istəyir. Siz də deyirsiniz ki, istəyirsiniz Azərbaycan Avropa Şurasına qəbul olunsun. Azərbaycan bu müddətdə, namizədlik dövründə də Avropa Şurasına daxil olmaq istəyini daim sübut edibdir.

Biz yaxşı bilirik ki, Avropa Şurasının əsas prinsipi demokratiyadır. Azərbaycanda biz demokratik quruluş yaradırıq, Ölkəmizdə demokratik, dünyəvi, hüquqi dövlət qurulur. Bütün sahələrdə islahatlar aparılır. Söz azadlığı, mətbuat azadlığı tamamilə təmin olunubdur. Vicdan azadlığı, milli mənsubiyyətindən, irqindən asılı olmayaraq, Azərbaycanda insanların bərabər hüquqa malik olması da təmin edilibdir. Təbiidir ki, seçkilər də bu demokratiya prosesinin bir hissəsidir. Əgər biz Avropa Şurasına daxil olmaq istəyiriksə, demək, çalışırıq və çalışmalıyıq ki, Avropa Şurasının əsas prinsiplərinin hamısına riayət edə bilək. Bu işdə nəsə alınır, nəsə alınmır.

Siz özünüz buyurdunuz ki, Avropa Şurasına daxil olmaq iki mərhələdir. Daxil olmaq istəyi ilə yanaşı, biz eyni zamanda öz məsuliyyətimizi hiss edirik. Bu vasitə ilə demokratiya

təcrübəsini daha da yaxşı mənimsəmək, demokratik quruculuq prosesini daha da sürətlə inkişaf etdirmək istəyirik.

Təbiidir ki, 5 noyabr seçkilərində nöqsanlar olubdur. O nöqsanlara görə də Mərkəzi Seçki Komissiyası və Konstitusiya Məhkəməsi 11 dairədə seçkilərin nəticələrini etibarsız hesab edibdir. Amma bütünlükdə seçkilərə mənfi qiymət vermək doğru deyildir. Mən bununla heç də razı ola bilmərəm. Əgər siz hesab edirsinizsə ki, mütləq müxalifətdən çox adam olmalıdır – onlar nə qədər səs toplayıblar, o qədər də yer alıblar. Amma bəzi müxalifət partiyaları istəyirlər ki, dövlətə, hökumətə, iqtidara öz istəklərini diqtə etsinlər və bunların həyata keçirilməsinə nail olsunlar. Məhz ona görə də indi bəzi partiyalar cürbəcür manevrlər edirlər.

Səbəbi nədir? Yəni Azərbaycanda seçkilər baş tutmasın, Azərbaycanın parlamenti legitim olmasın, filan. Bu məqsədlərə nail olmaq istəyirlər. Son illərdə böyük çətinliklə əldə etdiyimiz ictimai-siyasi sabitliyi pozmaq və bundan da şəxsi məqsədləri üçün istifadə etmək istəyirlər. Kim mane olur ki, onların hərəsi 11 dairədə 2-3 namizəd irəli sürsün. Özü də bilirlər ki, bu 11 dairədə keçirilən seçkilər xüsusi nəzarət altında olacaqdır. Belə xüsusi nəzarət altında olan seçkilərdə iştirak etmək lazımdır. Amma onlar bunu da etmirlər. Mən hələ o tərəfini demirəm ki, onlar özlərinə inanmırlar. Siz nahaq elə düşünürsünüz ki, onların hər biri dedikləri qədər sosial bazaya malikdirlər.

Cənab səfir, siz deyirsiniz ki, bu məsələni, yəni Azərbaycanla Ermənistanın qəbul olunmasını təxirə saldınız. Biz də bunu qəbul etdik. Bunun əleyhinə çıxmağa hüququmuz yoxdur. İxtiyar sizin əlinizdədir. İndi 11 dairədə seçkilər keçirmək üçün mənə verilən məlumata görə, hakimiyyət orqanları, Mərkəzi Seçki Komissiyası tərəfindən və dairə seçki komissiyaları tərəfindən lazım olan işlər görülübdür. Siz də – yüksək səviyyəli səfirlər, çox təcrübəli parlament üzvləri buna nəzarət

etməyə gəlmisiniz. Çox gözəl. Nəzarət edin, ondan sonra nəticə çıxarın. Amma əvvəlcədən fikir demək ki, bu belədir, bu belə deyil – mən bunu anlaya bilmirəm. Bizim müvafiq orqanlar bu barədə əllərindən gələni ediblər.

Siz dediniz ki, seçicilərin iştirakı 25 faiz olmalıdır. Qanunda da belə yazılıbdır. Təbiidir ki, əgər seçicilərin 25 faizi seçkiyə gəlməsə, onda seçki etibarlı hesab oluna bilməz. Əgər siz düşünürsünüzsə ki, biz belə yola gedə bilərik, onda mən çox narahat oluram. Sizin bizim haqqımızda nə qədər mənfi fikirləriniz vardır!

Bir sözlə, nə cür istəyirsiniz, o cür də nəzarət edin. Ancaq ədalətli, obyektiv olun və müxalifətin dediklərinin hamısını, necə deyərlər, son həqiqət kimi qəbul etməyin.

Paula Kokkonen: Cənab Prezident, sağ olun. İcazə verin, Azərbaycan üzrə məruzəçi də çıxış etsin.

Heydər Əliyev: Buyursun, buyursun. Bilirəm ki, o məruzəçidir və deyir ki, hər şey ondan asılıdır.

Gilyermo Martinez Kasan (*Avropa Şurası Parlament Assambleyasının Xüsusi Komitəsində məruzəçi, İspaniya parlamentinin üzvü*): Cənab Prezident, hər şey Sizin əlinizdədir, Sizdən asılıdır. Həqiqi və sabit demokratiya quruculuğu hamının işidir. Bu həm hökumətin, həm də müxalifətin vəzifəsidir. Ona görə də hesab etdik ki, bütün müxalifət partiyalarının bu seçkilərdə iştirakı vacib idi, lazım idi. Baxmayaraq ki, onların bir sıra narahatçılıqları və iddiaları, tələbləri vardır.

Biz o tələbləri legitim tələblər hesab edirik. Düşünürük ki, demokratik bir cəmiyyətdə qərarlar hüquqi dövlət çərçivəsində, qanunun aliliyi şəraitində qəbul olunmalıdır. Hesab edirik ki, cəmiyyətdə demokratiyanın qurulması, onun daha da dərin kök atması legitim strukturlar və qanun çərçivəsində, parlament tərəfindən formalaşdırılmalıdır. Çünki biz hesab edirik ki, siyasi partiyalar parlamentdə müzakirələrdə və debat-

larda iştirak etməyəndə, təmsil olunmayanda, bu ona sövq edir ki, onlar qeyri-qanuni hesab etdiyimiz fəaliyyətlə məşğul olmağa başlasınlar, cəmiyyətdə istəklərinə qeyri-qanuni vasitələrlə nail olmağa səy göstərsinlər. Bu da son nəticədə ona gətirib çıxarır ki, cəmiyyətdə sabitlik pozulur. Azərbaycanda bunun baş verməsinə yol vermək olmaz. Biz Avropa Şurasının üzvü olan heç bir ölkəyə imkan verməyəcəyik, şərait yaratmayacağıq ki, Azərbaycanda hər hansı dəyişikliklərə sabitliyin pozulması vasitəsilə nail olmağa can atsın.

Cənab Prezident, çox ümidvar olduğumuzu bildirmək istəyirik ki, iki gündən sonra gələcəyimiz qənaət ondan ibarət olacaqdır ki, Azərbaycan demokratiya məktəbi hesab etdiyimiz Avropa Şurasına üzv qəbul oluna və o dəyərlərdən bəhrələnə biləcəkdir.

Cənab Prezident, xatırlayırsınızsa, keçən dəfəki görüşümüzdə Sizə bunu söyləmişdim. Mən Avropa Şurası Parlament Assambleyasında fəaliyyət göstərən həmkarlarıma bu dəfə də tövsiyə edəcəyəm ki, Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı prosesini ciddi monitorinq altında saxlasınlar. Beləliklə, sizin məxsus olduğunuz Avropa ilə öz ölkəniz arasında olan münasibətlərdə vasitəçilərlə və yaxud hər hansı çətinliklərlə qarşılaşmayasınız.

Cənab Prezident, qarşıdan gələn illər ərzində biz həm Azərbaycan iqtidarı ilə, həm də müxalifəti ilə bəzən lazım ola biləcək sərt tədbirlərin həyata keçirilməsi üçün müzakirələr aparacağıq. Bəzən ağrılı qərarların qəbul olunmasına ehtiyac duyulacaqdır. Amma bu qərarlar cəmiyyətinizin inkişafına xidmət etdiyi üçün onlara nail olmaq lazım gələcəkdir. Xahiş edirəm, bizi özünüzün dostu və həmkarı kimi hesab edəsiniz. Biz gələcəkdə də Sizinlə əməkdaşlıq etmək fikrindəyik və bunu səbirsizliklə gözləyirik.

Hendrik Vagenmakers (*Avropa Şurasında Hollandiyanın səfiri*): Cənab Prezident, mən burada olmağımdan

çox məmnunam və fürsətdən istifadə edərək, qonaqpərvərliyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Bir neçə gündür ki, mən Sizin ölkənizdəyəm. Latviyanın Xarici İşlər nazirini müşayiət edən nümayəndə heyətinin tərkibində buraya gəlmişdim. Bilirsiniz ki, Latviya indi Nazirlər Komitəsinə sədrlik edən ölkədir. Burada olduğum günlər ərzində Azərbaycan dövləti, xalqı barəsində bilgilərimi artırmışam və daha çox məlumat toplamışam. Buraya gələndə özümü Azərbaycan xalqının dostu sayırdımsa, indi daha yaxın dostu hesab edirəm. Eyni zamanda hesab edirəm ki, təkrar seçkilərin nəticələri çox mühümdür. Ümidvaram ki, sabahkı seçkilərin nəticələri azad, ədalətli keçirilmiş seçkilərin nəticələri olacaqdır.

Mən əməkdaşlığımızın çərçivəsini təkcə seçkilərlə məhdudlaşdırmaq istəməzdim. Bundan daha irəliyə baxmaq istərdim. Səfir Aqo və cənab Prezident, Sizin tərəfinizdən toxunulan əməkdaşlığımızın yalnız başlanğıcı məsələsinə istinad etmək istəyirəm. Başqa sözlə desək, söz əməllə sübut olunmalıdır. Ona görə də lütfkarlıq göstərib, bəzi məsələləri bu nümayəndə heyətinə də izah etsəydiniz, Sizə çox minnətdar olardım.

Cənab Prezident, həm təmsil etdiyim hökumət üçün, həm mənim üçün, həm də burada iştirak edən nümayəndə heyəti üçün çox əhəmiyyətli olardı ki, Siz deyəsiniz, Azərbaycanın Avropa Şurasının İnsan Hüquqları Komissiyası tərəfindən qaldırılmış və Azərbaycan üzrə məruzəçi Klerfaytın məruzəsində qeyd olunmuş və Sizin də razı olduğunuz öhdəliklərin həyata keçirilməsini necə təmin edəcəksiniz? Mən xüsusilə siyasi məhbusların işinə yenidən baxmaq məsələsinə dair Azərbaycanın öz üzərinə götürdüyü öhdəliyi necə yerinə yetirəcəyi ilə maraqlanıram. Bu sualı verməyimin səbəbi odur ki, Hollandiyanın Xarici İşlər nazirinə parlamentdə belə sualla müraciət edirlər. Ona görə bu suala cavab verilməsində mən ona yardımçı olmalıyam. Təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Cənab səfir, sağ olun. Siz bu sualı keçən dəfə mənə vermişdiniz. Mən də sizə cavab verdim. Ona görə yenidən təkrar etməyə ehtiyac yoxdur. Amma ümumi olaraq, xüsusən bizim dostumuzun, Azərbaycan üzrə məruzəçinin çıxışından sonra məndə belə bir fikir yarandı ki, siz bizi elə qorxudursunuz ki, biz düşünürük, bəlkə bizim Avropa Şurasına girməyimiz heç lazım deyil? İndidən bizə deyirsiniz ki, sizinlə sərt danışacağıq, biz bunu edəcəyik, onu edəcəyik. Onda gərək biz fikirləşək. Biz indi müstəqil dövlətik. Avropa Şurası da beynəlxalq təşkilatdır. Biz daxil olmaq arzusunda olanda bu təşkilatın tələblərini öz üzərimizə götürürük. Ancaq indi siz bizi qorxudursunuz. Bilmirəm, bu nə məqsəd daşıyır? İstəyirsiniz ki, biz qaçaq? Amma biz qaçan deyilik. Qorxan da deyilik. Nə imkan var, onu edəcəyik.

Mən son 4-5 ayda gələn nümayəndə heyətlərindən, o cümlədən sizdən demokratiya haqqında bir çox mühazirələrə qulaq asıram. Mən başa düşürəm ki, siz hamınız demokratiyanın professorusunuz. Amma biz də hələ birinci sinifdə deyilik. Əgər bizim demokratiya haqqında təsəvvürümüz olmasaydı, demokratiyanın tarixini, onun nə olduğunu bilməsəydik biz özümüzü gətirib bu quruluşa bağlaya bilərdikmi? Sizin hər bir dəyərli tövsiyənizi mən məmnuniyyətlə qəbul edirəm. O cümlədən çalışağacam ki, demokratiya haqqında kitablar oxuyum, gəlim sizin səviyyəyə çatım. Gəlib Sorbonna Universitetində doktorluq dissertasiyası müdafiə edəcəyəm.

Mən sizinlə zarafat edirəm. Sizə bir söz deyə bilərəm ki, biz demokratiya yolu ilə gedirik və gedəcəyik – siz ya başqası istəsə də, istəməsə də. Amma demokratiya prosesdir. Demokratiyanın əvvəli var, axırı yoxdur. Mən hesab etmirəm ki, siz də demokratiya sahəsində dağın zirvəsinə çatmısınız. Biz sizə görə dağın ətəyindəyik. Amma hələ siz də getməlisiniz. Biz çalışacağıq ki, sizdən daha sürətlə gedək və ürəyimizi, əzələlərimizi möhkəmlədəcəyik ki, sürətimiz artanda buna dözə

bilək. Amma buna tamam çata bilmərik. Çünki bunun üçün zaman lazımdır. Ona görə gəlin, belə ümumi razılaşın ki, biz demokratiya ailəsindəyik. Amma hər ailədə hamı bir boyda deyildir. Hər atanın, ananın uşağı da eyni ağılda deyil və eyni təcrübəyə malik deyildir. Bildiyimizi edirik, bilmədiyimizi öyrənirik. Sizin tövsiyələriniz də bizə xeyir verir.

P a u l a K o k k o n e n: Cənab Prezident, heç də hesab etmirik ki, yalnız stolun bu tərəfində oturanlar həqiqəti deyən adamlardır. Bizim ölkələrimizin bəziləri düzənlik ölkələridir, orada dağ da yoxdur ki, dağa çıxa bilək. Hesab edirəm ki, hamımızın bir məqsədi var – gözlərimizi açaraq və düşünərək bu xeyirxah işdə iştirak etmək.

Cənab Prezident, görüşümüzün sonunda bütün nümayəndə heyətləri adından Sizə bir daha təşəkkürümüzü bildirərək, bir xahişimizi yetirmək istəyirik. Keçən dəfə biz Sizinlə seçkidən dərhal sonra, mətbuat konfransına gedəndən sonra görüşmüşdük. Xahiş edirik, bu dəfə mümkünsə, bu işi tərsinə edək. Seçkidən sonra Sizin üçün münasib vaxtda, mətbuat konfransından əvvəl görüşək, fikirlərimizi birinci Sizə bildirək. Başqa sözlə, bizim fikirlərimiz barədə mətbuatdan, televiziyadan yanlış məlumat almayasınız.

H e y d ə r Ə l i y e v: Bilirsiniz ki, ayın 8-də mənim işim çoxdur. Ayın 9-da Rusiyanın prezidenti cənab Putin buraya rəsmi səfərə gəlir. Biz bir neçə sənəd üzərində işləyirik. Ona görə ayın 8-i mənim üçün çox gərgin gündür. Amma sizinlə qısa bir görüş keçirə bilərəm.

P a u l a K o k k o n e n: Cənab Prezident, nümayəndə heyətlərinin başçılarından ibarət kiçik bir qrupla görüşünüzə gələcəyik. Çox sağ olun.

ALMANİYA FEDERATİV RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

6 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Siz burada məni çox gözləməli oldunuz. Amma yəqin ki, bunun səbəbini bilirsiniz. Mən Avropa Şurasının böyük bir nümayəndə heyəti ilə görüşürdüm. Hesab edirdim ki, onlardan 2-3 nəfər danışacaq, lakin çoxları danışdı. Ona görə də mən gecikdim və siz də gözləməli oldunuz. Xahiş edirəm, üzrlü hesab edəsiniz.

F o l k e r R ü h e *(Almaniya Federativ Respublikası parlamentinin üzvü, Xristian Demokrat İttifaqı (Xristian Sosial İttifaqı Fraksiyasının sədr müavini)*: Cənab Prezident, səmimi qəbul üçün Sizə öz minnətdarlığımızı bildiririk. Avropa Şurasına tamhüquqlu üzv kimi daxil olmaq və Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək sahəsində Sizin çətinliklərinizi vardır. Biz Sizi dəstəkləyirik və bu sahədə səylərinizi bəyənirik. Təbii ki, Sizinlə bərabər avropalılar da xeyli çalışmalıdırlar, əziyyət çəkməlidirlər.

Avropa çox böyük qitədir. Dünya müharibəsindən sonra xoşagələn cəhət var ki, Avropa, ümumiyyətlə, birləşməyə doğru meyllidir. Biz istəyirik ki, bu birləşmədə Sizin regionun Avropanın bir hissəsi olduğu bir daha təsdiq edilsin. Ölkənizdəki sabitlik Azərbaycanın Avropa Şurasına daxil olması üçün önəmli amillərdən biridir. Şəxsən Sizə öz minnətdar-

lığımızı bildiririk ki, Siz regionda sabitliyin təminatçısı sayılırsınız. Bu vəziyyət – iki dövlət arasındakı müharibədə yaradılmış atəşkəs və dinclik Avropaya yaxınlaşmaqda çox mühüm amildir.

Biz sabah Sumqayıta gedəcəyik, orada qaçqınların vəziyyəti ilə tanış olacağıq. Mən Almaniyada anadan olmuşam. Bizim ölkənin vaxtilə 7 milyon qaçqını var idi. Mən bunun şahidi olmuşam. Ölkənizlə müqayisə etsək təqribən eyni nisbət yaranır. Sizin ölkənizdə 8 milyon əhalinin 1 milyonu qaçqındırsa, vaxtilə Almaniyada 60 milyon əhalinin 7 milyonu – təqribən 10 faizi qaçqın olmuşdur.

Mənim fikrimcə, Ermənistan–Azərbaycan münaqişəsini sülh müqaviləsi bağlamaqla yoluna qoymaq olar. Biz bu istiqamətdə bacardığımızı etməyə çalışmalıyıq.

H e y d ə r Ə l i y e v: Sizə təşəkkür edirəm. Birincisi, mən məmnunam ki, bizim ölkəmizə gəlmisiniz. Almaniya ilə Azərbaycanın çox yaxşı münasibətləri vardır. İqtisadi əlaqələrimiz də pis deyildir. Əsas odur ki, Almaniyanı Avropada biz dost ölkə kimi qəbul edirik.

1996-cı ildə mənim Almaniyaya rəsmi səfərim oldu. Orada çox gözəl görüşlər keçirdik. Bəzi sənədlər imzaladıq. Doğrudur, indi sizdə hökumət dəyişilib.

F o l k e r R ü h e: Əvvəlki hakimiyyət bu gün müxalifətdədir.

H e y d ə r Ə l i y e v: Elədir. Ölkələrimizin parlamentləri arasında əlaqələr yaxşı idi. Qeyd etmək istəyirəm ki, son iki ildə Almaniya ilə Azərbaycan arasındakı əlaqələr əvvəlki kimi intensiv deyil. Doğrusu, bu da məni narahat edir. Daha sıx əlaqələr yaratmağa bizim ehtiyacımız vardır.

Siz Ermənistan–Azərbaycan münaqişəsi haqqında danışdınız. Bilirsiniz ki, bu məsələnin sülh yolu ilə həll edilməsi üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu təşkil olunubdur. Almaniya da Minsk qrupunun üzvüdür. Doğrudur, indi Minsk

qrupunun fəaliyyətini əsasən həmsədrlər – Rusiya, ABŞ, Fransa həyata keçirirlər.

1995-1996-cı illərdə bizim bu sahədə Almaniya hökuməti ilə çox geniş əlaqələrimiz olubdur. Xarici İşlər naziri cənab Kinkel Azərbaycana gəlmişdi və o, Ermənistanda da olmuşdu. O vaxt Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün bəzi cəhdlər göstərilirdi. Mən istərdim ki, bu münasibət davam etsin. O illərdə sizin ölkənin parlamentindən də Bakıya çoxlu nümayəndələr gəlirdilər.

Xatirimdədir, cənab Vimmer buraya çox tez-tez gəlirdi. O, gərək ki, sizin parlamentdə Azərbaycan–Almaniya Dostluq Cəmiyyətinin sədri idi. Elədirmi?

F o l k e r R ü h e: Bəli.

H e y d ə r Ə l i y e v: Siz bilirsiniz, cənab Yasper Vik burada səfirlikdə işləyibdir, Azərbaycanda təcrübə toplayıbdır. Biz sizə kadr vermişik.

F o l k e r R ü h e: O burada aldığı biliyin bəhrəsini görür. Biz bir müddət əvvəl onunla birlikdə Amerika Birləşmiş Ştatlarında olmuşuq, prezident cənab Buşla görüşmüşük. Biz bilirik ki, Rusiya prezidenti cənab Putinin Azərbaycana səfəri gözlənilir.

H e y d ə r Ə l i y e v: Çox məmnunam ki, siz Sumqayıta gedəcəksiniz, qaçqınlarla görüşəcəksiniz. Oradakı qaçqınların şəraiti başqa yerlərdəkinə nisbətən yaxşıdır. Qaçqınlarımızın çoxu çadırlarda yaşayırlar. Bakıda, Sumqayıtda, başqa şəhərlərdə biz onları müxtəlif binalarda yerləşdirmişik. Amma hamısına bu cür şərait yaratmağa imkanımız yoxdur. Ona görə də qaçqınların çoxu çadırlarda yaşayır. Təsəvvür edin, 8 il çadırlarda yaşamaq nə qədər çətindir.

Qeyd etdiniz ki, sizdə də qaçqınlar olubdur. Amma fərq çox böyükdür. Çünki sizin ölkənizin iqtisadi imkanları genişdir. Sizin ölkədə qaçqınlar müharibədən sonra Şərqi Almaniyadan gələnlər idi?

F o l k e r R ü h e: Bəli, İkinci dünya müharibəsindən sonra gələnlər idi.

H e y d ə r Ə l i y e v: Müharibədən sonra sizin ölkəniz çox inkişaf etdi. Marşal planı, başqa planlar Avropada böyük işlər gördü.

Biz istəyirik ki, Ermənistan–Azərbaycan münaqişəsi sülh yolu ilə həll edilsin. Ancaq bu, beynəlxalq normalar, Helsinki paktı, ATƏT-in və Birləşmiş Millətlər Təşkilatının prinsipləri əsasında olmalıdır.

Bu da o deməkdir ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmalıdır. Ölkəmizin ərazisinin 20 faizi onların işğalı altındadır. Bir milyon qaçqın işğal olunmuş həmin torpaqlardan çıxarılmışdır. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş qərar əsasında Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək dərəcəli özünüidarəetmə hüququ verilə bilər. Çox təəssüf ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutub. Buna görə də indiyədək biz məsələni həll edə bilmirik. Bu bizim üçün böyük problemlər yaratmışdır. Amma Ermənistan tərəfi də bundan zərər çəkir. Bu onların iqtisadiyyatına çox mənfi təsir göstərir. Əgər Ermənistanla Azərbaycan arasında sülh yaransa, yollar açılsa, ticarət başlansa Ermənistan bundan çox şey qazanar. Hər halda, biz bu yolda çalışırıq və bundan sonra da çalışacağıq. Avropanın, o cümlədən Almaniyanın bu barədə bizə kömək göstərməsinə ehtiyacımız vardır.

F o l k e r R ü h e: Cənab Prezident, Ermənistanla Azərbaycan arasında sülh əldə edilməsində Rusiyanın rolu da qeyd olunmalıdır. Mən birincisi, Rusiyanın bu məsələdə mövqeyini bilmək istərdim. İkincisi də, bilmək istərdim ki, Putinin Bakıya gözlənilən səfəri zamanı bu münaqişənin həllinə müəyyən təkan vermək olarmı?

H e y d ə r Ə l i y e v: Təbiidir ki, prezident Putinin Azərbaycana səfəri zamanı biz bu məsələni müzakirə edəcəyik. Amma hansı nəticə əldə olunacağı barədə mən heç nə deyə bilmərəm. Mən bunu deyə bilərəm ki, Rusiyanın bu barədə, həmin məsələni həll etmək üçün daha çox imkanları vardır. Çünki Rusiya Ermənistanla çox sıx əlaqə saxlayır. Rusiya Ermənistana çox geniş iqtisadi yardım göstərir. Onlar hətta hərbi sahədə əməkdaşlıq edirlər. Biz ümid edirik ki, Rusiya da, Amerika Birləşmiş Ştatları da, Fransa da həmsədrlər kimi, bundan sonra daha səmərəli işləməlidirlər.

BEYNƏLXALQ TƏŞKİLATLARIN – AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ, ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN, PARLAMENT ASSAMBLEYASININ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN «AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏTİ

Prezident sarayı

8 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, bilirəm ki, siz çox gərgin işləmisiniz. Dünən də, gecə də işləmisiniz. Bilmirəm, istirahət etməyə vaxtınız olub, yoxsa yox, hər halda, mən bilirəm ki, siz çox gərgin işləmisiniz. Amma istirahət edə bilmisiniz, ya edə bilməmisiniz – bu sizin öz işinizdir.

Sizinlə keçən görüşümüzdə çox ətraflı söhbət etdik və belə razılığa gəldik ki, seçkilər qurtarandan sonra bir də görüşəcəyik. Buyurun.

P a u l a K o k k o n e n (*ATƏT-in Parlament Assambleyasının müşahidə missiyasının rəhbəri, Finlandiya parlamentinin üzvü, ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi*): Cənab Prezident, sağ olun. Gərgin iş cədvəlinizin olmasına, çox mühüm qonaqların səfəri ilə əlaqədar hazırlıq işləri görməyinizə baxmayaraq, vaxt tapıb bizi qəbul etdiyinizə görə bütün nümayəndə heyətlərinin adından Sizə təşəkkür edirəm. Mən şadam ki, noyabrın 5-də keçirilmiş seçkilərdən sonrakı

görüşümüzlə müqayisədə Sizinlə bugünkü görüşə daha xoş ovqatla gəlmişik. Sizinlə keçən dəfəki görüşümüz zamanı söylədik ki, çoxlu işlər görməyinizdən xəbərimiz vardır. Bizdə belə bir ümumi rəy vardır ki, sizin gördüyünüz tədbirlər, işlər dünən öz müsbət nəticəsini göstərdi. Müəyyən çatışmazlıqların olmasına baxmayaraq, dünənki ab-hava, əhval-ruhiyyə noyabr ayındakından xeyli fərqli idi. Demək olar ki, bütün məntəqələrdə müşahidəçiləri dostcasına, xoş məramla qarşılamışlar. Başqa sözlə desək, yuxarıdan aşağılara verdiyiniz göstərişlər, tapşırıqlar yerli işçilərə yaxşı çatmışdır. Seçkilər barədə fikirlərini və rəylərini sizinlə bölüşmək üçün indi sözü həmkarlarıma vermək istərdim.

Andreas Gross (*Avropa Şurası Parlament Assambleyasının seçkiləri müşahidə üzrə xüsusi komitəsinin sədri, İsveçrə parlamentinin üzvü*): Cənab Prezident, çox sağ olun. Minnətdarıq, bizə belə bir imkan verdiniz ki, seçki ilə əlaqədar mətbuat konfransı vasitəsilə deyil, öz rəyimiz, düşüncələrimiz və gəldiyimiz qənaət barədə birbaşa Sizə məlumat verək. Mən üç məqamı xüsusi vurğulamaq istəyirəm.

Birincisi, prezident tərəfindən xoş məramın göstərilməsi və 11 dairədə yenidən seçkilərin keçirilməsi iqtidarın xoş məramından xəbər verirdisə, dünənki seçkilər onu göstərdi ki, Azərbaycanda yaxşı seçkilər keçirmək mümkündür.

Təkrar seçkilərin keçirilməsi üçün prezidentin iradəsinin, prezidentin müdaxiləsinin olmasını ona görə xüsusi vurğulayıram ki, bu, Azərbaycanda dövlət təsisatlarına etimadın, inamın güclənməsi istiqamətində çox mühüm addım olmuşdur.

İkincisi, mən şəxsi müşahidələrim nəticəsində özlüyümdə bir daha təsdiq etdim və belə qənaətə gəldim ki, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması istiqamətində göstərdiyim səylər doğru, düzgün idi və bu işdə yanılmamışdım. Eyni zamanda mən bir daha bu qənaətə gəldim və fikirlərim təsdiqləndi ki, respublikanız Avropa Şurasına

tamhüquqlu üzv qəbul edildikdən dərhal sonra, gərək Avropa Şurasının Parlament Assambleyası Azərbaycandakı prosesləri nəzərində saxlamaq üçün tezliklə xüsusi monitorinq qrupu yaratsın.

Cənab Prezident, bizimlə dəfələrlə keçirdiyiniz görüşlər zamanı əməkdaşlıq ruhunu bizlərə necə izah etdinizsə və biz, yəni Avropa Şurasından buraya gəlmiş şəxslər buna necə birdəfəlik inandıqsa, istərdik ki, gələcəkdə yaranacaq monitorinq qrupu ilə də, AŞ-nın Sizinlə bu müzakirələrimizdə bilavasitə iştirak etməyən digər təmsilçiləri ilə də əməkdaşlıq ruhunun olmasını təmin edəsiniz. O insanlar da Azərbaycanın həqiqətən düzgün yolda olduğunu görsünlər və bu, Avropa Şurası Parlament Assambleyasının həm Sizə, həm də Azərbaycana, onun dövlətinə inamının, etimadının daha da artmasına gətirib çıxarsın.

Mən monitorinq barədə fikir söylədim, amma bir cəhəti də aydınlaşdırmalıyam. Monitorinq deyərkən, mən Avropa Şurasından gələcək nümayəndə heyətinin sizlərə nəzarəti həyata keçirməsini nəzərdə tutmuram. Bu, sadəcə, Avropa Şurası ilə Azərbaycan arasında demokratiya yolunda əməkdaşlıq üçün birgə səylərin göstərilməsi olacaqdır.

Cənab Prezident, üçüncüsü, mən dünən baş verənləri bir növ sabahkı hadisə ilə uzlaşdıraraq Sizə belə bir sualla müraciət etmək istəyirəm. Rusiyanın prezidenti cənab Putin Sizin ölkənizə səfər edəcəkdir. Siz Dağlıq Qarabağ münaqişəsinin həllində cənab Putinin və Rusiyanın fəal rolunun təmin olunması üçün onlar tərəfindən hansı işlərin görülməsini istəyəcəksiniz? Bu barədə bizə nə deyə bilərsiniz ki, Avropa Şurasının Parlament Assambleyası tərkibində gələcəkdə biz də Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həll edilməsinə təşkilatın üzvü olan ölkələr çərçivəsində öz töhfəmizi verə bilək.

P a u l a K o k k o n e n: Cənab Prezident, icazənizlə, biz öncə bütün suallarımızı deyək, sonra Siz cavab verəsiniz.

Heydər Əliyev: Buyurun.

JerarŞtudman (ATƏT-*in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru)*: Cənab Prezident, hesab edirəm ki, 11 dairədə seçkilərin yenidən keçirilməsi barədə Sizin verdiyiniz qərar düzgün idi. Bu bir daha onu göstərdi ki, Sizin Avropa Şurasına üzv olmağa və ATƏT-lə yaxından əməkdaşlığa yönəldilmiş siyasətiniz və bu yolda gördüyünüz tədbirlər doğru imiş. Dünənki seçkilər Azərbaycan ilə daha sıx təmaslarımızı genişləndirmək, demokratiyanın inkişaf etdirilməsi üçün Sizinlə əməkdaşlığımızı möhkəmləndirmək baxımından ruhlandırıcı bir hadisə oldu.

Burada deyildiyi kimi, biz dünən keçirilmiş təkrar seçkilərdə bir sıra irəliləyişlərin olduğunu müşahidə etdik. Bu irəliləyişlər xüsusilə Mərkəzi Seçki Komissiyasının fəaliyyətinə, namizədlərin qeydə alınması, müvafiq şikayətlərə baxılması istiqamətində görülmüş işlərə aiddir. Bu, xarici müşahidəçilərə münasibətdə, seçki məntəqələrində onlara lazımi şərait yaradılması və ümumiyyətlə, seçkilərin keçirilməsində təşkilati məsələlərdə də özünü göstərdi. Şübhəsiz ki, bunların hamısı Sizin tərəfinizdən verilmiş göstərişin açıq-aşkar nəticəsi idi.

Beləliklə, biz belə qənaətə gəlmişik ki, dünən 11 dairədə əldə edilmiş uğurlara, nəticələrə gələcək seçkilər zamanı bütün dairələrdə nail olmaq mümkündür. Seçkilərlə əlaqədar yuxarıdan göstərişlər verilmişdi, amma buna baxmayaraq, bizdə belə məlumatlar var ki, müəyyən məntəqələrdə həmin göstərişlərə əməl edilməmişdir. Bəzi yerli icra orqanlarının və seçki komissiyalarının nümayəndələri özləri təşəbbüs göstərmiş, müəyyən addımlar atmışlar. Halbuki, bilirik ki, Sizin verdiyiniz göstərişlərdə belə hallar yolverilməz hesab edilirdi.

Bizim məlumatımıza görə, belə hallar da var ki, bəzən səslər iki dəfə sayılıb, seçki qutularına əlavə saxta bülletenlər doldurulub, rüşvətxorluq halları olubdur. Seçki komissiyasının üzvləri təzyiqə məruz qalmışlar, yəni müvafiq namizədi

dəstəkləmək barədə dairə seçki komissiyasının sədri tərəfindən verilmiş göstərişi yerinə yetirmədiyinə görə komissiya üzvləri işdən, vəzifəsindən azad edilmişlər.

Şübhəsiz ki, sadaladıqlarım əvvəlki seçkilərlə müqayisədə indiki seçkilərin irəliləyiş olduğuna heç cür kölgə salmır. Deyilənləri tam təfərrüatı ilə izləyə bilməmişik. Sadəcə, bu cür ittihamlar olubdur, səslənibdir. Bunların konkret olaraq hansı halları əhatə etdiyini bilmirik. Lakin xahiş edərdik ki, prokurorluq orqanları bunları araşdırıb lazımi tədbirlər görsünlər. Xüsusən, Sumqayıt seçki dairəsində.

Bu çatışmazlıqlar barədə biz Mərkəzi Seçki Komissiyasının sədrinə məlumat vermişik və demişik ki, ona yardımçı olmağa hazırıq. Eyni zamanda Sizin müvafiq işçilərinizə də yardım göstərməyə hazır olduğumuzu bildirirəm. Bir daha təkrar edirəm ki, sadaladığım nöqsanlar seçkilərlə əlaqədar hamımızda yaranmış müsbət fikrə kölgə salmamalıdır. Sağ olun.

P y e t r o E r k o l e A Q O (*Avropa Şurası Nazirlər Komitəsinin «AQO» monitorinq qrupunun rəhbəri, Avropa Şurasında İtaliyanın səfiri*): Cənab Prezident, beynəlxalq müşahidəçilərin gəldiyi rəylər ilə tanış olduqdan, o cümlədən xanım Kokkonenin, cənab Qrossun, cənabŞtudmanın söylədiklərindən sonra mən də bir daha əmin oldum və bizim özümüzün də gəldiyimiz qənaət belədir ki, yanvarın 17-də Avropa Şurası Azərbaycanın bu təşkilata qəbul edilməsi üçün müsbət qərar verə bilər. Hesab edirik ki, təkrar seçkilər uzun sürən prosesə, yəni Azərbaycanın Avropa Şurasına qəbul olunması prosesinə öz müsbət töhfəsini vermişdir.

Bizdə olan məlumata görə, Siz yaxın zamanlarda böyük amnistiya keçirməyi planlaşdırırsınız. Hesab edirik ki, bu tədbiri Azərbaycanın Avropa Şurasına qəbul edilməsi ilə əlaqələndirsəniz çox yaxşı olardı. Yanvarın 17-nə qədər bizə, Avropa Şurasına xəbər verilsəydi ki, yaxın zamanlarda belə bir tədbir planlaşdırılır və bu addım Azərbaycanın Avropa

Şurasına qəbul olunması şərəfinə atılacaqdır, bu bizim ümumi işimizə də yardımçı olardı və biz bunu alqışlayardıq.

Gilyermo Martinez Kasan (*Avropa Şurası Parlament Assambleyasının Xüsusi Komitəsində Azərbaycan üzrə məruzəçi, İspaniya parlamentinin üzvü*): Cənab Prezident, əgər xatırlayırsınızsa, Sizinlə axırıncı görüşümüzdə söyləmişdim ki, bu seçkilər nəticəsində müşahidəçilərin gəldiyi qənaət müsbət olarsa, onda Azərbaycan üzrə məruzəçi kimi, mən Avropa Şurasının Nazirlər Komitəsinə və Parlament Assambleyasına tövsiyə edəcəyəm ki, ölkənizi AŞ-a tamhüquqlu üzv kimi qəbul etmək lazımdır. İndi mən belə bir addımı atacağam. Həmçinin tövsiyə edəcəyəm ki, Azərbaycana dərhal monitorinq prosedurları da tətbiq edilsin və biz bu monitorinqi Azərbaycandan Avropa Şurasında təmsil olunacaq hörmətli deputatlarla bərabər həyata keçirəcəyik. Avropa Şurasında olacaq nümayəndə heyətinizin üzvlərindən bəziləri ilə mən iki gün öncə şam süfrəsi arxasında görüşmək şərəfinə nail oldum. Onlardan bəziləri ilə çox yaxından tanış oldum. Xüsusən çox hörmətli bir şair ilə, o, deputat və Müsavat Partiyasının üzvüdür.

Cənab Prezident, ümidvar olduğumu bildirmək istəyirəm ki, gələcəkdə Sizin sayənizdə Azərbaycanda parlament seçkiləri və digər seçkilər daha demokratik şəraitdə keçiriləcəkdir. Bu seçkilərdə Azərbaycanın həm iqtidar qüvvələri, həm də müxalifətdə təmsil olunan qüvvələr, siyasi partiyalar tam tərkibdə iştirak edə biləcəklər. Beləliklə, Azərbaycan öz demokratiyası ilə Ümumavropa evimizə, demokratiyamıza öz töhfəsini verəcəkdir. Bütün bunlara nail olmaq üçün biz hər zaman Sizin sərəncamınızdayıq.

Paula Kokkonen: Cənab Prezident, Sizə bir daha çox-çox təşəkkür edirik. Əgər gələcəkdə ehtiyacınız olarsa, bizim hamımız Sizin xidmətinizdəyik. Fikir verdinizsə, biz bu gün geniş məruzə etmədik.

H e y d ə r Ə l i y e v: İndiyə qədər hamısını etmisiniz. Yəqin ki, gələn dəfəyə qədər yeni mövzular hazırlayacaqsınız.

Hörmətli qonaqlar, dostlar!

Verdiyiniz məlumata görə sizə təşəkkür edirəm. Dünən keçirilən təkrar seçkilər haqqında sizin ümumən müsbət fikrə gəlməyiniz məni sevindirir. Biz bir neçə dəfə görüşərkən demişik ki, demokratiya daim inkişafda, daim hərəkətdə olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir.

Mən bir neçə dəfə demişəm və yenə də deyirəm ki, bu təkmilləşmə təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir. Əgər siz hesab edirsinizsə ki, dünənki seçkilərdə Azərbaycanın hakimiyyət orqanları, Mərkəzi Seçki Komissiyası, yerli seçki orqanları irəliləyiblərsə, bu, təbiidir ki, mənim sözlərimi təsdiq edir.

Mənə dedilər ki, bu seçkilərdə seçicilərin 48 faizi iştirak edibdir. Hesab edirəm ki, bu, böyük göstəricidir. Əgər nəzərə alsanız ki, bu, təkrar seçkilərdir və keçən dəfə mən dediyim kimi, ümumxalq seçkiləri deyil, belə bir rəqəmin olması onu göstərir ki, hər halda, seçicilər seçkilərə maraq göstəriblər və etinasız olmayıblar.

Mən bir neçə dəfə demişəm ki, noyabrın 5-də keçirilən seçkilərdə qüsurlar, səhvlər olmuşdur və bunlar az deyildi. Ona görə də Mərkəzi Seçki Komissiyası və Konstitusiya Məhkəməsi 11 dairədə seçkilərin nəticələrinin ləğv edilməsi haqqında qərar çıxartdı. Amma, ümumiyyətlə, mən noyabrın 5-dəki seçkilərə tam mənfi qiymət verilməsi ilə razı deyiləm. Parlamentin əksəriyyəti seçilibdir, parlament işləyir, bir çox partiyaları, qüvvələri təmsil edir. Amma bir də deyirəm, səhvlər, nöqsanlar, təbii ki, olmuşdur. Bu müddətdə siz də bizə çox kömək etdiniz. Biz özümüz də nöqsanlarımızı dərindən təhlil edə bildik. Ona görə də indi siz etiraf edirsiniz ki, irəliləyiş var və bundan sonra da ola bilər. Əsas odur ki, Azərbaycan de-

mokratiya yolu ilə gedir və bundan sonra bu yolla gedə bilər. Bizim gələcəkdə də sizin yardımınıza ehtiyacımız olacaqdır.

Siz dediniz ki, monitorinq yaratmaq istəyirsiniz. Yaradın. Mən elə başa düşürəm ki, Avropa Şurasına girməklə daim monitorinq altında olacağıq. Amma güman edirəm, bir zaman gələr ki, biz də həddi-büluğa çatarıq və monitorinqə ehtiyac olmaz. Çünki ailədə uşaq böyüyənə qədər ata-anası ona çox nəzarət edir. Amma övlad böyüyüb müstəqil yaşayanda, müstəqil işləyəndə valideynlərinin ona nəzarət etməsinə ehtiyac olmur. Mən belə başa düşürəm ki, Avropa Şurası Azərbaycana münasibətdə çox qayğıkeş və diqqətli «valideyn» olacaqdır.

Paula Kokkonen: Cənab Prezident, Siz dediklərinizi mən başa düşdüm. Sadəcə, bilmirəm, doğrudan da elə olacaqdır, yoxsa yox. Hətta uzun müddətdən bəri demokratik şəraitdə yaşayan ölkələrdə də biz cənnətdə deyilik.

Heydər Əliyev: Siz cənnətdə yaşamırsınızsa, bizim cənnətə çatmağımıza, görünür, hələ vaxt var. Biz də çalışacağıq ki, çataq.

Mən sizə bir də təşəkkür edirəm. Siz dediniz ki, Azərbaycan artıq Avropa Şurasına daxil ola bilər. Təbii ki, biz bunu çox böyük hadisə kimi qarşılayırıq və çalışacağıq ki, Avropa Şurası ailəsində əla oxuyan olmasa da, yaxşı oxuyan bir tələbə olaq.

Cənab Qross məndən sabahkı səfər haqqında soruşdu. Təbiidir ki, bu, Rusiya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Mən bu barədə vaxtından əvvəl bir şey demək istəmirəm və deyə də bilmərəm. Ancaq onu deyə bilərəm ki, bizim danışıqlarımızda, söhbətlərimizdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması xüsusi yer tutacaqdır. Cənab Qross soruşdu ki, biz onlardan nə qopara biləcəyik? İndiyə qədər ATƏT-in Minsk qrupundan hələ bir şey qopara bilməmişik. Minsk qrupuna rəh-

bərlik edən Rusiyadır, Amerika Birləşmiş Ştatlarıdır, Fransadır. Altı ildən artıqdır ki, atəşkəs rejimində yaşayırıq. Sülh danışıqları aparırıq. Sülh yaratmaq istəyirik. Amma Ermənistanın qeyri-konstruktiv mövqeyi belə nəticəyə gəlməyə imkan vermir.

Təbiidir ki, mən çalışacağam Rusiya hökumətinin bu sahədə fəaliyyətinin artırılması haqqında öz fikirlərimi ifadə edim. Amma eyni zamanda Avropa Şurası bizim üzərimizə çox böyük vəzifələr qoyduğu kimi, indi biz də Avropa Şurasından bu məsələnin həll olunması üçün təsirli tədbirlər görməsini arzu edirik. Ona görə ümidvar olduğumu bildirmək istəyirəm ki, Avropa Şurası bu sahədə fəaliyyətini dünyaya sübut edə bilər. Münaqişə 12 ildir davam edir. Azərbaycanın torpaqları işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı zorla çıxarılıbdır. Bu ədalətsizliyə, nəhayət, son qoyulmalıdır. Ona görə kim bizə bu barədə kömək etsə, ola bilər ki, biz ona tarix boyu minnətdarlıq edəcəyik. Təsirli bir iş görmüş olsa, o cümlədən də Rusiyaya. Avropa Şurası, yaxud ATƏT bu barədə öz fəaliyyətini gücləndirə bilsə – onlara. Hər şey bu təşkilatlardan və bu ölkələrdən asılıdır.

Mən ümidlə yaşayıram. Hesab edirəm ki, nəhayət, beynəlxalq birlik belə vəziyyətə son qoyulması üçün ciddi tədbirlər görməlidir. Sizə bir daha təşəkkür edirəm. Yenidən Azərbaycana gəlin. Təkcə monitorinq üçün yox, sadəcə, qonaq kimi gəlin və Azərbaycanın reallığını həmişə görün.

P a u l a K o k k o n e n: Cənab Prezident, mən də Sizə çox təşəkkür edirəm. İcazə verin, mən mətbuat üçün hazırladığımız məlumatın bir nüsxəsini və bizim müşahidəçilərin ilkin rəyini Sizə təqdim edim. Bundan əlavə, bir halda biz mühazirələrdən çox danışdıq, mən Sizə demokratiya barədə bir kitab da bağışlamaq istəyirəm və istərdim ki, növbəti görüşümüzdə bu məsələ barədə fikir mübadiləsi aparaq.

H e y d ə r Ə l i y e v: Mən gərək bunu oxuyam, sonra sizə imtahan verəm?

P a u l a K o k k o n e n: Xahiş edirəm. Nə qədər vaxt istəyirsinizsə, onunla məşğul ola bilərsiniz. Sizin üçün test tezliklə olmayacaqdır. Cənab Prezident, bu testin, imtahanın nə zaman keçirilməsi qərarını Siz özünüz verəcəksiniz. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Prezident sarayı

9 yanvar 2001-ci il

Ali qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək respublikamıza gəldiyinə görə cənab Putinə minnətdarlığını bildirdi, Azərbaycanın böyük Şimal qonşusu olan Rusiya Federasiyasının Prezidentinin ölkəmizə ilk rəsmi səfərini tarixi hadisə kimi qiymətləndirdi.

Azərbaycan və Rusiya xalqları arasında əlaqələrin, ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərinin qədim tarixi olduğunu xatırladan prezident Heydər Əliyev Rusiyanın dövlət başçısının yeni əsrin, üçüncü minilliyin birinci ilində xaricə ilk rəsmi səfərini məhz respublikamıza etməsindən çox razı qaldığını söylədi.

Cənab Putinlə əvvəllər keçirdiyi görüşlərdən, apardığı danışıqlardan və aralarında yaranmış şəxsi dostluq münasibətlərindən məmnunluqla bəhs edən respublikamızın rəhbəri əmin olduğunu bildirdi ki, bu rəsmi səfər ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da inkişaf etdirilməsində yeni mərhələ açacaqdır.

Özünə və Rusiya nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlıq edən prezident Vladimir Putin siyasətdə və dövlətçilik fəaliyyətində

böyük təcrübəsi olan prezident Heydər Əliyev ilə yenidən görüşmək, hər iki ölkəni maraqlandıran məsələlər barəsində ətraflı fikir mübadiləsi aparmaq imkanından məmnunluq duyduğunu bildirdi.

Dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçən söhbət zamanı dövlət başçıları ikitərəfli əməkdaşlığın bütün sahələrinə, habelə regional və beynəlxalq problemlərə, hər iki ölkəni narahat edən terrorçuluğa, separatçılığa və ekstremizmə qarşı birgə mübarizə məsələlərinə toxundular.

Dövlət başçıları Qafqazda, o cümlədən Cənubi Qafqazda vəziyyət barədə geniş fikir mübadiləsi apardılar. Qafqazda mövcud olan münaqişələrin regional təhlükəsizlik və strateji sabitlik, xalqların əmin-amanlığı və ölkələrin normal inkişafı üçün ciddi əngəl olduğunu vurğulayan prezidentlər problemin həlli sahəsində əməkdaşlığın zəruriliyini bildirdilər. Təkcə Qafqazda deyil, ümumən MDB məkanında ən uzun sürən münaqişə olan Ermənistan–Azərbaycan münaqişəsinin ölkəmiz üçün ağrılı nəticələrindən söhbət açan prezident Heydər Əliyev dedi ki, müxtəlif səbəblər üzündən ərazimizin 20 faizinin işğal olunmasına, bir milyon vətəndaşımızın yerindən-yurdundan zorla didərgin salınmasına baxmayaraq, Azərbaycan tərəfi məsələnin sülh yolu ilə həllinə çalışır. Lakin 1994-cü ildə atəşkəs əldə olunmasına, ATƏT-in Minsk qrupunun fəaliyyətinə, BMT-nin bir neçə qətnamə qəbul etməsinə, Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqların keçirilməsinə baxmayaraq, münaqişə hələ də həll olunmamış qalır. Bunun da əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqe tutması, əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ bölgəsinə iddiasından əl çəkməməsidir. Prezident Heydər Əliyev vurğuladı ki, Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiyanın fəaliyyətinin gücləndirilməsi münaqişənin həllində mühüm rol oynaya bilər.

Münaqişənin tezliklə aradan qaldırılmasının vacibliyini vurğulayan Rusiya prezidenti nə müharibə, nə də sülh vəziyyətinin

uzun müddət davam edə bilməyəcəyini nəzərə çatdırdı. Cənubi Qafqaz bölgəsi ilə Rusiya Federasiyasının sıx əməkdaşlığına bu münaqişənin maneçilik törətdiyini xatırladan cənab Putin Azərbaycan prezidenti Heydər Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın birbaşa danışıqlarının müsbət nəticələr verəcəyinə əmin olduğunu söylədi.

Görüşdə prezidentlər Azərbaycan–Rusiya əməkdaşlıq sənədlərinin, xüsusilə də Bakı bəyannaməsi, Xəzərin statusu ilə bağlı birgə bəyanat, eləcə də hökumətlərarası səviyyədə müzakirə edilən məsələlər barəsində öz açıq, konstruktiv mövqelərini bildirdilər.

Azərbaycan prezidenti Heydər Əliyev ötən il noyabrın 25-də respublikamızın bəzi bölgələrində baş vermiş zəlzələdən zərər çəkənlərə Rusiyanın humanitar yardım göstərməsinə görə prezident Vladimir Putinə təşəkkür etdi.

Prezident Vladimir Putin Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiya məkanında böyük bazarı olduğunu bildirərək, aqrar sahədə ənənəvi əlaqələrin bərpasının vacibliyini söylədi. Rusiya rəhbəri yanacaq-enerji, xüsusilə də hasilat, nəqletmə, habelə metallurgiya, aqrar sənaye sahəsində əməkdaşlığın perspektivlərindən danışdı.

Ölkələrimiz arasında ticarət-mal dövriyyəsinin genişləndirilməsinin zəruriliyini nəzərə çatdıran prezidentlər bu sahədəki mövcud imkanlardan səmərəli istifadə edilməsinin vacib olduğunu vurğuladılar. Rusiya prezidenti Vladimir Putinin fikrincə, Azərbaycanla gəmiçilik, yüngül və elektrotexnika, əczaçılıq, quşçuluq sənayesi və digər sahələrdə əməkdaşlığın da böyük perspektivləri vardır.

Prezidentlər sərhəd məsələsi, hərbi sahədə əməkdaşlıq barədə də fikir mübadiləsi apardılar. Görüşdə Rusiya Federasiyasının bir sıra regionları ilə Azərbaycanın birbaşa əlaqələri, su ehtiyatlarının qorunması və onlardan səmərəli istifadə edilməsi, mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri də diqqət mərkəzində oldu. Tərəflər Rusiya investorlarının

Azərbaycan iqtisadiyyatına daha geniş surətdə sərmayə qoymasının vacibliyini də nəzərə çatdırdılar.

Dövlət başçıları belə bir cəhəti də vurğuladılar ki, hazırda Azərbaycanda çoxsaylı rus icması, Rusiyada isə azərbaycanlı icması yaşayır və onlar hər iki ölkənin inkişafına öz töhfələrini verirlər. Prezident Vladimir Putin Azərbaycanda yaşayan rusların ölkənin tamhüquqlu vətəndaşları kimi öz milli adət və ənənələrini qoruyub saxlaması, bütün səviyyələrdə ana dilində təhsil ala bilməsi üçün hər cür imkan yaradılmasından məmnun qaldığını söylədi və prezident Heydər Əliyevin bu sahədə xidmətlərini yüksək dəyərləndirdi.

Görüşdə Qafqazda sabitliyin və qarşılıqlı etimadın möhkəmləndirilməsi üçün Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiyanın dövlət başçılarının birgə görüşü təcrübəsinin davam etdirilməsinin zəruriliyi vurğulandı.

Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti Heydər Əliyevi Moskvaya rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN–RUSİYA NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN DANIŞIQLARI

Prezident sarayı

9 iyun 2001-ci il

H e y d ə r Ə l i y e v: Rusiya Federasiyasının cənab Prezidenti, çox hörmətli Vladimir Vladimiroviç, hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Rusiya Federasiyası Prezidentinin Azərbaycana rəsmi səfəri başlanmışdır. Vladimir Vladimiroviç, mən Sizi bu səfərlə əlaqədar ürəkdən salamlayıram. Mənim dəvətimi qəbul edib və təbii olaraq, Azərbaycanda bir çox adamların arzularını nəzərə alıb Azərbaycana rəsmi səfərə gəldiyinizə görə, dərin təşəkkürümü bildirmək istəyirəm.

Desəm ki, bu səfər tarixi əhəmiyyətə malikdir, mübaliğəyə yol vermiş olmaram. Çünki Azərbaycan dövlət müstəqilliyi qazandığı və Sovet İttifaqının süqutundan sonra Rusiya öz suverenliyini elan etdiyi vaxtdan bəri Rusiya Federasiyasının dövlət başçısının Azərbaycana səfəri olmayıbdır. Bəlkə də bunun üçün hansısa səbəblər olmuşdur, buna baxmayaraq, bu bizim üçün mühüm amildir və ona görə də biz çox istəyirdik ki, belə bir səfər baş tutsun. İndi Vladimir Vladimiroviç Putin bu səfəri həyata keçirir. Biz onunla MDB tərkibində, MDB-nin Dövlət Başçıları Şurasında birgə işimiz və ikitərəfli görüşlərimiz zamanı kifayət qədər yaxşı tanış olmuşuq, yaxınlaşmışıq və bütün məsələlərdə çox böyük qarşılıqlı anlaşmaya gəlmişik. Biz Vladimir Vladimiroviçlə iki saatdan çox təkbətək söhbət etdik. Əlbəttə, çoxları, o cümlədən də nümayəndə heyətləri-

nin üzvləri yəqin düşünürlər ki, görəsən nə barədə danışdıq. Lakin biz hər şeydən əvvəl ikitərəfli münasibətləri bütün sahələrdə, bütün istiqamətlərdə daha da inkişaf etdirməyin zəruriliyindən danışdıq. Bəri başdan deyim ki, biz müzakirə etdiyimiz bütün məsələlərdə ümumən qarşılıqlı razılığa gəldik. Bu isə Rusiya prezidentinin Azərbaycana səfərinin mühüm nəticəsi kimi, məndə dərin məmnunluq doğurur. Biz Qafqazda vəziyyətdən, ümumi qayğımızdan – Qafqazda münaqişələrin aradan qaldırılmasından, terrorizmlə, ekstremizmlə, separatizmlə mübarizəni gücləndirməyin zərurliyindən danışdıq. Əlbəttə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ümumən həlli məsələsi söhbətimizdə geniş yer tutdu. Sözün düzü, şadam ki, burada bu məsələdən belə açıq, ətraflı söhbət getməsinə, eyni zamanda ona kifayət qədər diqqət yetirilməsinə və bu məsələ barəsində fikir mübadiləsi aparılmasına uzun illərdən bəri bəlkə də ilk dəfə imkan yaranmışdır.

Sənədlər, ilk növbədə Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlər haqqında Bakı bəyannaməsi və Xəzər dənizinin statusu haqqında birgə bəyanatımız hazırlanmışdır. Hökumətlərarası xarakter daşıyan və böyük əhəmiyyətə malik olan bir sıra sənədlər də hazırlanmışdır. Hesab edirəm, biz prezidentlə söhbət edərkən, nümayəndə heyətləri üzvlərinin də olduqca çox məsələləri, o cümlədən hazırlanmış sənədlərlə bağlı məsələləri müzakirə etməyə yəqin ki, imkanları olmuşdur.

Hesab edirəm ki, bu gün imzalayacağımız Bakı bəyannaməsinin layihəsi son dərəcə mühüm, tarixi əhəmiyyətə malik sənəddir. Bu bəyannamə Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin bugünkü gününün reallığını və ikitərəfli münasibətlərlə bağlı məsələlərdə, həm beynəlxalq, həm də regional xarakterli bir çox digər məsələlərdə, o cümlədən də münaqişələrlə bağlı məsələlərdə və s. mövqelərimizi əks etdirir. Zənnimcə, Xəzər dənizi haqqında birgə bəyanat çox böyük əhəmiyyətə malikdir. Xəzər dənizinin statusu məsələsi,

məncə, artıq 7-8 ildir müzakirə edilir. Lakin, təəssüf ki, çoxsaylı müzakirələr nəticələr verməmişdir. Mən bunu xüsusi vurğulamaq istəyirəm, məhz Vladimir Vladimiroviç Rusiya Federasiyasının Prezidenti seçildikdən sonra məsələnin həlli baxımından bu istiqamətdə fəallaşma üçün şərait yaranmışdır. Əlbəttə, bu mənada biz bir çox məsələlərə, o cümlədən də beş Xəzəryanı ölkənin maraq göstərdiyi Xəzərin statusu kimi belə mühüm məsələyə Vladimir Vladimiroviçin məhz aydın və konkret surətdə realist münasibətini görürük. Bir çox illər ərzində müzakirə edilmiş, debatlar aparılmış, yerindən tərpənməmiş bir sıra məsələlər indi irəlilədilmişdir. Burada mən Vladimir Vladimiroviç Putinin böyük xidmətlərini bir daha və yenidən qeyd etmək istəyirəm.

Qazaxıstanla imzalanmış birinci sənəd artıq bu məsələni irəlilətmişdir. Hazırlanmış olan və bu gün imzalayacağımız sənəd də bu məsələni daha da irəlilədəcəkdir. Yəni biz Xəzərin statusunun müxtəlif beynəlxalq forumlarda və s. çoxsaylı müzakirələrin mövzusu olmaması üçün onun da həllinin reallığını görürük. Ən başlıcası budur ki, biz – Xəzəryanı ölkələr Xəzər dənizindən tam razılıqla, hər bir Xəzəryanı ölkənin xeyrinə istifadə edə bilək. Ona görə də mən bu məsələyə çox böyük əhəmiyyət verirəm, o mənada ki, bu bəyanat indiki halda nəinki ikitərəfli xarakter daşıyır, həm də bütün Xəzəryanı ölkələr üçün olduqca böyük əhəmiyyətə malikdir.

Mən aramızda olan söhbətdən son dərəcə məmnunam və bu səfərə görə bir daha təşəkkür etmək istəyirəm və düşünürəm ki, Vladimir Vladimiroviç söhbətimiz haqqında daha ətraflı danışacaqdır. Qonaq kimi sözü sizə verirəm.

V l a d i m i r P u t i n: Heydər Əliyeviç, çox sağ olun. Dəvətə görə və çox səmimi qarşılanmağımıza görə mən ilk növbədə Sizə və azərbaycanlı dostlarımıza və həmkarlarımıza təşəkkür etmək istəyirəm. Biz elə ilk dəqiqələrdən nəinki danışıqlar aparılmasına, həm də konkret nəticələr əldə edil-

məsinə özümüzdə çox böyük həvəs və hazırlıq duyduq. Heydər Əliyeviç, biz Sizinlə son vaxtlar kifayət qədər müntəzəm və tez-tez görüşmüşük, fikir mübadiləsi aparmaq imkanına malik olmuşuq. Lakin bütün bunlar rəsmi danışıqların və səfərlərin çərçivəsindən kənar idi. Siz dediniz ki, bu gün Rusiya rəhbəri son on ildə Azərbaycana ilk dəfə səfərə gəlmişdir. Mən öz tərəfimdən, Rusiya rəhbərliyi adından Sizi Rusiya Federasiyasına rəsmi cavab səfərinə dəvət etmək istərdim.

Biz Azərbaycanla münasibətlərin inkişafına ciddi əhəmiyyət veririk. Mənə elə gəlir ki, bunun üçün bütün imkanlarımız var. Azərbaycan prezidenti ilə razıyam ki, biz Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə, özü də fəaliyyətimizin bütün istiqamətlərində yeni səhifə açа bilərik. Biz müzakirələrə regionda münasibətlərin ümdə məsələlərindən biri olan Qarabağ probleminin nizama salınmasından başladıq.

Biz iqtisadi məsələlərə də kifayət qədər böyük diqqət yetirdik. Nəzərə çatdırdıq ki, biz ötən il ərzində əmtəə dövriyyəsinin 25 faiz artdığını müşahidə edirik. Bu, yaxşı meyldir, amma qarşılıqlı iqtisadi əlaqələrin səviyyəsi hələlik hər iki dövlətin nə imkanlarına, nə də mənafelərinə hər halda uyğun deyildir. Odur ki, bu istiqamətin həlli barədə lazımınca düşünülməli olan məsələlər var.

Son vaxtlar siyasi dialoqumuz kifayət qədər intensiv və zənnimcə, həm də çox məzmunlu olmuşdur. Rusiya və Azərbaycanın hüquq-mühafizə orqanlarının terrorizmə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə səmərəli qarşılıqlı fəaliyyətini ayrıca qeyd etmək istərdim. Hörmətli Heydər Əliyeviç, fürsətdən istifadə edərək, Dağıstanda yaşayış evlərinin partladılmasında əli olmuş şəxslərin Rusiyaya verilməsinə görə Sizə və bütün Azərbaycan rəhbərliyinə təşəkkür etmək istərdim. Terrorçular öz fəaliyyətini nə ilə pərdələsələr də, layiqli cəzalarını çəkməlidirlər. İndiki halda isə hətta dini şüarlarla pər-

dələnməyin də mənası yoxdur, çünki onların terror aktının qurbanları Dağıstan müsəlmanları olmuşlar. Mən Sizi əmin etmək istəyirəm, bunu Sizə təkbətək görüşdə də demişdim, təbii ki, heç bir qisas olmayacaqdır. Demokratik Rusiyada hər şey, o cümlədən də məhkəmə prosedurları demokratik yolla, açıq proses çərçivəsində gedir, həmin adamların hamısının vəkilləri var, lehinə və əleyhinə olan bütün dəlillər diqqətlə araşdırılacaq və yalnız bundan sonra hökm çıxarılacaqdır.

Demək istərdim ki, biz bilirik, cinayətkarlar Rusiyaya verildikdən sonra Sizə qarşı, şəxsən Sizə qarşı terror aktları törədiləcəyi barədə unvanınıza hədə-qorxular gəlməyə başladı. Siz qorxmadınız, cəsarət və möhkəm xarakter göstərdiniz. Mən Azərbaycanın bütün rəhbərliyinə minnətdarlığımı bildirdim, lakin başa düşürük ki, bu qərar üçün məsuliyyət şəxsən Sizin üzərinizə düşür. Mən buna görə Sizə şəxsən təşəkkür etmək istəyirəm.

İndi də ticarət-iqtisadi əməkdaşlıq haqqında. İcazə verin, bir qədər ətraflı danışım. Biz Hökumətlərarası Qarşılıqlı Ticarət-İqtisadi Əlaqələr Komissiyasının fəaliyyətinə böyük ümidlər bəsləyirik. Bu yaxınlarda biz Sizinlə telefonla danışarkən mən Azərbaycanın və Rusiyanın işgüzar dairələrinin nümayəndələrini bu komissiyaya daxil etmək təklifini irəli sürdüm. Biz öz təkliflərimizi verməyə hazırıq. Mən belə başa düşdüm ki, Siz bu təklifə ümumən müsbət münasibət göstərdiniz. Belə isə, biz bu barədə Sizin təkliflərinizi də gözləyirik. Mənə elə gəlir ki, işgüzar dairələrin nümayəndələri hesabına komissiyanın genişləndirilməsi onun işinə böyük dinamizm verərdi. Komissiyanın işini məhz bu istiqamətdə dəyişdirməyin zəruriliyi barədə Siz indicə ikitərəfli görüşümüzdə danışdınız.

Rusiya Azərbaycanla yanacaq-enerji kompleksi sahəsində ən sıx əməkdaşlığa tərəfdardır. Bu həm neftin hasilatına, emalına, həm də nəql edilməsinə aiddir. Öz tərəfimizdən biz

bütün lazımi şərait və imkanları, o cümlədən maddi-texniki imkanları yaradır və ümid edirik ki, bu sahədə işimiz uzunmüddətli perspektiv üçün nəzərdə tutulacaqdır. Ümidvarıq ki, azərbaycanlı həmkarlarımız da bu baxımdan məhz belə mövqe tutacaqlar. Bu, ilk növbədə, neftin Novorossiyskədək marşrutla nəqlinin həcminə aiddir.

İqtisadi əməkdaşlıq sahəsində digər perspektivli problemlər də var, məsələn, söhbət Azərbaycanın sənaye obyektlərinin – metallurgiya, energetika və aqrar sənaye kompleksinin modernləşdirilməsində və yenidən qurulmasında Rusiya müəssisələri və şirkətlərinin iştirakından gedir. Biz elektroenergetikada əməkdaşlığı işləyib hazırlaya, Azərbaycanın və Rusiyanın elektrik enerjisi sistemlərinin paralel işini təşkil edə bilərik. Əvvəllər, hələ sovet dövründə əlaqələr pis deyildi, istər əvvəlki səviyyənin bərpasında, istərsə də elektroenergetika sahəsində Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafında ümumən və bütövlükdə perspektivlər var.

Rusiya Azərbaycanın kənd təsərrüfatı məhsullarının ənənəvi satış bazarıdır. Bununla yanaşı, Azərbaycan Rusiyadan bir sıra mühüm ərzaq məhsulları idxal edir. Düşünürəm ki, Rusiyaya nübar meyvə və faraş tərəvəz ixracı, Rusiyanın ərzaq mallarının Azərbaycana göndərilməsi, əvvəllər olduğu kimi, yenə də qarşılıqlı və faydalı əməkdaşlığın mühüm istiqamətlərindən birinə çevrilə bilərdi.

Bakı metropoliteninin yenidən qurulmasında, qatarların və avadanlığın bir hissəsinin dəyişdirilməsində Rusiya müəssisələrinin iştirakını biz iqtisadi baxımdan çox perspektivli hesab edirik. Zənnimcə, maliyyə məsələlərinə dair qarşılıqlı məqbul qərarlar tapmaq mümkündür. Təbii ki, belə layihələrdə bu, həmişə birinci dərəcəli problem olur. Artıq indinin özündə mütəxəssislər deyirlər ki, əgər biz əməli işlərə başlasaq, onda bu istiqamətdə müəyyən qərarlar tapa, onların reallaşdırılması üzərində düşünə bilərik.

Bizim müəssisələr gəmiqayırma sahəsində əməkdaşlıq proqramlarının həyata keçirilməsinə, Azərbaycanda quşçuluq müəssisələrinin bərpasına, əczaçılıq sənayesinin və yüngül sənayenin ikişafına, kənd təsərrüfatı məhsullarının emalı, elektrotexnika cihazlarının istehsalı üzrə müştərək müəssisələrin təşkilinə maraq göstərirlər.

Rusiya biznesi Azərbaycanın alüminium sənayesi müəssisələrinin bərpasında və modernləşdirilməsində iştirak etməyə hazırdır. Bilirəm ki, bu sahədə artıq bəzi qərarlar var. Lakin biz ümidimizi itirmirik ki, dialoqu davam etdirmək mümkün olacaqdır.

Son illərdə, demək olar, əməkdaşlıq etmədiyimiz bir sahədə də müsbət meyllər əmələ gəlmişdir. Mən hərbi əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tuturam. Biz Rusiya Federasiyasının Müdafiə naziri marşal İqor Dmitriyeviç Sergeyevin Azərbaycana səfərini və bu səfər zamanı imzalanmış sənədləri müsbət qiymətləndiririk. Biz Azərbaycan–Rusiya sərhəd əməkdaşlığı məsələlərinin necə həll olunduğunu ümumən müsbət qiymətləndiririk. Ümidvarıq ki, Azərbaycan tərəfi sərhəd məsələləri üzrə əməkdaşlıq haqqında sazişi yaxın vaxtlarda ratifikasiya edəcəkdir. Sizinlə bir az əvvəl razılığa gəldiyimiz kimi, dövlət sərhədinin delimitasiyası haqqında danışıqları davam etdirmək vacib olacaqdır.

Zənnimizcə, Rusiya Federasiyası regionlarının və Azərbaycanın əməkdaşlığı qarşılıqlı fəaliyyətin mühüm sahəsidir. Mənə elə gəlir ki, həmin sahədə əməkdaşlığı nə qədər çox genişləndirsək, bu əməkdaşlıq daha konkret, daha səmərəli olacaq və əhalinin tələblərinə daha yaxşı cavab verəcəkdir. Çünki regional əməkdaşlıq həmişə ilk növbədə hər iki ölkə əhalisinin tələbatını ödəyir.

Biz Rusiya və Azərbaycanın sərhəd rayonları arasında, habelə su ehtiyatlarından səmərəli istifadə olunması və onların mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişin bağlanma-

ğa hazırlanmasını sürətləndirməyi məqsədəuyğun hesab edirik. Məncə, bu barədə düşünməyə dəyər. Bu, çoxsahəli xarakterə malik saziş ola bilər. Xoş məram olan təqdirdə isə – mən bilən, bu, bütün tərəflərdə var – müsbət nəticə əldə etmək olar.

Biz mədəniyyət sahəsində qarşılıqlı əlaqələrə böyük əhəmiyyət veririk. Heydər Əliyeviç, mən burada şəxsən Sizə bir daha müraciət etmək və Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafına, rus dilinin dəstəklənməsinə və inkişafına diqqət göstərdiyinizə görə təşəkkürümü bildirmək istərdim. Mənə məlumdur ki, hələ sovet dövründə Bakıda olan məktəblərin əslində hamısı fəaliyyət göstərir və rus dilinin inkişaf bazası qorunub saxlanılır. Bu, Azərbaycan rəhbərliyinin münasibəti bir daha göstərir ki, əməkdaşlığımız həqiqətən gələcəyə istiqamətlənmişdir.

H e y d ə r Ə l i y e v: Təkcə məktəblər deyil, ali məktəblərin fakültələri də fəaliyyət göstərir.

V l a d i m i r P u t i n: Yəni rus dilinin tətbiq sahəsi məhdudlaşmır. Bu, həqiqətən onu göstərir ki, biz münasibətlərin inkişafı üçün yaxşı bazaya malikik. Ümid edirik ki, mədəniyyət və incəsənət bundan sonra da münasibətlərimizin birləşdirici vəsiləsi olacaqdır.

Rusiya və Azərbaycan Qafqaz ölkələridir. Ona görə biz Qafqazın sülh, mehriban qonşuluq və tərəqqi regionuna çevrilməsinə xüsusi diqqət yetiririk. Qafqaz dördlüyü mexanizminin işə salınmasında Azərbaycan tərəfi ilə qarşılıqlı fəaliyyəti müsbət qiymətləndiririk. Biz, Qafqaz dövlətlərinin rəhbərləri dördlükdə bir neçə dəfə yığışıb görüşmüşük. Mənə elə gəlir ki, bu cür praktikanı davam etdirmək olardı. Hər halda, regionda yaranmaqda olan vəziyyət barədə məsləhətləşmələr, məsləhətləşmənin özü, görüş artıq müsbət səmtə istiqamətlənmişdir.

Azərbaycanla yeni, konstruktiv əlaqələrə, o cümlədən bütövlükdə Qafqazda vəziyyətin dördlük çərçivəsində açıq müzakirəsi vasitəsilə əlaqələrə ümid bəsləyirik. Əminik ki, bu forum regionda təhlükəsizliyin möhkəmlənməsinə və əməkdaşlığın inkişafına münasibətlərin razılaşdırılması mərkəzi olmalıdır və mərkəz ola bilər.

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan üçün nə dərəcədə ağrılı olduğunu biz tamamilə başa düşürük. Biz bu problem ətrafında vəziyyətin inkişafını son dərəcə diqqətlə izləyirik, onun nizama salınmasında real tərəqqinin olmamasından ciddi narahatıq. 10 ilə yaxındır normal həyat çərçivəsindən bir növ kənarda qalan çoxsaylı qaçqınların taleyinə biganə olmaq mümkün deyildir. Bununla əlaqədar bəyan etmək istərdim ki, Qarabağ düyününün tezliklə açılması yollarını tapmaq məqsədi ilə Rusiya öz səylərini həm müstəqil surətdə, həm də Minsk qrupunda həmsədrlik çərçivəsində davam etdirəcəkdir. Hər şeydən əlavə, nə müharibə, nə də sülh kimi səciyyələndirilə biləcək vəziyyətin uzun sürməsi Azərbaycanla da, Ermənistanla da, Cənubi Qafqazın digər ölkələri ilə də münasibətlərimizin inkişafına əngəl törədir, bütövlükdə regional əməkdaşlığın qaydaya salınmasına real maneələr yaradır. Hesab edirəm ki, sülhə doğru yolda bizim hamımızı hələ xeyli çətinliklər gözləyir. Buna baxmayaraq, qarşılıqlı surətdə məqbul razılaşmaya nail olmaq imkanı, zənnimcə, qalmaqdadır. Hörmətli Heydər Əliyeviç, bu baxımdan biz Ermənistan prezidenti Robert Köçəryanla Sizin birlikdə apardığınız birbaşa dialoqa böyük ümidlər bəsləyirik. Biz Sizin müdrikliyinizə də, Ermənistan tərəfinin konstruktiv mövqeyinə də inanırıq. Sizə deməliyəm ki, hər iki tərəfin razılığı olarsa, Rusiya həm vasitəçi kimi, həm də əldə edilə biləcək razılaşmaların təminatçısı kimi çıxış edə bilər və çıxış edəcəkdir. Əlbəttə ki, bu mürəkkəb münaqişəyə cəlb olunmuş bütün tərəflərin mənafelərini gözləmək şərti ilə.

Biz əminik ki, əlbəttə, beynəlxalq birliyin köməyi ilə bu problemi başqa heç kim yox, ona cəlb olunmuş tərəflərin məhz rəhbərləri həll edə bilərlər. Yalnız sonra razılaşmaları nəzərə almaqla və onların olması şərti ilə vasitəçilər işə qoşula və lazımi kömək göstərə bilərlər. Təkrar edirəm, Sizinlə danışdığımız kimi – gizlətmirəm, Heydər Əliyeviçlə biz bu problem üzərində kifayət qədər ətraflı dayandıq – artıq indinin özündə bu birgə işə fəal qoşulmağa hazırıq. Bizim məqsədimiz qaliblər və məğlublar olmadan sülh əldə edilməsinə kömək göstərməkdir. Düşünürəm ki, bu cür formul tamamilə məqbuldur və ona nail olmağa çalışmaq lazımdır.

Heydər Əliyeviçin dediyi kimi, biz Xəzərin hüquqi statusu problemləri barəsində Rusiyanın və Azərbaycanın mövqelərinin yaxınlaşdırılmasına böyük diqqət yetirdik. Həqiqətən, bu problem artıq kifayət qədər çoxdan müzakirə olunur və onun çoxtərəfli planda həll ediləcəyini gözləmək, görünür, hələlik məqsədəuyğun deyildir. Çoxtərəfli səyləri davam etdirmək, əlbəttə, məsləhətləşmələri və görüşləri davam etdirmək lazımdır. Əgər bu gün biz ikitərəfli səviyyədə nə barədəsə razılığa gəlmək imkanına malikiksə, bu razılaşmalar hər iki tərəf üçün məqbuldursa, onlara nail olmaq gərəkdir.

Hər şeydən əvvəl öz milli mənafelərinin qorunmasında ifadəsini tapmış konstruktiv mövqeyinə görə biz Azərbaycan rəhbərliyinə çox minnətdarıq. Lakin bu fikirdəyik ki, əldə etdiyimiz razılaşmalar məqbuldur, Rusiyanın da mənafelərinə tamamilə uyğundur. Etirazınız yoxdursa, mən belə başa düşdüm ki, Siz razısınız, zənnimcə, Türkmənistan rəhbərinin təşəbbüsünü dəstəkləmək və yaxın vaxtlarda, fevralın axırları – martın əvvəllərində Xəzəryanı dövlətlərin Türkmənistanda görüşünü keçirmək olar.

Heydər Əliyev: Bəli, əlbəttə.

Vladimir Putin: Görünür, həmkarlarımızla məsləhətləşmələr keçirmək, hamı üçün əlverişli vaxt seçmək və

Türkmənistan rəhbərini dəstəkləmək lazımdır. Heydər Əliyeviç, söyləmək istədiklərim təxminən bu qədərdir və əgər bizim həmkarlarımızın, yaxud Sizin həmkarlarınızın arzusu varsa, onlara bir neçə söz demək imkanı verə bilərik.

H e y d ə r Ə l i y e v: Vladimir Vladimiroviç, ilk öncə Rusiyaya rəsmi səfərə gəlmək dəvətinə görə sizə təşəkkür etmək istəyirəm. Mən bunu yüksək qiymətləndirirəm və düşünürəm ki, son vaxtlar Rusiya Federasiyası ilə Azərbaycan arasında artıq təşəkkül tapmaqda olan münasibətlər də, şəxsi münasibətlərimiz, təmaslarımız da, Rusiyanın və Azərbaycanın müxtəlif nazirlikləri və baş idarələri rəhbərlərinin çoxsaylı işgüzar əlaqələri də dəvətinizi həyata keçirməyə zəmin yaradır və hesab edirəm ki, bu cür görüşlər Rusiya–Azərbaycan münasibətlərinin inkişafını intensivləşdirəcəkdir.

Azərbaycanda bu yaxınlarda baş vermiş zəlzələyə həssas, diqqətcil münasibətinizə görə və artıq Rusiyadan göndərilmiş humanitar yardıma görə Sizə təşəkkür etmək istəyirəm. Bu, zəlzələdən zərər çəkmiş adamlar üçün də böyük əhəmiyyətə malikdir, lakin, şübhəsiz, ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərini də səciyyələndirir.

Rusiya–Azərbaycan münasibətləri haqqında söylədiyiniz bütün fikirlərlə mən tamamilə razıyam. Biz bu barədə təkbətək görüş zamanı danışdıq və mən burada şərh etdiklərinizi tamamilə başa düşürəm. Hesab edirəm ki, bu həm Rusiya tərəfinin, həm də Azərbaycan tərəfinin mövqeyidir.

Düşünürəm ki, müvafiq baş idarələrimiz, nazirliklərimiz artıq əlavə göstərişlər gözləmədən, haqqında razılığa gəldiyimiz bütün işləri, öz çıxışınızda şərh etdiyiniz məsələləri həyata keçirməlidirlər. Bütövlükdə Qafqaz barəsində səylərimizin əhəmiyyətini bir daha nəzərə çatdırmaq istəyirəm. Qafqaza birbaşa aidiyyatı olan dörd ölkənin – Rusiyanın, Ermənistanın, Gürcüstanın, Azərbaycanın prezidentlərinin görüşlərinin sizin tərəfinizdən bünövrəsi qoyulmuş praktikası bu baxım-

dan çox böyük əhəmiyyətə malikdir. Təbii olaraq, bu səylərin daha konkret nəticələr verməsi üçün münaqişələri – bizim üçün ilk növbədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, eləcə də Qafqazın digər zonalarındakı münaqişələri həll edə bilməyimiz çox vacibdir.

Təəssüf, Qafqaz elə bir region olmuşdur ki, burada böyük və kiçik münaqişələr daha çoxdur. Buna görə də Qafqazın müqəddəratı, Qafqazın gələcəyi, təbii olaraq, bizim, yəni Qafqaz ölkələri rəhbərlərinin üzərinə xüsusi məsuliyyət qoyur. Düşünürəm ki, biz bu sahədə səylərimizi davam etdirməliyik.

İqtisadi münasibətlərimizin inkişaf etdirilməsi haqqında təkliflәriniz bizim üçün böyük əhəmiyyətə malikdir. Bəli, əmtəə dövriyyəsi, sizin dediyiniz kimi, 25 faiz artmışdır. Amma ümumi səviyyə Rusiya və Azərbaycan üçün, şübhəsiz, kifayət deyildir. Sadəcə, vurğulamaq istəyirəm ki, bu əmtəə dövriyyəsində Rusiyanın ixracı üstün yer tutur, Azərbaycanın ixracı isə çox cüzidir. Bu nəyi göstərir? Əvvəla, onu göstərir ki, Rusiya bu işi, hər halda, daha yaxşı aparır. Görünür, biz bu imkanlardan kifayət qədər istifadə etmirik. Lakin bununla yanaşı, Siz düz dediniz ki, çox istiqamətlər var, əgər biz onlardan lazımınca istifadə etsək, əmtəə dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasına nail ola bilərik. Bu baxımdan Sizin konkret təkliflәriniz nəzərdən keçiriləcəkdir. Məsələn, mən hesab edirəm, onlar Azərbaycan üçün, eləcə də, təbii ki, Rusiya Federasiyası üçün də faydalı olacaqdır.

Regionların əməkdaşlığı barədə söylədiyiniz fikrin də müstəsna əhəmiyyəti var. Sizə tarixi xatırlatmaq istəyirəm, Rusiya Federasiyası regionlarının və Azərbaycanın iqtisadi əməkdaşlıq arzusu bir neçə il əvvəl yaranmışdır. Lakin deməliyəm ki, federasiyanın Azərbaycana yaxın olan bəzi subyektləri belə əməkdaşlığa təşəbbüs göstərdikdə və biz bunu dəstəkləndikdə, bu, Rusiyanın mərkəzi hökuməti tərəfindən ağrılı və hətta etirazla qarşılandı.

V l a d i m i r P u t i n: Heydər Əliyeviç, nə etmək olar, bu xəstəliyə tutulublar...

H e y d ə r Ə l i y e v: Mən bunu ona görə nəzərə çatdırıram ki, onu artıq indi Siz təklif edirsiniz. Qujvin buradadır, yəqin xatırlayır, biz onu dəvət etdikdə, o buraya gəldi. Biz saziş hazırladıq və birdən Moskvadan göstəriş gəldi, soruşdular ki, niyə belə oldu, axı bu barədə razılıq yoxdur, filan şey barədə razılıq yoxdur və sair. Buna baxmayaraq, biz əməkdaşlığı həyata keçiririk. Dağıstanla da belədir, Rusiya Federasiyasının digər subyektləri ilə də. Bu məsələdə sizin rəyiniz bizim rəyimizlə tamamilə uyğun gəlir, çünki Rusiya çox böyük ölkədir, federasiyanın subyektlərinin, federasiyanın hər bir subyektinin, hətta bizə yaxın olan subyektinin iqtisadi potensialı bəzən Azərbaycanın iqtisadi potensialına bərabərdir.

V l a d i m i r P u t i n: Heydər Əliyeviç, sözünüzü kəsdiyimə görə üzr istəyirəm, amma bir baxın, qarşılıqlı iqtisadi əlaqələrimizin səviyyəsi kifayət qədər deyildir. Qarşılıqlı ticarətin həcmi təxminən üç yüz milyon dollardır, Kuba ilə qarşılıqlı ticarətimizin həcmi isə bir milyard dollardan artıqdır, təqribən bir milyard 200 milyon dollardır. Kuba hara, Rusiya hara, lakin qarşılıqlı ticarətimizin həcmi bir milyard dolları keçmişdir.

Belarusla əmtəə dövriyyəsi 9,4 milyard dollardır, yaxın qonşumuz, ənənəvi əlaqələrimiz olan Azərbaycanla isə cəmi 300 milyon dollardır. Bu hətta qeyri-normaldır...

H e y d ə r Ə l i y e v: Bu qeyri-normaldır, ancaq bununla yanaşı, demək istəyirəm ki, Rusiya xarici ticarət dövriyyəmizdə birinci yeri tutur. Digər ölkələr buna qısqanclıqla yanaşırlar ki, niyə Rusiya birinci yerdədir. Rusiyanın birinci yerdə olması qanunauyğundur. Təkrar edirəm, Rusiya çox böyük ölkədir, böyük iqtisadi potensiala malikdir. Lakin təəssüf ki, bütün bunlar hələlik ticarət xətti ilə gedir. Biz istərdik ki,

Azərbaycana sərmayələr qoyulsun. Məsələn, siz neft sənayesinin inkişaf strategiyası barədə siyasətimizi bilirsiniz. Biz Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının birgə işlənilməsi üçün bir çox xarici firmaları cəlb etmişik. Demək istəyirəm ki, Rusiyanın «LUKoyl» şirkətinin xüsusi çəkisi Amerika Birləşmiş Ştatlarından və Böyük Britaniyadan sonra üçüncü yeri tutur.

V l a d i m i r P u t i n: Halbuki Vahid Ələkbərov kimi rusiyalı sahibkar ikinci, birinci yeri tuta bilərdi.

H e y d ə r Ə l i y e v: İstəyirəm ki, bunu bilsinlər, açığını deyək, bəzən Rusiyada, mətbuatda, başqa yerlərdə deyirlər ki, nə üçün Azərbaycan ancaq Qərb ölkələrinə istiqamət götürür, nə üçün ancaq Qərb ölkələri sərmayə qoyurlar? Biz nə qədər demişik – kim sərmayə qoya bilirsə, qoy gəlsin. Vahid Ələkbərov, «LUKoyl» bunu lap əvvəldən edə bildi. Axı 1994-cü ildə imzalanmış birinci müqaviləmizdə 11 şirkət iştirak edir, iştirak payının 10 faizi «LUKoyl»a məxsusdur. Bu müqavilədən «LUKoyl» indi mənfəət götürür. Ondan sonra daha dörd müqavilədə iştirak edir. Yeri gəlmişkən, böyük qaz ehtiyatlarının aşkara çıxarıldığı «Şahdəniz» yatağının işlənilməsində də iştirak payının 10 faizi «LUKoyl»a məxsusdur. Lakin açığını deyəcəyəm, qoy heç kəs düşünməsin ki, Ələkbərovun Azərbaycana aidiyyatı var, biz bütün şirkətləri dəvət edirik. Bir mərkəzi neft şirkəti – onun kimə məxsus olduğunu bilmirəm, hər halda, ona Şafrannik başçılıq edirdi – çox zəngin yataqlardan birinə maraq göstərirdi. Onlar Şotlandiyanın neft şirkəti ilə birləşərək, müqavilə imzaladılar. Sonra isə bir il əvvəl onlar bütün bunları Hollandiyanın «Şell» şirkətinə satdılar. Biz ki təqsirkar deyilik. İndi, Sizin səyləriniz sayəsində Rusiya iqtisadiyyatının yüksəlişdə olduğu vaxtda Azərbaycana sərmayə qoymaq üçün imkan var. Buna görə də çalışacağıq ki, əmtəə dövriyyəsi artsın. Lakin bununla yanaşı,

əlbəttə, arzu edərdik ki, böyük imkanlara malik olan Rusiya Azərbaycana da böyük sərmayələr qoya bilsin.

Bir daha demək istəyirəm ki, söylədiklərinizin hamısı bizim ümumi rəyimizdir. Mən bunu tamamilə dəstəkləyirəm və razılaşmalarımızın, imzalayacağımız Bakı bəyannaməsində şərh olunanların həyata keçirilməsi üçün hər şey edəcəyik. Bir daha demək istəyirəm ki, biz Rusiya ilə bütün sahələrdə qarşılıqlı münasibətlərin inkişafına son dərəcə böyük əhəmiyyət veririk. İrəliləmək üçün hər bir sahədə imkanlar var.

Odur ki, belə görüş – üstəlik, sizin nümayəndə heyətində bir çox aparıcı baş idarələrin və nazirliklərin rəhbərləri var – Rusiya ilə Azərbaycan arasında münasibətlərin, o cümlədən də qarşılıqlı iqtisadi münasibətlərin inkişafının, şübhəsiz, yeni mərhələsinin başlanğıcı olacaqdır.

V l a d i m i r P u t i n: İcazə verin, Xarici İşlər naziri beynəlxalq sahədə qarşılıqlı fəaliyyət barədə çıxış etsin.

İ q o r İ v a n o v (*Rusiyanın Xarici İşlər naziri*): Hörmətli Heydər Əliyeviç, hörmətli Vladimir Vladimiroviç, Bakı bəyannaməsinin üçüncü fəsli beynəlxalq sahədə əməkdaşlığımıza həsr olunmuşdur. Qarşılıqlı fəaliyyət göstərdiyimiz istiqamətlər burada çox müfəssəl şərh edilir. Birgə rəyimizə görə, ötən il həmkarımla biz bu qarşılıqlı fəaliyyətdə ciddi surətdə irəliləmişik, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də geniş qarşılıqlı fəaliyyət göstəririk.

Biz Azərbaycanın Avropa Şurasına qəbul edilməsini alqışlayırıq və digər beynəlxalq forumlar çərçivəsində qarşılıqlı fəaliyyət göstəririk və bu, real olaraq öz səmərəsini verir. Biz bu qarşılıqlı fəaliyyəti bundan sonra da möhkəmləndirəcəyik. Həmkarımın Moskvaya səfəri zamanı biz əməkdaşlıq etdiyimiz beynəlxalq problemlərin bütün kompleksini müzakirə etdik və xarici siyasət idarələrimizin xətti ilə qarşılıqlı fəaliyyətin konkret planlarını nəzərdə tutduq. Hesab edirik ki, belə

səmərəli qarşılıqlı fəaliyyət Azərbaycanın da, Rusiya Federasiyasının da mənafelərinə uyğundur.

O ki qaldı dördtərəfli foruma, Qafqaz forumuna, Sizin axırıncı iclasdakı qərarınıza uyğun olaraq, indi biz Azərbaycan, Rusiya, Ermənistan, Gürcüstan alimlərinin də işitirakı ilə elmi konfrans hazırlayırıq ki, bizimlə, praktiklərlə yanaşı, onlar da bu problemə kompleks şəkildə, daha geniş perspektivdə baxa və böyük Qafqaz çərçivəsində əməkdaşlığın yollarını nəzərdə tuta bilsinlər. Bir sözlə, biz bütün bu istiqamətlərdə sıx əməkdaşlıq edirik. Mən öz tərəfimdən demək istəyirəm ki, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi olaraq biz Azərbaycanın Xarici İşlər Nazirliyi ilə qarşılıqlı fəaliyyətin indiki səviyyəsindən çox razıyıq.

Heydər Əliyev: Sağ olun, İqor Sergeyeviç. Məsələn, mən hesab edirəm ki, bəyannamənin bu bölməsi çox yaxşıdır. Səhv etmirəmsə, əvvəlki sənədlərdə belə şey olmamışdır. Bu məhz onun nəticəsidir ki, biz çox sürətlə irəliləyirik. Lakin bu, zənnimcə, yenə də onunla bağlıdır ki, Rusiyada prezident – Vladimir Vladimiroviç Putin indi birgə bəyannamənin üçüncü fəslində öz əksini tapan belə inkişafa yol verilməməsi üçün göstərilən bəzi cəhdlərin qarşısını alır. Mən bundan razıyam.

Vladimir Putin: Heydər Əliyeviç, etiraz etmirsinizsə, mən Baş nazirin müavini Xristenkoya, sonra isə Dağıstan Dövlət Şurasının sədrinə də söz vermək istərdim. Qoy onlar bilavasitə qonşularla qarşılıqlı əlaqələrdən danışsınlar.

Heydər Əliyev: Buyurun.

Viktor Xristenko: Hörmətli Heydər Əliyeviç, hörmətli Vladimir Vladimiroviç, demək istərdim ki, biz Azərbaycanın Baş naziri ilə, hökumətin üzvləri ilə iki saatdan çox olduqca müfəssəl müzakirə apardıq. Görüş rəsmi olsa da, abhava və söhbət qeyri-formal, çox açıq xarakter daşıyırdı. Ona görə də bu müddət ərzində biz olduqca çox məsələləri müza-

kirə edə bildik. Əslində, onlar bizim bu gün burada müəyyənləşdirdiyimiz bir çox məsələlərin həyata keçirilməsinə aid idi.

Bu, xüsusən Azərbaycan neftinin Şimal marşrutu adlandırılan marşrutla nəqlinə dair hökumətlərarası sazişin həyata keçirilməsi məsələlərinə aid idi. Bu həm də indi öz həllini tapmamış və ya tapmayan məsələlərə, o cümlədən Həştərxan zavodlarında, «Lotos» zavodunda olan modullarla bağlı mübahisəli məsələlərin, gəmilərin Rusiyanın daxili su arteriyalarında hərəkəti ilə, bu prosesi tənzimləyən qayda ilə bağlı məsələlərin həllinə aid idi. Bunlar Rusiya müəssisələrindən texnika göndərilməsi hesabına Bakı metrosunun tikintisinə köməklə bağlı məsələlər idi. Əlbəttə ki, Qəbələ ilə bağlı məsələlər idi. Biz bu məsələlər kompleksini nəinki mövqelərimiz üzrə və ya onların həlli yollarını axtarmaq imkanları üzrə, həm də yəqin çox mühüm olan müddətlər üzrə müəyyənləşdirdik.

Biz müəyyənləşdirdik ki, Sizin burada dediyiniz bir çox məsələləri və mənim qaldırdığım ayrı-ayrı konkret məsələləri məhz Rusiya–Azərbaycan hökumətlərarası Ticarət–İqtisadi Əməkdaşlıq Komissiyasında həll edə bilməyimiz üçün bu komissiyanın iclasını keçirməkdən ötrü fevralın axırları daha münasib və ən operativ vaxtdır.

Heydər Əliyev: Viktor Borisoviç, sağ olun. Vladimir Vladimiroviç, bir baxın, sən demə, dövlətin, xüsusən də dövlət başçılarının iradəsi olarsa, necə köhnə məsələləri həll etmək olar. Viktor Borisoviçin toxunduğu bu məsələlərin çoxu artıq uzun illər ərzində həll edilməmişdir. Biz bu məsələləri qaldırırdıq, amma onlar həll olunmurdu. Məsələn, elə Həştərxandakı bu modulları, barjları götürək. Onlar orada neçə vaxtdır durur, bilmirəm, on ildir, yoxsa neçə ildir?

Viktor Xristenko: Yeddi-səkkiz ildir.

Heydər Əliyev: Yeddi-səkkiz ildir? Amma indi, demə, məsələnin həlli yolu tapılır. Məsələnin həllinin konkret-

liyi və ölkələr arasında, o cümlədən də Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin inkişafında səmimilik, bir görün, nə deməkdir. Hesab edirəm ki, bu da sizin apardığınız siyasətin mühüm nəticəsidir. Sağ olun, Viktor Borisoviç.

V l a d i m i r P u t i n: Məhəmmədəli Məhəmmədoviç.

M ə h ə m m ə d ə l i M ə h ə m m ə d o v: Vladimir Vladimiroviç, hər şeydən əvvəl, məni Rusiyanın belə mötəbər nümayəndə heyətinə daxil etdiyinizə və Azərbaycan Respublikasının çox hörmət bəslədiyim, Dağıstanda çoxlarının yaxşı, üzdən də tanıdıqları rəhbərləri ilə görüşməyə imkan verdiyinizə görə sağ olun.

Mən belə yaxşı imkandan istifadə etmək və Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi möhtərəm Heydər Əliyeviçə çoxmillətli Dağıstan xalqından növbəti qardaşlıq salamı yetirmək istəyirəm. Heydər Əliyeviç, dağıstanlılar yaxşı başa düşürlər ki, siz Rusiya Federasiyası ilə sıx dövlət əlaqələri saxlamaq siyasəti yeridirsiniz və bununla da Azərbaycan xalqının tarixən ən yaxın qonşusu olan Dağıstan xalqına kömək edir və dəstək verirsiniz.

Bu gün mən Rusiya Federasiyasının Prezidenti, bizim prezidentimiz Vladimir Vladimiroviç Putinin Dağıstan üçün xüsusi rolunu, onun Dağıstan xalqına xüsusi hörmət bəslədiyini vurğulamaq istərdim. Bunu bildirməyə şadam ki, Rusiya Federasiyasının Prezidenti 2000-ci ili Dağıstan torpağında qarşılamışdır. Bunu bildirməyə şadam ki, 2001-ci il ərəfəsində Vladimir Vladimiroviç Putin Dağıstan nümayəndə heyətini dəvət etdi – biz əlli nəfərdən çox idik – və Rusiya Federasiyasının Konstitusiyasına sadiqliyə görə, Rusiya Federasiyasının ərazi bütövlüyünün təmin olunmasına yönəldilmiş işlərə görə Rusiya rəhbərliyi adından, Rusiya Federasiyasının Prezidenti adından dağıstanlılara təşəkkürünü bildirdi. Bu,

Dağıstan xalqının həyatında tarixi hadisədir və dağıstanlılar bunu heç zaman unutmayacaqlar.

Hörmətli Heydər Əliyeviç, hörmətli Vladimir Vladimiroviç! Biz dağıstanlılar hesab edirik ki, Sizin görüşünüz tarixi hadisədir, Rusiya xalqının və Azərbaycan xalqının həyatında tarixi hadisədir, bütün Qafqazın, başı müsibətlər çəkən Qafqazın həyatında tarixi hadisədir. Hər ikinizin burada nəzərə çatdırdığınız kimi, Rusiya, Azərbaycan Qafqazda sülhün təmin olunması üçün hər şey edə bilər və etməlidirlər. Qafqazın sabit inkişafı üçün məsuliyyəti, Vladimir Vladimiroviç, Sizin kimi, Heydər Əliyeviç, Sizin kimi məhz görkəmli dövlət xadimləri öz üzərinə götürə bilərlər. Qafqazın sabitliyi isə Rusiya dövlətinin və müstəqil Azərbaycan dövlətinin sabit inkişafı deməkdir.

Bizim üçün, dağıstanlılar üçün Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq həyati əhəmiyyətə malikdir. Dağıstan xalqının iradəsi ilə biz həmişəlik Rusiya dövlətinin tərkibinə daxil olmuşuq. Biz hesab edirik ki, düzgün hərəkət etmişik, bunu Dağıstan xalqı arasında keçirilən çoxsaylı sorğular, referendumlar da təsdiqləyir. Biz Azərbaycan xalqı ilə tarixi qonşuyuq, həmişə bir yerdə olmuşuq. 1996-cı ildə biz burada Azərbaycan ilə Dağıstan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalamışıq və bu müqavilədə görkəmli siyasi xadim saydığım Heydər Əliyeviç Əliyevin imzası və mənim, Dağıstan Respublikası Dövlət Şurası sədrinin sadə imzası durur. Müqavilədə deyilir ki, Dağıstan Rusiya Federasiyasının tərkibindədir, lakin Azərbaycan və Dağıstan xalqları arasındakı ənənəvi dostluq əbədidir.

Buna görə də mən istərdim ki, dövlətlərimiz arasında dostluq əbədi olsun. Mən istərdim ki, bu dostluq həm iqtisadi, həm siyasi, həm də sərhəd məsələləri baxımından möhkəm və konkret olsun. Həlledilməz problemlər yoxdur. Əminəm ki, bütün bu məsələlər həll ediləcəkdir. Lakin mən Azərbaycan

ilə Rusiya arasında əməkdaşlığın səviyyəsini kifayət hesab etmirəm. Bizim münasibətlərimiz belə olmamalıdır. Bizim münasibətlərimiz ən yüksək, ən səmərəli və hər hansı digər dövlətlərlə müqayisədə ön planda olmalıdır. Biz – həm Rusiya Federasiyasının tərkibindəki Dağıstan Respublikası, həm müstəqil dövlət kimi Azərbaycan, həm də böyük dövlət kimi Rusiya Federasiyası yalnız bu halda tərəqqi edə bilərik.

Biz bu gün Nazirlər Kabineti sədrinin iş otağında bəzi məsələləri müzakirə etdik. Dağıstanla Azərbaycan arasında, deməli, Rusiya ilə Azərbaycan arasında iqtisadi problemlərə, sərhəd problemlərinə aid məsələlər var. Heydər Əliyeviç, biz orada məsələlərin həllini tapdıq, lakin Sizdən xahiş etmək istərdik ki, bəzi məsələlər barəsində öz sözünüzü deyəsiniz. Hörmətli Heydər Əliyeviç, əldə edilmiş razılaşma təkcə Rusiya tərəfindən deyil, Azərbaycan tərəfindən də tam şəkildə yerinə yetirilmir.

Bir daha Heydər Əliyeviçə səmimi minnətdarlığımı, bu səfərə görə Vladimir Vladimiroviçə dərin minnətdarlığımı bildirmək və dağıstanlıların arzularını ifadə etmək istəyirəm ki, Sizin əməkdaşlığınız, dostluğunuz, iki prezidentin şəxsi dostluğu həm Rusiyaya, həm də Azərbaycana ən gözəl nəticələr versin. Diqqətinizə görə sağ olun.

H e y d ə r Ə l i y e v: Vladimir Vladimiroviç, sağ olun ki, nümayəndə heyətinizin tərkibində bizim ən yaxın qonşumuz – Dağıstan Dövlət Şurasının sədri də vardır. Yadınızdadır, biz Sizinlə bir neçə dəfə danışmışıq və mən Dağıstandakı vəziyyət barədə bəzi mülahizələrimi və narahatlığımı Sizə bildirmişdim. Lakin o vaxt mən bunları Sizə deyəndə narahatlığım azalmışdı. Amma əvvəllər, məsələn, üç il bundan öncə mən prezident Boris Nikolayeviç Yeltsinə demişdim ki, Dağıstanda sabit daxili ictimai-siyasi vəziyyət olması üçün ona kömək etmək lazımdır.

Lakin çox şey edilirdi. Əlbəttə, başlıcası isə odur ki, dağıstanlıların özləri düzgün mövqelərdə qətiyyətlə və möhkəm dayanmışlar. Axı Dağıstan elə bir diyardır ki, məncə, dünyada kiçik bir ərazidə bu qədər çox xalqın, milli-etnik qrupların yaşadığı ikinci bir ölkə yoxdur.

Vladimir Putin: Yüzdən çox.

Heydər Əliyev: Biz Dağıstanı Rusiyanın hər hansı digər bölgəsindən daha yaxşı tanıyırıq, çünki biz tarixən Dağıstanla çox bağlı olmuşuq, bir vaxtlar heç bir sərhəd olmamışdır. Ona görə də burada dağıstanlılar, Dağıstanda isə azərbaycanlılar da yaşayırlar, onlar qaynayıb-qarışmışlar. Ona görə də Qafqazda, xüsusilə Çeçenistanda vəziyyət gərginləşəndə biz Dağıstan sarıdan bərk narahatlıq keçirirdik və mən bu barədə demişdim. Lakin mən çox şadam ki, – biz sizinlə bu barədə bu gün danışdıq – vəziyyət sabitləşmişdir və mən hesab edirəm ki, bunda Dağıstan xalqının, Dövlət Şurasının hörmətli sədri Məhəmmədəli Məhəmmədoviçin xidməti ilə yanaşı, yenə də Sizin bütövlükdə Qafqazda həyata keçirməyə başladığınız çox düzgün siyasətinizin də rolu vardır. Özü də təkcə Qafqazda deyil, mən indiki halda Qafqazı nəzərdə tuturam.

Dağıstanda vəziyyəti müşahidə edərək, deyə bilərəm ki, Məhəmmədəli Məhəmmədoviç çox-çox illərdir Dövlət Şurasının sədri işləyir, buna qədər də müxtəlif dövlət vəzifələrində çox böyük təcrübəsi var və açığını deyim, bu qədər çox xalqın yaşadığı ölkəyə rəhbərlik etmək, sadəcə olaraq, mümkün deyildir. Bu onun xidmətidir. Ola bilsin, bu mənə aid məsələ deyil, deyirlər ki, orada prezident seçmək istəyirlər, amma bu, çətin ki, mümkün olsun, hərçənd təkrar edirəm, bu mənə aid məsələ deyildir. Lakin qonşu kimi, mən öz fikrimi deyə bilərəm ki, bu çox çətin ki, baş tutsun, çünki bəziləri birini, digərləri isə başqasını seçmək istəyəcəklər.

V l a d i m i r P u t i n: Siz düz deyirsiniz, orada xeyli xüsusiyyətlər var.

H e y d ə r Ə l i y e v: Oranın özünün çoxlu xüsusiyyətləri var və xüsusən Qafqazda mürəkkəbliyin son həddə çatdığı çətin dövrdə – mən Şimali Qafqazı nəzərdə tuturam – Məhəmmədəli Məhəmmədoviç məharətlə rəhbərlik etmişdir və edir. Bizim Dağıstanla dostluq münasibətlərimiz isə, əlbəttə, Rusiya ilə dostluq münasibətlərimiz üçün böyük əhəmiyyətə malikdir. Dağıstan sanki Rusiya ilə Azərbaycan arasında körpüdür. Lakin bu, körpü deyil, şübhəsiz, Rusiya Federasiyasının tərkib hissəsidir. Bununla yanaşı, etnik mənşə, dinin və bir çox adətlərin, mərasimlərin ümumiliyi və sairə nəzərə alınmaqla, bizim aramızda oxşarlıq, ümumi cəhətlər çoxdur və biz Rusiya Federasiyası ilə dostluq əlaqələrimizin möhkəmləndirilməsi baxımından Dağıstanla əməkdaşlığımızı bundan sonra da davam etdirəcək, mümkün olan hər şeyi edəcəyik.

Yeri gəlmişkən, sərhəd rayonlarının əməkdaşlığının zəruriliyi haqqında çıxışınızda söylədiyiniz tezis Azərbaycan və Dağıstanın sərhəd rayonları baxımından bizim üçün çox böyük əhəmiyyətə malikdir. Elə gətirmişdir ki, orada – sərhədin həm o tayında, həm də bu tayında – əsasən ləzgilər yaşayır. Məhəmmədəli Məhəmmədoviç, doğrudurmu?

M ə h ə m m ə d ə l i M ə h ə m m ə d o v: Bəli, həm də azərbaycanlılar yaşayır.

H e y ə r Ə l i y e v: Bəli, həm də azərbaycanlılar. Orada həm azərbaycanlılar, həm də ləzgilər yaşayır. Məsələn, Dərbənddə, digər rayonlarda azərbaycanlı əhali daha çoxdur. Ona görə də sizin fikriniz təsadüfi deyildir. Başa düşürəm ki, bu həmin imkanlardan, rayonların və subyektlərin birbaşa əlaqələrindən və sairədən istifadə edərək, iqtisadi münasibətlərimizi, humanitar əlaqələrimizi və bütün hər şeyi inkişaf

etdirmək arzusundan irəli gəlir. Məhəmmədəli Məhəmmədoviç, sağ olun.

Mən sizə bir daha təşəkkür etmək istəyirəm və düşünürəm ki, imzalayacağımız sənədlər, ən başlıcası isə, belə geniş tərkibdə görüş – biz müstəqilliyimizin tarixi ərzində bu cür görüşü heç bir dövlətlə keçirməmişik – münasibətlərimizin daha da inkişaf etməsi üçün çox yaxşı zəmindir. Sağ olun.

V l a d i m i r P u t i n: Sağ olun.

RUSİYA–AZƏRBAYCAN SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN BİRGƏ BƏYANATLARI VƏ MƏTBUAT KONFRANSI

9 yanvar 2001-ci il

Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

Rusiya Federasiyasının cənab Prezidenti, çox hörmətli Vladimir Vladimiroviç Putin!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Rusiya Federasiyası Prezidentinin Azərbaycana rəsmi səfəri başlanmışdır və səfərin birinci günü artıq başa çatmaqdadır. Hər şeydən əvvəl, bu səfər Azərbaycan və Rusiya dövlət müstəqilliyi əldə etdikdən sonra Rusiya Federasiyası Prezidentinin Azərbaycana ilk rəsmi səfəri kimi, çox böyük tarixi əhəmiyyətə malikdir.

Mən bu səfərin həyata keçirilməsinə görə, xahişim yerinə yetirildiyinə və biz bu gün çox səmərəli iş görə bildiyimizə görə prezident Vladimir Vladimiroviç Putinə minnətdaram. Bizim kifayət qədər uzun çəkən və çox səmərəli təkbətək danışıqlarımız və söhbətimiz oldu. Ən başlıcası isə, bu danışıqlar dostluq, qarşılıqlı anlaşma, mehribanlıq və səmimilik şəraitində keçdi. Biz Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası və hökumətlərarası münasibətlərə, demək olar, həyatın bütün sahələrinə dair çoxlu

məsələlər barəsində fikir mübadiləsi apardıq. Bu fikir mübadiləsi, təkbətək söhbət əslində, Rusiya Federasiyası və Azərbaycan nümayəndə heyətləri arasında danışıqların uğurla aparılmasının əsası oldu.

Demək istəyirəm ki, Rusiya Federasiyası nümayəndə heyətinin üzvləri də görüşmək və ünsiyyətdə olmaq, iqtisadiyyatın müxtəlif sahələri üzrə və digər istiqamətlərdə bir çox məsələləri müzakirə etmək imkanı əldə etdilər. Nəticədə biz yekun danışıqları apardıq və sənədlər imzaladıq. İndiyədək Rusiya Federasiyası ilə Azərbaycan arasında 70-dən artıq hökumətlərarası, dövlətlərarası sənəd imzalanmışdır. Bu gün onlara daha səkkiz sənəd əlavə olundu. Yəqin ki, bu rəqəm gələcəkdə artacaqdır, çünki həyatın mühüm istiqamətləri sahəsində münasibətlərin tənzimlənməsi zərurəti əlavə tədbirlərin görülməsini və zəruri sənədlərin imzalanmasını tələb edir.

Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin prinsipləri və perspektivlərinin son dərəcə mühüm müddəalarını əks etdirən Bakı bəyannaməsinin böyük əhəmiyyəti vardır. Bu, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək tədbirlərini nəzərdə tutan sənəd, Rusiya ilə Azərbaycan arasında 1997-ci ilin iyulunda bağlanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik müqaviləsi əsasında bizi əməkdaşlığın daha yüksək səviyyəsinə çıxaran sənəddir. Bu sənədin mühüm müddəası ondan ibarətdir ki, biz Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlığın səviyyəsini daha yüksək pilləyə qaldırmağı öhdəmizə götürmüşük.

Mən çox vaxt almaq istəməzdim, bu sənəd ümumən müstəsna əhəmiyyətə malikdir və bugünkü reallıqları, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafının perspektivlərini səciyyələndirir.

Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Rusiya Federasiyasının Prezidenti və Azərbaycan Respublikasının Prezidentinin imzaladıqları birgə bəyanatın böyük əhəmiyyəti var, belə ki, Xəzəryanı ölkələrin Xəzər dənizində əməkdaşlığı barədə məsələ artıq 7-8 ildir müzakirə edilir. Ancaq təəssüf ki, biz nəinki öz mövqelərimizi və baxışlarımızı yaxınlaşdıra bilməmişik, hətta hansısa prinsipləri də müəyyənləşdirə bilməmişik. Bu gün isə artıq Rusiya ilə Azərbaycan arasında sənəd imzalanmışdır və o, ölkələrimizin Xəzər dənizində əməkdaşlığının prinsiplərini müəyyənləşdirir. Rusiya Federasiyası ilə Qazaxıstan arasında imzalanmış eyni sənəddən sonra bu sənəd Xəzəryanı ölkələrin daha intensiv əməkdaşlığı və Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi üçün böyük imkanlar açır.

Mən Rusiya prezidentinin Azərbaycana səfərindən çox məmnunam və hesab edirəm ki, bugünkü gün münasibətlərimizdə son dərəcə mühüm mərhələnin başlanğıcı olacaqdır. Biz sabah da işləyəcəyik, lakin artıq bu gün əməli nəticələrdən, həm də olduqca müsbət nəticələrdən danışmaq mümkündür. Azərbaycan Rusiya ilə ölkəmiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi mövqelərində möhkəm dayanmışdır. Bu səfər, danışıqlarımız, imzalanmış sənədlər bu istiqamətdə irəliləyişimizdə yeni mərhələ açır. Diqqətinizə görə sağ olun.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bəyanatı

Hörmətli Heydər Əliyeviç!

Hörmətli xanımlar və cənablar!

Hər şeydən əvvəl ölkənizə gəlmək dəvətinə görə, mehriban qarşılanmağımıza və birgə işimizin əla təşkilinə görə Azərbay-

can prezidentinə və bütün Azərbaycan rəhbərliyinə, Azərbaycan xalqına səmimi təşəkkürümü bildirmək istəyirəm.

Zənnimcə, Azərbaycanda Rusiya ilə hər hansı şəkildə bağlı olmayan ailə yoxdur. Fikirləşirəm ki, Rusiya Federasiyasında dostları, tanışları və ya qohumları olmayan ailə yoxdur. Azərbaycanda yüz mindən çox rusiyalı, Rusiyada isə bir neçə yüz min Azərbaycan vətəndaşı əslində daimi yaşayır. Biz ikitərəfli əlaqələrimizin inkişafı üçün bu potensialdan istifadə edə bilərik və etməliyik.

Biz bu gün Azərbaycan rəhbərliyi ilə regionda əməkdaşlıq problemlərini, beynəlxalq aləmdə səylərimizin əlaqələndirilməsini müzakirə etdik. Təhlükəsizlik, münaqişələrin həlli və iqtisadi sahədə ikitərəfli əlaqələrimiz haqqında ətraflı danışdıq. Bilirsiniz ki, ümumi fikrə görə, son ildə iqtisadi əlaqələrin artmasına, əmtəə mübadiləsinin təqribən 25 faizə çatmasına baxmayaraq, hər halda, ticarət-iqtisadi əlaqələrin ümumi həcmi kifayət qədər yüksək sayılmır. Əlbəttə, bu əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı perspektivlərimiz var. Bu baxımdan bu gün imzalanmış bir sıra sənədlər, o cümlədən vergi idarələrimizin səylərinin əlaqələndirilməsinə dair sənəd xüsusilə böyük əhəmiyyətə malikdir. Zənnimcə, qanunvericiliyin uyğunlaşdırılması və ahəngdarlığı çox mühüm və perspektivli birgə fəaliyyət sahəsidir.

Biz sərmayə qoyuluşu sahəsində qarşılıqlı əlaqələrimizin inkişafı, müxtəlif istehsal sahələrində əməkdaşlıq, elm və mədəniyyət sahəsində əməkdaşlıq barədə danışdıq. Bununla əlaqədar son mürəkkəb illərdə mədəniyyət sahəsində əlaqələrin qorunub saxlanması və Azərbaycanda rus dilinin dəstəklənməsi sahəsində Azərbaycan prezidentinin ardıcıl surətdə həyata keçirdiyi siyasəti xüsusilə qeyd etmək və ona təşəkkürümü bildirmək istərdim. Düşünürəm ki, regionda hələ də qalmaqda olan bütün problemlərə baxmayaraq, gələcəyə nikbinliklə baxmağa tam əsasımız var. Bizim nəinki ikitərəfli

Rusiya–Azərbaycan münasibətinin inkişafına, həm də hələ qalmaqda olan problemlərin mütləq həll edilməli olduğunu və ediləcəyini nəzərə almaqla, regional əlaqələrin inkişafına nikbinliklə baxmağa tam əsasımız var. Əlbəttə, mən həm də Qarabağ problemini nəzərdə tuturam. Biz bu gün həmin məsələyə, əsasən təkbətək görüşümüzdə çox böyük vaxt sərf etdik.

Mən Rusiya Federasiyasının bu məsələ barədə mövqeyini bir daha bildirmək istəyirəm. Problemin qəti həllinə ancaq əlaqədar iki dövlət arasında mövqelərin hazırlanması və razılaşdırılması yolu ilə nail olmaq mümkündür. Öz növbəsində Rusiya vasitəçi kimi səylərini bundan sonra da fəallaşdıracaq və bu sahədə mühüm razılaşmaların təminatçısı kimi çıxış etməyə hazırdır. Bu razılaşmalar isə, zənnimcə, mümkündür. Vurğulamaq istəyirəm ki, razılaşmaların əldə edilməsi üçün Azərbaycan prezidentinin və Ermənistan prezidentinin göstərdiyi səylər bizə ümid etməyə əsas verir ki, bütün mürəkkəbliyinə baxmayaraq, bu münaqişə uğurla həll edilə bilər.

Sonda bütün həmkarlarımıza bugünkü iş günü üçün bir daha səmimi təşəkkürümü bildirmək istərdim.

* * *

S u a l: Mənim sualım Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinədir. Cənab Prezident, Rusiyanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü prinsiplərinə riayət edilməsi əsasında həll olunmasında görməsi barədə Sizin bəyanatınız bizə məlumdur. Rusiya bu münaqişənin sülh yolu ilə həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir. Rusiya bu münaqişənin dinc yolla həlli üçün yaxın perspektivdə hansı addımları atacaqdır?

V l a d i m i r P u t i n: Siz tamamilə dəqiq xatırladınız ki, biz Minsk qrupunun işinin iştirakçısıyıq və bu strukturun çərçivəsində səylərimizi davam etdirəcəyik. Lakin biz bu gün

Azərbaycan prezidenti Heydər Əliyeviç Əliyevlə razılığa gəldik ki, Rusiya həm Azərbaycan, həm də Ermənistanla özünün ikitərəfli münasibətlərinin intensivliyini artıracaqdır. Biz mümkün kompromis əldə olunmasının bəzi variantları barədə danışdıq. Bu, mürəkkəb prosesdir, ona görə də mən indi təfərrüatdan danışmağa hazır deyiləm, lakin bunlar var. Əlbəttə, bu cür mürəkkəb məsələlərdə razılaşma əldə edilməsi həmişə kompromisdir, kompromis isə qarşılıqlı güzəştlər deməkdir. Aydındır ki, iki dövlətin bu gün üzləşdiyi şərait nə Ermənistanı, nə də Azərbaycanı razı sala bilməz.

Ancaq sizi əmin etmək istəyirəm ki, Rusiya bu vəziyyətin belə qalmasında maraqlı deyildir. Rusiya hesab edir ki, Qafqazda və Cənubi Qafqazda vəziyyətin sabit olmasına hamımız birlikdə səy göstərməliyik. Yalnız belə vəziyyət bizə hamı ilə münasibətlərimizi normal şəkildə inkişaf etdirməyə imkan verər. Bugünkü gündə bu münaqişənin özünün və düşdüyümüz vəziyyətin mövcudluğu nə Azərbaycanla, nə də Ermənistanla münasibətlərimizi tam şəkildə inkişaf etdirməyə imkan vermir. Belə vəziyyət Rusiyanı razı sala bilməz və biz kompromisin tapılmasına təkidlə çalışacağıq.

S u a l: **Sualım hər iki prezidentədir. Siz Qafqaz dördlüyünün bugünkü rolunu necə qiymətləndirirsiniz? Bu forumun fəaliyyətini hansı istiqamətə yönəltmək və onun gündəliyinə hansı məsələləri çıxarmaq niyyətindəsiniz?**

H e y d ə r Ə l i y e v: Qafqaz dördlüyü, hər şeydən əvvəl, Rusiya Federasiyası Prezidentinin, hörmətli Vladimir Vladimiroviç Putinin təşəbbüsüdür. Əlbəttə, bu, sadə proses deyildir. Çünki Qafqaz dördlüyünün iki ölkəsi – Ermənistan və Azərbaycan münaqişə vəziyyətindədir. Məlumdur ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və bir milyon azərbaycanlı bu torpaqlardan zorla qovulmuşdur, onlar ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. Ona görə də münaqişənin həll edilmədiyi bu şəraitdə, Azər-

baycanla Ermənistanın bir yerdə olduğu belə tədbirlərdə ölkəmizin iştirak etməsi asan məsələ deyildir. Doğrudur, biz Müstəqil Dövlətlər Birliyinə daxilik. Lakin orada həll edilən məsələlərdə hər ölkənin öz mövqeyi olur. Qafqaz dördlüyündə də hər ölkənin öz mövqeyi var. Lakin Qafqaz dördlüyünün imkanlarından istifadə etmək zərurəti ilk öncə və başlıca olaraq, bütövlükdə Qafqazda vəziyyətin sabitliyini şərtləndirir.

Qafqaz, ola bilər, dünyanın çoxlu mürəkkəb prosesləri və konfliktləri olan ən nadir regionudur. Bəşəriyyətin inkişaf prosesi isə bütün münaqişələrin, müharibə ocaqlarının və təhlükəli halların aradan qaldırılmasını tələb edir. Buna görə də Azərbaycanın, eləcə də digər dövlətlərin Qafqaz dördlüyündə iştirakı bir-birinin mövqeyini – mən Azərbaycanı və Ermənistanı nəzərdə tuturam – daha yaxşı başa düşmək, ümumi səylərlə bütövlükdə Qafqazda vəziyyətin sabitləşdirilməsinə nail olmaq üçün imkandır. Çünki biz Qafqaz deyəndə, burada Cənubi Qafqaz respublikalarından əlavə, böyük region – Rusiya Federasiyasının tərkib hissəsi, yenə də çoxlu siyasi və digər proseslərin getdiyi Şimali Qafqaz da var.

Bu dördlük ilk dəfə yaradılmışdır. Hesab edirəm, o, sülhə, sabitliyə və təbii ki, iqtisadi əməkdaşlığın inkişafına nail olmaq məqsədi ilə yaradılmışdır. Biz – Azərbaycan bu prinsipləri əsas tutaraq, Qafqaz dördlüyündə iştirak edirik və onun perspektivlərini görürük.

V l a d i m i r P u t i n: Mən öz tərəfimdən aşağıdakıları əlavə edərdim. Bu gün danışıqların gedişində Azərbaycan prezidenti Heydər Əliyeviç Əliyev Qafqazın, təəssüf ki, regional münaqişələr yeri olaraq qaldığını vurğuladı və bu vəziyyət bizim hamımızı narahat etməyə bilməz. Hamımız başa düşürük ki, bu münaqişələrin müəllifləri biz deyilik. Bütün bunlar bizə imperiyadan miras qalmışdır. Əslində, onlar nəhəng imperiyanın basqısı altında qalmış xəstəliklər idi və o, yox olduqdan sonra bütün bu xəstəliklər üzə çıxmışdır.

Aydındır ki, biz bu gün həmin problemlərin həlli barədə düşünməyə bilmərik. Bu isə təkcə Qarabağ problemi deyildir. Bu həm də Abxaz problemi, Cənubi Osetiya problemi və bir sıra daha kiçik məsələlərdir. Bu, iqtisadi sahədə, rabitə və nəqliyyat, tibb və mədəniyyət sahəsində əlaqələr yaratmaq zərurətidir. Təəssüf ki, bütün bu problemlər, məsələlər, o cümlədən münaqişə vəziyyətləri telefonla, internet, faks vasitəsilə həll olunmur. Belə miqyaslı məsələlərin həllinin minimum şərti dövlət rəhbərlərinin şəxsi görüşləridir. Ən azı görüşmək lazımdır. Ona görə də biz hesab edirik ki, bu dördlük çərçivəsində təklif olunan məsləhətləşmələrdən imtina edilməsi hələlik məqsədəuyğun deyildir. Əksinə, Qafqaz və Cənubi Qafqaz ölkələrinin rəhbərlərinin şəxsi görüşləri işin xeyrinə olacaq, mübahisəli məsələlərin həlli yollarının axtarışına, yuxarıda qeyd etdiyim bütün istiqamətlərdə ikitərəfli və çoxtərəfli münasibətlərin yaradılmasına kömək göstərəcəkdir. Sağ olun.

S u a l: Cənab prezident Əliyev, cənab prezident Putin! Rusiyanı və Azərbaycanı dərin tarixi dostluq, mehriban qonşuluq və əməkdaşlıq telləri bağlayır. İndiki səfər həmin münasibətlərin genişlənməsinə, dərinləşməsinə necə və hansı konkret istiqamətlərdə təsir göstərəcəkdir?

H e y d ə r Ə l i y e v: Bilirsiniz, biz mahiyyətcə, bu suala artıq cavab verdik. Çünki, əslinə qalsa, biz bütün günü məhz Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətləri inkişaf etdirmək, genişləndirmək və dərinləşdirmək üzərində işləyirik. Biz buna çalışırıq. Mən hələ əvvəldə dedim ki, Azərbaycan bu mövqelərdə möhkəm durur və zənnimcə, Rusiya Federasiyası Prezidentinin Azərbaycana ilk səfəri bunun üçün böyük imkanlar və münasibətlərimizin inkişafında yeni mərhələ açır.

V l a d i m i r P u t i n: Bilirsiniz, biz bu gün həqiqətən, məhz Sizin dediyiniz problemlərlə məşğuluq. Azərbaycan prezidentinin indi söylədiklərinə mənim elə bir əlavəm yox-

dur. Rusiya tərəfindən ancaq bunu demək istərdim: son on il ərzində Rusiya dövləti başçısının Azərbaycan torpağında olmaması faktının özü, artıq ikitərəfli münasibətlərimizin inkişafında, deməli, Qafqazda regional əməkdaşlığın inkişafında da çox böyük mənfi haldır. Əksinə, bizim bugünkü rəsmi formatda görüş faktının özü artıq region üçün də, bütün səviyyələrdə ölkələrimiz üçün də müsbət siqnaldır.

Yəqin təsadüfi deyildir ki, işgüzar dairələr ümumi məbləği təqribən 300 milyon dollar olan və 25 il üçün nəzərdə tutulan ən ciddi sərmayə layihələrindən birini məhz bu gün imzalayırlar. Təsadüfi deyildir ki, biz bu gün nəqliyyat infrastrukturunun, rabitənin, müxtəlif sahələrdə əməkdaşlığın inkişafından danışırıq. Mən ancaq onu qeyd etmək istəyirəm ki, Rusiyanın dünyada, xüsusilə keçmiş Sovet İttifaqı məkanında, Qafqazda siyasəti tarazlaşdırılacaqdır.

S u a l: Mənim sualım cənab prezident Putinədir. Bir neçə il əvvəl kütləvi informasiya vasitələrindən məlum oldu ki, bir milyard dollardan artıq məbləğdə Rusiya silahı qanunsuz olaraq Ermənistana verilmişdir. İndi mətbuatda Rusiya hərbi texnikasının Gürcüstandan Ermənistana göndərilməsi faktı hallandırılır. Siz necə hesab edirsiniz, bu, Minsk qrupunun üzvü olan ölkələrdən biri kimi, Rusiyanın imicinə ziyan vurmayacaqmı, eləcə də regionda sabitliyi pozmayacaqmı? Sağ olun.

V l a d i m i r P u t i n: Mən sizin sualınıza cavab verəcəyəm və onu verdiyinizə görə təşəkkür edirəm. Çünki bu məsələdə Rusiyanın mövqeyini izah etməyə ehtiyac vardır. Silahların göndərilməsinə gəlincə isə, bildiyiniz kimi, Rusiyanın rəsmi mövqeyi bundan ibarət olmuşdur və ibarətdir ki, bütün bunlar Sovet İttifaqının hərbi mülkiyyətinin və silahlarının bölüşdürülməsi ilə bağlıdır. Bununla razılaşmaq da olar, razılaşmamaq da, mən rəsmi mövqe barəsində danışıram. Bilirsiniz ki, hətta müvafiq cinayət işi də qaldırılmış və təhqiq olun-

muşdur. Bu məsələ hələ də Rusiya rəhbərliyinin diqqət mərkəzindədir.

İndi hərbi təyinatlı bəzi texnikanın Ermənistandakı Rusiya bazalarına indiki köçürülməsinə gəldikdə isə, bunun həqiqətən xüsusi izahata ehtiyacı vardır. Əvvəla, bu texnika sadəcə olaraq, Ermənistana göndərilmir və Ermənistan tərəfinə verilmir, Rusiyanın nəzarəti altındadır. Onlar Rusiya hərbi bazalarına göndərilir. Bu nə üçün edilir? Avropada adi silahlar haqqında yeniləşdirilmiş beynəlxalq müqaviləyə uyğun olaraq, dünyanın bu regionunda Rusiyanın müəyyən miqdarda hərbi texnika, o cümlədən zirehli texnika yerləşdirməyə ixtiyarı var. Bizim gürcü tərəfdaşlarımız Rusiya silahlarının bir hissəsinin Gürcüstandan çıxarılması məsələsini qaldırdığı üçün – biz isə hesab edirik ki, hazırda dünyada yaranmış vəziyyət Cənubi Qafqazda Rusiyanın hərbi qüvvələrinin olmasını hələlik zəruri edir – bizim başqa yolumuz yoxdur. Bir daha vurğulamaq istəyirəm ki, bu hərbi texnikanın Cənubi Qafqazın başqa yerinə, Ermənistandakı hərbi bazalarımıza köçürməkdən başqa seçimimiz yoxdur. Əgər Gürcüstan tərəfi bu texnikanın Gürcüstanda qalmasını istəsəydi, o, indiyədək orada olardı.

Bu, Ermənistan və Gürcüstanın qarşılıqlı münasibətləri ilə qətiyyən bağlı deyildir. Hərçənd, biz başa düşürük ki, bu heç kəsi sevindirmir, inanın ki, bu, Rusiya tərəfini də sevindirmir. Təkrar edirəm, bu, Gürcüstan ərazisindəki Rusiya bazalarının gələcəyi barədə danışıqlar prosesində tərəfdaşlarımızın mövqeyi ilə bağlı məcburi addımdır. Bir daha təkrar edirəm ki, bu texnika Rusiya silahlı qüvvələrinin ciddi nəzarəti altındadır.

S u a l: Sualım cənab Putinə və cənab Əliyevədir. Bu gün Xəzər üzrə birgə bəyanatın imzalanması faktının özü göstərir ki, Azərbaycanın və Rusiyanın bu problem barədə mövqeləri yaxınlaşmışdır. Xəzər dənizinin statusunun işlənib hazırlan-

masına dair bu yaxınlaşmanın parametrlərinə münasibətinizi daha konkret söyləyə bilərdinizmi? Sağ olun.

V l a d i m i r P u t i n: Azərbaycan prezidentinin artıq qeyd etdiyi kimi, Xəzərin müxtəlif prinsiplər üzrə – dənizin dibinə, səthinə görə bölünməsi haqqında danışıqlar kifayət qədər çoxdan, artıq bir neçə ildir ki, aparılır, gəmiçilik məsələləri və digər məsələlər həll olunur. Aydındır ki, bütün bunlar hər şeydən öncə, Xəzəryanı dövlətlərin milli mənafeləri ilə bağlıdır. Təəssüf ki, indiyədək bu problemi çoxtərəfli planda həll etmək mümkün olmamışdır. Biz hesab edirik və ona əsaslanırıq ki, əgər ikitərəfli qaydada razılığa gəlmək mümkündürsə, bunu etmək lazımdır. Biz Qazaxıstanla artıq belə razılığa gəlmişik. Ötən müddət ərzində ekspertlər kifayət qədər səmərəli işləmişlər. Aydındır ki, azərbaycanlı həmkarlarımız öz milli mənafelərinə nail olmağa çalışmışlar. Lakin bizim mövqelərimiz xeyli dərəcədə üst-üstə düşmüşdür. Biz ona əsaslanırıq ki, gəmiçilik problemləri əvvəlki vaxtlarda olduğu kimi həll edilməlidir. Hazırda və bu sahədə hansısa dəyişikliklərə ehtiyac yoxdur.

Suyun səthinin bölünməsinə gəldikdə isə, biz Xəzərin bütün səthində sərbəst gəmiçilik təmin edilməsi şərti ilə dənizin dibi üzrə bölgüyə razılaşmışıq. Hesab edirik ki, biz milli maraqlarımızı nəzərə almaqla, bir-birimizi dəstəkləməliyik. Təkrar edirəm, ümumi halda və hətta praktik planda, yataqlardan istifadə baxımından razılaşma həm Rusiyanın, həm də Azərbaycanın mənafelərinə uyğundur.

H e y d ə r Ə l i y e v: Vladimir Vladimiroviç ətraflı cavab verdiyi üçün mənim deməyə sözüm yoxdur.

AZƏRBAYCAN PREZİDENTİ ADINDAN RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

«Gülüstan» sarayı

9 yanvar 2001-ci il

Rusiya Federasiyasının cənab Prezidenti, çox hörmətli Vladimir Vladimiroviç Putin!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Vladimir Vladimiroviç, Sizi və Sizi müşayiət edən şəxsləri Azərbaycanda ürəkdən salamlayıram. Biz həqiqətən məmnunuq ki, Siz mənim dəvətimi qəbul etdiniz və Azərbaycana rəsmi səfərə gəldiniz. Bu səfər müstəqil Azərbaycan Respublikasının həyatında olduqca böyük əhəmiyyətə və Rusiya–Azərbaycan münasibətlərində çox böyük əhəmiyyətə malikdir. İş elə gətirmişdir ki, Azərbaycan dövlət müstəqilliyi və Rusiya Federasiyası suverenlik əldə etdikdən sonra, Sovetlər İttifaqı dağıldıqdan və müstəqil dövlətlər yarandıqdan sonra Rusiya prezidentinin Azərbaycana səfəri olmamışdır. Biz istəyirdik, ancaq baş tutmurdu. Mən Sizi Azərbaycana dəvət etdim və Siz buna razılıq verdiniz. Lakin, məlum olduğu kimi, səfərin baş tutub-tutmayacağı barədə müxtəlif xəbərlər yayılmışdı. Axı hərə öz fikrini söyləyir, ona görə də bu səfərin baş tutmamasını bir o qədər də istəməyən çoxlu adam vardı və onlar qabaqcadan söyləyirdilər ki, səfər baş tutmayacaqdır. Amma səfər baş tutdu və bu gün Siz, hörmətli Vladimir Vladimiroviç, Azərbaycana gəldiniz.

Mənim dəvətimi qəbul etdiyinizə və Azərbaycana rəsmi səfərə gəldiyinizə görə Sizə ürəkdən təşəkkür edirəm. Bu, şübhəsiz, tarixi əhəmiyyətli hadisədir. Bu gün səfərin birinci günü başa çatır. Cəsarətlə demək olar ki, bu səfər zamanı etmək istədiklərimizin çoxu arxada qalmışdır. Cəsarətlə demək olar ki, səfər uğurludur, özünü doğrultmuşdur, nəticələr gözlədiyimizdən də artıq olmuşdur. Başlıcası budur ki, biz Rusiya Federasiyası ilə Azərbaycan arasında təşəkkül tapmış və mövcud olan dostluq münasibətlərini bütün dünyaya nümayiş etdiririk.

Azərbaycan müstəqillik əldə etdikdən sonra münasibətlərimizi mürəkkəbləşdirmiş ayrı-ayrı mərhələlər olmuşdur. Bəlkə də bu, belə bir səfərin həyata keçirilməsinə nail ola bilməməyimizin səbəblərindən biri idi. Ancaq bugünkü gün göstərdi ki, görüşümüzə, sizin səfərinizə mane olan məsələlərin çoxu süni idi, uydurma idi və gerçəkliyə uyğun deyildi. Gerçəklik isə ondan ibarətdir ki, bu gün biz çox səmərəli iş gördük. Ona görə də cəsarətlə demək olar ki, səfər çox uğurludur, səfər baş tutmuşdur, özlüyündə mühüm dövrdür, Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə yeni mərhələ açır.

Rusiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında münasibətlərin tarixi bir çox əlamətdar hadisələrlə səciyyələnir. Biz bunu yüksək qiymətləndiririk ki, təxminən iki yüz il ərzində bu dövlətin tərkibində olarkən Azərbaycan xalqı ilə rus xalqı arasında xoş münasibətlər yaranmışdır və bu münasibətlər sıx dostluğa çevrilmişdir. Bir dövlətin tərkibində – keçmişdə çar imperiyasında, sonra da Sovetlər İttifaqının tərkibində birgə həyatın gedişində Azərbaycan xalqının əldə etdiyi nailiyyətləri biz Azərbaycanda yüksək qiymətləndiririk. Bizim üçün ən böyük əhəmiyyəti olan odur ki, rus mədəniyyətinin təsiri altında Azərbaycanda dünyəvi həyat tərzinin xüsusiyyətləri meydana gəlməyə başlamışdır.

Azərbaycanlılar Rusiyada təhsil alırdılar, onlar sonradan, öz xalqının maarifçiləri olmuş və milli dirçəliş üçün, elmin, təhsilin, mədəniyyətin, incəsənətin inkişafı üçün çox işlər görmüşlər. Ötən yüzillik ərzində Azərbaycanda olduqca böyük dəyişikliklər baş vermişdir. Təhsil sahəsi genişlənmiş, ali təhsil, elmi-tədqiqat müəssisələri təşkil edilmiş və bir çox digər işlər görülmüşdür. Bütün bunları rus xalqının nümayəndələrinin, rus ziyalılarının, mədəniyyət xadimlərinin, incəsənət xadimlərinin köməyi ilə edə bilmişik. Bunların hamısı Azərbaycan xalqının ümumbəşəri dəyərlərdən, Avropa dəyərlərindən bəhrələnməsində və Azərbaycanda dünyəvi cəmiyyətin qurulmasında olduqca böyük rol oynamışdır. Ötən əsr ərzində Azərbaycanda iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının inkişafı, bütün həyatın yenidən qurulması Rusiya ilə, Rusiyadan, Rusiya mütəxəssislərindən aldığımız köməklə sıx bağlıdır. Yəqin Rusiyada bunu qiymətləndirirlər ki, Rusiyanın və bütün Sovetlər İttifaqının iqtisadiyyatının inkişafında, sənayenin inkişafında, sənayeləşdirmədə Azərbaycan nefti öz rolunu oynamışdır. Biz iftixarla deyirik ki, Azərbaycan neftçiləri Rusiya Federasiyasının və o vaxtkı bütün Sovetlər İttifaqının müxtəlif regionlarında bir çox neft və qaz yataqlarının aşkara çıxarılmasının fəal iştirakçıları olmuşlar.

Bütün bunlar tarixin ayrı-ayrı faktlarıdır. Bu gün isə bizim üçün ən başlıcası odur ki, Sovetlər İttifaqının süqutundan sonra müstəqil dövlətlər yaranmış və Rusiya Federasiyası öz suverenliyini elan edərək demokratiya, bazar iqtisadiyyatı prinsiplərini həyata keçirməyə, iqtisadi, sosial islahatlar aparmağa başlamışdır. Bu, keçmişdə Sovetlər İttifaqının tərkibinə daxil olmuş indiki digər müstəqil dövlətlər üçün nümunə olmuşdur. Biz bunu yüksək qiymətləndiririk ki, Rusiya dövlətin, ictimai həyatın demokratikləşdirilməsi, bazar iqtisadiyyatının inkişafı, azadlıq – söz azadlığı, mətbuat azadlığı prinsiplərinin bərqərar edilməsi yolu ilə gedir. Bunlar Azər-

baycanda da həyata keçirilir. Bu proseslər bizdə bir qədər mürəkkəb, çətin getmişdir. Biz hələlik demokratiyanın inkişaf etdirilməsinin, iqtisadi islahatlar aparılmasının, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunmasının hamar yoluna çıxa bilmişik.

İndi müstəqil dövlət olan Azərbaycan Rusiya Federasiyası ilə bütün sahələrdə bərabər hüquqlar əsasında sıx dostluq münasibətləri saxlayır və əməkdaşlıq edir. Bu, həyatda, Rusiya ilə Azərbaycan arasında münasibətlərin böyük tarixində yeni mərhələdir. Bu heç də sadə olmayan, mürəkkəb yoldur. Biz hamımız bu dövrün çətinliklərinə məruz qalmışıq. Lakin bununla yanaşı, bu çətinliklər bütün sahələrdə daha sıx əməkdaşlıq etmək, əlaqələri möhkəmləndirmək, qarşılıqlı münasibətləri dərinləşdirmək və genişləndirmək zərurətini qarşıya çıxarır.

Bugünkü danışıqlar və imzalanmış sənədlər də aydın göstərir ki, biz doğru yoldayıq və əməkdaşlığımızı daha da inkişaf etdirmək, Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluğu möhkəmlətmək yolu ilə gedirik. Rusiya prezidentinin və Azərbaycan prezidentinin imzaladıqları Bakı bəyannaməsi böyük əhəmiyyətə malikdir. Bəyannamədə qarşılıqlı münasibətlərimizin yeni prinsipləri öz əksini tapmışdır, başlıcası isə, o, Rusiya Federasiyası ilə Azərbaycan arasında strateji tərəfdaşlıq prinsiplərinin yeni səviyyəyə çıxmasını şərtləndirir. Biz bu sənədi yüksək qiymətləndirir və hesab edirik ki, o, münasibətlərimizin daha da genişlənməsi və dərinləşməsi üçün zəmindir. İmzalanmış sənədlər arasında Xəzər dənizində əməkdaşlıq haqqında birgə bəyanatın çox böyük əhəmiyyəti var. Bu, hər bir ölkənin milli mənafelərinə qeyd-şərtsiz riayət edilməsi əsasında bütün Xəzəryanı dövlətlərin əməkdaşlığı üçün yol açır. İqtisadi xarakterli digər sənədlərin də bizim üçün əhəmiyyəti böyükdür. Ən başlıcası isə hörmətli Vladimir Vladimiroviçlə ölkələrimizin qarşılıqlı münasibətləri ilə bağlı, demək olar, bütün məsələlər barə-

sində, regionumuza və beynəlxalq həyata aid bütün məsələlər barəsində təkbətək söhbətimizdir. Böyük məmnunluqla demək istəyirəm ki, biz mövqelərin, baxışların uyğun gəldiyini, qarşılıqlı anlaşma olduğunu, ən başlıcası isə, əməkdaşlığımızı daha da dərinləşdirmək və inkişaf etdirmək, dostluğumuzu möhkəmlətmək arzusu olduğunu aşkara çıxardıq.

Qafqazda problemlərimiz çoxdur. Bu məsələ danışıqlarımızda xüsusi yer tuturdu. Əlbəttə, Qafqazdakı bütün problemlərin bizim üçün əhəmiyyəti var, o mənada ki, bizə dinc Qafqaz gərəkdir, Qafqazın bütün ölkələrində ictimai-siyasi vəziyyətin sabit olması, Qafqaz ölkələrinin öz aralarında lazımi səviyyədə əməkdaşlıq etməsi gərəkdir. Lakin Ermənistanla Azərbaycan arasında münaqişənin – Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün, Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Bu münaqişədən bütün Qafqaz əzab-əziyyət çəkir, ondan Azərbaycan əzab-əziyyət çəkir, ondan Ermənistan əzab-əziyyət çəkir. O, regionumuzun iqtisadiyyatının inkişafında bir çox imkanlarımızdan istifadə edilməsini ləngidir. Rusiya bu problemlə münaqişənin lap başlanğıcından məşğul olur. Hələ 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmazdan əvvəl Rusiya bu problemlə məşğul olmuşdur. Bütün dövr ərzində Rusiya bu prosesin iştirakçısıdır. Üstəlik, artıq neçə illərdir ki, o, Amerika Birləşmiş Ştatları və Fransa ilə birlikdə ATƏT-in Minsk qrupunun həmsədridir.

Bu gün biz münaqişənin dincliklə nizama salınması məsələsini müzakirə etdik. Biz sülh mövqelərində, Qafqazda sülhün bərqərar edilməsi mövqelərində, Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması mövqeyində qəti şəkildə dayanmışıq. Əlbəttə, bütün beynəlxalq hüquq normalarına, xüsusən ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsipinə əməl edilməsi şərti ilə. Odur ki, bu gün imzaladığımız sənəd çox mühümdür, orada həmin prinsiplər özünün tam əksini tapmışdır.

Ermənistan–Azərbaycan münaqişəsinin həllində Rusiyanın roluna bizdə, Azərbaycanda böyük ümidlər bəsləyirlər. Mən böyük məmnunluq hissi ilə demək istəyirəm: bu gün Vladimir Vladimiroviç mətbuat konfransında bəyan etdi ki, Rusiya öz səylərini gücləndirməyi lazım bilir, Rusiya bu məsələnin sülh yolu ilə həlli mövqelərində qəti şəkildə dayanmışdır. Açığını desək, bu, ümid və inam yaradır ki, həmin məsələni həll etmək, özü də tezliklə həll etmək olar.

Biz başa düşürük ki, bu, mürəkkəb münaqişədir. Qarşılıqlı güzəştlər lazımdır. Hesab edirik ki, bu güzəştlər həm Ermənistan tərəfindən, həm də Azərbaycan tərəfindən olmalıdır. Rusiya beynəlxalq həyatda, Qafqazda, ölkələrimizin hamısında böyük nüfuza malikdir və şübhəsiz, bu problemin aradan qaldırılmasında həlledici rol oynaya bilər. Biz bu ümidlə yaşayırıq və yaşayacağıq. Ümidvarıq ki, münaqişə sülh yolu ilə aradan qaldırılacaq, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlar azad ediləcək, bir milyon qaçqın öz doğma torpaqlarına qayıdacaq və Azərbaycanla Ermənistan arasında sülh yaranacaqdır.

Biz bilirik ki, Rusiyada da olduqca çox problem var, Sovetlər İttifaqının süqutundan sonra uzun müddət Rusiyada həyat rəvan olmamışdır. Çətinliklər, problemlər olmuşdur. Biz, müstəqil dövlətlər – mən Azərbaycanı və keçmişdə Sovetlər İttifaqının tərkibinə daxil olmuş indiki digər müstəqil dövlətləri nəzərdə tuturam – həmişə Rusiyanı əsas götürmüşük və bu illər ərzində də əsas götürmüşük. Biz Azərbaycanda həmişə hesab etmişik və hesab edirik ki, Rusiyanın iqtisadi və sosial inkişafının yüksək səviyyəsi, Rusiya Federasiyasının sabitliyi, islahatların uğurla aparılması və Rusiyanın uğurlu xarici siyasəti təkcə Rusiya üçün deyil, onu əhatə edən ölkələr üçün, o cümlədən Azərbaycan üçün də böyük əhəmiyyətə malikdir.

Bu gün biz Rusiyada gedən prosesləri, müsbət prosesləri böyük fərəh hissi ilə müşahidə edirik. Rusiya Federasiyası

dövlətçiliyinin möhkəmlənməsindən, terrorizm, ekstremizm, təcavüzkar separatizm ilə mübarizədən söhbət gedir. Beynəlxalq məsələlərin həllində Rusiyanın rolunun artmasından söhbət gedir. Rusiya böyük ölkədir. Onun çox böyük imkanları var. Buna görə də Rusiya xüsusən müasir dövrdə bir çox beynəlxalq məsələlərin həllində haqlı olaraq mühüm rol oynamalıdır.

Deməliyəm ki, Rusiyada xarici siyasətdə də, daxili siyasətdə də, dövlətçiliyin möhkəmləndirilməsində də baş verən müsbət dəyişikliklər bizi bu mənada sevindirir. Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin bütün bunlarda olduqca böyük rolu var. Biz hamımız görürük və bu, artıq real bir faktdır ki, Vladimir Vladimiroviç Putin Rusiyanın prezidenti seçildikdən sonra Rusiyada və ölkənin daxilində çox ciddi və sürətli dəyişikliklər baş verir. Beynəlxalq həyatda da Rusiyanın siması tamamilə başqa şəkil alır, o, təbii olaraq, böyük əhəmiyyət kəsb edir.

Buna görə biz alqışlayırıq ki, bu gün Rusiya Federasiyasında Prezident Vladimir Vladimiroviç Putin bütün cəmiyyəti sıx birləşdirir, dövlətçiliyi möhkəmləndirir, dinamik xarici siyasət aparır və konkret xarici siyasət tədbirləri həyata keçirir.

Bir prezident kimi və bir insan kimi, Vladimir Vladimiroviçə böyük rəğbət bəsləyirəm. Şübhəsiz ki, hər bir insanın öz mövqeləri, öz rəyləri var. Vladimir Vladimiroviç Putin özünün bütün fəaliyyəti ilə, bütün problemlərə realistcəsinə yanaşması, öz sadəliyi ilə, MDB ölkələri və digər ölkələrlə ədalətli münasibətlər qurmağa çalışması ilə qısa müddət ərzində böyük nüfuz qazanmışdır. O, Rusiyada da, bütün MDB ölkələrində də, artıq dünyada da böyük nüfuz qazanmışdır.

Bir daha demək istəyirəm ki, Rusiyada vəziyyətin sabitliyi, iqtisadiyyatın, sosial sahənin inkişafı, Rusiyanın beynəlxalq mövqelərinin möhkəmlənməsi Rusiyanı əhatə edən bütün ölkələr üçün – mən hər şeydən əvvəl öz adımdan, Azərbay-

canın adından danışıram – böyük əhəmiyyətə malikdir. Bu baxımdan Vladimir Vladimiroviç qısa müddət ərzində bütün lazımi keyfiyyətləri nümayiş etdirmiş və ona görə də Rusiyada böyük nüfuz qazanmışdır. Xətrinizə dəyməsin, yaxın keçmişdə Rusiya rəhbərliyinin nüfuzu yüksək deyildi. Əslinə qalsa, bu, müxtəlif proseslərin baş verməsinin səbəblərindən bəlkə də biri idi. Vladimir Vladimiroviç qısa müddət ərzində nümayiş etdirə bilmişdir ki, milləti, cəmiyyəti necə sıx birləşdirmək olar, dövlətçiliyi necə möhkəmləndirmək olar və uğurlu daxili və xarici siyasəti necə həyata keçirmək olar.

Biz gileylənirdik ki, Rusiya prezidentinin müstəqil Azərbaycana indiyədək səfəri olmayıbdır, budur, artıq vaxt çatmış və Rusiya prezidenti Vladimir Vladimiroviç Putin Azərbaycana gəlmişdir. O, müasir təfəkkürə, müasir baxışlara malik tamamilə yeni rəhbər tipini təcəssüm etdirir, ən başlıcası isə, bütün xalqlara, bütün dövlətlərə çox hörmətcil münasibət bəsləyir. Ona görə də, Vladimir Vladimiroviç, Siz Azərbaycanda böyük nüfuza maliksiniz və dünyada çox məşhurlaşmısınız. Bu isə Rusiya Federasiyasının daha güclü inkişafı üçün zəmindir və əlbəttə, Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsi və genişlənməsi üçün olduqca böyük əhəmiyyətə malikdir.

Vladimir Vladimiroviç, bu gün Siz məni Rusiyaya rəsmi səfərə dəvət etdiniz. Çox sağ olun, təşəkkür edirəm. Mən bu dəvətdən mütləq istifadə edəcəyəm, ümumiyyətlə, Vladimir Vladimiroviç Rusiya prezidenti seçildikdən sonra bizim çox görüşlərimiz, söhbətlərimiz, çox danışıqlarımız olmuşdur, onlar uzun illər ərzində Rusiyanın rəhbərləri ilə bəlkə də olmamışdır.

Ona görə də bu səfər bizim üçün önəmlidir, o, çox böyük əhəmiyyətə malikdir. Ölkəmizə gəldiyinizə görə mən Sizə bir daha və yenidən təşəkkür edirəm. Biz bir çox məsələləri müzakirə edə və bir sıra sənədlər imzalaya bildik.

Mən Rusiya Federasiyasının şərəfinə, rus xalqının şərəfinə, Azərbaycan ilə Rusiya Federasiyası arasında dostluğun şərəfinə, rus xalqı ilə Azərbaycan xalqı arasında dostluğun şərəfinə, Rusiyanın layiqli prezidenti, Rusiya dövlətinin başçısı hörmətli Vladimir Vladimiroviç Putinin şərəfinə badə qaldırmağı təklif edirəm. Sağ olun!

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNƏ BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

10 yanvar 2001-ci il

Çox hörmətli Vladimir Vladimiroviç!

Hörmətli professorlar, müəllimlər, Azərbaycan Slavyan Universitetinin nümayəndələri!

Bugünkü hadisə Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana rəsmi səfəri çərçivəsində mühüm hadisələrdəndir. Biz dünən və bu gün çox səmərəli və böyük iş gördük. İndi səfərə müəyyən yekun vuraraq deyirəm ki, o, Azərbaycan üçün, həm də Rusiya Federasiyası üçün, dostluq münasibətlərimizi, əməkdaşlığımızı, bütün sahələrdə qarşılıqlı fəaliyyətimizi daha da inkişaf etdirmək üçün həm çox gərəkli və faydalı olmuşdur.

Biz əvvəllər də, mən Vladimir Vladimiroviçlə Moskvada, digər şəhərlərdə görüşərkən də Azərbaycanın, Azərbaycan xalqının qədim ənənələrindən, rus və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərin böyük tarixindən danışmışıq. Fikirləşirəm ki, bugünkü hadisə mənim həmin fikirlərimin, həmin bəyanatlarımın parlaq sübutudur. Bizi böyük tarixi dostluq birləşdirir. Tarix necə olursa-olsun, ondan nəticə çıxarmaq, onu qiymətləndirmək lazımdır – həm yaxşı, həm də kədərli tərəflərini. Biz hesab edirik ki, tarixdə yaxşı olanı saxlamaq, zənginləşdirmək və qorumaq lazımdır. Bu baxımdan Azərbaycanda Rusiyaya, rus xalqına, rus dilinə

münasibətdə məhz belə siyasət aparılır. Hamınız, xüsusilə, Vladimir Vladimiroviç, Siz əmin ola bilərsiniz ki, bu siyasət ilk öncə Azərbaycanın, Azərbaycan xalqının milli mənafelərinə uyğundur və bundan sonra da davam etdiriləcəkdir.

Dünən və bu gün çoxlu görüşlər olmuşdur. Lakin mən düşünürəm ki, bugünkü görüş Vladimir Vladimiroviç üçün və mənim üçün də xüsusilə təsirli, xüsusilə xoşdur. Əvvəla, burada tələbələr az olsa da, bütün müəllim heyəti, böyük kollektiv iştirak etməsə də, Rusiya prezidenti Vladimir Vladimiroviç özü Slavyan Universitetini gördü. Hər halda, salonda olanlar, necə deyərlər, bu universitetin ən yaxşı nümayəndələridir, millətimizin qaymağıdır. Rus dilinin Azərbaycan gənclərinə öyrədilməsində, Azərbaycan məktəbləri üçün rus dili və ədəbiyyatı müəllimləri hazırlanmasında, rus dilinin həm keçmişdə, həm də indi xalqımız üçün çox zəruri olmasında, onun Azərbaycanda layiqli yer tutmasında bir il deyil, bir neçə on illər xidmət göstərmiş adamlardır.

Bu universitetin öz tarixi var, ikiillik müəllimlər institutundan başlayıblar. Lakin rektorun qeyd etdiyi kimi, 1972-ci ildə, məhz rus dili və ədəbiyyatı üzrə kadrlar hazırlanmasına böyük əhəmiyyət verərək, biz, necə deyərlər, bütün atributları olan xüsusi institut, ən yüksək səviyyəli institut yaratmağı qərara aldıq. İndi isə bu, Slavyan Universitetidir. Düşünürəm ki, bu universitetin böyük gələcəyi, böyük perspektivi var. Azərbaycan müstəqil dövlət olduqda, Sovetlər İttifaqının süqutundan sonra biz hamımız ayrılıb müstəqil dövlətlərə çevrildikdə hər bir xalq üçün dillərin, ümumən xarici dilin əhəmiyyəti, azərbaycanlılar üçün, Azərbaycan gəncləri üçün rus dilinin əhəmiyyəti azalmadı, əksinə, artdı. Vladimir Vladimiroviç rus dilinin xüsusən azərbaycanlılar üçün nə demək olduğundan çox doğru danışdı. Çünki elmin, mədəniyyətin, təhsilin yeni nailiyyətlərindən bəhs edən, Moskvada, Rusiyada nəşr olunmuş xeyli ədəbiyyat, təəssüf ki, Azərbaycan dilinə hələ tərcümə edilməmişdir. Ona görə də rus dilini

bilmək, təbii olaraq, digər Avropa dillərini də bilmək indi çox böyük əhəmiyyətə malikdir. Odur ki, biz bu universitetə çox böyük ümidlər bəsləyirik.

Vladimir Vladimiroviç, mən olduqca şadam ki, Siz proqramınızda universitetin nümayəndələri ilə görüş üçün, hər halda, yer tapdınız. Şadam ki, universitet Sizə fəxri doktor adı verdi. Deməliyəm ki, dövlət xadiminə, siyasi xadimə fəxri doktor adı verilməsi bu universitetin həyatında ilk hadisədir. Azərbaycanın Slavyan Universitetində, təbii olaraq, bütün xalqımız arasında belə yüksək şərəfə layiq görülmüş bu ilk adam bizim dostumuz Vladimir Vladimiroviç Putindir.

Vladimir Vladimiroviç, bugünkü hadisə münasibətilə Sizi ürəkdən təbrik edir və inanıram ki, bugünkü görüş daha çox sübuta yetirəcək ki – Sizə sübut etmək lazım deyil, lakin Rusiyada çoxlarına lazımdır – Rusiya ilə Azərbaycan arasında münasibətlər yaxşıdır və daha yaxşı, çox yaxşı ola bilər.

Vladimir Vladimiroviç, 1949-cu ildə Leninqradda, Peterburqda xüsusi məktəbi bitirməyim haqqında şəhadətnaməni mənə təqdim etməklə Siz məni çox təsirləndirdiniz. Mən Leninqradda bu məktəbi bitirəndə Siz hələ dünyaya gəlməmişdiniz. Leninqradda təhsil aldığım dövrdə çox şey öyrəndim. Həm də bu təhsil ocağını tamamilə bitirmək üçün, görünür, icbari olan həmin fənlər çərçivəsində deyil, eləcə də başqa fənlər çərçivəsində çox şeyi öyrəndim. Mən çox şeyə nail oldum və bu, gələcək fəaliyyətimdə, mədəniyyətdə, elmdə, təhsildə mənə çox kömək etdi.

Mən Leninqrad Universitetinin bu məktəbə dəvət edilən bir çox görkəmli professorlarının mühazirələrini dinləyirdim. Siz bu məktəbi tanıyırsınız, onun ünvanını bilirsiniz, Siz də oranı bitirmisiniz. O, Qoroxovaya küçəsində, Aleksandr bağının yaxınlığında yerləşir. Bir sözlə, o vaxtlar mən Leninqradı sevdim. Lakin Leninqradı sevməyim nə deməkdir? Mən şəhərin nəinki arxitekturasını, bütün tarixini, mühitini, eləcə də mədəniyyətini,

dilini sevdim. Bu mənim bütün sonrakı həyatımda olduqca böyük rol oynadı. Ona görə də bu şəhadətnaməni mənə təqdim etdiyiniz üçün Sizə çox minnətdaram. Bu şəhadətnamə məndə bəlkə də yoxdur. Amma görürəm ki, Siz onu qovluqdan çıxarmısınız və Azərbaycanın belə fəxri adamlarının, professorlarının, alimlərinin yanında mənə təqdim etdiniz.

Hesab edirəm ki, Bakı Slavyan Universitetinin doktoru kimi, Siz Rusiya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün daha böyük səylər göstərəcəksiniz. Mən isə Sizi əmin edirəm ki, biz öz tərəfimizdən hər şeyi edəcəyik. Mən Sizi bir daha təbrik edirəm, Sizə cansağlığı, firavanlıq arzulayıram. Bir halda ki, Azərbaycanda görüşlər bugünkü hadisə ilə başa çatır, Siz tezliklə geriyə, Moskvaya yola düşürsünüz, səfərinizə görə, birgə işimizə görə, səfərin nəticələrinə görə, imzalanmış sənədlərə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Bizdə, cəmiyyətimizdə belə bir cəhəti xüsusi qeyd edir və qiymətləndirirlər ki, bu, Rusiya Federasiyası Prezidentinin 2001-ci ilin, XXI əsrin, üçüncü minilliyin başlanğıcında ilk səfəridir. Bir sözlə, bunun da böyük əhəmiyyəti var.

Səfərə görə Sizə təşəkkür edir, Sizi təbrik edirəm, mürəkkəb, çətin və məsul işinizdə Sizə uğurlar arzulayıram. Əminəm ki, Rusiya Federasiyasının prezidenti kimi, Sizin rəhbərliyiniz altında Rusiya ölkənin həyatında olan çətinlikləri aradan qaldıracaqdır. Rusiya iqtisadi potensialına görə də, elmi potensialına, mədəni potensialına görə də daha güclü olacaqdır. Ən başlıcası isə, Dünya Birliyində öz layiqli yerini tutacaqdır. Rusiya Federasiyasının Prezidenti kimi, Siz bu vəzifədə fəaliyyətinizin qısa müddəti ərzində, zənnimcə, Rusiyalılara da, bütün dünyaya da sübut etdiniz ki, buna nail olmağa qadirsiniz, böyük rus xalqı Sizin arxanızda dayanıb, Rusiyanın bütün xalqları Sizin arxanızda dayanmışlar. Sizi bir daha təbrik edirəm.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

10 yanvar 2001-ci il

Zuğulba dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək görüşü olmuşdur.

Dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə dövlət başçıları ölkələrimizin bütün sahələrdə əlaqələrinin inkişaf perspektivlərini bir daha ətraflı müzakirə etdilər, yanvarın 9-da Bakıda imzalanmış Azərbaycan–Rusiya əməkdaşlıq sənədlərinin bu sahədə möhkəm hüquqi baza yaratmasından məmnun qaldıqlarını vurğuladılar.

Yeni əsrin, üçüncü minilliyin birinci ilində Rusiyanın dövlət başçısının xaricə ilk rəsmi səfərini məhz respublikamıza etməsini tarixi hadisə kimi qiymətləndirən respublikamızın rəhbəri bu səfərin Azərbaycan – Rusiya münasibətlərində yeni mərhələnin başlanğıcını qoyduğunu vurğuladı.

Rəsmi səfərin yüksək səviyyədə keçməsinə yaradılmış şəraitə, özünə, Rusiya nümayəndə heyətinə göstərilən mehriban qonaqpərvərliyə görə Azərbaycan prezidenti Heydər Əliyevə minnətdarlığını bildirən cənab Putin siyasətdə və dövlətçilik fəaliyyətində böyük təcrübəsi olan prezident Heydər Əliyevlə hər bir görüşün xüsusi əhəmiyyət daşıdığını bir daha nəzərə çatdırdı.

Bakıda keçirdiyi görüşlərin, apardığı danışıqların onda böyük təəssürat yaratdığını söyləyən Rusiya prezidenti əmin olduğunu bildirdi ki, bu səfərin müsbət nəticələri tarixi dostluq ənənələrinə malik ölkələrimizin bütün sahələrdə qarşılıqlı su-

rətdə faydalı əməkdaşlığının gələcək inkişafında mühüm rol oynayacaqdır.

Prezidentlər regionda vəziyyət, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması, habelə hər iki ölkəni narahat edən bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi apardılar.

Prezident Vladimir Putin Azərbaycan prezidenti Heydər Əliyevin Rusiyaya rəsmi səfərə dəvətini bir daha nəzərə çatdırdı. Dövlətimizin başçısı bu dəvəti məmnunluqla qəbul etdiyini bildirdi və cənab Putinin Bakıya ilk rəsmi səfərinin Azərbaycan ictimaiyyətində böyük rəğbət doğurduğunu vurğuladı.

AZƏRBAYCAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ BAKI BƏYANNAMƏSİ

Azərbaycan Respublikasının Prezidenti və Rusiya Federasiyasının Prezidenti,

Azərbaycan–Rusiya münasibətlərinin vəziyyətini və perspektivini hərtərəfli müzakirə edərək,

çoxəsrlik dostluq ənənələrinə, Azərbaycan və rus xalqlarının tarixi talelərinin ümumiliyinə əsaslanaraq,

ikitərəfli münasibətlər üçün böyük əhəmiyyət kəsb edən və hər iki ölkə arasında strateji tərəfdaşlığın əsasını qoyan 3 iyul 1997-ci il tarixli Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqaviləyə əsaslanaraq,

Qafqazın bu günü və gələcəyi üçün öz məsuliyyətlərini dərk edərək, Azərbaycan–Rusiya dostluğunun və strateji tərəfdaşlığının mökəmləndirilməsinin regional təhlükəsizliyin və əməkdaşlığın irəliləyişində və təminində mühüm amil olduğuna inanaraq, regionda dövlətlərin normal inkişafına, onların geniş iqtisadi və digər qarşılıqlı əlaqələrinə maneçilik törədən münaqişələrin həll olunmaması ilə əlaqədar xüsusi narahatlıq bildirərək, hər iki dövlətin ali rəhbərləri arasında daim və sıx əlaqələrin saxlanılmasına, ikitərəfli regional və beynəlxalq problemlərə dair müntəzəm fikir mübadilələrinin aparılmasına hazır olduğundan çıxış edərək, beynəlxalq hüququn hamı tərəfindən tanınmış normalarına BMT Nizamnaməsinə, Helsinki Yekun Aktına və ATƏT-in digər sənədlərinə qəti şəkildə tərəfdar çıxaraq aşağıdakıları bəyan edirlər:

Azərbaycan Respublikası və Rusiya Federasiyası ikitərəfli əlaqələri, onların dövlət suverenliyinə və müstəqilliyinə qarşılıqlı hörmət, bərabər hüquq, daxili işlərə qarışmama, zor işlətmə və ya zor işlətməklə hədələməmək, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, mübahisələrin sülh yolu ilə həll olunması, insan hüquqlarına və əsas azadlıqlarına hörmət edilməsi, öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləri, habelə beynəlxalq hüququn digər ümumtanınmış normaları əsasında yeni, daha yüksək strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaqda qətiyyətlidirlər. Onlar iqtisadi islahatların və demokratik dəyişikliklərin həyata keçirilməsində bir-birinin səylərini dəstəkləyəcəklər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazı sülh, mehriban qonşuluq və tərəqqi regionuna çevirmək istiqamətində əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını bildirirlər.

Ali səviyyədə Azərbaycan–Rusiya konstruktiv dialoqunun sonrakı inkişafı bu vəzifələrin yerinə yetirilməsinin mühüm zəmini olacaqdır.

I

Azərbaycan Respublikası və Rusiya Federasiyası siyasi, ticarət-iqtisadi, hərbi, humanitar, mədəniyyət, elm, təhsil, informasiya, turizm və idman sahəsində ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi xəttinə tərəfdar olduqlarını təsdiq edirlər.

Azərbaycan Respublikasının Prezidenti və Rusiya Federasiyasının Prezidenti qarşılıqlı maraq kəsb edən məsələlərə dair müxtəlif səviyyələrdə ikitərəfli xarici siyasət sahəsində məsləhətləşmələr təcrübəsini faydalı sayır və genişləndirilməsinə lüzum olduğunu hesab edirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası parlamentlərarası əlaqələrin inkişafına, habelə qanun yaradıcılığı

fəaliyyətində, demokratik institutların formalaşmasında və fəaliyyətində təcrübə mübadiləsinə kömək edəcəklər.

Onlar qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə mühüm əhəmiyyət verirlər və ticarət dövriyyəsinin həcminin artmasına, yanacaq-energetika kompleksi də daxil olmaqla, iqtisadiyyatın müxtəlif sahələrində kooperasiyanın inkişafına hər cür imkan yaradacaqlar.

Azərbaycan Respublikası və Rusiya Federasiyası maliyyə və bank strukturları ilə bağlı qarşılıqlı əlaqələrin inkişafını, investisiya layihələrinin həyata keçirilməsinin, birgə müəssisələrinin və digər təsərrüfat birliklərinin yaradılmasını dəstəkləyəcəklər.

Onlar Azərbaycan Respublikası və Rusiya Federasiyası maliyyə və bank strukturları ilə bağlı qarşılıqlı əlaqələrin inkişafını, investisiya layihələrinin həyata keçirilməsini, birgə müəssisələrin və digər təsərrüfat birliklərinin yaradılmasını dəstəkləyəcəklər.

Onlar Azərbaycan Respublikası və Rusiya Federasiyasının subyektləri, həmçinin onların təsərrüfat subyektləri arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsini faydalı sayırlar.

Hər iki dövlət Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası Komissiyanın fəaliyyətinin daha da gücləndirilməsi zəruriliyini qeyd edirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası hər iki ölkənin təhlükəsizliyinin təmin olunması ilə bağlı maraqlara cavab verən, üçüncü dövlətə qarşı yönəlməyən, habelə Azərbaycan Respublikası və Rusiya Federasiyasının beynəlxalq öhdəliklərinə zidd olmayan uzunmüddətli əsasda ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını bildirirlər.

Onlar Azərbaycan Respublikasında yaşayan rusları və Rusiya Federasiyasında yaşayan azərbaycanlıları Azərbaycan və Rusiya cəmiyyətinin üzvi hissəsi, xalqların yaxınlığının saxlanılmasında və aralarındakı dostluq münasibətlərinin möhkəmləndirilməsinə kömək edən amil hesab edirlər.

Hər iki dövlət mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlığın daha da inkişafının və genişləndirilməsinin, habelə hər iki ölkənin xalqları arasında ənənəvi dostluq münasibətlərinin və etimadın möhkəmləndirilməsi üçün bu sahələrdə hərtərəfli mübadilələrin əhəmiyyətini qeyd edirlər.

Onlar Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədlərinin delimitasiyası və demarkasiyasının mühüm əhəmiyyətini vurğulayır və dövlət komissiyalarının işlərinin davam etdirilməsinin zəruriliyini təsdiq edirlər.

Prezidentlər Xəzər problemləri üzrə hər iki dövlətin yanaşmalarının yaxınlaşmasını qeyd edir, bununla əlaqədar qəbul olunmuş Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığı prinsipləri haqqında Birgə Bəyannaməsini alqışlayır və hər iki dövlətin müntəzəm, o cümlədən də beş Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupu formatında əlaqələrini davam etdirməyə hazır olduqlarını bildirirlər.

II

Azərbaycan Respublikası və Rusiya Federasiyası ənənəvi siyasi, iqtisadi, elmi, mədəni-tarixi əlaqələrin və Qafqazda humanitar təmasların, millətlərarası barışığın və sülhün möhkəmləndirilməsinin inkişafına imkan yaratmaq səylərini ifadə edirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazda təhlükəsizliyin təminə və əməkdaşlığın inkişafına yanaşmaların müəyyən edilməsinə bu region dövlətlərin əsas rol oynaması fikrindən çıxış edirlər.

Prezidentlər bununla əlaqədar Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan və Rusiya Federasiyası tərkibində yüksək səviyyədə əlaqələrin mühüm əhəmiyyətini vurğulayırlar və onun nəticələrinin daha səmərəli olmasına nail olacaqlar.

Onlar 20 iyun 2000-ci ildə Moskva şəhərində Qafqaz dövlətləri başçılarının görüşündə əldə edilmiş razılıqları, xüsusilə də belə görüşlərin bundan sonra ildə iki dəfədən az olmayaraq keçirilməsi ilə bağlı fikri alqışlayırlar.

Hər iki dövlətin başçısı hesab edir ki, regionda etibarlı təhlükəsizliyin təmin olunmasının və çoxtərəfli əməkdaşlığın canlandırılmasının zəruri şərti lokal münaqişələrin sülh yolu ilə, ədalətli və davamlı şəkildə həll olunmasıdır. Onlar Qafqaz dövlətləri arasında sülhün, mehriban qonşuluğun bərpa edilməsi və saxlanılmasının əsası olan ərazi bütövlüyü, beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə və beynəlxalq hüququn digər norma və prinsiplərinə qəti tərəfdar olduqlarını bildirirlər.

Bu konteksdə Azərbaycan Respublikası və Rusiya Federasiyası Dağlıq Qarabağ münaqişəsinin müvafiq BMT TŞ qətnamələri və ATƏT qərarları əsasında siyasi yolda həll olunmasına tərəfdar çıxırlar.

Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında yüksək səviyyədə aparılan birbaşa dialoqu alqışlayır, onun Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll olunmasına kömək edəcəyinə əmin olduğunu bildirir.

Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında, Rusiya Federasiyasının, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyətinin daha da fəallaşmasına ümid etdiyini bildirir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazda regionun dinc gələcəyi üçün təhlükə törədən terrorizmin, ekstremizmin və təcavüzkar separatizmin yayılması ilə əlaqə-

dar ciddi narahat olduqlarını bildirirlər. Bunları nəzərə alaraq, onlar özlərinin xarici siyasət, güc və hüquq-mühafizə strukturlarının səmərəli qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsini davam etdirəcəklər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazdakı münaqişələr nəticəsində qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına tezliklə könüllü və təhlükəsiz şəkildə qayıtmalarına bundan sonra hər vasitə ilə kömək edəcəklər.

Onlar regiondakı beynəlxalq nəqliyyat əlaqələrinin tezliklə tam bərpası üçün zəruri səy göstərəcəklərini, Azərbaycanın Şimal–Cənub nəqliyyat dəhlizinə, Rusiyanın isə Avropa – Qafqaz – Asiya (TRASEKA) nəqliyyat dəhlizinə qoşulmasına qarşılıqlı yardım edəcəklərinə hazır olduqlarını bəyan edirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazın nadir təbiətinin qorunması, beynəlxalq turizmin inkişafı, texnogen qəzaların və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması məsələlərində hərtərəfli əməkdaşlığa xüsusi diqqət yetirəcəklər. Onlar qeyd edirlər ki, demokratiyanın inkişafı və insan hüquqlarına və azadlıqlarına əməl edilməsi hər iki ölkənin və bütövlükdə regionun layiqli gələcəyinin əsası, Qafqaz dövlətlərinin ümumavropa və dünya strukturlarına inteqrasiyasının mühüm şərtidir.

Hər iki dövlət beynəlxalq birliyin regionda etimad mühitinin yaradılmasına və davamlı iqtisadi inkişafın təmin edilməsinə yönəlmiş təşəbbüslərini alqışlayır.

III

Azərbaycan Respublikası və Rusiya Federasiyası BMT, ATƏT, Avropa Şurası, MDB, digər beynəlxalq təşkilatlar və universal və regional xarakterli forumlar çərçivəsində sıx və konstruktiv qarşılıqlı fəaliyyətlərini inkişaf etdirəcəklər.

Onlar əmindirlər ki, Müstəqil Dövlətlər Birliyi formatında əməkdaşlığın dərinləşdirilməsi tərəflərin milli maraqlarına cavab verir və ümumbəşəri tendensiyalar istiqamətində gedir.

Hər iki dövlət MDB-də çoxtərəfli iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə, xüsusən Birlikdə mükəmməl bazar infrastrukturlarının yaradılmasının zəruri şərti olan azad ticarət zonalarının yaradılmasına, gələcəkdə əmtəə, xidmət, işçi qüvvəsi və kapitalın azad dövriyyəsinə əsaslanan ümumi iqtisadi məkanın inkişafına böyük əhəmiyyət verirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası BMT və onun Təhlükəsizlik Şurasının beynəlxalq məsələlərdə, ilk növbədə isə çoxqütblü dünyada sülhün və təhlükəsizliyin dəstəklənməsində mərkəzi rolun möhkəmləndirilməsinə kömək edəcəklər.

Onlar minilliyin zirvə görüşünün siyasi nəticələrini yüksək qiymətləndirirlər, onun səmərəli həyata keçirilməsi məqsədilə öz aralarında və bütün maraqlı dövlətlərlə sıx qarşılıqlı fəaliyyət göstərmək niyyətindədirlər.

Hər iki dövlət ərazi, etnik, dinlərarası və digər münaqişələri BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qərarlarına ciddi şəkildə əməl etməklə həll olunmasına səy göstərəcəklər. Onlar hüquq müdafiəsi və humanitar bəhanələrlə suveren dövlətlərin daxili işlərinə qarışmağa yönəlmiş hər cür hərəkətlərin və cəhdin əleyhinə qətiyyətlə çıxış edirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası silahlanma və tərksilaha nəzarət sahəsində mövcud müqavilələr sisteminin saxlanılmasının, kütləvi qırğın silahlarının və onları daşıma vasitələrinin yayılmaması prosesinin irəli aparılmasının, istisnasız olaraq bütün dövlətlərin təhlükəsizlik maraqlarının təmin olunmasının tərəfdarıdırlar. Onlar 26 may 1972-ci il tarixli raket əleyhinə müdafiə sisteminin məhdudlaşdırılması haqqında müqavilənin müasir şəraitdə strateji sabitliyin təməl

daşı kimi mövcud dəyərini saxlamasına razıdırlar və bu istiqamətdə göstərilən beynəlxalq səyləri dəstəkləyirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası nüvə silahının yayılmaması haqqında müqavilənin qüvvəsinin müzakirəsinə dair 2000-ci il konfransının qərarlarının mühümlüyünü qeyd edirlər və atom enerjisindən dinc istifadə sahəsində bərabərhüquqlu beynəlxalq əməkdaşlığın hərtərəfli şəkildə genişləndirilməsini alqışlayırlar.

Azərbaycan Respublikası və Rusiya Federasiyası AEVA-nın himayəsi altında yeniləşdirilmiş nüvə texnologiyasının və nüvə yanacağının təbii təhlükəsiz dövriyyəsinin konseptual işlənib hazırlanmasına dair beynəlxalq layihənin təşkili haqqında təklifləri dəstəkləyirlər.

Onlar 1999-cu ilin noyabrında İstanbulda ATƏT-in zirvə görüşündə imzalanmış Avropada adi silahlı qüvvələrə dair Müqavilənin uyğunlaşdırılması haqqında sazişin Avropa təhlükəsizliyinin təmini üçün əhəmiyyətini qeyd edirlər.

Rusiya Federasiyası Azərbaycan Respublikasının Avropa Şurasına daxil olmasını dəstəkləyir və alqışlayır.

Azərbaycan Respublikası və Rusiya Federasiyası əmindirlər ki, onların qarşılıqlı etimad ruhunda həm ikitərəfli münasibətlər sahəsində, həm də beynəlxalq arenada sıx və dinamik əməkdaşlığı hər iki xalqın və dövlətin maraqlarına cavab verir və özlərinin, regional və qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə kömək edir.

Bakı şəhərində 9 yanvar 2001-ci ildə iki əsl nüsxədə Azərbaycan və rus dillərində tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

Azərbaycan Respublikasının Prezidenti

_____H.Ə.ƏLİYEV

Rusiya Federasiyasının Prezidenti

_____V.V.PUTİN

TÜRKSOY TƏŞKİLATININ XV TOPLANTISINDA İŞTİRAK EDƏN TÜRKDİLLİ ÖLKƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

16 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən sizi səmimi-qəlbdən salamlayıram. TÜRKSOY təşkilatına daxil olan ölkələrin mədəniyyət nazirlərinin XV görüşü keçirilir. Məmnunam ki, bu görüş Azərbaycanda olur. Mən sizin toplantıya təbrik məktubu göndərmişəm. Güman edirəm ki, məktubum sizə çatıbdır.

TÜRKSOY barədə çox danışmışıq. Ancaq bu gün mən onu deyə bilərəm ki, Türkdilli Dövlətlər Birliyi yaranandan indiyə qədər TÜRKSOY təşkilatı hamıdan çox iş görmüş bir təşkilatdır. Bu da müəyyən qədər təbiidir. Mənim öz dilimizdə danışmağıma etiraz etmirsiniz? Çünki bəzən biz Mərkəzi Asiya dövlətlərində yığışanda rus dilində danışırıq. Orta Asiya nümayəndələri etiraz etmirlər ki, öz dilimizdə danışım?

Bəli, bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik sovet hakimiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır. Bəzən də Sovetlər İttifaqında yaşayan türkdilli xalqlar üçün qadağan olubdur. O vaxt Sovetlər İttifaqında belə bir anlayış mövcud idi ki, vahid sovet xalqı vardır. Bütün millət-

lər də var, ancaq vahid sovet xalqı da. Biz, məsələn, Mərkəzi Asiyada olan qardaşlarımızla daim əlaqədə idik, bir ölkənin tərkibində idik. Biz həmişə bir-birimizlə rusca danışırdıq və tarixi keçmişimizi, mədəniyyətimizi, onların dərin köklərini heç vaxt araşdırmırdıq. Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra türkdilli dövlətlər birliyi yaranıbdır. Bu birliyin də, yenə də deyirəm, ən əsas özəklərindən biri TÜRKSOY təşkilatıdır.

Mən sizin gördüyünüz işləri yüksək qiymətləndirirəm. Arzu edirəm ki, bu işləri bundan sonra da davam etdirəsiniz. Çünki həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün hələ çox iş görmək lazımdır ki, bu itirilmiş dövrü, zamanı, onillikləri bərpa edək. Yəni onu bərpa etmək mümkün deyil, o dövrdə itirdiklərimizi indi qısa bir zamanda yaratmaq lazımdır.

Mən sizi təbrik edirəm və arzu edirəm ki, işlərinizi bu cür davam etdirəsiniz. Siz dövlət başçılarından daha zirəksiniz. Çünki biz, deyək ki, altı dəfə görüşmüşük. Amma siz on beş dəfə görüşmüsünüz. Ancaq bu da təbiidir. Çünki dövlət başçılarının bir çox problemləri vardır. Onların ildə bir dəfə görüşməsi bəzən bəs edir. Bu görüşlərdə biz, təbiidir ki, mədəniyyət, elm, tarixi keçmişimiz haqqında da çox fikir mübadiləsi aparırıq. Amma eyni zamanda bu görüşlərin iqtisadi əməkdaşlıq tərəfi də vardır.

Bu da çox əhəmiyyətlidir. Amma siz isə, bir də qeyd edirəm, bizim türkdilli xalqların ən incə və ən vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Bu, ola bilər ki, türkdilli, başqa dilli dövlətlə olsun – ticarət elə ticarətdir. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır.

Bizim ədəbiyyatımız, musiqimiz, tarixi köklərimizi sübut edən əsərlərimiz – bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir. Məsələn, biz keçən il «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini keçirdik. Bütün türkdilli dövlətlərdən, təkcə türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz «Kitabi-Dədə Qorqud» haqqında, demək olar ki, o bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi «Kitabi-Dədə Qorqud» hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri Ata Qorqud deyir, digəri Dədə Qorqud deyir.

Yaxud da ki, bir neçə il bundan öncə biz yenə də hamımıza mənsub olan Füzulinin yubileyini keçirdik. Çox dəyərli bir hadisə oldu. Toplaşdıq. Mən Azərbaycanda keçirilənləri deyirəm. Qazaxıstanda da, Özbəkistanda da çox gözəl tədbirlər keçirilibdir. Qırğızıstanda «Manas»ın minillik yubileyini keçirdik. Türkmənistanda da belə tədbirlər olmuşdur. Ona görə də sizin gördüyünüz işlər xalqlarımız üçün ən dəyərli işlərdir. Bu münasibətlə sizə təşəkkür edirəm, sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu təşkilat yaşayacaq, inkişaf edəcək və gələcək nəsillər üçün də çox yeni şeylər yaradacaqdır.

İstemihan Talay (*Türkiyə Respublikasının Mədəniyyət naziri*): Sayın Cümhurbaşqanım. Bizi qəbul etdiyiniz üçün öz adımdan və TÜRKSOY ailəsinə mənsub mədəniyyət nazirləri adından Sizə öz minnətdarlığımızı bildiririk. Bu gün səhər toplantımıza göndərdiyiniz təbrik məktubu həqiqətən hər birimizə yol göstərəcək özəlliklər daşıyır. Bu gün bizi qəbul edərkən söylədiyiniz fikirlər bizə çox şeyləri anlatdı və gələcəyimizi işıqlandıran və onu bizə yol göstərən bir iradə olaraq dəyərləndiririk. Əvvəldən indiyədək, hər zaman TÜRKSOY-a ən böyük dəstəyi Siz verdiniz. Hörmətli Süleyman Dəmirəllə birlikdə Siz TÜRKSOY-un daim uğurlu fəaliyyət göstərməsi

üçün bizi dəstəklədiniz. Polad Bülbüloğlu qardaşım da təşkilatın Baş direktoru olaraq Sizin verdiyiniz təlimatları ən gözəl şəkildə yerinə yetirdi. Bu gün səkkiz yaşı tamam olan TÜRKSOY türk xalqları arasındakı bir mədəniyyət və sənət körpüsü olaraq özünü təsdiq etmişdir. Bundan sonra da bu çalışmalar ən gözəl şəkildə, Sizin bizə verdiyiniz təlimatlar əsasında yerinə yetiriləcəkdir. Biz Sizi, sadəcə, Azərbaycanın dəyərli cümhurbaşqanı deyil, eyni zamanda türk dünyasının çox dəyərli böyüyü olaraq sayqı ilə salamlayırıq və sonrakı fəaliyyətimizdə də bizə ən böyük dəstəyi verəcəyinizə inanırıq. Bu duyğularla öz adımdan və həmkarlarım adından Sizi təkrar sayqı ilə salamlayıram.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm. Çox sağ olun. Yenə də bir söz demək istəyən varmı?

P o l a d B ü l b ü l o ğ l u: Hörmətli və əziz Prezidentimiz! Bir qayda olaraq, hər nazir bir hədiyyə verməsin deyə, biz TÜRKSOY ailəsi adından Sizə kiçik hədiyyə vermək istəyirik. Bu da TÜRKSOY-un Bakıda keçirilən toplantısından və Sizinlə bugünkü görüşümüzdən bir yadigar olacaqdır. Bu Sizin üçün Türkiyədə xüsusi sifariş edilmiş, qızıldan düzəldilmiş nimçədir. İcazənizlə, onu Sizə təqdim edirik.

H e y d ə r Ə l i y e v: Gözəl əsərdir. Elə TÜRKSOY-un əsas vəzifəsi də mədəniyyət əsərləri yaratmaqdır. Bu da mədəniyyət əsərinin bir nümunəsidir. Təşəkkür edirəm. Çox sağ olun.

P o l a d B ü l b ü l o ğ l u: Hörmətli Prezidentimiz, türkdilli ölkələrin dövlət başçılarının gələcək zirvə toplantısını Türkiyədə keçirmək planlaşdırılır.

H e y d ə r Ə l i y e v: Bəli, İstanbulda keçiriləcəkdir.

P o l a d B ü l b ü l o ğ l u: Bizim dostlarımız, nazirlər bu gün belə bir təklif irəli sürdülər. TÜRKSOY-un gözəl bir rəsm sərgisi var. Biz bu gün Bakıda həmin sərgini açdıq. Həmin sərgidə yüzdən çox əsər nümayiş etdirilir. Biz türk dünyasının

gənc rəssamlarını dəvət edirik, onlara şərait yaradırıq. Onlar yeni əsərlər yaradırlar. Bu əsərləri hədiyyə olaraq TÜRKSOY-a verirlər. Beləliklə, üç dəfə keçirilən belə tədbirlər nəticəsində türk dünyasının gənc rəssamlarının 100-dən çox gözəl əsəri toplanmışdır. Türkiyənin hörmətli Mədəniyyət naziri söz verir, İstanbulda yaxşı bir salon tapacaq ki, orada sərgi təşkil edək. Biz dövlət başçılarını oraya dəvət edə bilərik və icazə versəniz, orada bizim ölkələrimizin hərəsindən bir sənətçinin iştirakı ilə 50 dəqiqəlik, 1 saatlıq konsert təşkil edə bilərik. Siz bizi dəstəkləsəniz, bunu edə bilərik.

H e y d ə r Ə l i y e v: Mən sizi dəstəkləyirəm. Təbiidir ki, hər bir belə hadisə əhəmiyyətlidir və bizi bir-birimizə daha da yaxınlaşdırır. Münasibətlərimizi daha da səmimi, isti edir. Ona görə də mən nəinki etiraz etmir, bunu dəstəkləyirəm. Ancaq bu işdə təşəbbüs yenə də Türkiyə tərəfindən olmalıdır. Çünki türkdilli dövlətlərin başçılarının son zirvə görüşü Bakıda keçdi. O vaxt qərara gəldik ki, bundan sonrakı görüş İstanbulda, Türkiyədə keçəcəkdir. Türkiyə hökuməti bunun nə vaxt keçirilməsi haqda fikir söyləsə, təbiidir ki, başqa ölkələrin də prezidentlərinin fikrini öyrənib hamı üçün münasib bir gün müəyyən edilməlidir. Mən bu tədbirdə iştirak etməyə, İstanbula getməyə hazıram. Sizin oradakı sərginiz də, əlbəttə, zirvə görüşünü daha da gözəlləşdirəcəkdir.

Sizə bir daha təşəkkür edirəm. Mən çox məmnunam ki, siz Azərbaycandasınız, Bakıdasınız. Bizim həyatımızı görmüsünüz. Güman edirəm, əvvəllər, yəni keçən illərdə Azərbaycanda olanlar iki il, üç-dörd il bundan öncəki vəziyyəti müqayisə edib deyə bilərlər ki, indi ölkəmiz müstəqillik yolu ilə gedir. Baxmayaraq ki, böyük çətinliklərlə üzləşibdir. Bilirsiniz ki, Azərbaycan indiyə qədər Ermənistanla hərbi münaqişədədir və baxmayaraq ki, altı il bundan öncə atəşkəs haqqında razılığa gəlmişik, saziş imzalamışıq, sülh danışıqları aparırıq, hələ ki buna nail ola bilməmişik. Ərazimizin 20 faizi Ermə-

nistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan zorla çıxarılmış bir milyon soydaşımızın əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayır.

Bütün bu çətinliklərə baxmayaraq, başqa problemlərimiz də vardır. Hər bir ölkədə keçid dövrünün problemləri vardır. Məsələn, Türkiyə 80 ilə yaxındır ki, bir cümhuriyyət kimi inkişaf edir – onun 75 illiyini 1998-ci ildə bayram etdik. Türkiyənin özündə də problemlər vardır. Ancaq biz, yeni müstəqillik əldə etmiş və xüsusən demokratiya yolunu seçmiş, bazar iqtisadiyyatına keçmiş ölkələr, həm iqtisadiyyatda, həm sosial sahədə, həm mədəniyyətdə, həm də cəmiyyətdə böyük dəyişikliklər aparırıq. Bu dəyişikliklər də əzab-əziyyətsiz ola bilməz. Bu dəyişikliklərin hər biri əgər gələcəkdə müsbət nəticə verəcəksə də, keçid dövründə bunun çətinlikləri və bəzən də mənfi təsiri var.

Bütün bunlara baxmayaraq, Azərbaycan inkişaf edir. Bizdə iqtisadiyyat da, mədəniyyət də inkişaf edir. Mədəniyyət xadimlərinə münasibət də çox yaxşıdır. Prezident kimi, mən onlara qayğı da göstərirəm – maaşlarını da artırıram, başqa şeylər də edirəm ki, mədəniyyət yaşasın. Nə olursa-olsun, mədəniyyət, incəsənət yaşamalıdır.

Bizim bir çox fabriklərimiz var, vaxtilə çox yaxşı işləyirdilər. Bunlarda on minlərlə insan çalışırdı, oradan maaş alıb ailəsini saxlayırdı. İndi fabriklər, zavodlar o qədər işləyə bilmir. Biz başqasını yaradacağıq. Yaxud da onları işlətməyə yol tapacağıq.

Amma mədəniyyət, incəsənət, ədəbiyyat elədir ki, dayana bilməz, gərək həmişə inkişaf etsin. Ona görə də biz Azərbaycanda başqa sıxıntılarımıza, problemlərimizə baxmayaraq, mədəniyyətə, incəsənətə, ədəbiyyata–bütün bu sahələrə xüsusi diqqət göstəririk. Ona görə də bunlar həm yaşayır, həm də inkişaf edirlər. Güman edirəm, bu müddətdə təkcə bunları yox, bizim Bakıda olan dəyişiklikləri də görmüsünüz, yaxud

da görəcəksiniz ki, bir müstəqil, demokratik, dünyəvi, hüquqi dövlət kimi, Azərbaycan daim irəli gedir.

Mənim sizə deyəcəyim sözlər bu qədərdir. Qalan məsələləri özünüz həll edirsiniz. Çox sağ olun. Cümhurbaşqanlarınıza, prezidentlərinizə, hökumətlərinizə və xüsusən mədəniyyət, incəsənət xadimlərinə – yazıçılara, şairlərə, rəssamlara mənim salamımı, hörmət və ehtiramımı çatdırın.

NATO-nun BAŞ KATİBİ LORD CORC ROBERTSON VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

16 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli Baş katib!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz. Mən sizi səmimi-qəlbdən salamlayıram. Azərbaycan 1994-cü ildən NATO ilə «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edir. İlk dəfə Brüsseldə NATO-nun qərargahında görüşlərim və «Sülh naminə tərəfdaşlıq» sənədinə imza atmağım mənim xatirimdədir. Ondan təxminən 6 il keçibdir və bu müddətdə, hesab edirəm, bizim əməkdaşlığımız üçün çox işlər görülübdür. Təbiidir ki, biz bunu yüksək qiymətləndiririk. Hesab edirəm ki, biz gələcəkdə də yaxşı əməkdaşlıq etməliyik.

Hörmətli Baş katib, güman edirəm, siz də bu məqsədlə bizim bölgəyə gəlmisiniz. Şəxsi nöqteyi-nəzərdən sizinlə yenidən görüşməyimdən çox məmnunam. Mən Moskvadakı görüşlərimizi və xüsusən Londondakı ətraflı söhbətimizi xatırlayıram. İndi isə siz, nəhayət, Cənuba, Azərbaycana gəlmisiniz.

Bilirəm ki, siz bir müddət bundan əvvəl Gürcüstanda olmuşdunuz. Ancaq Azərbaycanda, Ermənistanda, yəni üç Cənubi Qafqaz ölkəsinin ikisində olmamışdınız. İndi Ermənistanda oldunuz və nəhayət, Azərbaycana da gəldiniz. Çox məmnunam. Buyurun.

C o r c R o b e r t s o n: Cənab Prezident, səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm.

Buraya ilk dəfə gəlmək və Sizinlə görüşmək imkanı məni sevindirir. Sizə məktubda yazdığım kimi, qəlbən təəssüflənirəm ki, qabaqcadan planlaşdırıldığı kimi, buraya sentyabrda gəlməyə imkanım olmadı. O vaxt Yuqoslaviyada böhran yarandı və bununla əlaqədar səfər planlarımı ixtisar etməli və yalnız Gürcüstana getməli oldum. Lakin onda mən, əlbəttə, çox dəqiq şəkildə bəyan etmişdim ki, bütün qafqaz dövlətlərinə səfərsiz mənim vəzifəm mükəmməl ola bilməz. Odur ki, buraya gəlmək, Sizin çox gözəl ölkənizi görmək və Sizinlə artıq üçüncü dəfə görüşmək imkanı məni çox sevindirir.

Siz özünüz indicə dediniz ki, Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına üzv olmasından artıq altı il keçmişdir. Biz Azərbaycanın bu proqramda mühüm rol oynamasını çox yüksək qiymətləndiririk. Azərbaycanın Xarici İşlər nazirini, Müdafiə nazirini burada görmək mənə xoşdur, çünki onlar mən bu vəzifəyə başladığım vaxtdan bəri, xüsusən iclaslarda mühüm rol oynayırlar. Əlbəttə, siz mənim NATO-nun Baş katibi olduğum vaxtdan xeyli əvvəl bu ölkənin prezidentisiniz. Ancaq mənə elə gəlir ki, bizim ümumi cəhətlərimiz çoxdur, o cümlədən «Sülh naminə tərəfdaşlıq» proqramına, yəni dünyanın bu çox önəmli regionunda sülh, təhlükəsizlik, sabitlik məsələlərinə dərin, həqiqi marağımız var. Mən gözəl Bakı şəhərinin seyrinə çıxmağı səbirsizliklə gözləyirəm, mənə Xəzər dənizini ilk dəfə görməyə imkan verəcək sübh çağını səbirsizliklə gözləyirəm.

Yeri gəlmişkən, mən Atlantik okeanının 10 metrliyində doğulmuşam, buna görə də dünyanın mühüm dənizlərindən daha birini görmək imkanı məni xüsusilə sevindirir.

H e y d ə r Ə l i y e v: Şotlandiya ilə Azərbaycan arasında oxşarlıq var.

C o r c R o b e r t s o n: Mən tam əminəm ki, olduqca çox oxşarlıqlar mövcuddur və biz burada qalacağımız bir gün ərzində onları aşkara çıxaracağıq.

H e y d ə r Ə l i y e v: Cənab Baş katib, təşəkkür edirəm. Bir daha məmnun olduğumu bildirirəm ki, siz Azərbaycana gəlmisiniz. Ancaq bunun üçün az vaxt ayırmısınız. Təbiidir ki, mənimlə söhbət aparmaq üçün və başqa görüşlər üçün də vaxt kifayətdir. Ancaq Bakı ilə tanış olmaq, Xəzər dənizini yaxşı görmək – bu daha da çox vaxt tələb edir. Güman edirəm, bizim məsul şəxslər çalışarlar ki, siz qısa bir zamanda çox şey görəsiniz. Amma bizim üçün ən əsas odur ki, biz 1994-cü ildə «Sülh naminə tərəfdaşlıq» proqramına daxil olarkən dünyanın hər yerində, o cümlədən Qafqazda da sülhün bərqərar olmasını özümüz üçün əsas məqsəd kimi qəbul etmişik. Elə proqramın adı da bunu sübut edir – «Sülh naminə tərəfdaşlıq». Amma bilirsiniz ki, indi Qafqazda, Cənubi Qafqazda sülh yoxdur. Doğrudur, müharibə də yoxdur, amma sülh də yoxdur.

Siz Ermənistandan buraya gəlmisiniz, güman edirəm, orada da söhbətlər olubdur. Ancaq təəssüflər olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə biz indiyə qədər Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll edə bilməmişik.

NATO birinci növbədə hərbi təşkilatdır. Ona görə, o daha yaxşı bilir ki, kim münaqişədə günahkardır və münaqişənin nəticəsinin günahkarı kimdir. Əgər bu məsələyə ədalətli yanaşılsa, onu demək lazımdır ki, bu münaqişəni başlayan da Ermənistandır. Hələ 1988-ci ildə o, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa iddia edərək, münaqişəni başlamış, sonra bu, müharibəyə çevrilmişdir. Bir neçə il gedən müharibə, doğrudur, həm o tərəfdən, həm də bu tərəfdən müharibə şəklində getməyibdir. Ancaq müharibə olubdur və müxtəlif səbəblərdən – ona görə yox ki, müharibədə Azərbay-

can Ermənistandan gücsüz olubdur – Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisinin 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı zorla çıxarılıbdır və artıq 7-8 ildir ki, onlar ağır vəziyyətdə, əksər hissəsi isə çadırlarda yaşayırlar.

Bu ədalətsizlik bütün dünyanın gözünün qarşısındadır. O cümlədən NATO-nun. Yenə də deyirəm, NATO-nun əsas məqsədi – biz bunu belə anlayırıq, baxmayaraq, kimsə hesab edir ki, guya NATO hansısa hegemonluq məqsədi daşıyır – heç olmasa, Avropada sülh yaratmaqdan ibarətdir. Mən dedim ki, hegemonluğu biz demirik, bəziləri deyirlər. Əksinə, biz hesab edirik ki, bu, sülhü təmin edən bir təşkilatdır. Siz özünüzü Yuqoslaviyada da göstərdiniz, ədalətsizliyə qarşı çıxdınız. Ancaq burada ədalətsizlik hələ də mövcuddur. Güman edirəm, bu barədə biz sizinlə hələ danışarıq.

Bir sözlə, Cənubi Qafqazda təhlükəsizlik bir çox məsələlərdən asılıdır. Ancaq birinci növbədə Cənubi Qafqaz ölkələrində münaqişələrə son qoymaq lazımdır. Bunların içərisində isə Ermənistan–Azərbaycan münaqişəsi xüsusi yer tutur. Yəni bu hansısa ölkənin hansısa bir etnik qrupu, ya azlığı arasında olan münaqişə deyil, iki müstəqil dövlət arasında olan münaqişədir. Həm Birləşmiş Millətlər Təşkilatının üzvü, həm ATƏT-in üzvü olan, həm də «Sülh naminə tərəfdaşlıq» proqramında bir yerdə fəaliyyət göstərən iki ölkənin arasında gedən münaqişədir. Ona görə biz hesab edirik ki, bütün beynəlxalq təşkilatlar, o cümlədən NATO da bu işə çox diqqətli yanaşmalıdır. Belə vəziyyət daim davam edə bilməz və davam etməməlidir.

Ona görə, yenə də deyirəm, biz bir çox məsələləri müzakirə edə bilərik. Ancaq bizim üçün ən əsas məsələ budur. Ona görə mən bu barədə sizə öz fikirlərimi söyləyirəm.

C o r c R o b e r t s o n: Cənab Prezident, sağ olun. Mən sadəcə olaraq, bir məqamı şərh etmək istərdim. Bir halda ki,

biz burada camaat qarşısında görüşürük, mən Kosovoda vəziyyətin sabitləşdirilməsi proseslərində iştirak edən sülhməramlı qüvvələrinizə görə Sizə, hökumətinizə, xalqınıza təşəkkürümü bildirmək istərdim. Bu, yəqin dünyanın indiyədək gördüyü ən böyük sülhyaratma əməliyyatıdır. Əlbəttə, bu qoşunlara nəinki NATO ölkələrinin, habelə Rusiyanın, NATO üzvü olmayan dövlətlərin, o cümlədən də Azərbaycanın hərbi qulluqçuları daxildirlər. Bu yardıma görə Sizə çox minnətdarıq.

Dağlıq Qarabağ məsələsi barədə mən, sadəcə, bildirmək istərdim ki, NATO bu məsələ ilə məşğul olmur, bu böhranda müxtəlif tərəflərin təqsirkarlığının dərəcəsini dəqiqləşdirmək NATO-nun işi deyildir. Siz yəqin artıq bilirsiniz ki, bu gün Azərbaycana səfərimizdən əvvəl Ermənistan prezidenti Köçəryan ilə mənim çox mühüm görüşüm olmuşdur və Sizə söyləyəcəyim sözləri ona da demişəm.

Burada çox ciddi və mühüm problem var və bu təkcə Cənubi Qafqaza deyil, həm də bütün regiona təsir göstərir. Biz bu problemi hər vasitə ilə həll etməliyik. Əgər problem münaqişə iştirakçılarının özləri tərəfindən həll olunmamış qalsa, onda belə uzunmüddətli münaqişəni müşayiət edən iqtisadi, sosial və hərbi problemlərdən heç cür yaxa qurtara bilməyəcəyik. Halbuki hər şey bu münaqişənin bilavasitə iştirakçılarından asılıdır və ümidvaram ki, Siz çox tezliklə razılığa nail olacaqsınız.

Hesab edirəm ki, düzgün mövqeni və bu problemin həlli yolunu müəyyənləşdirmək üçün Ermənistan və Azərbaycan prezidentləri çox böyük təcrübəyə, siyasi cəsarətə malikdirlər və problemi geniş səpkidə görürlər. Bununla da problemin həlli nəinki Cənubi Qafqaz üçün, həm də bütövlükdə Avropa üçün yaxşı nümunə olacaqdır.

Bu cür qərarın tapılmasına başqa təşkilatlar, məsələn, ATƏT, Minsk qrupu kömək edə bilər. Rusiya prezidenti Vla-

dimir Putinin ötən həftə Azərbaycana səfər etməsi məni sevindirir. Mən onun vasitəçi kimi, Sizə kömək göstərmək təklifini yüksək qiymətləndirirəm. Lakin nəzərə çartdırmaq istəyirəm ki, NATO bu münaqişənin həlli yolunu axtarmasa da, belə bir qərarın axtarışı sahəsində beynəlxalq səyləri hər vasitə ilə dəstəkləyəcək və sonra biz müqaviləyə əməl olunması üzərində monitorinq keçirəcəyik. Biz bu məsələni Sizinlə yenə müzakirə edəcəyik, ancaq demək istəyirəm ki, bu məsələnin nəinki Azərbaycan və Ermənistan üçün, həm də daha geniş region üçün, Avropa üçün əhəmiyyətini lazımınca qiymətləndirirəm.

H e y d ə r Ə l i y e v: Sizə, NATO-nun Baş katibinə bir daha təşəkkür edirəm və ingilis dilində nəşr olunmuş, Azərbaycanın NATO ilə əməkdaşlığından bəhs edən «Sülh və təhlükəsizlik naminə» adlı kitabı Sizə bağışlayıram.

C o r c R o b e r t s o n: Cənab Prezident, mən buna qiymətli hədiyyə kimi tam təfərrüatı ilə baxacağam. Gərək növbəti kitab bundan sonrakı əlaqələrimizə aid olsun və NATO-nun yeni Baş katibinin, mənim də şəklimi oraya salasınız. Çox sağ olun. Çox yaxşı hədiyyədir. Təşəkkür edirəm.

XALQ ARTİSTİ ELDAR QULİYEVƏ

Hörmətli Eldar Quliyev!

Sizi – Azərbaycan kino sənətinin görkəmli nümayəndəsini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 60-cı illərdə Azərbaycan kinosuna yeni ab-hava gətirmiş sənətkarlardansınız. Öz bədii dəyəri və vətəndaşlıq mövqeyi ilə seçilən ilk işiniz – «Bir cənub şəhərində» filmi kinomuza yeni tipli istedadlı bir rejissorun gəlməsindən xəbər verdi. Sonralar yaratdığınız onlarca ekran əsəri milli kino tariximizdə böyük iz buraxmış, Azərbaycan kinematoqrafiyasının şöhrətini artırmışdır.

Cəmiyyətin diqqətini mənəviyyat problemlərinə cəlb etmək, onların həlli yollarını araşdırmaq yaradıcılığınızın başlıca istiqamətini təşkil edir. Cəmiyyətdə saf mənəvi dəyərlərin bərqərar olunması işinə xidmət edən filmləriniz ölkəmizdə kino həvəskarlarının dərin rəğbət və məhəbbətini qazanmışdır. Böyük tarixi şəxsiyyətlərimizin obrazlarını yüksək ustalıqla canlandırdığınız «Babək» və «Nizami» filmləri xalqımızın zəngin tarixi keçmişinə bəslədiyiniz dərin ehtiramın gözəl ifadəsidir.

Yaradıcılığınızla yanaşı, geniş ictimai və pedaqoji fəaliyyətiniz də təqdirəlayiqdir. Kinematoqrafiyaçılar İttifaqının katibi, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin müəllimi kimi, siz ölkəmizdə rejissorluq məktəbinin inkişaf etdirilməsi və bunun üçün gənc kadrlar hazırlanması işində əlinizdən gələni edirsiniz.

Siz yaradıcılığınızın ən yetkin dövrünün doğma Azərbaycanımızın əldə etdiyi müstəqillik illərinə təsadüf etdiyi xoşbəxt sənətkarlardansınız. İnanıram ki, yeni ekran əsərlə-

rinizlə kino həvəskarlarını bundan sonra da sevindirəcək, böyük istedadınızı və zəngin təcrübənizi müstəqil Azərbaycanın mədəniyyətinin daha da inkişafı işinə sərf edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *17 yanvar 2001-ci il*

DÜNYA BANKININ AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ GÜRCÜSTAN ÜZRƏ DİREKTORU XANIM CUDİ OKONNOR İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

18 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana yenidən xoş gəlmisiniz. Sizinlə görüşümüz olmuşdur və onların hamısını xatırlayıram. Bilirəm ki, Baş nazirlə və bizim başqa təşkilatlarla çox ətraflı fikir mübadiləsi aparmısınız. Baş nazir bu barədə mənə məruzə edibdir. Mən belə hesab edirəm ki, Dünya Bankı ilə Azərbaycan arasındakı əlaqələr normaldır və bundan sonra daha da yaxşı olmalıdır. Hesab edirəm, sizin bu səfəriniz də buna təkan verməlidir. Buyurun, mən sizi dinləyirəm.

C u d i O k o n n o r: Cənab Prezident, çox sağ olun. Ölkənizə bu dəfəki səfərimiz zamanı Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar proqramına Dünya Bankının dəstək verməsi və bu yardımın gələcəkdə də davam etdirilməsi məsələlərini müzakirə etməklə bərabər, Azərbaycan üçün önəmli olan iki məsələyə də toxunmaq istəyirəm.

Hər şeydən öncə Azərbaycanın həyatında iki mühüm hadisəni qeyd etmək istəyirəm. Birincisi, dünən Azərbaycanın Avropa Şurasına qəbul olunmasıdır. Hesab edirəm ki, bu, Azərbaycanın mədəniyyətinin daha geniş təbliğ olunmasında, sosial həyatın inkişaf etdirilməsində, habelə Azərbaycanın dünyaya açılmasında yeni bir imkandır.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Siz tamamilə doğru deyirsiniz. Biz də belə düşünürük. Çünki biz Avropanın bir

hissəsiyik. Ona görə də biz Avropa Şurasında olmalıyıq. Amma Avropa Şurasına qəbul olmaq hansısa gəncin universitetə imtahan verməsindən çətindir. Biz bu imtahanları verdik. Eyni zamanda tapşırıqlar – ev tapşırıqları da aldıq. Ona görə yaxşı oxuyacağıq.

C u d i O k o n n o r: Əminəm ki, Avropanın digər dövlətləri kimi, Azərbaycanı da Avropa Şurası öz sıralarında görməsi xeyirli və faydalı olacaqdır.

H e y d ə r Ə l i y e v: Elədir.

C u d i O k o n n o r: Cənab Prezident, xüsusi olaraq, ikinci qeyd etmək istədiyim məsələ 2000-ci ildə Azərbaycanda əldə olunan iqtisadi nəticələrdir. Bildirmək istəyirəm ki, bu nəticələr çox ürəkaçandır və Azərbaycan hökuməti Sizin rəhbərliyiniz altında iqtisadi tərəqqiyə nail olmaq üçün sabit və davamlı islahatlar, siyasət aparmışdır. Biz bu islahatları, bu iqtisadi tərəqqini dəstəkləmişik və 2000-ci ilin iqtisadi nəticələri bunu bir daha sübut edir.

H e y d ə r Ə l i y e v: Çox sağ olun. Biz özümüz öz nəticələrimizi bilirik. Yaxşı bilirik ki, bunları əldə etmək üçün Azərbaycanın mövcud olan şəraitində nə qədər çox işlər görmək lazımdır. Çünki bilirsiniz ki, bizim torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bir milyon vətəndaşımız yerindən-yurdundan çıxarılıbdır, əksəriyyəti köçkün vəziyyətində çadırlarda yaşayır.

Təbiidir, siz bilirsiniz ki, keçid dövrünü yaşayan ölkələrin çox problemləri vardır. Bu problemlər bizdə də vardır. Belə bir şəraitdə biz iqtisadi inkişafı təmin etmişik və yaxşı nəticələrə nail olmuşuq. Bilirəm ki, rəqəmlər sizə məlumdur və Baş nazir bu barədə sizə çox deyibdir. Ancaq biz əldə olunan bu nailiyyətlərlə də kifayətlənmirik. Hesab edirik ki, 2001-ci ildə bundan da yuxarı qalxmalıyıq, irəli getməliyik. Yəqin, siz də belə bir fikirdəsiniz ki, əgər biz iqtisadi islahatları, sosial islahatları həyata keçirməsəydik, struktur dəyişiklikləri apar-

masaydıq, bazar iqtisadiyyatı yolu ilə qətiyyətlə getməsəydik, bunları əldə edə bilməzdik. Onu da bilirik ki, bizim qarşıda görüləsi işlərimiz vardır. O cümlədən Dünya Bankı ilə görüləsi çox işlərimiz vardır. Əldə olunmuş bəzi razılıqlar hələ indiyə qədər yerinə yetirilməyibdir. Mən bunu əvvəlcədən deyirəm, çünki bilirəm ki, siz mənə deyəcəksiniz. Ancaq onlar da həyata keçiriləcəkdir.

Amma sizdən bir xahişim vardır. Sabah mətbuat konfransı keçirin və Azərbaycanda olan bütün müxalifət mətbuatını, yaxud partiya nümayəndələrini oraya dəvət edin. Sizin fikirləriniz haqqında məlumatlar verin. Yoxsa onlar hər şeyi inkar edirlər. Deyirlər, heç bir şey yoxdur, 7 ildir Azərbaycan heç bir şey etməyibdir. Təbiidir ki, onların bu boş sözləri bizi narahat etmir. Biz öz işimizlə ölkəmizə, xalqımıza, vətəndaşlarımıza sübut edirik ki, nə etmişik və nə də edəcəyik.

Mən bu təklifimlə sizə əziyyət vermək istəmirəm. Amma burada mətbuat nümayəndələri var, o cümlədən müxalifətdə olan özəl televiziya şirkətlərinin nümayəndələri vardır. Qoy, onlar da eşitsinlər və öz verilişlərində heç olmasa, bu barədə bir az danışsınlar. Buyurun, dinləyirəm.

Cudi Okonnor: Cənab Prezident, mənə belə bir təklif verdiyinizə görə və həm indi, yəni Sizinlə aparacağımız söhbətlərdə bu barədə danışmaq, həm də sabah mətbuat konfransı keçirib fikirlərimizi söyləməyə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Çalışacağam, o qədər dəqiq, sərrast danışım ki, məndən sitat gətirərkən səhvə maksimum dərəcədə az yol verilsin.

Heydər Əliyev: Çox sağ olun.

Cudi Okonnor: Təşəkkür edirəm. Siz söhbətə başlayarkən özünüz etiraf etdiniz ki, hələ bəzi islahatlar həyata keçirilməyibdir, müəyyən lənglik vardır. Sizə onu da deyim ki, burada apardığım danışıqlardan sonra belə qənaətə gəlmişəm. Əgər mən Azərbaycana bu dəfəki səfərimi bir-iki həftə

sonra etsəydim, indi bizim söhbətimiz tamamilə başqa mövzuda ola bilərdi. Bildiyimə görə, lap yaxın zamanda Siz icra strukturunda ciddi dəyişikliklərin həyata keçirilməsi barədə qərarlar qəbul etmək əzmindəsiniz.

H e y d ə r Ə l i y e v: Bəli, hesab edirəm ki, Baş nazir sizə danışıbdır. Biz bunun üzərində bir neçə aydır ki, işləyirik və çox radikal qərarlar qəbul edəcəyik. Mən Parisə gedib gələndən sonra bunları edəcəyik.

C u d i O k o n n o r: Cənab Prezident, icazə verin, uzaqdan, bizim yerləşdiyimiz məkandan Azərbaycana baxarkən mövcud olan problemlərin, yəni islahatlarla bağlı problemlərin Azərbaycanın imicinə necə təsir etməsi barədə fikirlərimi sizə çatdırım.

Cənab Prezident, Sizin rəhbərliyiniz altında son illər Azərbaycanda aparılan islahatlar, ilk növbədə neft və qaz sektorunda, makroiqtisadi sahədə, idarəçilik sahəsində həyata keçirilən islahatlar digər sahələrə, xüsusilə dövlət strukturlarında dəyişikliklərin həyata keçirilməsinə, dövlət xərclərinin istifadəsi və gəlirlərin toplanmasında şəffaflığın təmin olunmasına, o cümlədən Sizinlə keçən dəfə danışdığımız kimi, gömrük orqanlarında şəffaflığın təmin edilməsinə də tətbiq olunsaydı, hesab edirik, onda Azərbaycanın dünyadakı imici tamamilə başqa cür olardı. Neft-qaz sektorlarına cəlb etdiyi investisiyalar eyni zamanda Azərbaycanın qeyri-neft sektorunun inkişafına yönələn böyük sərmayələrlə də müşayiət edilərdi.

H e y d ə r Ə l i y e v: Olacaqdır. Əgər biz onları etmişiksə, bunları da edəcəyik. Amma sizə bildirmək istəyirəm ki, son illər Azərbaycana gələn ümumi investisiyada qeyri-neft sektoruna gələn investisiya neft sektoruna qoyulandan çoxdur. İnvestisiyaların 60 faizi qeyri-neft sektoruna, 40 faizi isə neft sektoruna qoyulubdur. Biz siz dediyiniz o nöqsanları da aradan qaldırmağa qadirik.

C u d i O k o n n o r: Cənab Prezident, hesab edirəm ki, Sizin bu sahədə göstərə bildiyiniz yaxşı nümunələr də vardır. Məsələn, Azərbaycanın indi əldə etdiyi neft gəlirlərinin hazırda bilavasitə istifadə olunmayıb Neft Fondunda toplanması və həmin fondun vəsaitinin əlavə faiz formasında yeni gəlirlər hesabına zənginləşməsi gələcəkdə bunların bir sıra istehsal sahələrinə yönəlməsinə kömək edəcəkdir. Bu, dediyim həmin yaxşı nümunələrdən biridir.

H e y d ə r Ə l i y e v: Bəli. Neft Fondu haqqında çox danışıqlar gedirdi. Dünya Bankında da, Beynəlxalq Valyuta Fondunda da, başqalarında da müxtəlif narahatçılıqlar var idi. Düzü, mən o narahatçılıqları eşidəndə əsəbiləşirdim. Mən sizinlə açıq danışıram. Çünki əgər biz 7 ildir çalışıb neftdən gəlir əldə ediriksə və ondan istifadə olunmasına nəzarət etməyəcəyiksə, bu necə ola bilər? Neft Fondu yarandı. Mən onun əsasnaməsini təsdiq etdim. Mətbuatda dərc olundu. İndiyə qədər nə qədər vəsait gəlibdir, hamısı məlumdur və vaxtaşırı bu barədə məlumat veriləcəkdir. Mən fərmanda da yazmışam ki, bu, beynəlxalq auditorlar tərəfindən yoxlanılacaqdır.

Mənim fikrim budur: indi neftdən gələn gəliri Neft Fondunda saxlayıb gələcək işlərimizdə istifadə etmək lazımdır. İndi Azərbaycanda Neft Fonduna göz dikən çoxdur. Kimsə bir iş görmək istəyirsə, deyir ki, Neft Fondundan, nə bilim, 10 milyon, 15 milyon dollar verin. Mən isə deyirəm, yox, bunu unudun. Mən bunu Azərbaycanın gələcəyi üçün edirəm. Bəlkə də mənim kimi adam Neft Fondunun gələcəkdə gəlirlərinin hamısının istifadə olunmasında iştirak etməyəcəkdir. Çünki bilirsiniz ki, insan həyatda daimi deyildir. Mən ancaq gələcək haqqında düşünürəm və indi neftdən gələn gəlirləri saxlayıb başqa sahələrdə gəlirlərin artırılmasına çalışıram. İndi bizim Neft Fondunda təxminən 300 milyon dollar vardır. Neft Fondunun başçısı da birbaşa mənə tabedir. O bu gün mənə məlumat veribdir ki, bir gündə 44 min dollar qaza-

nırlar. İndi görün, ildə nə qədər olacaqdır. Bizim işlərimiz budur və hər şey də açıqdır, şəffafdır.

Cudi Okonnor: Cənab Prezident, doğrudur. Bu gün biz Neft Fondunun rəhbərliyi ilə danışıqlar aparmışıq, onların gördükləri işlərlə tanış olmuşuq, bir sıra təkliflərimizi vermişik. Mən Sizinlə tamamilə razıyam ki, Neft Fondunu struktur baxımından elə bir hala gətirmək lazımdır ki, məsələn, gələcəkdə onun rəhbəri dəyişərsə, yaxud hökumət fondun vəsaitindən istifadə siyasətini dəyişdirərsə, vəsaitin ümumi istifadəsi, necə deyərlər, öz axarından çıxmasın.

Heydər Əliyev: Bu, doğru fikirdir. Yoxsa, sonra Azərbaycanda bir başqa adam gələr, bunu beş günün içində vurub dağıdar. Amma hələ yaxın vaxtda bu olmayacaqdır. Mən Neft Fondunu bir neçə milyard dollara çatdırandan sonra, təbiidir ki, başqa bir adam gələ bilər.

Cudi Okonnor: Gündə 44 min dollar qazanmaqla bir neçə milyard dollara çatmaq üçün xeyli müddət vaxt lazım olacaqdır. Hər halda, qarşıda vaxt vardır.

Heydər Əliyev: Yox, siz maliyyəçisiniz, bankirsiniz. Bu gün 44 min dollardır. Axı Neft Fondunun gəlirləri artır, satdığımız neftdən gəlirlər gəlir. Demək, onların faizi də artır. Biz keçən il neftin satışından Neft Fonduna təxminən 150 milyon dollar aldıq. Amma 2-3 ildən sonra bu, 500 milyon dollar olacaqdır. O vaxt sizinlə görüşərik, mən sizə deyəcəyəm.

Cudi Okonnor: Doğrudur, amma Neft Fondunda vəsaitlər artdıqca, eyni zamanda vəsaitlərdən dərhal istifadə etməyə maraq, həvəs də artır. Həm hökumət üzvlərindən, həm də hökumətin dostları tərəfindən.

Heydər Əliyev: Məndə o maraq yoxdur. Mənsiz heç kəs bir şey edə bilməz. Bəlkə mən səhv buraxıram ki, sizə bu sözləri deyirəm. Sonra deyəcəksiniz ki, Dünya Bankı Azərbaycana kömək etməsin.

C u d i O k o n n o r: Bilirsiniz, Neft Fondunda olan vəsaitlərin dərhal istifadə olunmamasına görə biz hökuməti bir tərəfdən, alqışlasaq da, digər tərəfdən, şübhəsiz ki, Dünya Bankının Azərbaycana qısa müddət üçün yardımlarına hələ də ehtiyac vardır. Çünki ölkənizdə Neft Fondunda pulun bu qədər artmasına baxmayaraq, hələ də kasıb insanlar vardır, hətta onların bəzilərinin içməyə suyu yoxdur, təhsilləri yoxdur. Ona görə də indiki durumda, çətin vəziyyətdə Dünya Bankının Azərbaycana yardım etməsinə ehtiyac vardır.

H e y d ə r Ə l i y e v: Mən sizdən elə bunu eşitmək istəyirdim.

C u d i O k o n n o r: Cənab Prezident, Azərbaycan Dünya Bankının 180 sahibindən biridir. Ona görə də Siz Dünya Bankından həm maliyyə yardımı almağa, həm də ona məsləhətlər verməyə və gələcəkdə Dünya Bankına yardım göstərməyə layiqsiniz.

H e y d ə r Ə l i y e v: İnşallah.

C u d i O k o n n o r: Dünya Bankına üzv olan dövlətlərin bankdan faydalandığı başqa bir cəhət də vardır. Baxmayaraq ki, bəzi ölkələr bunu fayda kimi qəbul etmirlər. Amma hər halda, biz Dünya Bankından vəsait, kredit alan dövlətlərin hökumətlərinin həyata keçirdikləri iqtisadi və sosial siyasətlərin qiymətləndirilməsi barədə illik hesabat hazırlayırıq.

Məsələn, keçən ilin hesabatına görə, Azərbaycan təkcə bir sahədən savayı, bütün sahələrdə, demək olar ki, yaxşı göstəricilər nümayiş etdiribdir. Həmin bir sahə, bayaq dediyim kimi, əldə olunan gəlirlərin idarə edilməsi, dövlətdən vəsait alan strukturların idarəçiliyi məsələsidir. Bu il dərc edəcəyimiz hesabatı dövlət sektorunda idarəçilik və yaxud dövlət sektorunda islahatların nəticəsi kimi də adlandırmaq olar. Ümidvarıq, builki qiymətləndirməmizdə müsbət amillərin olduğunu qeyd edə biləcəyik. Ona görə də biz çox təkidlə Sizin hökuməti ruhlandırırıq ki, bu sahədə, yəni struktur dəyişik-

liklərinin həyata keçirilməsində tezliklə ciddi addımlar atsınlar və bizim də bu sahədə müsbət fikirlərimizi açıqlamağa imkanımız olsun.

Heydər Əliyev: Siz yazın, amma biz edəcəyik. Arxayın olun.

Cudi Okonnor: Cənab Prezident, bu gün Baş nazirlə belə bir razılığa gəldik ki, Dünya Bankının ölkənizdəki islahatların vəziyyəti ilə əlaqədar qiymətləndirmə hesabatını ilkin layihə şəklində yanvar ayının sonunda biz Azərbaycan hökumətinə təqdim edəcəyik və deyəcəyik ki, əgər bu qiymətləndirmə aprel–may aylarında yox, indi, yanvar ayında olardısa, Azərbaycana verəcəyimiz qiymət necə olardı. Biz orada təkliflərimizi verəcəyik ki, yanvar ayından aprelə qədər müəyyən irəliləyişləri təmin etmək üçün hökumət hansı addımları atmalıdır.

Heydər Əliyev: Yanvar ayı qurtarır. Amma fevral ayında olacaqdır.

Cudi Okonnor: Biz o zaman, fevralın sonunda yenidən bir hesabat yazarıq. Şübhəsiz ki, bu cür qiymətləndirmə hesabatlarını hazırlayarkən bir tərəfdən, Azərbaycan kimi ölkələrdə həyata keçirəcəyimiz layihələrə nə qədər maliyyə vəsaiti ayıra biləcəyimiz barədə qərara gəliriksə, digər tərəfdən, hesab edirik ki, ildə bir dəfə hazırladığımız hesabatlar Azərbaycanın imici üçün bir siqnaldır. Ümidvarıq bu hesabat mümkün qədər müsbət olacaq ki, Azərbaycan bunun əsasında beynəlxalq maliyyə bazarlarından Bakı–Ceyhan layihəsinin maliyyələşdirilməsi üçün, alüminium zavodunun yenidən qurulması üçün əlavə kreditləri daha yaxşı şərtlər əsasında ala bilsin.

Heydər Əliyev: Çox yaxşı. Mən çox məmnunam.

Cudi Okonnor: Cənab Prezident, mən Sizin Baş nazirlə təfərrüatı ilə müzakirə etdiyim başqa bir məsələ barədə də məlumat vermək istəyirəm. Bu, Azərbaycan hökuməti-

nin hazırladığı iqtisadi strategiya proqramıdır. Yəni Azərbaycanda yoxsulluğun aradan qaldırılması üçün iqtisadiyyat, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin birgə hazırladıqları iqtisadi strategiyanın konsepsiyasıdır.

Dünya Bankının üzvü olan müxtəlif ölkələr bu cür proqramları, konsepsiyaları hazırlayarkən onlara müxtəlif adlar verirlər. Məsələn, bəzi ölkələr bunu iqtisadi inkişaf proqramı, bəziləri iqtisadi və sosial inkişaf layihəsi, konsepsiyası adlandırırlar. Hesab edirik ki, bunu Azərbaycanda da doğru adlandırıblar. Azərbaycanda bu strategiyanı yoxsulluğun aradan qaldırılması və yoxsulluğun azaldılması strategiyasına dair konsepsiya, proqram adlandırılıbdır.

Ümidvarıq ki, belə bir proqramın həyata keçirilməsi, Azərbaycanın neft strategiyası nəticəsində və neft sektorunda apardığı islahatlar nəticəsində meydana gələn iqtisadi inkişaf digər, daha geniş sahələrə tətbiq ediləcəkdir. Bunun da nəticəsində kənd yerlərində işsizliyin aradan qaldırılması, yeni iş yerlərinin yaradılması, daha aztəminatlı ailələrin səhiyyə, təhsil sahəsində təminatının yaxşılaşdırılması, su təchizatı sahəsində irəliləyişlərin əldə edilməsi, ümumiyyətlə, əhalinin aztəminatlı və aşağı gəlirli hissəsinin faydalanması üçün imkan olacaqdır.

Ona görə istərdik ki, bu proqramın həyata keçirilməsi üçün Sizin və yaxud Baş nazirin göstərişi ilə xüsusi bir komitəyə həvalə olunaydı. Yəni yüksək səviyyədə xüsusi bir komissiya, yaxud komitə yaradılaydı və bunun həyata keçirilməsi üçün bilavasitə cavabdehlik daşıyardı. Onda bu layihənin həyata keçirilməsi təkcə iqtisadiyyat, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin üzərinə düşməzdi. Bu daha geniş dairələri əhatə edərdi, dövlət strukturlarının bu işə cəlb olunmasına kömək edərdi. Eyni zamanda müxalifətin, kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının və ölkədəki digər təbəqələrdən olan insanların bu proqram barədə məlumatı

olardı. Ola bilər ki, kimsə bunu qəbul etməyəcəkdir. Amma hər halda, belə bir layihənin, konsepsiyanın həyata keçirilməsi barədə onlar məlumatlandırılardılar.

Heydər Əliyev: Sizin tövsiyəniz tamamilə doğrudur və biz də belə düşünürük. Görürsünüz, fikirlərimiz üst-üstə düşür. Elə də edəcəyik.

Cudi Okonnor: İnşallah. Cənab Prezident, mənim deyiləcək bir sözüm qalmadı. Sadəcə olaraq, bir daha arzumu ifadə edirəm ki, qarşıdakı illər ərzində də Azərbaycan ilə Dünya Bankı arasında daha dərin əməkdaşlıq mümkün olsun və inkişaf etsin. Bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm.

Heydər Əliyev: Mən də sizə təşəkkür edirəm. Çox maraqlı söhbətimiz oldu. Sizin tövsiyələriniz çox əhəmiyyətlidir. Məni sevindirdi ki, siz bizim gördüyümüz işləri obyektiv qiymətləndirirsiniz. Sizinlə bugünkü danışığımdan çox məmnunam. Nəzərə alsaq ki, mənim qarşımda gözəl bir xanım oturubdur, bu bizim danışıqlarımıza daha da xeyir verir. Dünya Bankına deyin ki, işə sizin kimiləri götürsünlər. Onda işləri daha yaxşı gedəcəkdir.

Cudi Okonnor: Cənab Prezident, bunu Siz onlara desəniz, daha yaxşı olar.

Heydər Əliyev: Mən cənab Vulfonsona deyəcəyəm. Məndən ona salam deyin.

Cudi Okonnor: Bunu mütləq edəcəyəm.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN STRASBURQA GEDƏCƏK NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Prezident sarayı

19 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Biz Qanlı Yanvar ərəfəsindəyik. Qanlı Yanvar faciəsinin 11-ci ildönümü ərəfəsində görüşürük. Ona görə bizim hamımız üçün, xalqımız, millətimiz üçün böyük faciə olan bu hadisəni respublikamızın hər yerində qeyd edirlər. Biz də bu gün Respublika sarayında toplaşacağıq. Sabah da, təbii, xalqımız keçən illərdə olduğu kimi, Şəhidlər xiyabanını ziyarət edəcəkdir. Ona görə mən istərdim ki, söhbətə başlamazdan əvvəl, biz 20 yanvar faciəsi şəhidlərinin ruhunu bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərə rəhmət eləsin.

Həyat qəribədir. Xeyirlə şər bir çox hallarda yan-yana olur. On bir il bundan öncə Azərbaycana qarşı hərbi təcavüz davam edirdi. 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı başlanmış hərbi təcavüz də davam edirdi. Ermənistan–Azərbaycan münaqişəsində SSRİ hökumətinin Azərbaycana qarşı ədalətsiz mövqeyinin əleyhinə çıxan xalq, millət hamısı ayağa qalxmışdı, meydanlara, küçələrə toplaşırdı, öz etiraz səslərini qaldırırdı. Bu da Azərbaycanda daxili ictimai-siyasi vəziyyəti pozmuşdu. Görünür ki, bu, SSRİ hökuməti üçün də böyük təhlükə yaratmışdı. Təkcə SSRİ hökuməti üçün yox, o vaxt Azərbaycanı idarə edən şəxslər üçün böyük

təhlükə yaratmışdı və bunların da nəticəsində Azərbaycana qarşı yeni bir misli görünməmiş təcavüz edildi.

Mən bir-iki dəfə bunu demişəm, bu gün də demək istəyirəm ki, SSRİ tərəfindən, SSRİ hökuməti tərəfindən öz xalqına qarşı bir neçə dəfə qəddarlıqlar edilmişdir. SSRİ-nin müxtəlif ölkələrində. Ancaq 1990-cı il yanvar ayının 20-də Azərbaycan xalqına qarşı edilən hərbi təcavüz kimi qəddarlıq 70 illik tarixdə heç vaxt heç bir ölkəyə, heç bir respublikaya qarşı edilməmişdir. Bu, bir tərəfdən, bizim xalqımıza qarşı ədalətsizliyi bir daha nümayiş etdirdi, ikinci tərəfdən də, təəssüflər olsun ki, o illər Azərbaycanı idarə edən şəxslərin millətin, Azərbaycan xalqının milli mənafelərini qoruya bilməməsinin nəticəsi oldu. Elə onlar da bu təcavüzün iştirakçıları oldular və bunun iştirakçısı kimi də bütün xalq tərəfindən lənətləndilər və cəzalandırıldılar.

Faciənin on birinci ildönümü qeyd olunur. Hər il yanvarın 20-də bizim üçün matəmdir. Bu hadisə Azərbaycan xalqını o qədər sarsıldıbdır ki, biz hər il bunu görürük – Şəhidlər xiyabanı səhər tezdən axşama qədər insan axını ilə dolu olur. Mütəmadi olaraq, səhərdən axşama qədər, qaranlıq düşənə qədər insanlar gəlir, şəhidlərin xatirəsinə öz ehtiramlarını bildirirlər.

Ancaq eyni zamanda, indi biz müstəqil dövlət kimi yaşayırıq. Doğrudur, hələ problemlərimiz həll olunmayıb, Ermənistanın Azərbaycana etdiyi təcavüzün qarşısı tamam alınmayıbdır. Yəni 1994-cü ildə döyüşlər, müharibə dayandırılıb, atəşkəs sazişi əldə olunub, daha qan tökülmür, şəhidlər yoxdur. Ancaq torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyon soydaşımız ağır vəziyyətdədir, qaçqın, köçkün vəziyyətindədir. Bunlara, bütün bu faciələrə, bütün bu əzab-əziyyətlərə, həm keçən illərdə, həm də indi olan əzab-əziyyətlərə baxmayaraq, hesab edirəm ki, xalqımız xoşbəxtdir. Çünki Azərbaycan xalqı indi özü öz taleyinin sahibidir, azadlığa çıxıbdır. Biz müstəqil dövlət kimi yaşayırıq və müstəqilliyimizi də son

illərdə nəinki qoruyub saxlaya bilmişik, hətta ilbəil gücləndirmişik.

Biz Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi təmin etmişik, Azərbaycanı daxili çəkişmələrdən, qanunsuz silahlı dəstələrdən, dövlət çevrilişlərindən, ayrı-ayrı terror aktlarından xilas etmişik. Artıq beş ildir, bəlkə də artıqdır ki, xalqımız rahat yaşayır. Yəni ictimai-siyasi sabitlik təmin olunub və o əzab-əziyyətli illər geridə qalıbdır. Bu bizim böyük xoşbəxtliyimizdir. Böyük xoşbəxtliyimiz ondan ibarətdir ki, Azərbaycan artıq dünya miqyasında öz yerini, özünə layiq bir yer tutubdur. Dünyanın bütün beynəlxalq təşkilatlarında təmsil olunubdur. Azərbaycan dövləti dünyada, beynəlxalq aləmdə özünün, yəni xalqımızın milli mənafelərini təmin edən, qoruyan siyasət aparır və bizim siyasətimizin nə qədər müstəqil olduğunu dəfələrlə sübut edibdir.

Bu gün sizə bir daha demək istəyirəm ki, indiyə qədər bizim apardığımız xarici siyasət uğurlu olubdur. Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar biz dünya miqyasında çox işlər görmüşük, bu gün də görürük, sabah da görəcəyik. Mən bu günlərdə Parisdə Minsk qrupunun həmsədrlərindən biri olan Fransanın prezidenti Jak Şirak ilə görüşəcəyəm. Sonra Ermənistanın prezidenti Köçəryanla görüşümüz olacaqdır. Bu barədə geniş məlumat verməyə ehtiyac yoxdur. Mən indiyə qədər də heç vaxt məlumat vermirəm. Ancaq bu işdə müəyyən qədər iştirak edən insanlar bilirlər. Biz nə qədər gərgin iş aparırıq ki, bu münaqişəni aradan götürək, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edək, soydaşlarımızı yerlərinə-yurdlarına qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. İnanıram ki, buna nail olacağıq. Ona görə ki, Azərbaycan artıq öz müstəqil, sərbəst, cəsarətli xarici siyasəti ilə və daxildə həyata keçirdiyi demokratik dəyişikliklərlə, demokratik prinsiplərə sadiqliyi ilə, apardığı islahatlarla dünya dövlətləri tərəfindən yaxşı tanınıbdır.

Doğrudur, əgər Ermənistan–Azərbaycan münaqişəsinin həlli Ermənistanla Azərbaycan arasında münasibətlərdən asılı olsaydı, biz bunu çoxdan həll etmiş olardıq. Amma burada müxtəlif ölkələrin maraqları var və bizim üçün ən çətini odur ki, Ermənistanın özü Dağlıq Qarabağ problemi haqqında o qədər çalışmır, nəinki dünyanın, demək olar ki, hər yerində, xüsusən böyük ölkələrdəki erməni diasporu, uzun tarixə malik olan daşnak partiyası və başqaları.

Türkiyədə guya ermənilərə qarşı «soyqırımı» haqqında son vaxtlar qaldırılan məsələlər və onların bir neçə ölkənin parlamentində müzakirəsi, qərarlar qəbul edilməsi – bütün bunlar erməni diasporunun dünyada nə qədər böyük gücə malik olduğunu göstərir. Əgər onlar olmasaydı, Ermənistan, kiçik bir ölkə Fransa dövlətində bu məsələni nə cür qaldıra bilərdi? Yaxud Amerika Konqresində bunu nə cür qaldıra bilərdi? Yaxud Avropa Birliyində – Avropa Birliyinə cəmi 15 dövlət daxildir, bizim kimi, Ermənistan da ona heç yaxın deyildir – orada bu məsələni necə qaldıra bilərdi? İtaliyanın parlamentində bunu nə cür qaldıra bilərdi? Bütün bunları edənlərin, demək olar ki, tam əksəriyyəti Ermənistanın xaricində yaşayan, həm iqtisadi cəhətdən çox güclü imkanlara malik, həm də dövlət orqanlarını təmsil etmək imkanına malik olan erməni diasporudur. Bu reallıqdır. Bunu bilmək lazımdır.

Biz bu cür ədalətsiz qərarların daim əleyhinə olmuşuq. Yəni Türkiyənin ermənilərə qarşı soyqırımı etməsi haqqında uydurmalara etiraz etmişik və bu gün də etirazımızı bildiririk. Biz Türkiyə ilə bir yerdəyik, Türkiyə də bizimlə bir yerdədir. Türkiyəyə dəyən daş bizə dəyir, bizə dəyən daş Türkiyəyə dəyir.

Mən bu gün bir daha öz etirazımızı, yəni Azərbaycan dövlətinin etirazını bildirirəm. Ancaq eyni zamanda, bu sözləri deməklə mən dünyada olan reallığı bir daha xatırladıram. Hamı bu reallığı bilməlidir. Bəzən bunlardan çox uzaq olan

adamlar indi bizim ölkəmizin daxilində də, xaricində də cürbəcür, həqiqətə uyğun olmayan fikirlər icad edirlər, yaxud təbliğ edirlər. Həqiqət onda deyildir və Ermənistan–Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin indiyə qədər həll olunmamasının kökü həmin bundadır.

Bütün bunlara baxmayaraq, Azərbaycan dünyaya sübut edir ki, demokratik ölkədir, hüquqi, dünyəvi dövlətdir, demokratik dəyərlərə sadiqdir, bazar iqtisadiyyatı yolu ilə gedən ölkədir, dünya iqtisadiyyatına inteqrasiya üçün ciddi addımlar atmış ölkədir. Məhz bunlara görə də Azərbaycanın bütün beynəlxalq təşkilatlarda özünə layiq hörməti vardır. Məhz buna görə də Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunubdur.

Bu məsələ mətbuatda geniş işıqlandırılıbdır. Azərbaycan Avropa Şurasına üzv qəbul olunmaq üçün 4 il namizədlik dövrü keçibdir. Nə qədər danışıqlar aparmışıq, nə qədər nümayəndə heyətləri buraya gəlibdir. İndiyə qədər Azərbaycanın nümayəndələri – Parlament Assambleyasında respublikamızın Milli Məclisi tərəfindən təyin olunmuş deputatlar, Milli məclisin rəhbərləri, Azərbaycan dövləti, Azərbaycan prezidenti, Xarici İşlər Nazirliyi – bu sahədə nə qədər gərgin iş aparmışlar. Təbiidir ki, gərək biz birinci növbədə ölkəmizin qanun-qaydalarını, demokratikləşmə prosesini gücləndirəydik və bunu də etdik. Bir çox qanunlar qəbul etmək lazım idi, bunları da etdik. Qarşımıza bir çox başqa şərtlər də qoydular, onları da yerinə yetirdik. Ancaq təəssüflər olsun ki, həm Azərbaycanın xaricində olan müxtəlif qüvvələr, hətta, bəlkə deyirəm, dövlətlər bizə maneçilik törədirdilər, həm də Azərbaycanın daxilindəki bəzi qüvvələr öz şəxsi mənafeləri naminə, şəxsi ambisiyalarını həyata keçirmək üçün müxtəlif şayiələr yayır, ayrı-ayrı nümayəndələrin beynini ölkəmizin vəziyyəti haqqında müxtəlif böhtan fikirlərlə dolduraraq

Azərbaycanın Avropa Şurasına qəbul olunmasına əngəl törədirdilər.

Yəqin ki, Azərbaycana gələn nümayəndələr ilə mənim danışıqlarımı mətbuatda, yaxud televiziyadan izləyə bilmisiniz. Mən hər dəfə onlara bildirmişəm ki, Azərbaycan xalqının mənliyi – milli mənlik, milli qürur – hər şeydən üstündür. Heç kəsə yalvarmayacağıq ki, bizi Avropa Şurasına qəbul etsinlər. Biz öz işimizi görürük ona görə yox ki, Azərbaycanı Avropa Şurasına qəbul etsinlər. Ona görə ki, biz tutduğumuz demokratik inkişaf yolu ilə qəbul etdiyimiz Konstitusiya əsasında gedirik və gedəcəyik. Kim bunu qiymətləndirə bilirsə, qoy qiymətləndirsin, kim isə bu işə subyektiv münasibət göstərir, qoy göstərsin. Təəssüflər olsun ki, dünyada indi ikili standartlar mövcuddur. Təəssüflər olsun, biz həmişə bu ikili standartların təsiri altında çox əziyyət çəkmişik və çəkirik.

Mən dəfələrlə demişəm ki, Avropa Şurası Azərbaycana nə qədər lazımdır, o qədər də Azərbaycan Avropa Şurasına lazımdır. Yəni biz bütün danışıqlarda çox qətiyyətli mövqe tutmuşuq, öz milli mənafelərimizi qorumuşuq. Bütün bunların nəticəsində də, nəhayət, Avropa Şurasının bütün strukturları, o cümlədən son mərhələ olan Nazirlər Komitəsinin iclası yanvar ayının 17-də Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olması üçün qərar qəbul etmişdir.

Dediyim kimi, yanvarın 25-də Strasburqda təntənəli mərasim keçiriləcəkdir, Azərbaycanın bayrağı qaldırılacaqdır. Azərbaycan prezidenti Avropa Şurasının Parlament Assambleyasında nitq söyləyəcəkdir. İndi Avropa Şurasının tamhüquqlu üzvü kimi, bizim üçün ayrılan yerlərə də Milli Məclisin deputatları müəyyən olunubdur. Onlar orada tam səlahiyyətlərlə daim iştirak edəcəklər.

Mən bu gün birincisi, sizinlə görüşmək istədim ki, fikirlərimi sizə deyim – bəzilərinizlə tanış deyiləm – ikincisi, təbiidir, sizinlə bir yola çıxarkən öz tövsiyələrimi bildirim.

Mən istərdim ki, Murtuz müəllim məlumat versin. Buyurun.

Murtuz Ələsgərov (*Milli Məclisin sədri*): Möhtərəm cənab Prezident!

Möhtərəm toplantı iştirakçıları!

Bildiyiniz kimi, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmuşdur. Parlament Assambleyasının keçən il iyunun 28-də qəbul etdiyi qərar Nazirlər Komitəsinin yanvarın 17-də keçirilmiş iclasında təsdiq edilmişdir.

Yanvarın 17-dən etibarən Azərbaycan belə bir hüquqa sahib olmuşdur. Bütün bu nailiyyətlərin əldə edilməsində, Azərbaycanın belə nüfuzlu beynəlxalq təşkilata üzv olmasında, cənab Prezident, mən Sizin böyük xidmətlərinizi qeyd etmək istəyirəm. Bu, hər şeydən əvvəl Sizin apardığınız ardıcıl xarici siyasətin nəticəsidir. Siz hər yerdə Azərbaycanın adını, nüfuzunu ləyaqətlə müdafiə etmisiniz. Ölkəmizin beynəlxalq təşkilatlarda təmsil olunmasına yol açmısınız.

Mən qeyd etmək istəyirəm ki, həm Prezidentin İcra Aparatı işçilərinin, həm də deputatlarımızın və parlamentimizin Avropa Şurasındakı nümayəndə heyətinin bu sahədə mühüm xidmətləri vardır. 4 il ərzində biz Avropa Şurasında qonaq sifəti ilə iştirak edərkən orada daim ciddi iş aparmışıq. Milli Məclisin deputatları həm komitələrin iclaslarında, həm də Məclisin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanın bu şuranın tamhüquqlu üzvlüyünə layiq olduğunu sübut etmişlər.

Cənab Prezident, bildiyiniz kimi, bu təşkilatda Azərbaycana 6 yer ayrılmışdır. Bu, tamhüquqlu üzv kimi, Azərbaycanın əsas nümayəndə heyətinə aiddir. Bundan əlavə, Avropa Şurasında 300 tamhüquqlu nümayəndənin hər birinin müavini də vardır. Ona görə də bizə əvəzedici heyət üçün, deputatların müavinləri kimi, əlavə 6 yer də ayrılmışdır. Nümayəndə heyəti üzvlərinin hamısı – 12 nəfər bu gün burada iştirak edir. İcazə versəydiniz, mən onların siyahısını Sizin nəzə-

rinizə çatdırardım. İlham Əliyev – nümayəndə heyətinin başçısı, Səməd Seyidov – hər ikisi Yeni Azərbaycan Partiyasındandırlar.

Qeyd etmək istəyirəm ki, aparılan danışıqlar nəticəsində belə bir qayda müəyyən olunmuşdur ki, nümayəndə heyətinin iki üzvü Yeni Azərbaycan Partiyasından, iki üzvü bitərəflərdən, ikisi isə müxalifətdən olmalıdır.

Gültəkin Hacıyeva və Nairə Şahtaxtinskaya bitərəf, Vaqif Vəkilov Müsavat Partiyasının, Qulamhüseyn Əliyev Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvləridirlər.

Əvəzedici heyət, yəni deputatların müavinləri – Əli Hüseynov və Əli Abbasov Yeni Azərbaycan Partiyasından, Bəxtiyar Əliyev, Nazim İbrahimov bitərəf, Rəfail Hüseynov Vətəndaş Həmrəyliyi Partiyasından, Asim Mollazadə Azərbaycan Xalq Cəbhəsi Partiyasındandırlar. Nümayəndə heyətinin katibi, parlamentin beynəlxalq münasibətlər şöbəsinin müdiri Azər Qasımov təsdiq olunmuşdur.

Cənab Prezident, qarşıdakı sessiya ilə əlaqədar mən Sizin diqqətinizi onun gündəliyinə cəlb etmək istəyirəm. Sessiyada bizim üçün böyük əhəmiyyət kəsb edən hadisə yanvarın 25-də olacaqdır. Yəni həmin gün Avropa Şurasının sarayı qarşısında Azərbaycanın bayrağı qaldırılacaq və ölkəmizin dövlət himni səslənəcəkdir. Sonra isə, möhtərəm prezidentimiz sessiyada nitq söyləyəcəkdir.

Mərasim saat 9.05-də başlayacaqdır. Saat 10-da isə Parlament Assambleyasının iclası keçiriləcəkdir. Bu iclasda Azərbaycanın nümayəndə heyəti tam tərkibdə iştirak edəcəkdir.

H e y d ə r Ə l i y e v: Burada əyləşənlərin hamısı iştirak edəcəkdir.

M u r t u z Ə l ə s g ə r o v: Bəli, hamısı iştirak edəcəkdir. Deməli, gündəlikdə duran məsələ belədir: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının Avropa Şu-

rasına qəbul olunması mərasimi münasibətilə dövlət bayraqlarının qaldırılması saat 9.00–9.15-də. 10.15-də Avropa Şurası Parlament Assambleyasının prezidenti lord Rassel Conston hər iki respublikanın bu beynəlxalq təşkilata qəbul olunması münasibətilə bu dövlətlərin nümayəndələrini təbrik edəcəkdir.

Sonra əlifba qaydası ilə Ermənistan və Azərbaycan Respublikalarının prezidentlərinə söz veriləcəkdir. Bundan sonra Parlament Assambleyasının sessiyası öz işinə başlayacaqdır. Assambleyada Nazirlər Komitəsi adından Latviyanın Xarici İşlər naziri və Nazirlər Komitəsinin fəaliyyətdə olan sədri cənab İndulis Berzinşin çıxışı olacaqdır. O, Azərbaycanın Avropa Şurasına qəbul olunması zamanı Nazirlər Komitəsinin iclasına sədrlik edibdir.

İndulis Berzinş Nazirlər Komitəsinin qərarını elan edəcəkdir. Bu münasibətlə Azərbaycan prezidenti sessiyada birinci çıxış edəcəkdir. Avropa Şurasında diplomatik korpusda olduğu kimi bir qayda vardır. Səfir hansı ölkəyə birinci gəlirsə, o ölkədə diplomatik korpusun başçısı – yəni Duayeni olur. Burada da nəzərə alınır ki, hansı ölkənin prezidenti daha çox fəaliyyətdədirsə, o, birinci çıxış etməlidir.

Azərbaycan prezidenti cənab Heydər Əliyev 15–20 dəqiqə çıxış edəcəkdir.

Heydər Əliyev: 15–20 dəqiqə deyil, 10 dəqiqədir.

Murtuz Ələsgərov: 10 dəqiqəyə endiriblər. Sonra isə sual-cavab olur.

Cənab Prezident, bir məsələni də Sizin nəzərinizə çatdırmaq istəyirəm. Yanvarın 22-də orada Azərbaycanda keçirilmiş parlament seçkilərini müşahidə edən xüsusi komitənin hesabatı dinlənilәcəkdir. Həmin komitənin başçısı bir neçə dəfə Azərbaycana gəlmişdir. Ölkəmizdə keçirilmiş seçkilər haqqında hesabat hazırlayıbdır. Orada bu barədə məlumat verəcəkdir. Yanvarın 22-də bizim nümayəndə heyəti də orada

iştirak edəcəkdir. Əgər mübahisəli məsələlər olarsa və bir sıra məsələlər ortaya çıxarsa, bizim nümayəndələrimiz ona öz münasibətlərini bildirəcəklər.

Cənab Prezident, mən parlamentin – Milli Məclisin Avropa Parlament Assambleyasına yeni seçilmiş nümayəndə heyətini təbrik edirəm. Ümidvar olduğumu bildirirəm ki, bu nümayəndə heyəti əvvəlkindən daha fəal olacaq, bu beynəlxalq təşkilatın fəaliyyətində lazımi səviyyədə iştirak edəcəkdir. Öz işimizi elə quracağıq ki, orada bütün komitələrin, komissiyaların, yardımçı komitələrin, eləcə də parlamentin ildə 4 dəfə keçirilən sessiyalarında daim iştirak edək.

AŞPA-da belə bir qayda mövcuddur: sessiyanın birinci hissəsi yanvar ayında, ikinci hissəsi apreldə, üçüncü hissəsi iyunda, dördüncü hissəsi isə sentyabr ayında keçirilir. Bu sessiyalarda biz tam tərkibdə iştirak etməliyik.

Eləcə də müxtəlif vaxtlarda sessiyalararası komitələrin, yardımçı komitələrin, komissiyaların iclaslarında da fəal iştirak edəcəyik.

Cənab Prezident, sağ olun, təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun.

Nümayəndələrimizin hamısını tanıyıram. Amma Vaqif müəllimin yanında oturanı tanımadım. Adınız nədir?

B ə x t i y a r Ə l i y e v: Bəxtiyar Əliyevdir.

H e y d ə r Ə l i y e v: Qalanlarını üzdən tanıyıram. Bu qızı da birinci dəfədir ki, görürəm.

Mən belə fikirdəyəm ki, Avropa Şurasındakı nümayəndələrimiz lazımi səviyyədədirlər. Biz bu beynəlxalq təşkilata 6 nəfər göndərmişdik.

O vaxt parlamentdə kimlər vardısa, onları göndərirdik, bu adamlar da çox işlədilər, fəaliyyət göstərdilər. Bunu mütləq qeyd etmək, onların işini yüksək qiymətləndirmək lazımdır. Nümayəndələrimiz müxtəlif komitələrin iclaslarında çox iştirak ediblər. Mən onlara təşəkkür edirəm. Amma bizim in-

diki nümayəndə heyəti əvvəlkindən, birincisi, sayca çoxdur. İndi nümayəndə heyətinin 6 üzvü və onların 6 köməkçisi var– üst-üstə 12 nəfərdirlər. İkincisi də, görürəm ki, onlar ziyalılar, tanınmış adamlardır.

Mənə məlumat verilibdir ki, nümayəndələrimizin əksər hissəsi xarici dilləri bilirlər, hətta bir dil yox, iki xarici dil bilənlər var. Bu da çox yaxşıdır.

Ötən illərin təcrübəsi onu göstərdi ki, beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurasında Avropa dillərini bilən adamlara işləmək asan olur. Yəni tərcüməçi lazım deyil, özü hər bir insanla sərbəst təmas yarada bilir, danışır. Həm də onlar hesab edirlər ki, onların dili başqa dillərdən yüksəkdir. Elə buna görə də o dilləri bilən adamlara da daha hörmətlə yanaşırlar. Bu da çox müsbət haldır ki, indi, ümumiyyətlə, bizim parlamentdə xarici dilləri bilən deputatlar çoxdur və onların da çoxu dəyərli adamlardır. Onların bir qismi Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan Milli Məclisinin nümayəndələridir.

Ötən illərin təcrübəsindən məlumdur ki, – Murtuz müəllim dedi – 3-4 sessiya keçiriləcəkdir. Təkcə sessiyalar deyil, orada 50-yə qədər komitə vardır. Həmin komitələrin iclasları hər dəfə bir ölkədə keçirilir. Bəzən komitənin iclasına iki, bəzən üç nəfər göndərmək lazım olur. Buna görə də siz gərək biləsiniz ki, işiniz çox olacaqdır. Oraya çox gedəcəksiniz. Əgər 3-4 dəfə gedib sessiyada iştirak etmək lazım gəlsəydi, o qədər ağır olmazdı. Amma çox gedəcəksiniz. Bütün şəhərlərdə, ölkələrdə, komitələrin iclaslarında iştirak edəcəksiniz. Mən heç şübhə etmirəm ki, hər biriniz Azərbaycanı layiqincə təmsil edəcəksiniz və ölkəmizin milli mənafelərini hər şeydən üstün tutacaqsınız.

Məlumdur ki, bizim Avropa Şurasına qəbul edilməyimiz prosesində Ermənistanla Azərbaycanın eyni vaxtda qəbul olunması nəzərdə tutulmuşdu. Bəlkə bu da məqsədəuyğun-

dur. Çünki iki ölkə bir-biri ilə münaqişədə olduğuna görə, hansınasa üstünlük vermək düzgün olmazdı. Ancaq eyni zamanda, buna baxmayaraq, biz hiss edirdik ki, komitələrin iclaslarında, başqa iclaslarda ermənilərin tərəfdarları daim çox olur. Amma Azərbaycanın tərəfdarları az olurdu. Ona görə yox ki, Azərbaycan nümayəndələri zəif olurdu, yox, sadəcə, bayaq mən çıxışımın əvvəlində dedim, dünyada qeyri-normal vəziyyət yaranıbdır. Ona görə də bizim hər bir nümayəndəmiz, deputatımız başqaları ilə, xüsusilə Ermənistanın deputatları ilə müqayisədə özünü, bəlkə də, iki-üç qat yaxşı göstərməlidir ki, heç olmasa bərabərlik olsun. Mən bunu keçmişdə də demişəm. Mən elə bilirdim ki, bu ikili standart təkcə SSRİ-dədir. O vaxt ikili standartdan biz çox əziyyət çəkmişdik. Deyirdim ki, SSRİ dövrü başa çatdı, hamı müstəqil dövlətdir və ikili standart da yoxdur. Amma oradakı ikili standartlardan qurtarıb buradakı ikili standartlarla rastlaşdıq. İkili standart vardır. Mən bunu xırdalamaq istəmirəm. Siz ağıllı adamlarsınız, hər biriniz bunun nə səbəbə olduğunu bilirsiniz. Bu ikili standarta siz hər yerdə rast gələcəksiniz. Bu sözləri dediyimə görə heç kəs məndən inciməsin – nə Avropa Şurasında, nə də başqa yerdə.

Ona görə də gərək Azərbaycan nümayəndələri daha da yüksək səviyyədə olsunlar ki, bu ikili standartı da nəzərə alaraq, biz onlardan ya yuxarıda, ya da onlara bərabər olaq. Hesab edirəm ki, nümayəndə heyətimizin tərkibi öz intellektual səviyyəsinə və potensialına görə buna qadirdir.

Mən sizi və bütün Azərbaycan xalqını, ölkəmizin vətəndaşlarını müstəqil Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə bir daha təbrik edirəm. Bəyan edirəm ki, biz Avropa Şurasının prinsiplərini Azərbaycanda həyata keçirməyi təmin edəcəyik. Onların konvensiyalarının hamısına, demək olar ki, biz qoşuluruq – bir neçə-

sini qəbul etmişik və bir neçəsini də Xarici İşlər naziri Strasburq-da imzalayacaqdır. Bu da Azərbaycanın inkişaf etməsinə daha da böyük imkanlar yaradacaqdır.

Bu şərəfli işinizdə sizin hər birinizə uğurlar arzulayıram. Sağ olun.

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ OSMAN FARUQ LOĞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

20 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana xoş gəlmisiniz. Hörmətli Loğoğlu, siz Azərbaycanda səfir oldunuz və çox yaxşı işlər gördünüz. Yəqin o vaxtdan ölkəmizə gəlməmisiniz.

O s m a n F a r u q L o ğ o ğ l u: Cənab Prezident, üç ildir Azərbaycana gəlməmişəm.

H e y d ə r Ə l i y e v: Üç ildir gəlməmisiniz. Üç ildən sonra gəlmisiniz, güman edirəm ki, sizin üçün də maraqlıdır ki, bu üç ildə Azərbaycanda nə var, nə yox, nə dəyişilib, ya da dəyişilməyibdir. Hesab edirəm ki, dəyişilibdir. Mən sizin səfərinizdən çox məmnun olduğumu bildirirəm.

Təbiidir ki, Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bizim müxtəlif səviyyələrdə daim görüşlərimizin, danışıqlarımızın aparılmasını tələb edir. Buna görə də sizin təşəbbüsünüzü, Azərbaycana gəlişinizi mən bəyənirəm və yüksək qiymətləndirirəm. Xoş gəlmisiniz.

O s m a n F a r u q L o ğ o ğ l u: Sayın Cümhurbaşqanım, çox təşəkkür edirəm. Böyük fasilədən sonra təkrar Azərbaycana gəlməyimdən çox məmnunluq və şərəf duyuram. Məni və başçılıq etdiyim nümayəndə heyətini belə bir gündə qəbul etdiyiniz üçün Sizə minnətdarıq. Azərbaycan xalqının dərdinə

şərik çıxır, şəhidlərinizi hörmətlə yad edirik, onlara Allahdan rəhmət diləyirik. Bu hüznlü, eyni zamanda qəhrəmanlıq günündə azərbaycanlı qardaşlarımızla birlikdə olduğumuzu bildirmək istəyirəm.

Buraya Türkiyə Xarici İşlər Nazirliyinin xüsusi təmsilçisi kimi gəlmişəm. Türkiyə prezidenti hörmətli Əhməd Necdət Sezərin, Baş nazir Büləndd Ecevitin, Xarici İşlər naziri İsmayıl Cəmin Sizə ən səmimi salamlarını, hörmət və sevgilərini çatdırmaq istəyirəm.

Dünən dövlətimizin başçısı Əhməd Necdət Sezər tərəfindən qəbul edildim. O, tezliklə Sizi Türkiyədə görməkdən böyük şərəf duyacağını bildirdi. Bu səbəblə – Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə Türkiyənin təbriklərini Sizə yetirmək istəyirəm. Türkiyədə biz bundan qürur duyuruq. Azərbaycan qarşısına çıxan bütün əngəlləri qısa bir vaxtda aradan qaldırmış, Avropa Şurasının üzvü olmuşdur. Əminik ki, Avropa Şurasında özünə layiq yer tutacaqdır. Türkiyə həmişə ölkənizlə bir olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan əlaqələrin əhəmiyyətini bilən və bunun vacibliyinə inanan bir şəxs kimi, bu əməkdaşlığın bütün sahələrdə daha da inkişaf edəcəyinə əminəm. İcazə versəydiniz, Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə Türkiyə prezidenti Əhməd Necdət Sezərin göndərdiyi təbrik məktubunu, aprelin 26–27-də türkdilli dövlətlərin İstanbulda keçiriləcək zirvə toplantısında iştirak etmək üçün zati-alinizə dəvətini təqdim edərdim.

Hörmətli Prezident, bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümüzü bildiririk. Sizə xoşbəxtlik diləyir, cansağlığı arzulayırıq.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Əvvəla, sizin Azərbaycana səfərinizdən çox məmnunam. Mənim dostlarımın – hörmətli cümhurbaşqanı Əhməd Necdət Sezərin, hörmətli Baş nazir Büləndd Ecevitin və hörmətli Xarici İşlər naziri İs-

mayıl Cəmin mənə yetirdiyiniz salamlarına görə çox məmnunam və təşəkkür edirəm. Xahiş edirəm, mənim salamlarımı, hörmət və ehtiramımı, sayqımı hörmətli cümhurbaşqanı Əhməd Necdət Sezərə, hörmətli Baş nazir Büləndd Ecevitə, hörmətli Xarici İşlər naziri İsmayıl Cəmə, bütün dostlarıma – orada mənim dostlarım çoxdur, onların hamısına – çatdırasınız. Güman edirəm ki, bu görüş hər iki tərəf üçün faydalı olacaqdır.

Azərbaycanın Avropa Şurasına daxil olması ilə əlaqədar təbriklərinizi və hörmətli cümhurbaşqanının şəxsi təbrikini mənə təqdim etdiyinizə görə çox məmnunam və bu təbrikə görə çox təşəkkür edirəm. Eyni zamanda qeyd etmək istəyirəm ki, biz dörd il Avropa Şurasının üzvlüyünə namizəd – siz buna yedək deyirsiniz – olmuşuq. Bu dörd il müddətində Avropa Şurasına daxil olmaq prosedurlarından keçmişik. Bilirsiniz ki, son 4-5 ayda da bu prosedurlar çox sərt olmuşdur. Biz Avropa Şurasında namizəd kimi fəaliyyətə başlayandan son dəqiqəyə qədər, yəni Azərbaycanın yanvarın 17-də Avropa Şurasına qəbul olunması gününə qədər Türkiyənin, ölkənizin Xarici İşlər Nazirliyinin və Türkiyənin Avropa Şurasındakı təmsilçilərinin dəstəyini, köməyini həmişə hiss etmişik. Birinci növbədə Türkiyə dövlətinə, Xarici İşlər Nazirliyinə arxalanmışıq. Çünki bilirsiniz ki, əngəllər də var idi. Biz hiss edirdik ki, Ermənistanla Azərbaycanın eyni vaxtda Avropa Şurasına üzv qəbul olunması məsələsində ölkəmizə qarşı ədalətsizliklər də var.

Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir, təcavüzkardır.

Ermənistanın Avropa Şurasına qəbul olunması üçün Azərbaycanın qarşısına qoyulduğu qədər şərtlər irəli sürülmədi. Yəni biz belə bir gərgin mübarizədən sonra Avropa Şurasına daxil ola bildik. Ancaq bu mübarizədə də yenə Türkiyə Cümhuriyyəti, onun hökuməti, Xarici İşlər Nazirliyi və Tür-

kiyənin Avropa Şurasındakı təmsilçiləri həmişə bizə yardımçı oldular. Mən bu münasibətlə iki dəfə sizin hörmətli Xarici İşlər naziriniz İsmayıl Cəm ilə də danışmışdım. O da Avropa Şurasında bu beynəlxalq təşkilatın rəhbərləri ilə danışmışdır. Ona görə də indi artıq Avropa Şurasının üzvü olaraq, Türkiyənin bu məsələdə də Azərbaycana çox böyük yardım göstərdiyini qeyd edirəm və buna görə təşəkkür edirəm.

Bilirəm ki, biz geniş söhbət aparacağıq. Ancaq indi mətbuatın burada olmasından istifadə edərək onu demək istəyirəm ki, son vaxtlar bəzi ölkələrdə Türkiyənin vaxtilə soyqırımı etməsi haqqında fikirlər irəli sürülür, qərarlar qəbul edilir. Bu, Türkiyəni narahat etdiyi, incitdiyi kimi, bizi də incidir. Mən dünən bizim deputatlarımızı Avropa Şurasına yola salarkən bu mövzuya da toxundum. Dedim ki, bizə dəyən daş Türkiyəyə dəyən daşdır. Türkiyəyə dəyən daş Azərbaycana dəyən daşdır. Ona görə də biz bunu bütün türk dünyasına, o cümlədən Azərbaycana qarşı bir ədalətsizlik kimi qiymətləndiririk.

Mən bir neçə dəfə demişəm və bu gün də bəyan etmək istəyirəm ki, Azərbaycan dövləti bütün bu qərarlara etirazını bildirir, onların tamamilə ədalətsiz olduğunu bəyan edir. Bu tarixi biz də az bilmirik, yaxşı bilirik. Bilirik ki, ermənilər türklərə, o cümlədən azərbaycanlılara qarşı soyqırımları ediblər. Amma türklərin ermənilərə qarşı soyqırımı olmayıbdır. Ona görə də mən, fürsətdən istifadə edib, prezident kimi, Azərbaycan dövlətinin bəyanatını bir daha elan edirəm.

Güman edirəm ki, bu məsələlər barəsində indi geniş fikir mübadiləsi aparacağıq.

RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ SERGEY İVANOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

22 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Sergey Borisoviç, mən sizi Azərbaycanda salamlayıram! Biz bu yaxınlarda görüşmüşdük, şadam ki, yenidən görüşürük. Bu ona dəlalət edir ki, belə səviyyələrdə görüşlər daimi xarakter alır. Düşünürəm ki, bu, Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün vacibdir. Biz bu barədə burada söhbət etdik, sənədlər imzaladıq.

Sizə deməliyəm ki, Rusiya prezidenti hörmətli Vladimir Vladimiroviç Putinin Azərbaycana səfəri çox böyük əhəmiyyətli hadisə oldu. Əhalinin mütləq əksəriyyəti bunu məhz belə qarşıladı və əslinə qalsa, indi də böyük razılıqla, məmnunluqla müzakirə edir, bildirir ki, indi Rusiya–Azərbaycan münasibətləri nəinki yaxşılaşır, həm də yüksək səviyyədədir. Burada – təkcə burada deyil – zənnimcə, dünya miqyasında da hamı Rusiya prezidentinin yeni ilin, yeni əsrin başlanğıcında məhz Azərbaycana rəsmi səfər etməsini xüsusi qiymətləndirir. Əlbəttə, buna qısqanclıqla yanaşan ölkələr var. Lakin səfər ümumən razılıq, məmnunluq hissi ilə qarşılanmışdır, Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olacağına hamıda böyük ümid var, ona görə ki, bu, Rusiyanın və Azərbaycanın milli mənafelərinə cavab verir.

Səfərin yekunları bizim mətbuatda indiyədək müzakirə edilir. Müxtəlif təbəqələrdən olan insanlar öz fikirlərini söyləyirlər. Əlbəttə, mütləq əksəriyyət müsbət rəydədir. Açığını deyəcəyəm, xalqımızın belə səfər üçün bu qədər darıxdığını təsəvvürümə də gətirməzdim. Bununla yanaşı, əlbəttə, müxtəlif rəylər var. Siz yəqin bizdən çox məlumata maliksiniz. Müxtəlif ölkələrdə bunu müxtəlif cür qiymətləndirir, müxtəlif cür təhlil edirlər. Lakin bilirsinizmi, mən həmişə hesab etmişəm ki, müxtəlif analitiklər, icmalçılar çox vaxt öz subyektiv fikirlərini həqiqət kimi qələmə vermək istəyirlər. Bununla belə, məsələ heç də bu fərdi şəxslərdə deyildir, biz bilirik ki, bu səfər təkcə ayrı-ayrı informasiya vasitələrində deyil, həm də ayrı-ayrı ölkələrdə, amma müxtəlif cəhətlərdən böyük maraq doğurmuşdur.

Biz bunu bilirik, izləyirik, nəzərə alırıq. Lakin hesab edirik ki, – bu gün mən bir daha təsdiqləmək istəyirəm – bu, əsrimizin başlanğıcında çox mühüm hadisədir və Rusiya ilə Azərbaycan arasında münasibətləri həqiqətən real surətdə inkişaf etdirməlidir. Bunun isə təkcə Rusiya üçün deyil, Azərbaycan üçün deyil, həm də bütün Cənubi Qafqaz regionu, bütün Qafqaz üçün böyük əhəmiyyəti var.

Vladimir Vladimiroviç yanvarın 16-da mənə zəng etmişdi. Biz onunla səfərin yekunları haqqında danışdıq. Mən bütün bunlar barəsində ona məlumat verdim. O da, mən də yekdil fikirdə olduq ki, səfər çox uğurlu, çox faydalı idi. Təkrar edirəm, hər iki tərəfin ümidləri gələcək işlərimizdə öz əməli əksini tapacaqdır.

Bununla əlaqədar indi siz regiona səfərə gəlmisiniz. Bu onu göstərir ki, Rusiya Cənubi Qafqaz regionunda öz fəaliyyətini gücləndirir. Mən sizi salamlayıram və gəlişinizə çox şadam.

S e r g e y İ v a n o v: Qonaqpərvərliyə görə, səfərin təşkili ilə bağlı görülmüş genişmiqyaslı hazırlığa görə Vladimir Vladimiroviçin böyük təşəkkürünü Sizə yetirmək istəyirəm.

Səfərlə əlaqədar ölkəmizdə yekdil rəy var, özü də partiya mənsubiyyətindən asılı olmayaraq, siyasi qüvvələrin hamısının rəyi yekdildir. Hamı bu səfəri yüksək qiymətləndirir. Bu bütün cəmiyyətimizin rəyidir.

Rusiya Qafqazın problemlərinə, həqiqətən, böyük diqqət yetirməyə başlamışdır, onlara maksimum obyektiv, nəzakətlə yanaşmağa çalışır və Rusiya–Azərbaycan əlaqələrinin inkişafını alqışlayır. İkincisi, o, həqiqətən, xalqlarımızın tarixi əlaqələrinin keçmişdəkindən daha dinamik, təbii ki, yeni reallıqlar nəzərə alınmaqla, inkişaf etməsi üçün imkan çərçivəsində hər şeyi etməyə çalışır.

Mən bununla da razıyam ki, bu səfər dünyanın digər ölkələrində də çox diqqətlə izlənilirdi. Münasibət müxtəlif idi, jurnalistlərin yanında demək yaxşı düşməsə də, siyasətçilər bu səfəri əsas etibarilə alqışlayırdılar, jurnalistlər isə mənsub olduqları ölkədən, regiondan asılı olaraq, müxtəlif cür yazırdılar. Sizin kimi, biz də bunu bilirik, nəzərə alırıq, amma öz milli mənafelərimizi, Azərbaycanın və ölkəmizin xalqlarının mənafelərini əsas götürürük. Hesab edirik ki, münasibətlərimizi bundan sonra da hərtərəfli inkişaf etdirməliyik. Hər halda, Rusiyanın siyasi rəhbərliyi, təkcə siyasi rəhbərlik deyil, işgüzar dairələr də belə əhval-ruhiyyədədirlər. Yazılanlarla görülmüş işlər arasında fasilə yaranmaması üçün, ilk növbədə, səfər zamanı əldə olunmuş razılaşmaların yerinə yetirilməsi çərçivəsində, imzalanmış sazişlər çərçivəsində münasibətlərimizi ardıcıl surətdə inkişaf etdirmək, digər tərəfdən isə, ən yaxın vaxtlarda atacağımız növbəti addımları müəyyənləşdirmək lazımdır.

Sizi əmin etmək istəyirəm ki, Vladimir Vladimiroviç də bu əhval-ruhiyyədədir, sizinlə telefon söhbəti haqqında o da danışırdı. Düşünürəm ki, yaxın gələcəkdə nəinki Siz prezidentlər üçün, həm də xalqlarımız üçün növbəti faydalı görüşlərimiz olacaqdır.

H e y d ə r Ə l i y e v: Demək istəyirəm ki, prezident Vladimir Vladimiroviç Putinin yola düşdüyü günün elə ertəsi mən Azərbaycanın Təhlükəsizlik Şurasını da, Nazirlər Kabinetini, onun baş idarələrini də geniş tərkibdə topladım. Biz səfərin yekunlarını müzakirə etdik, sabaha daha heç nə qalmaması üçün, habelə yeni bəyannaməmizlə və Xəzər dənizinə dair bəyanatımızla bağlı hər bir məsələ üzrə konkret olaraq nə kimi işlər görülməli olduğunu müzakirə etdik. Biz Qəbələ stansiyası barəsində və digər bütün məsələlər, xüsusən iqtisadi məsələlər barəsində qəti bir qərara gəlməliyik. Mən Baş nazirin rəhbərliyi ilə xüsusi komissiya yaratmışam. Komissiya bütün bu məsələləri işləyib hazırlayır. Ona görə də biz haqqında danışdığımız, razılığa gəldiyimiz hər bir məsələ üzərində – əgər razılığa gəlməmişiksə, hər halda, yeni zəmin yaratmışıq, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə yeni mərhələ açmışıq – çox ciddi işləmək niyyətindəyik ki, bütün bunlar öz praktiki həllini tapsın.

S e r g e y İ v a n o v: Bizim də mövqeyimiz belədir. Rusiya Qafqazda öz münasibətlərini beynəlxalq hüquq, ərazi bütövlüyü, suverenlik əsasında, xalqlarımız arasında təşəkkül tapmış ənənəvi əlaqələrdən çıxış edərək qurmaq niyyətindədir. Bu əlaqələri hətta çox istəsən də qıra bilməzsən.

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB K.R.NARAYANANA

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və dost Hindistan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə böyük əhəmiyyət verirəm. Əminəm ki, qarşılıqlı münasibətlərimizin inkişafı bundan sonra da xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, tərəqqi və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *22 yanvar 2001-ci il*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ATAL BİHARİ VACPAİYƏ

Hörmətli cənab Baş nazir!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və dost Hindistan xalqını təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, tərəqqi və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *22 yanvar 2001-ci il*

AVSTRALİYANIN BAŞ VALİSİ
ZATİ-ALİLƏRİ
CƏNAB VİLLİAM PATRİK DİNƏ

Hörmətli cənab Baş vali!

Milli bayramınız – Avstraliya günü münasibətilə Sizi və dost Avstraliya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Avstraliya arasındakı dostluq və əməkdaşlıq əlaqələri ölkələrimizin və xalqlarımızın mənafeyi naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Avstraliya arasındakı dostluq və əməkdaşlıq əlaqələri ölkələrimizin və xalqlarımızın mənafeyi naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *22 yanvar 2001-ci il*

AVSTRALİYANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB CON HOVVARDA

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Avstraliya günü münasibətilə Sizi və dost Avstraliya xalqını təbrik edirəm.

Əminəm ki, qarşılıqlı əlaqələrimiz xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şərəhəri, *22 yanvar 2001-ci il*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
VİTSE-PREZİDENTİ
CƏNAB DİK ÇEYNİYƏ

Hörmətli cənab vitse-prezident!

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizinlə keçirdiyimiz görüşləri məmnuniyyətlə xatırlayıram. Aramızda yaranmış dostluğu yüksək qiymətləndirirəm.

Azərbaycanla olan dost münasibətlərimiz xalqımıza yaxşı məlumdur.

Ümidvaram ki, biz sizinlə bundan sonra da əməkdaşlıq edəcək və Amerika–Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə çatdıracağıq.

Sizi yubileyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, böyük və məsuliyyətli işinizdə uğurlar arzulayıram.

Səmimiyyətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *22 yanvar 2001-ci il*

FRANSAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BAKININ BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

23 yanvar 2001-ci il

H e y d ə r Ə l i y ev: Sizi maraqlandıran odur ki, haraya və nə üçün gedirəm. Bunların hamısı məlumdur. Bu gün Parisə gedirəm. Məni oraya prezident Jak Şirak dəvət edibdir. Sabah Yelisey sarayında onunla görüşümüz, danışığımız, ziyafət olacaqdır. Ondan sonra, axşamüstü Strasburqa gedəcəyəm. O biri günü – yanvarın 25-də Strasburqda Azərbaycanın Avropa Şurasına daxil olması mərasimi keçiriləcəkdir. Bu mərasimdə mən də iştirak edəcəyəm. Sonra, yanvarın 25-də Strasburqdan yenə də Parisə qayıdacağam. Yanvarın 26-da biz üç prezident – Jak Şirak, Ermənistan və Azərbaycan prezidentləri görüşəcəyik.

Daha sonra, ola bilər, yəqin ki, iki prezident – Ermənistan və Azərbaycan prezidentləri görüşəcəkdir. Əsas budur.

S u a l: Cənab Prezident, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasını necə qiymətləndirirsiniz? Parisdə keçirəcəyiniz görüşlərin mövzusu barədə nə deyərdiniz?

C a v a b: Əlbəttə ki, ölkəmizin Avropa Şurasına qəbul olması Azərbaycanın böyük nailiyyətidir. Azərbaycan Avropa Şurasına, Avropa ailəsinə daxil olur. Dörd ildir ki, biz bu beynəlxalq təşkilatın üzvlüyünə namizədik. Müxtəlif ölkələrdən, elə ölkəmizin daxilindən bizə nə qədər maneçilik törədənlər vardı. Xüsusən seçkilərdən sonra müxalifət qüvvələrinin çoxu deyirdi ki, Azərbaycan Avropa Şurasına qəbul olun-

mayacaqdır, nə bilim, seçkilər legitim deyil, seçkilərin nəticələri ləğv ediləcək, yenidən seçkilər keçiriləcəkdir. Bunların hamısı ermənilərin, başqa ölkələrdə Azərbaycana mənfi münasibət göstərən insanların və ya qurumların, yaxud da dövlət orqanlarının istəyi ilə üst-üstə düşür. Ona görə də nə onlar bir şey edə bilərlər, nə də ki, Azərbaycanın daxilindəki bu qüvvələr, hansı ki, Azərbaycanın guya ümumi, milli mənafelərini qoruyurlar, ancaq öz mənafelərini qorumaq üçün, öz şəxsi ambisiyalarından ötrü buna əl atırlar. Burada olan bəzi radikal müxalifət qüvvələri Azərbaycana qarşı erməni diasporundan, ermənilərdən daha pis işlər aparırlar.

Ona görə belə bir şəraitdə Azərbaycanın Avropa Şurasına qəbul olması tarixi bir hadisədir. Azərbaycan artıq Avropa Şurasına qəbul olunubdur. İndi biz, sadəcə, mərasim keçirəcəyik.

S u a l: Cənab Prezident, ötən gün Rusiyanın Təhlükəsizlik Xidmətinin rəhbəri Sergey İvanov Ermənistandan Azərbaycana gəlmişdi. Yayılan məlumatlara görə, Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı yeni təklifləri var. Belə təkliflər varmı və Robert Köçəryanla Sizin görüşünüzdə yeni təklif müzakirə oluna bilərmi?

C a v a b: Bilirsinizmi, mən bu təkliflər barədə bir şey bilmirəm. Ancaq İvanov Azərbaycana gəlmişdi. O, Ermənistanda da olmuşdu. Ümumiyyətlə, Rusiya Minsk qrupunun həmsədrlərindən biridir, həm də ilk həmsədrlərdən biridir. Prezident Putin Azərbaycanda olanda mən bu barədə, yəni həmsədr kimi, Rusiyanın öz funksiyalarını yerinə yetirməsi ilə əlaqədar onunla ətraflı danışmışam. İvanov da Təhlükəsizlik Şurasının katibidir, yəqin ki, bu işlərlə müəyyən qədər məşğul olur.

S u a l: Cənab Prezident, Jak Şirakla söhbətiniz zamanı Fransa Milli Məclisinin «erməni soyqırımı»nı tanıması barədə qərarı ilə bağlı öz etirazınızı bildirəcəksinizmi?

C a v a b: Mən «erməni soyqırımı» ilə əlaqədar etirazımı dəfələrlə bildirmişəm. İndi hər addımbaşı bildirməyəcəyəm

ki? Amma mən bilirəm ki, prezident Jak Şirak bu qərarla razı deyildir.

S u a l: Cənab Prezident, Sizcə həmin qərar Minsk qrupunun həmsədri kimi, Fransanın mövqeyinə necə təsir edə bilər?

C a v a b: Bilirsinizmi, Fransanın parlamenti həmsədr deyildir. Həmsədr Fransanın prezidentidir. Mən də sizə dedim ki, prezident Jak Şirak bu qərarı bəyənmir. Ola bilər, öz tərəfindən lazımi tədbirlər görəcəkdir.

S u a l: Cənab Prezident, Corc Buşun ABŞ Prezidenti seçilməsi ilə əlaqədar 907-ci düzəlişin ləğvi mümkündürmü?

C a v a b: Corc Buşun indi o qədər işləri var. Əvvəl öz daxili işlərini görməlidir, sonra isə bu işlərlə məşğul olmalıdır.

S u a l: Cənab Prezident, Türkiyə hökuməti artıq dünən bəyan etdi ki, Fransaya qarşı cürbəcür sanksiyalar irəli sürüləcəkdir. Bizim Türkiyə ilə əlaqələrimizi nəzərə alsaq, Azərbaycan Fransa ilə münasibətlərində hansısa təshihlər edəcəkmi?

C a v a b: Türkiyə kimi böyük, qüdrətli dövlət, Avropa Şurasının, NATO-nun üzvü əgər bir neçə sanksiya həyata keçirmək istəyirsə – o sanksiyalardan biri də ticarətin azaldılması, oradan silahların alınmasına məhdudiyyət qoyulmasıdır, başqa böyük işlərdir – Azərbaycan onun yanında nə edə bilər? İndi düşmüsünüz ortaya – mən sizi demirəm, bəzilərini nəzərdə tuturam. İstəyirlər... Ruslarda bir söz var: bıt bolşe katolikom, çem Rimskiy Papa, yəni Roma Papasından da artıq katolik olmaq. Elə sən o gün veriliş aparırdın, bayrağın ayaq altına salınıb tapdalanmasını göstərirdiniz. Bayrağın tapdalanması ilə, süni göz yaşı axıtmaqla nəyi sübut etmək istəyirsiniz?

Biz Türkiyənin bir vilayəti boyda dövlətik. Əlbəttə, biz Türkiyəni dəstəkləmişik, dəstəkləyirik və axıra qədər də dəstəkləyəcəyik. Fransanın və başqa ölkələrin parlamentlərinin qəbul etdikləri qanunlara biz etiraz edirik. Bu günlərdə Türkiyə Xarici İşlər nazirinin birinci müavini Bakıya gəlmişdi

və mən onun da yanında açıq bəyanat verdim – bunu Türkiyədə televiziyalar da, radiolar da, qəzetlər də verirlər. İndi burada kimsə deyir ki, gedək Fransa səfirliyinin qabağında hay-küy salaq. Sal, bununla neyləyəcəksən? Ona görə də bir az ağıllı olun.

S u a l: Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı Rusiyanın mövqeyi fəallaşır. Sizin Jak Şirakla və Robert Köçəryanla görüşünüz gözlənilir. Bu danışıqlardan ciddi irəliləyiş gözləmək olarmı?

C a v a b: Bilirsənmi, mən hər dəfə irəliləyiş gözləyirəm. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN FRANSA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Fransa Respublikasının prezidenti Jak Şirakın dəvəti ilə yanvarın 23-də Fransaya rəsmi səfərə gəldi.

Parisin Orli beynəlxalq hava limanı Azərbaycan Respublikasının və Fransa Respublikasının dövlət bayraqları ilə bəzədilmişdi. Ölkəmizin rəhbərinin gəlişi şərəfinə hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan prezidenti Heydər Əliyevi Fransa hökumətinin yüksək vəzifəli şəxsləri, bu ölkənin Bakıdakı səfiri Jan Pyer Ginyut, respublikamızın Parisdəki səfiri Eleonora Hüseynova və digər rəsmi şəxslər qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Hərbi orkestr Azərbaycanın və Fransanın dövlət himnlərini ifa etdi.

Təntənəli qarşılanma mərasimindən sonra prezident Heydər Əliyev Fransa paytaxtında onun üçün ayrılmış iqamətgaha yola düşdü.

* * *

Fransa Respublikasının Prezidenti cənab Jak Şirakın dəvəti ilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 24-də Yelisey sarayına gəldi.

Fransa Respublikası Prezidentinin iqamətgahı qarşısındakı meydanda Azərbaycan Respublikası Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısının avtomobili meydana daxil oldu. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti Heydər Əliyevə raport verdi. Respublikamızın rəhbəri hərbi marşın sədaları altında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Fransa Respublikasının Prezidenti Jak Şirak Azərbaycan Prezidenti Heydər Əliyevi Yelisey sarayının qarşısındakı meydanda böyük ehtiramla, səmimiyyətlə, mehribanlıqla salamladı.

Sonra Yelisey sarayında prezident Heydər Əliyev ilə prezident Jak Şirak arasında görüş keçirildi.

FRANSA RESPUBLİKASININ PREZİDENTİ JAK ŞİRAK İLƏ GÖRÜŞ*

Paris, Yelisey sarayı

24 yanvar 2001-ci il

Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan, onun dəvətini qəbul edərək Fransaya rəsmi səfərə gəldiyinə görə əziz dostu Heydər Əliyevə minnətdarlığını bildirən prezident Jak Şirak Azərbaycan rəhbəri ilə hər bir görüşündən çox məmnun qaldığını vurğuladı.

Azərbaycan ilə Fransa arasında möhkəm təməl üzərində qurulmuş əməkdaşlığın gündən-günə inkişaf etməsini yüksək dəyərləndirən cənab Jak Şirak əmin olduğunu söylədi ki, prezident Heydər Əliyevin Fransaya bu rəsmi səfəri ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsinə yeni güclü təkan verəcəkdir.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə respublikamızın rəhbərini və xalqımızı səmimi-qəlbdən təbrik edən Fransa prezidenti Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını böyük təcrübəyə malik, görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirərək dedi ki, Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, bu ölkə-

* Görüşdə respublikamızın Xarici İşlər naziri Vilayət Quliyev, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyev iştirak edirdilər.

də insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi, daim inkişafda olması məhz bu siyasətin nəticəsidir.

Səmimi sözlərə və rəsmi dəvətə görə Fransa dövlətinin rəhbərinə təşəkkürünü bildirən prezident Heydər Əliyev ölkələrimiz arasında yaranmış sıx əməkdaşlığın və prezident Jak Şirak ilə şəxsi dostluq münasibətlərinin respublikamız üçün çox böyük əhəmiyyət daşıdığını bildirdi.

Dövlət müstəqilliyini qazandıqdan sonra Azərbaycanın Avropaya, onun humanist dəyərlərinə inteqrasiya və sivil cəmiyyət quruculuğu yolunda həmişə inamla irəlilədiyini vurğulayan prezident Heydər Əliyev ölkəmizin Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinin respublikamız üçün böyük tarixi hadisə olduğunu nəzərə çatdırdı və bu sahədəki daimi dəstəyinə görə Fransa dövlətinə və onun başçısına – Azərbaycana daim xoş münasibət bəsləyən və bütün dünyada sülhsevər, nüfuzlu siyasi xadim, görkəmli dövlət xadimi kimi hörmət qazanmış Jak Şiraka dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Ölkəmizin Avropa Şurasına qəbul olunması münasibətilə yanvarın 25-də Strasburqda müstəqil Azərbaycan Respublikasının dövlət bayrağının dalğalanacağı anın xalqımız üçün tarixi əhəmiyyət daşıdığını bildirən prezident Heydər Əliyev dedi ki, həm respublikamız, həm də Avropa üçün çox mühüm olan bu hadisə Avropanın yalnız tarixi və mədəni baxımdan deyil, eyni zamanda siyasi baxımdan da tamlaşdığı, bütövləşdiyi əlamətdar gün olacaqdır.

Qabaqcıl Avropa təcrübəsinə əsaslanan Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində aparılan islahatların uğurlu nəticələrindən geniş bəhs edən respublikamızın rəhbəri ölkəmizdə insan haqlarının bərqərar olunduğunu, söz və mətbuat azadlığının təmin edildiyini, çoxpartiyalı siyasi sistem yaradıldığını vurğuladı, demokratik islahatların bundan sonra da müvəffəqiyyətlə həyata keçiriləcəyini bildirdi.

Müstəqil Azərbaycan Respublikası üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox soydaşımızın əksəriyyətinin uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşadığını xatırlatdı.

Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin fəaliyyətindən ətraflı söhbət açan prezident Heydər Əliyev problemin tezliklə həlli sahəsində Fransa dövlətinin və prezident Jak Şirakın səylərini yüksək qiymətləndirdi.

Ermənistan prezidenti Robert Köçəryan ilə birbaşa danışıqlarından bəhs edən respublikamızın rəhbəri, eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Minsk qrupuna həmsədrlik edən ölkələrin – ABŞ-ın, Rusiyanın, Fransanın səylərinin daha da artırılmasına ehtiyac duyulduğunu nəzərə çatdırdı.

Ermənistan – Azərbaycan münaqişəsinin tezliklə həll edilməsinin Cənubi Qafqaz bölgəsində sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olunmasında, region dövlətlərində demokratiyanın daha sürətli inkişafında, onların arasında iqtisadi əməkdaşlığın genişləndirilməsində böyük rol oynayacağını vurğulayan cənab Jak Şirak prezident Heydər Əliyev ilə prezident Robert Köçəryanın müntəzəm görüşlərinin münaqişəyə son qoyulmasının kompromis yollarının axtarılıb tapılması üçün xüsusi əhəmiyyəti olduğunu söylədi. Cənab Şirak əmin olduğunu bildirdi ki, Azərbaycan və Ermənistan prezidentlərinin yanvarın 26-da Parisdə keçiriləcək görüşü bu münaqişənin dinc yolla həlli prosesinin sürətləndirilməsinə lazımi təkan verəcəkdir.

Coğrafi mövqeyinə, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik təbii ehtiyatlarına görə dünyada özünəməxsus yer tutmuş müstəqil Azərbaycan Respublikası ilə bütün sahələrdə

əlaqələrin daha da sıxlaşdırılmasına Fransanın daim xüsusi maraq göstərdiyini söyləyən cənab Jak Şirak Azərbaycanda onun ölkəsinin iş adamlarına əlverişli şərait yaradıldığına görə prezident Heydər Əliyevə təşəkkür etdi.

Xəzərin Azərbaycan sektorundakı zəngin karbohidrogen ehtiyatlarının birgə işlənilməsində Fransanın «Total» və «Elf Agiten» şirkətlərinə geniş yer ayrılmasından məmnun qaldığını söyləyən cənab Jak Şirak qeyri-neft sektorlarında da ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığının uğurlu inkişafından, Azərbaycanda fəaliyyətə başlamış «Kastel-Bakı» zavodunun açılış mərasimində prezident Heydər Əliyevin iştirak etməsindən razılıqla söhbət açdı. O, ticarət, kənd təsərrüfatı, şəhər təsərrüfatı və digər sahələrdə də əlaqələrin genişləndirilməsi üçün yaradılmış imkanın hər iki ölkə üçün faydalı olacağını söylədi.

Bazar münasibətləri yolunu seçmiş Azərbaycanın dünyanın bütün ölkələri ilə, o cümlədən, Avropanın çox nüfuzlu dövləti olan Fransa ilə bütün sahələrdə əlaqələrin daim inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiyini nəzərə çatdıran prezdient Heydər Əliyev Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün bağlanmış müqavilələrin həyata keçirilməsində, hasil edilən neftin dünya bazarlarına nəqli sahəsində görülən işlərdən ətraflı söhbət açdı.

Prezident Heydər Əliyev öz iqtisadiyyatının dünya iqtisadiyyatı ilə daha sıx bağlanmasına böyük əhəmiyyət verən Azərbaycanda xarici investorların işləməsi üçün möhkəm hüquqi baza yaradıldığını, xarici investorların işləməsi üçün möhkəm hüquqi baza yaradıldığını xatırlatdı, xarici sərmayələrin ölkəmizə axınının daha da gücləndirilməsinin müstəqil Respublikamız üçün çox faydalı olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Fransanın beynəlxalq təşkilatlarda əməkdaşlığının daha da yaxşılaşdırılması məsələsinə də toxunuldu. Cənab Jak Şirak dövlətimizin başçısını əmin etdi

ki, Fransa bütün beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcək və ona yaxından kömək göstərəcəkdir.

Cənab Jak Şirak vurğuladı ki, Azərbaycanın bəxti onda gətiribdir ki, bu ölkəyə prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.

Görüşdə beynəlxalq aləmdə, regionda vəziyyət və bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı. Prezident Heydər Əliyev Fransa parlamentində «erməni soyqırımı» barədə qəbul edilmiş sənədlərə mənfi münasibətini bildirdi, bu barədə öz tənqidi fikirlərini söylədi.

Cənab Jak Şirak prezident Heydər Əliyevin bu barədə fikirlərinə böyük diqqət göstərdi, həmin sənədlər barədə deyilən tənqidi nəzərə aldığını bildirdi.

Səmimilik və dostluq şəraitində keçən görüşdə xalqımızın Jak Şiraka böyük rəğbət bəslədiyini vurğulayan dövlətimizin başçısı Heydər Əliyev Fransa prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi.

Dəvəti məmnunluqla qəbul edən cənab Jak Şirak Azərbaycana mütləq rəsmi səfərə gələcəyini bildirdi.

* * *

Elə həmin gün Fransa Respublikasının Prezidenti Jak Şirakın adından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil edildi.

Qəbulda respublikamızın Xarici İşlər naziri Vilayət Quliyev, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyev, respublikamızın Parisdəki səfiri Eleonora Hüseynova, Fransanın Bakıdakı səfiri Jan Pyer Ginyut və digər rəsmi şəxslər iştirak edirdilər.

GÖRÜŞ VƏ RƏSMİ QƏBUL BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN YELİSEY SARAYI QARŞISINDAKI MEYDANA TOPLAŞMIŞ JURNALİSTLƏR QARŞISINDA BƏYANATLARI VƏ ÇIXIŞLARI

Fransa Prezidenti Jak Şirakın bəyanatı

İlk növbədə demək istərdim ki, prezident Heydər Əliyevi Parisdə qəbul etmək mənim üçün böyük sevincdir. Çoxdandır ki, bizim aramızda qarşılıqlı dostluq münasibətlərindən də artıq əlaqələr yaranmışdır. Mən prezident Əliyevə dərin hörmət bəsləyirəm.

Mən, ilk növbədə, prezident Əliyevi və onun ölkəsini Azərbaycanın Avropa Şurasına qəbul olunması münasibətilə təbrik etmək istərdim. Dediyim kimi, Avropa Şurasına bu qəbul sübut edir ki, Azərbaycanda demokratiya möhkəmlənmişdir və getdikcə möhkəmlənir. Prezident Əliyevin səfəri bizə ikitərəfli münasibətlərlə, xüsusən çox gözəl olan iqtisadi əlaqələrimizlə bağlı məsələlərə də toxunmağa imkan vermişdir. Sizə məlumdur ki, Azərbaycan istər Avropanın, istərsə də Fransanın işgüzar dairələrində böyük nüfuza malikdir. Biz iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsindən danışdıq. Təbii ki, biz Dağlıq Qarabağ probleminə də toxunduq. Sizə məlum olduğu kimi, Fransa ATƏT-in Minsk qrupunun üç həmsədrindən biridir. Fransa bu problemin dinclik həll edilməsinə əlindən gələn köməyi göstərməyə çalışır. Şübhəsiz, Fransa çalışır ki, bu problemin həlli tarazlı xarak-

ter daşısın, yəni hər iki tərəf üçün məqbul olsun. Fransa münaqişənin həlli üçün hər iki ölkədə göstərilən səyləri də dəstəkləyir.

İki gündən sonra biz prezidentlə yenidən görüşəcəyik. Bu mənim üçün böyük sevincdir.

Mən bu səfərə görə prezident Əliyevə bir daha təşəkkür etmək istərdim.

Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

Sağ olun, cənab Prezident. Mən, ilk növbədə, Fransaya rəsmi səfərə gəlmək dəvətinə görə Fransanın prezidenti cənab Jak Şiraka təşəkkür etmək istəyirəm.

Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin fəaliyyətindən ətraflı söhbət açan prezident Heydər Əliyev problemin tezliklə həlli sahəsində Fransa dövlətinin və prezident Jak Şirakın səylərini yüksək qiymətləndirdi.

Ermənistan prezidenti Robert Köçəryan ilə birbaşa danışıqlarından bəhs edən respublikamızın rəhbəri, eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Minsk qrupuna həmsədrlik edən ölkələrin – ABŞ-ın, Rusiyanın, Fransanın səylərinin daha da artırılmasına ehtiyac duyulduğunu nəzərə çatdırdı.

Ermənistan–Azərbaycan münaqişəsinin tezliklə həll edilməsinin Cənubi Qafqaz bölgəsində sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olunmasında, region dövlətlərində demokratiyanın daha sürətlə inkişafında, onların arasında iqtisadi əməkdaşlığın genişləndirilməsində böyük rol oynayacağını vurğulayan cənab Jak Şirak prezident Heydər Əliyev ilə prezident Robert Köçəryanın müntəzəm görüşlərinin münaqişəyə son qoyulmasının kompromis yollarının axtarılıb tapılması üçün xüsusi əhəmiyyəti olduğunu söylədi. Cənab

Şirak əmin olduğunu bildirdi ki, Azərbaycan və Ermənistan prezidentlərinin yanvarın 26-da Parisdə keçiriləcək görüşü bu münaqişənin dinc yolla həlli prosesinin sürətləndirilməsinə lazımi təkan verəcəkdir. Böyük əhəmiyyətə malikdir ki, o, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınması üzrə Minsk qrupunun Rusiya və Amerika Birləşmiş Ştatları ilə birlikdə həmsədridir.

Mən deməliyəm ki, Fransa və şəxsən prezident cənab Şirak bu işdə çox fəal iştirak edir və yeni-yeni səylər göstərirlər. Bu gün biz bu məsələni də ətraflı müzakirə etdik. Mən söhbətimizin nəticələrindən və Fransanın tutduğu mövqedən razıyam. İnanıram ki, prezident cənab Jak Şirakın səyləri ilə, Minsk qrupunun digər həmsədrləri ilə birlikdə biz bu münaqişəni sülh yolu ilə həll edə biləcəyik.

Mən cənab Jak Şirakı Azərbaycana rəsmi səfərə dəvət etdim.

J a k Ş i r a k: Mən bu dəvəti böyük məmnuniyyətlə qəbul etdim.

H e y d ə r Ə l i y e v: Bu səfər 1998-ci ildə planlaşdırılmışdı, lakin bəzi səbəblərə görə baş tutmadı. Ümidvaram ki, bu dəfə baş tutacaqdır. Bizim görüşlərimiz, danışıqlarımız hələ davam etdiriləcəkdir. Mənim burada Ermənistan prezidenti Köçəryanla görüşüm üçün şərait yaratmaq niyyətinə görə prezident cənab Jak Şiraka təşəkkür edirəm.

Cənab Prezident, qonaqpərvərliyə görə, bizə səmimi münasibət göstərildiyinə görə, bizim sizinlə dostluğumuza görə mən Sizə təşəkkür edirəm.

* * *

S u a l: Siz parlamentin «soyqırımı» haqqında qəbul etdiyi qərara toxundunuzmu?

J a k Ş i r a k: Prezident Əliyev bu qərar barədə özünün dərin təəssüf hisslərini mənə bildirdi və dedi ki, Azərbaycan

xalqı parlamentin bu qərarına ciddi tənqidlə yanaşmışdır. Mən bu tənqidi gözəl başa düşürəm və onu nəzərə aldım. Lakin bu, Azərbaycanla Fransa arasında mövcud olan dostluğa və qarşılıqlı münasibətlərə əsla xələl gətirməyəcəkdir.

S u a l: Siz Qarabağ məsələsi barədə hər hansı bir razılığa gəldinizmi?

H e y d ə r Ə l i y e v: Biz müxtəlif variantları müzakirə etdik, lakin bu əlaqələri, bu söhbətləri davam etdirəcəyik. Ümidvaram ki, biz bu məsələnin həllinə gəlib çıxacağıq.

J a k Ş i r ak: Sağ olun.

FRANSA – AZƏRBAYCAN TİCARƏT PALATASININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

Paris,
Azərbaycan Prezidentinin iqamətgahı

24 yanvar 2001-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Parisdə onun üçün ayrılmış iqamətgahda Fransa–Azərbaycan Ticarət Palatasının prezidenti Serj Buadve, palatanın vitse-prezidenti Azər Mərd və bu ölkənin Bakıdakı keçmiş səfiri Jan Perrən ilə görüşmüşdür.

Palatanın rəhbərləri və Fransanın Bakıdakı keçmiş səfiri dövlətimizin başçısını səmimiyyətlə salamladılar, prezident Heydər Əliyev ilə görüşdən şərəf duyduqlarını bildirdilər.

Cənab Jan Perrən ölkəmizdə işlədiyi illəri, respublikamızın rəhbəri Heydər Əliyev ilə görüşlərini həmişə məmnunluqla xatırladığını bildirdi.

Azərbaycan mədəniyyətini, incəsənətini, musiqisini yüksək dəyərləndirən cənab Perrən ölkəmiz haqqında kitab yazdığını və bununla əlaqədar Bakıya səfərə gəlmək istədiyini söylədi.

Prezident Heydər Əliyev cənab Perrənin bu fikrini razılıqla qarşıladı.

Fransa–Azərbaycan Ticarət Palatasının gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verən cənab Serj Buadve onların fəaliyyətinə göstərdiyi dəstəyə görə prezident Heydər Əliyevə minnətdarlıq etdi.

Azərbaycan–Fransa əlaqələrinin daha da möhkəmləndirilməsində bu palatanın üzərinə düşən vəzifələrdən danışan respublikamızın rəhbəri onlara gələcək işlərində uğurlar arzuladı.

Söhbət zamanı Fransa–Azərbaycan Ticarət Palatasının fəaliyyətinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

TÜRKİYƏLİ JURNALİSTLƏRLƏ MÜSAHİBƏ

Paris,
Azərbaycan Prezidentinin iqamətgahı

24 yanvar 2001-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türkiyəli jurnalistlərin – TRT, TQRT televiziyalarının və «Sabah» qəzeti müxbirlərinin suallarına cavab vermişdir.

S u a l: Cənab Prezident, prezident Jak Şirak ilə görüşünüzdə Fransa parlamentinin «erməni soyqırımı» barədə qəbul etdiyi sənədlərə öz mənfi münasibətinizi bildirmisiniz. Bu barədə nə deyə bilərsiniz?

C a v a b: Bəli, mən dedim ki, Azərbaycan dövləti belə bir qərarın qəbul olunmasına etiraz edir. Azərbaycanda xalq bundan çox narahatdır. Biz çox təəccüb edirik ki, siz nə üçün belə bir qərar çıxarmısınız?

Jak Şirak cavab verdi ki, bu məndən də, Baş nazirdən də asılı deyildir. O daha sonra əlavə etdi ki, Fransada yaxın vaxtlarda seçkilər keçiriləcək, ona görə də siyasətçilər səs toplamaq üçün bunu ediblər, lakin mən Senatda və Milli Məclisdə qəbul olunmuş bu sənədləri dəstəkləmirəm.

Cənab Jak Şirak dedi ki, mən Türkiyənin ən yaxın dostuyam. Hələ 20 il bundan əvvəl Fransa ilə Türkiyə arasında dostluq münasibətlərinin yaradılmasında çox işlər görmüşəm və bu gün də Türkiyənin dostuyam.

S u a l: Cənab Prezident, Fransa prezidenti həmin sənədlərə imza atıb-atmayacağı barədə bir söz söylədimi?

C a v a b: Xeyr, bu barədə bir söz demədi. Mən bilmirəm ki, o həmin sənədləri imzalayacaq, yoxsa yox.

S u a l: Cənab Prezident, Türkiyənin bəzi qəzetlərində Sizin bu rəsmi səfəriniz zamanı Fransa Senatının və Milli Məclisinin «erməni soyqırımı» barədə qəbul etdiyi sənədlərə öz mənfi münasibətinizi bildirməməyiniz haqqında tənqidi xəbərlər verilibdir. Bu haqda nə deyərdiniz?

C a v a b: Bunlar yanlış xəbərlərdir. «Erməni soyqırımı»na dair sənədlərin qəbul edilməsindən xəbər tutan kimi, mən bəyanatlar verdim, öz etirazımı və mənfi münasibətimi bildirdim. Mən bunu bir neçə dəfə etmişəm. Bu gün də prezident Jak Şirak ilə görüşüm zamanı mən bu məsələyə öz mənfi münasibətimi bildirdim.

J u r n a l i s t: Cənab Prezident, çox sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA ŞURASINA ÜZV QƏBUL EDİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏNTƏNƏLİ MƏRASİMDƏ* NİTQ

Strasburq

25 yanvar 2001-ci il

Hörmətli cənab sədr!
Hörmətli cənab Nazirlər Komitəsinin sədri!
Hörmətli cənab Baş katib!
Hörmətli mərasim iştirakçıları!

Bu gün Avropa parlamentarizminin mərkəzində – Strasburqda, Avropa Şurasının bu möhtəşəm sarayında həm Azərbaycan Respublikası, həm də Avropa üçün çox mühüm əhəmiyyətə malik olan bir hadisə baş verir – Azərbaycan Avropa ailəsinə qəbul edilir. Bununla da Avropanın yalnız tarixi və mədəni baxımdan deyil, siyasi baxımdan da tamlaşması, bütövləşməsi başa çatır.

1991-ci ildə Sovet İttifaqının dağılması ilə əlaqədar, Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Azərbaycan yalnız son on ildə deyil, tarixinin son iki əsri ərzində ardıcıl olaraq Avropaya, Qərb mədəniyyətinə, ümumbəşəri dəyərlərə can atmışdır. Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi nöqtədə yerləşən Azərbaycan dinlərin, tarixlərin və mədəniyyətlərin qovuşduğu mərkəzə, iki qitə və iki sivilizasiya arasında

* Mərasimdə Avropa Şurası Parlament Assambleyasının deputatları, Azərbaycanın nümayəndə heyəti, xarici ölkələrin görkəmli siyasi xadimləri, diplomatlar, çoxsaylı jurnalistlər iştirak edirdilər.

körpüyə çevrilmişdir. Azərbaycan xalqı öz Şərq köklərindən ayrılmayaraq, Qərb sivilizasiyasının sintezinə əsaslanan nadir bir mədəniyyət yaratmış, Qərbin mütərəqqi dəyərlərini Qafqazda, Yaxın və Orta Şərqdə yaymışdır. Məhz Avropa ilə sıx və məqsədyönlü təmasın nəticəsidir ki, XIX əsrin ortalarından başlayaraq müsəlman Şərqində ilk qəzeti, ilk Avropa tipli məktəbləri, ilk teatrı, ilk yenilikçi ədəbiyyatı və ictimai fikri, nəhayət, demokratik respublika tipli ilk dünyəvi dövləti 1918-ci ildə Azərbaycan xalqı yaratmışdır. Bu gün biz yalnız son bir neçə ildəki siyasi əməkdaşlığımızın deyil, həm də iki əsrlik tarixi təcrübəmizin bəhrəsini görürük.

1991-ci ildə dövlət müstəqilliyi qazanan Azərbaycan birmənalı şəkildə Avropaya, onun humanist və demokratik dəyərlərinə inteqrasiya yolunu tutdu. Tarixən çox qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq, çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik. Bir sıra mühüm siyasi və iqtisadi islahatlar apardıq və aparırıq.

Lakin təəssüflər olsun ki, bütün səylərimizə baxmayaraq, biz Avropa Şurasına üzv olarkən yalnız müsbət dəyişiklikləri və uğurları deyil, müəyyən problemlərimizi də özümüzlə gətiririk. Bu, hər şeydən əvvəl bu gün eyni vaxtda Avropa Şurasına üzv olan Azərbaycanla Ermənistan arasında öz həllini

tapmamış Dağlıq Qarabağ problemidir. Bu problemin Azərbaycanda doğurduğu çətinliklər, ilk növbədə isə çoxsaylı qaçqınlar ordusu, ağır iqtisadi və sosial vəziyyət təkcə bizim ölkəmizin deyil, bütün regionun demokratiyaya doğru inkişafını ləngidir, insan haqlarının qorunmasında ciddi maneələr yaradır.

Biz ölkəmizin Avropa Şurasına qəbulunu yalnız indiyə qədər gördüyümüz işlərə, həyata keçirdiyimiz islahatlara verilən qiymət kimi deyil, həm də ölkəmizə və xalqımıza doğru uzadılan dost əli kimi qiymətləndiririk və ona görə də bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına inanırıq.

Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalılaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşur, öz həqiqi yerini tutur. Hamınıza minnətdarlığımı bildirirəm.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Avropa Şurasının Baş katibi Valter Şvimmer, Nazirlər Komitəsinin sədri İndulis Berzinş, Azərbaycan Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyev və nümayəndə heyətinin üzvləri Avropa Şurası iqamətgahının – Avropa sarayının qarşısına gəldilər. Orkestr Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi. Müstəqil Azərbaycanın üçrəngli Dövlət bayrağı qaldırıldı, Avropa Şurasının üzvü olan ölkələrin dövlət bayraqları arasında öz layiqli yerini tutdu. Bu, unudulmaz, hədsiz qürur hissi doğuran bir an idi.

Mərasimə toplaşanlar ölkəmizin dövlət bayrağının qaldırılmasını sürəkli alqışlarla müşayiət etdilər.

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SESSİYASINDA NİTQ

Strasburq

25 yanvar 2001-ci il

Hörmətli cənab sədr!
Hörmətli cənab Nazirlər Komitəsinin sədri!
Hörmətli cənab Baş katib!
Hörmətli Parlament Assambleyası üzvləri!
Xanımlar və cənablar!

Bu gün biz mühüm tarixi anlar yaşayırıq. Vahid və bölünməz Avropanın tərkib hissəsi olan Azərbaycan Respublikası Avropanın mötəbər, nüfuzlu təşkilatına – Avropa Şurasına daxil olmuşdur.

Azərbaycan Respublikasının bu təşkilata daxil olmasında göstərdikləri dəstəyə görə Avropa Şurası Parlament Assambleyasının üzvlərinə və Avropa Şurasının üzvü olan dövlətlərə Azərbaycan xalqı adından minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək, Ermənistanın da Avropa Şurasına qəbul olunması münasibətilə prezident Köçəryanı təbrik edirəm.

Hörmətli deputatlar!

1991-ci ildə müstəqillik qazanmış Azərbaycan XX əsrin son on ilində özünün suverenliyi uğrunda, xalqının azadlığı, xoşbəxtliyi və tərəqqisi uğrunda qanlı-qadalı, ağır mübarizələrdən keçmişdir. Bu illər dövlətçiliyimizin təşəkkülü yolunda mürəkkəb və çətin illər olmuşdur.

Qısa müddət ərzində biz ölkədə asayişi və qanuni hakimiyyəti bərqərar etməyə, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmağa, şəxsiyyətin təhlükəsizliyinə təminat yaratmağa, sabitliyi təmin etməyə, demokratik əsasların inkişaf etdirilməsi və iqtisadiyyatın canlandırılması üçün quruculuq işinə başlamağa nail olmuşuq.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, suveren hüququndan istifadə edərək 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etmişdir. Bu sənəd demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuş və onun inkişafının yollarını müəyyən etmişdir.

Ötən illər ərzində Azərbaycan xalqı iki dəfə respublikanın prezidentini və ölkənin parlamentini – Milli Məclisi seçmişdir. Azərbaycanda həmçinin bələdiyyə seçkiləri keçirilmişdir. Avropa Şurası ekspertlərinin etiraf etdiklərinə görə, seçki qanunlarımız ədalətli və azad seçkilərin beynəlxalq standartlarına tam uyğundur.

Bəli, nöqsanlar və pozuntular da olmuşdur. Lakin seçkidən-seçkiyə bunların sayı azalır. Nöqsanların aradan qaldırılması üçün dövlət qətiyyətli tədbirlər görür. Biz beynəlxalq təşkilatların, ilk növbədə Avropa Şurasının və ATƏT-in bu sahədə köməyini yüksək qiymətləndiririk və əməkdaşlığımızı davam etdirməyə hazırıq.

Qanunvericilik sahəsində əsaslı islahatlar aparılır. Azərbaycanın Konstitusiyası beynəlxalq hüququn üstünlüyünə təminat verir. Biz indiyədək Avropa Şurasının 15 konvensiyasına qoşulmuşuq. Biz hələ Avropa Şurasının üzvü olmayanda da bu təşkilatın əsas sənədlərinin müddəalarını və standartlarını nəzərə alırdıq. Bu, ilk növbədə insan hüquqlarına dair Avropa Konvensiyasına və onun protokollarına aiddir.

Ölkəmizdə qəbul edilən qanunlar Avropa Şurası ekspertlərinin bilavasitə iştirakı ilə hazırlanır. Hüquq islahatları nəticəsində hər bir insan şəxsiyyət azadlığı və toxunulmazlığına, barəsində qaldırılmış işin müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətlə və açıq şəkildə araşdırılmasına, hüquq müdafiəsinə təminat almışdır. Ölkədə çoxpartiyalı sistem fəaliyyət göstərir, siyasi plüralizm, söz və vicdan azadlığı, azlıqların hüququ, qanun qarşısında bərabərlik və təqsirsizlik prezumpsiyası təmin edilir.

Azərbaycanda Konstitusiya Məhkəməsi yaradılmış, ölüm hökmü ləğv edilmiş, senzura aradan götürülmüş, məhkəmənin müstəqilliyi təmin olunmuşdur. Üçpilləli məhkəmə sistemi yaradılmış, şəffaf prosedurlar əsasında və beynəlxalq standartlara uyğun keçirilən seçkilər yolu ilə hakimlər korpusu 60 faiz yeniləşdirilmişdir. İnsan hüquqlarının qorunmasına və müvafiq mexanizmlərin təkmilləşdirilməsinə dair dövlət proqramı həyata keçirilir.

2000-ci ilin iyununda mən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında fərman imzalamışam. Həmin fərmana əsasən, korrupsiyaya qarşı mübarizəyə dair qanun və dövlət proqramı hazırlanır.

Penitensiar sistemin islahatı uğurla aparılır. Məhbusların saxlanması şəraitini yaxşılaşdırmaq və Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş penitensiar müəssisələrin idarə olunmasını təkmilləşdirmək üçün tədbirlər görülür.

Mənim təşəbbüsümlə son beş ildə 55 min şəxs barəsində amnistiya elan edilmişdir. Bundan əlavə, mən 2500-dək məhbusu əfv etmişəm. Onların arasında hüquq müdafiəsi təşkilatlarının, Avropa Şurası Parlament Assambleyası deputatlarının müraciəti ilə əfv olunanlar da vardır. Bu il yanvarın 16-da mən 9 minədək şəxs barəsində amnistiya elan olunmasına dair təşəbbüslə respublika parlamentinə müraciət etmişəm.

Əhalinin ümumi sayına nisbətdə məhkumların sayına görə Azərbaycan Avropa ölkələrinin göstəricilərinə yaxınlaşır.

Biz bundan sonra da Azərbaycan xalqının və dövlətinin humanizm, insanpərvərlik ideallarına və prinsiplərinə, demokratiyaya, qanunun aliliyinə, insan hüquqlarına və əsas azadlıqlara hörmət bəslənilməsinə əsaslanan dəyərlərə sadiqliyini nümayiş etdirəcəyik.

Tam məsuliyyətlə bəyan edirəm ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin azadlığı və qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyəti təmin olunmuşdur. Biz gələcəkdə də bu sahələrdə qanunvericiliyi təkmilləşdirmək və onun tətbiqi praktikasını yaxşılaşdırmaq niyyətindəyik.

Genişmiqyaslı islahatlar sayəsində iqtisadiyyatda tənəzzül aradan qaldırılmışdır. Azərbaycanın iqtisadi strategiyası iqtisadi fəaliyyətin liberallaşdırılmasına, inhisarçılığa son qoyulmasına və özəl sektorun inkişafına əsaslanır. Azərbaycanda özəlləşdirmə prosesi gedir, torpaq islahatı aparılır. Makroiqtisadi göstəricilərin sabit artımı əldə edilmişdir. İnvestisiya prosesinin canlanması üçün əlverişli şərait yaradılmışdır.

Azərbaycan özünün coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik olan təbii ehtiyatlarından və potensialından istifadə edərək bir çox dövlətlərlə əməkdaşlıq şəraitində böyük İpək yolunun bərpası, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəql edilməsi layihələrini səmərəli surətdə həyata keçirir.

Azərbaycan Avropa Birliyi ilə, Avropanın iqtisadi strukturları ilə fəal əməkdaşlıq edir. Hazırda bu təşkilatların köməyi sayəsində 120-dən çox milli və transregional layihələr həyata keçirilir.

Bu gün Azərbaycanın demokratik inkişaf prosesi dönməz xarakter alıbdır, azadlığın və qanunun aliliyinin möhkəm təminatı yaradılıbdır. Azərbaycanın Avropa Şurasına qəbul

edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.

Bəyan edirəm ki, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə sadiqdir. Nəzərinizə çatdırmaq istəyirəm ki, Azərbaycan hələ 2000-ci ilin iyunundan öz öhdəliklərini yerinə yetirməyə başlamışdır. Halbuki, bu öhdəliklər təşkilata üzv qəbul olunduqdan sonra qüvvəyə minir.

Yuxarıda dediklərim Azərbaycanda həyata keçirdiyimiz mühüm dəyişikliklərin yalnız bir hissəsidir. İslahatların aparılması, demokratik dəyişikliklərin həyata keçirilməsi prosesi təkamül xarakteri daşımalıdır. İslahatlar islahat xatirinə, yaxud da kiminsə xoşuna gəlmək üçün keçirilməməlidir. Bu iş düşünülmüş qaydada aparılmalıdır, cəmiyyət tərəfindən dərk olunmalı və qəbul edilməlidir. İslahatların məqsədi xalqın həyat səviyyəsini getdikcə yaxşılaşdırmaqdır. Hər bir xalqın öz mentaliteti və mənəvi dəyərləri, öz ənənələri, milli xüsusiyyətləri vardır və bütün bunlar nəzərə alınmalıdır. Eyni zamanda beynəlxalq təcrübədən istifadə, beynəlxalq strukturların və tərəfdaş ölkələrin dəstəyi də zəruridir.

Hörmətli deputatlar!

Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm Azərbaycan üçün, həm də bu təşkilat üçün çox mühüm hadisədir. Biz Ümumavropa dəyərləri xəzinəsinə öz töhfələrimizi gətirməyə hazırıq. Bu töhfələr həm Avropada demokratik sabitliyin möhkəmlənməsinə, həm də avropalıların Şərq xalqlarının tarixi taleyini daha yaxşı və daha dərindən dərk etməsinə kömək edəcəkdir.

Bu, bir tərəfdən, qabaqcıl demokratik ideyaların, hüquqi baxışların yayılması, digər tərəfdən isə, bütün xalqların milli-mənəvi xüsusiyyətlərinə hörmət bəslənilməsi üçün yaxşı zəmin olacaqdır. Mən bu mötəbər təşkilatın gələcək inkişafı və

möhkəmlənməsində öz ölkəmin xüsusi rolunu və məsuliyyətini bunda görürəm.

Azərbaycan qonşu dövlətlərdə də demokratiyanın inkişaf etməsində maraqlıdır. Zənnimizcə, bu, regional təhlükəsizliyin və sabitliyin təminatıdır. Hesab edirəm ki, təcavüzkar millətçilik ideologiyasının, milli təkəbbür hissinin, qonşu dövlətlərə qarşı ərazi iddialarının hökm sürdüyü cəmiyyətdə demokratiya inkişaf edə bilməz.

Bu gün qanunun və insan hüquqlarının aliliyi prinsipləri ilə yaşayan vahid Avropada münaqişələr baş verir, suveren dövlətlərin əraziləri işğal olunur, etnik təmizləmə aparılır, dinc əhali doğma yurd-yuvalarından qovulur. Təcavüzlə razılaşmaq, hüquqa zidd hərəkətlərin nəticələrini tanımaq, beynəlxalq birliyin vaxtında lazımi tədbirlər görməməsi faciələrə gətirib çıxarır, suveren dövlətlərin dayaqlarını sarsıdır, humanitar fəlakətlərə səbəb olur.

Vahid Avropada ikili standartlara yol verilməməlidir. Bizim məkanımız bölünməzdir və bütün münaqişələrə eyni dərəcədə ciddi və prinsipial münasibət göstərilməlidir.

Azərbaycan Respublikası qonşu Ermənistanın geniş miqyaslı hərbi təcavüzünün qurbanı olmuşdur. Ermənistan ərazimizin 20 faizini işğal edibdir və orada özünün hərbi gücünü artırmaqdadır. Ermənistan silahlı qüvvələri tərəfindən yurd-yuvasından qovulmuş bir milyon azərbaycanlı 8 ildən çoxdur ki, dözülməz şəraitdə, çadırlarda əzab-əziyyət içində yaşayır. Dünyanın heç bir yerində belə dəhşətli vəziyyət yoxdur. Amma, təəssüflər olsun ki, Dünya Birliyi bu faciəyə biganədir.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş ərazilərinin qeyd-şərtsiz və dərhal azad olunması barədə dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan bu sənədlərin tələblərini yerinə yetirmir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan

qaldırılması məsələsi ilə 1992-ci ildən ATƏT-in Minsk qrupu məşğul olur, lakin onun fəaliyyəti də hələ nəticə vermir.

Münaqişəni həll etmək üçün son vaxtlar Ermənistan prezidenti ilə Azərbaycan prezidenti arasında birbaşa görüşlər keçirilir, danışıqlar aparılır. Bu danışıqların gedişində biz münaqişənin sülh yolu ilə həlli üçün qarşılıqlı kompromislərin müxtəlif variantlarını müzakirə etmişik və edirik. Altı ildən çoxdur ki, biz atəşkəsə əməl edirik, lakin hələ də sülh əldə olunmayıbdır. Buna baxmayaraq, hesab edirəm ki, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, beynəlxalq hüququn prinsiplərinə və normalarına tam uyğun olaraq Dağlıq Qarabağ regionuna Azərbaycanın tərkibində ən yüksək dərəcəli özünüidarəetmə statusunun verilməsi əsasında münaqişənin ədalətli həlli və Ermənistanla sülh əldə olunması üçün imkanlarımız vardır.

Hörmətli deputatlar!

Mən çox məmnunam ki, bizim bu prinsipial mövqeyimizi siz birmənalı dəstəkləmisiniz və Avropa Şurası Parlament Assambleyasının 1997-ci ildə qəbul etdiyi qətnamədə bu öz əksini tapmışdır.

Hörmətli deputatlar, mən sizi və bütün Dünya Birliyini Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün səyləri qətiyyətlə birləşdirməyə çağırıram. Bu bizim hamımıza lazımdır. Çünki Ermənistan–Azərbaycan münaqişəsini həll etmədən və digər münaqişələrə son qoymadan regionumuzda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir.

Cənubi Qafqaz regionuna siyasi bütövlük və bitərəflik statusu verilməlidir. İndi artıq bütün Cənubi Qafqaz regionunun Avropa Şurasına daxil edilməsi çox mühüm amildir və bu, regionda münaqişələrə son qoyulmasına, dövlətlər arasında münasibətlərin normallaşdırılmasına, beləliklə də Cənubi Qafqazda və Avropada təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət etməlidir.

Hörmətli deputatlar!

Biz fərqləri ziddiyyətə çevirməməli, əksinə, bu fərqlər içərisində bizi birləşdirən cəhətləri axtarıb tapmalı və onlara söykənməliyik. Biz müxtəlif xalqlar olsaq da, bir dildə – vahid Avropa dilində, azadlıq, demokratiya və qanun dilində danışırıq. Bizim gücümüz bundadır.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi münasibətilə yanvarın 25-də Avropa Şurası Parlament Assambleyası binasının geniş foyesində ölkəmizin tanınmış incəsənət ustalarının konsert proqramı oldu.

Konsertdə Azərbaycanın tanınmış müğənniləri, rəqs ustaları xalq mahnılarımızı, milli rəqslərimizi böyük məharətlə ifa etdilər. Konsert proqramı tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı.

AVROPA ŞURASININ BAŞ KATİBİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Strasburq, Avropa sarayı

25 yanvar 2001-ci il

V a l t e r Ş v i m m e r: Cənab Prezident, Sizi Avropa Şurasında salamlamaqdan çox məmnun qaldığımı bildirirəm.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm. Azərbaycan xalqı belə bir etimada layiqdir.

H e y d ə r Ə l i y e v: Cənab Şvimmer, çox sağ olun. Səmimi sözlərə və ölkəmizin Avropa Şurasına üzv qəbul edilməsinə göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirirəm. Bu işdə sizin rolunuz böyük olubdur, Azərbaycanı həmişə dəstəkləmisiniz.

V a l t e r Ş v i m m e r: Cənab Prezident, əmin ola bilərsiniz ki, biz bundan sonra da Azərbaycana dəstək verəcəyik. Azərbaycanda demokratik islahatların aparılması işində Sizə həmişə yardım etməyə hazırıq. Bizim bununla bağlı bir sıra təkliflərimiz də vardır.

H e y d ə r Ə l i y e v: Biz sizin təkliflərinizi qəbul edəcəyik və Avropa Şurası ilə bundan sonra da sıx əməkdaşlıq edəcəyik.

Cənab Şvimmer, mən Avropa Şurasına, sizə azərbaycanlı rəssam Sakit Məmmədovun «Babadağ» tablosunu gətirmişəm. Burada təsvir edilmiş dağ Azərbaycanın hündür dağlarından biridir. Bizim ölkənin çox gözəl dağları vardır. Bu

qovluqda isə həmin tablonun müəllifi və onun əsərləri haqqında məlumat vardır.

Valter Şvimmer: Cənab Prezident, çox sağ olun. Mən Avropa Şurası adından Sizə öz təşəkkürümü bildirirəm. Hesab edirəm ki, Azərbaycanda ən uca dağlardan birinin rəsminin bizə hədiyyə olunmasının özü də rəmzi məna daşıyır. Bu o deməkdir ki, həmin tabloya hər dəfə baxmaq bizi ucalığa doğru yüksəlməyə sövq edəcəkdir.

Cənab Prezident, söz verirəm ki, Sizin bu hədiyyənizi həmişə şərəflə saxlayacağam.

Heydər Əliyev: Cənab Şvimmer, biz Avropa Şurası ilə əlaqələrimizə xüsusi əhəmiyyət veririk. Ona görə də «Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə» kitabını sizə təqdim etmək istəyirəm. Biz Avropa Şurasına qonaq statusu ilə dəvət ediləndən indiyə qədər Avropa Şurası ilə Azərbaycan arasındakı əlaqələrin tarixi bu kitabda öz əksini tapmışdır.

Valter Şvimmer: Cənab Prezident, çox sağ olun. Biz Azərbaycanla əlaqələrimizi çox yüksək qiymətləndiririk. Təşəbbüs göstərib, belə bir kitab hazırlatdığınıza görə də Sizə təşəkkürümü bildirir və Sizi təbrik etmək istəyirəm.

(«Cənab Şvimmer respublikamızın rəhbəri Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Görüşdə Avropa Şurasının Baş katibi Valter Şvimmer və Azərbaycanın Xarici İşlər naziri Vilayət Quliyev ölkəmizin bu beynəlxalq təşkilatla əməkdaşlığına dair sənədləri imzaladılar).

Valter Şvimmer: Cənab Prezident, mən Sizi Avropanın demokratik ailəsində salamlayıram və bu ailənin üzvü olmağınız münasibətilə bir daha təbrik edirəm. Cənab Prezident, bizim ailəmizə xoş gəlmisiniz.

Cənab Prezident, Siz bu gün, Azərbaycanın Avropa Şurasına qəbul edilməsi münasibətilə keçirilən mərasimdəki nitqi-

nizdə də dediyiniz kimi, Azərbaycanın Avropa Şurasının üzvü olması, Avropa ailəsinə yeni üzv kimi qəbul edilməsi bu təşkilatın zənginləşməsinə yardım göstərəcək və ona öz töhfələrini verəcəkdir.

Biz Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar üzərinizə öhdəliklər götürməyinizi də yüksək qiymətləndiririk. Hesab edirik ki, bu öhdəliklərin həyata keçirilməsi Avropanın qarşısında duran ümumi ideyalara, məqsədlərə çatmaqda kömək göstərəcəkdir. Beləliklə, Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması uzunmüddətli əməkdaşlığımızın yalnız başlanğıcıdır.

Mən Sizin ölkənin Xarici İşlər naziri Vilayət Quliyevi isə Avropa Şurası Nazirlər Komitəsinin yeni üzvü kimi salamlayıram. Əminəm ki, o da bizim ümumi işimizə öz töhfəsini verəcəkdir.

H e y d ə r Ə l i y e v: Cənab Baş katib, çox sağ olun. Mən bugünkü nitqimdə dedim, indi bir daha təkrar edirəm ki, Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması ölkəmiz üçün tarixi hadisədir.

Azərbaycan Avropa qitəsində yerləşir. Ancaq öz tarixi köklərinə, milli adət-ənənələrinə və başqa xüsusiyyətlərinə görə bəziləri hesab edirlər ki, Azərbaycan Avropada yerləşmir. Azərbaycan coğrafi nöqteyi-nəzərdən Avropada yerləşir. Bugünkü hadisə isə göstərir ki, Azərbaycan nəinki coğrafi nöqteyi-nəzərdən, hətta siyasət, iqtisadiyyat, mədəniyyət baxımından və başqa dəyərlər nöqteyi-nəzərindən də Avropa ailəsinin bir üzvüdür. Bəlkə də, Avropa Şurasının bir sıra üzvləri ilə müqayisədə Azərbaycanın müəyyən üstünlüyü də vardır. Mən bu gün bu barədə danışdım. Bu ondan ibarətdir ki, bizim tarixi köklərimiz daha çox şərq mədəniyyəti ilə bağlıdır, ancaq iki əsrdir ki, Azərbaycan öz tarixi köklərindən ayrılmayaraq, eyni zamanda Avropa dəyərlərini qəbul etmiş, bu dəyərlərdən istifadə etmişdir. Ona görə də Azərbaycan Av-

ropa dəyərlərinə tam uyğun olaraq, Avropa Şurasına üzv qəbul olunmuşdur. Biz bu şuraya yeni mədəni, milli dəyərlər də gətirəcəyik. Təbiidir ki, biz Avropa Şurasının bütün öhdəliklərini də həyata keçirəcəyik.

* * *

Söhbət zamanı Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin perspektivləri və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ LORD RASSEL CONSTON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Strasburq, Avropa sarayı

25 yanvar 2001-ci il

R a s s e l C o n s t o n: Xoş gördük Sizi, cənab Prezident. Sizinlə hər bir görüşdən məmnun qaldığımı bildirirəm. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə respublikanızın rəhbərliyini və xalqınızı səmimi-qəlbdən təbrik edirəm. Azərbaycanın Avropa ölkələri ailəsində özünə layiq yer tutmasını tarixi hadisə kimi dəyərləndirirəm.

H e y d ə r Ə l i y e v: Səmimi sözlərə və ölkəmizin Avropa Şurasına qəbul olunmasına göstərdiyiniz dəstəyə görə AŞPA-nın sədri kimi, Sizə təşəkkürümü bildirirəm. Onu da vurğulayım ki, burada keçirdiyim görüşlərə, apardığım danışıqlara böyük əhəmiyyət verirəm.

Azərbaycan prezidenti Heydər Əliyevin Avropa Şurası Parlament Assambleyasının fəxri qonaqlar kitabına yazdığı ürək sözləri:

«Azərbaycanın bu gün Avropa Şurasına qəbul olunması müstəqil ölkəmiz üçün tarixi hadisədir. Azərbaycan prezidenti kimi, mən bütün xalqımızın iftixar hissini ifadə edirəm. De-

mokratik, hüquqi, dünyəvi Azərbaycan Avropa dəyərlərinə daim sadiq olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti
Heydər Əliyev

25 yanvar 2001-ci il».

Sonra cənab Rassel-Conston Avropa Şurası Parlament Assambleyası adından Azərbaycan prezidenti Heydər Əliyevə üzərində Strasburq şəhərinin təsviri olan xatirə hədiyyəsi təqdim etdi.

R a s s e l C o n s t o n: Cənab Prezident! Sizin Strasburqa gəlişiniz mühüm hadisə kimi qiymətləndirilməlidir. Əmin olduğumu bildirirəm ki, prezident Heydər Əliyev bu gözəl şəhərlə yaxından tanışlığa imkan tapacaqdır.

H e y d ə r Ə l i y e v: Buraya ikinci dəfədir səfərə gəlmişəm. Strasburq həqiqətən gözəl şəhərdir.

«Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə» kitabını Sizə təqdim edirəm. Azərbaycan Avropa Şurasına qonaq statusu ilə dəvət olunandan indiyə qədərki əməkdaşlığımızın tarixi bu kitabda öz əksini tapmışdır. Cənab Rassel Conston, bu kitabda həmçinin sizin Azərbaycana səfəriniz zamanı keçirdiyimiz görüş barədə gözəl bir fotoşəkil vardır.

R a s s e l C o n s t o n: Gözəl tərtibatı olan və yüksək keyfiyyətlə çap edilmiş bu kitaba görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycana səfərim zamanı keçirdiyim görüşləri, apardığım danışıqları həmişə böyük məmnunluqla yada salıram.

Cənab Prezident, bu gün mənim üçün çox xoş bir gündür. Ümidvaram ki, Azərbaycanı Avropa Şurasında təmsil edəcək

nümayəndə heyəti Parlament Assambleyasının bütün fəaliyyətində hərtərəfli iştirak edəcəkdir.

H e y d ə r Ə l i y e v: AŞPA-nın sədri kimi, Sizin Azərbaycana səfərinizi mən də yaxşı xatırlayıram.

Mən Bakıda sizinlə çox geniş söhbət etdim. Güman edirəm, siz unutmamısınız ki, biz Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasını çox istəyirdik. Mən təşəkkür edirəm ki, siz ölkəmizin Avropa Şurasına üzv qəbul edilməsinə həmişə dəstək vermisiniz və bu sahədə böyük səylər göstərmisiniz. Ümidvaram ki, bizim əməkdaşlığımız bundan sonra daha da möhkəmlənəcəkdir. Azərbaycanın nümayəndə heyəti də Avropa Şurası Parlament Assambleyasının işində daim iştirak edəcəkdir.

* * *

Görüşdə Azərbaycan ilə Avropa Şurasının Parlament Assambleyası arasındakı əməkdaşlığın perspektivləri və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ İNDULİS BERZİNŞ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Strasburq, Avropa sarayı

25 yanvar 2001-ci il

İndulis Berzinş bir daha səmimiyyətlə salamlayaraq, Azərbaycanın Avropa ölkələri ailəsinə qəbul olunması münasibətilə təbriklərini yetirdi, Strasburqa uğurlu səfərinə, təntənəli mərasimdəki çıxışına və Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı nitqinə görə prezident Heydər Əliyevə təşəkkürünü bildirdi. O dedi ki, biz əvvəldən də inanırdıq ki, sizin ölkəniz AŞ-nın digər üzvləri ilə bərabər səviyyədə işləyə bilər və indi siz tamhüquqlu tərəfdaşsınız.

Heydər Əliyev Nazirlər Komitəsinin sədrinə təşəkkür etdi və onunla Bakıda keçirilmiş maraqlı görüşü xatırladığını bildirdi. Dövlətimizin başçısı dedi: Azərbaycan barəsində sizin mövqeyiniz lap əvvəldən çox obyektiv idi. Nazirlər Komitəsinə bundan əvvəl İtaliya sədrlik edirdi, onların da bizə münasibəti yaxşı olubdur. Ölkəmizin Avropa Şurasına qəbul olunması üçün etdiklərinə görə onlara və Nazirlər Komitəsinin indiki sədri kimi, bu işdə çox fəal iştirakınıza görə sizə təşəkkür edirəm.

Bəli, bu yol çətin və uzun idi. Mən bugünkü nitqimdə də bu barədə dedim. Amma indi biz sizinlə birlikdəyik. Vaxtilə bizim ölkələrimiz bir dövlətin tərkibində olubdur, o zaman indiki demokratik dəyərlər yox idi. Ona görə mən bu gün də bildirdim ki, demokratiya təkamül yolu ilə inkişaf edir. Siz də

Bakıda olarkən demişdiniz ki, demokratiya – prosesdir. Həqiqətən də sonu olmayan prosesdir. Ona görə də bütün bu dəyişikliklərin inqilabi yox, təkamül xarakteri daşıması barədə baxışlarımızın üst-üstə düşməsi bizi daha da çox birləşdirir. Çünki biz bunu daha yaxşı başa düşürük.

Dövlətimizin başçısı respublikamıza dəstəyə görə cənab Berzinşə, onun hökumətinə, Latviyanın prezidentinə təşəkkür etdi, Azərbaycanın Avropa Şurasına qəbul olunduğu vaxt Nazirlər Komitəsinə bu ölkənin Xarici İşlər nazirinin sədrlik etməsindən şad olduğunu bildirdi.

İ n d u l i s B e r z i n ş: Cənab Prezident, Siz doğru buyurursunuz, on-on iki il əvvəl biz heç təsəvvürümüzə gətirə bilməzdik ki, belə dəyişikliklər olacaqdır. Lakin, təəssüf ki, bunların heç də hamısı o qədər də müsbət deyildi. Mən Sizinlə tamamilə şərikəm ki, bu proses təkamül yolu ilə davam edəcəkdir.

Məsələn, monitorinq prosesi biz Avropa Şurasına qəbul olunandan sonra da, srağagünə qədər dayanmamışdı. Mən deyərdim ki, bu proses ağrılı deyil, lakin uzun çəkir. Bu yolu, əslində, bütün ölkələr keçir, xüsusən son on ildə müstəqillik qazanmış ölkələr. Ona görə də Sizə bütün ölkələrlə yaxşı münasibətlər qurmağı arzulayıram. Əminəm ki, Latviya ilə Azərbaycan arasında da istər ikitərəfli səviyyədə, istərsə də bu mötəbər təşkilat, digər beynəlxalq strukturlar çərçivəsində çox yaxşı əməkdaşlıq olacaqdır. Cənab Prezident, Sizi bir daha təbrik edirəm. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi həqiqətən də həm sizin ölkəniz üçün, həm də bizim üçün çox böyük hadisədir.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm. Zənnimcə, keçmiş Sovetlər İttifaqına daxil olan ölkələr arasında ilk dəfə Latviya Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edir. Hesab edirəm ki, bu, ölkənizin demokratikləşdirilməsi üçün gördüyünüz işlərə verilmiş böyük qiymətdir. Sizə uğurlar dilə-

yirəm. Arzu edirəm ki, Sizin rəhbərliyiniz altında Avropa Şurası üzvlərinin sayı daha da artsın.

* * *

Görüşün sonunda cənab İndulis Berzinş respublikamızın rəhbərinə xatirə hədiyyəsi təqdim etdi.

Azərbaycan prezidenti Heydər Əliyev isə Nazirlər Komitəsinin sədrinə «Avropa Şurası və Azərbaycan: sülh, əmin-amanlıq və demokratiya naminə» kitabını bağışlayaraq dedi ki, bu, Avropa Şurası ilə indiyə qədərki əməkdaşlığımıza həsr olunub, o cümlədən sizin də Bakıya səfəriniz burada öz əksini tapıbdır.

* * *

Elə həmin gün Strasburqda – Avropa sarayında Avropa Şurası Parlament Assambleyasının sədri lord Rassel Constonun və Avropa Şurası Nazirlər Komitəsinin sədri İndulis Berzinşin adından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil olundu.

Dövlətimizin başçısı qəbulda bir sıra ölkələrin parlament nümayəndə heyətlərinin üzvləri ilə görüşüb söhbət etdi. Müxtəlif ölkələrin siyasi xadimləri, səfirlər, diplomatlar prezident Heydər Əliyevə yaxınlaşaraq, Azərbaycanın Avropa Şurasına qəbul olunması münasibətilə onu təbrik edirdilər.

İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN PREZİDENTİ LUÇİUS VİLDBAXER İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Strasburq

25 yanvar 2001-ci il

L u ç i u s V i l d b a x e r: Cənab Prezident, Avropa ailəsinə xoş gəlmisiniz. Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması münasibətilə Sizi təbrik edirəm.

Mən Sizi bir daha təbrik edirəm ki, insan hüquqları haqqında konvensiyanı da imzalamısınız.

H e y d ə r Ə l i y e v: Səmimi sözlərə görə sizə minnətdarlığımı bildirirəm.

Bəli, biz insan hüquqları konvensiyasını imzaladıq. Bu gün Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması mərasimi çox böyük uğurla keçdi. Bu bizim ölkəmiz üçün tarixi hadisədir, həm də böyük məsuliyyətdir.

L u ç i u s V i l d b a x e r: İnsan hüquqları üzrə Avropa məhkəməsi Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sayəsində həyata keçirilən islahatları yüksək dəyərləndirir.

Cənab Prezident, hesab edirəm ki, Azərbaycanda məhkəmələr vasitəsilə böyük işlər görülməlidir. Amma onu da bildirməliyəm ki, Avropa Şurasına qəbul edilmiş Azərbaycandan yəqin ki, bəzi məhkəmə işləri gəlib bizə çatacaqdır. Çox güman ki, biz Azərbaycanda məhkəmələrin çıxardığı qərarlarda bəzi pozuntularla rastlaşacağıq və Sizə yeni qərarlar

göndərməli olacağıq. Əvvəlcədən xahiş edirəm ki, belə hallar barədə Sizə məlumat veriləndə, onu dövlət işlərinə müdaxilə kimi qəbul etməyin.

H e y d ə r Ə l i y e v: Azərbaycan Avropa Şurasına daxil olanda biz bunların hamısını bilirdik. Biz Avropa Şurasına öz istəyimizlə daxil olmuşuq. Azərbaycan demokratik inkişaf yolu ilə gedir. Ölkəmizdə insan hüquqlarının təmin olunması üçün böyük işlər görülür.

L u ç i u s V i l d b a x e r: Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik islahatların həyata keçirilməsi sahəsində əldə edilmiş uğurlardan razılığımızı bildirirəm. Əmin olduğumu bildirirəm ki, insan hüquqları üzrə Avropa məhkəməsi ilə Azərbaycan arasında əməkdaşlıq möhkəmlənəcək və ildən-ilə daha da inkişaf edəcəkdir.

* * *

Cənab Vildbaxer Avropa Məhkəməsinin gördüyü işlər barədə dövlətimizin başçısına geniş məlumat verdi.

Daha sonra Azərbaycan ilə Avropa Məhkəməsi arasında əməkdaşlığın perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN BİRGƏ MƏTBUAT KONFRANSI

Strasburq, Avropa Şurasının binası

25 yanvar 2001-ci il

S u a l: Sualım hər iki prezidentədir. Bizdə olan məlumata görə, siz Strasburqdan dərhal sonra Parisə getməlisiniz, orada Fransa prezidenti Jak Şirakın iştirakı ilə danışıqlarınız olacaqdır. Bu danışıqlarda nələr müzakirə ediləcək və siz onlardan nə gözləyirsiniz?

R o b e r t K ö ç ə r y a n: Sabah iki prezidentin görüşü nəzərdə tutulub, bu məsələnin müzakirəsini davam etdirmək qərarını biz qəbul etmişik. Təbii ki, Qarabağ münaqişəsinin nizama salınması məsələsi müzakirə ediləcəkdir. Lakin mən burada, sadəcə olaraq, bundan artıq heç nə söyləyə bilmərəm.

H e y d ə r Ə l i y e v: Mən də onu deyə bilərəm ki, Parisdəki görüş Fransa prezidenti cənab Jak Şirakın təşəbbüsü ilə keçirilir. Bizim – hər iki prezidentin və Fransa prezidentinin müzakirə etmək və fikir mübadiləsi aparmaq istədiyimiz başlıca məsələ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məsələsidir.

S u a l: Mənim sualım Ermənistan prezidentinədir. Bu gün burada dəfələrlə deyildi ki, hər iki ölkənin Avropa Şurasına daxil olması Ermənistanla Azərbaycan arasındakı mövcud problemlərin müzakirəsi üçün əlavə imkan yaradacaqdır. Maraqlıdır, bu baxımdan siz cənab Əliyevin bu gün burada söylədiyi

kifayət qədər sərt fikirləri, çıxışının kifayət qədər sərt ahəngini necə qiymətləndirirsiniz?

R o b e r t K ö ç ə r y a n: Hesab etmirəm ki, biz Avropa Şurasının tribunasını qladiatorlar tribunasına çevirməliyik. Mənə elə gəlir ki, bu gün baş vermiş hadisə hər iki dövlət üçün son dərəcə mühüm hadisə idi. Mən maksimum tarazlı şəkildə, bu gün salonda hökm sürən əhval-ruhiyyəyə, bu gün baş vermiş hadisənin – hər iki ölkənin Avropa Şurasına daxil olması hadisəsinin leytmotivinə müvafiq surətdə çıxış etməyə çalışdım. Yeri gəlmişkən, biz xeyli əvvəl qəbul olmağa hazır idik və məhz qonşu respublikada bəzi problemlər olduğundan qəbul edilməyimiz bir qədər uzandı. Əslinə qalsa, çıxışımdan məqsəd bu idi.

S u a l: Cənab Köçəryan, ay yarım əvvəl siz Yunanıstanda idiniz. Siz ölkəni tərk edərkən Afina hava limanında mətbuat konfransı keçirdiniz. Bu mətbuat konfransını rəsmi televiziya da göstərdi. Jurnalistin «cənab Köçəryan, erməni soyqırımı tanındıqdan sonra müvafiq ərazi iddiaları və müxtəlif təzminatlarla bağlı nə kimi məsələlər qaldırılacaq?» sualına cavabında dediniz ki, 1915-ci il hadisələri ilə Sevr müqaviləsi arasında dəqiq həddqoymaq lazımdır. Yəni, Türkiyəyə də, xarici dövlətlərə də qətiyyən aydın olmayacaq şeyləri Türkiyədən tələb etmək olmaz.

Siz onu da əlavə etdiniz ki, bu məsələ ilk növbədə erməni diasporuna aiddir, Ermənistan isə hüquqi vahid kimi, nə isə tələb edə bilməz. Bu əlavə məsələləri, xüsusən də hansısa bank hesablarına, sığorta pullarına və sairəyə aid məsələləri məhz erməni diasporu qaldırır. Hesab edirəm ki, əgər tarixi perspektivdən nəzər salsaq, onda bu, tarixən ilk açıq bəyanat idi. Lakin bu həm Türkiyə mətbuatı üçün, həm də diaspor üçün kifayət qədər təəccüblü idi. Ona görə də bu, mətbuatda özünün lazımi əksini tapmadı. Siz dediklərinizdə əvvəlkitək təkid edirsinizmi?

R o b e r t K ö ç ə r y a n: Bu, həqiqətən, sizin çıxışınız idi, lakin düşünmürəm ki, həmin çıxış bu gün Strasburqda baş vermiş hadisələrlə bilavasitə bağlıdır. Mən Yunanıstandakı mətbuat konfransında, həqiqətən, müəyyən fikirlər söyləmişdim və əslində, bu nöqteyi-nəzərə tərəfdaram. Lakin mən burada jurnalistlərin diqqətini təfərrüatı ilə bilmədikləri məsələlərlə yayındırmaq istəmirəm.

S u a l: Mənim sualım hər iki prezidentədir. Lütfən deyin, Fransaya səfərinizə bir gün qalmış Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey İvanovun regiona gəlməsi təsadüfi idimi? Əgər təsadüfi deyildisə, o, Rusiyanın siyasi rəhbərliyi tərəfindən yeni sülh təşəbbüsləri ilə gəlmişdimi? Əgər belədirsə, sizin onlara münasibətiniz necədir?

R o b e r t K ö ç ə r y a n: Zənnimcə, belə yüksək səviyyəli siyasətçilər, vəzifəli şəxslər heç yerə təsadüfən getmirlər. Aydındır ki, cənab İvanov Ermənistanda da, Azərbaycanda da təsadüfən olmamışdır: nizamasalma problemi müzakirə edildi. Rusiya Minsk qrupunun həmsədridir və bu prosesdə fəal iştirak edir. Əgər siz diqqət yetirmisinizsə, hər üç həmsədr bu gün burada, Strasburqdadır və onlar nizamasalma məsələsinə aid bəzi mövqeləri razılaşdırmaq üçün məqamdan istifadə etməyə çalışırdılar. Rusiyadan da, Amerikadan da, Fransadan da olan həmsədrlər buradadırlar. Odur ki, sabah nə olacaqsa, bu da razılaşdırılmış şəkildə həyata keçirilir və ondan bütün həmsədrlərin xəbəri var.

H e y d ə r Ə l i y e v: Əslinə qalsa, mən də təzə bir şey deməyəcəyəm. Çünki prezident Köçəryan bu barədə danışdı. Burada təsadüfilik yoxdur, Rusiya Amerika Birləşmiş Ştatları və Fransa ilə birlikdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınması üzrə Minsk qrupunun həmsədridir. Mənə elə gəlir ki, indi hər bir ölkə öz fəaliyyətini gücləndirir. Cənab İvanovun Ermənistanda da, Azərbaycanda da olması məhz bununla bağlı idi.

S u a l: Mənim sualım cənab prezident Əliyevədir. Mən başqa bir təşkilatın, hələlik qeyri-formal birlik olan GUÖAM-ın gələcəyi barədə soruşmaq istərdim. Hələlik əməkdaşlığın daha çox hərbi cəhəti görünür. Hər halda, müdafiə nazirləri mülki nazirlərdən daha tez-tez görüşürlər. Bu isə Rusiyada müəyyən əsəbilik doğurur.

H e y d ə r Ə l i y e v: Yeri gəlmişkən, deməliyəm ki, bu təşkilat – GUÖAM 1997-ci ildə məhz burada, Strasburqda meydana gəlmişdir. O vaxt biz – dörd respublikanın prezidentləri problemlərimizin ümumiliyi baxımından ən çox iqtisadiyyatla bağlı bəzi məsələlər, habelə bəzi digər məsələlər barəsində fikir mübadiləsi apararaq, belə bir təşkilat yaratmağı qərara aldıq, sonralar isə bu təşkilata Özbəkistan da daxil oldu. Lakin bu təşkilat sizin dediyiniz kimi, təkcə hərbi sahədə deyil, bütün sahələrdə əməkdaşlıq məqsədi daşıyır. Mən deməzdim ki, müdafiə nazirləri qalanlarından daha tez-tez görüşürlər. Görüşlər, necə deyərlər, fürsət düşdükdə, bütün səviyyələrdə keçirilir. Burada hər hansı bir digər təşkilata qarşı heç nə yoxdur və qoy heç kim bundan narahat olmasın.

S u a l: Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün Ermənistanı hansı şərtlər qane edir? Bu məsələni həll etməyə məhz nə mane olur? Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq üçün özündə təpər tapmağa hazırdırmı?

R o b e r t K ö ç ə r y a n: Özündə təpər tapmaq nə deməkdir? Dağlıq Qarabağ Respublikasının baş tutmuş dövlətçiliyini tanıyıb-tanımamaq üçün Azərbaycan özündə təpər tapmaqda sərbəstdir. Yəni, məncə, sualın qoyuluşu, hər halda, bir qədər başqa cür olmalıdır. Biz, fikirimizcə, münaqişənin nizama salınmasının əsasını təşkil etməli olan başlıca prinsipləri açıqlamışıq. Bu, hər şeydən əvvəl, münaqişə tərəflərinin bərabərhüquqlu subyekt olması, ikincisi, Dağlıq Qarabağ Respublikasının anklav kimi mövcudluğunun mümkünsüzlüyü barədədir. Üçüncü prinsip də var – bu, təhlükəsizlik

məsələsidir və belə deyək, hamıya aiddir. Təhlükəsizliyə təminatlar və bu təminatların həyata keçirilməsi üçün beynəlxalq birliyin güclü imkanları gərəkdir. Əslində, bizim prinsiplərimiz, bax, bunlardan ibarətdir. Ermənistan bu çərçivədə çoxsaylı kombinasiyalara və variantlara getməyə hazırdır.

S u a l: Cənab Köçəryan, siz dediniz ki, Ermənistan yeni Avropanın yaradılması üçün lazımi şəraiti nəzərə alaraq, onun yaradılmasında iştirak etmək istərdi. Çox maraqlıdır, Ermənistan Azərbaycanın sərhədini pozduğu və onun ərazisinin 20 faizini işğal etdiyi halda, bunu necə edə bilər?

R o b e r t K ö ç ə r y a n: Əvvəla, 20 faizini yox, indi mən hansısa nisbətlərə varmaq istəmirəm. Söhbət ondan gedir ki, iki il əvvəl Minsk qrupu ümumi dövlət barədə təklif irəli sürmüşdü. Əgər bu təklifi münaqişənin bütün tərəfləri qəbul etsəydi – hər iki erməni tərəfi onu qəbul etmişdi – onda sizin dediyiniz problem bu gün, sadəcə, olmazdı. Bu problemi həll etməyə və bunu demokratik dövlət quruculuğu ilə bağlamağa imkan var...düşünmürəm ki, bu dəqiqdir, zənnimcə, bu, demokratik prosesləri – indiki halda sizin tərəfinizdən – bir növ özünəməxsus tərzdə qavramaq deməkdir.

S u a l: Mənim sualım hər iki prezidentədir. Deyə bilərsinizmi, siz nizamasalmanın prinsipləri haqqında sazişin imzalanmasına nə vaxt hazır olacaqsınız? Mən bilən, beynəlxalq birliyin səbri o qədər də hədsiz deyildir.

R o b e r t K ö ç ə r y a n: İrəliləməyin sürətindən danışmaq xeyli çətindir. Amma hesab edirəm ki, biz kifayət qədər böyük yol keçmişik. İndi biz – mən də, prezident Əliyev də tərəflərin mövqelərini kifayət qədər yaxşı təsəvvür edirik və zənnimcə, danışıqları, necə deyərlər, özümüz apara bilərik. Bizim dəlillərimizə nə kimi cavab veriləcəyini mən təxminən bilirəm. Əminəm ki, Azərbaycanın qaldıracağı bəzi məsələlər barəsində mənim mümkün dəlillərimi Heydər Əliyeviç də gözəl təsəvvür edir.

Məsələ həqiqətən qarşılıqlı kompromis adlandırılacaq orta mövqeyi harada axtarıb tapmaqdadır. Əlbəttə, bu qarşılıqlı kompromis elə olmalıdır ki, o, Ermənistanda da, Azərbaycanda da, Dağlıq Qarabağda da cəmiyyətin bu kompromisi qəbul etməsinə imkan versin. Cəmiyyət bu kompromisin dərəcəsini qəbul etməyə qadir olmalıdır, əks halda, sadəcə olaraq, bir qərar əldə edilməyəcəkdir. Bu isə yeni münaqişələrə, yeni problemlərə gətirib çıxaracaqdır. İndi mən sürəti proqnozlaşdırmayacağam, hərçənd hesab edirəm ki, biz münaqişənin həllinə kifayət qədər yaxınıq. Bu mənim şəxsi qənaətimdir.

H e y d ə r Ə l i y e v: Təkcə beynəlxalq birlik deyil, biz hamımız, zənnimcə, Ermənistan da, xüsusən münaqişədən ciddi zərər çəkmiş Azərbaycan da onun tezliklə həllini gözləyir. Özü də – mən nəzərə çatdırıram – məhz dinc yolla. 1999-cu ilin əvvəllərindən bəri Ermənistan prezidenti ilə Azərbaycan prezidenti arasında keçirilən görüşlər, danışıqlar müəyyən ümid verir. Hərçənd qətiyyən hesab etmirik ki, – məsələn, mən belə düşünürəm, zənnimcə, prezident Köçəryan da belə düşünür – biz ATƏT-in Minsk qrupunu əvəz edə bilərik. Sadəcə olaraq, görüşlərimiz və danışıqlarımız zamanı biz, həqiqətən, elə kompromislər axtarırıq ki, onları Azərbaycanda da, Ermənistanda da cəmiyyət qəbul edə bilsin. Açığını deyəcəyəm, bu, ağır, çətin məsələdir. Lakin bununla yanaşı, hesab edirəm ki, biz bundan sonra da irəliləməliyik. Kompromislərlə əlaqədar bir nəticə hasil olsa, onda biz məsələnin həllinə, həqiqətən, çox yaxınlaşa bilərik.

S u a l: Sualım cənab Əliyevədir. Türkiyənin Ermənistana qarşı «soyqırımını» tanımış Fransa parlamentində səsvermə məsələsinə münasibətinizi bilmək istərdim. Köçəryanın mövqeyini hamı bilir, ona görə də bu sualı ona vermirəm.

H e y d ə r Ə l i y e v: Bilirsiniz, mənim buna münasibətim mənfidir, ona görə ki, heç bir dövlətin başqa dövlətlərin işlə-

rinə qarışmağa haqqı yoxdur. Fransa böyük dövlətdir, lakin Türkiyə də öz ənənələri, öz xüsusiyyətləri olan müstəqil ölkədir. Tarixin bu cür məsələləri bir və ya digər parlamentdə səsvermə ilə həll edilmir. Hesab edirəm ki, – mən bu barədə prezident Şirakla da danışdım – bu, hər hansı digər ölkə üçün, ümumiyyətlə, icbari hüquqi əhəmiyyətə malik olmaqdan çox, ən əvvəl, Fransadan ötrü daxili siyasi xarakter daşıyır. Mənim rəyim mənfidir.

R o b e r t K ö ç ə r y a n: Avropa inteqrasiyasının bütün məntiqi məhz bundadır ki, insan hüquq və azadlıqları məsələləri, humanitar məsələlər bu və ya digər ölkənin daxili məsələləri ola bilməz. Biz məhz ona görə buradayıq ki, belə hesab etməliyik. Ona görə də hesab edirəm ki, Fransa parlamenti tarixi hadisələrə, həqiqətən, düzgün qiymət vermişdir.

H e y d ə r Ə l i y e v: Mən, hər halda, onu da deməliyəm ki, müasir Avropada vətəndaşların hüquqlarına aid nə varsa, bunların hamısı 1915-ci ilə deyil, məhz müasir Avropaya aiddir. Onda dünya bambaşqa idi, Avropa Şurası yox idi, insan hüquqları yox idi, demokratiya da, çox şeylər də yox idi. Odur ki, bunları eyniləşdirmək olmaz.

S u a l: Sualım cənab Əliyevədir. Cənab Prezident, Siz hərbi əməliyyatlar nəticəsində meydana gəlmiş azərbaycanlı qaçqınlardan danışdınız. Amma qəribədir ki, Siz Bakıdan keçmiş Sovet İttifaqının hər yerinə səpələnmiş 300 min qaçqın ermənini xatırlamadınız. Onlar özlərinin bütün əmlakını, keçmişini bu ölkədə qoyub getməyə məcbur oldular. Sizə elə gəlmirmi ki, bu ermənilərin də problemlərini həll etmək lazımdır? Siz Qarabağın muxtariyyətindən danışırsınız, amma yalnız ermənilərin yaşadığı bu bölgə tarixən təşəkkül tapmış bölgədir və Sizə elə gəlmirmi ki, necə deyərlər, daha bir mərhələ keçib, Azərbaycanın iki hissəsi arasında bir növ iki hissədən ibarət birgə dövlət yaratmaq olardı?

H e y d ə r Ə l i y e v: Əlbəttə, üzr istəyirəm, lakin deməliyəm ki, bu sualda qərəz hiss edirəm. Əvvəla, haradan nə qədər adamın qovulduğundan danışmalı olsaq, onda görərik ki, məhz azərbaycanlılar Ermənistandan zorakılıqla qovulmuşlar, bundan sonra isə hərbi əməliyyatlar başlanmış və Azərbaycanda yaşayan ermənilər qovulmuşlar, köçüb getmişlər. Nəzərinizə çatdırım ki, Bakıda heç zaman 300 min erməni yaşamayıbdır. Siz gərək bu rəqəmləri dəqiq biləsiniz.

O ki qaldı qaçqınlara, müqayisə edin, ermənilərlə azərbaycanlıların birgə yaşadıqları Dağlıq Qarabağdan əlavə, Dağlıq Qarabağın ətrafındakı 7 rayon işğal olunmuşdur, bu rayonların əhalisinin ümumi sayı təqribən 700–800 min nəfərdir, bəlkə bir qədər artıq və ya azdır. Odur ki, əgər biz bu fikrin üzərində dayansaq, nə qədər adamın haradan və neca qovulduğundan danışsaq, onda məsələni həll edə bilmərik. Gerçəklik ondan ibarətdir ki, Azərbaycanın ərazisi işğal edilmişdir. Gerçəklik, bax, budur. Ermənistan ərazisinin bir metri də heç kim tərəfindən işğal olunmayıbdır, gerçəklik belədir. Bir sözlə, biz bu məsələləri kəskinləşdirməməliyik, o mənada ki, bu dövr çoxdan keçmişdir və siz aranı qızışdırmaqla məşğul olmamalısınız. Biz məsələnin həlli yolunu tapmalıyıq və prezident Köçəryanla görüşlərimiz, danışıqlarımız zamanı belə də edirik.

S u a l: Biz müsibətləri müqayisə etmirik, lakin bir müsibətdən söhbət gedirsə, o biri müsibəti də xatırlamaq lazımdır. Mən hansısa qızışdırıcı mövqe tutmuram, obyektiv olmağa çalışıram. Əgər söhbət bir müsibətdən gedirsə, mütləq o biri müsibətdən də danışmaq gərəkdir.

H e y d ə r Ə l i y e v: Hərə öz müsibətindən danışır.

R o b e r t K ö ç ə r y a n: Mən həqiqətən deyirəm ki, biz gələcəyə baxmalıyıq. Sadəcə olaraq, kiçik bir arayış vermək istəyirəm. Sumqayıt hadisələri 1988-ci ilin fevralında baş vermişdir.

S u a l: Sual hər iki prezidentədir. Cənab Əliyev, xahiş edirəm deyəsiniz, GUÖAM ölkələri arasında azad ticarət zonası haqqında saziş, Sizcə, nə vaxt imzalana bilər? Cənab Köçəryana sual: GUÖAM-a qoşulmaq Ermənistanın planlarına daxildirmi?

H e y d ə r Ə l i y e v: Biz GUÖAM çərçivəsində deyil, Müstəqil Dövlətlər Birliyi çərçivəsində azad ticarət zonası haqqında saziş imzalamağa çalışırıq. Yeri gəlmişkən, Azərbaycan bu barədə öz müsbət rəyini artıq çoxdan bildiribdir– sənədi imzalamış və ratifikasiya etmişdir. Odur ki, bu bizdən asılı deyildir. Bu sualı daha çox Rusiyaya ünvanlamaq lazımdır.

R o b e r t K ö ç ə r y a n: Ermənistanın GUÖAM-a daxil olmağı istəyib-istəməməsi barədə deyim ki, Ermənistanın xarici siyasətinin gündəliyində belə bir məsələ yoxdur.

S u a l: Sual hər iki prezidentədir. Avropa Şurasında bəzi adamlar istəyirlər ki, Avropa Şurası Qarabağ məsələsində vasitəçi rolunu oynasın. Sizə elə gəlmirmi ki, həddindən çox vasitəçi olacaq və məsələnin həllinə yaxınlaşmaq əvəzinə, hər şey mürəkkəbləşəcək, ona görə ki, sonra müxtəlif xarakterli həddindən çox bəyanatlar olacaqdır? Bu, nizamasalma proseslərinə mane ola bilər.

R o b e r t K ö ç ə r y a n: Həqiqətən, çox sayda vasitəçilərin olması sanki münaqişə tərəflərinə müxtəlif variantlara əl atmağa, kiminsə təklifi çox xoşa gəlmirsə, bir vasitəçidən üz çevirib digərinə üz tutmağa imkan verir. Çox faydalıdır ki, son bir neçə ildə Minsk qrupunun həmsədrləri müntəzəm işləyirlər və ümumiyyətlə, bütün təkliflər birlikdə götür-qoy edilmişdir. Biz bunu, həqiqətən, qiymətləndiririk.

O ki qaldı Avropa Şurasına, Avropa Şurası belə təkliflə çıxış etməyibdir. Sadəcə deyirlər ki, əgər nədəsə faydalı ola bilərsə, bizə bel bağlayın, sizə razılığa gəlməyinizə kömək etmək üçün bizdən asılı olan hər şeyi edərik. Yəni bu, mane

ola biləcək hansısa məxsusi, müstəqil vasitəçilik xətti deyildir. Əksinə, bu, güman edirəm ki, indi danışıqlar prosesində mövcud olan vəziyyəti tamamlaya bilər.

H e y d ə r Ə l i y e v: Minsk qrupu, onun həmsədrləri 1992-ci ildən başlayaraq böyük iş görmüşlər və görürlər. Biz bunu etiraf etməli və qiymətləndirməliyik. Amma bu başqa məsələdir ki, həmin iş hələlik nəticə verməyibdir və ona görə də Ermənistan və Azərbaycan prezidentləri arasında bilavasitə görüşlərə zərurət yaranmışdır.

Hərçənd bu da Minsk qrupunun fəaliyyəti ilə paralel gedir və Minsk qrupunun həmsədrlərinə görüşlərimiz, söhbətlərimiz, müzakirə etdiyimiz məsələlər barəsində, əsasən, məlumat verilmişdir.

Digər təşkilatlara gəldikdə, məsələn, mən, əlbəttə, hesab edirəm ki, bu məsələni kimlər həll edə bilərsə, onlar da həll edir. Biz bu məsələni real surətdə ədalətlə, dincliklə həll edə biləcək hər hansı beynəlxalq təşkilata hədsiz minnətdar olarıq. Avropa Şurası, həqiqətən, bu işlə məxsusi məşğul olmaq barədə məsələ qoymur. Onlar deyirlər ki, istəyirsinizsə, biz bu məsələdə sizə kömək edə bilərik. Yeri gəlmişkən, deməliyəm ki, bu gün, Ermənistanın, Azərbaycanın Avropa Şurasına qəti surətdə qəbul edildiyi bir vaxtda, zənnimcə, Avropa Şurasına yaraşmaz ki, onun iki üzvü – Ermənistan və Azərbaycan bundan sonra da hərbi münaqişə vəziyyətində olsunlar.

S u a l: Məlumdur ki, Ermənistan uzun müddət Rusiyada hərbi müttəfiq hesab edilmişdir və hesab edilir, bu barədə müvafiq müqavilə var. Prezident Putinin bu yaxınlarda Azərbaycana səfəri və Sizin onunla danışıqlarınız Azərbaycanı Rusiyanın hansısa şəkildə hərbi müttəfiqi etmişdirmi? Bu, Ermənistanda narazılığa və ya narahatlığa səbəb olmayıbmı? Sonuncu sual cənab Ermənistan prezidentinədir.

H e y d ə r Ə l i y e v: Rusiya prezidenti Putinin Çinə, Şimali Koreyaya və bəzi digər ölkələrə səfərləri bu ölkələri Rusiyanın hərbi müttəfiqi etmişdirmi? Yox. Buna görə də hesab etmək olmaz ki, hər bir səfərin nəticəsində hərbi ittifaq yaradılmalıdır. Məsələn, mən bu fikirdəyəm ki, ümumiyyətlə, hərbi ittifaqlar olmamalıdır. Əgər bütün ölkələr sülhə doğru gedirsə, onlar hərbi ittifaqlardan imtina etməlidirlər, müharibədən imtina etməlidirlər, silahlardan imtina etməlidirlər, onlar sülhə, həqiqətən, real surətdə nail olmalıdırlar. Amma əgər, bir tərəfdən, hər bir ölkə sülh niyyətində olduğunu elan edirsə və hər hansı digər ölkə ilə hərbi ittifaq bağlayırsa, deməli, ikili siyasət yeridir. Hesab edirəm ki, prezident Putinin Azərbaycana səfəri çox mühüm, çox faydalı olmuşdur və əminəm ki, bu səfər Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsində, əməkdaşlığımızın genişlənməsində çox mühüm rol oynayacaqdır. Əməkdaşlığın hərbi ittifaqdan daha çox vacib olan çoxlu cəhətləri var.

R o b e r t K ö ç ə r y a n: Biz bu səfərə Qarabağ probleminin tənzimlənməsi baxımından müsbət yanaşırıq. Hesab edirik ki, əgər Azərbaycanla Rusiya arasında münasibətlər yaxşılaşsa, qarşılıqlı etimad daha yüksək səviyyədə olsa, onda danışıqlar prosesində vasitəçiyə münasibət də, təbii ki, daha obyektiv, daha müsbət olacaq, ümumən, Azərbaycan cəmiyyəti tərəfindən daha müsbət qəbul ediləcəkdir. Bu baxımdan səfəri müsbət qiymətləndiririk. Ümumiyyətlə isə, hər bir ölkənin özü həll etməlidir. Prezidentlər haraya və necə getməyi və hansı müqavilələri imzalamağı özləri ikitərəfli səviyyədə həll edirlər. Biz buna sakit baxırıq.

S u a l: Sual hər iki prezidentədir. 1996-cı ildən, Lissabon görüşündən sonra Qarabağ münaqişəsinin nizama salınmasının üç prinsipi müəyyən edilmişdir. Bizə məlumdur ki, ərazi bütövlüyü, diplomatik yolla nizamasalma – indi bu sahədə işlər görülür – və Sovet İttifaqının süqutundan sonra müəyyən edil-

miş sərhədlər bir daha dəyişdirilməməlidir. Sualım belədir. Siyasətdə realistlər olaraq siz dərk edirsinizmi ki, bu sərhədlərə, həqiqətən, toxunulmamalıdır, ona görə ki, 54 ölkə «bəli, biz buna razıyıq» demişdi, Ermənistan isə təklikdə qalmışdı? Digər tərəfdən, sizə elə gəlmirmi ki, Minsk qrupunun unutduğu həmin diplomatik qərar, ümumi dövlət barəsində əvvəlki təkliflər məhz həmin səbəblərə görə uğursuzluğa məruz qalmışdır? İstərdim ki, indi siz diplomatcasına deyil, açıq və səmimi cavab verəsiniz.

H e y d ə r Ə l i y e v: Həqiqətən, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşü keçirilmiş və orada Ermənistan–Azərbaycan münaqişəsini dincliklə nizama salmaq məsələsi gündəlikdə çox kəskin şəkildə dururdu. Yekun sənədi üçün qabaqcadan hazırlanmış nizamasalma formulunu Ermənistan qəbul etmədi. Yekun sənədinə qeyd nəzərdə tutulurdu ki, bu bizi qane edə bilməzdi. Buna görə də Azərbaycan ATƏT-in Lissabon zirvə görüşünün bütün yekun sənədi barədə konsensusdan imtina etməli oldu. Onda formul təklif edildi və doğru dediniz ki, Ermənistandan savayı, ATƏT-in üzvü olan 54 ölkənin 53-ü imzaladı, bununla razılaşdı. Orada Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin – həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinin təmin edilməsi nəzərdə tutulurdu. Biz bununla razılaşdıq, Ermənistan tərəfi isə razılaşmadı.

Lissabon zirvə görüşündən sonra Minsk qrupu həmsədrlərinin tərkibi dəyişdi, yəni, Rusiya ilə birlikdə Amerika Birləşmiş Ştatları və Fransa da həmsədr oldular. O vaxtadək onlar həmsədrlər deyildilər. Beləliklə, 1997-ci il ərzində həmsədrlər iki təklif irəli sürmüşdülər. Onlardan biri məsələnin bütöv halda, ikincisi isə mərhələ-mərhələ həll edilməsi barədə idi. Azərbaycan həm birinci, həm də ikinci təklifi danışıqlar

üçün əsas kimi qəbul etdi. Ermənistan birinci təklifi qəbul etmədi. Bununla əlaqədar ikinci təklif, məsələnin mərhələ-mərhələ həll edilməsi təklifi meydana gəldi. Lakin Ermənistan sonra bu təklifi də qəbul etmədi. Sonra, artıq 1998-ci ildə danışıqlar prosesi ləngidi və «ümumi dövlət» formulu meydana gəldi. Bax, məhz onda bu «ümumi dövlət» formulu Ermənistan tərəfindən qəbul olundu, amma Azərbaycan onu qəbul etmədi. Sadəcə desək, hesab 2:1 Azərbaycanın xeyrinədir, yəni, Azərbaycan iki təklifi qəbul etdi, Ermənistan qəbul etmədi və üç təklifdən birini Ermənistan da qəbul etmədi, Azərbaycan da.

Sonda demək istəyirəm ki, dünyanın bütün ölkələrinin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı məsələsi, həqiqətən, beynəlxalq hüququn əsas məsələsidir. Təəssüf ki, biz bu hüququ indiyədək heç kimə sübut edə bilmirik.

Robert Köçəryan: Mən bu məsələyə əlavə edəcəyəm. Əvvəla, bu, ATƏT-in qərarı deyildi. Bu, sədrlik edənin bəyanatı idi. ATƏT çərçivəsində qərar konsensusla qəbul olunduğundan, Ermənistan belə bir qərarın qəbulunda, təbii ki, iştirak edə bilməzdi. İkincisi, mənə elə gəlir ki, burada məsələ xeyli mürəkkəbdir. Yəni, ərazi bütövlüyü ilə xalqın öz müqəddəratını təyin etməsi, beynəlxalq hüquqda eyni mənalı olan prinsiplər arasında tarazlığı necə tapmalı? Aydındır ki, ərazi bütövlüyü prinsipi demokratiyanın inkişaf etmədiyi ölkələrə kütləvi cinayətlər və soyqırımları üçün çox vaxt bəraət olur. Bununla əlaqədar mən, sadəcə olaraq, bu problemə həmin nöqteyi-nəzərdən baxmağı təklif edərdim.

Bizim də ərazimiz var, Ermənistan da öz ərazi bütövlüyündə maraqlıdır və təbii ki, biz, ümumiyyətlə, bu prinsipin əleyhinə ola bilmərik. Lakin hesab edirik ki, öz müqəddəratını təyin etmək hüququ Dağlıq Qarabağda qanuni surətdə həyata keçirilmişdir. Üstəlik, kompromisimiz bundan ibarətdir ki, buna baxmayaraq, biz bu iki prinsip arasında kompromis

tapmaq imkanlarını axtarırıq. Bizə təklif olunan ümumi dövlət ideyası da məhz həmin düzgün kompromisi tapır.

S u a l: Mən cənab Köçəryana sual vermək istərdim. Yenə də həmin problemə, erməni soyqırımı deyilən məsələyə qayıdıram. Ermənistan ərazi baxımından kompensasiya tələb etmək niyyətindədirmi?

R o b e r t K ö ç ə r y a n: Bu sual lap əvvəldə bir qədər geniş şəkildə verilmişdi. Sual iki dəfə səslənsə də, mən ona, hər halda, cavab verəcəyəm.

Türkiyədə bu hadisə 1915-ci ildə baş vermişdir. Lakin söhbət prinsipcə təkcə həmin ildən getmir, bu, çox-çox əvvəllər, hələ XIX əsrin axırlarından başlanmış, Türkiyənin daxilində baş vermişdi. Soyqırımının tanınması prosesi ilə əlaqədar, məncə, indi Ermənistanın bir dövlət olaraq Türkiyəyə qarşı ərazi iddiaları sürmək imkanları və hüququ yoxdur. Lakin soyqırımından şəxsən zərər çəkmiş vətəndaşların fərdi qaydada kompensasiya tələb etməyə haqqı var. Bununla əlaqədar necə hərəkət etmək artıq onların öz işidir. Sonra, Türkiyənin Avropa Birliyində üzvlüyü Avropa məhkəmələrinə müraciət etmək, hansısa kompensasiyalar tələb etmək imkanını da nəzərdə tutacaqdır. Lakin təkrar edirəm, bu həmin hadisələrin gedişində zərər çəkmiş adamların və ya onların varislərinin işidir.

Ərazi problemi başqa müstəvidədir. O, Sevr müqaviləsi ilə bağlıdır. Bu məsələnin mətləbə dəxli yoxdur və indi mən onu müzakirə etməyi, sadəcə olaraq, lazım bilmirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Paris, «Marini» sarayı

26 yanvar 2001-ci il

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi barədə ətraflı müzakirə aparan prezidentlər kompromis variantların axtarılıb tapılması barədə dialoqların davam etdirilməsinin vacib olduğunu bildirdilər.

ATƏT-in və onun Minsk qrupu həmsədrlərinin Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində fəaliyyətini nəzərdən keçirən dövlət başçıları bu istiqamətdə səylərin daha da sürətləndirilməsinin zəruriliyini vurğuladılar, Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların bundan sonra da davam etdirilməsi haqqında yekdil fikirdə olduqlarını təsdiq etdilər.

Prezidentlər bildirdilər ki, münaqişənin həlli üçün hər iki tərəfin milli mənafelər naminə konstruktiv mövqe tutması, tam sülh əldə edilənədək atəşkəs rejiminin saxlanması zəruridir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN, FRANSA PREZİDENTİ JAK ŞİRAKIN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN GÖRÜŞÜ

Paris, Yelisey sarayı

26 yanvar 2001-ci il

Azərbaycan prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Köçəryan ilə görüşündən məmnun qaldığını bildirən cənab Jak Şirak Cənubi Qafqazın bu iki respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə dövlət başçılarını ürəkdən təbrik etdi, Azərbaycanın və Ermənistanın Avropa ölkələri ailəsinə daxil olmasını tarixi hadisə kimi qiymətləndirdi.

Azərbaycan prezidenti Heydər Əliyev Fransaya rəsmi səfərə dəvət edildiyinə, keçirilmiş görüşlərə, aparılmış danışıqlara görə, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasında Fransanın və şəxsən prezident Jak Şirakın dəstəyinə görə təşəkkürünü bildirdi.

İki saat çəkən görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsinin müzakirəsinə geniş yer ayıran dövlət başçıları Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa görüşlərin davam etdirilməsinin vacibliyini bir daha vurğuladılar.

Prezidentlər ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin münaqişənin sülh yolu ilə tezliklə həlli sahəsində öz səylərini daha da gücləndirməsinin zəruriliyini təsdiq etdilər.

Prezident Heydər Əliyev görüşün təşkilinə, səmərəli və geniş fikir mübadiləsinə görə Fransa prezidenti cənab Jak Şiraka təşəkkür etdi və əmin olduğunu bildirdi ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tam həll edilməsi üçün öz səylərini davam etdirəcəkdir.

Dövlətimizin başçısı bu görüşün Azərbaycan üçün böyük əhəmiyyət kəsb etdiyini xüsusi vurğuladı və ümidvar olduğunu bildirdi ki, Paris danışıqları münaqişənin aradan qaldırılmasında irəliləyişə nail olmağa imkan yaradacaqdır.

BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLA ÇIXIŞLAR

Fransa Prezidenti Jak Şirakın bəyanatı

Xanımlar və cənablar!

Bizim çox xoş, faydalı söhbətimiz oldu. Azərbaycanın və Ermənistanın Avropa Şurasına qəbul olunması münasibətilə prezidentləri – Əliyevi və Köçəryanı qəbul etməyimə şadam. Mən onları Avropa Şurasına qəbul olunmaq münasibətilə təbrik etdim və bildirdim ki, bu, Qafqazın demokratikləşməsinə sübutdur.

Bu münasibətlə hər iki prezidentlə söhbət etmək imkanından çox şad oldum. Təbii ki, söhbətdə iki ölkə arasında münaqişəyə də toxunuldu. Biz bu məsələ barəsində ümumi xarakterli fikir mübadiləsi apardıq. Fikir mübadiləsi çox səmimi şəraitdə keçdi. Ürəkdən arzu etdiyimi bildirmək istərdim ki, Amerika Birləşmiş Ştatları və Rusiya ilə birlikdə Fransanın da daxil olduğu Minsk qrupunun təsiri ilə münaqişə imkan daxilində tezliklə, mümkün qədər qısa müddətdə həll olunsun. Mən müvəffəqiyyətə əmin olduğumu hər iki prezidentə

bildirmək istərdim. Qarşıda iki prezident arasında yeni ikitərəfli görüşlər durur, qarşıda Minsk qrupunun görüşü durur, bu görüş zamanı konkret nəticələr əldə ediləcəyini gözləmək olar. Mən səmimi-qəlbdən arzu etmək istərdim ki, mümkün qədər tezliklə uğur qazanılsın və proses müvəffəqiyyətlə nəticələnsin.

Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Mən çox böyük məmnunluq duyuram ki, bu gün beş saatdan artıqdır Yelisey sarayında, Parisdəyəm və prezident Şirakın bu qədər vaxtını almışam. Cənab Prezident, məni Fransaya rəsmi səfərə dəvət etdiyinizə görə də – bizim çox maraqlı söhbətlərimiz və görüşlərimiz oldu – bu gün bizə, mən Azərbaycanı nəzərdə tuturam, eləcə də Ermənistana – düşünürəm ki, prezident Köçəryan da belə hesab edir – xeyli vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm.

Azərbaycanın Avropa Şurasına qəbul edilməsi xalqımız üçün, müstəqil ölkəmiz üçün tarixi əhəmiyyətli hadisədir. Bu işdə bizə kömək göstərdiklərinə və dəstək verdiklərinə görə cənab prezident Jak Şiraka və Fransanın Avropa Şurasındakı bütün nümayəndələrinə təşəkkür etmək istəyirəm. Bunun da müəyyən dərəcədə rəmzi mənası var ki, bu gün biz cənab prezident Şirakla bu hadisəni, necə deyərlər, qeyd edirik.

Əlbəttə, biz Avropa Şurasında Azərbaycanın qarşısında duran vəzifələr barəsində də çox faydalı fikir mübadiləsi apardıq. Mən bir daha bildirmək istəyirəm ki, biz Avropa Şurasında fəal iştirak etmək və Fransa ilə hər cəhətdən əməkdaşlıq yolu ilə gedəcəyik.

Bu gün Ermənistan prezidenti Köçəryanla mənim aramda təkbətək görüşdə çox faydalı fikir mübadiləsi oldu. Biz təxminən iki saat söhbət etdik və bütün bu vaxt Ermənistan–Azər-

baycan münaqişəsinin dincliklə nizama salınması yollarının axtarışına, qarşılıqlı kompromislərin axtarışına həsr olundu.

Cənab prezident Şirakın iştirakı ilə üçtərəfli görüş çox xoş oldu. Prezident artıq bu barədə danışdı, mən də demək istəyirəm ki, Ermənistan–Azərbaycan münaqişəsinin dincliklə nizama salınmasına dair çox ciddi, mürəkkəb məsələ barəsində üçlükdə də fikir mübadiləsi aparmağımızın bizim üçün, Azərbaycan üçün, bir prezident kimi, mənim üçün böyük əhəmiyyəti var. Prezident Köçəryan və mən məsələnin həlli yolunu tapmaq üçün aramızdakı dialoqu davam etdirmək barədə razılığa gəldik. Bu barədə biz – prezident Jak Şirak, prezident Köçəryan və mən – üçlükdə görüş zamanı da danışdıq.

Cənab Fransa prezidenti, mənim üçün çox maraqlı olan bugünkü günə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm və ümidvaram ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Sizin səyləriniz Ermənistan–Azərbaycan münaqişəsinin dincliklə həlli yolunu tapmaq naminə davam edəcəkdir.

Ermənistan Prezidenti Robert Köçəryanın bəyanatı

Xanımlar və cənablar!

Təşəbbüs göstərdiyinə görə və prezident Əliyevlə çox ciddi görüş və üçtərəfli görüş üçün imkan yaratdığına görə, ilk növbədə, prezident Şiraka təşəkkür etmək istərdim.

Mənə elə gəlir ki, hər iki görüş, hər iki söhbət çox konstruktiv şəraitdə keçdi və düşünürəm ki, biz nizamasalma probleminin mümkün yollarını ilk dəfə üçtərəfli səviyyədə belə geniş müzakirə etdik.

Biz prezident Əliyevlə qarşılıqlı məqbul qərarın axtarışını fəal surətdə davam etdirmək barədə razılığa gəldik və həmsədrlərlə, təbii olaraq, fransalı həmsədrlə məsləhətləşmələr aparacağıq.

Düşünürəm ki, Paris görüşü Dağlıq Qarabağ münaqişəsinin həlli yolunun axtarışı prosesini stimullaşdırdı. Mən cənab Şiraka ləziz yeməklərə görə də təşəkkür etmək istərdim. O bizi əvvəlcə danışıqlarda yorub heydən saldı, sonra da yaxşıca yedizdirdi.

J a k Ş i r a k: Prezidentlər çox tələsirlər, buna baxmayaraq, hərəsi bir suala cavab verməyə razıdır.

S u a l: Sual hər iki prezidentədir. Bu gün sizin aranızda 14-cü görüş oldu. Birinci görüşlə indiki görüş arasındakı mühüm fərqi göstərə bilərsinizmi, belə bir fərq var, ya yox? Prosesdə münaqişənin üçüncü tərəfinin – «Dağlıq Qarabağ Respublikası»nın faktiki surətdə olmadığı halda, siz daha səmərəli nəticə əldə edilməsini mümkün bilirsinizmi?

H e y d ə r Ə l i y e v: Bizim nə qədər görüş keçirdiyimizi saydığınıza görə sağ olun. Heç mən özüm də bilmirdim ki, bu, 14-cü görüşdür. Bu, görüşlərimizə necə böyük diqqət yetirildiyini göstərir. Görüşləri isə biz görüşlər naminə deyil, məsələnin həlli yolunu həqiqətən tapmaq üçün keçiririk. Biz hər dəfə daha çox qarşılıqlı anlaşma olduğunu aşkara çıxarırıq. Bu, artıq yaxşı haldır. Ümidvaram ki, görüşləri yüzə çatdırmayacağıq. Hansı görüşdə qəti razılığa gələcəyimizi isə söyləmək mənim üçün çətindir.

Üçüncü tərəf barəsində. Biz prezident Köçəryanla məsələləri hələlik müzakirə edirik və düşünürəm ki, konkret bir qərara gəldikdən sonra yəqin üçüncü, dördüncü və beşinci tərəf də olacaqdır.

R o b e r t K ö ç ə r y a n: Birinci görüşlə 14-cü görüş arasında fərq bundadır ki, biz birinci görüşdə bir-birimizi öyrənirdik, sonrakı görüşlərdə bir-birimizi başa düşmək istəyirdik, indi isə problemi həll etməyə çalışırıq.

Üçüncü tərəf barəsində. Mən üçüncü tərəfin mənafelərinə, baxışlarına və mövqelərinə bələd olduğuma görə, onları da açıqlamağa çalışacağam, hərçənd sizinlə razıyam ki, tam razılıq həmin tərəfin iştirakı ilə əldə edilə bilər.

FRANSAYA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

27 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycanın Avropa Şurasına qəbul olunması ilə əlaqədar təntənəli mərasimi bizim televiziya birbaşa veribdir. Siz bunu bilirsiniz. İndi birinci məsələ, əlbəttə ki, Azərbaycanın Avropa Şurasına qəbul olmasıdır. Artıq bu da arxada qalmışdır. Qəbulolma mərasimi çox təntənəli, çox mehriban şəraitdə və çox yüksək səviyyədə keçdi. Orada bütün deputatlar, onlardan əlavə 200–300 başqa adam var idi, müxbirlər vardı. Bayraqlar qaldırılmaqdan əvvəl biz – hər iki prezident salonda qısa çıxışlar etdik. Orada, demək olar ki, adam əlindən yer yox idi. Yuxarıdakı balkonların da hamısı dolu idi.

Hesab edirəm ki, çox yaxşı keçdi və Azərbaycan üçün yeni bir tarixi hadisə oldu. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, daxili sabitliyi təmin edəndən, demokratiya sahəsində əldə etdiyi nailiyyətlərlə irəlilədikdən sonra, nəhayət, indi Avropa Şurasının üzvüdür. Onu da nəzərə almaq lazımdır ki, biz coğrafi nöqteyi-nəzərdən Avropada olsaq da, Avropa Şurası əsasən avropalılardan, həqiqi avropalılardan ibarətdir. Biz Avropa qitəsindəyik, amma bizə çoxları Şərq insanları deyirlər və biz də bundan, necə deyərlər, öz köklərimizdən heç vaxt imtina etməmişik və etməyəcəyik. Bunu mən çıxışımda da dedim. Əgər bir az qısa desək, indi Avropa Şurasında – onun 43 üzvü arasında – iki müsəlman türk dövləti

var – Türkiyə və Azərbaycan. Təbiidir ki, bu çox yüksək qiymətə malik hadisədir və Azərbaycan xalqı üçün tarixi hadisədir.

İkincisi, yəqin siz bilirsiniz ki, mən oraya Fransa prezidenti Şirak tərəfindən rəsmi səfərə dəvət edilmişdim. Ona görə də birinci gün, ayın 24-də mənim rəsmi səfər proqramım keçdi. Prezident Şirakla mənim çox uzun, çox geniş və əhəmiyyətli danışıqlarım oldu. Sonra da yemək yedik.

Sonra isə mən həmin axşam Strasburqa getdim. Səhərisi bütün gün Strasburqda da çox gərgin proqram oldu. Qəbuldan sonra mən orada çox adamlarla da görüşdüm. Onları mətbuatda verəcəklər, görəcəksiniz. Amma sonra, axşam yenə də Parisə qayıtdım. Çünki 26-da prezident Köçəryanla bizim təkbətək görüşümüz var idi. Sonra isə prezident Köçəryan, prezident Şirak və mənim görüşüm var idi. Bu görüşləri də keçirdik. Mən Köçəryanla iki saata yaxın danışıq apardım. Sonra üçümüz – heç kəs yox idi – prezident Şirak, prezident Köçəryan, bir də mən iki saatdan artıq danışıq apardıq. Ondan sonra təxminən iki saata qədər də yemək mərasimi oldu. Prezident Şirak bizə yemək verdi. Orada da danışıqlar bizim münasibətlərə aid idi.

Təbiidir ki, indi bizim xalqımızı, millətimizi – hamını maraqlandıran, Avropa Şurası ilə bərabər, Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsidir. Danışıqlar çətin gedir, ağır gedir. Bunu sizə deyim. Ancaq yenə də hesab edirəm ki, bu, ən düz yoldur. Biz bu yolla gedirik ki, məsələnin sülh yolu ilə həll edilməsinə nail olaq.

Orada, Yelisey sarayında biz üçümüz mətbuat konfransı keçirəndə bir nəfər müxbir – mənə belə gəldi ki, Ermənistandan gəlmişdi, çünki rus dilində danışırdı, amma sifətindən gördüm ermənidir – dedi ki, siz artıq 14-cü dəfədir ki, prezident Köçəryanla təkbətək görüşürsünüz. Bunun nəticəsi nədir? Mən ona dedim ki, düzü, bilmirdim, neçə dəfədir görü-

şürük, saymamışam. Ancaq nəticəsi odur ki, hər halda, biz bir-birimizi daha da anlaya bilirik, məsələləri müzakirə edirik. Köçəryan öz tərəfindən, mən öz tərəfimdən bir-birimizə sübut etmək istəyirik və danışıqlar prosesi irəliyə gedir. Düzdür, çox zəif gedir, amma irəliyə gedir. Ona görə də hesab edirəm ki, bu da çox faydalı bir görüş idi. Xüsusən bizim üçümüzün görüşü. Çünki Fransa Minsk qrupunun həmsədridir və prezident Şirak bu məsələyə çox ciddi yanaşır, problemi bilir. Mən də ona birinci günkü danışığımızda, demək olar ki, onunla təkbətək danışığımızın 70 faizi, bəlkə də 100 faizi bu məsələyə həsr olunmuşdu. Sonra isə, nahar vaxtı biz ikitərəfli münasibətlər haqqında danışırdıq. Ona görə də hesab edirəm ki, bütün sahələrdə öz səylərimizi bundan sonra da davam etdirmək lazımdır. Həm də Minsk qrupunun həmsədrləri çox iş görməlidirlər. Minsk qrupunun həmsədrlərinin nümayəndələri orada idilər – həm Amerikanın nümayəndəsi Kavano, həm Rusiyanın nümayəndəsi Qribkov, həm də Fransanın nümayəndəsi – hamısı orada idilər. Onlar da çox maraq göstərirdilər. Fürsət tapıb bizimlə görüşlər keçirirdilər. Ancaq bu prosesi hələ davam etdirmək lazımdır.

Ümumiyyətlə, hesab edirəm ki, bu səfər Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün çox uğurlu, çox əhəmiyyətli, tarixi əhəmiyyətə malik olan bir səfərdir.

S u a l: Cənab Prezident, bu danışıqlarda prezident Köçəryan, yaxud Siz hansısa şərtləri irəli sürdünüzmü?

C a v a b: Bilirsiniz, şərt olmasa, danışıqlar olmaz.

S u a l: Cənab Prezident, Köçəryan söylədiyi üç şərti Sizinlə görüşdə dedimi?

H e y d ə r Ə l i y e v: Hansı şərtlər?

J u r n a l i s t: O, üç şərt irəli sürmüşdü – anklav məsələsi, beynəlxalq ictimaiyyət tərəfindən hər hansı bir qərara dəstək verilməsi...

H e y d ə r Ə l i y e v: Qızım, bunlar hamısı detallardır. Danışıqlar siz təsəvvür etdiyinizdən həddindən artıq çox genişdir.

S u a l: Hörmətli Prezident, Azərbaycan və Ermənistanın Avropa Şurasına qəbulu Dağlıq Qarabağ probleminin həllinə təsir edəcəkmi?

C a v a b: Avropa Şurası dedi ki, biz başqalarının gördüyü işlərə birbaşa qarışmaq istəmirik. Yəni Minsk qrupunun həmsədrləri var, Minsk qrupu var, onların işlərinə qarışmaq istəmirik, ancaq əgər siz bu barədə bir şey edə bilməsəniz, biz hazırıq. Mətbuat konfransında bu sualı verdilər. Sən dediyin sualı həm Köçəryana, həm də mənə verdilər. Köçəryan dedi ki, bəli, Avropa Şurası belə deyir. Mən isə dedim ki, bundan sonra Avropa Şurası da bilməlidir ki, əgər Avropa Şurasına daxil olan iki dövlət bir-biri ilə hərbi münaqişə vəziyyətindədirsə, bu, Avropa Şurasına da heç vaxt hörmət gətirməyəcəkdir. Ona görə də mən onlara başa saldım ki, hamı məşğul olmalıdır.

Mən öz çıxışımda – yəqin qulaq asmısınız – sərt dedim. Dedim ki, dünya ictimaiyyəti bu məsələyə biganə qala bilməz!

S u a l: Cənab Prezident, Minsk qrupunun həmsədri kimi, Fransanın Ermənistan–Azərbaycan münaqişəsinin həlli üçün bir planı varmı?

C a v a b: Onların özlərinin layihəsi yoxdur. Həm Fransanın, həm Rusiyanın, həm də Amerikanın. Onların əvvəlki layihələri məlumdur. Orada yenə sual verdilər. Çünki Köçəryan yenə də dedi ki, həmsədrlər ümumi dövlət formasını irəliyə sürüb, əgər Azərbaycan bununla razılaşsaydı, məsələ həll edilmiş olardı. Mən də məcbur oldum onlara deməyə ki, Lissabon zirvə görüşündən sonra Minsk qrupu tərəfindən iki təklif olmuşdur. Bir paket təklifi, bir də mərhələ-mərhələ həll barədə və bunu Ter-Petrosyan qəbul etdi. Bundan sonra onu məcbur etdilər ki, istefaya getsin. Sonra isə Minsk qrupunun

həmsədrləri ümumi dövlət prinsipini irəli sürdü. Onunla biz razı olmadıq. Yəni Köçəryan istədi izah etsin ki, guya biz razı olmuruq. Mən ona dedim ki, iki təkliflə Ermənistan razı olmadı, bir təkliflə biz razı olmadıq. Beləliklə, hesab iki bir Azərbaycanın xeyrinədir.

S u a l: Cənab Prezident, Fransa dövləti bəyan etmişdir ki, Dağlıq Qarabağ probleminin nizamlanmasında heç bir coğrafi-strateji maraqlar nəzərə alınmayacaqdır. Bəs erməni diasporu məsələsi bu problemin nizamlanmasına təsir edə bilərmi?

C a v a b: Bəli, prezident Şirak bir daha dedi ki, Qafqazda bizim heç bir coğrafi-strateji marağımız yoxdur. Biz, sadəcə, istəyirik ki, Cənubi Qafqazda sülh olsun və buna görə də çalışırıq.

S u a l: Cənab Prezident, Fransada keçirilən danışıqlardan Dağlıq Qarabağ münaqişəsinin həllində hansısa bir nəticə gözləmək olarmı?

C a v a b: Hər bir danışıqdan nəticə gözləmək lazımdır. Bilirsiniz, danışıqlar boş-boşuna aparılmır. Prezidentlər gedir, vaxt itirir, böyük proqram yayılır. Məsələn, Fransa hökumətinə biz, necə deyərlər, nə qədər əziyyət verirdik. Prezident Şirak neçə gün bizimlə məşğul oldu. Bu, boş danışıq deyil ki, çıxırsan, tanış adamınla danışırsan. Bu danışıqların hər birinin çox əhəmiyyəti vardır.

S u a l: Cənab Prezident, bundan sonrakı görüşünüz harada olacaqdır?

C a v a b: Biz bu barədə danışmadıq.

S u a l: Cənab Prezident, Türkiyə ictimaiyyəti Sizin Fransaya səfərinizə bir az tənqidlə yanaşıbdır...

C a v a b: Bilirsiniz, Türkiyə ictimaiyyəti tənqidlə yanaşa bilməz. Orada hansısa bir qəzetdə, «Hürriyyət» qəzetində yanlış şeylər yazıblar. Mən buna təəccüb etmirəm. Siz nə qədər yalan şeylər yazırsınız, onlar da elədir. Siz vaxtilə onlardan öyrənmisiniz, amma onlardan qabağa düşmüsünüz. An-

caq mən prezident Şirakla çox ətraflı danışdım və dedim ki, bu, düzgün iş deyildir. Bizim birinci görüşümüzdən sonra mətbuatın qarşısına çıxdıq. Orada ona sual verdilər. O həmin suala cavab verdi. Siz onu görəcəksiniz.

Strasburqda isə bu məsələni qaldırdılar. Mən buna çox sərt cavab verdim. Dedim ki, bu məsələ düzgün deyil, Fransanın başqa dövlətin işinə qarışmağa haqqı yoxdur. Türkiyə böyük dövlətdir. Çox geniş danışdım, bunu eşidəcəksiniz. İndi təkrar etmək istəmirəm. Orada da Köçəryan bir replika verdi ki, Avropa Şurası, Avropa Birliyi, filan... Mən ona dedim ki, bilirsiniz, əgər 85 il bundan öncə bu məsələ hətta olubsa da, o vaxt nə demokratiya var idi, nə də Avropa Şurası var idi.

S u a l: Cənab Prezident, Moskvanın bir agentliyi belə məlumat yayıb ki, növbəti görüşlərdə Dağlıq Qarabağın rəhbərləri də iştirak edəcəklər...

C a v a b: Yalandır. Mənə orada, Parisdəki mətbuat konfransında sual verdilər ki, niyə üçüncü tərəf iştirak etmir? Mən dedim ki, bilirsiniz, biz hələ iki prezident məsələnin həllinə nail olmalıyıq. Əgər biz məsələnin həll edilməsinə nail ola bilsək, yəni bir ümumi razılığa gələ bilsək və həmsədrlərlə birlikdə bu, artıq tamamilə həll edilmiş məsələ kimi olsa, onda üçüncü tərəf də, dördüncü tərəf də, beşinci tərəf də iştirak edəcəkdir. Siz başa düşürsünüz də bu nə deməkdir – üçüncü tərəf də, dördüncü tərəf də, beşinci tərəf də.

S u a l: Cənab Prezident, özünüzü necə hiss edirsiniz?

C a v a b: Görürsünüz də, hər halda, sizdən yaxşıyam.

RUSİYA FEDERASİYASININ İLK PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS YELTSİNƏ

Çox hörmətli Boris Nikolayeviç!

Əlamətdar yubiley – anadan olmağınızın 70 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz Rusiya Federasiyasının tarixinin taleyüklü dövründə ona başçılıq edərək, özünə xas əzmkarlıqla, qətiyyətlə, prinsipiallıqla, inamla Rusiya xalqını cəmiyyətin yeniləşdirilməsi və demokratik dəyişikliklər yolu ilə aparırdınız.

Postsovet məkanında hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan yeni dövlətlərarası münasibətlərin yaranması Sizin adınızla bağlıdır.

Azərbaycan və Rusiya xalqları arasında dostluğun, mehriban qonşuluğun və əməkdaşlığın inkişafına və dərinləşməsinə yönəldilmiş səylərinizin, habelə bizim Sizinlə şəxsi səmimi münasibətlərimizi yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür və səadət arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *29 yanvar 2001-ci il*

BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

30 yanvar 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən sizi salamlayıram. Bilirəm ki, sizin çox görüşləriniz olubdur. İndi də yəqin ki, mənimlə danışmağa ehtiyac vardır.

Beynəlxalq Valyuta Fondu ilə bizim əməkdaşlığımız, hesab edirəm, indiyə qədər uğurlu olubdur və bundan sonra da uğurlu olacaqdır. Biz Beynəlxalq Valyuta fondu ilə əməkdaşlığımıza böyük əhəmiyyət veririk və hesab edirik ki, bu, Azərbaycan üçün xeyirli olub – xüsusən keçən illərdə.

J o n U e k m a n - L i n (*Beynəlxalq Valyuta Fondu nümayəndə heyətinin rəhbəri*): Cənab Prezident, sağ olun. Sizinlə görüşmək mənim üçün böyük şərəfdir. Bu gün Sizinlə görüşmək üçün gərgin iş cədvəlinizdə vaxt tapdığınıza görə çox sağ olun. Bu xoş sözlərə görə də Sizə təşəkkür etmək istəyirəm.

Ölkənizin Avropa Şurasına qəbul olunması münasibəti ilə Sizi təbrik etmək istəyirəm. Bu, ölkənizin demokratiya və insan hüquqları sahəsində qazandığı nailiyyətlərin tanınması, habelə bu proseslərin inkişafına Sizin şəxsi töhfənizin tanınması deməkdir. Cənab Prezident, mən Azərbaycanın nail olduğu böyük iqtisadi uğurlara şəxsi töhfənizi də qeyd etmək istərdim. Son dövrdə inflyasiyanın aşağı səviyyədə, mübadilə məzənnəsinin sabit olması və iqtisadi artımın yüksək sürəti –

Siz bu nailiyyətlərlə haqlı olaraq fəxr edə bilərsiniz. Buna görə də qazandığınız həmin nailiyyətləri artıra biləcək yeni üçillik proqramın müzakirəsi üçün nümayəndə heyətinin Bakıya gəlməsi barədə hökumətin xahişindən çox şad olduq. Azərbaycan Respublikasının hökuməti ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığı Sizin kimi, biz də yüksək qiymətləndiririk. Fürsətdən istifadə edərək, Beynəlxalq Valyuta Fondunun Azərbaycandakı daimi nümayəndəsi cənab Maykl Meredi Sizə də təqdim etmək istəyirəm.

Azərbaycan üçün yeni üçillik proqramın məqsədlərini biz necə təsəvvür edirik? Bu məqsədlər üç əsas vəzifəni əhatə edir. Birinci məqsəd iqtisadi uğurlarınızın əsaslandığı makroiqtisadi sabitliyi dəstəkləməkdən, çox mühüm olan ikinci məqsəd kənd təsərrüfatında və iqtisadiyyatın digər qeyri-neft sektorlarında inkişafı sürətləndirmək yolu ilə yoxsulluğu azaltmaqdan və üçüncü məqsəd Azərbaycanda dövlət idarəçiliyini təkmilləşdirməkdən, gücləndirməkdən ibarətdir. Biz bunları çox mühüm məqsədlər sayırıq və onlara nail olmağa dair proqram işlənib hazırlanmasında Azərbaycan hökumətinə kömək etmək imkanına görə şadıq.

Burada işlədiyimiz iki həftədə biz həmin məqsədlərə çatmağa kömək edə biləcək konkret tədbirlərin hökumətlə və sizin icra aparatınızla müzakirəsində böyük uğurlara nail olduq. Əlbəttə, hələ bəzi məsələlər qalır, proqram üzərində işi başa çatdırmaq üçün bu məsələlərlə əlaqədar əlavə diskussiyalar aparmaq, əlavə iş görmək lazımdır. Lakin ümidvarıq ki, biz bunu növbəti səfərimiz zamanı edə biləcəyik. Cənab Prezident, icazənizlə, bu məsələlərdən bəzilərinə çox qısaca toxunmaq istərdim.

Əlbəttə, ən mühüm məsələ neft kompleksidir. Biz neft fondunun fəaliyyəti üçün çox yaxşı zəmin yaradan 29 dekabr tarixli fərmanı və müvafiq normativ aktları, xüsusən də neft sərvətinin müəyyən hissəsini gələcək nəsillərə saxlamaq haq-

qında qərarınızı böyük razılıq hissi ilə qarşıladıq. Biz bunu Sizin tərəfinizdən görülmüş mühüm dövlət tədbiri hesab edirik. Elə bir addım ki, regionda digər ölkələr üçün də model ola bilər.

Neft fondunun iş qaydası müəyyənləşdikcə və işlənib hazırlandıqca, son illərdə ölkənizin fərqləndiyi sağlam və etibarlı makroiqtisadi siyasətə onun uyğun olmasını vacib hesab edirik. Biz bu məsələləri sizin aparatınızın rəhbərləri ilə, neft fondunun icraçı direktoru ilə müzakirə etdik və məmnunluqla bildiririk ki, onlar bu vəzifələrlə razıdırlar və gələcək normativ aktlarda bunların öz əksini tapmasına çalışacaqlar.

Cənab Prezident, icazənizlə, mən hökumətlə müzakirə etdiyimiz proqramın xarakteri barədə bir neçə söz demək istərdim. Bu proqram BVF-nin əvvəllər Azərbaycanda həyata keçirdiyi proqramdan bir qədər fərqlənir, çünki BVF öz işinin istiqamətini bir qədər dəyişdirmişdir. İndi biz əsas diqqəti yoxsulluğun azaldılması üçün sizin hökumətinizə və dünyanın digər ölkələrinin hökumətlərinə kömək göstərilməsinə yönəldirik. Bütün dünyada, o cümlədən də Azərbaycanda biz bu tədbirləri yoxsulluğun azaldılmasına dair hökumətin irəli sürdüyü və tərtib etdiyi strategiya əsasında işləyib hazırlayırıq.

Ona görə də yoxsulluğun azaldılması sahəsində hökumətin məqsədləri, strategiya və vəzifələri bizim üçün başlanğıc nöqtəsidir. Bu strategiya indi hökumətin hazırladığı və «yoxsulluğun azaldılması strategiyası haqqında sənəd» adlandırılan sənəddə öz əksini tapmalıdır. Hökumət bu sənədi qəti olaraq işləyib tamamladıqdan sonra ondan nəinki BVF və Dünya Bankı, həm də digər çoxsahəli təşkilatlar iki məqsəd üçün istifadə edəcəklər.

Birinci məqsəd hökumətin məqsəd və vəzifələrini, həyata keçirəcəyi siyasəti başa düşməkdən, ikinci məqsəd maliyyə-texniki yardımımızı təşkil edə bilməyimiz üçün, beləliklə, bu strategiyanın məqsədlərinə çatmağa daha yaxşı kömək gös-

tərmək üçün birgə işimizi istiqamətləndirməkdən ibarətdir. Ona görə də bu sənədin tamamlanması nəinki hökumətin BVF ilə proqramının hazırlanmasında, həm də ümumən, qarşıdakı dövr üçün hökumətin siyasətinin istiqamətlərini və çərçivəsini müəyyənləşdirməkdə mühüm addımdır.

Nəhayət, cənab Prezident, mən bu prosesdə atılmalı olan addımlardan danışmaq istərdim. Ötən iki həftə ərzində hökumətlə və Sizin icra aparatınızla aparılmış diskussiyalar əsasında biz proqramın layihəsini hazırladıq. İndi biz Vaşinqtona qayıdırıq və bu sənədi həmkarlarımızla birlikdə müzakirə edəcəyik. Eyni zamanda Sizin hökumətiniz, icra aparatınız bu proqramın layihəsini öz həmkarları ilə birlikdə müzakirə edəcəklər. Sonra biz martda buraya qayıtmaq və icra şurasına təsdiqə təqdim edilə biləcək proqram barəsində razılaşmanı imkan daxilində başa çatdırmaq ümidindəyik. Hər şey yaxşı olarsa, icra şurasının bu proqrama dair iclası mayın axırlarında, yaxud iyunun əvvəllərində keçirilə bilər.

M a y k l M e r e d (*BVF-nin Azərbaycandakı daimi nümayəndəsi*): Cənab Prezident, gərgin iş cədvəlinizdə bu görüşə vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. Mən təxminən 6 aydır Azərbaycandayam və ölkənizdə azı daha iki il işləmək ümidindəyəm. Mən öz işimi, əslində, BVF ilə Azərbaycan hökuməti arasında körpü kimi təsəvvür edirəm, fikir ayrılıqlarını aradan qaldırmağa, mövcud münasibətləri möhkəmlətməyə çalışacağam. Ümidvaram ki, Siz bu işdə məni dəstəkləyəcəksiniz.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Əvvəlcə, Azərbaycanın Avropa Şurasına daxil olması münasibətilə təbriklərinizə görə və arzularınıza görə təşəkkür edirəm. Bu, Azərbaycan Respublikası, dövləti üçün, Azərbaycan xalqı üçün tarixi bir hadisədir.

Siz tamamilə doğru qeyd etdiniz ki, bu, Azərbaycanda demokratiyanın və insan hüquqlarının bərqərar olmasının nəticəsidir. Amma biz demokratiyanı geniş mənada anlayırıq. Çünki iqtisadi əsas olmasa, demokratiyanı yaratmaq müm-

kün deyildir. Ona görə də bizim Avropa Şurasına getdiyimiz yolda həyata keçirilən iqtisadi islahatlar və bütün sahələrdə olan islahatlar Azərbaycanda ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyatın tənəzzülünün qarşısının alınması və nəhayət, makroiqtisadi inkişafın əldə olunması – bunlar hamısı birlikdə Azərbaycanda həqiqi demokratiyanın yaranmasının əsaslarıdır.

Mən bu fikirləri Strasburqda Avropa Şurasının sessiyasında Azərbaycanın Avropa Şurasına daxil olması münasibətilə söylədiyim nitqimdə çox ətraflı şərh etdim. Bunları sizə çatdıraraq bildirmək istəyirəm ki, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi və makroiqtisadi inkişafın əldə olunmasında, təbiidir ki, Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığımızın da böyük əhəmiyyəti olmuşdur. Sizin Azərbaycana yardımınız, birinci növbədə, verdiyiniz məsləhətlər və tövsiyələr, eyni zamanda ölkəmizin valyuta imkanlarını təmin etmək üçün yardımınız, təbiidir ki, Azərbaycanda son illərdə bu inkişafın əldə olunmasına xüsusi xidmət göstəribdir.

Azərbaycanda Neft fondunun yaranması haqqında sizin fikirləriniz bizim üçün çox əhəmiyyətlidir. Mənim fərmanım və yaratdığımız sənədlər Neft fonduna vəsaitin şəffaf, açıq-aşkar, xalqın gözü qarşısında həm toplanmasını, həm də ondan hansı istiqamətlərdə istifadə olunmasını göstərmək üçün şərait yaradıbdır. Siz düzgün dediniz, mən bunu imzaladığım fərmanda əks etdirmişəm və ümumiyyətlə, bəyan etmişəm ki, biz Neft fondunu gələcək nəsillər üçün toplayıb saxlamalıyıq. Biz bunu mütləq edəcəyik. Bizim Neft fondunda 300 milyon dollara qədər vəsait vardır. Onu deyə bilərəm ki, mən fərman verəndən sonra keçən 25 gün ərzində Neft fonduna aid olan vəsaitlərin çox yüksək səviyyəli müxtəlif banklarda saxlanmasından da 1 milyon dollardan artıq gəlir əldə edilibdir.

Biz ölkəmizin, xalqımızın, millətimizin gələcəyi haqqında daha da çox düşünürük, nəinki bugünkü nəsillər haqqında,

özümüz haqqında. Taleyimiz belədir ki, biz bu çətin dövrü yaşayırıq və yaşamalıyıq. Azərbaycanın prezidenti kimi, mən istəmirəm ki, nəvələrimiz və nəticələrimiz bizim gördüyümüz bu çətinlikləri görsünlər.

Bizim Baş nazirlə, nazirlərlə və mənim aparatımla sizin görüşləriniz, danışıqlarınız haqqında məlumatım vardır. Hesab edirəm, çox səmərəli iş görmüsünüz və sizin məhz bu münasibətlə buraya gəlməyinizi çox əhəmiyyətli hesab edirəm. Yeni üçillik proqramın hazırlanması bizim üçün çox əhəmiyyətlidir. Ona görə də sizə təşəkkür edirəm.

Beynəlxalq Valyuta Fondunun fəaliyyətində yoxsulluğun aradan qaldırılması məsələsinin birinci plana çəkilməsi çox böyük qiymətə layiqdir. Siz bilirsiniz və burada qeyd etdiniz ki, artıq biz bu barədə geniş dövlət proqramı hazırlayırıq. Bu proqramın hazırlanmasında sizin fikirləriniz, tövsiyələriniz, yardımınız və xüsusən onun həyata keçirilməsində yardımınız çox vacibdir. Beləliklə, Beynəlxalq Valyuta Fondu ilə bizim əməkdaşlığımız sürətlə irəliyə gedir.

Hər mərhələnin öz xüsusiyyətləri vardır. Vaxt var idi ki, biz iqtisadi böhrandan çıxmalı idik, inflyasiyanın qarşısını almalı idik, iqtisadi inkişafı təmin etməli idik. Bunları etdik. Sizin köməyiniz bizim üçün çox xeyir verirdi. Mən çox məmnunam ki, siz bunun nəticələrini görürsünüz və yüksək qiymətləndirirsiniz. Güman edirəm, bundan sonra birgə işləməkdən topladığımız təcrübə daha da səmərəli birgə fəaliyyət göstərməyimiz üçün imkanlar yaradacaqdır.

Siz dediniz ki, mart ayında gələcəksiniz. Hesab edirəm ki, o vaxta qədər bizim tərəfimizdən lazım olan bütün sənədlər hamısı hazırlanacaq və mart ayındakı görüşümüzdə irəliyə yeni bir addım atacağıq. Bir daha sizə təşəkkür edirəm və bildirmək istəyirəm ki, mən Beynəlxalq Valyuta Fondunun fəaliyyətini çox yüksək qiymətləndirirəm. Sağ olun.

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA KUMARATUNQAJA

Hörmətli xanım Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Şri-Lanka xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Şri-Lanka arasındakı münasibətlərə böyük əhəmiyyət verirəm. Əminəm ki, qarşılıqlı əlaqələrimizin inkişafı bundan sonra da xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *1 fevral 2001-ci il*

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ XANIM HELEN KLARKA

Hörmətli xanım Baş nazir!

Yeni Zelandiyanın milli bayramı – Vaytanqa günü münasibətilə Sizi və dost Yeni Zelandiya xalqını səmimi–qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Yeni Zelandiya arasında təşəkkül tapan əlaqələr xalqımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, tərəqqi və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *1 fevral 2001-ci il*

AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜ MÜNASİBƏTİLƏ GƏNCLƏRLƏ GÖRÜŞDƏ NİTQ

Prezident sarayı

2 fevral 2001-ci il

Əziz gənclər!
Əziz dostlar!

Mən bu gün bu salonda sizinlə yenidən görüşməyimdən həddən-ziyadə məmnunam və deyə bilərəm ki, burada çıxış edib söz deyən hər bir gənc öz hazırlığı, öz fikirləri ilə, fikirlərini sərbəst ifadə etmək qabiliyyəti ilə məni heyran edir. Təkcə burada çıxış edənlər deyil, bu salonda oturanların, demək olar ki, hər biri bu qabiliyyətə malikdir.

Azərbaycan gəncliyi son illərdə xeyli inkişaf edibdir. Tarixin hər dövründə gənclər aparıcı qüvvə olublar, böyük qəhrəmanlıqlar, şücaətlər göstəriblər. Gənclər cəmiyyətin irəliyə getməsində, xalqın inkişaf etməsində öz xidmətlərini göstərmişlər. Amma hər dövrün bir xüsusiyyəti vardır. Hər dövrün öz hökmü, özünəməxsus şəraiti vardır.

Biz XX əsri sona verdik və artıq XXI əsrdə yaşayırıq. Çoxəsrlik tariximizin parlaq səhifələri hamıya məlumdur. Məmnunam ki, yeni əsr, yeni minillik, yeni il ərəfəsində xalqa göndərdiyim müraciət və tarixlə əlaqədar bəzi fikirlərimin millətimizə çatdırılması müsbət qarşılanıbdır və görürəm ki, siz artıq onları dərk etmisiniz.

XX əsrdə də hər mərhələdə gənclər öz üzərinə böyük yüklər götürmüşlər. Xalqımızla ağır, çətin yollardan keçmişlər, irəli-

də getmişlər. İtkilər də, faciələr də, məhrumiyyətlər də, nailiyyətlər də olubdur. Bütün bu mürəkkəb əsr ərzində Azərbaycan xalqı şərəfli bir yol keçibdir. Nəsillər nəsilləri əvəz edibdir. Nəsillərdən nəsillərə varislik qırılmayıbdır. Bunların hamısının nəticəsində, demək olar ki, bəşər tarixində ən mürəkkəb, ziddiyyətli olan XX əsrdə Azərbaycan xalqı yaşayıb, inkişaf edib və bugünkü zirvələrə gəlib çatıbdır.

Əsrin son onilliyi bizim tariximizin ən mötəbər, ən sevincli dövrüdür. Doğrudur, bu illər çox çətin illər olubdur. Tarixən qısa bir zamanda Azərbaycan xalqı böyük əzab-əziyyətlərdən keçibdir, itkilər veribdir və Azərbaycanın torpaqları işğal olunubdur. İşğal edilmiş torpaqlardan dinc əhali, insanlar, bizim vətəndaşlarımız zorla çıxarılıb və çadırlarda yaşayırlar. Ancaq bütün bunlara baxmayaraq, bu son dövr – biz bu il dövlət müstəqilliyinin əldə olunmasının onuncu ilini yaşayırıq – Azərbaycan xalqının çoxəsrlik tarixində ən xoşbəxt dövrdür.

Bizim ən böyük tarixi nailiyyətimiz dövlət müstəqilliyini əldə etməyimizdir. Bu barədə gənclər öz çıxışlarında çox gözəl dedilər. Məni sevindirən odur ki, burada çıxış edən gənclərin bəziləri Azərbaycan dövlət müstəqilliyi əldə edəndə bəlkə də uşaqlıq dövrü keçirirdilər. Yaxud da ki, on il bundan öncə yeniyetmə idilər. Ancaq hər birisi, güman edirəm, təkcə onlar yox, siz hamınız, bütün Azərbaycan gəncləri Azərbaycanın, nəhayət, milli azadlığa çıxmasının, dövlət müstəqilliyini əldə etməsinin nə qədər dəyərli, qiymətli olduğunu dərk edib və bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, o dövrün bizim xalqımıza bəxş etdiyi xoşbəxtliyi görür və bundan istifadə edir.

Müstəqillik əldə edəndən sonra bizim ölkəmiz ağır yol keçibdir. Keçmiş Sovet İttifaqına daxil olmuş respublikalar içərisində dövlət müstəqilliyini əldə edəndən sonra bu qədər ağır, çətin, əzab-əziyyətli yol keçmiş ikinci respublika yoxdur. Ancaq biz bu yolu da şərəflə keçmişik və bütün çətinliklərə

baxmayaraq, müstəqilliyimizi ilbəil möhkəmləndirmişik, inkişaf etdirmişik, müstəqil dövlət kimi özümüzü dünyaya tanıtmışıq və bu gün dəfələrlə deyildiyi kimi müstəqilliyimiz artıq əbədi olubdur, dönməz olubdur. Bunun xüsusi əlamətlərindən biri də odur ki, bir neçə gün bundan öncə Azərbaycan dünyanın ən mötəbər və nüfuzlu təşkilatlarından biri olan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilibdir. Artıq burada deyildiyi kimi, orada Azərbaycanın bayrağı qaldırılıb, Azərbaycanın himni səslənibdir. Avropanın mərkəzində Azərbaycanın bayrağı dalğalanır.

Bu yol da bizim üçün asan deyildi. Biz dörd il Avropa Şurasında qonaq sifətində iştirak edirdik, müxtəlif problemlərin həlli ilə məşğul olurduq. Tamhüquqlu üzv olmaq üçün qarşımıza qoyulan şərtlərin həyata keçirilməsi ilə məşğul olurduq. Bizim bütün işlərimiz çətinliklə başa gəlir və elə bu da çox çətinliklə başa gəldi. Bizim aqibətimiz belədir, taleyimiz belədir: bir tərəfdən, qarşımızda maneələr, çətinliklər, ikinci tərəfdən isə, bizim iradəmiz, özümüzü sübut etmək qabiliyyətimiz, özümüzü tanıtmaq qabiliyyətimiz.

Bilirsiniz ki, Azərbaycanın Avropa Şurasına qəbul edilməsinə maneçilik törədən bəzi ölkələrin Avropa Şurasında təmsil olunan nümayəndələri var idi. Onların bəziləri son günlərə qədər də bu mövqedə idilər. İkinci tərəfdən də Azərbaycanın daxilində ümummilli mənafeləri dərk edə bilməyən, anlaya bilməyən, öz şəxsi mənafelərini ümummilli mənafedən üstün tutanlar Avropa Şurasında bizə mane olan həmin o qüvvələrlə səs-səsə verirdilər. Beləliklə də, biz bu çətinliyi görürdük. Ancaq nə qədər çətin olsa da, biz həqiqəti sübut etdik. Həqiqət də ondan ibarətdir ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ardıcıl olaraq demokratiya yolu ilə gedir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi həyata keçirilir. Azərbaycanda bütün sahələrdə islahatlar aparılır. Azərbaycanda insan hüquqları, onların qo-

runması təmin edilir. Azərbaycanda şəxsiyyət azadlığı, söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı – hamısı bərqərar olubdur. Amma bütün bunlara baxmayaraq, yenə də bizə mane olurdular. Ancaq nə qədər çalışsalar da mane ola bilmədilər. Çünki, nəhayət, ədalət zəfər çaldı, Azərbaycan Avropa Şurasına qəbul olundu.

Azərbaycanın Avropa Şurasına qəbul olunması Avropa Şurası üçün də xüsusi əhəmiyyət kəsb edir. Çünki Azərbaycan öz coğrafi mövqeyinə görə Şərqlə Qərbin, Avropa ilə Asiyanın qovuşduğu yerdə yerləşən bir ölkədir. Azərbaycan xalqı öz tarixi köklərini, öz milli dəyərlərini, mənəvi dəyərlərini qoruyub saxlayıb və bundan sonra da saxlayacaqdır. Amma eyni zamanda təkcə bu dəyərlər içərisində yaşamaq yox, ümumbəşəri dəyərlərə də qovuşmaq, onlardan da bəhrələnmək və beləliklə, xalqımızın səviyyəsini daha da yüksəltmək bizim qarşımızda duran vəzifə olmuşdur. Biz bunu edirdik və etdik. Bu baxımdan Avropa Şurasına Azərbaycan kimi bir dövlətin, Azərbaycan xalqının daxil olması Avropa Şurasının özündə müəyyən müsbət meyllər yarada bilər və hesab edirəm, yaradacaqdır. Siz hamınız sevinirsiniz. Xalqımız sevinir. Bizim dostlarımız sevinir. Dost ölkələr sevinir.

Mən dedim ki, qəbul olma prosesi çox ağır idi. Ancaq Parlament Assambleyasının iclasında, o mərasimdə iştirak edənlərin hamısı Azərbaycanın Avropa Şurasına qəbul olunmasını alqışlayırdılar və Azərbaycanı təbrik edirdilər, öz müsbət münasibətlərini bildirirdilər.

Bu tarixi hadisədən sonra mən ilk dəfədir ki, ictimaiyyət qarşısında çıxış edirəm. Bu da sizsiniz, gənclərsiniz. Bunun da rəmzi mənası vardır. Bu bizim xalqımız üçün böyük əhəmiyyətə malik olan bir hadisədir. Ancaq gənclər üçün, gələcək üçün bunun daha çox əhəmiyyəti və daha çox mənası vardır. Ona görə də Strasburqdan qayıdandan sonra, Avropa Şurasına qəbul olunub böyük iftixar hissi ilə vətənə dönəndən

sonra birinci dəfə məhz sizinlə, gənclərlə görüşürəm və öz təəssüratlarımı sizə, gənclərə çatdırıram.

Eyni zamanda bütün xalqımız, o cümlədən gənclər bilməlidir ki, Avropa Şurasına daxil olmaq böyük məsuliyyət götürmək, Avropa Şurasının tələblərini həyata keçirmək deməkdir. Biz buna qadirik. Bizim xalqımız, dövlətimiz, cəmiyyətimiz buna qadirdir. Ona görə də biz şüurlu olaraq Avropa Şurasına qəbul edilməyə çalışırdıq, can atırdıq və buna da nail olduq. Bu, Azərbaycanda demokratiyanın inkişaf etməsində, bazar iqtisadiyyatının həyata keçirilməsində, insan haqlarının qorunmasında və bütün demokratik prinsiplərin bərqərar olunmasında bizə kömək edəcəkdir. Bu da, bu məsuliyyət də həm bizim üzərimizə düşür, həm də sizin, gənclərin üzərinə düşür. Çünki biz Avropa Şurasının qapısını açıb oraya girmişik, amma Avropa Şurasında bizim fəaliyyət göstərməyimiz, Avropa Şurasına layiqli üzv olmağımız üçün illər lazım gələcəkdir. O illərin məsuliyyəti də və o illərdə lazım olan fəaliyyət də yenə gənclərə, sizə məxsusdur.

Mən bu gün sizinlə görüşərkən düşünürəm: son illər Azərbaycan gəncliyi nə qədər yüksəlibdir, inkişaf edibdir. Bir neçə il ərzində Azərbaycan gəncliyinin siması da, məzmunu da, mənəviyyatı da xeyli dəyişilib və bu müsbət dəyişikliklər təbiidir ki, bütün xalqımızı sevindirir. Məni də sevindirir.

Azərbaycan gənclər ölkəsidir. Azərbaycan əhalisinin 66 faizi gənclərdir. Təsəvvür edin, ölkə birinci növbədə gənclərindir. Çox sevindirici haldır ki, son bir neçə ildə Azərbaycanda gənclərin təhsilə cəlb olunması sürətlə inkişaf edibdir. Məsələn, əgər 1994-cü ili götürsək, Azərbaycan gənclərinin təhsil alanları 1 milyon 500 minə – mən təxmini deyirəm – qədər idisə, 2000-ci ildə 1 milyon 700 mindir. Görürsünüz, cəmi 5–6 il müddətində 200 mindən artıq Azərbaycan gənci təhsilə cəlb olunub, təhsil alır. 1994-cü ildə ümumtəhsil müəssisələrində 1 milyon 400 min nəfər oxuyurdusa, 2000-ci ildə 1 mil-

yon 600 mindir. Nə qədər böyük dəyişikliklər olubdur. Əgər beş il ərzində Azərbaycanda ali təhsil sahəsində gənclərin sayı 200 min artıbsa, onda təsəvvür edin ki, Azərbaycanda gəncliyə, təhsilə nə qədər böyük qayğı var və Azərbaycan gəncləri də, uşaqlar da təhsilə, məktəbə nə qədər böyük həvəslə gedirlər. Bu rəqəmlər çox sevindiricidir. Əgər nəzərə alsaq ki, bu illər sosial-iqtisadi nöqteyi-nəzərdən çətin və ağır illərdir, onda bu rəqəmlərin nə qədər böyük mənaya malik olduğunu biz deyə bilərik.

Beləliklə, Azərbaycan cəmiyyəti dəyişdiyi kimi, gənclik də dəyişir. Hətta deyə bilərəm ki, gənclər əhalinin digər təbəqəsinə nisbətən daha da tez, daha da sürətlə dəyişir. Nə mənada dəyişir? Təhsil almaq, müasirləşmək, müasir həyata uyğunlaşmaq və təbiidir ki, lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etmək mənasında. Bax, bu gün salonda səslənən çıxışlar da bunu göstərdi. Yenə də deyirəm, ola bilər, onlardan beş dəfə də artıq çıxış etsinlər, hamısı bu cür mənalı, məzmunlu və dövlətçiliyə sədaqət hissi ilə çıxış edəcəklər.

Gənclərimiz çox şeyə nail olublar. Ancaq hələ gənclərin qarşısında çox böyük vəzifələr vardır. Birincisi, mən təhsil haqqında deyəndə bu rəqəmləri gətirirəm. Amma bu rəqəmlərin arxasında keyfiyyət durmalıdır. Həm orta məktəblərdə, həm ali məktəblərdə təhsilin keyfiyyəti yüksəldilməlidir. Təhsil ocaqlarında gənclərin təhsil almasına qayğı artmalıdır. Gənclərin daha da yaxşı oxuması, təhsil alması üçün tələbkarlıq artırılmalıdır. Əgər bu olmasa, bu rəqəmlər, təbiidir ki, istənilən mənanı verə bilməz.

Gənclər çox şeyi bilməlidirlər. Birinci növbədə hər bir gənc vətənpərvər olmalıdır. İndi, Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsidir. Ancaq vətənpərvərlik gərək insanın qəlbində olsun. Borc o demək deyildir ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur. Yox. Mən

bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır.

Bu baxımdan hesab edirəm, vaxtilə biz çox doğru tədbir gördük ki, Gənclər və İdman Nazirliyi yaratdıq. Nazirlik bu illərdə çox işlər görübdür. Ondan sonra gənclərin forumu yarandı. Bunun da çox böyük əhəmiyyəti vardır. Yəni indi müstəqil Azərbaycanda gənclər mütəşəkkilləşiblər. Gənclərin işləri ilə məşğul olan xüsusi nazirlik vardır. Baxmayaraq ki, bütün başqa nazirliklər də gənclərin işləri ilə məşğul olmalıdırlar və məşğul olurlar. Xüsusən Təhsil Nazirliyi və başqa nazirliklər. Eyni zamanda gənclərin təşkilatlanması, gənclər forumunun iki ildən bir keçirilməsi, müxtəlif tədbirlərin təşkili gənclərdə mütəşəkkilliyi təmin edir və vətənpərvərlik hissini erkən yaşlarda yaradır. Bu da göz qabağındadır ki, bizim gənclərimiz nə qədər vətənpərvərdirlər.

Məsələn, burada məlumatlar verildi. Dünyanın müxtəlif ölkələrində, müxtəlif yarışlarda, görüşlərdə Azərbaycan gənclərinin nümayəndələri nə qədər böyük uğurlar qazanırlar. Azərbaycan gəncləri indi təkcə respublikamızda yox, bir çox ölkələrdə təhsil alırlar və çoxları da böyük həvəslə oxuyurlar.

Parisdə olarkən bir qrup gənc gəlib mənə orada buraxdıqları kitabları göstərdilər. Mənim onlarla danışmağa vaxtım çox olmadı. Amma bir az söhbət etdim. Ondan sonra Strasburqda Parlament Assambleyasının sessiyası qurtarandan sonra – bilirsiniz, bunu televiziya göstəribdir – Ermənistan və Azərbaycan prezidentlərinin böyük bir mətbuat konfransı keçirildi. Müxtəlif dillərdə suallar verilirdi və orada bütün dillərə tərcümə olunurdu. Eşitdim ki, bir şəxs fransız dilində hər iki prezidentə sual verir. Təbiidir ki, mən hər bir sualı dinləyirdim. Çünki ona cavab vermək lazımdır. O, sualı fransız dilində verdi. Mən də sualın rusca tərcüməsini dinləyir-

dim. Çox məzmunlu sual verdi. Ermənistan–Azərbaycan münaqişəsinə aid, Lissabon zirvə görüşü haqqında və Lissabon zirvə görüşünün qəbul etdiyi qərar haqqında, qərarın yerinə yetirilməməsi haqqında o qədər məzmunlu sual verdi ki, deyə bilərəm, orada bu cür məzmunlu sual verilməmişdir. Dedim, görəsən bu kimdir ki, bizim problemləri yaxşı bilir? Mənə sonra dedilər ki, o, Parisdə sizinlə görüşən gənclərdən biri idi.

Doğrudur, mən orada onu görə bilmədim. Ancaq burada televiziyada göstərəndə onun sifətini gördüm. Yadıma düşdü ki, həmin oğlandır. Fransada təhsil alır. Cavan oğlandır. Amma təkcə təhsil almır, Azərbaycanı təmsil edir və orada 300 qəzetçinin, müxbirin içərisində o qədər çeviklik göstərdi ki, ona söz verdilər. Onun verdiyi sual da bu məsələnin açılması üçün çox böyük imkanlar yaratdı. Güman edirəm ki, siz televiziya vasitəsilə, mətbuatda mənim o suala cavabımı eşitmisiniz, oxumusunuz. Ancaq mənim cavabım eyni zamanda bu məsələyə çox böyük açıqlıq gətirdi: Lissabon zirvə görüşünün qəbul etdiyi qərarlar nə üçün yerinə yetirilmir?

Ermənistan prezidenti iddia edirdi ki, Minsk qrupunun həmsədrləri yeni təklif – ümumi dövlət formulu təklif ediblər, Azərbaycan bunu qəbul etmir. Əgər həmin sual olmasaydı, bəlkə də mən ona cavab verməyəcəkdim. Ancaq bu sual mənə imkan verdi ki, Lissabon zirvə görüşündən sonra gedən prosesləri deyim. Siz oxumusunuz. Mən bildirdim ki, 1997-ci ildə Minsk qrupunun həmsədrləri bir təklif – məsələnin paket həlli təklifini verdilər, Ermənistan imtina etdi. İkinci təklif – məsələnin mərhələ-mərhələ həll olunması təklifini verdilər, Ermənistan imtina etdi. Amma biz bu təkliflərin ikisini də qəbul etdik. Ondan sonra isə 1998-ci ilin əvvəlində Ermənistanda hakimiyyət dəyişikliyi oldu. Həmin hakimiyyət dəyişikliyindən sonra, demək olar ki, Minsk qrupu elə bir fəaliyyət göstərə bilmədi. Nəhayət, 1998-ci ilin sonunda ümumi dövlət formulunu irəli sürdülər. Hamı üçün məlum oldu ki, Minsk

qrupu həmsədrlərinin təklifini kim qəbul edir, kim qəbul etmir. Hətta mən sonra dedim ki, beləliklə, hesab iki bir Azərbaycanın xeyrinədir.

Mən bunu niyə deyirəm? Ona görə ki, bizim həmin o gənc, o oğlan bu cür ağıllı, düşünülmüş sualı verməsəydi, orada bu məsələnin açılması bəlkə də mümkün olmayacaqdı. Çünki biz suallara cavab verirdik, tarixi danışmırdıq. Ona görə də tarixi açmaq üçün, ayrı-ayrı fikirləri demək üçün sual lazım idi.

Beləliklə, indi bizim gənclərimiz təkcə Azərbaycanda yox, müxtəlif dilləri mənimsəyərək bir çox ölkələrdə, xüsusən Avropa ölkələrində təhsil alırlar və öz yüksək səviyyələrini göstərirlər. Ona görə də baxın, qısa bir zamanda Azərbaycan gəncliyi nə qədər inkişaf edibdir. Bunları deyərkən siz düşünəcəksiniz ki, mən Azərbaycan gəncliyini ancaq tərif edirəm. Gənclik tərifə layiqdir. Amma eyni zamanda bu tərif hər bir gəncin qarşısında böyük vəzifələr qoyur. O da ondan ibarətdir ki, hər bir gənc, bax, bu səviyyəyə çatmalıdır. Hər bir gənc əsaslı təhsil almalıdır. Hər bir gənc müasir həyatın tələblərini mənimsəməlidir. Hər bir gənc müasir həyatda iqtisadiyyat, siyasət sahələrində, sosial sahədə bütün yenilikləri, dünyada gedən prosesləri bilməlidir. Onda Azərbaycan xalqı daha da yüksələcək və on ildən, on beş ildən sonra siz, Azərbaycan gəncləri ölkəni idarə edəndə bu sizin üçün daha da asan olacaqdır.

Mən bu mövzuya bir də qayıdıram. Ölkəmizdə son on il çox ağır, çətin illər olubdur. Birincisi, Ermənistan–Azərbaycan münaqişəsi, müharibə. Əfsuslar olsun ki, müəyyən səbəblərdən Azərbaycanın torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. Bu müharibə Azərbaycan xalqına böyük itkilər gətiribdir, qanlar tökülübdür, xalqımız şəhidlər veribdir, müharibə əlilləri vardır. Bunlar hamısı xalqımıza vurulan zərbədir. Ancaq belə bir müharibənin davam etməsinin həm Azərbaycan üçün, həm də Ermənistan üçün

daha böyük faciələrə gətirəcəyini düşünərək, 1994-cü ildə biz atəşin dayandırılması haqqında saziş imzaladıq. Altı ildir ki, müharibə yoxdur. İndi bəziləri bizim bu hərəkətimizi düzgün başa düşmürlər, yaxud da tənqid etməyə cəhd göstərirlər. Amma bu, əhəmiyyətsiz şeydir.

Altı ildir bizim xalqımız rahat şəraitdə yaşayır. Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, amma müharibə yoxdur, qan tökülmür, şəhidlər yoxdur. Əgər müharibə davam etsəydi, indi gənclərin bir qismi burada yox idi. Əgər müharibə davam etsəydi, gənclərimiz bu cür inkişaf edə bilməyəcəkdi. Əgər müharibə davam etsəydi, gənclərimiz, xalqımız bu son illərdə əldə etdiyi nailiyyətləri qazana bilməyəcəkdi.

Atəşkəs ona görə deyil ki, biz müharibəni apara bilmirdik. Bəli, bəzi səbəblərdən Ermənistan silahlı qüvvələri üstünlük əldə etmişdi. Ancaq müharibə nə qədər çox getsəydi, o qədər də itkilər olacaqdı və məsələnin həlli də çox mürəkkəbləşmişdi. Ona görə də biz atəşkəs haqqında sazişi imzaladıq. Azərbaycanın son 5–6 ildə bütün sahələrdə əldə etdiyi nailiyyətlər yalnız atəşkəs rejimi şəraitində ola bilərdi. Əgər bu olmasaydı, biz bütün bu gördüyümüz işləri görə bilməyəcəkdik.

Biz o zaman atəşi dayandıranda Azərbaycanda ağır sosial-iqtisadi vəziyyət var idi. Bilirsiniz ki, ondan əvvəlki illərdə Azərbaycanda sabitlik yox idi, müxtəlif dəstələr, qüvvələr, qanunsuz silahlı dəstələr hakimiyyət uğrunda mübarizə aparırdılar. 1993-cü ildə vətəndaş müharibəsi başlandı. Biz bunların qarşısını aldıq.

1994-cü ildə yenidən dövlət çevrilişi cəhdi oldu. Xalqımız bunun qarşısını aldı. 1995-ci ildə silahlı dövlət çevrilişi cəhdi oldu. Bunun da qarşısını aldıq. Ondan sonra ölkənin daxilində hakimiyyət uğrunda mübarizə aparan insanlar bir neçə terror aktlarına əl atdılar. Onların da qarşısını aldıq. Nəhayət, ictimai-siyasi sabitliyi təmin etdik. Siz bunu bilməlisiniz və nəinki bilməlisiniz, bu, təbliğ olunmalıdır. Gənclər bilməli-

dir ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən böyük tarixi hadisədir. Ancaq dövlət müstəqilliyini qorumaq, saxlamaq, müstəqil dövləti inkişaf etdirmək ondan da çətin məsələdir və onsuz dövlət müstəqilliyinin əhəmiyyəti ola bilməzdi. Çünki həmin o illərdə – daxili çəkişmələr dövründə Azərbaycanın dövlət müstəqilliyi dəfələrlə təhlükə altında olmuşdu. Xalq çox ağır vəziyyətdə yaşayırdı. Sosial-iqtisadi vəziyyət həddindən artıq pis idi.

Məsələn, mən burada nə üçün rəqəmlər gətirdim? Ali məktəblərdə 1994-cü ilə nisbətən 2000-ci ildə 200 mindən artıq tələbə oxuyur. Çünki ictimai-siyasi sabitlik təmin olunub, iqtisadiyyatın inkişafı təmin edilibdir. Çünki insanlar rahat yaşayırlar. Təbiidir, problemlər də çoxdur, sosial-iqtisadi problemlər çoxdur. Bazar iqtisadiyyatına keçid heç bir ölkədə asan olmayıbdır.

Dünən və ondan bir gün əvvəl Moskva televiziyası ilə Rusiyanın birinci prezidenti Boris Yeltsinin 70 illiyi münasibətilə hazırlanmış filmlərə baxırdım. SSRİ dağılandan sonra müstəqillik əldə etmiş ölkələr içərisində Rusiya kimi qüdrətli dövlət olmadı. Rusiyanın iqtisadi potensialı və imkanları məlumdur, demək olar ki, SSRİ-nin bütün varidatının, hərbi qüvvələrinin 90 faizi Rusiyanın əlində qaldı. Ancaq Rusiya demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə getdi. Bu yol öz-özlüyündə çətin idi. Amma bununla bərabər, buraxılan səhvlər də nə qədər böyük çətinliklərə gətirdi? Bəzi televiziya kadrlarına baxırdım. Boris Yeltsin özü istefa vermək haqqında çıxış edərkən üzr istədi ki, istənilənlərə nail ola bilmədik.

Bazar iqtisadiyyatına keçid heç yerdə asan olmayıbdır. Bizdə də asan getmir, çətinliklər var. Bundan sonra da olacaqdır. Ancaq bu çətinliklərin içərisində biz 1995-ci ildən etibarən ardıcıl olaraq iqtisadiyyatın inkişafını təmin edə bilmişik.

Sizə deyə bilərəm ki, son illərdə müstəqil dövlətlər içərisində Azərbaycanın sosial-iqtisadi inkişafının sürəti hamısından yüksəkdir. Təsəvvür edin, əgər 1990–93-cü illərdə, hətta 1994-cü ildə iqtisadiyyat tənəzzülə doğru gedirdisə, 1995-ci ildə biz bunun qarşısını almağa nail olduq və tədricən inkişafı təmin etdik.

Bunun nəticəsində, ötən ilin göstəriciləri, məsələn, ümumi daxili məhsulun həcmi 11,4 faiz artıbdır. Bu çox yüksək artımdır. Sənaye məhsulunun həcmi 6,9 faiz, demək olar ki, 7 faiz artıbdır. Kənd təsərrüfatı məhsullarının həcmi 12 faiz, nəqliyyatda yük dövriyyəsi təxminən 10 faiz çoxalıbdır. Xarici ticarətin dövriyyəsi 75,4 faiz artıbdır. Burada ən önəmli cəhət ondan ibarətdir ki, ixrac olunan malların həcmi 2,7 dəfə, idxal isə cəmisi 13 faiz çoxalıbdır. Deməli, Azərbaycan öz məhsullarının istehsalını təmin etmiş və onu ixrac edərək, idxal-ixracda böyük fərqlə müsbət saldo əldə etmişdir.

Adambaşına düşən gəlir 10,2 faiz, orta aylıq əmək haqqı 15 faiz artmışdır. İstehlak qiymətlərinin indeksləşdirilməsi nəzərə alınmaqla, inflyasiya yox dərəcəsindədir – 1,8 faizdir. Bu çoxdur, yoxsa azdır? Əgər bu artımları başqa respublikaların göstəriciləri ilə müqayisə etsək, çoxdur. Ötən illərlə müqayisə etsək, həddindən artıq çoxdur. Amma bu bizim bugünkü tələblərimizi təmin etmir. Lakin buna nail olmaq asan bir məsələ deyildir.

Bilirsinizmi, indi bəzi qüvvələr Azərbaycanda gedən bütün bu islahatları, əldə olunan bütün nailiyyətləri inkar etməyə, xalqa yalan məlumatlar verməyə çalışırlar, yalan sözlər deyirlər. Ölkəmizdə mətbuat azaddır. Biz azadlıq vermişik ki, kim nə demək istəyirsə, qoy desin. Ancaq yalan danışmaqdan, xalqı aldatmaqdan böyük cinayət, böyük günah yoxdur.

Dünyanın ən mötəbər maliyyə mərkəzləri olan Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun nümayəndələri son günlərdə Azərbaycana gəlmişdilər. Onlar burada bir neçə

gün oldular, bizim müvafiq təşkilatlarla işlədilər. Mən hər iki nümayəndə heyətini qəbul etdim. Bunu televiziya ilə də veriblər, bu barədə mətbuat da yazmışdır. Dünya Bankının da, Beynəlxalq Valyuta Fondunun da nümayəndələri etiraf edirlər ki, Azərbaycanda makroiqtisadi artım çox böyükdür və Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr içərisində, demək olar ki, ön cərgədədir. Amma yenə də deyirəm, mən hesab edirəm ki, əhalinin bütün tələbatı ödənməlidir. Hesab edirəm ki, məsələn, işsiz adamlar işlə təmin olunmalıdır. Hesab edirəm ki, ölkəmizdə yoxsul adam olmamalıdır. Mən bunları çox vacib hesab edirəm və bunun üçün çalışıram.

Biz lazımi tədbirlər görürük. Ancaq bunu imkanlarımız çərçivəsində edirik. Amma əgər bizdə ictimai-siyasi sabitlik olmasaydı, qanun-qayda yaranmasaydı, bütün islahatları – iqtisadi islahatları həyata keçirməsəydik, nəinki belə göstəricilər əldə edə bilməzdik, hətta göstəricilərimiz yenə də ilbəil aşağı düşəcəkdi.

İndi biz böyük proqramlar üzərində işləyirik. Yoxsulluğun ləğv olunması strategiyası haqqında proqram hazırlanır. Təbiidir ki, qısa müddətdə buna nail olmaq mümkün deyildir. Ancaq biz strategiyamızı, strateji xəttimizi hazırlayırıq və bunun ardıcıl surətdə həyata keçirilməsini təmin edəcəyik.

Özəlləşdirmə prosesi davam edir. Bu proses yeni-yeni müəssisələrin, özəl sektorun inkişafını təmin edəcəkdir ki, bu da işsizliyi qismən aradan qaldıracaq, Azərbaycanın iqtisadiyyatının inkişafını təmin edəcəkdir. Bunların hamısı Azərbaycanın bugünkü həyatının göstəricilərini əks etdirən faktlardır, rəqəmlərdir. Siz bütün bunları – Azərbaycan dövlətinin həm xarici siyasətini, həm daxili siyasətini, dövlət quruculuğu prosesini, həm də ki, bizim nöqsanlarımızı, çatışmazlıqları və onların səbəblərini bilməlisiniz.

Siz bunu bilməlisiniz. Bunu təkcə siz yox, Azərbaycanın bütün vətəndaşları, amma ilk növbədə gənclər bilməlidirlər.

Çünki siz də tədricən böyüdükcə, əmək fəaliyyətinə başlayarkən bu vəzifələrin yerinə yetirilməsində fəal iştirak edəcəksiniz və etməlisiniz.

Bizim hamımızı narahat edən, ölkəmizin iqtisadiyyatının daha da sürətlə inkişafına mane olan ən böyük amil Ermənistan–Azərbaycan münaqişəsinin mövcudluğudur və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması, bir milyondan artıq vətəndaşımızın didərgin düşməsi, onların əksəriyyətinin çadırlarda yaşamasıdır. Biz bu məsələnin sülh yolu ilə həll edilməsinə çalışırıq. Doğrudur, bəziləri deyirlər ki, çox vaxt – bir, iki, üç, dörd, beş, altı il keçdi ancaq mən hesab edirəm ki, biz bu məsələnin sülh yolu ilə həll olunmasına bu gün də, sabah da çalışmalıyıq. Biz bunu bu yolla da həll edə bilərik və həll edəcəyik. Bizim güclü ordumuz – Azərbaycanı qorumağa, ölkəmizin torpaqlarını müdafiə etməyə qadir olan güclü ordumuz vardır.

Burada nitq söyləyən ordu nümayəndəsi açıq dedi ki, biz Azərbaycan torpaqlarını istənilən zaman azad etmək üçün döyüşə qalxmağa hazırıq. Məni çox sevindirdi ki, sizin hamınız onun bu sözlərini alqışladınız. Ancaq bunun üçün zaman, vaxt lazımdır. Bu indi lazımdır, yoxsa başqa vaxtda? Həyatdan xəbəri olmayan, populist fikirlərlə yaşayan kimlərsə deyirlər ki, gedək vuruşaq, döyüşək, nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edək. Bəli, bu yol mümkündür. Ancaq bunun Azərbaycan üçün nə qədər böyük itkiləri olacaqdır. Ölkəmizin iqtisadiyyatına, sosial iqtisadi vəziyyətinə bunun nə qədər böyük zərbələr vuracağını dərk etmək lazımdır. Biz bunu dərk edir, bilirik. Ona görə də biz məsələni sülh yolu ilə həll etmək istəyirik.

Dünyada gedən proseslərə fikir vermək lazımdır. İndi heç bir ölkə müharibəni başlayan dövləti dəstəkləməyəcək, onu bəyənməyəcək, müdafiə etməyəcəkdir. Ona görə də düşünmək

lazımdır. Biz müharibəni başlayıb beynəlxalq aləmdə hansı imicə nail olacağıq? Onu da nəzərə alaq ki, dünyada, beynəlxalq təşkilatlarda hələ də ikili standartlar mövcuddur. Mən Avropa Şurasının Parlament Assambleyasının tribunasından bunu cəsarətlə bəyan etdim və bu bir çox ölkələrə, beynəlxalq təşkilatlara ittihamdır. Çünki mən Azərbaycan dövlətinin fikrini bildirirəm ki, beynəlxalq təşkilatlarda ikili standartlar vardır. Hansısa ölkəyə bir, digərinə isə başqa münasibət göstərilir. Bu ədalətlidirmi? Mən bunu dəfələrlə demişəm, əgər ədalət olsaydı, nə üçün Avropa Şurasına qəbul vaxtı Ermənistana o qədər maneələr törədilmirdi, Azərbaycana törədilirdi?

Buraya gələn nümayəndələrə mən bunu dəfələrlə demişəm ki, siz insan hüquqlarının qorunması ilə məşğulsunuz. Haradasa bir insanın hüququ pozulubdursa, ondan ötrü hay-küy qaldırırsınız, qaldırın. Ancaq bir milyon insanın hüquqları pozulubdur, onlar yerlərindən-yurdlarından didərgin düşüblər, Ermənistan işğalçıdır, Azərbaycanın torpaqlarını işğal edibdir, amma siz onları ittiham etmirsiniz. Nəinki ittiham etmirsiniz, hətta onlara beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurasında Azərbaycana nisbətən üstünlük verməyə çalışırsınız və üstünlük də verirsiniz. Budur, ikili standart. Mən bunu bütün dünyaya bəyan etmişəm, heç kəsdən də çəkinmirəm, qorxmuram. Çünki mən həqiqəti deyirəm.

Onu bilin, əgər Azərbaycan Ermənistanın kiçik bir torpağını, azacıq ərazisini işğal etmiş olsaydı, indi Azərbaycanın başına nə işlər gələrdi? Mən orada, Avropa Şurasının Parlament Assambleyasında çıxış edəndən sonra bəzi deputatlar gəlib bizim nümayəndələrlə danışaraq demişdilər ki, Heydər Əliyev çox sərt çıxış etdi. Hətta mətbuat konfransında müxbirlərdən biri – gərək ki, o, erməni idi – Ermənistan prezidentinə sual verdi ki, əgər siz sülh danışıqları aparırsınızsa, əgər siz bir-birinizlə görüşürsünüzsə, Azərbaycan prezidenti

Heydər Əliyevin belə sərt çıxışını necə qiymətləndirmək olar? O bu suala belə cavab verdi ki, mən istəmədim bunları deyim, mən istəyirəm ki, ziddiyyətlər artmasın.

Amma heç kəs məni ittiham edə bilməz. Əgər mən o sözləri Avropa Şurasının tribunasından deməsəydim, xalqımın qarşısına çıxa bilməzdim.

Baxmayaraq ki, biz sülh danışıqları aparırıq, baxmayaraq ki, Avropa Şurasının üzvüyük, mən bütün həqiqəti dedim. Yenə də təkrar edirəm, orada mən dedim ki, Ermənistanın ərazisinin bir metri də işğal olunmayıbdır, ancaq Azərbaycan ərazisinin 20 faizi işğal altındadır, siz də buna fikir vermirsiniz, belə bir vəziyyətdir, belə bir şəraitdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan özünün düşünülmüş, ardıcıl xarici siyasəti ilə və apardığı işlərlə birincisi, dünya miqyasında öz yerini tutubdur, hörmət qazanıbdır. İkincisi də, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına şərait yaranıbdır və buna mənim inamım vardır.

Son günlər bizim cəmiyyətimizi, Azərbaycanı, bizim dost, qardaş Türkiyəni çox narahat edən hadisələr baş verir. Fransanın parlamentində Türkiyənin guya 1915-ci ildə ermənilərə qarşı «soyqırımı» etməsi haqqında qərar qəbul olunubdur. Bir neçə ay bundan öncə Amerika Birləşmiş Ştatlarının Konqresində belə bir qərar müzakirə olunurdu. Müzakirə onu göstərirdi ki, ermənipərəst konqresmenlər bu qərarın qəbul edilməsinə nail ola biləcəklər. Ancaq seçkilər ortaya düşdü və ABŞ-ın rəhbərliyi bu məsələni təxirə sala bildi. İndi bilmirəm, bunun qarşısını tamamilə alıblar, yoxsa yox. Ancaq təxirə salıblar.

İtaliyanın parlamenti də «erməni soyqırımı» haqqında belə bir qərar qəbul edibdir. Bu proseslər başlayarkən biz Azərbaycan dövlətinin mövqeyini açıq-aydın bildirmişik. Hələ iki il bundan öncə Fransa parlamentinin aşağı palatası belə bir qərar qəbul etmişdi. Ancaq Senat onu qəbul etməmişdi. Ona

görə də həmin qərar qüvvəsiz qaldı. Lakin bu dəfə Senat bu qərarı qəbul edibdir. Deməli, bu, son qərardır. Hələ Senatda müzakirə gedən zaman Azərbaycan buna öz kəskin etirazını bildirmişdir. Azərbaycan prezidenti kimi, mən dəfələrlə etiraz edərək bildirmişdim ki, birincisi, bu, tarixi həqiqətdən uzaqdır, ikincisi də, belə qərarın çıxarılmasına Fransa parlamentinin haqqı yoxdur. Təbiidir ki, qardaş, dost Türkiyəni biz həmişə dəstəkləmişik, bu dövrdə də dəstəklədik. Mən bəyanatlar verdim, Türkiyənin prezidenti ilə, Baş naziri ilə telefon danışıqları apardım.

Nəhayət, mən Fransaya rəsmi səfərə getmişdim. Bilirsiniz ki, Fransanın prezidenti Jak Şirak bir neçə ay bundan öncə məni öz ölkəsinə səfərə dəvət etmişdi. Ancaq sonra Azərbaycanın Avropa Şurasına qəbul olunması ilə əlaqədar vaxt müəyyən edildikdən sonra biz belə razılığa gəldik ki, mən Fransaya iki dəfə getməyim, Avropa Şurasının iclasından əvvəl Parisə rəsmi səfər edim, ondan sonra isə Avropa Şurasında olum.

Prezident Jak Şirak da belə təklif irəli sürdü ki, orada – Parisdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərini təşkil etsin və Minsk qrupunun həmsədri kimi, məsələnin sülh yolu ilə həll olunması sahəsində öz səylərini göstərsin. Mən yanvar ayının 24-də Fransada rəsmi səfərdə idim. Orada səhərdən görüşlərim başlandı. Prezident Jak Şirakla çox ətraflı danışıqlar apardım. Danışıqlarımızın əksər hissəsi Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar idi. Mən ona bu barədə çoxlu yeni məlumatlar verdim. Ancaq mən onunla söhbət edərkən açıq bildirdim ki, biz – ölkəmizin ictimaiyyəti, Azərbaycan dövləti Fransa Senatının elə bir qərar çıxarmasından çox narahatdır, biz buna etiraz edirik və mən anlamıram ki, siz bunu nə üçün etmisiniz? Ümidvar olduğumu bildirmək istəyirəm ki, Siz prezident kimi, bunun qarşısını almalısınız və təsdiq etməməlisiniz.

Mən bunların hamısını açıq şəkildə dedim. Bir var ki, qəzetdə bəyanat verəsən, ya da gedib öz Milli Məclisində danışasan, bir də var ki, Senatı qərar qəbul edən ölkənin başçısı ilə üzbəüz duraraq ona öz etirazını, öz iradlarını bildirəsən. Budur mənim mövqeyim. O mənə izahat verdi. Doğrudur, bu bizim təkbətək danışığımızda olan şeydir, bəlkə də mən bunu açmamalıyam. Ancaq sonra özü mətbuat konfransında müəyyən məqamlara toxundu. O dedi ki, prezident kimi mən və Fransanın Baş naziri Lionel Jospen bunun əleyhinəyik. Biz bu qərarın qəbul olunmaması üçün çalışmışıq. Lakin bir şey edə bilməmişik. Dedi ki, bu bizim daxili siyasi vəziyyətimizlə əlaqədardır. Fransada təxminən 500–600 min erməni yaşayır. Onlar da orada, çox yerlərdə təsir gücünə malikdirlər. Onlar seçicidirlər. Demokratiyaya görə, demək olar ki, hər il Fransada ya bələdiyyə seçkisi, ya kanton seçkisi, ya parlament, ya da prezident seçkisi keçirilir. Ona görə də seçilmək istəyən hər bir adam özünə səs toplamaq istəyir. Ermənilərin, erməni diasporunun da Fransada xeyli səsi vardır. Onlar bundan istifadə edərək senatorlara təsir edirlər.

Hətta mənə dedi ki, üç ay bundan öncə erməni diasporunun nümayəndələri Senatın qarşısında böyük bir çadır qurub gecə-gündüz orada otururdular. Senata gələn senatorları oraya dəvət edir, onlarla danışıqlar aparır, sözləşirdilər ki, onlara səs verəcəklər, nə bilim, nə edəcəklər. Yəni onlar həmin qərarın qəbul olunmasına səs versinlər.

Amma eyni zamanda, mənə onu da dedi ki, Fransada türklər də az deyildir. Ancaq onların tərəfindən belə hərəkətlər, təəssüf ki, biz görmürük. O bəyan etdi ki, mən Türkiyənin yaxın dostuyam, 20 il bundan öncə özümü Türkiyənin yaxın dostu kimi elan etmişəm və bu hisslərlə də yaşayıram. Ancaq həmin qərar Senatın işidir, mən özüm isə bunun əleyhinəyəm.

Sonra biz – həmin rəsmi ziyarətim zamanı – mətbuat nümayəndələrinin qarşısına çıxanda, mən ona demişdim ki, siz

jurnalistlərə bir şey deyin. Əvvəlcə o bildirdi ki, demək istəmir, ancaq sonra özü orada mətbuat nümayəndələrinə dedi. Yəqin ki, bu da bizim qəzetlərdə yazılıb, televiziyada verilibdir. Ona bu barədə sual verdilər. O dedi ki, prezident Heydər Əliyevin narahatçılığını və Azərbaycanda olan narazılığı və narahatçılığı mən bilirəm.

Onların buna haqqı var. Mən prezident Heydər Əliyevin hisslərini anlayıram. Ancaq bu, Senatın işidir və sair. Bunlar qəzetlərdə yazılıbdır.

Sonra mən Strasburqa getdim. Strasburqdan qayıdandan sonra biz – Ermənistan və Azərbaycan prezidentləri Parisdə təkbətək iki saat görüşdük. Daha sonra iki saatdan çox prezident Jak Şirak, mən və Ermənistan prezidenti danışıqlar apardıq. Bundan sonra isə o bizə ziyafət verdi və iki saat da ziyafət zamanı danışıqlar apardıq.

Mən buraya qayıdandan sonra eşitdim ki, artıq o qərar dövlət tərəfindən təsdiq edilibdir. Görünürdü ki, həmin qərar təsdiq olunacaqdır. Çünki onların qanununa görə prezident bunun qarşısını almaq imkanına malik deyildir. Bu barədə mən dünən Türkiyənin prezidenti cənab Əhməd Necdət Sezərlə də geniş danışdım, fikir mübadiləsi apardıq. Ondan əvvəl də bu məsələ ilə əlaqədar mən bir neçə dəfə Türkiyənin rəhbərləri ilə danışmışdım. Yəni bizim mövqeyimiz burada tam açıq-aydındır. Yenə də deyirəm, bu, Türkiyəyə qarşı ədalətsiz bir addımdır.

Mən hesab edirəm ki, 1915-ci ildə türklər ermənilərə qarşı soyqırımı etməyiblər. Hesab edirəm ki, əksinə, ermənilər türklərə qarşı bəzi günahlar ediblər. Mən bunu dəfələrlə demişəm. Bizim milli məclisimiz də hələ iki il bundan əvvəl bu məsələ qalxanda bəyanat vermişdi. İndi Milli Məclis yenə də müzakirə edibdir, bu gün qərar qəbul edəcək, bəyanat verəcəklər. Biz yenə də bu mövqedəyik.

Dünyada ədalətsiz qərarlar vardır. Onlardan biri də Fransa Senatının soyqırımı haqqında Türkiyəyə qarşı qəbul etdiyi bu qərardır. Mən Azərbaycan dövləti adından bir daha buna öz etirazımı bildirirəm, bu qərarı pisləyirəm və hesab edirəm ki, bu, Türkiyəyə qarşı, təkcə Türkiyəyə yox, Azərbaycana qarşı da olan ədalətsiz hərəkətdir.

Türkiyə hökuməti bu barədə müəyyən tədbirlər görür. İqtisadi əlaqələrin dayandırılması üçün müəyyən tədbirlər görür, sanksiyalar tətbiq edib və edəcəkdir. Biz bu məsələdə Türkiyə ilə daim bir yerdəyik.

Bizim ictimaiyyətdə, mətbuatda bu məsələyə göstərilən münasibət, yəni Fransanın ədalətsizliyi haqqında yazılar, çıxışlar, danışıqlar tamamilə əsaslıdır. Yenə deyirəm, buna Azərbaycan prezidenti kimi, ilk dəfə mən münasibətimi bildirmişəm. Amma eyni zamanda, reallığı da nəzərə almaq lazımdır.

Orada – Strasburqda mətbuat konfransında Ermənistan prezidentinə bu barədə sual verildi. O, təbiidir ki, özünün bildiyi kimi izahat verdi. Mənə sual verilməmişdi. Mən orada Fransa Senatının bu qərarına qəti etirazımı bildirdim. Mən etirazımı bildirəndən sonra Ermənistan prezidenti yenə söz aldı. Etirazım da ondan ibarət idi ki, 85 il bundan öncə soyqırımının olub-olmadığı məlum deyil, indi Fransa Senatının belə bir qərar qəbul etməsi ədalətsizlikdir. Türkiyə müstəqil dövlətdir. Başqa dövlət haqqında Fransanın belə qərar qəbul etməsi beynəlxalq hüquq normalarına uyğun deyil və Türkiyənin daxili işlərinə qarışmaqdır. Mənim bu sözlərimdən sonra Ermənistan prezidenti dedi ki, Avropa birdir, Avropa Şurası var, demokratiya var, buna görə də Fransa Senatının belə bir qərar qəbul etməsinin əsası vardır.

Mən yenə onun cavabını verdim. Dedim ki, birincisi, 85 il bundan öncə əgər belə bir şey olubsa, onda nə Avropa Şurası, nə də demokratiya vardı. Buna görə də 85 il bundan öncə olan hadisəni indiki dövrün şəraitinə uyğunlaşdırmaq olmaz.

Yəni mən hər yerdə öz münasibətimi bildirdim. Biz bundan sonra da buna etiraz edəcəyik. Mən hesab edirəm ki, Türkiyə qüdrətli dövlətdir, həmişə öz milli mənafelərini qoruyubdur və qoruyacaqdır.

Bu məsələ qalxanda Türkiyəyə belə tövsiyələr verilmişdi ki, Türkiyə Ermənistanla diplomatik əlaqələri qurmaq, sərhədləri açmaq üçün danışıqlar aparsın. Türkiyə hökuməti bu barədə mənim fikrimi soruşmuşdu. Onların nümayəndələri buraya gəlmişdi. Bunu siz mətbuatdan bilirsiniz. Mən onlara bildirdim ki, buna heç vaxt getmək olmaz.

Mən dünən prezident cənab Sezərə də bu barədə öz fikrimi bildirdim. Dedim ki, indi bu qanunsuz qərarın təsiri altında əgər Türkiyə Ermənistana qarşı öz münasibətini yumşaldarsa, bu, Türkiyəyə də xeyir gətirməyəcək və Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasına da kömək etməyəcəkdir. Mən hələ Fransaya getməmişdən əvvəl Türkiyənin Azərbaycana gəlmiş nümayəndəsinə bunu demişdim və dünən də prezident cənab Sezərlə danışanda bunu bildirdim.

Amma dünya siyasəti mürəkkəb bir şeydir. Dünya siyasətində siyasəti bilmək və bacarmaq lazımdır. Təəssüf olsun ki, Azərbaycanda, yenə də deyirəm, xalqımızın, millətimizin haqlı etirazı ilə bərabər, bəziləri də istəyirlər ki, bu hadisədən istifadə edib özləri üçün bir xeyir götürsünlər, yaxud hörmət qazansınlar. Məsələn, müxalifətdən olan deputatlar dünən Milli Məclisdə təklif ediblər ki, Azərbaycan Fransa ilə bütün əlaqələrini qırmalıdır, Fransa səfirliyini ölkəmizdən, Fransanı Minsk qrupunun həmsədrliyindən çıxarmalıdır və s.

Təbiidir, hər adam öz fikrini deyə bilər. Mən kiminsə hansısa fikri deməsinə etiraz etmirəm və edə də bilmərəm. Ancaq düşünmək lazımdır. Tutaq ki, biz bu gün Fransa ilə iqtisadi əlaqələri kəsdik, bununla Fransaya nə edəcəyik? Ötən ildə bizim ticarət əlaqələrimiz üzrə mal dövriyyəsi 289 milyon dollar məbləğində olubdur. Onun ixrac hissəsi, yəni bizim

Fransaya ixrac etdiyimiz malların dəyəri 222 milyon dollardır. Fransadan bizə gələn mallar isə qat-qat azdır. Əlaqəni qırdıq, 222 milyon dollarlıq mal satmışıq, bundan sonra sata bilməyəcəyik. Bununla biz nəyə nail olacağıq? Yəni bizim bu kiçik hərəkətimiz Fransanın Senatına təsir edəcək və ya orada dəyişiklik əmələ gətirəcəkdirmi? Bu barədə fikirləşmək, ağıllı hərəkət etmək lazımdır.

Yaxud bu gün mətbuatda görürəm ki, bəziləri, elə vaxtilə bu işlərlə məşğul olan adamlardan biri deyir ki, gərək Heydər Əliyev Parisə getməyəydi. O birisi deyir ki, Fransanı Minsk qrupunun həmsədrliyindən çıxarmaq lazımdır. Bunlar ağılsız fikirlərdir.

Birincisi, mən istəyirəm ki, ictimaiyyət bilsin, 1996-cı ildə ATƏT-in Lissabon sammiti keçəndən sonra Minsk qrupunun həmsədrliyində dəyişikliklər oldu. O vaxta qədər Minsk qrupunun iki həmsədri vardı – Rusiya və Finlandiya. Lissabon zirvə görüşündə Finlandiya həmsədrlikdən çıxdı. Biz təklif etdik ki, onun yerini Amerika Birləşmiş Ştatları tutsun. İnanırdıq ki, ABŞ bu sahədə təsirli tədbirlər görəcəkdir. Ermənistan və Rusiya buna etiraz etdi. Onlar Fransanı təklif etdilər. Biz isə Amerika Birləşmiş Ştatlarını təklif etdik.

Həmin vaxt – 1997-ci ilin yanvar ayında prezident Jak Şirak məni Fransaya rəsmi səfərə dəvət etmişdi. Bu məsələ həll olunurdu. O məni əvvəlcədən dəvət etmişdi və mən getməli idim. Oraya getdim, bir çox danışıqlar apardıq. Sonra, təsəvvür edin, Fransanın prezidenti mənə dedi ki, Siz nə üçün Minsk qrupuna bizim həmsədr olmağımızın əleyhinəsiniz? Ona dedim ki, mənim sizə böyük hörmətim var, Fransa dövlətinə hörmətimiz var. Amma burada erməni diasporu çox güclüdür, onların bəziləri dövlət strukturlarında çalışırlar. Ona görə də Fransanın həmsədrliyi bizim məsələmizin həll edilməsinə mane ola bilər. Mən bunu kənar yerdə yox, böyük bir ölkənin prezidenti, dünyada böyük ictimai-siyasi xadim

olan Jak Şiraka dedim. O isə mənə dedi ki, siz səhv edirsiniz, Ermənistanla bizim, həqiqətən, əlaqələrimiz yaxşıdır, ona görə də Ermənistana təsir etmək imkanımız başqa ölkələrdən daha da artıqdır. Amma buna baxmayaraq, mən Fransanın Minsk qrupuna həmsədrlik etməsinə etiraz etdim.

Amerika Birləşmiş Ştatları da söz vermişdi ki, onlar həmsədr olacaqlar. On gün ondan sonra bizə Amerika Birləşmiş Ştatlarından məlumat gəldi ki, Fransa ilə toqquşmaq istəmirik, ona görə də həmsədrlər iki yox, üç olsun – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Həqiqət bundan ibarətdir.

Ancaq bunu da deməliyəm ki, ondan sonra ötən üç ildə Minsk qrupunun həmsədri kimi, Fransa, xüsusən də bu ölkənin prezidenti Jak Şirak Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün çox səylər göstərmişdir. Başqalarına nisbətən bəlkə də daha çox səy göstərmişdir. Bunu mən bilirəm. Bəzən də sonralar mən utanırdım, onun üzünə demişdim ki, biz Fransanın həmsədr olmasını istəmirik.

Amma buna baxmayaraq, bizim aramızda çox yaxın dostluq əlaqələri yarandı. Fransa prezidenti çox təcrübəli adamdır. Dünyada böyük hörmətə malik insandır. 1997-ci ildə Minsk qrupunun həmsədrləri məsələnin paket həlli təklifini vermişdilər. Onu biz qəbul etdik, Ermənistan qəbul etmədi. İkinci təklif münaqişənin mərhələ-mərhələ həll olunması barədə idi. Ermənistan onu əvvəlcə qəbul etmədi. Bilirsiniz ki, sonra Ermənistanın o vaxtkı prezidenti Ter-Petrosyan buna razılıq verdi və prezident Jak Şirak 1998-ci il yanvar ayının əvvəlində mənə telefon etdi, dedi ki, Ter-Petrosyan burada idi. Biz onunla danışdıq, o bunu qəbul edir, bir həftəyə, on günə qəbul edəcəkdir və ondan sonra proses başlayacaqdır.

Amma bir həftədən sonra o mənə dedi ki, sənə telefon edəcəyəm. Bir həftədən sonra Ter-Petrosyanı elə buna görə istefa verməyə məcbur etdilər. Ondan sonra prezident Jak Şirakla yenə telefon əlaqəm oldu. Çox təəssüf edirdi ki,

məsələ artıq düzəlirdi və heç kəsdən asılı olmayaraq pozuldu. Baş verən proseslər belədir. İndi bizim üç həmsədrimiz vardır. Üçü də eyni şeyi deyir: «İki prezident danışsın, hansı qənaətə gəlsələr, biz onunla razıyıq. Biz sizin heç birinizə təsir etmək istəmirik». Amerika da bunu deyir, Rusiya da, Fransa da bunu deyir. Həqiqət bundan ibarətdir.

İndi mən sizə bu daxili proseslərin qısa bir parçasını, necə deyərlər, açıram ki, özlərini «qəhrəman» kimi göstərib bu gün Fransanı həmsədrlikdən çıxarmaq təklifini irəli sürən adamlar, heç olmasa anlasınlar. Bəzi müxalifət qəzetlərində bu fikri deyən 5–6 nəfər «ştatlı» adam var. Azərbaycanda 8 milyon əhali yaşayır, ziyalılar, alimlər, professorlar var. Onlar qalıb kənarda, 3–4 nəfər belə danışan adam ona sual verir, buna sual verir. Hamısı eyni şeyi deyir. Bu cür ağılsız hərəkətlər Azərbaycana heç vaxt xeyir gətirə bilməz. Fransa Senatının bu ölkənin həmsədrlik işinə qarışmaq imkanı yoxdur. Fransanın həmsədrliyini prezident Jak Şirak və onun nümayəndələri həyata keçirir. Yanvarın 24-də də və yanvarın 26-da da Parisdə üçümüzün bir yerdə görüşündən sonra mən hiss etdim ki, prezident Jak Şirak bu məsələnin ədalətli həll olunmasını həqiqətən səmimi olaraq istəyir.

Mən bunları sizə çatdırıram və güman edirəm ki, televiziya vasitəsilə ictimaiyyət də biləcəkdir. Bir də, güman edirəm, siz mənim dediyim bu sözlərdən başa düşəcəksiniz ki, xüsusən respublikamızın belə ağır vəziyyətdə olduğu zaman siyasət nə qədər çətindir, nə qədər ağırdır. Kimsə hesab edir ki, hansısa böyük dövlət Ermənistanı bizim torpaqlardan qeyd-şərtsiz çıxmağa məcbur etməlidir, o, düzgün fikirləşmir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu barədə dörd qətnaməsi vardır. Ermənistan bunu yerinə yetirmir. Mən Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatında – 2000-ci il sentyabrın 7-də mənim orada çıxışım olubdur, götürüb oxuyun – bunları demişəm.

Strasburqda da demişəm – Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi var. Ermənistan bunları yerinə yetirmir. Biz Birləşmiş Millətlər Təşkilatında bu barədə danışanda deyirlər ki, bunu icra etmək mexanizmimiz yoxdur. O birilərinə də deyirsən, çiyinlərini çəkirlər. Həmsədrlər açıqca deyirlər, Ermənistana təsir etsinlər ki, silahlı qüvvələrini işğal olunmuş Azərbaycan torpaqlarından, heç olmasa, Dağlıq Qarabağın ətrafında olan torpaqlardan çıxarsın. Onların heç biri bunu etmək istəmir. Belə olan şəraitdə, yenə də deyirəm, siyasətdə ayrı-ayrı diletant adamlar, Milli Məclisdə müxalifət nümayəndələri camaat arasında guya xal qazanmaq üçün deyirlər ki, gəlin, Fransanı həmsədrlikdən çıxaraq, Fransa ilə əlaqələri qıraq. Hamısını etmək olar, amma nə udacaqsan? Heç bir şey, amma çox şeyi uduzacaqsan!

Bütün bunları sizə və Azərbaycan ictimaiyyətinə çatdıraraq, mən istəmirəm ki, kimsə ümidsizliyə qapılsın. Yox. Bizim apardığımız işlər, danışıqlar çox az sürətlə də olsa, məsələni irəliyə aparır. Yəni məsələnin sülh yolu ilə həll olunmasını irəliyə aparır. Mən də gecə-gündüz bu işlə məşğulam, məşğul olacağam və inanıram ki, biz buna nail olacağıq.

Əziz dostlar!

Mən bu gün sizin başınızı bir çox mürəkkəb siyasi fikirlərlə doldurdum. Ancaq bu sizə lazımdır. Lazımdır ki, indi siz gənc vaxtlarınızdan düzgün düşünməyi, məsələləri düzgün təhlil etməyi bacarasınız, bu qabiliyyətləri özünüzdə yarada biləsiniz. Çünki bu olmasa, indiki dövrdə, Azərbaycanın müstəqilliyi dövründə böyük işlər görmək mümkün deyildir. Hələ ki, bizim nəslin təcrübələri vardır. Çalışın, bu təcrübələrdən istifadə edin. Çünki insan üçün göydən heç bir şey düşmür. İnsan üçün, birincisi, onun anadangəlmə istedadıdır, ikincisi, aldığı mükəmməl təhsil və cəmiyyətdə qazandığı təcrübədir, üçüncüsü, təcrübəli insanların, həyatı görmüş

insanların təcrübəsindən istifadə etməkdir. Mən arzu edərdim ki, siz bunları biləsiniz və bu yol ilə gedəsiniz.

Mən sizinlə bugünkü görüşümdən çox sevinc hissi keçirdiyimi bir daha bildirirəm. Bu sevinc hissi ilə də mən sizdən ayrılıram. Sağ olun.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli cənab Prezident!
Əziz dostum və qardaşım!

Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Avropanın bu mötəbər və nüfuzlu təşkilatına ölkəmizin daxil olması yolunda qardaş Türkiyənin dəstəyini yüksək qiymətləndirirəm. Əminəm ki, Avropa Şurası çərçivəsində əməkdaşlığımız ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı üçün daha geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 fevral 2001-ci il*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PETER STOYANOVA

Hörmətli cənab Prezident!

Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Ümidvaram ki, xalqlarımızın və ölkələrimizin rifahı naminə əməkdaşlığımız Avropa Şurası sıralarında uğurla davam edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 fevral 2001-ci il*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB BÜLƏND ECEVİTƏ

Hörmətli cənab Baş nazir!

Ölkəmizin Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Azərbaycanın Avropa Şurasına daxil olmasında qardaş Türkiyənin dəstəyini yüksək qiymətləndirirəm. Ümidvaram ki, Avropa Şurası sıralarında əməkdaşlığımız xalqımızın və ölkələrimizin rifahına yeni töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 fevral 2001-ci il*

TÜRKİYƏ RESPUBLİKASININ
XARİCİ İŞLƏR NAZİRİ
CƏNAB İSMAYIL CƏMƏ

Hörmətli cənab İsmayıl Cəm!

Ölkəmizin Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Əminəm ki, Avropa Şurası sıralarında əməkdaşlığımız xalqımızın və ölkəmizin rifahına xidmət etməkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 fevral 2001-ci il*

M. V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ CƏNAB VİKTOR SADOVNİÇİYƏ

Hörmətli Viktor Antonoviç!

Mənə «M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəxri professoru» adı verilməsi haqqında Moskva Dövlət Universiteti elmi şurasının qərarını dərin məmnunluq hissi ilə qarşıladım .

Təhsilin, elm və mədəniyyətin, xalqlarımız arasında dostluq münasibətlərinin inkişafı naminə fəaliyyətimi yüksək qiymətləndirdiyinizə görə sizə təşəkkür edirəm.

Rusiyanın qocaman ali məktəbi, dünya elm və təhsilinin mərkəzlərindən biri olan Moskva Dövlət Universitetinin Azərbaycan iqtisadiyyatının, təhsilinin, elm və mədəniyyətinin müxtəlif sahələrində uğurla çalışan yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına verdiyi töhfəni yüksək qiymətləndirirəm.

İnanıram ki, Moskva və Bakı universitetləri arasındakı çoxillik dostluq və əməkdaşlıq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə, Moskva Dövlət Universitetinin bütün professor-müəllim heyətinə və tələbələrinə səadət, firavanlıq və uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 fevral 2001-ci il*

BÖYÜK BRİTANİYANIN «KASPİAN» JURNALININ BAŞ REDAKTORU, AZƏRBAYCANIN DÖVLƏT KİTABININ NƏŞRİ LAYİHƏSİNİN ƏLAQƏLƏNDİRİCİSİ CEYMS MİLLERƏ MÜSAHİBƏ

Prezident sarayı

6 fevral 2001-ci il

C e y m s M i l l e r: Cənab Prezident, Siz öz fərmanınız ilə «Azərbaycan yeni minillikdə» adlı kitaba dövlət kitabı statusu vermisiniz. İndi biz həmin kitabın nəşr olunması üçün hazırlıq işləri aparırıq. Jurnalımızın redaksiya heyəti belə qərara alıbdır ki, Sizin yeni minillikdə Azərbaycan xalqına etdiyiniz müraciəti, çıxışınızı kitab şəklində çap etsin. Bundan əlavə, hesab edirik ki, bizim auditoriyamız, oxucularımız üçün Sizdən müsahibə almaq maraqlı və mühüm olardı. Oxucularımız indi Sizə ünvanlayacağımız suallara cavabınızla tanış olmaqla, Azərbaycanın inkişafına mane olan bir sıra köklü problemləri daha yaxından dərk etmək imkanı qazanacaqlar. Düşünürük ki, Azərbaycanın dövlət kitabını çap etməkdən və Sizinlə müsahibəni həmin kitabda dərc etməkdən əlavə, gələcəkdə bu kitabı bir sıra beynəlxalq informasiya agentliklərinə təqdim edək və o, bir sıra başqa beynəlxalq nəşrlərdə də çap olunsun. Ümidvarıq ki, biz gələcəkdə SNN televiziya kanalı vasitəsilə bu kitab barədə müəyyən verilişin hazırlanmasına da nail ola biləcəyik. Əminik ki, belə bir müsahibənin və kitabın nəşr olunması beynəlxalq aləmdə Azərbaycanın səsinin daha gur eşidilməsinə və Azərbaycan reallıq-

larının, həqiqətlərinin dünyaya çatdırılmasında rol oynaya bilər.

Heydər Əliyev (*Prezidentin İcra Aparatının şöbə müdiri Fatma Abdullazadəyə müraciətlə*): Azərbaycanın dövlət kitabını siz yazmırsınız?

Fatma Abdullazadə: Cənab Prezident, onu biz hazırlayırıq. Amma o, nəşrin əlaqələndiricisi kimi, Azərbaycanda çalışan şirkətlərlə görüş keçirib, onların fəaliyyətini kitab vasitəsilə işıqlandıracaqdır. Həmin kitab Sizin Azərbaycan xalqına müraciətinizlə açılacaqdır. Eyni zamanda indiki müsahibənin mətnini də kitaba daxil etmək istəyirlər. Onlar bu müsahibəni müxtəlif jurnallar vasitəsilə də yaymaq və SNN televiziya kanalında isə həm dövlət kitabı ilə bağlı, həm də bu müsahibə ilə bağlı veriliş hazırlamaq istəyirlər.

Heydər Əliyev: Mən bunları başa düşdüm. Bu, «Kaspian» jurnalında olacaq, yoxsa, ayrıca kitab olacaqdır?

Fatma Abdullazadə: Cənab Prezident, bu, ayrıca kitab olacaqdır və burada bir neçə istiqamətdə iş gedir. Bu istiqamətlərin birinə – Azərbaycan iqtisadiyyatı ilə bağlı istiqamətə məhz Ceyms başçılıq edir.

Ceyms Miller: Zati-aliləri, bu gün Sizinlə görüşməyi özümə böyük şərəf hesab edirəm. Çox gərgin iş cədvəlinizdən mənim üçün vaxt ayırdığınıza görə Sizə təşəkkürümü bildirirəm.

Mən nəşr etdiyimiz və Xəzər regionuna həsr olunmuş «Kaspian» jurnalının nüsxələrini Sizə gətirmişəm. İstəyirəm bunları təqdim edim ki, Siz tanış olasınız.

Bizim ən yeni nəşrlərimizdən biri də «Böyük İpək yolu – dünya» jurnalıdır. Nəşriyyatımızın buraxdığı digər bir qrup nəşrlər də Azərbaycan mədəniyyətinin təbliğ olunması ilə əlaqədardır. Biz bunları Azərbaycanın Londondakı mədəniyyət mərkəzində nümayiş etdiririk və Azərbaycan mədəniyyətinin dünyaya çatdırılmasına yardımçı oluruq.

Bu nəşrdə isə zati-alinizin Londona etdiyi rəsmi səfər öz əksini tapıbdır.

(*Ceyms Miller «Kaspian» jurnalını və digər nəşrləri prezident Heydər Əliyevə təqdim etdi*).

H e y d ə r Ə l i y e v: Bunu mənə göstərməyiblər.

C e y m s M i l l e r: Çox məmnunam ki, mən bunu özümlə gətirmişəm.

H e y d ə r Ə l i y e v: Bu, yəqin ki, yeni deyildir.

C e y m s M i l l e r: Cənab Prezident, doğru deyirsiniz, bu, yeni jurnal deyildir. Bu Sizin 1998-ci ildə Böyük Britaniyaya rəsmi səfəriniz, orada bu ölkənin kraliçasından tutmuş, dövlət, hökumət rəhbərləri ilə apardığınız danışıqları özündə əks etdirən fotoşəkillərdən və Sizin orada apardığınız işlərə həsr olunmuş materiallardan ibarətdir. Biz bu jurnalı Azərbaycanın Böyük Britaniyadakı, Londondakı mədəniyyət mərkəzində pulsuz yayırıq. Bu mədəniyyət mərkəzi Azərbaycan hökumətinin, Hava Yolları Dövlət Konserninin, bizim şirkətimizin köməyi ilə yaradılmış mərkəz olduğu üçün qəlbən mənə də çox yaxındır. İstəyirik ki, bu mərkəz vasitəsilə Azərbaycan mədəniyyətinə aid olan nailiyyətləri dünyaya nümayiş etdirək, bir də Sizin bu işlər üçün göstərdiyiniz fəaliyyəti işıqlandırmaq imkanı əldə edək.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Amma mən bunu indiyə qədər görməmişəm.

C e y m s M i l l e r: Cənab Prezident, dövlət kitabında Sizin müsahibənizi dərc etməyə imkan yaratdığınıza görə Sizə bir daha təşəkkürümü bildirirəm.

S u a l: Cənab Prezident, XX əsrin sonunda Azərbaycan xalqının arzuları çin oldu. Azərbaycan yeni əsrə müstəqil dövlət kimi qədəm qoydu. Siz ölkənizin rəhbərliyinə çox ağır bir dövrdə gəldiniz. O zaman Azərbaycan dərin siyasi və iqtisadi böhran içində idi. Ermənistanın Azərbaycana hərbi təcavüzü genişlənməkdə idi. Bilmək istərdim ki, o anlarda,

günlərdə Siz hansı hissləri yaşadınız? Azərbaycanda hərc-mərcliyi aradan qaldırmaq və daxili vəziyyəti sabitləşdirmək üçün atdığınız ilkin addımlar nədən ibarət oldu? Bir də ki, Azərbaycanın müstəqilliyinə qarşı olan təhlükələrin aradan qaldırılması vəzifəsinin öhdəsindən necə gələ bildiniz?

H e y d ə r Ə l i y e v: Mən əgər bu suallara cavab versəm, gərək biz üç saat burada oturaq. Çünki sizin suallarınıza baxmışam.

Bəli, XX əsrin sonu Azərbaycan xalqı üçün həm ağır dövr olubdur, həm də çox şərəfli bir dövr olubdur. Bütün bu ağırlıqlara, çətinliklərə, Azərbaycanın ağır dövrlər keçirməsinə baxmayaraq, Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi həm tarixi hadisə olmuşdur, həm də hər bir Azərbaycan vətəndaşı üçün, onun gələcəyi üçün böyük xoşbəxtlik təmin etmişdir. Ancaq çox təəssüflər ki, bu zaman, yəni Azərbaycan xalqı uzun illər həsrətində olduğu arzusuna çatdığı bir zaman, dövlət müstəqilliyini, milli azadlığı əldə etdiyi zaman Azərbaycanın həm daxilində vəziyyət mürəkkəb idi, həm də Ermənistan–Azərbaycan müharibəsi gedirdi.

Ümumiyyətlə, müharibə dövründə hər bir ölkədə xalq, millət, vətəndaşlar birləşib ümumi təhlükənin qarşısını almağa çalışırlar. Çox dəhşətlisi bundan ibarət idi ki, belə bir dövrdə birləşmək əvəzinə, birləşib Azərbaycan torpaqlarını qorumaq əvəzinə, milli birliyi təmin etmək əvəzinə, Azərbaycanda, bir tərəfdən, Ermənistanın işğalı, ikinci tərəfdən isə, daxili hakimiyyət uğrunda çəkişmələr, daxili gərginlik, müxtəlif qrupların mübarizəsi mövcud olmuşdur. Bu iki amil daha da çox mənfi təsir göstərmişdir. Yəni Azərbaycan Ermənistanın təcavüzünün qarşısını aldığı zaman cəhdlərini toplaya bilməmişdir. Məhz ona görə ki, Azərbaycanın hökuməti, dövləti xalqı öz vətənini, torpağını qorumaq üçün birləşdirə bilməmişdir. Azərbaycanda daxili birliyin, sabitliyin olmaması Ermənistan silahlı qüvvələrinin çox asanlıqla Azərbaycan torpaqlarını işğal etməsinə im-

kan yaratmışdır. Torpaqları, vətəni layiqincə müdafiə edə bilməyənlər isə bu fürsətdən, yəni müharibə fürsətindən istifadə edərək, ölkənin içərisində hakimiyyət mübarizəsi aparmışlar. Nəticə nə olmuşdur? Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, işğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılmışdır. Onlar uzun illərdir çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Azərbaycanda gedən hakimiyyət mübarizəsi isə daxili sabitliyi pozmuş və nəhayət, Azərbaycanı vətəndaş müharibəsinə gətirib çıxarmışdır. Bütün bunların nəticəsində Azərbaycan kimi bir dövlət tamamilə dağılmaq təhlükəsi qarşısında qalmışdı. Bax, o çətin, çox mürəkkəb bir dövrdə Azərbaycan xalqı məni Bakıya dəvət etmiş və mənə ölkəyə rəhbərlik etmək etimadı göstərmişdir.

Mən hansı hissləri keçirirdim? Təbiidir ki, vəziyyət çox gərgin və mürəkkəb idi. Belə bir məsuliyyətli, belə bir ağır dövrdə rəhbərliyi üzərimə götürmək çox çətin idi və mən bunu istəmirdim. Əgər onu da nəzərə alsaq ki, mən ondan əvvəlki illər böyük siyasətdən ayrılmışdım, yenidən böyük siyasətə qayıdıb ağır bir yükü öz üzərimə götürmək bir insan kimi, mənim üçün çox çətin idi. Ancaq doğma xalqımın dərdi, o vaxtkı fəlakətli vəziyyəti məni məcbur etdi ki, nə qədər ağır olsa da, nə qədər təhlükəli olsa da, bu məsuliyyəti üzərimə götürüm. İlk vaxtlar düşünürdüm ki, bəlkə də bu vəziyyətdən çıxmaq mümkün olmayacaqdır. Ancaq eyni zamanda bilirdim və bir neçə müddət işləyəndən sonra gördüm ki, xalqın potensialı böyükdür. Xalqı birləşdirib onu bir istiqamətə yönəldəndə, xalq doğrudan da ən ağır vəziyyətdən çıxa bilir. Mən də buna nail oldum.

Doğrudur, çox ağır, çətin illər yaşadım. Bu gün də çox rahat yaşamıram. Çünki hələ həll olunmamış məsələlər çoxdur. Xüsusən, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməyibdir. Bu torpaqlardan didərgin düşmüş insanlar öz

yerlərinə, yurdlarına qayıtmayıblar. Bir neçə iqtisadi problemlər də həll olunmayıbdır. Amma o vaxtlarla indini müqayisə edəndə, fərq ondan ibarətdir ki, 1995–96-cı illərdə biz Azərbaycanda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirə bildik, o hərc-mərcliyə, hakimiyyətsizliyə son qoyduq. Ağır problemlərimizə baxmayaraq, indi Azərbaycanda insanlar rahat yaşayırlar. Sabitliyi pozmağa cəhd göstərən adamlar bilirlər ki, bunun qarşısı alınacaqdır. Ona görə də mənim 1993-cü ildə keçirdiyim hissiyyatlarla indi keçirdiyim hissiyyatlar arasında böyük fərq var. O vaxt mən inanırdım ki, nəsə edə biləcəyik. Amma indi isə tam əminəm ki, nə lazımdır, edəcəyik.

S u a l: Cənab Prezident, XX əsrin sonu Azərbaycanla Ermənistan arasında sərt ziddiyyətlərin meydana çıxması ilə də müşahidə olundu. Siz bu münaqişənin dinc vasitələrlə həll olunması üçün təşəbbüs göstərmiş bir şəxssiniz. Ermənistan prezidenti Köçəryan ilə keçirdiyiniz birbaşa görüşlər, o cümlədən, bu yaxınlarda Əliyev–Köçəryan–Şirak üçtərəfli görüşü Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla, danışıqlar vasitəsilə həll olunmasını arzu edənlərə belə bir ümid verir ki, Ermənistanla Azərbaycan arasında daha dərin dialoq genişlənə bilər və bu münaqişənin dinc yollarla həlli mümkün ola bilər. Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, tənzimlənməsi üçün hansı addımlar atıla bilər və ümumiyyətlə, bu məsələnin dinc yolla həll edilməsinə baxışınız necədir?

C a v a b: Sizin sualınıza bir balaca düzəliş vermək istəyirəm. Siz XX əsrin sonunda Ermənistanla Azərbaycan arasında ziddiyyətlər dediniz, amma bu, düzgün ifadə deyildir. Ermənistan Azərbaycana qarşı torpaq iddiası ilə çıxış edib və buna nail olmaq üçün Azərbaycana qarşı hərbi təcavüzə başlayıbdır. Bunun nəticəsində müharibə başlanıbdır. Bizim ən böyük dərdimiz ondan ibarətdir ki, bu münaqişənin yaranma səbəbləri indiyə qədər dünya ictimaiyyətinin çox dairələrində düzgün qiymətləndirilmir.

Azərbaycan Ermənistana qarşı heç bir iddia etməyibdir. Baxmayaraq ki, tarixi nöqteyi-nəzərdən buna əsas var. Amma Ermənistan torpaq iddiası edibdir və buna nail olmaq üçün də müharibəyə başlayıbdır. Mən müharibənin nəticələri haqqında artıq sizə dedim. Ancaq mən həqiqətən, 1994-cü ildə belə fikrə gəldim ki, məsələni yalnız sülh yolu ilə həll etmək lazımdır. Ona görə də 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş imzalandı.

O vaxtdan indiyə qədər məsələnin sülh yolu ilə həll olunması üçün müxtəlif istiqamətlərdə iş aparılır. Burada Birləşmiş Millətlər Təşkilatı da, onun Təhlükəsizlik Şurası da var, ATƏT də, ATƏT-in Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün xüsusi yaratdığı Minsk qrupu da var, nəhayət, ATƏT-in zirvə görüşlərində – 1994-cü ildə Budapeştdə, 1996-cı ildə Lissabonda məsələlərin müzakirə edilməsi də vardır. Görürsünüz, biz müxtəlif yollardan nə qədər istifadə etmişik ki, məsələni sülh yolu ilə həll edək.

1997-ci ilin əvvəlində, ATƏT-in Lissabon zirvə görüşündən sonra Minsk qrupuna üç böyük dövlətin – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın həmsədrlik etməsi haqqında qərar qəbul olunanda, bizdə çox böyük ümidlər yarandı. O vaxta qədər bu məsələ ilə Rusiya, Finlandiya, İsveçrə məşğul olmuşdu. Ancaq üç böyük dövlət həmsədr olduqda, biz belə düşündük ki, onlar dünyadakı imkanlarından istifadə edib məsələnin sülh yolu ilə həllini təmin edəcəklər. Ancaq təəssüf ki, biz istənilən nəticəni almamışıq. Ona görə də Minsk qrupu həmsədrlərinin işi ilə paralel olaraq, Ermənistan–Azərbaycan prezidentlərinin də bilavasitə birbaşa görüşlərini keçirmək zərurəti meydana çıxmışdır. Biz bir neçə görüşlər keçirmişik və müxtəlif variantları müzakirə etmişik. Bunların hamısının əsasında duran prinsip ondan ibarətdir ki, hər iki tərəf

müəyyən kompromislərə getməlidir. Ancaq təəssüflər olsun, hələ ki, bu kompromisləri müəyyən etmək mümkün olmur.

Yanvarın 26-da Parisdə Fransa prezidenti Jak Şirakla bizim bu barədə üçtərəfli görüşümüz oldu. Biz buna bir neçə saat vaxt sərf etdik. Doğrudur, biz konkret bir nəticəyə gələ bilmədik. Amma hesab edirəm və Ermənistan prezidenti də hesab edir ki, biz bu danışıqlar vasitəsilə, çox az da olsa, irəliyə gedirik. Güman edirəm ki, bu cür danışıqlardan istifadə edərək, eyni zamanda, Minsk qrupu həmsədrlərinin daha da fəallaşmasını təmin edərək məsələnin sülh yolu ilə həllinə nail olacağıq.

S u a l: Cənab Prezident, Sizin şəxsi enerjiniz və siyasi duyumunuz son illər Azərbaycanın xarici siyasətdə əldə etdiyi tərəqqiyə istiqamət verən amillər olubdur. Hər bir dövlətin tarixində dönüş nöqtəsi olur. Azərbaycan üçün belə bir dönüş nöqtəsi ATƏT-in Lissabon sammiti oldu. Sizin fikrinizcə, Azərbaycan diplomatiyasının Lissabonda belə şəksiz uğur qazanmasının səbəbləri nə idi?

C a v a b: Həqiqətən, ATƏT 1992-ci ildən Ermənistan–Azərbaycan münaqişəsi ilə məşğul olur və bunun üçün Minsk qrupu yaradıbdır. 1992-ci ildən Lissabon sammitinə qədər bütün görüşlərdə, danışıqlarda heç bir nəticə əldə olunmamışdır. Lissabon sammiti ərəfəsində biz çox səmərəli iş gördük. O vaxt Minsk qrupunun həmsədrləri Rusiya və Finlandiya idi. Ermənistan və Azərbaycan nümayəndələri, həmsədrlər Finlandiyada görüşdülər və məsələnin həll olunmasına yol açan bir layihə hazırlanmışdı. Bu layihə Lissabon sammitinin yekun sənədinin layihəsində öz yerini tutmuşdu və əgər bu layihə qəbul olunsaydı, onda məsələnin sülh yolu ilə həll edilməsi üçün yol açılırdı.

Biz Lissabona gələn kimi, mən orada bir çox dövlət başçıları ilə görüşlər keçirdim, səmərəli danışıqlarımız oldu. Onlar bizim ədalətli təklifimizi, yəni layihədə öz əksini tapmış

təklifimizi dəstəkləyirdilər. Amma Ermənistan tamamilə bunun əleyhinə çıxdı. Bir çox ölkələr Ermənistana anlatmağa çalışdılar ki, bunun əleyhinə çıxmaq lazım deyil, bunu qəbul etmək lazımdır. Bilirsiniz ki, adətən, ATƏT-in sammiti üç ildən bir olur. Belə bir fürsətdən ATƏT-ə üzv olan dövlətlərin, dövlət başçılarının iştirak etdiyi bir zirvə görüşündəki fürsətdən istifadə etməmək bizim üçün bağışlanılmaz olardı. Ona görə mən bir çox dövlət başçıları ilə danışıqlar apardım ki, onlar Ermənistanı anlada bilsinlər. Ancaq onlar bunu edə bilmədilər. Onda mənim bir yolum var idi. Bu çox cəsarətli bir yol idi, bəlkə də təhlükəli yol idi. Ancaq bu yola getdim.

ATƏT-in sənədləri, adətən, konsensus əsasında qəbul olunur. Ermənistan bizim münaqişəyə aid olan maddəyə razılıq verməmişdi. Çox düşündüm, ölçdüm-biçdim və dedim ki, mən bütün yekun sənədə razılıq vermirəm. Beləliklə, sammitin yekun sənədini qəbul etmək mümkün olmadı. Ondan sonra bir çox dövlət başçıları yanıma gəlib məni inandırmaq istədilər ki, guya mən ATƏT-in zirvə görüşünü pozuram və zirvə görüşü heç bir sənəd qəbul etmədən dağılacaqdır. Mən bunu anlayırdım, onlara dedim ki, bunu anlayıram. Ancaq mənim çıxış yolum yox idi. Əgər mən 54 dövlətin iştirak etdiyi, toplaşdığı zirvə görüşündə ədaləti anlada bilmirəmsə, sübut edə bilmirəmsə, mənim başqa yolum yoxdur. Bu mənim haqqımdır.

Böyük dövlətlərdən birinin başçısı mənə izah etməyə başladı ki, Ermənistanın razılıq verməməyə haqqı var. Ona görə siz bu yoldan çəkinin ki, sənəd qəbul olunsun. Mən dedim ki, burada hər bir dövlətin haqqı eynidir. Sizinki də, mənimki də, Ermənistanınkı da. Mənim də razılıq verməməyə haqqım var. Mən də bütün sənədə razılıq vermirəm. Beləliklə, sənədin qəbul olunmasına imkan vermədim.

Belə bir mürəkkəb vəziyyətdə ATƏT-in dövlət başçıları məsləhətləşdilər və çıxış yolunu onda tapdılar ki, bizim tələblərin ödənilməsi üçün xüsusi bir bəyanat verildi. Bu bəyanat-

da bizim üçün çox vacib olan məsələ – Azərbaycanın ərazi bütövlüyünün tanınması əks olundu.

Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə hüququ verilməsi əks olundu. Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinin təmin olunması prinsipi əks olundu. 54 dövlətdən 53-ü bu bəyanata səs verdi. Bircə Ermənistan etiraz etdi. Ona görə də indi Ermənistanda Lissabon sammiti barədə eşidəndə çox hiddətlənirlər. Bu onlar üçün böyük bir yaradır.

Təəssüflər olsun ki, Azərbaycan cəmiyyətində də bunu başa düşmək istəməyən bəzi qüvvələr vardır. Amma bizim xalqımız bunu bəyəndi. Əgər o vaxt, ondan sonrakı dövrdə aparılan iş 1997-ci ildə Ermənistan tərəfindən pozulmasaydı, biz məsələnin sülh yolu ilə həllinə nail ola bilərdik. 1997-ci ilin sonunda Ermənistanın o vaxtkı prezidenti Levon Ter-Petrosyan, nəhayət, bu prinsiplərlə razı oldu. Amma ətrafındakılar onun əleyhinə çıxdılar və 1998-ci ilin yanvar ayında o, istefaya getməyə məcbur oldu.

S u a l: Sizin ölkəniz bu yaxınlarda Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi. Bu özlüyündə böyük nailiyyətdir. Eyni zamanda Avropa Şurasına üzvlük həm daxili siyasətdə, həm də xarici siyasətdə Azərbaycanın üzərinə bu mötəbər qurumun norma və prinsiplərinə əməl etmək kimi böyük vəzifələr qoyur.

Cənab Prezident, Siz Azərbaycan üçün yaranmış yeni imkanları necə qiymətləndirirsiniz və Azərbaycanda demokratik təsisatların inkişaf etdirilməsi üçün hansı addımları atmağı nəzərdə tutursunuz?

C a v a b: Birincisi, hesab edirəm ki, Azərbaycanın Avropa Şurasına daxil olması müstəqil Azərbaycan dövləti üçün və Azərbaycan xalqı üçün tarixi bir hadisədir. Son illərdə Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün, müxtəlif sahələrdə islahatlar aparılması üçün, insan haqlarının qorun-

masında bir çox qanunların qəbul olunması, onların həyata keçirilməsi üçün çox iş görülübdür.

Azərbaycanın Avropa Şurasına daxil olması bizim gördüyümüz işlərə, Azərbaycanın demokratiya yolu ilə getməsinə verilən yüksək qiymətdir. Amma məlumdur və bunu biz də bilirik ki, Avropa Şurasına daxil olmaq üçün bir çox şərtləri həyata keçirmək lazımdır və biz onları həyata keçirdik. Ancaq Avropa Şurasının üzvü kimi, hər bir başqa ölkənin, o cümlədən Azərbaycanın üzərinə daha başqa vəzifələr və böyük məsuliyyət düşür. Biz bu məsuliyyəti daşımağa hazırıq və Avropa Şurasının üzvü kimi, qarşımızda duran vəzifələrin yerinə yetirilməsinə qadirik.

S u a l: Son illər dünyada türkdilli ölkələrin xalqlarının öz milli şüurunu dərk etməsi, türkdilli dövlətlərin sıx birləşməsi artıq reallığa çevrilmişdir. Azərbaycan da bu prosesin fəal iştirakçılarından biridir. Sizin fikrinizcə, inkişaf etməkdə olan Azərbaycan kimi ölkələrə belə birliyin gücləndirilməsi nə vəd edə bilər?

C a v a b: Bilirsiniz, dünyada son onilliklərin tarixi bunu göstərir ki, təkcə türkdilli dövlətlər yox, dünyanın bir çox dövlətləri, xalqları müstəmləkəçilikdən azad olaraq, müstəqillik qazanaraq özlərinin milli şüurunu dərk etmək yolunu seçiblər.

1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı yarananda cəmi 50-yə yaxın üzvü var idi. İndi isə onun 200-ə qədər üzvü vardır. Deməli, ötən bu illərdə imperiyalar dağılıb, xalqlar müstəmləkəçilikdən azad olub, müstəqillik əldə ediblər. Bunların hamısı da milli şüurun inkişaf etməsinin həm nəticəsidir, həm də onun üçün daha da çox böyük imkanlar yaradır. Ona görə də bu təkcə türkdilli dövlətlərə aid deyildir.

Türkdilli dövlətlərin yaratdığı birliyin əsası ondan ibarətdir ki, bu dövlətlər, xalqlar tarixən bir kökə malikdirlər. Ancaq dünyanın imperiyalara bölünməsi və xüsusən, Sovet İttifaqı-

nın yaranması, bir çox türkdilli dövlətlərin bir-birindən təcrid olunması təbiidir ki, milli-mənəvi dəyərləri anlamaq, milli şüuru inkişaf etdirmək sahəsindəki imkanlardan onların istifadə etməsinə yol verməyibdir.

Bu xalqlar bir dilə mənsubdurlar, onların mənəvi dəyərləri, adət-ənənələri bir-birinə oxşardır. Həmin xalqlar uzun keçmişdə bir-biri ilə çox sıx əlaqədə olublar. Onların müştərək tarixi abidələri vardır. Məsələn, keçən il biz Azərbaycanın ən qədim tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini qeyd etdik. Amma «Kitabi-Dədə Qorqud» Azərbaycana necə məxsusdursa, eləcə də Türkiyəyə, Türkmənistana, Qazaxıstana məxsusdur. Hamı ona «Kitabi-Dədə Qorqud» deyir. Bax, bizim birliyimizin kökü budur.

Təbiidir ki, iqtisadi əlaqələri genişləndirmək və bu gün üçün çox yararlı olan qədim milli-mənəvi dəyərləri inkişaf etdirmək, onlardan daha da səmərəli istifadə etmək, mədəniyyət sahəsində əməkdaşlığı möhkəmləndirmək qarşıda duran ən mühüm vəzifələrdir. Çünki bu ölkələrin, xalqların birbirinə çox bənzər mədəniyyəti, tarixi vardır. Bu da bütün ölkələrin, xalqların xeyrinədir.

S u a l: Cənab Prezident, son illər Siz Qafqazda sülhün və sabitliyin bərqərar olunması üçün yeni təkliflər irəli sürmüsünüz. Bilmək istərdik ki, təklif etdiyiniz Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının, regional təhlükəsizlik konsepsiyasının hansı prinsiplərə söykənməsini istəyirsiniz?

C a v a b: Bilirsiniz, Qafqaz, xüsusən Cənubi Qafqaz çox mühüm bir regiondur. Məsələn, mən bu yaxınlarda Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması münasibətilə Strasburqda keçirilən mərasimdə çıxış edərkən dedim ki, Cənubi Qafqaza bütövlük və bitərəflilik statusu vermək lazımdır.

Mən 1999-cu ilin noyabrında ATƏT-in İstanbul zirvə görüşündə Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaranması haqqında təklif irəli sürmüşəm. Bu, bütün ölkələr, o

cümlədən Qafqaz üçün vacibdir. Güman edirəm ki, bu, yaxın gələcəkdə mümkün olacaqdır. Amma bunun əsasını indidən qoymaq lazımdır. Mən bunu deyəndə onu nəzərə alıram ki, Cənubi Qafqazda bütün münaqişələr aradan qaldırılmalıdır. Ermənistan–Azərbaycan münaqişəsi ləğv olunmalı və Ermənistan ilə Azərbaycan arasında sülh yaranmalıdır. Gürcüstanda olan münaqişəyə son qoyulmalıdır. Bunların hamısı mən dediyim həmin hədəflərə gəlib çatmağa imkan yaradacaqdır.

S u a l: Cənab Prezident, əvvəllər GUAM adlanan dövlətlərarası bir təşkilat formalaşdırıldı. Bilirik ki, bu da Sizin təşəbbüsünüzlə meydana gələn bir təşkilat oldu. Bu təşkilat sonrakı fəaliyyət dövründə həyat qabiliyyətinə malik və inkişaf etməkdə olan bir struktur kimi özünü göstərərək siyasi sərhədlərini sürətlə genişləndirməyə başladı. Sonradan buraya Özbəkistan da daxil oldu və bu təşkilat GUÖAM adlandırıldı. Bilmək istərdik ki, bu birliyin əsas məqsədləri, prinsipləri və istiqamətləri nədən ibarətdir?

C a v a b: Birincisi, bu təkcə mənim təşəbbüsümlə yaranan bir təşkilat deyildir. Bu, GUAM təşkilatını yaradan bütün ölkələrin prezidentlərinin hamısının birgə təşəbbüsü nəticəsində mümkün olmuşdur.

Bu təşkilatın yaranmasının əsasını təşkil edən odur ki, biz qədim İpək yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi ilə məşğul oluruq. Ona görə də Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova bu barədə eyni prinsiplərdən çıxış edirlər. Sonra da bu təşkilata qoşulmuş Özbəkistan da qədim İpək yolu üzərində olan bir ölkədir.

Bu ölkələrin hamısı coğrafi nöqteyi-nəzərdən bir region təşkil edir. Ona görə də biz bu ölkələrin bir-birilə daha da sıx əməkdaşlıq etməsi üçün bu təşkilatı yaratmışıq. Mən deyə bilmərəm ki, biz bu sahədə böyük nailiyyətlər əldə etmişik.

Ancaq bu təşkilat get-gedə daha da yaxşı formalaşır və ölkələrimizin əməkdaşlığı üçün bir çox yeni imkanlar açır.

S u a l: Sovetlər İttifaqı dağıldıqdan sonra Xəzər dənizi artıq iki dövlətin dənizi olmaq statusunu itirməyə başladı. Xəzər dənizi hövzəsində yaranmış yeni coğrafi-siyasi vəziyyət Xəzəryanı dövlətlərin hamısının – Azərbaycanın, Qazaxıstanın, Rusiyanın, Türkmənistanın, İranın nöqteyi-nəzərlərinin və maraqlarının birləşdirilməsi, nəzərə alınması üçün tamamilə yeni normativ aktların qəbul olunmasını tələb etdi. Biz görürük ki, ilk dəfə Azərbaycan tərəfindən irəli sürülmüş Xəzər dənizinin sektorlara bölünməsi prinsipi indi qələbə çalmaqdadır. Bilmək istərdik ki, Siz Xəzər dənizinin statusu ilə əlaqədar yaranmış bugünkü vəziyyəti necə qiymətləndirirsiniz?

C a v a b: Bəli, mən çox məmnunam ki, Azərbaycanın neft strategiyası ilə əlaqədar bizim 1994-cü ildə tutduğumuz yol, yəni Xəzər dənizindən istifadə etmək nöqteyi-nəzərindən mövqeyimiz Xəzəryanı başqa ölkələr tərəfindən də tanınır.

Sovet hakimiyyəti vaxtında Xəzər dənizi əsasən SSRİ-yə məxsus idi. İran Xəzər dənizinin cənubunda kiçik bir hissənin sahibi olubdur. Əgər keçmişə nəzər salsaq, İran bundan o qədər də istifadə etməyibdir. Onlar bu kiçik ərazidə yalnız balıqçılıqla məşğul olublar. Amma SSRİ isə hələ 50 il bundan əvvəl Xəzər dənizində suyun dərinliyindən neft çıxarılması ilə məşğul olurdu. Bunu da Azərbaycan edirdi.

Ondan sonrakı illərdə Azərbaycan alimləri, geoloqları Xəzər dənizinin müxtəlif sahələrində neft və qaz yataqlarını kəşf ediblər. Xəzər dənizinin mineral ehtiyatlarından istifadə etmək üçün Sovetlər İttifaqı zamanı Xəzər dənizi sektorlara bölünübdür. Bu da nisbi xarakter daşıyıbdır. Çünki Xəzər dənizində neft hasilatı ilə əsasən Azərbaycan məşğul olurdu. Rusiya bununla qəti məşğul olmurdu. Qazaxıstan da bununla məşğul olmurdu, Türkmənistan da çox az bir sahədə, sahildə neft hasilatı ilə məşğul idi.

Biz bu təcrübəyə və prinsipə əsaslanaraq, Xəzər dənizinin sektorlara bölünməsi prinsipini əsas götürüb Azərbaycana aid olan sektorda öz işimizi başladıq. Yəni bu bizim üçün yeni bir şey deyildir. Biz Azərbaycan sektorunda – Neft Daşlarında 50 il bundan öncə neft hasil edirdik. Yaxud başqa yerlərdə də, sahildən təxminən 100 kilometr uzaqda olan nöqtələrdə biz qaz və neft hasilatı ilə məşğul olmuşuq. Biz bu işimizi davam etdiririk. Ancaq fərq ondan ibarətdir ki, 1994-cü ildə biz bu işə dünyanın böyük neft şirkətlərini – həm Avropanın, həm də Amerika Birləşmiş Ştatlarının şirkətlərini cəlb etdik.

Ancaq o vaxtlar bizim gördüyümüz bu işlər bəzilərində etiraz doğurdu və Xəzərin statusunun müəyyən olunması məsələsi ortaya atıldı. Müxtəlif variantlar irəli sürülürdü. Biz isə yalnız və yalnız sektor prinsipini məqbul hesab edirdik. Nəhayət, bu prinsip Azərbaycan ilə yanaşı, başqa ölkələr – Rusiya, Qazaxıstan tərəfindən də tanınıbdır.

Güman edirəm ki, Türkmənistan da bu prinsipi tanıyacaqdır. İranın bu barədə iddiaları vardır. Biz belə qərara gəlmişik, Xəzəryanı ölkələrin dövlət başçıları mart ayında Aşqabadda görüşəcəklər. Yəqin ki, bu məsələnin müzakirəsinə başlayacağıq. Deməli, bizim tutduğumuz yol düz imiş.

S u a l: Rusiyanın prezidenti Vladimir Putin bu yaxınlarda Azərbaycana rəsmi səfər etmişdir. Kütləvi informasiya vasitələri bu səfərin nəticələrini çox yüksək qiymətləndirirlər. Sizcə Azərbaycan–Rusiya münasibətlərində mövcud olan bir sıra problemlərin həll edilməsi bu səfərdən sonra mümkündürmü? Bir də Azərbaycanın xarici siyasətinin üstün istiqamətlərində yeni təshihlər ediləcəkdirmi?

C a v a b: Bilirsinizmi, Rusiya Azərbaycanın böyük qonşusudur. Rusiya ilə Azərbaycan təxminən 200 ildir ki, bir-biri ilə əlaqə qurubdur. Rusiyada çoxlu azərbaycanlı yaşayır. Keçmişdə Azərbaycanın iqtisadiyyatı, xüsusən sənayesi Rusiya ilə çox bağlı olubdur. Respublikamızda istehsal olunan

kənd təsərrüfatı məhsullarının da əsas bazarını Rusiya təşkil edibdir. Ona görə də Azərbaycan müstəqil bir dövlət kimi, belə bir böyük qonşusu ilə gərək yaxşı münasibətdə olsun. Amma müxtəlif səbəblərə görə belə bir münasibət yaranmamışdır. Prezident Putinin Azərbaycana rəsmi səfəri belə münasibətlərin yaranması üçün çox yaxşı əsasdır.

Biz kiminləsə düşmənçilik edib, kiminləsə hərbi ittifaq yaratmaq istəmirik. Hətta müharibə vəziyyətində olduğumuz Ermənistanla da sülh yaratmaq istəyirik. Prezident Putinin Azərbaycana səfəri həm Rusiya, həm Azərbaycan üçün çox xeyirlidir.

S u a l: Cənab Prezident, Siz ilk dəfə Azərbaycanın rəhbərliyinə 30 il bundan öncə gəlmisiniz. O vaxtlar Siz keçmiş Sovet İttifaqı ölkələri, respublikaları arasında da Azərbaycanı öncül sıralara çıxarmısınız. Bu nailiyyətlərin əldə olunmasında Sizə nə kömək etdi?

Sizin o dövrdə gördüyünüz işlər barədə daha çox məlumat almaq bizim oxucularımız üçün maraqlıdır.

C a v a b: Kömək edən o oldu ki, mən sadəcə, çalışırdım ki, öz doğma xalqıma, Azərbaycan xalqına, respublikamıza sədaqətlə xidmət edim.

Azərbaycanın böyük intellektual və iqtisadi potensialı vardı. Amma bunlardan lazımi qədər istifadə olunmurdu. Ona görə də Azərbaycan SSRİ-yə daxil olan 15 müttəfiq respublika içərisində o illər ən axırıncı yerlərdə idi. Mən sadəcə olaraq Azərbaycanın bu böyük potensialını hərəkətə gətirdim. Azərbaycanda qanun pozuntularına, korrupsiyaya, vəzifəli şəxslərin öz vəzifələrindən sui-istifadə etmə hallarına qarşı ciddi mübarizə apardım. Daha çox vəzifəli şəxslərin yox, adi vətəndaşların vəziyyətinin yaxşılaşması və onların hüquqlarının qorunması üçün çalışdım. Bu da bir neçə ildən sonra öz nəticəsini verdi, Azərbaycan 15 müttəfiq respublika içərisində birinci yerlərə çıxdı. Bu o deməkdir ki, insanlar daha da yaxşı yaşamağa

başladılar. Onların həyat səviyyəsi yüksəldi. Azərbaycanda iqtisadiyyat inkişaf etdi. Respublikamızın hörməti qalxdı.

S u a l: Bəs Siz Azərbaycanın bugünkü potensialını necə qiymətləndirirsiniz? Azərbaycan sənayesinin və kənd təsərrüfatının inkişaf etdirilməsi imkanlarına necə baxırsınız?

C a v a b: Azərbaycanın həm intellektual, həm iqtisadi potensialı bu gün də böyükdür. Zəngin təbii sərvətləri, çox münbit torpaqları vardır. Ona görə də hesab edirəm ki, Azərbaycanın iqtisadi cəhətdən çox yaxşı gələcəyi vardır. İndi biz keçid dövrünü yaşayırıq. Yəni, vaxtilə mənim qurub-yaratdığım böyük sənaye müəssisələri, zavodlar indi istənilən səviyyədə işləmir. Nə üçün? Çünki onların çoxu SSRİ-nin başqa respublikaları ilə sıx inteqrasiyada idilər. İndi bu əlaqələr qırılıbdır. Məsələn, bizim kimya kompleksimiz var, orada məhsul istehsal etmək üçün Murmanskdan apatit alıb gətirirdik. Amma mən heç bilmirdim ki, apatitin alınmasına və buraya gətirilməsinə nə qədər xərc çəkilir və məhsulun maya dəyərinə bunun nə qədər təsiri olacaqdır.

Sovet ölkəsi, sosialist iqtisadiyyatı bir-biri ilə çox bağlı idi. Məsələn, indi Murmanskdan apatit alıb buraya gətirmək mümkün deyil, çünki çox bahadır. Ona görə bu sahə işləmir. Belə faktlar çox gətirə bilərəm. Yaxud da Azərbaycanda neft avadanlığı istehsal edən zavodlar çox güclü idi. SSRİ-nin bütün regionlarında bu məhsula olan tələbatı ödəyirdi. Biz onları burada istehsal edir, Tümenə, Tatarıstana, Başqırdıstana göndərirdik. Amma indi onlar özləri belə zavodlar yaradıblar. Bizim məhsula ehtiyacları yoxdur. Biz bu məhsulu istehsal etmək üçün metal alırdıq və digər şeyləri də başqa respublikalardan alırdıq. Bu əlaqələr də kəsilibdir. İndi bizim neft maşınqayırması zavodları yeni bazarlar axtarırlar, tapırlar. Vaxt keçəcək, bunlar daha da yaxşı işləyəcəklər. Siz yaxşı bilirsiniz, bazar iqtisadiyyatı ilə sosialist iqtisadiyyatı arasında nə qədər böyük fərq var.

Biz indi özəlləşdirmə aparırıq. Özəl sektor və bir çox istehsal sahələri yaranır. Məsələn, indi kənd təsərrüfatında istehsal çox yüksəkdir. Çünki biz torpağı kəndliyə vermişik. Kəndli də torpaqdan daha səmərəli istifadə edir. Məsələn, keçən il kənd təsərrüfatı istehsalı 12 faiz artıbdır. Amma istehsal olunan məhsulun da böyük bir hissəsi gərək, başqa ölkələrdə satılsın. Azərbaycanın daxili bazarı təmin olunur. Amma ixrac üçün xarici bazar da tapmaq lazımdır. Bu barədə bizim üçün ən əlverişli ölkə Rusiyadır. Bu əlaqələri yaratmalıyıq.

Bizim neft sektorunda iqtisadiyyatımızı inkişaf etdirmək üçün çox böyük imkanlar var. Ona görə Azərbaycanın indi müstəqil dövlət kimi, bazar iqtisadiyyatı yolu ilə gedən dövlət kimi çox yaxşı perspektivi vardır.

S u a l: Azərbaycan qarşısına bazar iqtisadiyyatı yolu ilə inkişaf etməyi məqsəd qoyaraq, eyni zamanda beynəlxalq iqtisadiyyata inteqrasiya olunmaq sahəsində də fəal səylər göstərməkdədir. Bu baxımdan, Sizin ölkənizin aparıcı sənaye sahəsi olan, iqtisadiyyatın aparıcı hissəsini təşkil edən neft sənayesi Azərbaycanın beynəlxalq sistemlərə inteqrasiyasında, sanki bələdçi rolunda çıxış edir. Azərbaycanın «Əsrin müqaviləsi» ilə başlanan neft strategiyası uğurla həyata keçirilməkdədir. Neft sənayesi gələcəkdə də Azərbaycanın iqtisadiyyatının inkişafı üçün mühərrik rolunu, əsas aparıcı qüvvə rolunu oynamaqda davam edəcəkmi?

C a v a b: Bəli, mütləq edəcəkdir. Çünki bizim imkanlarımız böyükdür və əgər imzaladığımız müqavilələri həyata keçirsək, hələ yüz il də, bəlkə iki yüz il də Azərbaycanda böyük neft və qaz hasilatı təmin olunacaqdır. Təbiidir ki, bu da Azərbaycanın iqtisadiyyatının inkişaf etməsi üçün çox mühüm rol oynayacaqdır.

S u a l: Cənab Əliyev, Siz təzə olan hər bir şeyə çox böyük maraq göstərən insansınız. Yeni ideyalara, mütərəqqi fikirli ideyalara çox böyük enerji sərf edərək və yeni təşəbbüslər göstərərək Azərbaycanın beynəlxalq layihələrdə fəal iştirakını

təmin edirsiniz. Bu baxımdan şübhə yoxdur ki, Böyük İpək Yolunun bərpa olunması XXI əsrin ən yaddaqalan və ən cəlbedici layihələrindən biridir. Bu bütün Avrasiya regionunda yerləşən dövlətlər üçün inanılmaz imkanlar yaradır. Siz Böyük İpək Yolu ilə əlaqədar məsələlərə toxundunuz. Lakin bilmək istərdik ki, bu layihənin gerçəkləşdirilməsində Azərbaycanın rolu və İpək yolu üzərində yerləşən ölkələrdən biri kimi, Sizin təşəbbüsləriniz barədə bizə daha nələri demək istərdiniz?

C a v a b: Tarixi Böyük İpək Yolunun bərpası və onun istifadə edilməsi İpək yolu üzərində yerləşən ölkələr üçün, Asiya və Avropa üçün çox böyük əhəmiyyətə malik olan bir layihədir. Mən istəməzdim deyəm ki, biz burada təşəbbüskar rolu oynayırıq. Amma coğrafi vəziyyətimizə görə İpək Yolunda biz mühüm rol oynayırıq. Bir çox başqa ölkələrlə müqayisədə bu işlə, bəlkə də, daha ciddi məşğul olmuşuq və daha tez məşğul olmağa başlamışıq.

Böyük İpək Yolunun bərpası ilə əlaqədar biz təşəbbüslər göstərdik və bunu TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqələndirərək, 1998-ci ilin sentyabr ayında Azərbaycanda ilk beynəlxalq Konfrans təşkil etdik. Konfransa 32 dövlətin nümayəndə heyəti gəlmişdi, onlardan 9-na prezidentlər başçılıq edirdi. 15 beynəlxalq təşkilatdan nümayəndələr də iştirak edirdi. Hesab edirəm ki, Bakı konfransı İpək Yolunun bərpa olunması üçün çox ciddi bir addım oldu. Biz bu barədə birgə sənəd imzaladıq və Avropa Birliyi ilə birlikdə İpək Yolunun bərpası layihəsini yerinə yetirmək üçün Bakıda daimi katiblik yarandı. Ona görə biz bu məsələnin həll olunmasında çox aparıcı yer tuturuq.

S u a l: Azərbaycan öz qapılarını xarici investisiyalar üçün açıbdır. Sizcə, Azərbaycanda yerli sahibkarların hüquqları, mənafeləri necə qorunur?

C a v a b: Bilirsiniz, qorunur, ancaq istərdim ki, bundan da yaxşı qorunsun. Birincisi, məni sevindirən odur ki, son illər

Bakıda özəl sektorda yeni istehsal yaranıbdır. Bunların bəziləri bizim yerli sahibkarlarla xarici şirkətlərin birgə fəaliyyəti nəticəsində yaranıbdır. Bəziləri xarici investorlar tərəfindən yaranıbdır, bəziləri də yerli sahibkarlar tərəfindən yaranıbdır. Bunlar hamısı bizdə daxili istehsalı artırır.

2000-ci ilin yekunlarını götürsəniz, idxala nisbətən ixrac çoxalıbdır. Ancaq təbiidir ki, istərdim sahibkarların hüququ daha da yaxşı qorunsun. Onlara bütün imkanlar yaransın. Hüquq-mühafizə orqanları onların işlərinə qarışmasınlar, dövlət orqanları bu işdə onlara qayğı göstərsinlər. Dəfələrlə demişəm ki, sahibkarların, firmaların işi ilə ancaq Vergilər Nazirliyi məşğul olmalıdır. Qoy iş görsünlər, qazansınlar, vergini versinlər. Bazar iqtisadiyyatı bizdə yenidir. Hələ insanların hamısı buna alışmayıbdır. Amma biz bu prinsiplərlə irəliyə gedəcəyik.

S u a l: Cənab Prezident, Sizin fikrinizcə, Azərbaycanın beynəlxalq iqtisadiyyata baxışları necədir? Başqa sözlə desək, XXI əsrdə Azərbaycan qloballaşmadan xeyir götürəcək, yoxsa ona ziyan gələcəkdir?

C a v a b: Siz bunu daha yaxşı bilərsiniz.

C e y m s M i l l e r: Cənab Prezident, mənim üçün vaxt ayırdığınıza görə Sizə bir daha təşəkkürümü bildirirəm. Sizdən müsahibə götürməkdən, azərbaycanlılar ilə birgə çalışmaqdan zövq almışam və gələcəkdə yenidən Azərbaycana dönmək fikrindəyəm.

H e y d ə r Ə l i y e v: Sağ olun. İki saat vaxt keçdi. Görək siz nə cür kitab çıxardacaqsınız?

C e y m s M i l l e r: Cənab Prezident, ümidvaram ki, o kitabı mən özüm Sizə təqdim edəcəyəm.

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ARİEL ŞARONA

Hörmətli cənab Baş nazir!

İsrail dövlətinin Baş naziri seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə İsrail arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Ümid-varam ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *8 fevral 2001-ci il*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEONİD KUÇMAYA

Hörmətli Leonid Daniloviç!

Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması münasibətilə təbrikinizə görə Sizə təşəkkür edirəm.

Əminəm ki, bu mötəbər və nüfuzlu beynəlxalq təşkilat çərçivəsində Ukrayna ilə Azərbaycanın sıx əməkdaşlığı və qarşılıqlı dəstəyi xalqlarımız və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etməsinə və möhkəmlənməsinə təkan verəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Ukrayna xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *8 fevral 2001-ci il*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və bütün dost İran xalqını səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan ilə İran arasında təşəkkül tapmış dostluq, mehriban qonşuluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin inkişafına və möhkəmlənməsinə xüsusi əhəmiyyət verirəm.

Əminəm ki, xalqlarımızın dərin tarixi kökləri olan dini, mənəvi, mədəni, iqtisadi əlaqələri ölkələrimizin mənafeyi, regionumuzda sülhün və təhlükəsizliyin mökəmləndirilməsi naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və uğurlar, qardaş İran xalqına əmin-amanlıq, firavanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *8 fevral 2001-ci il*

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm qardaşım!

İran İslam Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və bütün qardaş İran xalqını səmimi-qəlbdən təbrik edirəm.

Yaxın qonşumuz olan İran ilə dostluq və bütün sahələrdə əməkdaşlıq münasibətlərinin inkişafı bizim üçün böyük əhəmiyyət kəsb edir.

Ümidvaram ki, xalqlarımızın qədim tarixə malik əlaqələri bundan sonra da ölkələrimizin tərəqqisinə, regionumuzda sülhün və təhlükəsizliyin bərqərar olunmasına xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *8 fevral 2001-ci il*

AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN PREZİDENTİ CƏNAB DEVİD VUDVORDA

Hörmətli cənab Devid Vudvord!

Ölkəmizin Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Sizə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin bütün əməkdaşlarına möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *9 fevral 2001-ci il*

İRAN İSLAM RESPUBLİKASININ BAKIDAKI SƏFİRLİYİNİN ÖLKƏNİN MİLLİ BAYRAMI – İRAN İSLAM İNQİLABININ 22-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

«Gülüstan» sarayı

9 fevral 2001-ci il

Hörmətli cənab səfir!
İrandan gəlmiş hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Mən sizi, bütün dost, qardaş İran xalqını, İran dövlətini bu böyük bayram – İran İslam İnqilabının 22-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm və İran xalqına sülh, əmin-amanlıq, firavanlıq arzulayıram.

İran ilə Azərbaycan arasındakı əlaqələr xüsusi xarakter daşıyır. Bunun tarixi də çox qədimdir. O qədər qədim zamanlara gedib çatır ki, heç bizim alimlər də nə qədər çalışsalar, dəqiqləşdirə bilmirlər. Ancaq bir şey məlumdur ki, biz nəinki bir-birimizlə qonşuyuq, uzun əsrlər bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Bizim tarixi köklərimiz, eyni dinə mənsub olmağımız, eyni mənəvi dəyərlərə mənsubiyyətimiz – bunlar hamısı bizi həmişə birləşdirib, həmişə dostlaşdırıbdır.

İran böyük ölkədir, qüdrətli ölkədir. Ancaq İslam İnqilabından sonra İranda çox ciddi və əhəmiyyətli dəyişikliklər baş vermiş, İran daha da inkişaf etmişdir. İndi İranda iqtisadiyyat, xalqın rifah halı, elm, mədəniyyət yüksək səviyyəyə

qalxmışdır. Biz bunları dost kimi alqışlayırıq və İran xalqına bundan sonra da belə uğurlar arzulayırıq.

Mən çox məmnunam ki, bu gün İran İslam Respublikasının Ərdəbil vilayətinin – ostandarlığının böyük tərkibdə nümayəndə heyəti Azərbaycandadır. Bu nümayəndə heyətinə Ərdəbil ostandarı başçılıq edir. Mən Ərdəbildən gəlmiş qonaqları xüsusi salamlayıram, onlara Azərbaycanda xoş günlər arzulayıram. Bilirəm ki, indiyə qədər bir neçə işgüzar görüşlər keçiriblər və bundan sonra da keçirəcəklər. Bunlar bizim əlaqələrimizin kiçik bir hissəsidir və ölkələrimiz arasındakı həm iqtisadi, həm mədəni, həm elmi, həm də insani əlaqələri daha da inkişaf etdirəcəkdir.

Ərdəbil bizim üçün çox əziz, müqəddəs bir yerdir. Siz buna Mərkəzi Azərbaycan deyirsiniz, yoxsa...

Əhəd Qəzai: Elə adı Ərdəbildir.

Heydər Əliyev: Ərdəbil böyük ostanlıqdır, böyük bir vilayətdir. Bir də bizim hamımız üçün böyük tarixi şəxsiyyət olan Şah İsmayıl Xətainin vətənidir və onun qəbri Ərdəbildədir. Biz İranın bütün vilayətləri ilə əlaqələr saxlayırıq və saxlamaq arzusundayıq. Xüsusən, təbiidir ki, İran ilə Azərbaycan arasında olan sərhədə yaxın vilayətlərlə. Məsələn, Şərqi Azərbaycan, Qərbi Azərbaycan, yəni Təbriz, Urmiya, Ərdəbil, Zəncan, Gilan – bunlar coğrafi nöqteyi-nəzərdən bizə çox yaxındırlar. İndi yollar açıq olduğuna görə, məsafələr qısa olduğuna görə, ola bilər ki, insan səhər burada çay içsin, günorta getsin Gilanda kabab, axşam da Ərdəbildə plov yesin. İndi bunların hamısı mümkündür. Bu bizim əldə etdiyimiz böyük nailiyyətdir. İran İslam İnqilabının İran xalqı üçün verdiyi nemətlərdir, töhfələrdir və eyni zamanda Azərbaycanın dövlət müstəqilliyinin çox bariz göstəriciləridir, nümunələridir.

Biz iftixar hissi keçiririk ki, 1991-ci ilin sonunda Azərbaycan müstəqil dövlət olubdur və Azərbaycan xalqı azad,

müstəqil yaşayır. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi gedir. Demokratiya inkişaf edir, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir, dünya iqtisadiyyatı ilə daha da sıx əlaqələr yaratmaq və ondan bəhrələnmək məqsədi ilə çalışır. Bütün bu istiqamətlərdə də biz müsbət nəticələr əldə etmişik.

Bu yaxınlarda Azərbaycan üçün tarixi hadisə baş veribdir. Azərbaycan Avropa Şurasına daxil olubdur. Bu, Azərbaycanda demokratiyanın, insan haqlarının qorunmasına, Azərbaycanda siyasi, hüquqi, iqtisadi, sosial islahatların uğurla keçirilməsinə verilən böyük qiymətdir.

Hər dövlətin öz hüququ vardır. Azərbaycan bu yolla gedir və bu yolla da gedəcəkdir. Ancaq biz heç vaxt hesab etmirik ki, hansısa dövlət başqa dövlətə yol göstərməlidir. Yaxud da onun hansı yolla getməsinə öz məsləhətlərini verməlidir. Xalqın azadlığının və müstəqilliyinin ən əsas amillərindən biri odur ki, xalq və xalqın tərəfindən seçilmiş dövlət hansı yolla getməyi, hansı dövləti qurmağı özü müəyyən edir. Nəhayət, biz çox onilliklərdən, əsrlərdən sonra buna nail olmuşuq və öz yolumuzla da gedirik.

Biz eyni zamanda sülh tərəfdarıyıq. Bütün qonşu ölkələrlə xoş münasibət, mehribanlıq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında əlaqələr saxlayırıq və bundan sonra da saxlayacağıq. Biz heç bir dövlətin daxili işinə qarışmırıq və ümumiyyətlə, hansısa bir dövlətin digər dövlətin daxili işinə qarışmasını yolverilməz hesab edirik. Çünki, dediyim kimi, hər bir xalq, hər bir ölkə, hər bir millət öz aqibətini, gələcəyini, dövlət quruluşu formasını özü müəyyən edir. Ancaq eyni zamanda biz hər bir xalqın, hər bir millətin tutduğu yola və müəyyən etdiyi dövlət quruculuğu formasına böyük ehtiramla yanaşırıq. Bu bizim həm daxili, həm də xarici siyasətimizdə əsas yer tutur.

Azərbaycan indi müstəqil dövlət kimi, İran İslam Respublikası ilə dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini bu prin-

siplər əsasında qurubdur və bundan sonra da bu prinsiplər əsasında quracaqdır. İndi ölkələrimiz arasında insani əlaqələr çox genişlənibdir. Bu da həm keçmişlə, həm də bu günlə bağlıdır. Çünki keçmiş zamanlarda bizim ölkələrimiz arasında sərhəd yox idi. İnsanlar o tərəfə də, bu tərəfə də rahat gedib-gəlirdilər. Ona görə də Azərbaycanda nə qədər insan var ki, onların yaxın qohumları, qohumlarının əcdadları İranda yaşayıblar, böyüyüblər. Eyni zamanda belələri İranda da çoxdur ki, onların kökləri Azərbaycanda olubdur. Yəni keçmişdə bizim bir yerdə olmağımız bunu müəyyən edibdir.

Bizim insanlar həmişə həsrətdə olublar ki, vaxt gəlsin, sərhədlər, yollar açılsın və bir-birinə, qohum-əqrəbasına qovuşsunlar. İndi bu mümkündür və son on il içərisində nə qədər belə əlaqələr olubdur. Azərbaycandan nə qədər insanlar gedib öz qohum-əqrəbalarını, əcdadlarını, onların qəbirlərini, müqəddəs yerlərini tapıblar. Eyni zamanda İrandan Azərbaycana gəlib burada tapıblar. Bu bizim tarixi keçmişimizdir. Ancaq bunu həmişə xatırlamaq lazımdır. Çünki əgər tarixi unutsaq, tarixi qiymətləndirməsək, onun mənfi cəhətlərini də qeyd etməsək, təbiidir ki, bu gün də, gələcəkdə də öz işlərimizi, münasibətlərimizi qura bilmərik.

Bizim xarici siyasətimizdə İran İslam Respublikası ilə əlaqələr xüsusi yer tutur. Ticarət əlaqələri, insani əlaqələr genişdir, elm, mədəniyyət, təhsil sahəsində də çox yaxşı nailiyyətlər vardır. Biz istəyirik ki, bu, daimi olsun, davam etsin, inkişaf etsin. Biz bir-birimizi tez-tez ziyarət edirik. Son 4–5 il içərisində mən iki dəfə Tehranda olmuşam. İndi İran İslam Respublikasının Prezidenti hörmətli cənab Xatəminin dəvəti ilə İrana rəsmi səfərə getməliyəm. Sadəcə, onun vaxtını səfirlə müəyyənləşdirə bilmirik. Bunu müəyyənləşdirsək, mən bu ziyarəti yaxın vaxtlarda edəcəyəm.

Biz cənab Xatəmi ilə danışmışıq ki, mənim səfərimdən sonra o da Azərbaycana rəsmi səfər edəcəkdir. Bu, xüsusən ona görə

lazımdır ki, İran İslam Respublikasının Prezidenti cənab Xatəmi Azərbaycanda olmayıbdır. Mən isə İranda çox olmuşam. Bizim əlaqələrimizi inkişaf etdirmək üçün bunlar hamısı çox lazımdır. Belə görüşlər hər iki tərəfə fayda verir, bəzi məsələlərə aydınlıq gətirir, əlaqələri inkişaf etdirir. Ona görə mən məmnuniyyətlə bu dəvəti qəbul etmişəm və onu həyata keçirəcəyəm.

İran İslam Respublikasının son 22 ildəki nailiyyətləri göz qabağındadır. İran inkişaf edir, xalqın rifahı yaxşılaşır. İranda demokratiya qurulur. Sizdə prezident seçkiləri nə vaxt olacaqdır?

Əhəd Qəzai: Cənab Prezident, 5–6 aydan sonra.

Heydər Əliyev: 5–6 aydan sonra. Mən o gün oxudum ki, artıq beş-altı namizəd vardır. Onların içində bir qadın da vardır. Elədir?

Əhəd Qəzai: Bəli.

Heydər Əliyev: Görürsünüz, İranda nə qədər böyük dəyişikliklər vardır. İranda qadın prezidentliyə namizəd olsun – bunu on beş il bundan öncə heç təsəvvür etmək mümkün deyildi. Biz bunları görürük, izləyirik və müsbət qiymətləndiririk. Həm İranın, həm də Azərbaycan dövlətinin məqsədi odur ki, bizim xalqların, millətlərimizin arzularını daha da irəliyə aparaq. Bu arzular da ondan ibarətdir ki, ölkələrimiz dost, qardaş, ölkələr olublar, xalqlar olublar və belə də olmalıdırlar. Bundan sonra bu əlaqələr daha da möhkəmlənməli, genişlənməli və inkişaf etməlidir.

Mən bu bayram günü İran xalqına ən xoş arzularımı göndərirəm. İran İslam Cümhuriyyətinin nailiyyətlərinə görə İran xalqını təbrik edirəm. Ümidvaram ki, İran İslam Respublikası tutduğu yol ilə gedərək, bundan sonra daha da inkişaf edəcək, Dünya Birliyində öz mövqelərini müdafiə edəcək və inkişaf edəcəkdir. Sizi bir daha təbrik edirəm və hamınıza cansağlığı və xoşbəxtlik, dost, qardaş İran xalqına səadət, rifah və sülh arzulayıram.

BAKI ŞƏHƏRİ YAXINLIĞINDA, ABŞERON RAYONU ƏRAZİSİNDƏ «KASPİAN FİŞ» MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

10 fevral 2001-ci il

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Mən bu gün Azərbaycanda yeni bir özəl müəssisənin yaranması münasibətilə, «Kaspian Fiş Ko – Azərbaycan» şirkətinin öz sərmayəsi hesabına yaratdığı, ölkəmizdə balıq məhsulları istehsal edəcək kompleksin açılışı münasibətilə sizi təbrik edirəm və bu yeni özəl müəssisəyə gələcək fəaliyyətində uğurlar arzulayıram.

Bu gün biz Azərbaycanda özəl sektorun ardıcıl surətdə inkişafının yeni bir nümunəsini görürük. Təbiidir ki, bu bizim hamımızı sevindirir və sevindirməlidir. Çünki müstəqil bir dövlət kimi, Azərbaycan öz iqtisadiyyatını bazar münasibətləri əsasında inkişaf etdirir. Bunun üçün də özəlləşdirmə, iqtisadi-sosial islahatların həyata keçirilməsi, özəl sektorun yaranması xüsusi əhəmiyyət kəsb edir.

Son illər ölkəmizdə bir neçə belə istehsal müəssisəsi yaranıbdır və biz bunların açılışının şahidi olmuşuq. Təbiidir ki, burada əsas işi görən investorlar, sahibkarlar, iş adamlarıdır, özəl sektorun nümayəndələridir. Dövlətin, hakimiyyət orqanlarının vəzifələri isə ölkəmizdə mövcud olan qanunlar çərçivəsində bu prosesə kömək etmək, onlara lazımi şərait yaratmaqdan ibarətdir. Təəssüflər olsun ki, bir neçə ildir bu sahədə irəliyə doğru addımlar atmağımıza baxmayaraq, hələ ki, bəzi

hallarda, bəlkə də bir çox hallarda hakimiyyət orqanlarının özəl sektorun inkişaf etməsinə müxtəlif maneçiliklər törətməsini görürük. Ancaq biz bununla mübarizə aparırıq və bundan sonra da mübarizə aparacağıq. Çünki özəl sektorun inkişaf etməsi Azərbaycanın iqtisadiyyatında son illər böyük dəyişikliklər əmələ gətiribdir.

Torpaq islahatı sayəsində, Azərbaycanın torpaqlarının – dövlət mülkiyyətində, yaxud da ki, kollektiv mülkiyyətdə olan torpaqların hamısının kəndlilərə verilməsi nəticəsində respublikamızda kənd təsərrüfatı istehsalının sürətini artırmışıq. Ölkəmiz ərzaq məhsullarına olan bütün tələbatını, demək olar ki, təmin edə bilir. Əgər son illərdə Azərbaycanda kənd təsərrüfatı istehsalının 98 faizi özəl sektorun hesabına əldə olunursa və 2000-ci ildə biz kənd təsərrüfatı istehsalını 10 faiz artıra bilmişiksə, bu onu göstərir ki, özəlləşdirmə, özəl sektorun yaranması heç kəsdə şübhə doğurmamalıdır. O mənada ki, bu bizim iqtisadiyyatımızın bütün sahələrini inkişaf etdirəcəkdir. Bu da vətəndaşlarımızın, xalqımızın rifah halının ardıcıl surətdə yaxşılaşmasını təmin edəcəkdir.

Bu baxımdan bu gün burada böyük bir elm-istehsalat kompleksinin yaranmasını mən çox yüksək qiymətləndirirəm. Doğrusu, bilmirəm, bəlkə əvvəllər bu müəssisənin işi ilə, yaxud onun tikintisi ilə maraqlanan adamlar olublarsa, onlar bunu bilirmişlər. Mən onu bu qədər nəhəng bir müəssisə kimi təsəvvür edə bilməzdim. Böyük iş görülübdür. Artıq burada bildirildi ki, müəssisənin yaranmasına 56 milyon dollar məbləğində vəsait sərf olunub və bundan sonra 30 milyon dollar da sərf ediləcəkdir.

Beləliklə, Azərbaycanda indiyə qədər bu sahədə misli görünməmiş bir böyük elm-istehsal kompleksi yaranacaqdır.

Mən dəfələrlə demişəm və bu gün də təkrar edirəm ki, sahibkarlar qorxmasınlar, çəkinməsinlər, sahibkarlığı inkişaf etdirsinlər. Ancaq indi Azərbaycanda özəl sektorun yaran-

masının yeni bir fazası başlanmalıdır və o başlanıbdır. İslahatlara başladığımız ilk illərdə əmlakı, sadəcə, özəlləşdirib, ondan istifadə etmək yolu ilə gedirdik – bu yol bu gün də, gələcəkdə də vacibdir. Özəlləşdirmə, birinci növbədə, məsələn, kənddə torpağın kəndliyə paylanması, şəhərlərdə isə, nəinki şəhərlərdə, bütün Azərbaycan Respublikasında ticarət şəbəkəsinin özəlləşdirilməsi və xarici ölkələrlə ticarət əlaqələrinin sərbəstləşdirilməsi, mal mübadiləsinin liberallaşdırılması, ümumiyyətlə, liberal iqtisadiyyat sisteminin yaranması – bunlar artıq Azərbaycanda öz nəticələrini veribdir.

Ancaq bizim məqsədimiz təkcə özəl ticarət şəbəkəsi yaradıb idxal əməliyyatları apararaq, başqa ölkələrdə istehsal edilən, Azərbaycanın tələbatı üçün lazım olan malları gətirib burada satıb vətəndaşlarımızın, əhalinin tələbatını ödəməkdən ibarət olmamalıdır. Təbiidir ki, bu yol davam edəcəkdir. Ancaq bununla bərabər, bundan da vacibi odur ki, indi bizim sahibkarlar təkcə ticarətlə, hər hansı ölkədən hansısa malı gətirib satmaqla məşğul olmamalı, həm də öz vəsaitlərindən, xarici investorların imkanlarından istifadə edərək, Azərbaycanda istehsal sahələri yaratmalıdırlar.

Ölkəmizdə istehsal sahələri yaranmasının müsbət cəhətləri hamıya məlumdur. Özəl istehsal müəssisələri yaratmaqla, birincisi, Azərbaycan öz daxili imkanlarından istifadə edərək məhsul istehsal edəcək, bununla da ölkəmizin tələbatını ödəyəcəkdir. Əgər məhsul rəqabətə davamlıdırsa, onu ixrac edərək daha da çox gəlir qazanacaq, dövlətə də xeyir verəcəkdir. İkincisi, hər bir özəl istehsal müəssisəsinin yaranması ilə yeni iş yerlərinin açılması indi Azərbaycanda ən vacib, ən əsas vəzifələrdən biridir.

Ölkəmizdə işsizlik davam edir. Bu bizi narahat edir və hələ bir müddət də narahat edəcəkdir. Bəziləri deyirlər ki, bəli, Azərbaycanda işsizlik var. Amma nə üçün var, niyə vardır? Səbəbinə varmadan hökumətin və dövlətin siyasəti əleyhinə

bundan istifadə etməyə çalışırlar. Keçmiş Sovetlər İttifaqına mənsub olmuş müstəqil dövlətlərin hamısında işsizlik problemi var və bu, sosialist iqtisadiyyatının, SSRİ-nin dağılması, respublikaların müstəqillik əldə etməsi və respublikalar arasındakı iqtisadi inteqrasiya əlaqələrinin pozulması və nəticədə vaxtilə sovet iqtisadiyyatının tələblərini təmin etmək üçün yaranmış istehsal müəssisələrinin indi işləyə bilməməsi, yaxud da ki, tam gücü ilə işləməməsi ucbatından yaranmışdır. İşsizlik problemini aradan qaldırmaq üçün biz yenidən dövlət müəssisələri yarada bilmərik. Çünki biz istəyirik ki, hər şey özəl olsun. Bəzi hallarda dövlət tərəfindən belə müəssisələr yaradılır və yaradılacaqdır. Məsələn, bizim elektrik enerjisi sistemini, Azərbaycanın elektrik enerjisi ilə təmin olunmasını götürək.

Bilirsiniz ki, biz güzəştli xarici kreditlər hesabına yeni elektrik stansiyaları yaradırıq. Bu təbiidir ki, müəyyən qədər işsiz adamların işə cəlb olunmasını təmin edəcəkdir. Bizim başqa bu kimi imkanlarımız da vardır. Ancaq bunlar işsizliyi aradan qaldırmaq üçün kifayət deyildir. Özəl sektorun inkişaf etməsi əsasdır. Özəl sektorda istehsal nə qədər artarsa, birincisi, Azərbaycanın iqtisadi potensialı o qədər yüksələcək, inkişaf edəcəkdir. İkincisi, Azərbaycanın gəlirləri artacaq, bu istehsaldan dövlətə gələn gəlirlər çoxalacaqdır. Bu gəlirlər də insanların rifah halının yaxşılaşdırılmasına, maaşların yüksəldilməsinə sərf olunacaqdır. Bu istehsal sahələri yarandıqda, buraya insanlar cəlb olunacaq, onlar işləyəcəklər.

Bu gün biz bu kompleksin sexlərinin bəzilərini gəzərkən mən orada rast gəldiyim, iş başında olan bir neçə adamla danışdım. Bir cavanla da söhbət etdim. Vaxtilə mən Azərbaycana rəhbərlik etdiyim zaman biz hər il mütəxəssis hazırlanması üçün gəncləri güzəştli şərtlərlə SSRİ-nin müxtəlif şəhərlərinə ali məktəblərə təhsil almağa göndərirdik. Dedi ki, o vaxt mənim təşəbbüsümlə Azərbaycandan kənara, SSRİ-nin ali

məktəblərinə göndərilənlər içərisində o da olub və Həştərxan Balıqçılıq İnstitutuna gedibdir, oranı bitiribdir. İndi balıqçılıq sahəsində mütəxəssisdir. Bu müəssisə açılanda gəlib buraya, ali təhsilli mütəxəssis kimi işləyir.

O vaxt Azərbaycanda balıqçılıq sahəsində ali təhsilli mütəxəssis hazırlamaq imkanımız yox idi. Çünki bizdə belə bir ali təhsil müəssisəsi yox idi. Deməli, biz bunu SSRİ-nin başqa respublikalarında, belə ali təhsil müəssisələri olan yerdə etməliydik. Çox sahələrdə bunu edirdik. Elə bircə bu faktı götürərək, bütün sahələrdə müxtəlif mütəxəssislərin hazırlanması işinin bu gün üçün, müstəqil Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu görürük. Mən çox sevindim. Dedim ki, sən mənim yetirdiyim kadrsan. O burada həvəslə işləyir, mühəndisdir.

Digər bir oğlanla söhbət etdim. Dedim ki, niyə burada işləyirsən? Mütəxəssissənmi? Dedi ki, yox, mütəxəssis deyiləm, buraya gəlmişəm, öyrənirəm, işləyirəm. Bu iki faktla mən sizə izah etmək istəyirəm ki, yeni istehsal müəssisələrinin yaranmasının, özəl sektorda yeni istehsal müəssisələrinin yaranmasının bizim üçün – Azərbaycanın iqtisadiyyatı, bu günü və gələcəyi üçün nə qədər böyük əhəmiyyəti vardır.

Mən burada iki oğlanla görüşmüşəm. Biri balıqçılıq sahəsində ali təhsilli mütəxəssis – özünə ixtisasına aid iş yeri tapıbdır. İkincisi isə balıqçılıq sahəsində təhsili olmayan adamdır, amma gələrək burada özünə iş yeri tapıbdır, öyrənir, bu sənəti mənimsəyəcəkdir. Təbiidir ki, burada – indi çıxış edən hörmətli direktor demədi – maaşlar da yəqin ki, başqa yerlərdəkinə nisbətən daha da çox olacaqdır. Bir ondan soruşun, orta aylıq əmək haqqı nə qədər olacaqdır?

Yanke Hansen *(«Kaspian Fiş» müəssisəsinin Azərbaycan üzrə direktoru)*: Cənab Prezident, orta aylıq əmək haqqı 200 dollardır.

H e y d ə r Ə l i y e v: 200 dollardır. Fəhlələrin də, başqalarının da orta aylıq əmək haqqı bu qədərdir.

Orta aylıq əmək haqqı 200 dollardır. Azərbaycanın bu günü üçün, işləyən adam üçün bu, demək olar ki, yetərli maaşdır. Beləliklə, mən bugünkü bu hadisənin əsas mənasını onda görürəm ki, özəl sektor inkişaf edir və bu sektorun inkişafı nəticəsində də yerli istehsal sahələri yaranır, daha da inkişaf edir. Bir də təkrar edirəm, bu, özəl sektorun inkişafında ikinci və əsas mərhələdir.

Biz gərək çalışaq ki, Azərbaycanın böyük potensialından istifadə edib ölkəmizin bütün mallara olan tələbatını özəl sektorun istehsalı hesabına təmin edək. Bu fikri tamamlamaq üçün bir neçə dəfə dediyim sözləri bir daha təkrar etmək istəyirəm. Özəl sektora qayğı göstərmək lazımdır. Ancaq onların işinə müdaxilə etmək lazım deyildir ki, bu pulu haradan almısan, necə almısan? Əgər bu adam gətirib investisiya qoyursa, istehsal yaradırsa, hüquq-mühafizə orqanları, yaxud da müfəttiş və s. gəlib bunu araşdırsın ki, nə var, nə yox, buradan özünə bir şey çıxarsın. Bu bizim apardığımız siyasətin əleyhinədir.

Hüquq-mühafizə orqanları özəl sektorun işinə qarışmamalıdırlar. Əgər özəl sektorda kimsə cinayət edibsə, bu araşdırılmalıdır. Ancaq təəssüflər olsun ki, hüquq-mühafizə orqanları özəl sektorun işinə qarışır. İndi biz belə halların sayını azalda bilmişik, bunun qarşısını ala bilmişik. Bir–iki il bundan öncə bizim prokurorluq orqanları, elə digər hüquq-mühafizə orqanları da elə firma və şirkət yox idi ki, bu ifadəmə görə məni bağışlayın, oraya burunlarını soxmasınlar. Bunu nə məqsədlə edirdilər? Özəl sektora kömək etmək məqsədi iləmi? Özəl sektoru inkişaf etdirmək üçünmü? Yox, onlar bunu sadəcə, oradan özləri üçün qanunsuz mənfəət götürmək üçün edirdilər. Bu da korrupsiyadır, rüşvətxorluqdur. Biz bununla kəskin mübarizə aparırıq və aparacağıq.

Özəl sektorun inkişafı ilə korrupsiya, rüşvətxorluq yan-yana ola bilməz. Mən dəfələrlə demişəm, bütün bu məsələləri Vergilər Nazirliyi tənzimləməlidir.

İndi burada çıxış edənlər bu müəssisənin nə qədər vergi verəcəyini demədilər. Amma güman edirəm ki, əgər böyük istehsal varsa, yəqin ki, dövlətə verilən vergi də yüksək olacaqdır. Bax, bizə lazım olan əsas fakt budur.

Mən sizə deyim ki, bu müəssisənin məhz balıqçılıq sahəsi ilə məşğul olması da çox maraqlıdır və çox da təqdirəlayiqdir. Adətən, bizim özəl sektorun bu sahəyə o qədər həvəsi yoxdur. Çünki bu, bir az mürəkkəb sahədir. Biz qanunsuz balıq ovlamaq, qanunsuz kürü istehsal etmək və bazarlarda satmaq halları ilə rastlaşırıq. Ancaq mən hesab edirəm ki, bu şirkət istiqaməti düzgün tapıbdır. İndi burada çıxış edən direktor da düzgün izah etdi ki, Azərbaycanın bu sahədə imkanları böyükdür.

Xəzər dənizi dünyada ən nadir dənizlərdən biridir. Xəzər dənizinin həm dibində mineral ehtiyatlar çoxdur – neft və qaz yataqları vardır – həm də ki, Xəzər dənizində bioehtiyatlar çox zəngindir, müxtəlif növ balıqlar vardır. Doğrudur, bizim adamlar ancaq nərə, ağbalıq, uzunburun, kürü yeməyə öyrəniblər. İndi çoxları da balıq kababı yeməyə alışıblar.

Xəzər dənizində müxtəlif növ balıqlar var. Əgər bu balıqlar yüksək texnologiya vasitəsilə ərzaq məhsulu kimi emal olunsa, təbiidir ki, bunlar Azərbaycanın ərzaq məhsulları ilə təmin edilməsində çox mühüm yer tutacaqdır.

Xəzəryanı ölkə kimi, Azərbaycanda balıqçılıqla qədim zamanlardan məşğul olmuşlar. Vaxtilə dövlət bu işlə məşğul olubdur. Xatirimdədir, 1970–1980-ci illərdə Azərbaycanda balıq ovundan orta hesabla ildə 60 min ton məhsul alınırdı. Ancaq 1996-cı ildə həmin rəqəm azalaraq, 8 min tona düşmüşdü. İndi gərək ki, bir az artıbdır, deyirlər ki, 22 min tondur. Ancaq bu da azdır. Əgər o vaxt 60 min ton idisə, indi nə

üçün azalıb? Birincisi, yəqin ona görə ki, qeyri-qanuni balıq ovu və bundan qeyri-qanuni istifadə etmək Azərbaycanda çox geniş yer alıbdır. Vaxtilə, 1970-ci illərdə bizim mağazada kürü tapmaq mümkün deyildi. Gələn qonaqlara biz yemək vaxtı kürü vermək üçün, xüsusi fond vardı, oradan götürürdük. Açıq mağazalarda kürü tapmaq mümkün deyildi, kürü çox az idi.

Amma indi kürü, nərə balığı, ağbalıq, uzunburun balıq bütün şəhəri götürübdür. Ancaq təkcə şəhərdə deyil, qaçaqmalçılıq yolu ilə onu başqa ölkələrə də keçirirlər. Mən konkret bilirəm ki, Gürcüstana keçirirlər, hətta Gürcüstandan aparıb Ermənistanda satırlar. Xəzər dənizinin kürüsü Ermənistanda açıqca satılır. Ona görə yox ki, Ermənistan hansısa qanuni ticarət yolu ilə bunu alır. Yox, bazarda satırlar. Xəzər dənizinin nadir balıqlarının – nərə balığının, ağbalığın, uzunburun balığın Gürcüstanda satılması, öz yerində, amma Ermənistanda, Yerevanda da satılır. Bu, Azərbaycanın böyük sərvəti olan balıq məhsullarının istifadəsində nə qədər böyük əyintilər, qanunsuzluqlar, cinayətlər olduğunu sübut edir. Azərbaycan bu cür balıqçılıq ölkəsi olduğu halda – mən dünən rəqəmlərə baxdım – dövlət xətti ilə, qanuni yolla keçən il 600 ton balıq məhsulu ixrac olunubdur. Amma başqa ölkələrdən Azərbaycana isə 2 min 200 ton balıq məhsulu idxal olunubdur. Bu, həqiqətə uyğun deyildir. Azərbaycanda müxtəlif yollarla tutulan balığın, bazarda satılandan savayı, nə qədər hissəsi də qanunsuz yolla, qaçaqmalçılar vasitəsilə başqa ölkələrə aparılır. Bu da bizim dövlətimizə, iqtisadiyyatımıza çox zərər vurur. Bunların da qarşısı alınmalıdır.

Yadımdadır, 1970-ci illərdə balıqçılıq sənayesində bir çox müəssisələr yaratdıq. O vaxt onlar yaxşı işləyirdi. Elə ona görə də biz 60 min ton balıq məhsulları istehsal edə bilirdik. Ancaq indi o müəssisələr də bərbad vəziyyətdədir. Bir hissəsi özəlləşdirilib, digər hissəsi dövlətin əlindədir. Özəlləşdirilən

sahələrdən də, demək olar ki, heç bir şey gəlmir. Gəlir, ancaq hamısını qanunsuz istifadə edirlər. Ona görə də nə vergi verirlər, nə də gətirib qanun-qayda ilə satırlar. Beləliklə də, bizim bu qədər böyük potensialımız dağılır.

Həm Xəzər dənizində, həm də ölkənin ərazisindəki göllərdə və çaylarda olan balıq həqiqətən, Azərbaycanın təbii sərvətləri içərisində çox böyük potensialdır.

Mən yenə də xatırlayıram ki, 1970-ci illərdə Azərbaycanda bir çox süni göllər yaratdıq. Su elektrik stansiyaları tikilərkən su hövzələri yarandı. Suvarma işləri üçün başqa su hövzələri yaratdıq. Təbii göllər də vardır. Bu göllərdə o vaxt da çoxlu balıq vardı, indi də var.

Yadımdadır, o vaxt biz bu işi yaxşı təşkil etmək üçün, hətta bu sahəni ayırdıq, yəni Azərbaycanın ərazisindəki göllərdə, çaylarda balıqçılıqla məşğul olmaq üçün xüsusi təşkilat yaratdıq və onu Xəzər dənizinin balıqçılıq sistemindən ayırdıq. Bilmirəm, indi bu nə yerdədir, hansı vəziyyətdədir? Doğrusu, bu bizim də günahımızdır ki, balıqçılıq sahəsi, demək olar ki, özbaşına buraxılıbdır.

Bir balıqçılıq konserni yaranıbdır. Onun işi də elə neçə illərdir ki, qənaətbəxş deyildi. Bu gün də qənaətbəxş deyildir. Mən etiraf etməliyəm ki, bizim hakimiyyət orqanları bu işlə indiyə qədər ciddi məşğul olmayıblar. Nəinki ciddi məşğul olmayıblar, başlı-başına büraxıblar. Ona görə də mən bu gün Nazirlər Kabinetinə xüsusi tapşırıram ki, bizim bütün balıqçılıq sahəsinin vəziyyətini qısa bir zamanda təhlil etsinləp. Bütün imkanlarımızı araşdırsınlar və bu sahədə qanun-qayda yaratmaq üçün təkliflərini versinlər.

O illərdə müşahidə olunurdu ki, Xəzər dənizində nərə, uzunburun balıq, ağbalıq azalır. Ona görə də biz o vaxt balıq artırmaq üçün Neftçalada böyük bir zavod tikdik. O zavod indi yarımçıq işləyir. Onu lazımi səviyyəyə qaldırmaq üçün Dünya Bankından kredit almışıq. Bu, dövlətin işidir, çünki

dövlət bu işlə məşğul olmalıdır ki, Xəzər dənizində balıq ehtiyatlarının artması üçün süni balıqyetişdirmə işi təşkil olunsun. Bu ediləcəkdir və mən bu gün Baş nazirə bir daha deyirəm ki, bu işlə daha da ciddi məşğul olsunlar. Ancaq biz bütün balıqçılıq sistemini dövlət inhisarında saxlaya bilmərik. Ona görə də gərək lazımi tədbirlər görülsün. Tədbirlər görülmədiyinə, nəzarət olmadığına görə, balıqçılıq konsernində də, ümumiyyətlə, balıqçılıq müəssisələrində də özbaşınalıq, demək olar ki, geniş yayılıbdır. Bu məni çox narahat edir. Çoxdandır mən bu fikri bildirmək istəyirdim. Hesab edirəm ki, bu fikri bildirmək üçün bura münasib yerdir.

Bu işlərimizin görülməsi xüsusən ona görə lazımdır ki, indi artıq bizdə yüksək texnologiya ilə bütün balıq növlərinin ovlanması, onların emalı, məhsul istehsalı və hazır məhsulun bazara çıxarılması sistemi yaradılır. Bu gün biz sexlərə baxdıq. Bizə verilən məlumatlara görə, burada həqiqətən dünyada ən yüksək texnologiyadan istifadə olunubdur. Böyük bir ərazini götürüblər, bir çox sexlər yaradıblar və çoxlu vəsait qoyublar, hətta deyə bilərəm ki, həddindən artıq gözəl bir salon yaradıblar. Deməli, bu müəssisə öz iqtisadi imkanlarını o qədər perspektivli görür ki, hətta belə bir, bəlkə də istehsala lazım olmayan salonun yaranmasına da vəsaitlərini əsirgəməyiblər. Ona görə də bu gözəl müəssisə, hesab edirəm ki, bizdə balıqçılıq, balıq məhsullarının istehsalı – elmi-tədqiqat işləri sahəsində mərkəz rolunu oynaya bilər. Əgər biz bu müəssisəyə lazımi qayğı göstərsək, kömək etsək, Azərbaycanda balıqçılıq sənayesinin, ümumiyyətlə, balıqçılıq sahəsinin istənilən səviyyəyə gətirib çıxarılması üçün müəyyən imkanlar yarada bilər. Bax, buna görə də bugünkü bu hadisə çox sevindiricidir.

«Kaspian Fiş» şirkətinin bu təşəbbüsü, dünyanın ən müasir texnologiyasının Azərbaycana gətirilməsi və ölkəmizdə olan müxtəlif balıq növlərinin burada çox yüksək keyfiyyətlə emal olunması, təbiidir ki, bizim üçün çox əhəmiyyətlidir. Mən

orada baxdım, siyənək gördüm. Xatirimdədir, 1940–1950-ci illərdə siyənək balığını yeməzdilər, mağazalarda qalardı. Bakının mağazalarında siyənək balığı həmişə olardı. Sonra, 1960–1980-ci illərdə siyənək balığı yox idi. Siyənək balığına biz həmişə «selyotka» demişik. Bu balıq sonra itdi. Yadımdadır, 1970-ci illərdə hərdən qonaq gələndə, deyirdik ki, siyənək balığı gətirin. Bildirirdilər ki, siyənək balığı tutulmur. Xəzər dənizində siyənək yoxdur. Amma, deməli, var imiş, bu gün gördüm. Özü də onu o qədər gözəl emal edirlər ki, adamın tamahı düşür. Bunların hamısı, yenə də deyirəm, çox müsbət haldır. Biz bunları təqdir etməliyik, bu müəssisəyə kömək göstərməli və onu inkişaf etdirməliyik.

Mən görürəm ki, burada bizim nazirlərimiz, hakimiyyət orqanlarının nümayəndələri iştirak edirlər. Hamını bu cür təşəbbüslərə yardım etməyə çağırıram. Konkret olaraq bu müəssisənin, çünki deyirlər ki, onun ikinci hissəsinin tikintisinə 30 milyon dollar vəsait qoyulacaqdır. Tezliklə onun tamamlanıb işə salınması və təmin olunmasına kömək edilməsi, hesab edirəm ki, əsas şərtlərdən biridir.

Beləliklə, Azərbaycana xarici investisiya təkcə neft sektoruna yox – bəziləri çox tez-tez bunu təkrar edirlər – başqa sektorlara da gəlir. Əgər bizim iş adamları dünyanın müxtəlif şirkətləri ilə lazımi əlaqələr qurub Azərbaycanın imkanlarını onlara izah edə bilsələr, onları məlumatlandırsalar, bundan da çox investisiya gələ bilər.

Bizim Dövlət Əmlakı Nazirliyinin üzərinə bu sahədə böyük vəzifələr düşür. Dövlət Əmlakı Nazirliyi indi Azərbaycanda olan dövlət mülkiyyətinin təkcə özəlləşdirilməsi ilə yox, özəl sektorun yaranması, bunun üçün də xarici investisiyanın cəlb edilməsi ilə məşğul olmalıdır. Onlar bu işlə məşğul olurlar. Məsələn, Azərbaycanda bəzi müəssisələrin indi xarici şirkətlərə satılması, yaxud da icarəyə verilməsi prosesi gedir və bu, uğurla davam edir. Ancaq bundan başqa, bizim Dövlət Əm-

lakı Nazirliyi ölkəmizin bütün bu imkanlarını, Azərbaycana gələn investorlara geniş anlatmalıdır, onlara kömək etməli, yol göstərməlidir. Beləliklə, bu cür müəssisələrin yaranmasını təmin etməlidir.

Bizim İqtisadiyyat Nazirliyi gərək bu işlə ciddi məşğul olsun. Bu barədə o qədər də geniş danışmaq istəmirəm, çünki mən İqtisadiyyat Nazirliyinin fəaliyyətini, ümumiyyətlə, görmürəm. Amma funksiyasına və üzərinə düşən vəzifəyə görə İqtisadiyyat Nazirliyi bu işlə ciddi məşğul olmalıdır. Başqa nazirliklər də bununla məşğul olmalıdırlar. Bir sözlə, bu hamımızın vəzifəmizdir.

Mən bugünkü hadisə münasibətilə «Kaspian Fiş Ko – Azərbaycan» şirkətini bir daha təbrik edirəm. Bu müəssisədə işləyən Azərbaycan vətəndaşlarına, çalışan bütün insanlara və gələcəkdə burada özünə iş tapa biləcək adamlara uğurlar arzulayıram. Mən bu gün bəyan edirəm ki, Azərbaycanda xarici investisiyaların artması, ölkəmizin sahibkarlarının bu işlə ciddi məşğul olması, daxili istehsalın inkişaf etməsi qarşımızda duran əsas vəzifədir.

Mən sizi bir daha təbrik edirəm. Sizə bütün işlərinizdə uğurlar arzulayıram.

QAMBİYA RESPUBLİKASININ
PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YAYA CAMMEYƏ

Hörmətli cənab Prezident!

Qambiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Qambiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmaqda olan münasibətlər xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *10 fevral 2001-ci il*

TÜRKİYƏNİN BAKIDAKI SƏFİRİ QƏDRİ ECVET TEZCAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

12 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Xoş gördük, cənab səfir. Sizi qəlbdən salamlayıram. Necəsiniz?

Q ə d r i T e z c a n: Cənab Perzident, çox sağ olun, Sizə minnətdaram. Bu qədər gərgin işləməyinizə baxmayaraq, vaxt tapıb məni qəbul etdiyinizə görə Sizə öz razılığımı bildirmək istəyirəm.

Sizinlə çoxdandır ki, görüşmürəm. Mən həmişə Türkiyədən nümayəndə heyətləri gələrkən Sizinlə görüşürəm. Vaxt olmadığına görə indiyə qədər Sizinlə görüşə bilməmişəm. Əvvəla, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə Sizi təbrik etmək istəyirəm. Mən həmçinin bu münasibətlə Milli Məclisin deputatlarına, Azərbaycanın ziyalılarına, siyasi partiyalarına, Azərbaycan haqqında düşünən və bunun üçün öz səylərini əsirgəməyən hər bir insana təbriklərimi çatdırmaq istəyirəm. Təbiidir ki, bu Sizin başçılıq etdiyiniz insanların səylərinin nəticəsidir.

Məndən soruşsanız, deyərdim ki, əslində, Azərbaycan Avropanın həmişə ayrılmaz bir hissəsi olmuşdur. Bu, yeni bir şey deyildir. Bu reallıqdır və həmin reallıq təsdiqləndi.

Həyatımda Sizin kimi güclü yaddaşa malik ikinci bir şəxsiyyət görməmişəm. Yəqin ki, yadınızdadır. Ramazan bayramı münasibətilə Siz bizi – müsəlman ölkələrinin səfirlərini

qəbul edərkən də mən demişdim ki, başa vurduğumuz əsrdən də əvvəl bu məmləkətdə ilk teatr olmuş, ilk qəzet çıxmışdır, ilk dəfə latın əlifbasını biz azərbaycanlılardan götürmüşük. Cümhuriyyət fikri, cümhuriyyət, demokratiya nədir–türk və islam dünyasında ilk dəfə bunları biz Azərbaycandan götürmüşük. İslam dünyasında ölüm hökmü ilk dəfə sizin başçılıq etdiyiniz ölkədə ləğv edilmişdir.

Cənab Prezident, daha bir məsələ haqqında danışmaq istəyirəm. Azərbaycanda başqa dinlərə və dillərə mənsub olan insanlara xoş münasibət onu göstərir ki, Azərbaycan Avropa ailəsinə mənsub və ondan da artıq bir ölkədir. Ona görə də mən ölkənizin Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasını təbii hesab edirəm.

Mən Türkiyə prezidenti Əhməd Necdət Sezərin adından, Türkiyə hökuməti adından zati-alinizə minnətdarlığımı bildirmək istəyirəm ki, son vaxtlar ermənilərin yenidən qaldırdıqları uydurma «soyqırımı» məsələsinə Siz həmişə kəskin münasibətinizi bildirirsiniz. Son dəfə Parisdə olarkən, orada Jak Şirakla görüşərkən bu məsələni tam kəskinliyi ilə qaldırdığınızı bilirik. Təbiidir ki, təkcə bu deyildir. Bu barədə Azərbaycan Respublikasının Milli Məclisi qərar qəbul edib, Xarici İşlər Nazirliyi, siyasi partiyalar, buradakı cəmiyyətlər – istər Qadınlar Cəmiyyəti olsun – münasibətlərini bildiriblər. Azərbaycanın şəhərlərindən, kəndlərindən, qəsəbələrindən səfirliyimizə hər gün müxtəlif məktublar, Azərbaycan xalqının həmişə türk xalqının yanında olduğunu bildirən bəyanatlar gəlir. İcazənizlə, bununla əlaqədar mən Sizə – Azərbaycanın dövlət başçısına təşəkkürlərimi bildirirəm. Türk milləti, Anadolu Türkiyəsinin insanları bilirlər ki, onların ən yaxın dostları azəri qardaşlarıdır. Bu təbiidir.

Cənab Prezident, zati-alinizə deyəcəyim başqa bir söz Türkiyə Cümhuriyyətinin başçısı hörmətli Əhməd Necdət Sezərin önümüzdəki ayda Sizi Türkiyədə görmək məqsədilə göndər-

diyi dəvəti bir daha çatdırmaqdır. Türkiyə Sizin üçün darıxmışdır. Mən bir-iki dəfə demişdim ki, Türkiyədə Sizi gözləyirlər, xalqımız Sizi gözləyir. Ona görə Allah qoysa, bu ziyarəti də yaxın vaxtlarda gerçəkləşdirəcəyik.

Cənab Prezident, bu barədə Sizin tapşırıqlarınızı dinləmədən öncə, zati-alinizə bir təklifimi bildirmək istəyirəm. Təbiidir ki, uydurma «soyqırımı» ilə bağlı Siz müntəzəm olaraq, bundan üç, dörd, beş ay əvvəl də bizim diqqətimizi çəkmişdiniz. Buraya gələn bütün nümayəndə heyətlərinə – nazirlərə, onların müavinlərinə söyləmişdiniz ki, bu, təhlükəli işdir, onun qarşısını almaq lazımdır.

Bu uydurmaya Türkiyədə də, Azərbaycanda da insanlar öz münasibətlərini bildirirlər. Hay-küy qaldırırlar, səfirliklər qarşısında etiraz mitinqləri keçirirlər. Bunlar olmalıdır, bu öz yerində. Amma digər tərəfdən də, tarixçilər həqiqi mənada bu məsələyə münasibətlərini bildirməlidir. Mən güman edirəm ki, Azərbaycanda da kifayət qədər tarixçi var, Türkiyədə də. Lakin bu məsələyə yalnız Azərbaycan və Türkiyə tarixçilərinin öz münasibətlərini bildirməsi kifayət deyildir. Biz Gürcüstandan da, Rusiyadan da, İrandan da, başqa yerlərdən də tarixçiləri dəvət etməliyik. Qarşıdakı aylarda onları İstanbulda, yaxud da başqa bir yerdə cəm edib, bu barədəki fikirlərini, mülahizələrini öyrənmək, bu günə qədər apardıqları araşdırmaları, əsərləri çap edərək həqiqətləri bütün dünyaya yaymalıdırlar. Tarixçi alimlər öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

Mən bunu Ankara ilə də razılaşdırıram. Əgər məsləhət bilsəniz, bu barədə bir iş görmək olar.

Daha iki məsələyə toxunaq, Sizin məsləhətlərinizi öyrənmək və tapşırıqlarınızı almaq istərdim.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsindən sonra yəqin ki, deputatlarımız arasında da əməkdaşlıq artacaqdır. Əslində bu əlaqələr var, lakin bundan

sonra daha da genişlənəcəkdir. Əgər Siz məsləhət görürsünüzsə, Azərbaycan parlamentinin Avropa Şurasına gedən nümayəndə heyətini öz başçısı ilə birlikdə Türkiyəyə dəvət edək. Onlar bizim parlament nümayəndə heyəti ilə sıx əlaqələr yaratsınlar, təcrübə mübadiləsi etsinlər. Düşünürəm ki, belə birgə iş üçün şərait yaratmaq lazımdır.

Hörmətli cənab Prezident, Sizin və bizim parlametlərdəki xarici işlər komissiyaları dörd ildir ki, görüşmürlər. Bu da çox vacibdir.

H e y d ə r Ə l i y e v: Milli Məclisdə Beynəlxalq Münasibət Komissiyası var.

Q ə d r i E c v e t T e z c a n: Bizdə də eyni komissiya vardır. Bu komissiyalar da bir araya gəlib əməkdaşlıq etsələr, düşünürəm ki, bundan da yaxşı nəticə əldə edə bilərik. Bir-iki məsələ də var ki, bu barədə sonra danışacağıq. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Hörmətli səfir, əvvəla, Azərbaycanın Avropa Şurasına qəbul olunması münasibətilə təbriklərinizə görə sizə təşəkkür edirəm. Hörmətli prezident Əhməd Necdət Sezərin, hörmətli Baş nazir Büləndd Ecevitin, hörmətli Xarici İşlər naziri İsmyıl Cəmin təbriklərini almışam, bizim qəzetlərdə dərc olunubdur. Siz tərəfdən daim təbriklər alırıq. Burada da təəccüblü bir şey yoxdur, bu təbiidir. Çünki bizim Avropa Şurasına daxil olmaq prosesimiz o qədər də asan olmamışdır. Türkiyə daim çalışırdı ki, biz bu qanuni haqqımızı alaq. Bildirmək istəyirəm ki, bütün bu prosesdə – yəni keçən ilin yayında Avropa Şurası Parlament Assambleyası qərar qəbul etdi, ondan sonra Nazirlər Komitəsində gedən proses bir neçə ay çəkdi – bütün bu dövrdə Türkiyənin Strasburqdakı səfiri və ölkənizin Xarici İşlər naziri hörmətli İsmayıl Cəm bu barədə çox böyük fəaliyyət göstərdilər.

Mən bir neçə dəfə hörmətli İsmayıl Cəmlə telefonla danışdım. O da orada Şvimmerlə və başqaları ilə əlaqəyə girmişdi. Yəni burada bizə konkret praktik köməklər olmuşdur.

Bunların hamısına görə təşəkkür edirəm. Yəni mən sizin təkcə təbrikinizə görə yox, Türkiyə hökumətinin, dövlətinin Azərbaycana göstərdiyi yeni bir qardaşlıq yardımına görə təşəkkür edirəm.

Siz doğru deyirsiniz ki, Azərbaycan Avropanın bir hissəsidir, bəlkə də Avropada olan ölkələrdən də çox Avropaya aid bir dövlətdir. Ancaq təəssüf ki, ədaləti sübut etmək çox çətindir. «Soyqırımı» məsələsinə mən indi toxunacağam. Soyqırımı olmadığı halda, meydana belə bir məsələ atıblar və böyük ölkələr də buna uyublar. Eləcə də Azərbaycan haqqında belə bir qeyri-obyektiv, ədalətsiz fikirlər yayırdılar ki, Azərbaycan Avropa Şurasına layiq deyildir. Mən bunu dəfələrlə demişəm.

Bilirsiniz ki, Avropa Şurasından buraya çoxlu nümayəndə heyətləri gəldi. Mən onların hamısına demişəm ki, siz bu ikili standartlardan əl çəkin. Siz Azərbaycana qarşı ikili standart tətbiq edirsiniz. Cənubi Qafqazın başqa ölkələri ilə müqayisədə Azərbaycanın avropalılıqda, demokratiyada fərqi yoxdur. Bəlkə də bəzi şeylərdə biz onlardan üstünük. Necə olur ki, onlar Avropa Şurasına asanlıqla qəbul edilir, amma Azərbaycanın qarşısında çoxlu şərtlər qoyursunuz? Hər dəfə yeni bir şərt qoyursunuz. Mən o qədər boğaza yığıldım ki, Avropa Şurasından bir neçə dəfə də nümayəndələr gələndə dedim ki, biz Avropa Şurasına üzv olmaq istəmirik. Siz bunu da bilirsiniz. Dedim ki, istəmirik, çıxıb gedin. İndiyə qədər Avropa Şurasına üzv olmadan yaşamışıq, bundan sonra da yaşayacağıq.

Dünyada 200-ə qədər dövlət Birləşmiş Millətlər Təşkilatında təmsil olunmuşdur. Bunlardan 41 dövlət Avropa Şurasının üzvü idi, ikisi də qəbul edildi, oldu 43 üzv. Qalanları dövlət deyilmi, yaşamırmı? Yaşayırlar. Hətta bax, bu dərəcəyə qədər mən onlara kəskin sözlər deməyə məcbur oldum.

Avropa Şurasına qəbul olunduq. Əlbəttə ki, bu, böyük nailiyyətdir və bizim üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz çalışdıq ki, ədaləti sübut edək, ədaləti nümayiş etdirək. Yenə də deyirəm, biz Avropa Şurasında təmsil olunmadan da yaşaya bilərik. Müstəqil dövlət kimi on ildir ki, Avropa Şurasında olmadan yaşayırıq.

İş bundadır ki, indi dünyada ədalət çox hallarda pozulur, ədalətsizlik var. Elə ona görə də mən indi «soyqırımı» haqqında danışacağam. Bilirsiniz ki, son illərdə ermənilər «soyqırımı» məsələsini Türkiyəyə qarşı vaxtaşırı qaldırıblar. Bu məsələ hər dəfə qalxanda Azərbaycan bununla əlaqədar bəyanat veribdir. Şəxsən mən bəyanat vermişəm. Bizim Milli Məclis hələ iki il bundan öncə bəyanat verdi, qərar qəbul etdi. Xarici İşlər Nazirliyimiz bəyanat verdi.

Bu dəfə Fransada bu proses başlayanda, mən bir neçə dəfə rəsmi bəyan etmişəm ki, heç bir soyqırımı olmayıbdır. Bu, Türkiyəyə qarşı ədalətsizlikdir və biz buna etiraz edirik. Yəni bu barədə Azərbaycanın mövqeyi dəyişməzdir. Həqiqətən siz düz deyirsiniz, bu məsələdə dövlət də, xalq və cəmiyyətin bütün təbəqələri də eyni fikirdədir. Burada həmrəylik tamamdır. Nə üçün? Çünki bu, birincisi, tarixin təhrif olunmasıdır, ədalətsizlikdir.

Dünyada ədalətsizlik çoxdur. Avropanın bir hissəsi, NATO-nun üzvü, iqtisadi cəhətdən inkişaf etmiş, böyük hərbi potensiala malik olan Türkiyə kimi bir dövlətə, Avropada çox mühüm bir yer tutan Türkiyə kimi bir dövlətə erməni diasporuna, Ermənistana görə bu cür ədalətsiz qərar qəbul etmək, təbiidir ki, bizim hamımızı incidir.

Bəziləri bunu anlamırlar. Bəlkə də indi bəziləri deyirlər ki, türk dünyası buna etiraz etməlidir. Amma bilmirəm. Orta Asiyada olan türkdilli dövlətlərin insanları bunu anlayırmı? Məni bağışlasınlar, heç nə demək istəmirəm. Ancaq bunu biz bilirik. Çünki biz də bunu görmüşük. Ermənilər həm Türkiyə-

yə, həm də Azərbaycana qarşı soyqırımı ediblər. Bir də ki, indi türk dünyası böyükdür, amma türk dünyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın, bir-birinə dost və taleyi bir-birinə bağlı başqa bir ölkə yoxdur. Bunların hamısına görə mən bir dəfə dedim ki, Türkiyəyə dəyən daş bizə dəyən daşdır. Bizə dəyən daş Türkiyəyə dəyən daşdır.

Mən yanvar ayının 24-də Parisdə olarkən – bu ölkəyə rəsmi səfərə getmişdim – prezident Jak Şirakla çox geniş söhbətim oldu. Əsas məsələləri, bizim özümüzə aid olan məsələləri müzakirə etdik. Ermənistan–Azərbaycan münaqişəsi, onun sülh yolu ilə həll olunması barədə – onlar Minsk qrupunun həmsədridir – müzakirələr apardıq. Ondan sonra mən ona dedim ki, siz nə üçün belə bir qərarın qəbul olunmasına yol verirsiniz? Fransa kimi böyük bir ölkədə belə qərarın qəbul edilməsi, birincisi, ədalətsizlikdir, tarixi təhrif etməkdir.

Bir də ki, sizin Türkiyə ilə, Ermənistanla nə işiniz var? O mənimlə çox səmimi danışdı. Dedi ki, Baş nazir də bunun əleyhinədir. Biz bunun əleyhinəyik. Amma bu bizim daxili siyasətimizlə bağlı olan bir məsələdir. Mən ona dedim, yaxşı – onda o qərar hələ imzalanmamışdı – bunu imzalamağa sizin imkanınız var. O mənə baxdı və heç nə demədi. Ancaq mən ona dedim ki, biz indi mətbuat nümayəndələri ilə görüşəndə dedi ki, prezident Heydər Əliyev bu məsələni qaldırıbdır. Onun narazılığını, narahatçılığını bilirəm. Azərbaycan vətəndaşlarının, bu xalqın narahatçılığını mən bilirəm. Bu məsələ bizim siyasi həyatımızla bağlıdır və sair. Bunların hamısı mətbuatda yazılıbdır.

Sonra isə, bilirsiniz ki, Strasburqda biz Avropa Şurasına qəbul olunandan sonra, yanvarın 25-də orada böyük bir mətbuat konfransı keçirildi. Konfransda yenə bu məsələ qalxdı. Bu məsələ qaldırılanda mən dedim ki, «erməni soyqırımı» uydurma bir şeydir, yalandır, heç bir əsası yoxdur. Fransa və Türkiyə böyük dövlətlərdir. Amma Fransanın Türkiyənin da-

xili işinə qarışmağa haqqı yoxdur. Mən bunu Strasburqda dedim. Bunun cavabı olaraq Köçəryan dedi ki, indi bizim hamımız vahid Avropadayıq, demokratiya var, ona görə də məsələni belə qoymaq olmaz. Mən yenə də bunu cavabsız qoymadım. Dedim, bilirsiniz, əgər sizin dediyinizə görə bu hadisə 85 il öncə olubsa da, onda nə demokratiya vardı, nə də Avropa Şurası. Bu məsələyə o vaxtın qanunları ilə baxmaq lazımdır, indiki qanunlarla yox.

Yəni bundan artıq kəskin sözlər demək mümkün deyildi. Mən bunların hamısını demişəm. Bu gün də yenə bəyan edirəm ki, bizim xalqımız, millətimiz, Azərbaycan dövləti Fransanın bu hərəkətinə etiraz edir, Fransanın bu mövqeyini qəbul etmir. Güman edirəm, Fransa özü də anlayacaqdır ki, o, birincisi, bununla heç nəyə nail olmayacaqdır. İkincisi, bu barədə səhv etdiyini özü anlayacaqdır.

Ancaq siz bilirsiniz ki, erməni diasporu Avropa ölkələrində, Amerikada çox güclüdür. Məsələn, mən Şirakla bu barədə danışarkən o mənə dedi ki, bilirsinizmi, Fransada 600–700 min erməni yaşayır. Onların da siyasətə, seçkilərə təsiri vardır. Hətta o mənə dedi ki, erməni diasporunun böyük bir qrupu Fransa Senatının binası qarşısında çadır qurubdur. Çadırda gecə-gündüz otururlar, gələn deputatları oraya dartırlar, onlarla danışırlar. Ya onlara söz verirlər, ya da məcbur edirlər ki, qərara səs verin. O mənə dedi ki, burada çoxlu türk də yaşayır – nə qədər yaşadığını demədi və mən də bunu bilmirəm – amma nədənsə, türklər bu cür hərəkət etmirlər. Bu da həqiqətdir, biz bunu da bilməliyik.

İndi arada belə bir söhbət gəzir ki, guya Almaniyada da bu məsələyə baxacaqlar. Bilirəm və inanıram ki, Almaniya bu işə baxacaq. Amma Almaniyada erməni çox deyildir. Lakin Almaniyada 3 milyon türk var. İndi əgər Almaniya Bundestaqı bu məsələyə baxsa və 3 milyon türk də orada səsini çıxarmasa,

onda gəlin özümüz özümüzü günahlandıraq. Başa düşürsünüzmü?

Bu barədə bizim mövqeyimiz aydındır. Bundan sonra da əlimizdən gələni edəcəyik, heç narahat olmayın. Biz sizinlə bir yerdəyik və bir yerdə də olacağıq.

Mən Türkiyəyə dəvət olunduğuma görə təşəkkür edirəm. Bu dəvəti doğrudan da çoxdan, hörmətli cənab prezident Sezər burada, Azərbaycanda olanda almışdım. Amma sonra bunun vaxtını müəyyən etməmişdik. Nəhayət, sizinlə birlikdə vaxtını müəyyən etdik.

Martın 12-də mən Türkiyədə, Ankarada olacağam. Sizə də telefonda bir neçə dəfə demişəm ki, mənim oraya getməyə böyük ehtiyacım var. Siz dediniz ki, ölkənizdə bunu istəyirlər, amma mən bəlkə də daha çox istəyirəm. Çünki birincisi, Türkiyə üçün darıxmışam, ikincisi isə, bir çox məsələlər var ki, orada müzakirə etməliyik. Elə birincisi, «soyqırımı» haqqında, ikincisi, Ermənistan–Azərbaycan münaqişəsi haqqında. Görürsünüz, ermənilər axır zamanlar müxtəlif hərəkətlər edir, işlər görürlər. Bu barədə biz birlikdə nə edə bilərik? Bakı–Ceyhan layihəsi haqqında – bunu artıq gecikdirmək olmaz. Azərbaycandan təbii qazın Türkiyəyə ixrac olunması – bunu da gecikdirmək olmaz. Mən deyərdim ki, Türkiyənin müəyyən dairələrinin bu işə münasibətləri bir az soyuqdur.

Bakı–Ceyhan kəməri haqqında qərar olmayanda iki gündən bir Bakı–Ceyhan deyirdilər. İndi qərar da var, hər bir şey də var. Amma elə bil ki, Türkiyədə bunu yaddan çıxarıblar. Ona görə də mənim konkret fikirlərim var. Bu barədə biz orada nəinki danışmalıyıq, eyni zamanda bəzi layihələr hazırlanıbdır, bunları orada həll edəcəyəm.

Bakı–Ceyhan xəttinə maraq da artır. Çünki məsələn, ABŞ-ın «Şevron» şirkəti Qazaxıstanda çoxlu neft hasil edir və Xəzər dənizinin Qazaxıstan sektorundakı «Kaşaqan» yatağındakı əsas işin görülməsi bu şirkətə həvalə olunubdur. Həmin şirkət

mənə məktub yazıbdır ki, Bakı – Tblisi – Ceyhan neft kəmərinin tikintisinə qoşulmaq istəyir. Həmin məsələni müzakirə etmək üçün bu yaxınlarda onların nümayəndəsi mənim yanıma gələcəkdir. Bunun özü çox yaxşı haldır. Çünki bəziləri belə hesab edirlər ki, Qazaxıstan bu işə qoşulmasa, Bakı–Ceyhan neft kəməri rentabelli olmayacaq və sair. Amma heç biz demədən «Şevron» – düzdür, ABŞ-ın «Eksson» şirkətinin burada mövqeyi bir qədər doğru deyil – şirkəti kənardan gələrək bu işə qoşulur.

Doğrudur, «Şevron»un burada da, həm neft, həm də qaz yataqlarında böyük perspektivləri vardır. Xüsusən indi «Abşeron» yatağında iş aparırlar və yaxşı göstəricilər əldə edirlər. Güman edirəm ki, biz orada çox yaxşı, böyük bir yataq açacağıq. Ona görə də bu məsələlərin hamısını biz gərək konkretləşdirək, vaxtı itirməyək. Yoxsa, 2001-ci il başlayıb, bir qədər də keçəcək, görəcəksən ki, il bitdi.

Tarixçilərin əməkdaşlığı yaxşı fikirdir. Bu işlə məşğul olan Azərbaycan tarixçiləri var. Mən mütləq göstəriş verərəm, bizim tarixçiləri toplayarlar, onların içərisindən gərək bu işi yaxşı bilən adamları tapsınlar. Gürcüstan tarixçilərini də cəlb etmək lazımdır. Çünki Gürcüstan tarixçiləri Qafqazı daha yaxşı bilirlər. Ola bilər Rusiyadan da bəzi tarixçilər cəlb olunsun. Ancaq bilirsinizmi, bəzən onlarda da obyektiv münasibət olmur. Bunu biz Sovetlər İttifaqı vaxtında görmüşük. Hətta Sovetlər İttifaqı vaxtında Cənubi Qafqazın tarixini yazmaq istəyirdik, Moskvada üç respublikanın tarixini yazmaq istəyirdilər. Orada tarixçilər bir-biri ilə o qədər mübahisə etdilər ki, bunu edə bilmədilər. Çünki biri bir konsepsiyaya tərəfdar idi. Çoxları da Ermənistan tərəfində idi. Amma Gürcüstanda bu barədə həm yaxşı arxiv sənədləri var və eyni zamanda yaxşı tarixçilər də vardır. Ona görə də mən bu barədə prezident Şevardnadze ilə də danışaram, bizim tarixçilərə göstəriş verərəm, sizin tarixçilərlə də siz danışarsınız, bir qrup

hazırlayarıq ki, oturub bu barədə bir fikrə gəlsinlər. Biri var danışmaq, söz demək, fikrə gəlmək – bunlar öz yerində. Amma ortaya tarixi sənədlər qoymaq lazımdır.

Parlamentlərarası komissiyaların əlaqələrini yaratmaq düzgün məsələdir. Mən heç bilmirdim ki, bu komissiyaların üzvləri dörd ildir ki, görüşmürlər. Hesab edirəm ki, indi, Avropa Şurasına tam üzv olunduğumuz halda gərək Türkiyə və Azərbaycanın deputatları orada sıx əlaqədə işləsinlər. Mən dedim və bir də təkrar edirəm ki, Türkiyənin oradakı səfiri bu dörd il içərisində daim bizə çox böyük dəstək veribdir, çox kömək edibdir. Biz ondan razıyıq. Amma indi bir yerdə işləməliyik. Ona görə də bunu təşkil etmək, bir yerdə toplaşmaq lazımdır. Düşünmək lazımdır, mən bizim Milli Məclisdən xahiş edərəm, siz də onlarla danışarsınız, görək bunu necə təşkil edərək, harada görüşsünlər. Ola bilər, Türkiyəyə getsinlər, orada görüşsünlər və ətraflı danışsınlar. Bu həm də Beynəlxalq münasibətlər komissiyasının Türkiyə Böyük Millət Məclisinə bir ziyarəti ola bilər. Eyni zamanda bu barədə bir proqram hazırlayarlar. Bu da çox yaxşı fikirdir, bunu həyata keçirmək lazımdır.

GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ İRAKLİ MENAĞARİŞVİLİNİ VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

13 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: İrakli Afinogenoviç, xoş gəlmisiniz, mən sizi və Azərbaycana rəsmi səfərə gəlmiş bütün nümayəndə heyətinizi salamlayıram. Gürcüstanla Azərbaycan arasındakı münasibətlər dostluq, qardaşlıq münasibətləridir və bu münasibətlər müxtəlif səviyyələrdə – həm rəsmi, həm də qeyri-rəsmi səviyyələrdə tez-tez görüşlər keçirilməsini şərtləndirir. Ona görə də sizin Azərbaycana bu rəsmi səfəriniz Gürcüstan–Azərbaycan münasibətlərinin daha da inkişaf etməsi üçün, şübhəsiz, çox böyük əhəmiyyətə malikdir.

Siz burada müəyyən iş görmüsünüz. Bizim Xarici İşlər naziri mənə məlumat verdi ki, çox səmərəli işləmisiniz və hələ bu gün və sabah da işləyəcəksiniz. Mən bu görüşə şadam.

İ r a k l i M e n a ğ a r i ş v i l i: Zati-aliləri, sağ olun. İlk növbədə icazə verin, Sizin tərəfinizdən qəbul edilmək kimi yüksək şərəfə görə, səfərimizin gedişi barədə, Gürcüstanda vəziyyət barədə məlumat vermək, fikirlərinizi eşitmək imkanına görə Sizə təşəkkür edim. Mən şəxsən öz adımdan və nümayəndə heyətimizin üzvləri adından Sizə təşəkkür edirəm. Cənab Prezident, Siz tamamilə haqlısınız ki, Azərbaycanla Gür-

cüstan arasında qarşılıqlı münasibətlərin xüsusi səciyyəsi baxımından bu səfər çox böyük əhəmiyyətə malikdir.

Mən öz məlumatımın əvvəlində, ilk növbədə, Gürcüstan prezidenti Eduard Amvrosiyeviç Şevardnadzenin tapşırığını yerinə yetirmək və onun şəxsi salamını, xoş arzu və diləklərini Sizə çatdırmaq, Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı münasibətlərə, əməkdaşlığın inkişaf etdirilməsinə şəxsən Sizin yetirdiyiniz diqqətin Eduard Amvrosiyeviç və bütün gürcü xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini təsdiq etmək – bunu xüsusi vurğulayıram – istərdim. Şübhəsiz ki, Sizin şəxsi töhfənizi Gürcüstanda hamı yüksək qiymətləndirərək, Azərbaycanla dostluq, qardaşlıq münasibətlərini və əməkdaşlığı regionda sabitliyin mühüm rəhni, habelə Gürcüstanın müstəqil, demokratik inkişafının vacib təminatlarından biri hesab edir.

Gürcüstanın dövlət quruculuğunun, müstəqilliyinin dəstəklənməsi üçün Sizin rəhbərliyiniz altında görülmüş işlərə və indi də atılan addımlara görə mən gürcü xalqı və Gürcüstanın rəhbəri, zati-aliləri cənab prezidentin adından Sizə minnətdarlığımızı yetirmək istəyirəm. Ötən il məruz qaldığımız olduqca ağır quraqlığın nəticələrinin aradan qaldırılması işində Gürcüstana göstərilmiş yardım qonşu, dost dövlətin taleyinə, problemlərinə belə qayğının ən son, çox mühüm təsdiqi idi. Sizin qərarınızla bizə birinci olaraq ancaq Azərbaycan yardım əli uzatdı. Bu, təbii idi və eyni zamanda, şübhəsiz, xüsusi hisslər, ümid doğururdu ki, xalqlarımız arasındakı qarşılıqlı münasibətlər gələcək müsbət proseslərin rəhnidir.

Mən bir məqamı da mütləq nəzərə çatdırmalıyam – hərçənd buraya gələn kimi, hava limanında və bugünkü görüşlərdə bu barədə öz mövqeyimi bildirmişəm – çox mühüm bir hadisə, Azərbaycanın Avropa Şurasına qəbul edilməsi ilə əlaqədar gürcü xalqı adından, Gürcüstanın rəhbəri adından ən səmimi təbrikləri Sizə və bütün Azərbaycan xalqına yetirmək mənim üçün xüsusi şərəfdir. Şübhə yoxdur ki, Azərbaycanın

Avropa Şurasına qəbul edilməsi bu gün müstəqil Azərbaycanda Sizin rəhbərliyiniz altında həyata keçirilən demokratik inkişaf xəttinin düzgün olduğunu təsdiqləyir.

Nəzərə çatdırmaq istəyirəm ki, bu hadisə təkcə Azərbaycan üçün deyil, eləcə də Gürcüstan üçün, gələcəyimiz üçün əhəmiyyətlidir. Çünki indi bütün Cənubi Qafqaz Avropa Şurasında təmsil olunmuşdur. Bu isə o deməkdir ki, biz bu çox mühüm Avropa qurumunda daha bir dost qazandıq və şübhəsiz, ümidvarıq ki, o, ümumi mənafelərimizi dəstəkləyəcəkdir.

Səfərimizdən məqsəd ölkələrimiz arasında müxtəlif sahələrdə dinamik inkişaf edən əməkdaşlığın gedişini təsdiqləməkdən və gələcəkdə həyata keçirilməli olan əməkdaşlıq sahələrini müəyyənləşdirməkdən ibarətdir. Dünən axşam və bu gün mən həmin məsələləri Xarici İşlər Nazirliyində həmkarlarımızla təfərrüatı ilə müzakirə etmək imkanına malik oldum. Mən onları bu gün Azərbaycan hökumətində hörmətli Baş nazirin müavini ilə də müzakirə edə bildim. Heydər Əliyeviç, mən razılıq və iftixar hissi ilə Sizə məlumat vermək istəyirəm ki, biz müzakirələr zamanı qaldırılmış bütün məsələlərdə yekdil mövqedə olduq və vaxtı çatmış bütün məsələləri həll etməyə hazır olduğumuzu bildirdik. Eləcə də, şübhəsiz, hamını, o cümlədən də Qafqaz regionunda hamını düşündürən problemlər barəsində yekdil rəyə gəldik.

Siz prezident Eduard Amvrosiyeviçlə birlikdə bizə, xarici işlər nazirlərinə müntəzəm olaraq görüşmək tapşırığı verirsiniz. Sizə məlumat vermək istəyirəm ki, bu praktika həyata keçirilir. Çox hörmətli həmkarım Tbilisidə olub və ətraflı müzakirələr aparmışıq. Beynəlxalq forumlar zamanı aramızda olan müntəzəm görüşlərlə yanaşı, indi Bakıya səfər etmək şərəfinə malikəm.

Dövlətlərimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin əslində bütün sahələrinə toxunmaq imkanımız oldu. Əlbəttə, ilk növbədə regional məsələlərə, regionda təhlükəsiz-

lik məsələlərinə, ikitərəfli iqtisadi, mədəni layihələrə toxunduq. Biz Azərbaycanın hazırda üzərində işlədiyi və reallaşdırılmasına bizim də öz töhfəmizi verməyə çalışdığımız qlobal əhəmiyyətli layihələrə də toxunduq və onların inkişaf etdirilməsi barədə öz mülahizələrimizi bildirdik. Bu layihələr uzun perspektiv üçün həm dinamik iqtisadi inkişafı təmin etməli, həm də regionda sülhün və sabitliyin zəmini olmalıdır. Əlbəttə, söhbət ilk növbədə mühüm cəhətləri ilə birlikdə enerji dəhlizindən, nəqliyyat dəzlizinin, kommunikasiya dəhlizinin inkişafından gedir. Məmnunluqla demək istəyirəm ki, biz müzakirə etdiyimiz məsələlərdə tam qarşılıqlı anlaşmaya gəldik, onların hər birinə dair tamamilə konkret təkliflər işlənib hazırlandı.

Biz istər qardaş Azərbaycanımız üçün, istərsə də Gürcüstan üçün çox ağrılı bir mövzudan – ərazi bütövlüyü problemindən yan keçə bilməzdik. Bizdə Abxaziya məsələsində hələlik xüsusi bir irəliləyişin olmaması narahatlıq doğurur. Mən dincliklə nizamasalma prosesinin, təəssüf ki, ilişib qaldığı vəziyyətdən çıxarılması üçün gördüyümüz tədbirlər barədə həmkarlarıma məlumat verdim.

Biz mühüm beynəlxalq təşkilatlar olan BMT, ATƏT çərçivəsində əməkdaşlıq praktikasını təfərrüatı ilə müzakirə etdik. Heydər Əliyeviç, Sizin Eduard Amvrosiyeviçlə birlikdə irəli sürdüyünüz məlum təşəbbüs – Qafqazda sülh və sabitlik haqqında məşhur Tbilisi bəyannaməsi diqqət mərkəzində idi. Biz bu ideyanın hazırda daha da inkişaf tapmasını çox mühüm hesab edirik. Biz Gürcüstanda bu məsələnin daha da işlənilib təkmilləşdirilməsini xarici siyasətimizin öncül istiqamətlərindən biri hesab edirik və azərbaycanlı həmkarlarımızın burada, Xarici İşlər Nazirliyində də bizi dəstəkləməsi çox sevindirir. Biz hətta həmin mövzu üzərində işləmək üçün xüsusi tapşırıqlar üzrə ayrıca səfir də təyin etmişik. Əlbəttə, iş asan getmir, ona görə ki, müxtəlif şübhələr, mövqelər var, bunların

hamısını bir yerə toplamaq lazımdır. Amma mən deyərdim, rəhbərlərimizin, həqiqətən, müdrik uzaqgörənliyi məhz bundan ibarət idi ki, bu ideyanın reallığına hələ heç də hamının inanmadığı vaxtlarda söylənilmiş fikir indi, hər halda, həyata keçirilir. Biz çox ümid edirik ki, birgə səylərlə onu məntiqi sonluğa çatdırmaq mümkün olacaqdır. Əminik ki, Gürcüstan və Azərbaycan bu məsələdə əsas rol oynamalıdırlar.

Mən həmkarlarımıza qısaca məlumat vermişəm və Sizə də məlumat vermək istəyirəm ki, Eduard Amvrosiyeviçin Türkiyəyə bu yaxınlarda etdiyi səfər çox uğurlu olmuşdur. Orada iki dövlət arasında qarşılıqlı münasibətlər təfərrüatı ilə müzakirə edilmişdir. Üzərində birlikdə işlədiyimiz layihələrin inkişaf etdirilməsi əsas məsələlərdən biri idi. Bakı–Tbilisi–Ceyhan layihəsinin və bu istiqamətdə aparılan işin birmənalı şəkildə dəstəklənməsinə biz çox şad olduq, bunu Eduard Amvrosiyeviç də vurğulamışdır. Biz enerji dəhlizinin digər cəhətlərini də müzakirə etdik. Söhbət qaz layihələrindən, onların həyata keçirilməsi üçün göstərilməli olan səylərdən gedir. Ümumiyyətlə, Gürcüstan prezidentinin belə bir təəssüratını Sizə yetirmək istəyirəm ki, səfər nəticəsində indi bizdə böyük nikbinlik var, o mənada ki, əgər bu layihələr həyata keçirilərsə, bu, təkcə üç ölkə üçün deyil, bütün region üçün, bütün dünya üçün də çox vacibdir.

Mən bugünkü görüşlərimizdə müzakirə edilmiş geniş mövzuların ancaq əsas məqamlarına toxundum. Bu isə ölkələrimiz arasında əməkdaşlığın necə çoxsahəli olduğunu təsdiqləyir. Bütün bunları Sizə çatdırmaq imkanına görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm. Mən, ilk növbədə, dostum, prezident Şevardnadzenin salamını yetirdiyinizə görə təşəkkür edirəm. Xahiş edirəm, mənim qardaşlıq, dostluq salamımı və ən xoş arzularımı ona yetirəsiniz. Belə ki, çox böyük tarixi olan və bir çox sınaqlardan keçmiş

şəxsi dostluq münasibətlərimiz hazırda iki suveren dövlət – Gürcüstanla Azərbaycan arasında münasibətlərin inkişafında mühüm rol oynayır.

Sizin səfəriniz belə bir faktı bir daha təsdiqləyir ki, ölkələrimiz – Gürcüstanla Azərbaycan arasında münasibətlər dinamik inkişaf edir. Sizi əmin edə bilərəm ki, biz bu xəttə sadiqiq və dostluğumuzun möhkəmlənməsi və bütün sahələrdə münasibətlərimizin genişlənməsi və inkişafı üçün lazım olan hər şeyi bundan sonra da edəcəyik. Ağır quraqlıq dövründə biz sizə nə kömək edə bilərdiksə, onu da etdik. Biz bunu öz qardaşlıq, dostluq borcumuz sayırıq və bundan sonra da davam etdirəcəyik. Başlıcası isə, istərdik ki, Gürcüstan hazırda enerji təchizatı ilə əlaqədar qarşılaşdığı çətinlikləri aradan qaldırsın. İnanıram ki, belə də olacaqdır. Lakin gələcəkdə əməkdaşlığımız prosesində meydana çıxacaq hər hansı problemləri biz birlikdə həll edəcəyik. Biz axırıncı tikəmizi də dostumuzla bölüşməyə həmişə hazırıq.

Hesab edirəm ki, səfəriniz Gürcüstanın və Azərbaycanın xarici işlər nazirlikləri arasında konkret iş üçün də səmərəli, çox mühümdür, ictimaiyyət üçün də olduqca böyük əhəmiyyətə malikdir. Biz Gürcüstanla bütün öhdəliklərimizi, bütün münasibətlərimizi dostluq, qarşılıqlı anlaşma, qardaşlıq əsasında qururuq və quracağıq. Bizim bu münasibətlərimizə heç vaxt heç nə, heç kim mane ola bilməyəcəkdir.

Gürcüstan da, Azərbaycan da müstəqilliyə qovuşduqları vaxt təəssüf ki, münaqişələrlə bağlı bütün çətinliklərlə üzləşdilər. Sizdə, Gürcüstanda da münaqişə var, bizdə, Azərbaycanda da. Bizdə bu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bu, işimizi ümumən çətinləşdirir. Onu nəzərdə tuturam ki, biz müstəqil dövlətlər olandan sonra xalqlarımız qarşısında, ölkələrimiz qarşısında çox böyük yeni vəzifələr meydana çıxdı. Onların həllini çətinləşdirən budur ki, Gürcüstan da, Azərbaycan da daim münaqişənin tənzimlənməsi

ilə, sülhün bərqərar edilməsi ilə məşğul olurlar. Düşünürəm ki, biz buna nail olacağıq. Elə sizin xatırladığınız Tbilisi bəyannaməsi də hələ o vaxtlar, əvvəla, münaqişələri nizama salmaq üçün, ikincisi isə, bütün Qafqazda olmasa da, hər halda, Cənubi Qafqazda sülhün bərqərar edilməsi üçün qətiyyətlə irəliləməyə yönəldilmişdi.

Azərbaycanın Avropa Şurasına qəbul olunması ilə əlaqədar təbrikə görə sizə təşəkkür edirəm. Bu, Azərbaycan üçün həqiqətən tarixi əhəmiyyətli hadisədir. Lakin bunun Cənubi Qafqaz üçün də böyük əhəmiyyəti var. İndi bütün Cənubi Qafqaz ölkələri, xüsusi nəzərə çatdırıram, Gürcüstan da, Azərbaycan da bu mötəbər orqana – Avropa Şurasına daxildirlər. Bu, münaqişələrin həlli və ölkələrimizin demokratiya yolu ilə uğurlu inkişafı üçün yeni imkanlar açır.

Ölkəmizin Avropa Şurasına qəbul olunması prosesində Gürcüstan tərəfindən duyduğumuz dəstəyə görə təşəkkür etmək istəyirəm və bunu Eduard Amvrosiyeviçə yetirməyi xahiş edirəm. Mən bu barədə Eduard Amvrosiyeviçlə bir neçə dəfə telefonla danışmışdım və o sizin Strasburqdakı səfirinizə göstərişlər vermişdi. Yeri gəlmişkən, sizin çox yaxşı səfiriniz var, bu qadın – Lana Qoberidze orada böyük nüfuza malikdir. Bizim nümayəndələrimiz də deyirdilər ki, o həmişə onlarla, Azərbaycan nümayəndə heyəti ilə birlikdə olmuşdur.

Mən Strasburqda olarkən onu gördüm, təşəkkür etdim. Aydındır ki, bu, Gürcüstan prezidentinin prinsipial xəttidir və buna görə ona təşəkkür edirəm.

Şadam ki, Eduard Amvrosiyeviçin Türkiyəyə səfəri uğurlu keçmişdir. Sizi əmin etmək istəyirəm ki, bir çox illər üzərində işlədiyimiz bütün layihələr həyata keçiriləcəkdir. Mən bu barədə ona görə inamla danışıram ki, axı biz bu layihələr üzərində neçə illərdir işləyirik və nə qədər maneələr, nə qədər çətinliklər olmuşdur. Biz Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənilməsinə başlayanda gö-

rüşürdük, o vaxtlar nə qədər etirazlar olmuşdu. Bütün bunlara baxmayaraq, biz, hər halda, işləyirik və özü də çox uğurla işləyirik. Xəzərin statusu barədə indiyədək də çox mübahisələr gedir. Əlbəttə, Xəzərin hüquqi statusu çox böyük beynəlxalq məsələdir. Onu tez, qısa vaxtda həll etməyin mümkün olduğunu düşünmək sadəlövhlük olardı. Lakin biz artıq buna doğru irəliləyirik. Xəzər dənizində işin prinsipləri haqqında Rusiya ilə saziş bağlamışıq, Rusiya Xəzərdə işin prinsipləri haqqında Qazaxıstanla saziş bağlamışdır. Artıq üç Xəzəryanı dövlət birinci mərhələ üçün əslində eyni fikir söyləmişdir – bu, çox yaxşıdır, çünki belə mürəkkəb məsələni məhz mərhələ-mərhələ həll etmək olar. Bu bizə imkan verir ki, konkret əməli nəticələrə malik olduğumuz neft və qaz yataqları barəsində bağladığımız müqavilələr üzrə işimizi davam etdirək.

Bakı–Tbilisi–Ceyhan barəsində. Son vaxtlar müxtəlif əhval-ruhiyyələr meydana gəlir. Amma mən belə düşünürəm ki, bunlar artıq aradan qaldırdığımız məsələlər sırasına aiddir. Türkiyəyə mənim də səfərim olacaqdır. Hələ səfərdən əvvəl nümayəndələrimiz işləyirlər, gedib Ankarada da, Londonda da, başqa yerlərdə də görüşmüşlər. Söhbət həm Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasına başlamaqdan, həm də «Şahdəniz» yatağından qazın Türkiyəyə ixracı üzrə əməli işə başlanmasından gedir. Düşünürəm ki, hər iki layihə həyata keçiriləcək və mənim Türkiyəyə səfərimə qədər nümayəndələrimiz görüşəcək, işləyəcəklər və biz həll olunmamış məsələləri orada həll edə biləcəyik.

Yeri gəlmişkən, deməliyəm ki, Bakı–Tbilisi–Ceyhan layihəsinə digər şirkətlər tərəfindən də maraq göstərilir. Məsələn, Amerikanın «Şevron» şirkətinin prezidenti – o, Gürcüstanın da dostudur – bu yaxınlarda mənə məktub göndərərək bildirmişdir ki, tezliklə buraya gələcək, biz görüşəcəyik. Onlar bildirirlər ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasının iştirakçısı olmaq istəyirlər. «Şevron» əsasən Qazaxıstanda

neft çıxarır. Ancaq onlar bizdə də işləyirlər. Deməliyəm ki, çox perspektivli olan «Abşeron» yatağında işləyirlər. Hesab edirik ki, bu yataqdan yaxşı nəticələr alacağıq. Bəlkə də elə bir vaxt gələcək ki, təkcə bir Bakı–Tbilisi–Ceyhan neft kəməri kifayət etməyəcəkdir.

Bir sözlə, biz nikbinik və o məsələləri həll etmişik və həll edirik.

Rusiya prezidenti Putinin Azərbaycana səfəri barəsində öz müsbət münasibətini bir neçə dəfə açıq bildirdiyinə görə Eduard Amvrosiyeviçə minnətdaram. Mən hətta eşitmişdim, o demişdi ki, Rusiya prezidenti Putinin Azərbaycana səfərini, eləcə də Gürcüstana səfəri hesab edir. Bu, məhz belədir, doğrudur. Rusiya ilə ölkələrimiz arasında münasibətlər suverenlik, bizim ərazi bütövlüyümüz, müstəqilliyimiz əsasında qurulmalıdır. Bununla yanaşı, bu münasibətlər iqtisadiyyat, mədəniyyət, elm, insani münasibətlər sahəsində əməkdaşlıq üçün bütün ehtiyatlardan istifadə edilməsinin zəruriliyinə yönəldilməlidir. Bir sözlə, hesab edirəm ki, bu, təkcə Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz üçün də faydalı olmuşdur.

Sözün qısası, biz bəzi məsələlər barəsində sonra danışacağıq. Münasibətlərimiz artıq o dərəcədə formalaşmışdır ki, onları nə sola, nə də sağa döndərmək mümkündür. Biz bu münasibətləri qiymətləndiririk. Əvvəla, onların keçmişdə dərin kökləri var, onlar biz müstəqil dövlətlər olaraq təşəkkül dövrünü keçdiyimiz, inkişaf etdiyimiz bu illər ərzində sınaqlardan çıxmışdır. Onların Cənubi Qafqazın gələcəyi üçün də, Gürcüstanın və Azərbaycanın gələcəyi üçün də böyük əhəmiyyəti var.

Bir daha xahiş edirəm, mənim salamımı və ən xoş arzularımı Eduard Amvrosiyeviçə yetirin. O məni dəvət etmişdir, mən onu dəvət edirəm, vaxt tapmaq lazımdır. Biz müxtəlif beynəlxalq forumlarda tez-tez görüşürük, amma gərək o da Bakıda olsun, mən də Gürcüstanda olum. Aradan çox vaxt

keçəndə biz hər ikimiz darıxırıq. Düşünürəm ki, bizim səfərlərimiz də olacaqdır.

Salamımı və xoş arzularımı ona yetirin. Gürcü xalqına ən xoş arzularımı çatdırın. Əlbəttə, çox istəyirim ki, siz hazırda enerji böhranı ilə əlaqədar keçirdiyiniz çətinlikləri aradan qaldırasınız.

TÜRKMƏNİSTANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SAPARMURAD NİYAZOVA

Hörmətli cənab Prezident!

Türkmənista milli bayramı – Bayraq günü və anadan olduğunuz gün münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Qardaş Türkmənistanın tərəqqisi və xalqınızın rifahı naminə məqsədyönlü və ardıcıl fəaliyyətiniz Sizə böyük hörmət və məhəbbət qazandırmışdır.

Ölkələrimiz arasında dərin tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafındakı xidmətlərinizi yüksək qiymətləndirirəm.

Əminəm ki, Azərbaycan–Türkmənistan əlaqələri bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *15 fevral 2001-ci il*

«TRUD» QƏZETİNİN BAŞ REDAKTORU CƏNAB ALEKSANDR POTAPOVA

Hörmətli Aleksandr Serafimoviç!

Əlamətdar yubiley – «Trud» qəzetinin 80 illiyi münasibətilə Sizi və bütün həmkarlarınızı ürəkdən təbrik edirəm.

Qəzetiniz özünün bütün varlığı ərzində aktual və dərin məzmunlu yazıları ilə geniş oxucu auditoriyasının diqqət və marağını cəlb etmişdir.

«Trud» qəzeti gerçəkliyi doğru-düzgün və hərtərəfli əks etdirmək prinsiplərinə bu gün də sadiq qalaraq, bütün postsovet məkanında layiqli nüfuza və şöhrətə malikdir.

Sizə və bütün kollektivinizə böyük yaradıcılıq uğurları, xoşbəxtlik və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *15 fevral 2001-ci il*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (QİƏT) BAŞ KATİBİ VALERİ ÇEÇELAŞVİLİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

16 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Azərbaycana xoş gəlmisiniz. Qara dəniz hövzəsində iqtisadi əməkdaşlıq sahəsində birgə işimiz davam edir. İndi Siz, yeni Baş katib olaraq, irəliləməyimiz üçün daha çox işlər görürsünüz.

V a l e r i Ç e ç e l a ş v i l i: Heydər Əliyeviç, sağ olun, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında işlərin vəziyyəti barədə fikir və ideyaları, məlumatı Sizinlə bölüşdürmək imkanına görə çox minnətdaram. Bildiyiniz kimi, təşkilatın bir qurum kimi formalaşması özünün yekun mərhələsinə daxil olub və indi təşkilatın əsas ideyası və əsas fəaliyyəti üzv ölkələrə nəzərəçarpacaq fayda gətirə bilən konkret iqtisadi layihələrin işlənib hazırlanması və həyata keçirilməsi üzərində cəmləşdirilmişdir.

Əlbəttə, katiblik yeni şəraitdə region ölkələrinin iqtisadi əməkdaşlığı üçün əlavə imkanlar yaradılması məqsədilə özündən asılı olan bütün tədbirləri görməyə hazırdır. Söz yox ki, regionda çoxsahəli əməkdaşlıq sistemində təşkilatın rolunu üzv ölkələr tərəfindən necə təsəvvür edilməsindən də çox şey asılı olacaqdır. Regional problemlərin – nəqliyyat infrastrukturunun inkişafı, energetika problemlərinin və ya ətraf mühitin mühafizəsi sahəsindəki mövcud problemlərin təşkilat

çərçivəsində həlli və nəzərdən keçirilməsi üçün, onların həlli zamanı təşkilatın müxtəlif mexanizmlərindən istifadə olunması üçün ölkələrin öz üzərlərinə öhdəliklər götürməsi çox vacibdir.

Konkret iqtisadi layihələrdən danışarkən deməliyəm ki, biz müvafiq beynəlxalq təşkilatlardan olan təcrübəli mütəxəssisləri bu layihələrin işlənib hazırlanmasına və həyata keçirilməsinə cəlb etməyə çalışırıq. Çünki bu proqramların həyata keçirilməsinə maliyyə vəsaiti tapmaq üçün onlar lazimi dünya standartlarına uyğun olmalıdır. Bu baxımdan BMT-nin QİƏT-in əməkdaşlığı haqqında Birləşmiş Millətlər Təşkilatının ötən il dekabrın 16-da qəbul etdiyi qətnamənin çox böyük əhəmiyyəti var. Bu, Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış agentlikləri, onun təsisatları ilə əməkdaşlıq üçün qarşımızda yeni imkanlar açır. Deməliyəm ki, burada prinsipcə çox perspektivli istiqamətlər meydana gəlir. Məsələn, biz Birləşmiş Millətlər Təşkilatının Avropa üçün iqtisadi komissiyası ilə çox əlbir şəraitdə işləyirik. İndi yol nəqliyyatı sahəsində əməkdaşlıq haqqında birgə memorandum hazırlayırıq. Bu memorandum bizə həmin sahədə əməkdaşlığı genişləndirməyə imkan verəcəkdir. Biz gömrük və sərhəd proseduralarımızı uyğunlaşdırmaq üzərində işləyirik, bundan məqsəd odur ki, biznesmenlər, o cümlədən Azərbaycan biznesmenləri bilsinlər ki, müəyyən sənədlər paketi ilə onlar regionda istənilən sərhədləri, məsələn, Gürcüstan–Türkiyə sərhədini keçərək öz mallarını Bolqarıstana satmağa apara bilərlər.

Mənə elə gəlir ki, bu, regionda qarşılıqlı sürətdə faydalı ticarət üçün imkanları xeyli artıracaqdır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə əməkdaşlıq çox perspektivli istiqamətdədir. Biz təşkilatın 9 ölkəsi üçün – təəssüf ki, Rusiya və Ukrayna FAO-nun üzvü deyildir – regional əsasda xüsusi texniki yardım proqramı işləyib hazırlamışıq. Bu proqram gələcəkdə

vahid kənd təsərrüfatı bazarının formalaşmasına və regionun ərzaq sarıdan təhlükəsizliyinin təmin olunması proqramının hazırlanmasına kömək edəcəkdir. Bundan əlavə, həmin proqram bizim müvafiq dövlət orqanlarına və strukturlarına lazımi strategiyanı formalaşdırmağa imkan verəcəkdir ki, kənd təsərrüfatı məhsulları istehsalçılarımız malları dünya ticarət təşkilatının standatlarına uyğun surətdə istehsal etsin və beləliklə, dünyanın bir çox bazarlarına çıxa bilsinlər.

Sizə həmçinin məlumat verməliyəm ki, biz ESKATO-dan – BMT-nin Asiya və Sakit okean regionu üzrə komissiyasından maraqlı təklif almışıq. Üç Cənubi Qafqaz dövləti, habelə Türkiyə və Rusiya bu komissiyanın üzvləridir. Komissiya Mərkəzi Asiya regionu ölkələri üçün təşkil olunmuş fond kimi bir fond yaradılmasını təklif etmişdir. Zənnimcə, bu bizim üçün çox faydalı olacaqdır. Ona görə ki, bu, region üçün əlavə vəsait, çoxsahəli əməkdaşlığın təşkilində bizə kömək göstərəcək əlavə mütəxəssislərin, peşakarların cəlb edilməsi deməkdir.

Mən bizim Qara Dəniz Ticarət və İnkişaf Bankı barədə ayrıca bir neçə söz demək istərdim. Bu bank regionda getdikcə daha ciddi maliyyə qurumuna çevrilir. O, artıq fəaliyyət göstərir və bir sıra maraqlı layihələri maliyyələşdiribdir. Elə bu günlərdə mən Türkiyədə, İstanbulda bu ölkədə su elektrik stansiyasının tikintisi üçün kredit sazişinin imzalanması mərasimində iştirak etdim. Bütün layihə 12 milyon dollar məbləğində qiymətləndirilir və onun 4,5 milyon dollarını bizim bank verir. O, beynəlxalq maliyyə bazarının resurslarını regionun ehtiyacları üçün, uzunmüddətli əməkdaşlıq proqramlarının maliyyələşdirilməsi üçün cəlb etmək sahəsində fəaliyyətə başlamışdır. Bununla əlaqədar mən ölkələrimizin bu bankın fəaliyyətinə öz töhfəsini verməsinin vacibliyini vurğulamaq istərdim. Mən bunu Eduard Amvrosiyeviçlə söhbətimiz zamanı da xahiş etdim. Çünki bizim banka müəyyən borcumuz var. Mən bunu sizdən də xahiş etmək istəyi-

rəm, ona görə ki, əgər bankın təsisçiləri öz öhdəliklərini yerinə yetirərlərsə, onda bu, banka öz reytinqini yüksəltməyə, beynəlxalq bazarın ciddi maliyyə ehtiyatlarını uzunmüddətli əsasda cəlb etməyə və bunlardan regionda istifadə etməyə imkan verər.

H e y d ə r Ə l i y e v: Ən çətin məsələ beynəlxalq təşkilatları maliyyələşdirməkdir. Müxtəlif beynəlxalq təşkilatlara nə qədər çox daxil olursansa, maliyyələşdirmənin zəruriliyi də bir o qədər artır. Maliyyələşdirmə məsələsində isə ölkələrimizdə hələlik hər şey rəvan deyildir, hər şey alınmır. Buna baxmayaraq, hesab edirəm ki, siz məsələni düzgün qoyursunuz. Biz maliyyələşdirmə üçün vəsait axtarıb tapmalıyıq. Bir halda ki, biz bankın yaradılmasını birlikdə qərara almışıq, birləşmişik, heç kəs bunun əleyhinə çıxmayıb, deməli, biz bankı dəstəkləməliyik.

V a l e r i Ç e ç e l a ş v i l i: Mən Gürcüstanın bu bankla münasibətlərini misal göstərə bilərəm. Biz banka 1,5 milyon dollar vəsait qoymuşuq və borcumuz da təxminən bir o qədərdir. Gürcüstan üçün indi bankın nəzərdən keçirdiyi layihələrin ümumi dəyəri təqribən 15–17 milyon dollar məbləğindədir. Layihələrdən biri, məsələn, Yunanıstan tərəfindən təqdim edilmişdir. Yunanıstan tərəfi kredit alır və sərnişin gəmilərinin buraxılması üçün zavodun tikintisini maliyyələşdirir. Yəni Yunanıstan həmin katerlərdən sonra öz ölkəsində istifadə etmək üçün kredit götürür və onların hazırlanmasını maliyyələşdirir. Yunanıstanda çoxlu ada var. Bu olduqca sərfəli layihədir. Gürcüstan, əslinə qalsa, borc alan ölkə deyil, amma bundan bilavasitə fayda götürəcəkdir. Həmin layihələrin ümumi məbləği təqribən 17 milyon dollardır ki, bu da 1,5 milyon dolların banka qoyulmasının bizim üçün sərfəli olduğuna bilavasitə sübutdur. Buna görə də Azərbaycanın banka qoyduğu vəsaitlə yanaşı, maliyyələşdirilmək üçün təq-

dim edə biləcəyi layihələr üzərində də çox ciddi işləmək lazımdır.

Heydər Əliyeviç, demək istəyirəm, hiss edirəm ki, katibliyə inam artır. Bu çox yaxşı faktdır və bizim üçün böyük şərəfdir. İndi bizdə sədr Rusiya Federasiyasıdır. Bu ölkə Qara dəniz əməkdaşlığının inkişaf etdirilməsi sahəsində çox fəal mövqe tutur. Bu sədrliyin əsas xüsusiyyəti olaraq mən Avropa Birliyi ilə keyfiyyətcə yeni münasibətlərimizin inkişaf etdirilməsinin mümkünlüyünü nəzərə çatdırmaq istəyirəm. Bilirsiniz ki, biz QİƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin Tbilisidə keçirilmiş müşavirəsində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə Avropa Birliyi arasında əməkdaşlığa dair platforma qəbul etmişik. Təəssüf ki, Avropa Birliyi ilə bağlı heç də hər şey baş tutmamışdır. Lakin indi bizim sədr İqor Sergeyeriç İvanov mənə məlumat verdi ki, Romano Prodi onun adına məktub göndərmişdir. Məktubda o, Avropa Birliyi ilə təşkilatımız arasında əməkdaşlığın imkanlarını müəyyənləşdirmək üçün təşkilatın Baş katibini Brüsselə danışıqlara dəvət edir. Zənnimcə, bu çox mühüm cəhətdir, ona görə də mən əlimdən gələni əsirgəməyərək Avropa Komissiyasını inandırmağa çalışacağam ki, biz onların regionda məqsədlərinin həyata keçirilməsi üçün öz mexanizmlərimizlə faydalı ola bilərik. Çünki araşdırsaq görərik ki, məqsədlərimiz əslində uyğun gəlir. Heydər Əliyeviç, ona görə də əgər öz tövsiyələrinizi versəniz, Sizə çox minnətdar olardım.

H e y d ə r Ə l i y e v: Mən bunu tamamilə dəstəkləyirəm. Bu təşkilatlar bir-birinə çox yaxındır. Nəzərə almaq lazımdır ki, Avropa Birliyinin həyata keçirdiyi proqram Qara dəniz hövzəsi regionunu əhatə edir, ona görə də Qara Dəniz Təşkilatlarının Avropa Birliyi ilə əməkdaşlığı çox mühüm amildir. Avropa Birliyinin nümayəndə heyəti yaxın günlərdə buraya gələcək, Gürcüstanda da, Ermənistanda da olacaqdır. Mən onlara bu mövzuda mütləq danışacağam.

V a l e r i Ç e ç e l a ş v i l i: Heydər Əliyeviç, mən Sizə çox minnətdar olardım. Çünki əminəm ki, əgər əməkdaşlığımızın mövcud mexanizmlərini regional layihələrin həyata keçirilməsində Avropa Birliyinin təcrübəsi ilə, onların maliyyə imkanları ilə uyğunlaşdırsaq, onda daha böyük əyani və nəzərəçarpacaq səmərə əldə etmiş olarıq.

Təşkilatda növbəti sədr Türkiyə olacaqdır. Deməliyəm ki, Türkiyə Cümhuriyyətinin Xarici İşlər Nazirliyini artıq indidən öz sədrliyi dövründə əhəmiyyət veriləcək öncül istiqamətlər üzərində ciddi düşünür. Katibliyin tarixində ilk dəfədir ki, sədrliyin başlanmasına üç ay qalmış, Türkiyə XİN-in və bütün katibliyin nümayəndələrinin geniş görüşü keçirilmişdir. Görüşdə biz təşkilatın inkişafı, layihələrin gerçəkləşdirilməsi barədə öz mülahizələrimizi şərh etdik. Bu görüş protokollaşdırılıb və öncül istiqamətlər Türkiyə tərəfindən formalaşdırılacaqdır. Azərbaycan XİN-də görüş zamanı mən bu protokolu həmkarlarıma verdim ki, onların öz fəaliyyətini gələcək öncül istiqamətlərlə əlaqələndirməyə imkanı olsun. Düşünürəm ki, bu cür əlaqələndirmə gələcəkdə əməkdaşlığı daha yaxşı inkişaf etdirməyə imkan verəcəkdir.

Heydər Əliyeviç, sözümü tamamlayaraq Sizə bunu demək istəyirəm. Bilirəm ki, sabah Siz bizim qonşu İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşəcəksiniz. Deməliyəm ki, biz təşkilatlararası əsasda əməkdaşlığa hazırıq və səmərəli əməkdaşlığımız üçün çox ciddi zəmin var. Mən ilk növbədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsini göstərərdim. İndi biz İstanbulda mütəşəkkil cinayətkarlığa qarşı mübarizə mərkəzi yaradırıq və Cənub–Şərqi Avropa üçün sabitlik paktının himayəsi altında çox yaxşı əlaqələr və ünsiyyətlərə malikik. Şimal–Qərb istiqamətində əməkdaşlığımıza gəldikdə, o da sahmana salınmaqdadır. Əgər biz bu xətti Cənub–Şərq istiqamətində də – sirr deyil ki, narkotik və psixotrop maddələr Avropaya əsasən bu regiondan gəlir – davam etdi-

rəcək, əməkdaşlığın bu məhvərini yaratsaq, onda, zənnimcə, bu məsələdə dəstəklənməyimiz üçün çox ciddi maliyyə vəsaiti tapıla bilər. Çünki Avropada yaxşı başa düşürlər ki, onlar bizə nə qədər çox kömək göstərərlərsə, Avropa Birliyinin özündə və ümumən Avropada problemlər bir o qədər az olar.

Sonra demək istərdim ki, Baş katib olaraq, mən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycanın bundan sonra da fəal rol oynayacağına ümid bəsləyirəm və tərəfimdən sizi əmin etmək istəyirəm ki, Baş katib kimi və Azərbaycanda bir çox insanlarla çox səmimi, qarşılıqlı münasibətlərlə bağlı olan adam kimi, var qüvvə ilə çalışacağam ki, təşkilat ölkələrimizin beynəlxalq əmək bölgüsü sistemində daha səmərəli iştirakına və öz iqtisadiyyatını inkişaf etdirməsindən ötrü əlavə imkanlar qazanmasına şərait yaratsın.

H e y d ə r Ə l i y e v: Məlumata görə sağ olun. Zənnimcə, ötən dövr ərzində Baş katib kimi fəaliyyətiniz göstərir ki, təşkilatımız daha mütəhərrik olur, daha da təkmilləşir. Sözün düzü, biz bu təşkilatı yaradarkən çox da əmin deyildik ki, konkret, əməli nəticələr ola bilər. Lakin bu təşkilatın üzvü olan ölkələrin dövlət başçılarının hər zirvə toplantısından, xarici işlər nazirlərinin və digər nümayəndələrin görüşlərindən sonra, məsələn, şəxsən mən belə bir qənaətə gəlirəm ki, bu təşkilat həqiqətən gərəkli və faydalıdır, biz hamımız onun daha səmərəli fəaliyyət göstərməsinə kömək etməliyik.

Sabah İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi ilə mənim görüşüm olacaqdır. Mən onunla bu mövzuda hökmən danışacağam. Əgər biz bu təşkilatları yaxınlaşdırmağa həqiqətən müvəffəq olsaq, onda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üçün də, EKO üçün də fəaliyyət sahəsi genişlənər. Odur ki, mən bunu hökmən edəcəyəm.

Biz təşkilatımızın inkişafı üçün öz tərəfimizdən hər şey etmişik və edəcəyik. Bu ideyanı və əməli fəaliyyəti prinsipcə lap əvvəldən dəstəkləmişik.

O ki qaldı banka, mən bu barədə lazımi göstərişlər verməyə çalışacağam. Bacardığımızı edəcəyik. Əgər indi sədrlik Türkiyəyə keçirsə, bu yaxşıdır. Çünki bu təşkilatın yaradılmasının təşəbbüsçüləri məhz onlar olmuşlar və onların imkanları daha böyükdür. Üstəlik, Baş katibin iqamətgahı da Türkiyədə yerləşir. Bir sözlə, bu dövr digər dövrlərə nisbətən daha səmərəli ola bilər.

Mən sizinlə görüşməyimə şadam. Əmin ola bilərsiniz ki, mən bu təşkilatın çərçivəsində əməkdaşlığımızın inkişafına fəal sürətdə kömək göstərəcəyəm.

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (EKO) BAŞ KATİBİ ƏBDÜLRƏHİM QƏVAHİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

17 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, Sizi səmimi-qəlbdən salamlayıram.

Mənim xatirimdədir, biz keçən il Tehranda EKO-nun zirvə görüşündə sizi Baş katib seçdik. Güman edirəm ki, bu müddətdə artıq xeyli iş görmüsünüz. Buyurun, sizi dinləyirəm.

Ə b d ü l r ə h i m Q ə v a h i: Cənab Prezident, hər şeydən öncə, gərgin işinizə baxmayaraq, vaxt tapıb məni qəbul etdiyinizə görə zati-alinizə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin Sizə dərin minnətdarlığımı yetirirəm ki, EKO-nun Baş katibi vəzifəsinə seçilməyimə Siz o vaxt müsbət münasibətinizi bildirdiniz.

Mən söhbətimə ingilis dilində başladım, indi isə fars dilində danışmaq istəyirəm.

H e y d ə r Ə l i y e v: Ana dilində danışmaq hər şeydən yaxşıdır.

Ə b d ü l r ə h i m Q ə v a h i: Bəli, cənab Prezident.

Zati-aliləri, mən bir qədər sonra EKO-nun fəaliyyəti haqqında fikirlərimi söyləyəcəyəm. Amma İran diplomatı, iranlı olduğuma görə ilk növbədə istərdim ki, bir vətəndaş kimi, öz hisslərimi Sizə çatdırım. Mən burada özümü evimdə olduğum kimi hiss edirəm. Mən Azərbaycanı qardaş ölkə, doğma vətənim hesab edirəm.

İcazə versəniz, indi mən EKO haqqında Sizə bir sıra məlumatlar verərdim.

H e y d ə r Ə l i y e v: İndi görürsənmi, ana dilində danışmaq necə yaxşıdır. Mən qonaqlarımızın ingilis dilində danışığını o qədər eşidirəm ki, əgər İrandan gələnləri də ingilis dilində eşitsəm, daha bu nə oldu?

İranla biz qardaşıq, dostuq, dillərimiz bir-birinə oxşayır. Azərbaycan dilində nə qədər fars sözləri var. Elə fars dilində də nə qədər türk sözləri var. Sən ingilis dilində danışırsan, bəlkə də Çin dilində danışmaq istəyirsən. Belə olarmı?

Biz gənc olanda, məktəbdə oxuyanda həmişə adamlar birbirindən soruşurdu, hansı dil daha yaxşı dildir. O vaxt dünyanın başqa dillərindən o qədər məlumatımız yox idi. Ona görə də fars dilini yaxşı dillərdən biri hesab edirdik. Bizim müştərək şairlərimiz fars dilində şeirlər yazıblar. Fars dili şeir dilidir. Azərbaycan dili də elədir. Çünki dünyanın ən qədim şeirlərinin yarandığı bir məkan varsa, o da Azərbaycandır, İrandır. Firdovsi, Hafiz, Sədi… Nə qədər desəniz saya bilərəm. Bunlar İran şairləridir. Amma bizimkilər də, məsələn, Nizami fars dilində yazıbdır. Bir sözlə, mən sizə fars dilini öyrətdim. İndi buyura bilərsiniz.

Ə b d ü l r ə h i m Q ə v a h i: Zati-aliləri, mənim 40 il müəllimim olmuş Ayətullah Məhəmməd Cəfəri – Allah ona rəhmət eləsin, o, iki il bundan öncə dünyasını dəyişibdir – çıxışlarını, söhbətlərini, adətən, iki dildə – Azərbaycan və fars dillərində edərdi. Ötən 40 ildə daim onun yanında olduğuma görə ondan çox şeyləri öyrənmişəm. Eyni zamanda da mən Azərbaycan dilində hər hansı bir fikir eşidəndə, çox şeyi başa düşürəm. Ona görə ki, Azərbaycan və fars dillərində müştərək sözlərimiz çoxdur.

H e y d ə r Ə l i y e v: Mən də fars dilində danışığı dinləyəndə sözlərin çoxunu anlayıram.

Ə b d ü l r ə h i m Q ə v a h i: Son dəfə iki dildə yazıb-yaratmış sənətkarlardan biri də XX əsrin görkəmli şairi, rəhmətlik Şəhriyar olmuşdur. Allah ona rəhmət eləsin. Şəhriyar həm Azərbaycan, həm də fars dilində şeirlər yazardı.

H e y d ə r Ə l i y e v: Bəli, o, Azərbaycanda çox sevilən şairdir. Şəhriyar fars dilində də, Azərbaycan dilində də çox gözəl şeirlər yazırdı. O, böyük şairimizdir. Zaman keçdikcə xalqlarımız Şəhriyarın nə qədər böyük şəxsiyyət olduğunu daha çox hiss edəcəklər. İndi buyurun, mətləbə keçək.

Ə b d ü l r ə h i m Q ə v a h i: Hörmətli cənab Prezident, EKO-nun zirvə görüşündə Sizin nitqinizi mən sonra götürüb diqqətlə oxudum və öyrəndim. Biz Sizin həmin nitqinizdəki dörd çox mühüm məsələni EKO-nun gündəliyinə daxil etdik və indi onun həyata keçirilməsi üzərində işləyirik.

Zati-aliləri, nitqinizdə toxunduğunuz məsələlərdən biri nəqliyyat dəhlizinin yaradılması barədə idi. Şimal–Cənub istiqamətində yaradılacaq dəhlizin əhəmiyyəti çox böyükdür. Azərbaycan Xarici İşlər Nazirliyində və «Azəravtonəqliyyat» Konsernində keçirdiyim görüşlərdə biz bu fikrin əhəmiyyəti haqqında geniş söhbət etdik. Bu dəhlizin çox böyük perspektivi vardır.

Cənab Prezident, ikinci məsələ ticarətin inkişafı və genişlənməsi məsələsi idi. EKO-nun üzvü olan ölkələr arasındakı ticarətin inkişafı çox mühüm bir məsələdir. Biz bunun üçün lazımi bir sənəd hazırlayıb imzalayacağıq. Fikrimiz var idi ki, ticarət münasibətlərini inkişaf etdirmək üçün 2001-ci ildən tarifləri bir qədər azaldaq və beləliklə, Sizin göstərdiyiniz müddəanı həyata keçirmək üçün lazım olan şəraitin yaradılmasına kömək göstərək.

Zati-aliləri, Sizin toxunduğunuz üçüncü məsələ də çox böyük əhəmiyyət daşıyır. Bu, EKO-nun üzvü olan ölkələrdə özəlləşdirmə prosesini sürətləndirmək, kiçik və orta müəssisələri inkişaf etdirmək məsələsidir.

Mən burada sizin Ticarət naziriniz cənab Bağırovla da görüş keçirdim. Mən ona dedim ki, biz Tehranda iki məsələ üzrə seminar keçirəcəyik. Ondan xahiş etdim ki, həm özəlləşdirmə, həm də kiçik və orta müəssisələrin inkişaf etdirilməsinə dair keçirəcəyimiz seminarda Azərbaycan nümayəndə heyəti iştirak etsin.

Dördüncü çox mühüm məsələ EKO və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əlaqələr yaradılmasıdır. Biz həmin məsələni EKO-nun Daimi Nümayəndələr Şurasında dəfələrlə müzakirə etmişik və onun həllinə yaxınlaşırıq. Biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi ilə Bakıda qeyri-rəsmi görüş də keçirdik. Çalışırıq ki, bu məsələ də öz həllini tapsın.

Cənab Prezident, mən EKO-nun katibliyini bir qədər dəyişdirmək fikrindəyəm. Məqsəd bundan ibarətdir ki, EKO-nun fəaliyyətini daha səmərəli, daha təsirli edək. Fikrimcə, həlli qeyri-mümkün olan bir sıra layihələri kənara qoyub, həyata keçirə biləcəyimiz layihələri reallaşdırmaq üçün bu məsələ üzərində daha çox işləmək lazımdır.

Cənab Prezident, Sizin dəstəyinizə və köməyinizə bizim çox böyük ehtiyacımız vardır. Belə hesab edirik ki, Sizin dəstəyiniz nəticəsində biz regionda iqtisadi ticarət əlaqələrini daha da genişləndirə və inkişaf etdirə bilərik. Sizə bir daha öz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Əvvəla, çox məmnunam ki, siz mənim Tehrandakı nitqimdə irəli sürdüyüm məsələlərə diqqət yetirmisiniz və onların həll edilməsi üçün lazımi tədbirlər görmüsünüz. Həmin məsələlərin bundan sonra da əməli sürətdə həyata keçirilməsi üçün Azərbaycan tərəfindən nə asılıdırsa, nə lazım olarsa, biz onların hamısını etməyə hazırıq.

Şimal–Cənub nəqliyyat dəhlizi çox əhəmiyyətlidir. Bilirsinizmi, Azərbaycan ərazisindən belə bir dəhlizin yaxşı işə salınması Avropa ilə Asiyanın, yəni EKO-ya daxil olan ölkələ-

rin nəqliyyat məsələlərini xeyli yüngülləşdirəcəkdir. Burada avtomobil yolu, körpülər yaxşı qaydaya salınmalıdır, təmir olunmalıdır. Güman edirəm ki, biz Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsinə nail olacağıq. Beləliklə də Azərbaycanın ərazisindən keçib Təbrizə, oradan da İranın başqa məntəqələrinə gedən dəmir yolu çox əhəmiyyətli nəqliyyat vasitəsi olacaqdır.

Mən bilirəm ki, Rusiya da bu məsələdə çox maraqlıdır. Amma təkcə Rusiya yox. Rusiyadan Avropaya həddən çox dəmir yolları vardır. Bunların hamısından istifadə etmək olar.

Sahibkarlığın inkişaf etdirilməsi və özəlləşdirmə sahəsində EKO-nun birgə iş görməsi də yaxşı məsələdir. Burada bizim imkanlarımız çoxdur. Mən məmnunam ki, siz Ticarət naziri Bağırovla görüşmüsünüz və istəyirsiniz ki, Tehranda bu barədə bir seminar və yaxud da görüş keçirəsiniz. Mən bununla razıyam. Bizim özəlləşdirmə ilə məşğul olan xüsusi nazirimiz vardır. Mən naziri oraya göndərə bilərəm ki, həmin tədbirdə iştirak etsin və Azərbaycanın bu barədə imkanlarını orada izah etsin.

EKO təşkilatı ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının əlaqələrinin genişlənməsi çox vacibdir. Biz bu barədə fikirlərimizi Tehranda bildirdik. Amma mən bir məsələni qeyd etmək istəyirəm ki, bu iki təşkilat birləşməsin, bir-birinə qarışmasın. Çünki onda biz çox şey itirə bilərik. Həmin təşkilatlar arasında, sadəcə, əməkdaşlıq yaratmaq və onu inkişaf etdirmək lazımdır.

EKO təşkilatı öz tərkibinə görə müəyyən bir regiona aiddir. Əgər bu təşkilatlar bir-birinə qarışsalar, onda bu regionların bəzisi irəli çıxar, bəzisi geri qalar. Mən hesab edirəm ki, bunlar arasında əməkdaşlıq lazımdır. Ancaq mən bu iki təşkilatın bir-birinə qarışması, yəni birləşməsi fikri ilə razı deyiləm. Yəni hər iki təşkilat çox faydalı işlər görür və onların

hər biri müstəqil olaraq iş görsə, bir-biri ilə əməkdaşlıq yarada bilsə, daha da faydalı olar.

EKO təşkilatında Azərbaycanın iştirakından çox məmnun olduğumuzu bir daha bildirmək istəyirəm. EKO təşkilatının Tehranda keçirilmiş zirvə görüşünün çox gözəl təşkil olunmasını yaxşı xatırlayıram. Bunun nəticələrindən biri də odur ki, EKO təşkilatının Baş katibi İran nümayəndəsi seçildi. Ümidvaram ki, siz İranı, eyni zamanda, təşkilatın üzvü olan bütün ölkələri təmsil edərək Baş katib kimi, bundan sonra daha da səmərəli işlər görəcəksiniz.

Əbdülrəhim Qəvahi: İnşallah. Cənab Prezident, Sizə təşəkkürümü bildirirəm və Sizin vaxtınızı bundan artıq almaq istəməzdim.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm.

BRUNEY DARUSSALAMIN SULTANI
ƏLAHƏZRƏT
HƏSSƏNAL BOLKİANA

Əlahəzrət!

Bruney Darussalamın milli bayramı – Milli gün münasibətilə Sizi və dost Bruney xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Bruney Darussalam arasındakı dostluq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, qarşılıqlı əlaqələrimiz bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *17 fevral 2001-ci il*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-ƏHMƏD
ƏS-SABAHA

Əlahəzrət!

Küveyt dövlətinin milli bayramı – Milli gün münasibətilə Sizi və dost Küveyt xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Küveyt dövləti arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, əlaqələrimizin genişlənməsi və inkişafı bundan sora da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *17 fevral 2001-ci il*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LENNART MERİYƏ

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Estoniya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Estoniya Respublikası arasındakı dostluq və əməkdaşlıq əlaqələri daim xalqımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *17 fevral 2001-ci il*

MDB ÖLKƏLƏRİ SƏRHƏD QOŞUNLARI KOMANDANLARI ŞURASININ NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN ÖLKƏMİZƏ GƏLMİŞ MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN SƏRHƏD QOŞUNLARI NÜMAYƏNDƏ HEYƏTLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

20 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli qonaqlar, sərhədçilər, mən sizi salamlayıram. MDB ölkələri sərhəd xidmətlərinin qarşılıqlı fəaliyyəti ilə bağlı mühüm məsələləri həll etmək üçün burada keçirdiyiniz görüşə şadam. Düşünürəm ki, siz artıq işləmisiniz, nə isə etmisiniz, nə isə edəcəksiniz. Şadam ki, bu görüş Azərbaycanda keçir. Səhv etmirəmsə, Azərbaycanda belə görüş olmayıbdır.

Sərhəd xidməti mənə gənclik illərimdən məlumdur. Çox fəxri, eyni zamanda, çox ağır, çətin xidmətdir. Doğrudur, sərhəd qoşunlarına birbaşa münasibətim olduğu illərdəki vəziyyətlə indiki vəziyyət arasında fərqi bilmirəm, lakin hər halda, sərhəd qoşunlarının işinin başlıca obyekti dövlət sərhədini qorumaqdır. Sərhədləri qorunan ölkənin sərhədlərinin bütövlüyü də, toxunulmazlığı da, suverenliyi də, şübhəsiz, dövlət sərhədinin necə qorunmasından asılıdır. Bəziləri keçmiş barədə danışmağı sevmirlər, mən isə, hər halda, hesab edirəm ki, keçmişsiz indi yoxdur. Keçmiş vaxtlarda sərhəd xidməti çox sahmanlı idi. Sərhəd qoşunlarında nizam-intizam son dərəcə yüksək idi. Deyərdim ki, qoşunların heç bir növündə sərhəd

qoşunlarında olduğu kimi, belə yüksək nizam-intizam, mütəşəkkillik yox idi. Ona görə də sərhədçilər xüsusi növ hərbçilər sayılırdılar.

Məndə Azərbaycan sərhədləri ilə bağlı şəxsi xatirələr də çoxdur. O vaxtlar mən zastavaların əksəriyyətini, bütün sərhəd çimərliklərini, komendantlıqları gəzib dolaşmışdım. Azərbaycan artıq müstəqil dövlət olduqdan sonra mən bəzi sərhəd məntəqələrində olmuşam. Ancaq o vaxtlar tez-tez olurdum, çünki öz vəzifəmə görə bu sahənin kuratoru idim. Sərhəd xidmətində çox şey xoşuma gəlirdi. Bu barədə ona görə danışıram ki, biz – mən Azərbaycan sərhədçilərini nəzərdə tuturam və yəqin bu, digər ölkələrin sərhədləri tərəfindən də qəbul oluna bilər – keçmiş təcrübədə əhəmiyyətli, yaxşı, faydalı nə vardısa, onların hamısından istifadə edək.

Mən sizə baxıram və görürəm ki, sizlərdən heç kim dövlətləriniz müstəqillik əldə etdikdən sonra doğulmayıbdır. Mən sərhədçilər kimi, sizin xidmətinizi nəzərdə tuturam. Yəqin ki, sizin hamınız, hər halda, əksəriyyətiniz o vaxtlarda sərhəd qoşunlarında xidmət etmisiniz, təcrübəyə, biliyə, iş stajına maliksiniz. Ona görə də bunların hamısını məndən yaxşı bilirsiniz. Mən öz təəssüratlarımdan, ən xoş təəssüratlarımdan danışıram.

Sərhədçi borşu xoşuma gəlirdi. Bilirsinizmi, mən çox qoşun hissələrini gəzib dolaşmışam, amma zastavalarda verilən borşun xüsusi dadını indiyədək xatırlayıram. Bəzən düşünürəm ki, belə borşun dadına bir dəfə də baxmaq nə yaxşı olardı. Təəssüf ki, belə borş ələ büşmür.

Bu gün müzakirə etdiyiniz məsələlər – terrorizmlə mübarizə hamı üçün çox aktualdır. Təəssüf ki, bu, indi artıq bütün dünya üçün çox təhlükəli hal olmuşdur. Ona görə də beynəlxalq terrorizmlə, ekstremizmlə mübarizə indi, şübhəsiz, son dərəcə böyük əhəmiyyət kəsb edir. Siz yəqin ki, bu məsələni müzakirə etmisiniz, bu məsələlər üzrə qarşılıqlı fəaliyyət göstərmək

barədə razılığa gəlmisiniz. Biz belə fəaliyyəti çox mühüm və faydalı hesab edirik. Bir sözlə, mən sizi bir daha salamlayıram, gələcək işinizdə uğurlar arzulayıram. Sizi dinləməyə şad olardım.

Konstantin Totski (*Rusiya Federasiyası Federal Sərhəd Xidmətinin direktoru general-polkovnik*): Çox hörmətli Heydər Əliyeviç, hər şeydən əvvəl, görüşümüzün Azərbaycan torpağında, gözəl Bakı şəhərində keçirilməsinə razılıq verdiyinizə görə şəxsən öz adımdan və həmkarlarımın tapşırığı ilə Sizə səmimi təşəkkürümüzü bildirmək istərdim. Bizlərdən bir çoxu Bakı şəhərini tanıyır, Azərbaycanda, Bakıda olmuşdur. Yoldaşlarımızın bir qismi dedi ki, onlar buraya ilk dəfə gəlirlər. Odur ki, plana görə sabah iki saat şəhərlə tanışlıq nəzərdə tutulmuşdur.

Heydər Əliyev: Hələ tanış olmayıbsınız?

Konstantin Totski: Xeyr, hələlik yox. Əvvəlcə işləmək lazımdır. Düşünürəm ki, bu gözəl şəhərə ilk dəfə gələn həmkarlarımızın sabah belə təəssüratları olacaqdır. Bir sözlə, çox sağ olun. Biz çox şadıq ki, Komandanlar Şurasının iclası, nəhayət, Azərbaycanda keçirilir. Siz terrorizmlə mübarizə kimi mühüm məsələləri və bu gün müzakirə olunmuş bəzi digər məsələləri doğru qeyd etdiniz. Biz yekdil rəyə gəldik, bəzi tərəddüdlər oldu, bir məsələni təxirə saldıq. Lakin Sizə məlumat vermək istərdim ki, Komandanlar Şurasının bütün üzvləri Sizin doğru olaraq söylədiyiniz mövqeyi yekdilliklə dəstəkləyirlər.

Biz mürəkkəb bir zəmanədə yaşasaq da, vahid ailədə doğulmuşuq, sərhədçilər olaraq, eyni məktəblərdə oxumuşuq, birlikdə, bəzən müxtəlif məntəqələrdə, bəzən də eyni məntəqələrdə xidmət etmişik, görüşmüşük, indi isə müstəqil xidmət idarələrinə rəhbərlik edirik. Şübhəsiz ki, bizlərdən hər biri öz dövlət rəhbərinin, ali siyasi rəhbərinin, hökumətinin də iradəsini yerinə yetirir. Amma aydın başa düşürük ki, sərhəddə

biz hamımız qonşuyuq. Bir yerə toplaşdıqda söhbətə vəziyyətin birlikdə müzakirəsindən başlayırıq. Əvvəlcə bütövlükdə MDB sərhədləri üzrə əlaqələndirmə xidmətinin sədri bizə vəziyyət barədə məlumat verir, sonra hər bir komandan onu düşündürən problemlər barəsində çıxış edir. Sərhədin birgə sahələrində qayda-qanunu da, normal, yaxşı, qarşılıqlı əlaqəni, əməkdaşlığı da birgə səylərimizlə təmin etmək lazımdır.

Biz transsərhəd cinayətkarlığının müxtəlif növləri ilə mübarizə üzrə çoxlu birgə əməliyyat aparırıq. Bir çox səbəblərə görə, yəqin ilk növbədə dövlətlərimizin coğrafi mövqeyinə görə biz qaçaqmalçılığın yolu, narkotiklərin, qanunsuz miqrasiyanın tranzit marşrutları üstündəyik. Bizim ümumi problemlərimiz həddindən artıqdır. Çox şadam ki, Komandanlar Şurası əvvəlkitək kifayət qədər fəal işləyir.

Biz sənədlər də qəbul edirik, müvafiq qərarlar da. Bu da çox mühüm amildir ki, biz vaxtaşırı görüşürük. Bu bizi həm insani cəhətdən yaxınlaşdırır, həm də tamam başqa mühit yaradır. Qarşıya hər hansı bir problem çıxdıqda, istər-istəməz telefona əl uzadırsan, dəstəyi götürüb həmkarına zəng vurmağa, səni düşündürən, narahat edən fikirləri bölüşməyə çalışırsan. Danışıb bir qərar qəbul edirsən. Sözün düzü, belə insani ünsiyyət olmayanda, məktublar da, teleqramlar da, Xarici İşlər Nazirliyinin notaları da olur. Bu isə əsla biz deyən mühit deyildir.

Planımızın əsas hissəsi yerinə yetirilmişdir, işgüzar görüşümüzə aid hissəni bu gün başa çatdırdıq, müvafiq sənədlər imzaladıq. Şübhəsiz ki, hələ dünən başlanmış ikitərəfli görüşlər davam etdiriləcəkdir. Problemləri ikitərəfli formatda müzakirə edəcəyik. Bir daha çox sağ olun. Sərhəd qoşunları kimi sayca kiçik görünən güc strukturuna dövlət rəhbərinin böyük diqqət yetirməsi mənim üçün çox xoşdur.

H e y d ə r Ə l i y e v: Bu çox vacibdir. Hər bir dövlətin silahlı qüvvələri onun təhlükəsizliyinin, suverenliyinin, müstə-

qilliyinin təminatçısıdır, sərhəd qoşunları isə ən ön xəttədir. Odur ki, sərhəd qoşunları – söhbət say tərkibindən getmir – xüsusi rol oynayırlar, özü də indi, sərhəd qoşunlarının köhnə sisteminin, hər halda, dağıldığı, yeni sistemin yaradılmasının isə çətin olduğu bir vaxtda. O vaxtlar sərhədi qorumaq asan idi, çünki olduqca çox müvafiq qurğular vardı. Bunu siz də, mən də yaxşı bilirik. Başqa ölkələrdə necə olduğunu bilmirəm, amma bizim ölkəmizdə bu qurğular vaxtilə dağıdılmış, oğurlanıb aparılmışdır. Ona görə də sərhədi qorumaq çətinləşmişdir. Burada təcrübə mübadiləsinin, bir-birinə köməyin böyük əhəmiyyəti var.

Konstantin Totski: Sərhəd Qoşunları Komandanları Şurasının sədri kimi, mənə Sizə minnətdarlıq sözləri yetirmək və bunu bildirmək tapşırılmışdır ki, sərhəd qoşunlarının komandanı, bizim hörmətli həmkarımız general-mayor Abbasəli Novruzov məsələnin təşkilati tərəfini, hava limanında qarşılanmadan başlamış iclasın hazırlanmasınadək hər şeyi gözəl, yüksək səviyyədə həll etmişdir. Bütün təşkilati-texniki məsələlər yüksək səviyyədə həll olunmuşdur.

İcazə verin, Komandanlar Şurasının tapşırığı ilə Sizə xatirə olaraq kiçik bir suvenir təqdim edim. Bu suvenir ona görə xoşumuza gəlir ki, o bizim sevdiyimiz yaşıl rəngdə – furajkalarımızın rəngindədir. Hələ də yadımdadır, bunun nə üçün yaşıl rəngdə olduğunu məktəbdə bizə izah etmişdilər. Dünyanın bir çox xalqlarında belə bir inanc var ki, yaşıl rəng ümid rəngidir. Odur ki, sevdiyimiz rəngdə olan bu suveniri biz Azərbaycan prezidentinə belə bir böyük ümidlə təqdim edirik ki, sərhədlərimiz, xalqlarımız, nəhayət, sakit, etibarlı şəkildə qorunmuş şəraitdə yaşayacaqlar.

Heydər Əliyev: Mən elə soruşmaq istəyirdim, bu yaşıl furajkalar hamıda qalıbmı?

Konstantin Totski: Demək olar, qalıbdır.

H e y d ə r Ə l i y e v: Bu yaxşıdır. Mən yaşıl furajkaları hələ öz cavanlıq çağlarımdan xatırlayıram. Axı mən sərhəddə, Naxçıvanda doğulmuşam. Naxçıvan sərhəd şəhəridir.

Buna görə də biz oğlan uşaqları şəhərdə, küçədə sərhədçi əsgərlər gördükdə həmişə onların ardınca qaçırdıq. Bu bizim üçün nə isə xüsusi bir hadisə idi. Biz yaşıl furajkalı əsgərə yandan, bu və digər tərəfdən baxmaq üçün onun ardınca qaçırdıq. Nə yaxşı ki, bu furajka saxlanmışdır. Yeri gəlmişkən, bu çox yaxşı rəngdir.

O ki qaldı hədiyyəyə, sağ olun. Mən keçmiş vaxtlarda sərhədçilərdən, adətən, hansısa bir sərhəd qülləsinin maketini hədiyyə alırdım. Görünür, indi siz varlanmısınız. Özü də mənə həmişə deyiblər ki, maket əsgərlərin əli ilə düzəldilmişdir. Məndə çoxlu belə maket vardı. Təəssüf ki, mən Moskvaya köçdükdən sonra burada bəzi arxivlərim məhv edildi. Maketlərdən bəziləri yoxa çıxdı, ancaq bəziləri qalır. Siz bunu gətirərkən elə bildim ki, qüllədir. Mən sərhəd qülləsinə elə öyrəşmişəm, indi isə... Bu hədiyyəyə görə sağ olun.

Mən sizi bir daha salamlayıram, yaxşı işləməyiniz münasibətilə təbrik edirəm, hamınıza öz xalqlarınız, öz dövlətləriniz naminə çətin işinizdə uğurlar arzulayıram. Arzum budur ki, MDB ölkələri bacardıqca daha səmimi, açıq əməkdaşlıq etsinlər, qarşılıqlı fəaliyyət göstərsinlər və bir-birinə kömək etsinlər, o cümlədən də sərhəd qoşunları.

BAKIDA TRASEKA HÖKUMƏTLƏRARASI KOMİSSİYASI DAİMİ KATİBLİYİ OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

21 fevral 2001-ci il

Hörmətli İsveçin Xarici İşlər naziri!
Hörmətli cənab Baş katib!
Hörmətli cənab komissar!
Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram və bizim ölkəmizə «Xoş gəlmisiniz!» deyirəm.

Avropa İttifaqının yüksək səviyyəli və hörmətli şəxslərindən ibarət olan nümayəndə heyətinin Cənubi Qafqaz ölkələrinə, o cümlədən Azərbaycana bu səfəri Avropa İttifaqının bizim bölgəyə, eləcə də Azərbaycana olan marağının və təbiidir ki, əlaqələrin inkişaf etdirilməsinin təzahürüdür. Bu səfərinizə görə təşəkkür edirəm. Baxmayaraq ki, siz Azərbaycanda olmaq üçün çox az vaxt ayırmısınız, ancaq bunun özü də kifayət edər ki, Azərbaycanda TRASEKA proqramına olan münasibəti bir daha hiss edə biləsiniz.

Avropa İttifaqının çoxşaxəli, çoxtərəfli fəaliyyəti vardır. Birinci növbədə, Avropa İttifaqı ona daxil olan ölkələrin daha da sıx əlaqə qurması və inkişaf etməsi problemləri ilə məşğuldur. Eyni zamanda Avropa İttifaqı onun tərkibində olan ölkələrdən kənara çıxaraq, dünyanın başqa hissələrinə də öz marağını göstərir. Bu baxımdan təxminən 1992-1993-cü illərdə yaranmış TRASEKA proqramının böyük əhəmiyyəti vardır.

İndiyə qədər Avropa İttifaqı tərəfindən TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar tədbirləri biz yüksək

qiymətləndiririk. Ancaq eyni zamanda bu bizim tərəfimizdən böyük işin başlanğıcı kimi qəbul olunur. Məhz bu işi daha da gücləndirmək məqsədi ilə 1998-ci ilin sentyabr ayında Avropa İttifaqının və TRASEKA proqramında iştirak edən dövlətlərin təşəbbüsü ilə, bizim təşəbbüsümüzlə Bakıda bu proqramın həyata keçirilməsinə, Böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi və bunun nəticəsində sənəd imzalandı. Konfrans TRASEKA proqramının katibliyini yaratdı və onun Azərbaycanda yerləşməsi haqqında qərar qəbul etdi. Biz bunu böyük məmnuniyyət və minnətdarlıq hissi ilə qarşıladıq və Bakının ən qədim binalarından birinin bu katibliyin sərəncamına verilməsi haqqında qərar qəbul etdik.

Bizim qonaqlarımız bu binanın gözəlliyi haqqında və indiki vəziyyəti barədə yüksək fikirlər söylədilər. Bu binanın Avropa İttifaqının TRASEKA proqramına və İpək yolunun bərpası üçün görülən işlərə görə ayrılması təsadüfi deyildir.

Bu bina Azərbaycanın, Bakının memarlıq abidələrindən biridir. Vaxtilə, XX əsrin əvvəlində Azərbaycanın böyük şəxsiyyəti, böyük sahibkarı Hacı Zeynalabdin Tağıyev bu binanı yaradıb və burada da uzun müddət işləyibdir.

Azərbaycan xalqı təkcə indi yox, hələ o vaxtlarda da ümumbəşəri dəyərlərlə, Avropa dəyərləri ilə Azərbaycanın milli-mənəvi dəyərlərinin inteqrasiyasına çalışmışdır. Məhz bu binanın 100 il bundan öncə Avropa üslubunda tikilməsi, onun həm xarici görünüşünün, həm də daxili görünüşünün Avropa memarlıq üslubuna mənsub olması bunu əyani sübut edir.

Təbiidir ki, indi çox yerdə modern üslubda binalar tikmək və ofisləri modern binalarda yerləşdirmək dəb olubdur. Amma biz bu yol ilə getmədik. Biz məhz klassik Avropa üslubunda tikilmiş binanı verdik ki, Avropa İttifaqı buraya daha da doğma gözlə baxsın. Özü də görürsünüz, keçmişdə nə qədər gözəl tikirdilər.

Məsələn, burada xalçalar üstünü örtübdür, görmürəm, amma orada, Baş katibin ofisində biz döşəməyə nəzər saldıq. 100 il bundan öncəki döşəmə elə bil ki, bu gün yaranıbdır. Keyfiyyətə çox fikir verirdilər. Baxın, divarlar nə qədər enlidir. İndi hər şeyə qənaət edirlər, nazik divarlar qoyurlar. Onlar da qısa bir zamanda xarab olur.

Mən sadəcə, Azərbaycanın Avropa memarlığından götürdüyü abidələrdən biri haqqında danışıram. Amma Azərbaycanda belələri çoxdur. Bu da onu göstərir ki, Azərbaycan Avropaya, Avropa dəyərlərinə, Avropa ölkələrinə hələ çox qədim zamanlardan maraq göstərmişdir.

Biz eyni zamanda TRASEKA proqramını qədim Böyük İpək yolunun bərpası ilə bağlayırıq. Əslində, TRASEKA proqramı irəli sürüləndə, güman edirəm, həqiqətən nəzərə alınıbdır ki, bu, təkcə TRASEKA proqramını əhatə edən ölkələr üçün deyil, Böyük İpək yolunun bərpası üçündür və çox vacibdir. Biz konfransda açıq-aydın müəyyən etdik ki, Asiya ilə Avropanı, Şərq ilə Qərbi bağlayan qədim İpək yolu bu gün də öz aktuallığını saxlayıbdır və Şərqlə Qərb arasındakı başqa yollara nisbətən daha qısadır. Yüklərin daşınması daha sürətlə, qısa bir zamanda olur və daha ucuz başa gəlir. Ona görə biz hesab edirik ki, 1998-ci ildə Bakı konfransında qəbul olunmuş qərarlar həyata keçirilməlidir.

Mənə belə gəlir ki, Avropa İttifaqı son vaxtlar TRASEKA proqramının həyata keçirilməsinə bir az soyuyubdur. Mən bu həqiqəti deməliyəm. Əgər bir neçə il bundan əvvəlki dövrlə indiki dövrü müqayisə etsək, bu, göz qabağındadır. Ancaq mən bunu düzgün hesab etmirəm və düşünürəm, yəqin ki, belə böyük nümayəndə heyətinin Cənubi Qafqaz ölkələrinə gəlməsi TRASEKA proqramına münasibətin soyumasına son qoyacaq və bu proqram yenidən böyük sürətlə həyata keçiriləcəkdir.

Mən sizə müraciət edərək demək istəyirəm ki, siz TRASEKA proqramına vəsait ayrılmasında xəsislik etməyin. Çünki bu, nə sizə, nə də bizə xeyir verəcəkdir. Sizin cibinizdə pul çoxdur, buraya qoyduğunuz pulun əvəzini iki-üçqat götürəcəksiniz. İndi artıq sizdə də, bizdə də – hamıda qəti bir fikir var ki, TRASEKA proqramı, Böyük İpək yolunun bərpa edilməsi bu gün üçün və XXI əsr üçün ən böyük proqramlardan biridir. Bu proqramın hərtərəfli inkişafını nə qədər təmin edə bilsək, Cənubi Qafqaz, Orta Asiya, Mərkəzi Asiya ölkələrinin Avropa ilə inteqrasiyası o qədər də sürətli olacaqdır.

Artıq indi ofis yaranıbdır. Bu bina boş qalmamalıdır ki? Burada işləmək lazımdır. Əgər vəsait olmasa, burada nə cür işləyəcəksən? Bu gözəl binada yaxşı-yaxşı layihələrə baxıb, müzakirə edib, onları həyata keçirmək lazımdır. Belə layihələr vardır. Azərbaycanda bir xalq sözü var: «Səndən hərəkət, məndən bərəkət». Başa düşürəm, bunu tərcümə etmək bir az çətindir.

Mən sizə bir daha təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu görüş bizim hamımızın istəklərimizin həyata keçirilməsi üçün çox əhəmiyyətli olacaqdır. Sağ olun.

AVROPA İTTİFAQININ NÜMAYƏNDƏ HEYƏTİ – HAZIRDA BU BEYNƏLXALQ TƏŞKİLATA SƏDRLİK EDƏN İSVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ XANIM ANNA LİND, AVROPA İTTİFAQININ BAŞ KATİBİ HAVYER SOLANA, BU İTTİFAQIN KOMİSSARI KRİSTOFER PATTEN VƏ ONLARI MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

21 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli xanım nazir!
Hörmətli Baş katib!
Hörmətli komissar!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Mən sizinlə bu görüşümüzdən çox məmnunam.

Biz bu gün sizinlə Avropa İttifaqının TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar burada yaradılmış katibliyin binasını açdıq. Bu, əlamətdar bir hadisədir. Ancaq Avropa İttifaqı ilə bizim əlaqələrimiz təkcə TRASEKA proqramı çərçivəsində ola bilməz. TRASEKA proqramı əməkdaşlığımızın bir hissəsidir. Ona görə də biz Avropa İttifaqı ilə artıq bir neçə ildir ki, geniş miqyaslı əməkdaşlıq edirik və bu əlaqələrimizi daha da genişləndirmək istəyirik.

Biz Avropa İttifaqının indi Avropada və bütün dünyada oynadığı müsbət rolu yüksək qiymətləndiririk. Biz Avropa İttifaqı ilə daha yaxından inteqrasiyada olmaq istəyirik. Biz

artıq Avropa Şurasının üzvüyük. Fürsətdən istifadə edərək, Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasında etdiyiniz köməyə görə sizə təşəkkür edirəm. Bu, birinci mərhələdir. Bundan sonra isə Avropa İttifaqına yol açılır. Biz bilirik ki, bu, asan yol deyildir. Avropa İttifaqının bu təşkilata üzv olan ölkələr qarşısında qoyduğu tələblər təbiidir ki, Avropa Şurasının üzvü olan ölkələr qarşısında irəli sürülən tələblərə nisbətən daha da ciddidir. Ancaq Avropa ilə inteqrasiya bizim strateji yolumuzdur. Ona görə də biz bu yolla irəliləmək istəyirik. Hansı sürətlə, nə qədər vaxta buna nail ola bilərik, təbii ki, bunu demək olmaz. Bir daha qeyd edirəm, biz bilirik ki, sizin bu barədə tələbləriniz çox ciddidir. Ancaq biz öz istəyimizi, arzumuzu bildiririk. Eyni zamanda, tərəfdaşlıq və əməkdaşlıq proqramı əsasında indiyə qədər apardığımız işlərə görə hesab edirik ki, biz bu yolla gedə bilərik.

Bizim bölgə Avropa İttifaqı üçün, ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli bir bölgədir. Biz artıq görürük ki, Cənubi Qafqaz ölkələrinin Avropa üçün nə qədər əhəmiyyətli rol oynadığını Avropada, o cümlədən Avropa İttifaqında görürlər və bilirlər.

Yəqin siz də təsdiq edərsiniz ki, bu sırada Azərbaycan xüsusi yer tutur. Çünki Azərbaycan Avropa ilə Asiyanın, Qərblə Şərqin qovuşuğunda yerləşir, Qərb və Şərq ənənələrini özündə əks etdirən bir ölkədir. Azərbaycanın Xəzər dənizindəki böyük təbii sərvətləri, təkcə Xəzər dənizində yox, ümumiyyətlə, ölkəmizin müxtəlif yerlərində mövcud olan zəngin sərvətlər əməkdaşlığımız üçün əsas yaradır. Lakin bu sərvətlərin birgə işlənilməsi üçün beynəlxalq təşkilatlar qarşısında, o cümlədən Cənubi Qafqaz ölkələri ilə əməkdaşlıq edən Avropa İttifaqı qarşısında mühüm bir məsələ durur. Bu da hərbi münaqişələrin ləğv olunması, bölgədə sülhün bərqərar edilməsi və Cənubi Qafqazda təhlükəsizlik paktı yaranmasıdır. Biz

bunları öz qarşımıza məqsəd kimi qoyuruq və hesab edirik ki, Avropa İttifaqının bu sahədə yardımını ala bilərik. Buyurun.

A n n a L i n d: Cənab Prezident, çox sağ olun. Sizin ölkənizi ziyarət etməkdən çox məmnunuq. Bildirmək istəyirəm ki, bizim üçün də bu səfər çox önəmlidir.

Cənubi Qafqaz Avropa İttifaqı üçün çox önəmli bir regiondur. Çünki Avropa İttifaqı genişləndikdən sonra Cənubi Qafqaz regionu artıq Avropa İttifaqının qonşu regionu olacaqdır. Ona görə də Avropa İttifaqının təmsilçiləri olaraq biz Cənubi Qafqaz regionunda sülhün və sabitliyin bərqərar olunmasını, bu regionun iqtisadi inkişafı və regionda yaşayan xalqların maddi rifah halının yüksəlməsi üçün ən əsas amillərdən hesab edirik.

Biz Azərbaycan, Gürcüstan və Ermənistan ilə əməkdaşlığımızı genişəndirmək və beləliklə də bu regionda Avropa İttifaqının mövcudluğunu artırmaq fikrindəyik. Şübhəsiz ki, belə bir əməkdaşlığın inkişafının asan olması, daha da genişlənməsi üçün bu regionda mövcud olan hərbi münaqişələrin həll olunması vacibdir. Ona görə də bizim hamımız belə bir fikrə tərəfdarıq ki, regiondakı əməkdaşlığı genişləndirmək üçün biz də münaqişələrin həll olunması üçün çalışmalıyıq, bu işə öz töhfəmizi verməliyik. Avropa İttifaqı münaqişənin dinc yolla aradan qaldırılması üçün öz yardımını mümkün olan hər hansı çərçivədə etməyə hazırdır, amma şübhəsiz ki, bu münaqişənin həll olunması əsasən münaqişə edən tərəflər arasında axtarılmalıdır. Münaqişənin həlli daha çox onlardan asılı olacaqdır. Biz eyni zamanda, regional əməkdaşlığın genişləndirilməsinin tərəfdarıyıq, bunda maraqlıyıq. Hesab edirik ki, münaqişələrin həlli ilə paralel olaraq regional əməkdaşlıq genişləndirilməlidir. Buna görə biz istəyərdik ki, regiondakı mövcud durumu necə qiymətləndirdiyinizi, dəyərləndirdiyinizi, Azərbaycan–Ermənistan münaqişəsinin həlli yolunda hansı addımlar atıldığını Sizdən eşidək. Bu müna-

qişənin həll olunması üçün Avropa İttifaqı nə edə bilər – bu barədə tövsiyələrinizi də eşitmək istərdik.

H e y d ə r Ə l i y e v: Bu, uzun bir mövzudur. Əgər bu barədə hər şeyi desəm, gərək məni iki saat dinləyəsiniz.

Cənubi Qafqazda olan münaqişələr sizə məlumdur. Birincisi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. İkincisi, gürcü–abxaz münaqişəsi, müəyyən mənada gürcü-osetin münaqişəsidir. Amma onların hamısından çətini Ermənistan–Azərbaycan münaqişəsidir. Bu münaqişənin artıq 12 yaşı vardır.

12 il müddətində bu münaqişənin həlli üçün çox səylər göstərilibdir. Ancaq nəticə əldə olunmayıbdır.

Hər şeyi dərk etmək üçün məsələnin kökünə baxmaq lazımdır. Münaqişə nə üçün başlayıbdır? Ermənistan Azərbaycanın ayrılmaz bir hissəsi, qədim Azərbaycan torpağı olan Dağlıq Qarabağa ərazi iddiası ilə çıxış edibdir. Bu hələ Azərbaycanın və Ermənistanın Sovet İttifaqına mənsub olduğu vaxt – 1988-ci ildə olubdur. Təəssüflər olsun ki, vaxtında bunun qarşısı alınmayıb, bu münaqişə həqiqətən hərbi münaqişəyə çevrilibdir. İllərlə müharibə gedib və bəzi səbəblərdən Ermənistanın silahlı qüvvələri həm Dağlıq Qarabağı, həm də sonra onun ətrafında Azərbaycanın 7 rayonunu işğal edibdir. Beləliklə, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələrinin işğalı altındadır. Bu ərazidən bir milyona qədər Azərbaycan vətəndaşı yerindən-yurdundan didərgin düşüb və çadırlarda yaşayır. O rayonlardan köçmüş insanların əksəriyyəti çadırlarda yaşayır.

Mən bu gün səhər evdən çıxıb işə gələrkən gördüm ki, güclü küləklə qar yağır. Evimdən gəlib avtomobilə oturana qədər qar məni vurdu. Siz Bakıya təyyarə ilə enəndə burada həm qar, həm də külək vardı. Mən gəlib sizinlə görüşən zaman siz də, mən də bu qarın, yağışın altında idik. Amma hamımız çalışdıq ki, tez binaya daxil olaq. İndi təsəvvür edin,

insanlar qışda da, yayda da bir il yox, iki il yox, yeddi-səkkiz il çadırlarda yaşayırlar, həmin o qara da, yağışa da, qızmar istiyə də dözürlər. Nə etməli? Onların başqa yaşayış yeri yoxdur. Onların evləri, bütün varidatı işğal olunub, dağıdılıbdır. Amma buna baxmayaraq, yenə də onlar arzu edirlər ki, öz torpaqlarına qayıtsınlar və ilk illərdə, əlbəttə, çadırlarda öz torpaqlarında yaşasınlar. Amma biz buna nail ola bilmirik. Ermənistanın silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmırlar.

1994-cü ilin may ayında biz Ermənistan–Azərbaycan müharibəsini dayandırdıq, yəni atəşkəs haqqında saziş imzaladıq. Məsələnin sülh yolu ilə həll olunması üçün danışıqlar aparırıq. Artıq 6 ildən çoxdur ki, bu danışıqlar gedir. Birləşmiş Millətlər Təşkilatının 4 qətnaməsi vardır ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından qeyd-şərtsiz çıxmalıdır. Amma Ermənistan buna riayət etmir. Ondan sonra bu məsələlərlə ATƏT-in Minsk qrupu məşğul olur. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Onlar son illərdə bir neçə təklif veriblər. Amma Ermənistan həmin təklifləri qəbul etməyibdir. 1998-ci ilin sonunda yeni bir təklif verilmişdir.

Bunu isə Azərbaycan qəbul edə bilmədi. Çünki o təklif Azərbaycan üçün heç cür məqbul ola bilməz.

Bilirsiniz ki, son vaxtlar Ermənistan prezidenti və Azərbaycan prezidenti arasında bilavasitə danışıqlar aparılır. Bu danışıqlar zamanı biz qarşılıqlı kompromislər axtarırıq. Amma burada da biz irəliləyə bilmirik. Əsas səbəb ondan ibarətdir ki, Ermənistan Dağlıq Qarabağın ya müstəqilliyini tələb edir, yaxud da ki, onun Ermənistanla birləşməsini tələb edir. Bu, Azərbaycanın ərazisidir. Deməli, beləliklə, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına biz gərək imza ataq. Bu, beynəlxalq hüquq normalarına tam ziddir. Biz bunu edə bilmərik. Ancaq Minsk qrupunun təklifləri olmuşdur ki,

Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində ən yüksək dərəcəli özünüidarəetmə hüququ verilsin. Ermənistan bununla razı deyil. Təəssüf ki, dünya ictimaiyyəti də, Birləşmiş Millətlər Təşkilatı da, ATƏT də, başqa böyük ölkələr də, elə Avropa İttifaqı da bu cür ədalətsizliyə qarşı göz yumurlar.

Zaman keçir, münaqişə aradan götürülmür. Bir-biri ilə qonşu olan iki ölkə arasında sülh yaranmayıbdır. Mən hesab etmirəm ki, bu ancaq Azərbaycana zərər vurur. Bu, o cümlədən Ermənistana da zərər vurur. Doğrudur, onların ərazisinin heç bir metri də Azərbaycan tərəfindən işğal olunmayıbdır. Amma buna baxmayaraq, onlar da bu münaqişədən zərər çəkirlər. Ona görə məsələnin həll olunması Ermənistandan asılıdır. Ermənistan isə bunun həll olunmasına getmir. Bu da Cənubi Qafqazda, ümumiyyətlə, sülhün yaranmasına nəinki mane olur, qətiyyən imkan verə bilməz.

Siz Cənubi Qafqaz ölkələrinin iqtisadi əməkdaşlığı haqqında dediniz, biz də hesab edirik ki, bu çox vacib məsələdir. Məsələn, Gürcüstanla biz bütün sahələrdə çox səmərəli əməkdaşlıq edirik. Nəinki əməkdaşlıq edirik, hətta bizim çox səmimi, mehriban dostluq əlaqələrimiz vardır. Biz istərdik ki, Ermənistanla Azərbaycan arasında sülh olsun. Bunun üçün işğal olunmuş torpaqlar azad edilməlidir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Onda Cənubi Qafqazın üç ölkəsi arasında əməkdaşlıq çox sürətlə inkişaf edə bilər. Bir də deyirəm, bütün məsələlərin həlli Ermənistan tərəfindən asılıdır. Biz isə sülh istəyirik. Məsələnin yalnız sülh yolu ilə həll olunmasını istəyirik. Müharibənin yenidən başlanmasını istəmirik. Eyni zamanda torpaqlarımızın da böyük bir hissəsinin Ermənistanın silahlı qüvvələrinin işğalı altında qalmasına dözə bilmərik.

Avropa İttifaqı da çox böyük və mötəbər təşkilatdır. Bu barədə o öz sözünü deyə bilər. Amma biz bunu da eşitmirik. Bu qədər.

A n n a L i n d: Hər şeydən öncə Sizə təşəkkür edirəm və bildirmək istəyirəm ki, Avropa İttifaqı bu münaqişənin həllində oynadığı rolu əslində Minsk qrupunu dəstəkləməkdə görür. Biz hesab edirik ki, Minsk qrupu bu proseslərlə məşğul olur və çox mühüm bir strukturdur. Biz Sizinlə Ermənistan prezidenti arasında aparılan birbaşa danışıqları böyük maraqla və ümidlə izləyir, bu danışıqlara böyük əhəmiyyət veririk. Qarşılıqlı güzəşt etmək üçün liderlərdən böyük cəsarət tələb olunur və münaqişənin həlli üçün onların qarşılıqlı səy göstərməsi gərəkdir.

Biz ümidvarıq ki, yaxın bir zamanda, tezliklə bu münaqişənin həllində dönüş nöqtəsi əldə olunacaqdır və məsələ danışıqlar yolu ilə həll ediləcəkdir.

Bu münaqişənin necə və hansı şərtlərlə həll olunacağı barədə heç bir fikir söyləmədən yenidən regional əməkdaşlıq məsələsinə qayıtmaq istəyirəm. Çünki hesab edirik ki, çox gərgin keçən danışıqlar zamanı regional əməkdaşlığın həyata keçirilməsi tərəflər arasında gərginliyin aradan qaldırılmasına da xidmət etmiş olar.

Cənab Prezident, bir daha bəyan edirəm ki, biz Ermənistan prezidenti ilə Sizin aranızda olan bu danışıqları çox müsbət qarşılayırıq. Sizi ruhlandırır və ona çağırırıq ki, bu sülh danışıqları ilə bərabər, regional əməkdaşlıq məsələlərində də əlaqələrinizi genişləndirəsiniz.

Mən istərdim ki, indi də sözü cənab Solanaya verəm.

H e y d ə r Ə l i y e v: O bizim köhnə dostumuzdur.

H a v y e r S o l a n a: Cənab Prezident, yenidən Azərbaycana qayıtmağımdan, Sizinlə görüşməyimdən, Sizi dinləməkdən çox məmnunam. Hesab edirəm ki, bizim belə bir tərkibdə sizin ölkənizə səfərimizin, regiona səfərimizin mühüm bir rəmzi mənası vardır. Bu bizim sizin ölkəniz və region üçün hansı xoş niyyətlərimizin olmasının göstəricisidir.

Siz öz ölkəniz üçün çox böyük işlər görmüsünüz. Mən özüm bunun şahidiyəm. Mən əminəm ki, Siz bundan sonra da ölkəniz üçün böyük xidmətlər göstərəcəksiniz.

Sizin indi münaqişə ilə, sülhün əldə olunması ilə əlaqədar söylədiklərinizi mən çox diqqətlə dinlədim. Ümumiyyətlə, mən bu məsələlərə həmişə diqqətlə yanaşıram. Sizin hansı miqyaslı, hansı çəkili bir siyasətçi olduğunuzu da mən yaxşı bilirəm. Mən hesab edirəm ki, bizlərin hamımızın bu münaqişənin həlli üçün bir imkanı vardır. Eyni zamanda, bildirirəm ki, Sizin indi apardığınız birbaşa danışıqlar da xüsusilə əhəmiyyətlidir.

Mən Sizi əmin etmək istəyirəm ki, bu danışıqlar zamanı Sizə yardımçı olmaq üçün bizim imkanlarımızdan, bizim sərəncamımızda olan resurslardan istifadə etmək mümkün olarsa, əlimizdən gələn nə varsa, onlarla Sizə kömək etməyə hazırıq.

Belə bir prosesi irəli aparmaq üçün məhz Sizin kimi liderlərə və Sizin kimi cəsarətli şəxslərə ehtiyac duyuruq.

Cənab Prezident, Sizinlə mən son dövrdə çox kövrək və yaddaqalan illəri birlikdə keçirmişik, böyük hadisələrin şahidi olmuşuq. İcazə verin, yadınıza Sizin qonşu otaqda ikimizin təkbətək görüşü zamanı söylədiyim bir sözü xatırladım. Xatırlayırsınızsa, Sizinlə görüşümüz zamanı Avropanın tarixinə birlikdə nəzər saldıq, o tarixi birlikdə nəzərdən keçirdik. Xatırlayırsınızsa, söhbətimiz zamanı Avropada olmuş böyük faciələrdən, münaqişələrdən və böyük müharibələrdən, onların törətdiyi, meydana gətirdiyi əzab-əziyyətlərdən danışdıq və axırda onların hamısının sülh yolu ilə həllinin tapılmasından söz açdıq. Avropa artıq münaqişələrdən bezib və münaqişələrə yol verməmək yolunu tutubdur. İndi Avropa artıq birləşmək yolunu tutubdur. Bu gün Avropanın adından onu təmsil edən bu şəxslər yəqin ki, bir neçə ildən sonra artıq birləşmiş, böyük, əhalisi bəlkə də Yaponiyadan dörd dəfə,

ABŞ-dan bir neçə dəfə çox olan bir toplunu təmsil edəcəkdir. Elə bir qurumu, elə birliyi təmsil edəcəklər ki, onun hərbi qüvvələri, hərbi gücü bəlkə də dünyada ən güclü, ən qüdrətli olacaqdır. Mən özüm şəxsən öz atama, babama və qədim əcdadlarıma minnətdaram ki, bugünkü Avropada yaşamağım üçün imkan yaradıblar. Çünki bizim əcdadlarımızın dünyaya baxışları çox açıq-aşkar olubdur. Onlar Avropanı vahid, sülh şəraitində yaşayan, regional əməkdaşlıqda bulunan, çiçəklənməyə, firavanlığa birlikdə addımlayan region kimi görmək istəyiblər.

İndi icazə verin, Sizə bu region üçün arzumu bildirim. Arzu edirəm ki, sizin regionunuzda da sülh bərqərar olsun, regional əməkdaşlıq inkişaf etsin, region ölkələri və xalqları firavan həyat şəraitində yaşasınlar. Özünüzü tənha hiss etməyin. Siz bu arzuların həyata keçməsi üçün çalışmağa hazır olan, bunu arzulayan çoxlu dostlarınızın əhatəsindəsiniz. İnanın ki, bu sözlər mənim ürəyimin, qəlbimin dərinliklərindən gələn sözlərdir. Sizi böyük işlərə ruhlandırmaq üçün deyirəm, xahiş edirəm ki, sülh, regional inteqrasiya naminə fəaliyyətinizi davam etdirəsiniz, genişləndirəsiniz ki, bu da son nəticədə xalqınızı layiq olduğu inkişafa, tərəqqiyə və firavanlığa gətirib çıxaracaqdır. Bir daha Sizə təşəkkürlərimi bildirirəm.

H e y d ə r Ə l i y e v: Hörmətli cənab Solana, mənim əziz dostum! Mənim haqqımda dediyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm. Mən hesab edirəm və deyə bilərəm ki, sizinlə mənim aramda qarşılıqlı, çox yüksək səviyyəli rəğbət yaranıbdır. Həqiqətən bu illərdə biz dəfələrlə sizinlə görüşüb çox əhəmiyyətli söhbətlər aparmışıq.

Avropa haqqında dediyiniz, yəni Avropanın keçdiyi yol və bu gün qarşısında duran perspektivlər haqqında dediklәriniz, təbiidir ki, heyran edir, yəni biz də istəyirik ki, regionumuzda da elə olsun. Ancaq Avropa bu yolu asanlıqla keçməyibdir. Lakin keçib, indi buna nail olub, indi birləşir. Amma deyə

bilmərəm ki, indi Avropada separatizm tamamilə aradan götürülübdür. O cümlədən sizin vətəninizdə. Elə burada baş verən münaqişələrin də əsasında separatizm durur. Əgər biz bu separatizmin qarşısını ala bilsək, hər şeyi edə bilərik.

Əmin ola bilərsiniz, sizə və bütün qonaqlara deyirəm ki, mən həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün, öz uşaqlarım, öz nəvələrim üçün və xalqımın gələcəyi üçün sülh, sülh, bir də sülh yaratmaq istəyirəm. Əgər sülh və təhlükəsizlik təmin olunmasa, nə demokratiya, nə iqtisadi inkişaf, nə də insanların rahatlığı ola bilər. Ona görə də mən ömrümün böyük bir hissəsini buna həsr etmişəm. Ömrümün qalan hissəsini də buna həsr edəcəyəm. Mən dünyada özüm üçün ən böyük xoşbəxtlik onu hesab edirəm ki, Azərbaycanda sülhün, əmin-amanlığın yaranmasına nail ola bilim. Məndən nə asılıdırsa, onu edirəm.

Mən hesab edirəm ki, bəli, kompromislər olmalıdır. Amma hər şeyin bir həddi var. Sərhəd vardır, həmin sərhəddən bu tərəfə keçmək olmaz. Əgər keçsən də, bu, əks-təsir bağışlayacaqdır. Ona görə də mən çalışıram və çalışacağam da. Mən o günü arzulayıram ki, biz sülh yaradaq, işğal olunmuş torpaqlar azad edilsin. O yerlər dağılıbdır və Avropa İttifaqı milyardlarla dollar gətirib bizə yardım etsin ki, orada bərpa işləri aparaq. Mənim gözlərim qarşısında bu perspektivlər vardır. Təkcə sülh əldə etmək yox, sülhün əldə olunması birinci şərtdir. Amma dağıdılmış yaşayış evlərinin, xəstəxanaların – hər şey viran olubdur – insanların yaşaması üçün bərpa olunması, bu, ən böyük vəzifələrdən biridir. Bunu biz özümüz edə bilməyəcəyik. Burada Avropa İttifaqının yardımı bizim üçün çox əhəmiyyətli olacaqdır. Bütün dünyanın beynəlxalq maliyyə mərkəzlərinin yardımı bizim üçün çox əhəmiyyətli olacaqdır. Mən bu günləri görürəm. Amma onun üçün sülh yaratmaq lazımdır. Bax, biz burada dayanmışıq. Əgər, bax, bu həddi keçə bilsək, ondan sonra sizinlə də əməkdaşlığımız

yaxşı olacaqdır və Cənubi Qafqazda da əməkdaşlıq, sülh yaxşı təmin ediləcəkdir. Gəlin səylərimizi birləşdirək. Hər şeyi mənim üzərimə qoymayın.

Kristofer Patten: Hərçənd ki, çiyinlərinizi verdiyiniz bu qədər ağır yükün altına öz çiyinlərimizi verə bilməsək də, Sizi bu işdə əvəz edə bilməsək də, hesab edirəm ki, Avropa İttifaqının da bu məsələdə müəyyən rolu ola bilər, bu işə yardımçı ola bilər. Hesab edirəm ki, sülh əldə edildikdən sonra biz onun möhkəmləndirilməsinə yardımçı ola bilərik. Hesab edirik ki, sülh əldə olunduqdan sonra kasıb, evi olmayan insanların, təhsil, səhiyyə xidməti sahəsində vəziyyəti pis olan xalqlara yardımçı olmaqla, o insanları bizlərə qulaq asmağa və sülhü möhkəmləndirməyə sövq edə biləcəyik. Baxmayaraq, həyat bizə belə öyrədibdir ki, sülh əldə edən şəxslər Allah tərəfindən qorunan və onlara yardım edilən şəxslər olublar. Amma bəzən biz öz fəaliyyətimizlə onlara heç də axıra qədər yardımçı ola bilmirik. Mən çox böyük ruh yüksəkliyinə malik bir komissaram. Amma mən bununla bərabər, çox həvəsli, böyük şövqə malik olan bağbanam. Məsələn, mən ömrümdə heç vaxt belə gözəl qızıl gülləri görməmişdim. Düşünürəm ki, qarşımızda olan bu gözəl qızıl güllər bizim Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın bir rəmzidir.

Bizim münasibətlərimiz çox güclüdür və istəyirik ki, bu münasibətlər daha da genişlənsin. Biz Azərbaycanla bir çox sahələrdə geniş əməkdaşlıq edirik. Son illər ərzində biz Azərbaycana 300 milyon avro dəyərində yardım göstərmişik. Hesab edirəm ki, bizim birgə fəaliyyət göstərdiyimiz, əməkdaşlıq etdiyimiz sahələrin ən mühümlərindən biri məhz elə həmin reabilitasiya layihələri olmuşdur.

Sizin çox həssaslıqla vəziyyətlərini təsvir etdiyiniz, qarda, yağışın altında qalmış insanların həyat şəraitinin yaxşılaşdırılması üçün onlara yardım göstərilməsi məqsədi ilə biz bir sıra layihələr həyata keçiririk. Biz Azərbaycanda həyata keçir-

diyimiz reabilitasiya layihələri ilə əlaqədar hətta bir kitabça da buraxmışıq və burada təhsil, kənd təsərrüfatı sahəsində, məskunlaşmış insanlara yardım göstərilməsi sahəsində gördüyümüz işlər əksini tapıbdır. Baş nazirin müavini də bu kitabçaya çox yaxşı bir ön söz yazıbdır. Kitabçada yaxşı şəkillər də vardır. Baş nazirin müavini bu nəşrə yazdığı ön sözdə Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə ümid bəslədiyini bildiribdir. Əminik ki, bu belə də olacaqdır.

Anlayırıq ki, sülh əldə edildikdən sonra bizim tərəfimizdən reabilitasiya layihələri, bərpa işləri üçün xeyli miqdarda vəsait ayrılmasına, sizə yardım göstərilməsinə ehtiyac olacaqdır. Bu regionda əməkdaşlıq çərçivəsində çoxlu birgə layihələri də həyata keçirəcəyik.

Bundan əvvəlki görüşümüz zamanı TRASEKA layihəsi nümayəndəliyi ofisinin açılışı mərasimində Siz bu layihə barədə çox xeyirxah sözlər söylədiniz. O sözlərlə bizi TRASEKA layihəsinə daha çox cəlb olunmağa, daha çox işlər görməyə dəvət etdiniz. İndiyə qədər Avropa İttifaqı 40 milyon avro həddində texniki yardım göstəribdir. Bundan əlavə, buraya Dünya Bankından, Avropa Bankından 400 milyon avro investisiya yönəldilibdir. Anlayırıq ki, daha çox iş görməliyik. Boru kəmərlərinin çəkilişinə 25 milyon avro məbləğində investisiya qoyulması barədə layihə vardır. Hesab edirik ki, bundan sonrakı fəaliyyətimiz zamanı regiondan çəkiləcək boru kəmərlərinə verdiyimiz diqqəti daha da artırmalıyıq, daha çox vəsait ayırmalıyıq ki, həmin boru kəmərləri ilə nəql ediləcək məhsullar sürətlə dünya bazarlarına çatdırılsın.

Ümidvaram ki, bu layihələr regionun ümumi iqtisadi inkişafına yardımçı olacaqdır. Əminik ki, biz ölkənizdə iqtisadi və siyasi islahatların daha da genişləndirilməsi üçün sizinlə digər sahələrdə də əməkdaşlığı genişləndirəcəyik. Ən çətin iş Sizin öhdənizə düşübdür. Amma ümidvaram ki, qısa bir

zamandan sonra Siz böyük nailiyyətlər əldə edərək, bizi Sizin kimi yaxşı işləməyə, bu layihələrin müvəffəqiyyətli olması üçün səylərimizi artırmağa sövq edəcəksiniz.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm, cənab komissar. Əvvələn, Avropa İttifaqı tərəfindən Azərbaycana indiyə qədər göstərilmiş yardımlara görə təşəkkür edirəm. Bəzi rayonlarımızda aparılmış bərpa işlərinə görə sizə təşəkkür edirəm. Ancaq dediniz ki, çox gözəl bir kitab yazmısınız. O kitabda da hörmətli Baş nazirin müavini çox gözəl sözlər yazıbdır. Mən istərdim ki, o sözlər həqiqətə çevrilsin. Kitab yazmaq çətin deyildir. Amma iş görmək çox çətindir. Mən çox məmnunam, siz burada bəyan edirsiniz ki, gələcəkdə, əgər biz sülh yarada bilsək, bərpa işlərində Azərbaycana çox güclü yardım edəcəksiniz. Ancaq sülh yaratmaq lazımdır.

Bağışlayın, belə bir məsəl var: siçanlar pişikdən xilas olmaq istəyirlər, qərara gəlirlər ki, pişiyin boynundan bir zınqırov assınlar ki, o gələndə səsi eşidib qaçsınlar. Siçanların hamısı bu təkliflə razı olur. Sonra ikinci məsələ qalxır. Soruşurlar ki, pişiyin boynuna zınqırovu kim asmalıdır? İndi belə çıxır ki, bunu ancaq mən etməliyəm. Hamınız söz verirsiniz, tərifləyirsiniz və sair, amma əsas məsələni mən etməliyəm. Hörmətli qəzetçilər, müxalifətçilər, Azərbaycan Prezidentini hər gün tənqid edənlər – indi gördünüzmü? Mən o zınqırovu pişiyin boynundan asanda, pişik məni yesə nə olacaq? Dərd də bundadır. Ancaq məni yemək çətindir.

H a v y e r S o l a n a: Onu bilirik.

H e y d ə r Ə l i y e v: Amma vəziyyət bundan ibarətdir.

Mən bir daha sizə təşəkkür edirəm. Belə başa düşdüm ki, siz deyirsiniz ki, mən sülh yaradım, siz də sonra gəlib mənimlə bərabər bütün bu işləri görəsiniz. Belədir? Təsdiq edirsiniz. İndi çalışmalıyam. Amma gərək siz də sonra sözünüzdən qaçmayasınız. Söz verirsinizmi? Bir az yavaş danışdınız.

K r i s t o f e r P a t t e n: İstəmirik ki, biz də özümüzü pişiyin boğazına zəncir asmağa məcbur olmuş siçanın gününə salaq.

H e y d ə r Ə l i y e v: Görürsünüzmü, mən o gündəyəm.

A n n a L i n d: Cənab Prezident, amma Sizi əmin edirik ki, biz verdiyimiz sözlərə xilaf çıxmayacağıq, vədimizə sadiq olacağıq və Sizinlə keçirdiyimiz bu çox maraqlı görüşdən sonra əməkdaşlığımız daha da genişlənəcəkdir. Cənab Prezident, amma mən heç vaxt cəsarət etməzdim ki, Sizi siçan ilə müqayisə edim. Amma hər halda, ən cəsarətli addım atmaq məhz Sizin boynunuza düşəcəkdir.

H e y d ə r Ə l i y e v: Bilirsinizmi, mən özüm də özümü siçanla müqayisə etmək istəməzdim, ancaq Azərbaycan ifadəsinin bura yeri idi və ona görə də mən bunu dedim.

Mənim dostum Solanaya bir kitab bağışlamaq istəyirəm. Bu kitab NATO-nun 50 illiyinə həsr olunubdur. Xatirinizdədir, orada biz görüşürdük. Bir orada yox, başqa yerlərdə də. Biz sizinlə NATO barəsində çox danışıqlar apardıq və çox da işlər gördük. Bu da NATO-ya aid kitabdır. İndi mən bunu sizə bağışlayıram. Burada öz şəkillərinizi və bizim danışıqlarımız barədə yazıları görəcəksiniz. Avropa İttifaqı ilə də bizim əməkdaşlığımız yaxşı getsə, sonra bir dənə də belə kitab yaradacağam. Onda sizə də kitab bağışlayacağıq. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN NÖVBƏTİ İCLASINDA ERMƏNİSTAN–AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN SÜLH YOLU İLƏ HƏLL OLUNMASI PROSESİNƏ AİD MƏSƏLƏNİN MÜZAKİRƏSİNDƏ NİTQ

23 fevral 2001-ci il

Hörmətli Milli Məclis!

Hörmətli deputatlar, xanımlar və cənablar!

Mən sizi, Azərbaycanın Milli Məclisini, yeni seçilmiş Milli Məclisi səmimi-qəlbdən salamlayıram və qarşıdakı beş il müddətində görəcəyiniz işlərdə sizə uğurlar arzulayıram.

Bu Milli Məclis Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ikinci dəfə seçilmiş Milli Məclisdir. 1995-ci ildə seçilmiş Milli Məclis Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesinin inkişafı üçün, sosial-iqtisadi, hüquqi-siyasi islahatların keçirilməsi üçün çox iş görmüşdür və görülən işlərin əsas mənası da qəbul olunmuş qanunlardır. Tam cəsarətlə deyə bilərəm ki, ötən beş il ərzində Azərbaycanın Milli Məclisi çox məhsuldar işləmiş, çox böyük əhəmiyyətə malik olan və mürəkkəb xarakter daşıyan qanunlar qəbul etmişdir. Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur. Eyni zamanda Milli Məclis Azərbaycan dövlətinin xarici siyasətinin həyata keçirilməsində də parlamentlərarası əlaqələr vasitəsilə başqa vasitələrlə bizim ümumi işimizə öz

payını vermişdir. Ona görə biz dövlət müstəqilliyi əldə edilən-dən sonra Azərbaycanın ilk Konstitusiyası əsasında seçilmiş Milli Məclisin, keçmişdə olan Milli Məclisin fəaliyyətini bu gün məmnuniyyət hissi ilə layiqincə qiymətləndirməliyik.

İkinci dəfə seçilən Milli Məclis, hesab edirəm ki, öz tərkibinə görə, səviyyəsinə görə daha da keyfiyyətlidir. Tam əminəm ki, işinə yeni başlamış Milli Məclis keçən dövrdən də məhsuldar işləyəcək və əldə olunmuş təcrübədən səmərəli istifadə edəcəkdir. Beləliklə, Azərbaycanda dövlət müstəqilliyinin daha da möhkəmlənməsi üçün və müstəqil dövlətin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün ali qanunvericilik orqanı kimi, öz üzərinə düşən vəzifələri yerinə yetirəcəkdir. Mən sizinlə ilk dəfə görüşərək, Milli Məclisə deputat seçildiyinizə görə sizi təbrik edirəm və yeni Milli Məclisə bir daha, bir daha uğurlar arzulayıram.

Bugünkü müzakirəyə çıxarılan məsələ tam müzakirə xarakteri daşımır. Bu məsələ mənim təşəbbüsümlə Milli Məclisin müzakirəsinə çıxarılır. Sual olunur, nə üçün bu məsələ indiyə qədər Milli Məclisin müzakirəsinə çıxarılmırdı və indi çıxarılır? İzah edirəm.

Birincisi, ona görə ki, son illərdə Milli Məclisdə, xüsusən müxalifət düşərgəsində dəfələrlə təkliflər irəliyə sürülüb, tələblər qoyulubdur ki, Azərbaycanın həyatının, müstəqil dövlətimizin ən ağır, ən çətin və bizim inkişafımıza mane olan ən böyük problemin – Ermənistan–Azərbaycan münaqişəsinin həlli, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması və yerindən-yurdundan didərgin düşmüş insanların öz torpaqlarına qaytarılması məsələsi Milli Məclisdə müzakirə olunsun. Hətta bəziləri belə təkliflər irəli sürüblər ki, Milli Məclisdə bunun üçün komissiya yaransın və komissiya məşğul olsun. Ancaq Azərbaycanın prezidenti kimi, mən bu təklifləri məqsədəuyğun hesab etməmişəm. Ona görə də öz üzərimə düşən vəzifəni ötən illər, təbiidir ki, tək yox, bütün hakimiyyət orqanları ilə birlikdə,

müvafiq icra orqanları ilə və Milli Məclisin rəhbərliyi ilə birlikdə həll etməyə çalışmışam.

Xarici İşlər naziri Vilayət Quliyev bu dövrdə olan əsas məsələlər haqqında məlumat verdi. Sizin bu məsələnin müzakirəsində iştirak etməyiniz üçün, yaxud daha dəqiq desək, bugünkü vəziyyəti düzgün qiymətləndirməyiniz üçün və sizin, təkcə sizin yox, bütün Azərbaycan ictimaiyyətinin, Azərbaycanın bütün siyasi qüvvələrinin, o cümlədən müxalifət qüvvələrinin hamısının səylərinin birləşdirilməsi üçün bu gün bu məsələ Milli Məclisə çıxarılmışdır. Təkcə Milli Məclisə yox, biz belə qərar qəbul etmişik ki, iclasın gedişi indi tamamilə yazılır və televiziya vasitəsilə veriləcəkdir ki, Azərbaycanın ictimaiyyəti, vətəndaşları bu məsələni dərindən bilsinlər.

Məqsədim ondan ibarətdir ki, siz də bilin və Azərbaycan ictimaiyyəti də bilsin – indiyə qədər məsələnin həll olunması üçün nə işlər görülübdür, nə əldə etmək mümkün olubdur və ən əsas nə etmək lazımdır. Bu münaqişənin tarixi böyükdür. 1988-ci ildə ermənilər ilk dəfə, yəni Ermənistan və Dağlıq Qarabağda olan ermənilər Dağlıq Qarabağın Azərbaycandan ayrılması və Ermənistana birləşməsi haqqında çox ciddi, sərt hərəkətə başlamışdılar və demək olar ki, bu hərəkəti uğurla həyata keçirmişlər.

«Miatsum» sözü indi yaddan çıxıbdır. Erməni sözüdür. Ancaq o vaxt hər bir ermənistanlı erməninin, Dağlıq Qarabağda yaşayan hər bir ermənin, yaxud dünyada yaşayan ermənin dilində gündə bir neçə dəfə təkrar olunan sözdür.

Mən xeyli müddət bu məsələlərlə tanış olduğuma görə və bilavasitə Azərbaycanda rəhbər olduğum dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin problemləri ilə yaxından məşğul olduğuma görə, ümumiyyətlə, bu problemin tarixini də yaxşı bilirəm və çətinliyini də bilirəm. Ermənilərin bu torpaq iddiası yeni bir şey deyildir. Bilirsiniz ki, keçmişdə Azərbaycan da, Ermənistan da, ümumiyyətlə, Qafqaz da Rusiyanın tərki-

bində olanda heç bir respublika yox idi və respublikalar arasında heç bir sərhədlər yox idi.

Çar Rusiyası 1804–1813-cü illər və 1826–1828-ci illər müharibələrindən sonra Şimali Azərbaycana hakim olduğu zamandan tədricən, ilbəil burada öz hakimiyyətini möhkəmləndirib və nəhayət, öz üsul-idarəsini tətbiq edibdir. Yəni uzun illər Romanovlar nəsli tərəfindən tətbiq olunan üsul-idarəni tətbiq edibdir və artıq o vaxt Rusiyanın bu hissəsi də quberniyalara, qəzalara bölünübdür. Quberniyaları, qəzaları, bütün hakimiyyət orqanlarını da çar hökumətinin nümayəndələri idarə ediblər. Yəni sərhəd olmayıbdır. Kim harada yaşayırdısa, orada da yaşayıbdır.

Ancaq eyni zamanda bizim tariximiz vardır. Bilirik ki, Azərbaycan hansı ərazidə olubdur. Bunu yaxşı bilirik. Hamımız bilirik və bunu, tariximizi yada salaraq ürək ağrısı ilə deyirik ki, Azərbaycanın ərazisi indikindən xeyli böyük, geniş olubdur. Ancaq tarixin müəyyən mərhələlərində bu ərazinin bir hissəsi ermənilərə keçibdir – bir dəfə, iki dəfə, üç dəfə.

1918-ci ildə Azərbaycanda ilk dəfə xalq Cümhuriyyəti yaranıbdır. Elə xalq Cümhuriyyəti yarananda da Dağlıq Qarabağ Vilayətində müharibə gedirdi. Sonra isə xalq Cümhuriyyəti tezliklə süqut etdi və Azərbaycan Sovet Sosialist Respublikası yarandı. 1922-ci ildə isə SSRİ yarandı. Azərbaycan da SSRİ-nin təşkilatçılarından biri idi. O vaxt sərhədlər müəyyən olunurdu. Bu gün keçmişi xatırlayaraq, biz tam həqiqətlə deyə bilərik ki, Azərbaycana o illərdə də qəsd olunubdur, Azərbaycan torpaqlarının bir hissəsi Ermənistana verilibdir, sərhədlər düz bölünməyibdir. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıbdır. Onun da tarixi məlumdur. Ermənilər hesab edirlər ki, burada o vaxt ermənilərə qarşı ədalətsizlik olubdur. Amma biz isə hesab etmişik və bu gün də hesab edirik ki, Azərbaycana qarşı qəsd olunubdur. Çünki əhalisinin bir hissəsi erməni millətinə mənsub olduğuna

görə Dağlıq Qarabağda Muxtar vilayət yaranması – demək, Azərbaycanın daxilində hansı bir əraziyə muxtariyyət vermək və muxtariyyət prinsipləri əsasında ona hüquqlar verməkdən ibarətdir.

Ondan sonra Ermənistan və deyə bilərəm ki, daha çox Ermənistanın millətçi dairələri, ziyalıları, hamısı yox, amma qatı millətçi ziyalıları, daşnak partiyası – hansı ki, bilirsiniz, keçən əsrin sonunda meydana çıxıbdır, müxtəlif ölkələrdə fəaliyyət göstərib və bu gün də göstərir – bütün bu qüvvələr vaxtaşırı, SSRİ dövlətinin mövcud olduğu bir halda, Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana verilməsi məsələsini qaldırıblar.

Mən dedim ki, bu işləri keçmiş fəaliyyətimə görə yaxşı bilirəm. Bu məsələni 50-ci, 60-cı illərdə də qaldırıblar. Mənim o vaxt işlədiyim sahə elə idi ki, bunları yaxşı bilirəm. Nəhayət, 1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. O zaman da bu məsələlər qaldırılıbdır. 1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən Konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya o vaxtkı Kommunist Partiyasının Baş katibi Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən mən də bu komissiyanın üzvü idim. Komissiya layihə hazırladığı dövrdə, təxminən bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdu.

Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma qarşısını almaq da çətin idi. Amma aldım. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım. Amma eyni zamanda Dağlıq Qarabağda vəziyyəti həmişə qızışdırırdılar. Ona görə də mən Azərbaycana rəhbərlik etdiyim zaman – bunu açıq demək lazımdır – biz Dağlıq Qarabağa daha çox iqtisadi cəhətdən şərait yaradırdıq, onların iqtisa-

diyyatının inkişaf etməsinə üstünlük verirdik. Çünki daim məsələ qalxırdı ki, guya Dağlıq Qarabağı Azərbaycanda sıxışdırırlar və ermənilər Dağlıq Qarabağda inkişaf edə bilmir. Azərbaycanın bütövlüyünü saxlamaq, bütün ərazisini qorumaq üçün biz o vaxtlar, yenə də deyirəm, Dağlıq Qarabağa daha da çox diqqət yetirirdik. Doğrudur, sonra bəzi diletant adamlar məni günahlandırırdılar ki, bunu nə üçün edirdim. Mən bu gün də deyirəm, edirdim. Edirdim ona görə ki, birincisi, Dağlıq Qarabağı azərbaycanlılarla da məskunlaşdırmaq lazım idi, ikincisi, Dağlıq Qarabağa, ermənilərə imkan verməyək ki, bu məsələni qaldırsınlar.

Sonra məsələ tərsinə oldu. Bu münaqişə başlanandan sonra mətbuatda, SSRİ mətbuatında məni yenə də günahlandırdılar ki, Azərbaycana rəhbərlik etdiyim zaman guya ermənilərı sıxışdırmışam, oradakı demoqrafik vəziyyəti dəyişdirmişəm, ermənilərin oradan çıxması üçün müəyyən tədbirlər görmüşəm və ermənilər Dağlıq Qarabağda azalıblar. Azərbaycanın başqa yerlərində azaldıqları kimi, Dağlıq Qarabağda da azalıblar. Bunu ermənilər deyirdilər və hətta o vaxtlar bu məsələlər SSRİ Ali Sovetinin sessiyasında müzakirə olunanda onların nümayəndələri, hətta Ermənistan Elmlər Akademiyasının prezidenti Ambarsumyan – biz vaxtilə onu Azərbaycan Elmlər Akademiyasının fəxri üzvü seçmişdik, o cümlədən dostluğu möhkəmləndirmək üçün Gürcüstan Elmlər Akademiyasının üzvü seçilmişdi – mənim adımı çəkirdi. O söz indiyə qədər yadımdadır ki, Heydər Əliyev Dağlıq Qarabağı, Azərbaycanı ardıcıl surətdə ermənilərdən təmizləmişdir. Mən buna təəccüb etmirdim, amma ona təəccüb edirdim ki, o vaxt Azərbaycanda çoxları yenə də Əliyevi günahlandırır və həmin o sözlərlə razılaşırdılar: bəli, Heydər Əliyev Dağlıq Qarabağa pis münasibət göstərir. Ona görə də indi ermənilər Dağlıq Qarabağı Ermənistana bağlamaq istəyirlər.

Mənim bunları sizə çatdırmaqda məqsədim ondan ibarətdir ki, bilin, yəni bu, yeni problem deyildir. Ermənistan tərəfi bunun üzərində işləyirdi. O fakt da nəzərdən qaçmamalıdır ki, mən Moskvada bütün işlərdən kənarlaşdırılandan 25 gün sonra bu proses sürətlə başladı. Ondan bir ay sonra Dağlıq Qarabağda olan ermənilərin hamısı ayağa qalxdılar və qərar qəbul etdilər ki, Dağlıq Qarabağ ermənistana birləşdirilsin. Ondan sonra bu faciələr başladı, bunun nəticəsi də göz qabağındadır.

Mən bu gün hesab edirəm ki, günahkar axtarmaq üçün, kim günahkardı, kim günahkar deyil, torpaqlar nəyə görə işğal olunubdur – biz buraya ondan ötrü toplaşmamışıq. Mən rica edərdim ki, bu məsələlər kənarda qalsın. Ancaq bir məsələyə fikrimi demək istəyirəm.

Nə üçün belə oldu? Ona görə yox ki, Azərbaycan xalqı ermənilərdən gücsüzdür. Yox. Bizim çoxəsrlik tariximiz Azərbaycan xalqının nəyə qadir olduğunu nümayiş etdirir. Birincisi, ona görə ki, ermənilər, Ermənistan bu məsələyə uzun müddət hazırlıq görmüşdür. Amma Azərbaycanda bu məsələ unudulmuşdu. Həmin o illər unudulmuşdu. İkincisi, bu münaqişə başlayan zaman, yəni Ermənistanın torpaq iddiası meydana çıxandan sonra ermənilər hamısı – həm Ermənistanda, həm də dünyanın hər yerində yaşayan ermənilər bütün daxili ziddiyyətləri, münasibətləri unutdular, hamısı birləşdilər. Hamısı «miatsum» ideyası ətrafında birləşdi və gücünü bir yerə yığıb bizi bugünkü günə gətirdilər. Onlardan fərqli olaraq, Azərbaycanda bu hadisə başlayan zaman xalqımız birləşə bilmədi, xalqa rəhbərlik edən adamlar səbatsızlıq etdi və bir-iki ildən sonra artıq Dağlıq Qarabağ məsələsi unuduldu, Azərbaycanda daxili çəkişmələr, vuruşmalar, hakimiyyət mübarizəsi başladı. Ona görə də belə bir vəziyyətdə ermənilər asanlıqla Azərbaycan torpaqlarını işğal etdilər.

Yenə də deyirəm və xahiş edirəm ki, bu gün müzakirə zamanı biz bu məsələlərə toxunmayaq. Bu, sonranın işidir – əgər lazımdırsa. Mənim bu gün buraya gəlməyimin məqsədi və Milli Məclisə müraciətimin, təşəbbüsümün məqsədi ondan ibarətdir ki, yaranmış vəziyyəti Milli Məclis də, ictimaiyyət də, xalq da bilsin. Amma təkcə ona görə yox ki, bilsin. Gəlin hamımız bir yerdə belə bir ağır vəziyyətdə düşünək. Nəinki düşünək, bir yerdə əməkdaşlıq edək ki, biz bu vəziyyətdən necə çıxa bilərik. Rica edirəm ki, burada çıxış edən adamlar nə tarixə toxunsunlar, nə kimisə günahlandırsınlar, günahlı-günahsız olub-olmamasını desinlər. Bunların hamısı bu gün lazım deyil. Bunların heç biri lazım deyildir. Bu gün bizə o lazımdır ki, qarşımızda duran vəzifəni necə yerinə yetirək.

Biz indiyə qədər nə etmişik? Bunu Xarici İşlər naziri dedi. Mən də bir neçə kəlmə deyəcəyəm. Ancaq indiki vəziyyətdə nə etməliyik? Çünki Azərbaycanın torpaqlarının 20 faizi işğal olunubdur – əvvəlcə Dağlıq Qarabağ, ondan sonra Dağlıq Qarabağın ətrafında olan yeddi rayon. İşğal olunmuş torpaqlardan – Ermənistandan çıxarılanları da hesab etsək – bizim bir milyon qaçqınımız vardır. Xüsusən, işğal olunmuş torpaqlardan çıxarılan insanlar bir-iki il yox, yeddi-səkkiz ildir çadırlarda ağır vəziyyətdə yaşayırlar.

1994-cü ildə biz atəşi dayandırmışıq. Bəziləri bu barədə də müxtəlif fikirlər söyləyirlər. Mən bu gün bir də bəyan edirəm ki, 1994-cü ilin may ayında atəşin dayandırılması çox vacib tədbir idi və biz buna tam şüurlu olaraq getdik. Ötən dövr də bunu göstərir ki, – baxmayaraq, məsələ həll olunmayıbdır – bu tədbir həyata keçirilməli idi. İndi, təəssüflər olsun ki, çoxları müharibəni yaddan çıxarıblar, rahat yaşayırlar, sakitdirlər. Təəssüflər olsun ki, müharibə vaxtı necə idi, bunu unudublar. İnsanlar sakit yaşayırlar, iqtisadiyyatımız inkişaf edir, xarici investisiyalar gəlir, dövlət quruculuğu prosesi gedir, müstəqilliyimiz möhkəmlənir, Azərbaycan cəsarətli xarici

siyasət aparır. Bunların hamısının müharibə şəraitində həyata keçirilməsi mümkün deyildi.

Biz atəşi dayandıranda ona ümid bəsləyirdik ki, atəşkəs dövründə məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq. Ancaq bəlkə çoxları bilmir. Biz həmin o günlər bir xatadan qurtardıq. Onda bu məsələdə əsasən Rusiya vasitəçilik edirdi. Baxmayaraq ki, Minsk qrupu da var idi. Amma Rusiya təşəbbüsü öz əlinə keçirmişdi. Atəşkəsin dayandırılması haqqında saziş imzalandı və dərhal Rusiyanın Müdafiə naziri xahiş etdi ki, qoy Ermənistanın və Azərbaycanın müdafiə nazirləri Moskvaya gəlsinlər, oturaq, məsləhətləşək ki, torpaqları bundan sonra necə azad edək. Buna inandıq. Müdafiə nazirimizi oraya göndərdik. O vaxt Məmmədov familiyalı bir Müdafiə nazirimiz var idi. Təəssüf ki, o vaxtlar müdafiə nazirlərinin bir neçəsi layiqli insanlar olmayıblar. Ancaq sabahı gün nə baş verdi? Onda Minsk qrupunun həmsədri yox idi, sədr idi. İsveçdən Yan Eliasson sədr idi. O, Ermənistanda olmuşdu, sonra buraya gəlmişdi. O da atəşkəsin yaranmasında iştirak edirdi. Mən onunla danışıq aparırdım. Birdən mənə xəbər verdilər ki, Moskvadan televiziya göstərir ki, Qraçov böyük iclas keçirir və orada tədbirlər görür ki, Azərbaycanda nə etmək lazımdır. Mən dərhal narahat oldum. Moskvada Müdafiə nazirimizi axtardım. Nə meydana çıxdı? Meydana çıxdı ki, buradan Rəsul Quliyevin razılığı ilə, Moskvada da bizim səfirin iştirakı ilə orada belə bir danışıq gedir ki, atəşkəsi təmin etmək üçün Rusiya öz ayırıcı qoşunlarını bölgəyə göndərsin. Həsən Həsənov buradadırmı?

H ə s ə n H ə s ə n o v (*keçmiş Xarici İşlər naziri*): Bəli, cənab Prezident.

H e y d ə r Ə l i y e v: Yadındadırmı?

H ə s ə n H ə s ə n o v: Bəli, çox yaxşı yadımdadır.

H e y d ə r Ə l i y e v: Gecə səhərə qədər neçə saat...

H ə s ə n H ə s ə n o v: Onu səhər saat 7-də tapdıq.

H e y d ə r Ə l i y e v: Mən onu saat 7-də məcbur etdim ki, təcili təyyarəyə min, buraya gəl. Yadındadır?

H ə s ə n H ə s ə n o v: O bir müddət gizləndi. Hətta iki saat onu tapa bilmədik, gec gəldi.

H e y d ə r Ə l i y e v: Bəli. Gizləndi, bizə xəyanət etdi. Bununla qurtarmadı.

Ondan üç gün sonra Rusiyanın Müdafiə Nazirliyinin böyük tərkibdə generalları Azərbaycana planlarla gəldilər ki, harada nəyi yerləşdirəcəyik və sizə kömək edəcəyik ki, Ermənistan qoşun hissələri buradan çıxsınlar. Mən onları dinlədim, dedim təşəbbüsünüzə görə sağ olun. Amma bizim buna ehtiyacımız yoxdur. Çox cəhd etdilər, bəlkə biz gedək, yenə baxın. Dedim, yox. Xahiş edirəm ki, siz buradan dönüb öz yerinizə gedəsiniz. Biz o vaxt belə bir təhlükədən çıxdıq.

Amma müsbət cəhəti də qeyd etmək lazımdır ki, biz heç bir ayırıcı qüvvə olmadan Ermənistanla Azərbaycan arasında 6 ildən çoxdur ki, atəşkəsi saxlaya bilmişik. Bu da təkcə bizim xidmətimiz deyil, yəqin ki, Ermənistan tərəfinin də bu barədə, atəşkəsin saxlanmasına olan müsbət münasibətini etiraf etməliyik. Yenə də deyirəm, ondan sonrakı danışıqlar bizə istənilən nəticəni verməyibdir. Ancaq mən daha geniş məlumatınız olması üçün bir neçə kəlmə sülh danışıqları prosesi haqqında demək istəyirəm.

1992-ci ildə ATƏT-in Minsk qrupu yaranıbdır və Birləşmiş Millətlər Təşkilatı bu məsələni ATƏT-in himayəsinə veribdir. ATƏT də Minsk qrupu və Minsk konfransı yaradıbdır. Minsk qrupuna 12 dövlət daxildir. Ancaq Minsk qrupunun sədrləri olubdur. Məsələn, mən 1993-cü ildə burada işə başlayanda İtaliya, İtaliyanın Xarici İşlər nazirinin müavini Rafaelli sədrlik edirdi. Ondan sonra – 1994-cü ildə İsveç, İsveçin Xarici İşlər naziri Yan Eliasson sədrlik edirdi. 1994-cü ildən sonra biz vəziyyəti dəyişdirdik. Ancaq bu zaman, paralel olaraq, elə müharibə gedən zaman bu məsələnin həll

olunması üçün Rusiya Xarici İşlər nazirinin nümayəndəsi, məlum şəxs Kazimirov bu işlə məşğul oldu. Ayda bir dəfə bölgəyə gəlirdi. Bizim nümayəndələrimizi Moskvaya dəvət edirdi. O vaxt Tofiq Zülfüqarov Xarici İşlər nazirinin müavini idi və bu məsələlər üzrə ekspert idi. O gedib orada danışıqlarda iştirak edirdi. Dağlıq Qarabağdan da oranın «Xarici İşlər naziri» Qukasyanı gətirirdilər. Biz də buradan Dağlıq Qarabağın Azərbaycan icmasının başçısı Bəhmənovu göndərirdik. İş belə paralel gedirdi. Amma mən gördüyüm dövrdə Minsk qrupuna sədrlik edən İtaliya, sonra İsveç idi. Nəhayət, 1994-cü ildə ATƏT-in Budapeşt sammitində biz vəziyyəti dəyişdirdik. Yəni bir az qanuna saldıq.

Mən açıq deyim, orada da Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında müəyyən bir başqa məsələ barədə danışıq oldu. Həsənov onu da bilir. Ola bilər, bunu Əzimov da bilir. O da orada idi. Tofiq Zülfüqarov da bilir. Orada Kristofer Rusiyanın Xarici İşlər naziri ilə görüşdü və öz məsələlərini həll etmək üçün razılıq verdilər ki, Minsk qrupunun həmsədri Rusiya və Finlandiya olsun. Sonra biz 1996-cı ilin dekabr ayına qədər bu dövrü yaşadıq.

1996-cı ilin dekabrında Lissabon sammitində müəyyən irəliləyiş əmələ gəldi. O vaxta qədər heç bir şey etmək mümkün deyildi. Amma 1994-cü ilin dekabrında Budapeştdə biz, birincisi, Minsk qrupunun sədrlik məsələsini müəyyənləşdirdik, ikincisi də, orada ilk dəfə qərar qəbul olundu ki, ATƏT-in sülhməramlı qüvvələri yaransın və saziş əldə olunarsa, buraya, bizim bölgəyə hansısa bir ölkənin yox, ATƏT-in sülhməramlı qüvvələri daxil olsun. Biz nəzərdə tuturduq ki, sülhməramlı qüvvələr bu bölgədə marağı olmayan ayrı-ayrı ölkələrin nümayəndələrindən ibarət olacaqdır. Bu da çox əhəmiyyətli bir qərar idi. Biz buna nail ola bildik.

Lissabon sammitində biz, demək olar ki, ciddi irəliləyişə nail olduq. Yəni nəyə – məlumdur. İlk dəfə yazıldı ki, Azər-

baycanın və Ermənistanın ərazi bütövlüyü tanınsın, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilsin və Dağlıq Qarabağın əhalisinin – həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin.

Artıq burada məruzədə də deyildi. Mən sizə hər şeyi açıq deməliyəm. Bu bizim üçün o qədər də məqbul bir şey deyil, amma biz bir az irəliləmək istəyirdik. Ona görə də biz bunu irəliyə doğru böyük bir addım hesab etdik. Bu layihə Finlandiyada hazırlanmışdı, sonra da Vyanada hazırlanmışdı və Lissabona gətirilmişdi. Lissabonda Ermənistan bu layihənin tamamilə əleyhinə çıxdı. Biz orada nə qədər çalışdıq – dəfələrlə demişik. Ermənistan əleyhinə çıxdı. Orada da qayda belədir ki, konsensus olmalıdır. Konsensus alınmadı.

Mən bunu demişəm, bilirsiniz. Məcbur oldum, ola bilər, diplomatiya tarixində nadir bir haldır ki, mən belə bir addım atdım. Mən bütün Lissabon sammitinin qərarına razılıq vermədim. Beləliklə, əgər bir ölkə qərara razılıq vermirsə, Lissabon sammiti qərar qəbul edə bilməzdi. Bunu nə üçün etdim? Çünki heç olmasa, zirvə görüşünün iştirakçı dövlətlərini məcbur edim ki, Azərbaycana qarşı bir münasibət göstərsinlər. Ondan sonra məlum bəyanat qəbul olundu. Ermənistan ona yenə də səs vermədi, 53 dövlət səs verdi.

Sonrakı dövr nədən ibarətdir? Lissabon sammitindən sonra biz hesab etdik ki, Minsk qrupunun həmsədrləri daha da güclənsinlər. Finlandiya həmsədrlikdən çıxdı, Rusiya qaldı. Amerika Birləşmiş Ştatları öz xidmətini təklif etdi və biz də bunu istədik. Biz Amerika Birləşmiş Ştatlarını təklif etdik. Ermənistan da, Rusiya da bununla razı olmadı. Onlar Fransanı qəbul etdilər. Biz onunla razı olmadıq. Nəhayət, dövlətlər bir-biri ilə razılığa gələ bilmədiklərinə görə, həmsədrlər iki yox, üç oldu. Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa.

Siz bilməlisiniz, buna qədər bizə Minsk qrupu tərəfindən hansısa yazılı bir konkret təklif verilməmişdir.

Yenə də deyirəm, bir tərəfdən, Rusiyanın nümayəndəsi Kazimirov çox fəal işləyirdi. İki-üç aydan bir bizim nümayəndələr Ermənistan nümayəndələri ilə, hətta Dağlıq Qarabağın nümayəndələri ilə Moskvada, yaxud başqa yerdə görüşürdülər. Heç bir nəticə çıxmırdı. Minsk qrupuna artıq üç böyük dövlət həmsədrlik edirdi və biz tələb etdik ki, siz konkret təkliflərinizi verin.

Vilayət Quliyev bu təkliflər haqqında burada dedi. Birinci təklif, «paket həll» təklifi 1997-ci ilin iyun ayında verildi. İndi deyərsiniz, kimsə deyər ki, siz onu niyə qəbul etdiniz? Biz onu qəbul etdik ki, görək irəliyə gedə bilirik, yoxsa yox. Hətta xatirimdədir, mən avqustun 1-də Vaşinqtonda, Ağ evdə Klintonla görüşərkən o bunu çox yüksək qiymətləndirdi. Hətta məndən xahiş etdi, siz öz çıxışınızda deyin ki, – çünki o da çıxış etdi, nitq söylədi, mən də – bunu qəbul edirsiniz. Dedim. Ermənistan bunu qəbul etmədi.

Ondan sonra ikinci təklif, «mərhələli həll» təklifi verildi. Biz onu yenə qəbul etdik. Ona görə yox ki, o bizim üçün əlverişli idi. Düzdür, o, əvvəlkindən bir az əlverişli idi. Bu barədə Vilayət Quliyev dedi. Amma biz istəyirdik ki, bir balaca hərəkət olsun. Ermənistan bunu da qəbul etmədi. Sonrakı proseslər haqqında Vilayət Quliyev danışdı.

Nəhayət, Ermənistanda Ter-Petrosyan ikinci təklifi qəbul etdi. Biz Strasburqda birgə bəyanat verdik ki, bunun əsasında işləyək. Ermənistanda Ter-Petrosyana qarşı müxalifət meydana çıxdı. Beləliklə, 1998-ci ilin fevral ayında Ter-Petrosyan istefa verdi və ondan bir az sonra Köçəryan prezident seçildi. 1998-ci ildə heç bir şey yox idi, Minsk qrupu heç bir şey vermirdi. Bəs niyə vermirsiniz? Deyirlər ki, biz gözləyirik, Ermənistanda yeni prezident seçilir, hökumət yaranır, filan olur, beşməkan olur. Gözlədik, gözlədik, axırda, 1998-ci ilin

sonunda bizə gətirib «ümumi dövlət» təklifini verdilər. Azərbaycanda belə bir söz var ki, bu, qaradan da qaradır. Əvvəlki təkliflərlə müqayisədə, bu, Azərbaycanın qat-qat zərərinə idi.

Həmin danışıqlarda iştirak edənlər xatırlaya bilərlər. Mən eşidən kimi, dedim ki, biz bunu heç müzakirə etmək istəmirik. Çox çalışdılar ki, mənə izah etsinlər. Dedim, mən bunu müzakirə etmək istəmirəm. Siz bizi gətirib elə vəziyyətə qoyursunuz ki, Azərbaycanın ərazisində iki dövlət olur – Azərbaycan, bir də Dağlıq Qarabağ və Azərbaycanın Dağlıq Qarabağa heç bir hüququ yoxdur. Bunun da üstünə örtük örtürsünüz ki, beləliklə, Azərbaycanın ərazi bütövlüyü saxlanılır. Dedim, siz nə düşünürsünüz, biz o qədər dəli olmuşuq ki, bunun nə demək olduğunu anlamırıq? Biz bundan imtina etdik. Ancaq Ermənistan bunu qəbul etdi və indiyə qədər də Ermənistan hər yerdə çıxış edərkən bəyan edir ki, əgər Azərbaycan 1998-ci ilin sonunda «ümumi dövlət» formulasını qəbul etsəydi, indi sülh yaranmışdı, münaqişə qurtarmışdı. Əlbəttə, onların xeyrinə. Vəziyyət belədir.

Siz bilməlisiniz, bu gün müzakirəni apararaq mən sizə bildirirəm ki, bu üç təklifin üçü də tarixdə qalıbdır. Onlar artıq geriyə qayıda bilməzlər. Hesab edirəm ki, son təklif Azərbaycana qarşı edilən böyük bir təxribat idi və biz onu tamamilə rədd etdik. Ondan sonra Minsk qrupu heç bir təklif verməyibdir.

Mən dünən də, bu gün də eşitdim ki, bu məsələləri, təklifləri mətbuata verəndə cürbəcür danışıqlar olubdur. Hətta bizim ölkədə olan müxalifət partiyaları, nə bilim, təşkilatlar və s. yığışıb hay-küy salıblar ki, Heydər Əliyev «ümumi dövlət» formulasını qəbul etmək istəyir, nə bilim, parlamentdə bunu qəbul etdirmək istəyir, filan etmək istəyir. Bilirsiniz, dəhşət bundadır, bizim xalqımızın, millətimizin dərdi bundadır.

Ay bizim vətəndaşlarımız, əsassız siyasi ambisiya ilə yaşayan insanlar, buraya dəvət olunmusunuz. Gəlin, dinləyin.

Əgər Heydər Əliyev bu məsələdə Azərbaycanın mənafeyini müdafiə etməyibsə, durun, onun başını yarın.

Ancaq uydururlar, hay-küy qaldırırlar. Dünən axşam ANS televiziyası xəbər verir ki, 50 siyasi partiya aksiyalar keçirmək üçün qərar qəbul edibdir. Bilirsiniz, mən ANS televiziyasına məsləhət görərdim ki, daha çox ədalət prinsipləri əsasında yaşasınlar, sensasiya əsasında yox. Əslində, Azərbaycanda heç 40 partiya yoxdur. Özlərini partiya adlandıranlar partiya deyillər, elə onları da götürsək, yenə də 50 partiya yoxdur. Qeydiyyatdan keçmiş partiyaların hamısı məlumdur və onlar buraya dəvət olunublar. Amma Murtuz müəllim dedi ki, bəziləri gəlməyiblər. Bəs niyə gəlmirsiniz? Bir tərəfdən, müzakirə istəyirsiniz, istəyirsiniz ki, biz fikirlərimizi açaq, hər şeyi biləsiniz. Digər tərəfdən isə, heç bir şey bilmədən, özünüz yalandan uydurараq, hay-küy salırsınz. Biri deyir, aksiya keçirmək lazımdır, biri deyir, xalqı qaldırmaq lazımdır. Bilsinlər, heç kəs bunu edə bilməz. Azərbaycanın Konstitusiyası var, qanunları var. O zamanlar keçdi. Azərbaycan dövləti qüdrətli dövlətdir. Konstitusiya çərçivəsində, danışıqlar, demokratiya, siyasi plüralizm, qanunun aliliyi çərçivəsində hər adam fəaliyyət göstərə bilər. Amma kim bunlardan kənar fəaliyyət göstərmək istəyirsə, o, cavabını alacaqdır.

Azərbaycanın prezidenti kimi, mən bəyan edirəm ki, keçmiş dövrlərdə olan hallar daha təkrar oluna bilməz. 1993-cü ildə burada vətəndaş müharibəsini yaradan adamlar, Azərbaycanı parçalayanlar, həmin adamları dəstəkləyənlər – mən indi bunu genişləndirmək istəmirəm – indi guya Azərbaycan haqqında düşünürlər və bizdən çox düşünürlər? Ona görə bir də bəyan edirəm ki, dərc olunan təkliflərdən heç biri qəbul olunmayıbdır və qəbul edilməyəcəkdir.

Bu gün səhər mənə dedilər, Ermənistanda çox narazılıq bildiriblər ki, Azərbaycan məxfiliyi pozubdur və təklifləri dərc edibdir. Bu məlumatı dünən də vermişdilər. Onlar hətta

Minsk qrupuna da müraciət ediblər. Mənə səhər dedilər ki, guya onlar da bu son – «ümumi dövlət» formulası olan təklifi dərc ediblər.

Birincisi, heç kəsə söz verməmişdik ki, biz bunları gizli saxlayacağıq. Bəli, mən hesab edirdim və bu gün də hesab edirəm ki, danışıq prosesi gizli saxlanılmalıdır. Nəticə əldə olunandan sonra məlumat verilməlidir. Mən bunu sizə bu gün də deyirəm. Bütün ictimaiyyətə, xalqa deyirəm. Əgər biz bir nəticə əldə etsək, bir qərara, bir fikrə gəlsək, bunu heç kəs, o cümlədən prezident Heydər Əliyev gizlədə bilməz.

Şübhəsiz ki, bunu birinci növbədə Milli Məclis müzakirə etməlidir. Ondan sonra xalqın müzakirəsinə verilməlidir. Əgər xalq, Milli Məclis bunu qəbul etməsə, Azərbaycanın Prezidenti Heydər Əliyev təkbaşına məsələni həll edə bilər? Birincisi, onu bilin, bu gün də, sabah da Heydər Əliyev Azərbaycan xalqının mənafeyinə zidd olan heç bir şeyi qəbul etməz. İkincisi, əgər hansısa kompromislər nəticəsidə bir fikir meydana gəlsə ki, bəli, bunu etmək olar, bu heç vaxt gizli olmayacaqdır. Danışıqlar prosesi gizli gedir, gizli də gedəcəkdir. Çünki bu danışıqlar prosesinin gedişini biz bazara çıxarsaq, ictimaiyyət arasına çıxarsaq, heç bir şey olmayacaqdır.

Ancaq bu gün mənim məqsədim nədən ibarətdir? Bu gün məqsədim ondan ibarətdir ki, hər şeyi biləsiniz. İctimaiyyət, xalq bilsin və desin, nə etmək lazımdır. Mən bunu nə üçün deyirəm? Çünki Minsk qrupu «ümumi dövlət» formulası təklifindən sonra heç bir təklif verməyibdir.

1999-cu ilin aprel ayında Vaşinqtonda, NATO-nun 50 illiyində Amerika Birləşmiş Ştatlarının rəhbərliyi, prezident Klinton, dövlət katibi xanım Olbrayt xahiş etdilər ki, biz Köçəryanla görüşək, danışaq. Görüşdük, danışdıq. Orada belə çıxdı ki, biz müəyyən məsələlər üzrə razılığa gələ bilərik. Ona görə də bu danışıq prosesi davam etdi. Biz 1999-cu ildə bir

neçə dəfə görüşdük. Mən bundan ötrü iki dəfə Cenevrəyə getdim, sonra sərhəddə görüşdük. Demək olar ki, 1999-cu ilin oktyabr ayında mövqelərin xeyli yaxınlaşması mümkün oldu. Amma 1999-cu ildə Ermənistan parlamentindəki terror hadisəsindən sonra Ermənistan, kiçik də olsa, əldə edilmiş müəyyən razılaşmalardan imtina etdi. İndi bu görüşlər başlayandan sonra Minsk qrupu da deyir, Minsk qrupunun həmsədrləri də deyir, ATƏT də deyir, Avropa Şurası da deyir, iki gün bundan əvvəl Avropa Birliyinin başçıları burada idi, onlar da deyir ki, məsələni hər iki prezident həll etsin və nə cür həll etsələr, biz onunla razıyıq. İki prezidentin həll etməsi də çox çətindir. Çünki bir prezidentin ölkəsinin torpaqları işğal olunubdur, bir milyon qaçqını vardır. O biri prezidentin ölkəsinin böyük iqtisadi çətinlikləri var, amma ordusu Azərbaycanın torpaqlarını işğal altında saxlayıbdır.

Vilayət Quliyev burada məlumat verdi. Ancaq mən də bir neçə rəqəm demək istəyirəm. Bilirsiniz, 1993-cü ildən indiyə qədər mən 68 ölkənin prezidenti, dövlət başçısı ilə 485 görüş keçirmişəm. Mən ya rəsmi səfərdə olmuşam, ya onlar Azərbaycanda olublar. Görüşlərin bir çoxu beynəlxalq təşkilatlarda olduğumuz zaman keçirilibdir. Bilin, bütün bu göruşlərin hamısında, hətta Bruneyin sultanı ilə də görüşəndə mən bu məsələni ortaya atmışam, bu məsələni müzakirə etmişəm. Xahiş etmişəm ki, Azərbaycana kömək edilsin, Azərbaycana tərəf olsunlar.

Bu görüşlərin sayı məndə var. Məsələn, Amerika Birləşmiş Ştatlarının Prezidenti, Xarici İşlər naziri ilə 18 dəfə bu məsələni müzakirə etmişəm. Fransanınkı ilə 16 dəfə, Rusiyanınkı ilə 28 dəfə, Türkiyənin rəhbərlərinin hamısı ilə dəfələrlə, 78 dəfə. Bunlarla vaxtınızı almaq istəmirəm.

Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə – keçmiş Baş katib Butros Qali ilə, indi Koffi Annan ilə mən bu barədə on dəfə görüşlər keçirmişəm. Yadınızdadır, Butros Qali gəlib

burada çıxış etmişdir. Mən Birləşmiş Millətlər Təşkilatında üç dəfə zirvə görüşündə çıxış etmişəm. Mənim çıxışlarım dərc olunubdur, hamısında Birləşmiş Millətlər Təşkilatını tənqid etmişəm ki, siz qəbul etdiyiniz qətnamələri yerinə yetirmirsiniz. Onlar nə deyirlər? Onlar deyirlər ki, biz qətnamələri qəbul edirik, amma yerinə yetirmək mexanizmimiz yoxdur. Mən onlara nə edim?

Mən NATO-da üç zirvə görüşündə – Vaşinqtonda, Madriddə, başqa yerdə çıxışlarımda bunu demişəm. NATO-nun Baş katibləri ilə dörd dəfə görüşmüşəm. Bunu hamısına demişəm. ATƏT-in zirvə görüşlərində – artıq bunu dedim – Budapeştdə, Lissabonda və son dəfə İstanbulda.

Mətbuatda görürəm, yazırlar ki, guya İstanbul zirvə görüşündə məsələ həll olunmuşdur, filan olmuşdur. Yalan şeylərdir. Axı bilmədiyiniz şeyi niyə yazırsınız? Bilmədiyiniz şeyi niyə uydurursunuz? Orada heç bir məsələ həll olunmamışdı. Orada Amerikanın Xarici İşlər naziri Olbrayt, Fransanın, Rusiyanın, Türkiyənin Xarici İşlər naziri, ATƏT-in sədri, gərək ki, Norveçin Baş naziri idi və iki prezident məsələni müzakirə etdik və heç bir fikrə gələ bilmədik.

Biz Müstəqil Dövlətlər Birliyinin üzvüyük. Dövlət başçılarının o iclası olmayıb ki, mən bu məsələni qaldırmayım. Bizim dostlarımız, qardaşlarımız, başqa ölkələr Ermənistanın təcavüzkar olmasını dillərinə gətirmirlər. Müstəqil Dövlətlər Birliyinin bəzi sənədlərində «separatizmlə mübarizə» sözü ortaya çıxır. Ermənistan buna etiraz edir. Amma mən təkid edirəm ki, «separatizmlə mübarizə» sözü yazılmalıdır. Bütün dövlət başçıları məndən xahiş edirlər ki, sən öz təklifini geri götür. O cümlədən bizim qardaşlarımız, Mərkəzi Asiya ölkələri.

İslam Konfransı Təşkilatının iki dəfə zirvə görüşü olubdur. Çıxış etmişəm, danışmışam. İqtisadi Əməkdaşlıq Təşkilatının – EKO-nun dörd zirvə görüşü olubdur. Türkdilli ölkələrin döv-

lət başçılarının beş zirvə görüşü olubdur. Nə qədər görüşlər keçirmişəm.

Onu da demək istəyirəm ki, Türkiyə – bizim dost, qardaş ölkəmiz – Ermənistanı təcavüzkar hesab edir və hər yerdə də bunu bəyan edir. İslam Konfransı Təşkilatı yeganə təşkilatdır ki, biz Ermənistanın Azərbaycana təcavüz etməsi formulasını qətnamələrdə yaza bilirik və bu təcavüzə etiraz edə bilirik. İran bəyan edir ki, bəli, Ermənistan Azərbaycana təcavüz edibdir.

Amma bunlardan savayı, dünyanın bir ölkəsi dilinə də gətirmir ki, Ermənistan Azərbaycana təcavüz edibdir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında dörd qətnamə qəbul edilibdir. Mən Vilayət Quliyevdən xahiş etdim ki, o qətnamələrə baxsın. Bu gün səhər mən də baxdım. O qətnamələrin dördündə də yazılıbdır ki, işğalçı ordu işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır. Amma «Ermənistan» sözü yoxdur, yəni «Ermənistan silahlı qüvvələri» sözü yoxdur. Ancaq qətnamənin birində yazılıbdır ki, Ermənistandan tələb edilsin ki, Dağlıq Qarabağa təsir göstərsin. Reallıqda Ermənistan–Azərbaycan müharibəsidir. Reallıqda Emənistan Azərbaycana təcavüz edibdir. Amma heç bir beynəlxalq təşkilatın sənədində, dediklərimdən savayı, hansısa bir dövlətin bəyanatında Ermənistanı heç kəs təcavüzkar saymır.

Biz deyirik – bu formulanı insanların beyninə mən yeritmişəm – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Amma qalanları nə deyir – Dağlıq Qarabağ münaqişəsi. Çünki hamısı hesab edir ki, bu münaqişə iki ölkənin arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadır. Mən dəfələrlə demişəm, əgər belə olsa, qoy, Ermənistan kənara çəkilsin. Biz onda Dağlıq Qarabağla nə danışıqlar apararıq, nə edə bilərik, bu öz işimizdir. Biz bunu çox tez müddətdə həll edə bilərik. Ancaq indi Dağlıq Qarabağ, Ermənistan bir ölkə-

dir. Artıq 11 ildir bunlar bir ölkədir. Amma bu həqiqəti heç kəs tanımaq istəmir.

İndi hamı mənim Köçəryanla görüşüm barədə mənə müraciət edir. Siz nə bilim, güclü lidersiniz, iradəlisiniz, nə bilim, filan, filan, filan. Siz məsələni həll edin. Deyirəm, nə cür həll edim? Siz Ermənistana da deyin, qoy, Ermənistan da bu məsələdə konstruktiv mövqe göstərsin, biz də göstərək. Onda həll edərik. Deyirlər ki, Ermənistan yazıqdır, Ermənistan kasıbdır, nə bilim, Ermənistanın iqtisadiyyatı ağırdır, belədir, elədir.

Böyük ölkələrdə, Amerikanın Konqresində, yaxud da başqa ölkələrin parlamentlərində Ermənistana doğma münasibət vardır. Amma Azərbaycana yox. Baxmayaraq ki, biz təcavüzə məruz qalmış ölkəyik, onlar təcavüzkardır. Bunu elə Avropa Şurasına daxil olan zaman da gördük. Düzdür, müxalifət burada çalışdı ki, Azərbaycan rəhbərliyini, necə deyərlər, yenə günahlandırsın ki, bizdə demokratiya yoxdur, filan yoxdur. Ona görə bizi Avropa Şurasına qəbul etməyin.

Mən bunu açıqca demişəm və Strasburqda çıxış edəndə də dedim. Bütün Avropa Şurasının qarşısında dedim ki, dünyada ikili standartlardan əl çəkmək lazımdır. Bu gün də deyirəm ki, dünyada ikili standartlar mövcuddur.

Mən bir dəfə bir adamdan soruşdum: Ermənistanda, Azərbaycanda, Gürcüstanda seçkilər keçirilibdir. Bunların bir-birindən fərqi nədir? Düzünü deyin. Dedi, elə bir fərqi yoxdur. Dedim, siz nə üçün bizi günahlandırırsınız ki, bizdə seçkilər pozulub, filan olub, amma onları günahlandırmırsınız? Cavab vermirlər, bunların hamısının üstündən keçirlər. Mən hesab etmirəm ki, bizim ölkədə seçkilər pozulubdur. Eyni zamanda, hesab etmirəm ki, bizim ölkədə hər şey tamamilə idealdır. Hesab etmirəm. Dəfələrlə demişəm, hər şeyin bir mərhələsi var. Əgər o mərhələni götürsək, Ermənistan, Azərbaycan, Gürcüstan – biz hamımız eyni pillədəyik. Amma

iqtisadi inkişafa görə biz həm Gürcüstandan, həm də Ermənistandan xeyli üstünük. Daxili sabitliyə görə biz xeyli üstünük. Ölkəyə sülh lazımdır. Ölkəyə daxili siyasi sabitlik lazımdır. Ölkəyə iqtisadi inkişaf lazımdır. Amma bu məsələlər kənarda qalıb, bəziləri tutublar ki, demokratiya, demokratiya, demokratiya. Demokratiya deyən adamların özləri də, sadəcə, bundan sui-istifadə edirlər.

Mən demişəm və deyirəm, Azərbaycanda demokratiya var, demokratiya inkişaf edir və inkişaf edəcəkdir. Heç kəs bu məsələdən sui-istifadə etməsin. Heç kəs də Azərbaycana bu barədə öz müxtəlif imkanları ilə təsir edə bilməz. Bizim Azərbaycanın öz yolu var. Xalqımızın öz mentaliteti var. Heç kəs güman etməsin ki, burada, Azərbaycanda bu gün Fransadakı kimi demokratiya olacaqdır. Onun üçün çox illər yaşamaq lazımdır.

Mən bunu ona görə deyirəm ki, bu ikili standartları nəzərinizə çatdırım. Bu ikili standart da indi Ermənistan – Azərbaycan münaqişəsində tətbiq olunur. Onlar yazıqdırlar, onları xilas etmək lazımdır. Sizin ölkənin təbii sərvətləri var, böyük gələcəyi var, filanı var, peşməkanı var, həll edin. Nə cür həll edim? İndi siz də soruşursunuz. Nə cür həll edim?

Aparılan bütün bu danışıqlardan, Minsk qrupunun verdiyi təkliflərdən mənə bir şey aydındır ki, bunlar Dağlıq Qarabağa müstəqilliyə yaxın bir status verməklə məsələni həll etmək, yaxud da tamam müstəqillik vermək istəyirlər. Minsk qrupunun bütün təkliflərindən bu görünür, başqa bir şey yox. Biz də buna razı olmamışıq və razı ola bilmərik.

Köçəryanla danışıqlarımızı açmaq istəmirəm. Ancaq bir şey aydındır ki, onlar bizim ərazimizi işğal ediblər və əsas məqsədləri odur ki, bir sözlə, Dağlıq Qarabağ bundan sonra heç bir formada Azərbaycan dövlətinin tabeliyində ola bilməz. Onların fikri budur.

Mən bu danışıqları aparıram və aparacağam. Fransanın prezidenti Şirak bir müddət öncə mənə telefon etdi. Çünki yanvarın 26-da orada biz – Köçəryanla mən təkbətək görüşmüşdük, sonra üçümüz birlikdə görüşmüşdük. Bir müddət bundan öncə mənə telefon etdi ki, Köçəryan yenidən Fransaya gəlmişdi. Siz buraya gələ bilərsinizmi ki, təkbətək bir də görüşəsiniz. Mən etiraz etmədim. Martın 4-də Parisdə prezident Köçəryanla mənim təkbətək görüşüm olacaqdır və ayın 5-də üç prezident – prezident Şirak, prezident Köçəryan, bir də Azərbaycan prezidenti görüşəcəkdir.

İndi kimsə deyə bilər ki, Fransa «soyqırımı» haqqında qərar qəbul edibdir. Niyə ora gedirsiniz, filan edirsiniz? Bunlar bir-birindən fərqli məsələlərdir. Bu məsələnin həll olunmasının ona dəxli yoxdur. Biz Fransanın ədalətsiz qərarına etirazımızı bildirmişik, bildiririk. Mən bunu prezident Şirakın üzünə demişəm. Amma eyni zamanda, Fransa Minsk qrupunun həmsədridir. Əgər hansısa bir fürsət varsa, burada nəyisə əldə etmək olarsa, biz bundan istifadə etməliyik və bundan imtina edə bilmərik. Ona görə də mən bu görüşə gedirəm. Nə olacaq, nə olmayacaq, deyə bilmərəm. Amma onu bildirmək istəyirəm ki, vəziyyət çox mürəkkəbdir.

Vilayət Quliyev burada dedi ki, Minsk qrupu öz fəaliyyətini dayandırıb. Minsk qrupu öz fəaliyyətini dayandırmayıbdır. Məsələn, elə Minsk qrupunun həmsədrlərindən birinin, prezident Şirakın bu məsələ ilə məşğul olması onu göstərir ki, Minsk qrupunun həmsədrləri öz fəaliyyətini dayandırmayıblar. Minsk qrupunun həmsədrləri deyəndə, biz onların nümayəndələrini nəzərdə tuturuq, amma əsas dövlət başçılarıdır.

Məsələn, Rusiyanın prezidenti Vladimir Putin buraya gələndə mən onunla iki-üç saat təkbətək çox ətraflı söhbət etdim. Sonra telefon danışıqlarımız olubdur. Ona görə də indi Minsk qrupu öz fəaliyyətini dayandırmayıbdır. Mən dəfələrlə bəyan etmişəm ki, Minsk qrupu və onun həmsədrləri bilməli-

dirlər ki, Ermənistan və Azərbaycan prezidentlərinin bilavasitə görüşləri Minsk qrupunun fəaliyyəti ilə paralel getməlidir. Bu onun fəaliyyətini əvəz etmir və etməyəcəkdir. Bunu dəfələrlə demişəm və yenə də deyirəm. Beləliklə, biz həm Minsk qrupunun fəaliyyətini gücləndirməliyik, həm də imkanlarımızdan hərtərəfli istifadə etməliyik.

Mən sizə vəziyyəti açdım. İndiyə qədər nə mümkündür, etmişəm. Təkcə mən yox, təbiidir ki, bizim müvafiq icra orqanlarımız bunda çox geniş iştirak edirlər, Milli Məclis iştirak edir. Ancaq təbiidir ki, danışıqların əsas hissəsi mənim üzərimə düşür. Eyni zamanda, bizim Xarici İşlər naziri də, Xarici İşlər nazirinin müavinləri də danışıqlar aparırlar. Başqa səviyyələrdə də danışıqlar gedir. Bizim parlament nümayəndələri ayrı-ayrı ölkələrə gedəndə bu məsələləri qaldırırlar. Yəni bunu biz hamımız edirik. Amma Minsk qrupu ilə əsas danışıqları ya bizim icra orqanında işləyənlər, yaxud da bilavasitə mən aparıram.

Mənim məqsədim nədir? Vəziyyət belədir. Siz demisiniz ki, bunu Milli Məclisdə müzakirə edək. Kimsə deyir ki, gəlin komissiya yaradaq. Siz mənə deyin görüm, bu komissiya nə edəcəkdir, nəyə qadirdir, hansı təklifi verə bilər?

Azərbaycanın siyasi partiyaları – müxalifət, ya qeyri-müxalifət – hay-küy salmaq çətin bir şey deyildir. Daha bu hay-küylər keçib getdi. Seçkiqabağı bəziləri çıxış edirdilər ki, bizim konsepsiyamız var. Konsepsiyanı ver! Günahlandırırsınız ki, Azərbaycan prezidenti Heydər Əliyev 7 il müddətində bu məsələni həll edə bilməyibdir. Mən də sizə vəziyyət necədir, deyirəm. Siz deyirsiniz ki, həll edə bilərsiniz – konsepsiyanızı verin. Mənə vermirsiniz, Milli Məclisə verin. Milli Məclisə vermirsiniz, Minsk qrupuna verin. Minsk qrupuna vermirsiniz, Birləşmiş Millətlər Təşkilatına verin. Verin, verin və verin! Amma heç birinizdə nə bir konsepsiya var, nə

bir təklif var, nə də bu məsələnin mürəkkəbliyi, dərinliyi haqqında təsəvvür var.

Ancaq buna baxmayaraq, mən bu gün bir daha müraciət edirəm. Milli Məclis üzvlərinə, bizim ictimaiyyətin nümayəndələrinə, xüsusən Azərbaycan cəmiyyətinin, necə deyərlər, qaymağı olan bizim alimlərə, mədəniyyət xadimlərinə, yazıçılara, bütün başqa ziyalılara müraciət edirəm. Bütün siyasi partiyalara, lap mənə düşmən münasibəti göstərən siyasi partiyalara müraciət edirəm – təkliflərinizi verin. Məni saymırsınız, saymayın. Minsk qrupuna verin. Parlamenti saymırsınız, saymayın. Bu sizin öz işinizdir. Minsk qrupuna verin. Gətir, necə ki, televiziyada bəzi çıxış edənlər kağızı belə qoyurdular ki, bu bizim konsepsiyamız. Amma bu kağızda nə var, Allah bilir. İstəyirsən o kağızı beş dəfə götür, qoy, de ki, bu, bir konsepsiya, iki konsepsiya, üç konsepsiya və s. Əgər bu məsələ ilə bağlı konsepsiyan varsa, apar Minsk qrupuna ver. Mən şərait yaradım ki, Minsk qrupunun həmsədrləri səninlə görüşsünlər. Yazılı şəkildə onlara ver, izah et ki, bax, məsələni bu yol ilə həll edin.

Ancaq bəzi bəyanatlar yayılır ki, nə bilim, Dağlıq Qarabağa mədəni muxtariyyət verilməlidir, Dağlıq Qarabağa vilayət muxtariyyəti vermək olmaz və s. Gəlin ağılla düşünək. Onlar 1923-cü ildə yaranmış bu vilayət müxtariyyətinə dözmədilər, 1988-ci ildə müharibəyə, təcavüzə başladılar, bir belə qan töküldü, torpaqlarımızı işğal etdilər, indi bunları həmin vilayət muxtariyyətinə qaytarmaq olarmı? Mümkün olan şey deyil.

Bəziləri deyirlər, müharibə edin, güclü ordumuz olmalıdır. Azərbaycanın güclü ordusu var. Mən Təhlükəsizlik Şurasında bu məsələni bir neçə dəfə müzakirə etmişəm. Azərbaycanın güclü ordusu var. Müharibə etmək olar. Ancaq bu lazımdırmı? Kim müharibənin tərəfdarıdır, qoy yazsın görək, bu müharibənin nəticəsində nə olacaqdır?

Birincisi, bizim Dağlıq Qarabağdan kənarda yeddi rayonumuz işğal altındadır. İnsanlar çadırlarda yaşayırlar. İşğal olunmuş hər bir rayonu azad etmək üçün nə qədər zaman lazım olacaq, nə qədər qan töküləcəkdir. İkincisi, indi dünya ictimaiyyətində müharibəni kim qəbul edəcəkdir? Üçüncüsü, əvvəldən dünya ictimaiyyətində fikir yaranıbdır ki, orada azərbaycanlılar ermənilərı qırıblar. İndi də müharibəni biz başlasaq, deyəcəklər ki, bəli, azərbaycanlılar elə keçmişdəki kimi, indi də ermənilərı qırmaq istəyirlər. Ancaq mən müharibədən qaçıram. Əgər bizim cəmiyyətimizin hamısı elə qərara gəlsələr ki, bunu əsaslandırsınlar və müharibə istəyən adamların özləri konkret strategiyanı müəyyən etsələr ki, müharibə etmək lazımdır, müharibəni nə cür edək, buna bizim ordumuzun gücü var. Heç narahat olmayın.

Bəziləri deyir ki, yox, beş-on ilə ordu yaradaq, ondan sonra başlayarıq. Bəziləri də deyirlər ki, gəlin məsələni donduraq. Nə qədər donduraq? Tutaq ki, məsələni beş il də donduraq. Yazıq qaçqınlar beş il də çadırlarda yaşamalıdır?

Ondan sonra nə edəcəyik?

Bəzilərində belə fikir var ki, Ermənistanda iqtisadiyyat çox ağır vəziyyətdədir, insanlar ölkəni tərk edir və s. Burada müəyyən həqiqət var. Ermənistanın iqtisadiyyatı ağır vəziyyətdədir. Amma Gürcüstanın iqtisadiyyatı ondan da ağır vəziyyətdədir. Bizim ölkənin iqtisadiyyatının yüksək olduğunu hamı, bütün dünya ekspertləri, nümayəndələr – elə iki gün bundan əvvəl Avropa Birliyinin rəhbərlərini qəbul edirdim, onlarda bütün məlumatlar var – deyir. Nə qədər gözləyək ki, Ermənistanın iqtisadiyyatı dağılsın, Ermənistan tamamilə dağılsın, Dağlıq Qarabağ dağılsın, ondan sonra biz gedək yerləri tutaq? Nə qədər gözləyək? Əgər belə bir fikir varsa, gəlin bunu da əsaslandırın. Yəni mən hər bir təklifə tam ciddiyyətlə, tam məsuliyyətlə baxmağa hazıram.

Ona görə də mən bu məlumatları sizə verdim.

Bugünkü müzakirənin məqsədi təklifdən ibarət olmalıdır. Çıxış edənlərdən xahiş edirəm, nə tarixdən, nə kim günahkardır, günahkar deyil, bu nədən başımıza gəldi – bunlardan danışmasınlar, bunlar qalsın kənarda. Bu, sonranın işidir. Bu gün nə etmək lazımdır? Bu işə hansı yolla nail olmaq lazımdır? İşğal olunmuş torpaqları azad etmək lazımdır. Heç olmasa, Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş rayonları azad etmək lazımdır.

Bəlkə də mən düşünmürdüm ki, bu qədər danışacağam. Ancaq, hər halda, güman edirəm ki, bu məsələ o qədər mürəkkəb məsələdir ki, mənim bu barədə sizə ətraflı məlumat verməyimə ehtiyac var idi. Mən sizdən təkliflər gözləyirəm. Mən sizdən yardım gözləyirəm. Mən xalqımızın birləşib, əl-ələ verib bu məsələni həll etməsini arzu edirəm. Sağ olun.

YEKUN NİTQİ

24 fevral 2001-ci il

Hörmətli Milli Məclis!

Hörmətli deputatlar, xanımlar və cənablar!

Azərbaycan ali qanunvericilik orqanında, Milli Məclisdə iki gün müddətində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması yollarının araşdırılması istiqamətində gedən müzakirə, hesab edirəm, həm bizim üçün, həm də Azərbaycan ictimaiyyəti üçün, xalqımız üçün çox əhəmiyyətlidir.

Mən çox məmnunam ki, müzakirə keçdi. Hesab edirəm ki, bu müzakirə vəziyyətin nə qədər çətin, nə qədər ağır olduğunu bir daha hamıya göstərdi. Bəzi çıxışlarda səsləndi ki, nə üçün bu müzakirə gecikibdir, biz bunu axırda etməliyik, təklif verməli idik, məsələ həll etməliydik. Mən bunlarla

razı deyiləm. Çünki elə dünən, bu gün aparılan müzakirə də onu göstərdi ki, konkret bir təklif verən yoxdur. Azərbaycan prezidenti kimi, mən və mənimlə bərabər bu məsələ ilə bilavasitə məşğul olan şəxslər ötən illər birlikdə çalışmışıq ki, məsələnin sülh yolu ilə, birinci növbədə, ATƏT-in Minsk qrupu vasitəsilə və eyni zamanda dünyanın bütün beynəlxalq təşkilatları vasitəsilə, dünyanın böyük dövlətlərinin köməyi ilə həll edilməsinə nail olaq. Biz bu işləri apararaq, müəyyən bir konkret nəticəyə gələ bilmədiyimizə görə, bu məsələni müzakirəyə çıxarıb sadəcə, söhbət, danışıq aparmağı lüzumsuz hesab etmişik. Dünən, bu gün gedən müzakirələr də mənim üçün bu fikri tam təsdiq etdi.

Danışmaq, hissiyyatları bildirmək, vətəni sevməyi bir daha bəyan etmək, ərazi bütövlüyümüzün ən mühüm məsələ olduğunu bəyan etmək, bəyan etmək ki, «Dağlıq Qarabağsız Azərbaycan yaşaya bilməz» – bunlar artıq12 il müddətində yüz, min dəfələrlə deyilibdir. Bunu hamı deyir. Dünən də, bu gün də çıxışların əksəriyyəti bundan ibarət olubdur.

Ancaq bunu nə cür həll etmək lazımdır? Biz bunun üçün ötən illər çalışmışıq ki, heç olmasa məsələnin həllinə yaxınlaşan zaman, Azərbaycan üçün hansısa bir variant məqbul olan zaman gətirib onu Milli Məclisin müzakirəsinə verək ki, görək Milli Məclis buna nə münasibət göstərir. Əgər indiyə qədər apardığımız danışıqlar bizi qane etməyibsə, yəni bizə verilən təkliflərlə və danışıqlar zamanı irəliyə sürülmüş fikirlərə razı olmamışıqsa, razı olmadığımız məsələləri müzakirəyə çıxarmağın nə əhəmiyyəti var? Bəziləri dünən də, bu gün də deyirlər ki, siz bu məsələni bir neçə il bundan öncə müzakirəyə çıxarsaydınız, biz yolları deyərdik. Yaxşı, hesab edək ki, biz günahkarıq, hərçənd hesab etmirəm, amma şərti olaraq belə hesab edək. Bəs indi nə deyirsiniz?

Xüsusən, bizi bu barədə tənqid atəşinə tutanlara deyirəm ki, biz 1994-cü ildə nə bilim, demkonqresdə məsələni müza-

kirə etmək üçün təklif vermişik. Axı bu qədər də ağ yalan olmaz. 1994-cü ildə həmin o müxalifət qüvvələri pərən-pərən düşüb qaçıb gizlənmişdilər, canlarını qurtardılar. Surət Hüseynovun qorxusundan hərəsi bir deşiyə girmişdi. O vaxt onlar təklif verə bilərdilərmi?

Mən ad çəkmək istəmirəm, amma birinin adını çəkməyə məcburam. 1993-cü il hadisələrindən sonra keçmiş Baş nazir Pənah Hüseynov üç ildən artıq gizləndi. Sonra onu haradasa, təsadüfən tutdular, həbsə saldılar. O bir müddət orada qaldı. Mən dedim, yaxşı, qaçıb gizlənibdir, indi gəlibdir. Fikirləşdim və dedim ki, bəlkə bu adamın günahlarını bağışlamaq lazımdır. Hətta mən xahiş etdim ki, onu həbsxanadan yanıma gətirsinlər.

Mən onunla üç saat söhbət etdim. Həmin söhbətin yazısı vardır. O, söhbət zamanı bizim apardığımız işlərin hamısının düzgün olduğunu dedi, öz təşkilatının buraxdığı səhvləri dedi. Hətta 1994-cü ildə Surət Hüseynovun Azərbaycanda dövlət çevrilişi həyata keçirmək cəhdi zamanı özünün mənsub olduğu siyasi təşkilatın bu məsələyə münasibətini tənqid etdi, başqa şeylər etdi. Dedim, Allaha şükürlər olsun ki, o ağıllanıbdır. Mən də hüquq-mühafizə orqanından xahiş etdim ki, onu azad etsinlər, getsin. Bəlkə doğrudan da o, başqalarını başa sala bilər. Getdi.

Amma bir neçə aydan sonra Azərbaycanda bütün müxalifəti bir-birinə vuran, aranı qarışdıran, heç bir şeyə layiq olmayıb, amma eyni zamanda, müxalifətin içində onu buna, bunu ona qızışdıran, sən lider olacaqsan, sən lider olacaqsan, sən lider olacaqsan… Bax indi deyirlər ki, biz təklif verirdik. Həmin adamlar 1994-cü ildə belə vəziyyətdə idilər. Niyə yalan danışırsınız? Nə üçün yalan danışırsınız?

Mən açıq deyirəm, heç vaxt, heç bir konkret təklif heç bir müxalifət təşkilatı tərəfindən verilməyibdir. Əgər mənim bu sözlərimi onlar təkzib etmək istəyirlərsə, o təklifləri çıxar-

sınlar, bəyan etsinlər, dərc etsinlər. Əgər həqiqətən orada bir rasional fikir olsa, mən onlardan üzr istəməyə hazıram.

Bilirsiniz, bu cür pozucu mövqe tutub, Azərbaycanda hakimiyyət iddiası ilə yaşayaraq, Azərbaycanın müstəqilliyini, suverenliyini, bütövlüyünü, Azərbaycanın vəziyyətini öz şəxsi ambisiyalarına qurban verən adamlar özlərini Azərbaycan vətəndaşı hesab edə bilməzlər. Bax, bunlara görə bu gün deməyə haqqım var ki, indiyə qədər biz heç bir təşkilatdan, heç bir yerdən heç bir təklif almamışıq. Özümüz nə bacarmışıq, onu da etmişik. Mən bu barədə dünən dedim.

1993-cü ildə mən fəaliyyətə başlayandan Minsk qrupu ilə sıx əməkdaşlıq edirdim. Mən dünən dedim. Minsk qrupu həmsədrlərinin Azərbaycana birgə ziyarətləri zamanı onlarla 98 dəfə görüşmüşəm. Hər görüş də iki, üç, dörd saat çəkibdir. Sadəcə, boş söhbətlər aparmışıq? Nəhayət, 1997-ci ildə Minsk qrupunun verdiyi təklif nəyi göstərir? Onu göstərir ki, onlar ancaq məsələnin indiki reallıq əsasında həllini mümkün hesab edirlər.

Hesab edirəm, bizim indiyə qədər gördüyümüz işlər faydalıdır. Bundan artıq heç bir şey etmək olmazdı. Amma biz dünən, bu gün məsələni Milli Məclisə çıxarıb müzakirə edən zaman və müzakirə dövründə ictimaiyyət bildi, bu salonda oturanlar bildilər ki, vəziyyət nə yerdədir. İndi vəziyyətin belə olduğu halda gərək real vəziyyəti dərk edib mümkün, real yolla gedək. İndi hay-küylə heç bir şey etmək mümkün deyildir.

Mən burada bir təklif ala bilmədim. Bəli, müharibə edək, bu çoxdan məlum olan şeydir. Sülh yolu ilə danışıqlar aparaq, 7 ildir aparırıq. Sonra nə edək? Başqa bir şey deyən olmadı. Nəhayət, Ermənistan prezidenti Köçəryan ilə danışıqlar aparıram. Ancaq nə üçün bunlar sülh yolu ilə həll olunmur? Çünki mən dünən də dedim, bu gün də deyirəm: Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı hələ 1990-cı

ildə işğal edibdir. Hələ 1989-cu ildə SSRİ hökuməti Dağlıq Qarabağda Xüsusi İdarəetmə Komitəsi yaradaraq, onu Azərbaycanın tərkibindən çıxarıbdır. Sonra gedən müharibələrdə Dağlıq Qarabağ işğal olunubdur.

Nəhayət, 1992-ci ildə burada, Azərbaycanda hakimiyyət mübarizəsi getdiyi zaman, o vaxtkı rəhbərlik ilə Xalq Cəbhəsi arasında hakimiyyət mübarizəsi getdiyi zaman, mayın 9-da Şuşa işğal olundu. Mayın 14-də burada, bu salonda bəzi qüvvələr Mütəllibovu yenə də hakimiyyətə gətirdilər. Sonra ona hücum olundu. Mayın 17-də Laçın işğal edildi. Mayın 18-də bu salonda Xalq Cəbhəsi parlamenti əlinə alıb parlament sədri seçdi. İki ay sonra isə prezident seçdi. Bu iki rayonun işğal olunması artıq o vaxt Dağlıq Qarabağı Ermənistana birləşdirdi. Bunlar reallıqdır.

Ondan sonra da rayonlar işğal olunubdur. O da reallıqdır. Artıq bu rayonlar neçə ildir işğal altındadır. Əhali oradan çıxarılıbdır. Dağlıq Qarabağ, faktiki olaraq, Ermənistana birləşdirilibdir. İndi belə halda dünyada heç bir qüvvə Ermənistan silahlı qüvvələrinin oradan çıxarılması üçün tədbir görmək istəmir və ona təsir etmək istəmir – nə 12 dövlətdən ibarət Minsk qrupu, nə Amerika Birləşmiş Ştatları, nə Fransa, nə Rusiya, nə də başqa dövlətlər. Bu reallıqdır.

Bizimlə ən dost, qardaş ölkə Türkiyədir. Bizə bütün dəstəkləri verir. Ancaq Ermənistanın işğal etdiyi rayonlarda ermənilərin çıxarılması üçün bir tədbir görə bilmir. Çünki onun imkanı yoxdur. Başqalarının bəlkə imkanı var, çünki onlar Ermənistana yardım edirlər – Amerika Birləşmiş Ştatları da, Rusiya da, Fransa da. Ancaq onlar bunu etmirlər. Əksinə, gün kimi aydın olubdur ki, təcavüzkar kimdir. Təcavüzkara kömək edirlər, yardım edirlər və Azərbaycana qarşı 907-ci maddəni tətbiq ediblər, indiyə qədər də aradan götürmürlər.

Amerikanın keçmiş prezidenti cənab Klinton – hansı ki, mən dəfələrlə görüşüb söhbətlər etmişəm və o, bir neçə dəfə

söz vermişdi. Bizim bəyanatımızda yazılıbdır ki, 907-ci maddə ləğv olunmalıdır – hakimiyyətdən getməsindən üç gün əvvəl mənə məktub göndəribdir ki, biz 907-ci maddəni ləğv edə bilərik, ancaq siz Ermənistana bir jest edin. Jest nədən ibarətdir? Heç olmasa, Qazax bölgəsində, ya başqa bir bölgədə sərhədi açın. Ermənistanla Azərbaycan arasında ticarət getsin. Biz də 907-ci maddəni götürək.

Mən bunu sizə deməliyəm. Dedim ki, olmaz. Mən buna gedə bilmərəm. Əgər siz, o böyüklükdə dövlət orada, Amerikada erməni diasporundan qorxub bunu mənə təklif edirsinizsə, buna gedə bilmərəm. Biz 8 ildir 907-ci maddənin təzyiqi altında yaşayaraq, bundan sonra da yaşayarıq. Budur real vəziyyət.

Türkiyənin hörmətli səfiri tənəffüsdə mənə bir məlumat verdi. Kaliforniya ştatının Konqresinə – onun da Konqresi var – məsələ çıxarılıbdır: 24 aprel «soyqırımı günü» elan etmək, Türkiyəyə qarşı lazımi qərar çıxarmaq. Demək, Amerikada bu iş gedir və gedəcəkdir. Ancaq indi əlavə nə olunur? Əlavə olunur ki, 1988-ci il Sumqayıt hadisələri və 1990-cı il Bakı hadisələri və nəticədə 350 min ermənin Azərbaycandan kütləvi şəkildə sürgün edilməsi haqqında iddialar da əks olunsun. Erməni diasporu budur. Yenə də Arzumanlıya demək istəyirəm, Amerikada yaşayan azərbaycanlıların əksəriyyəti Kaliforniyada yaşayır. Heç birinin ağlına gəlmir ki, Azərbaycanı müdafiə etmək lazımdır? Doğrudur, onlar İrandan köçmüş azərbaycanlılardır. Mən həqiqəti deyirəm, bundan artıq nə olacaqdır? Onların əksəriyyəti özünü azərbaycanlı hesab etmir. Deyirlər ki, biz iranlıyıq. Reallıq budur. Ona görə də ümumi sözlər yox, yenə də deyirəm, konkret təkliflər…

Bizim apardığımız bütün işlər gəlib bu yerdə dayanır ki, Ermənistan silahlı qüvvələri o şərtlə çıxara bilər ki, Dağlıq Qarabağın statusu müəyyən olunsun. Əgər bu olmasa, Ermə-

nistan heç bir şey etməyəcəkdir. Bizə bunu bütün başqa ölkələr də deyirlər.

Təbiidir, Dağlıq Qarabağ Azərbaycanın qədim torpağıdır. Bizim üçün əziz torpaqdır. Amma həqiqət ondan ibarətdir ki, orada yaşayanların əksəriyyəti erməni olubdur. Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayon işğal edilibdir. Onlar qaçqın vəziyyətində çadırlarda yaşayırlar. Burada bəziləri yenə də dedilər ki, gəlin gözləyək, gəlin donduraq, filan edək. Mən istərdim ki, bu sözləri deyən adamlar, bu fikirdə olan adamlar – kimsə burada dedi, mən də onunla razıyam – öz evini bir ay qaçqına versin, getsin çadırda yaşasın. Heç qaçqına verməsin. Qoy evi 10 gün burada qalsın, özü gedib 10 gün o çadırda yaşasın, indi bu dəqiqə. Bilirsiniz, Azərbaycanda həqiqət bundan ibarətdir.

Biz bazar iqtisadiyyatı qururuq, iqtisadi islahatlar həyata keçiririk. Bunun nəticəsində əhalimizin bir qismi bizneslə məşğul olaraq zənginləşib və həddindən artıq zənginləşibdir. Bir qismi orta şəraitdə yaşayır. Bir qismi kasıb şəraitdə yaşayır, amma onlardan da ən ağır şəraitdə yaşayan qaçqınlardır. Qaçqınlar elə vəziyyətdədir ki, buna dözmək mümkün deyildir. Amma qaçqın olmayan, yəni evi-eşiyi olan adamlar, tək Bakıda yox, başqa yerlərdə – dövlətlilər, zənginlər heç, onlar pullarını bilmirlər hara qoysunlar, malikanələr tikirlər, başqa şeylər edirlər – rahat yaşayırlar. O birisi, orta təbəqə də rahat yaşayır.

Biz Azərbaycanın hər yerində, Bakıda ictimai-siyasi sabitliyi təmin etmişik. Restoranlar neçə saat 2-yə, 3-ə, 4-ə, 5-ə qədər işləyir. İnsanlar toy edir. hər toya 300–400 adam çağırır, 3-4 orkestr çağırır. Rahat yaşayır, elektrik işığı da iki saat sönəndə hay qaldırır ki, niyə mənim iki saat işığım olmadı. Evində də üç dənə televizor var, beş dənə paltaryuyan maşını var, dörd dənə də qızdırıcı cihazı var. Onlar heç bilirlərmi ki, qaçqınlar nə vəziyyətdə yaşayır?

O cümlədən orta təbəqə. Restoranlara, barlara təkcə zənginlər getmir ki? Orta təbəqə də gedir. Lap kasıb təbəqə, hansı ki, kasıbdır, pulu azdır, amma onun evi var, heç olmasa, necə deyərlər, başının üstündə damı var, damın altında yaşayır. Biz bu cür rahatlığı yaratmışıq.

Xaricdən gələn adamlar deyirlər ki, Azərbaycanda olan rahatlıq, yəni ictimai asayiş indi heç bir yerdə yoxdur. İndi biri çox zəngin, biri ondan çox aşağı, biri ondan bir az yoxsul yaşayır, lap yoxsulun da müəyyən yaşamaq yeri var, müəyyən qədər imkanı var. Ancaq o çadırda yaşayanlar? Bəs biz onların haqqında düşünməliyik, yoxsa yox? Onlara elə o çətinliyi verməliyik? Ancaq deyirlər ki, yox, gəlin Dağlıq Qarabağa muxtariyyətdən də aşağı bir status verək. Bunu heç kəs qəbul etmir. Qəbul etmir, torpaqlarımız azad olmur. Torpaqlarımız azad olmur, insanlar əziyyət çəkir. Bunun da sonu görünmür.

Ona görə mən bir daha xahiş edirəm, bir daha hamıdan xahiş edirəm, o cümlədən müxalifətə müraciət edirəm, bizim ziyalılara müraciət edirəm. İndi gördüm ki, Milli Məclisdə çıxış edənlərin sən deyən elə bir təklifi yoxdur. Amma yenə də hər biri otursun, düşünsün, yazıb Milli Məclisə versinlər. Bəlkə bizim indiyə qədər tapa bilmədiyimiz bir yolu hamımız, Azərbaycan xalqı, milləti birlikdə tapaq. Bizi günahlandırırlar ki, biz bunu tapa bilməmişik, gəlsinlər o yolu göstərsinlər. Onda biz bu məsələnin həll olunmasını onlara verərik. Qoy gəlsinlər, göstərsinlər. Amma bilin, ümumi danışıqlarla məsələ həll oluna bilməyəcəkdir. Tələb etməklə ki, erməni ordan çıxmalıdır, bu olmayacaqdır. Real vəziyyəti bilmək lazımdır.

Nəhayət, mənim sözlərim ondan ibarətdir ki, dünənki, bugünkü müzakirəni Azərbaycan prezidenti kimi, özümə çox faydalı hesab edirəm. Ona görə ki, mən imkan tapdım, açıqaydın, heç bir şeyi gizlətmədən sizə və sizin vasitənizlə bütün

Azərbaycan xalqına bildirim. Eyni zamanda bu mənə imkan verdi ki, görüm bizim Milli Məclis, dəvət olunan başqa şəxslər, yaxud da adi vətəndaşlar bizə bu barədə nə kömək edə bilərlər, nə təklif verə bilərlər. Bu sözləri sizə deyərək, mən heç də onu bildirmək istəmirəm ki, biz ümidsizik. Yox. Məsələni mütləq həll edəcəyik. Ancaq məsələnin həll olunmasının nə qədər çətin, nə qədər ağır olduğunu hamı bilməlidir. Bir daha deyirəm, kim bu sahədə öz xidmətini göstərə bilərsə, o, Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndiriləcəkdir.

Burada hansısa çıxışlarda səsləndi ki, Milli Məclisin adından Birləşmiş Millətlər Təşkilatına və ATƏT-ə müraciət edilsin. Mən bu təklifləri dəstəkləyirəm.

Sizə deyim ki, mart ayının 1-də ATƏT-in fəaliyyətdə olan sədri, Rumıniyanın Xarici İşlər naziri Azərbaycanda olacaqdır. Kim istəyirsə, çalışsın onunla görüşsün, öz fikrini desin. Hesab edirəm, o vaxta çatdırmaq olar, Milli Məclisin müraciətini hazırlayıb ATƏT-in sədrinə vermək olar. ATƏT-in Minsk qrupuna 12 dövlət daxildir. Onun həmsədrləri var. Demək, həmsədrlərə göndərmək lazımdır–Amerikanın prezidentinə, Rusiyanın prezidentinə, bir də Fransanın prezidentinə. Milli Məclis bunu da edə bilər. Xahiş edirəm ki, əgər deputatlar razı olsa, Milli Məclisin adından bu müzakirənin nəticəsi olaraq belə bir müraciəti Minsk qrupunun həmsədrlərinə göndərsinlər.

Nəhayət, burada dedilər ki, biz məcbur etməliyik ki, Birləşmiş Millətlər TəşkilatınınTəhlükəsizlik Şurası qərarlar çıxarsın. Mən ona cavab verdim. Ancaq eyni zamanda hesab edirəm ki, Milli Məclis deputatların adından, Azərbaycan xalqı adından BMT Təhlükəsizlik Şurasının sədrinə belə bir məktub göndərsin və onların qarşısında qoysun ki, nə üçün qəbul etdiyiniz qətnamələr yerinə yetirilmir.

Biz bunu edə bilməmişik. Bəlkə kimsə edə bilər, yaxud da Milli Məclis edə bilər. Qoy etsin. Başa düşün, mən bunları forma üçün demirəm, düşünərsiniz ki, sizə belə cavab verirəm. Mən bunu real həqiqət kimi qəbul edirəm və istəyirəm ki, bütün istiqamətlərdən bu təşkilatlara təzyiqimizi, təsirimizi göstərək. O ki qaldı mənə, birincisi, Minsk qrupu öz fəaliyyətini davam etdirməkdədir və bundan sonra da Minsk qrupunun həmsədrləri ilə intensiv danışıqlar aparacağam. Məsələnin ədalətli həll olunması üçün təkliflərimizi irəli sürəcəyəm və onlardan məsələnin ədalətli həllinə dair yeni tədbirlər xahiş edəcəyəm. Bu məsələ həmişə mənim danışıqlarımda əsas yer tutubdur və bundan sonra da bütün xarici siyasət fəaliyyətimdə əsas yer tutacaqdır. Nə Minsk qrupundan, nə də ATƏT-dən imtina edə bilmərik. Çünki başqa vasitə yoxdur.

Ermənistan prezidenti ilə Parisdəki danışıqlarımızı sizə dedim, çətin və ağır danışıqlardır. Baxmayaraq ki, bu danışıqlar necə bir insan kimi, necə bir şəxsiyyət kimi, mənim üçün çox çətindir, ağırdır, ancaq bu danışıqları yenə Parisdə aparacağıq. Ondan sonra da əgər bir şey olsa, bunu davam etdirəcəyik.

Mən sizə bir də təşəkkür edirəm ki, Milli Məclis iki gün bu məsələni müzakirə etdi və gələcəkdə əldə olunan hansısa bir müsbət hadisə ilə əlaqədar Milli Məclisə məlumat verəcəyəm. Bir də deyirəm, danışıqlar aparmaq işin birinci hissəsidir. Amma nəyəsə nail olmaq əsas hissəsidir, ikinci hissəsidir. Əgər hansısa bir razılığa gəlsəm, hansısa mən başa düşdüyüm, mənim nöqteyi-nəzərimdən bizim üçün qəbul olunası varianta razı olsam, mütləq onu Milli Məclisin müzakirəsinə verəcəyəm. Əgər Milli Məclis razı olmasa, mən Milli Məclissiz heç bir şey etməyəcəyəm. Fikrim belədir ki, əgər Milli Məclis hansısa bir təkliflə razı olsa, ondan sonra bunu xalqın müzakirəsinə verməliyik. Xalqsız heç bir şey etməməliyik.

Mən həyatımın, demək olar ki, çox böyük bir hissəsini bu işə həsr etmişəm və bundan sonra da mənim həyatım üçün Azərbaycan xalqının qarşısında xidmətlərim sahəsində bundan vacib heç bir vəzifə yoxdur. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni bundan sonra da şərəflə yerinə yetirməyə çalışacağam.

XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Bu gün biz xalqımızın və bəşəriyyətin tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuş Xocalı faciəsinin qurbanlarının xatirəsini dərin hüzn və kədər hissi ilə yad edirik. 1992-ci il fevralın 26-da ən müasir silahlar və texnika ilə təchiz olunmuş Ermənistan hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının bilavasitə iştirakı ilə Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan etdilər, yüzlərlə günahsız mülki əhaliyə–qadınlara, qocalara, uşaqlara amansızcasına divan tutdular. Xüsusi qəddarlığı ilə seçilən bu təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət idi. Əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırımı aksiyaları törədilmişdir. Amma Xocalı soyqırımı bunların ən dəhşətlisi olmuşdur.

Lakin bunu da qeyd etmək lazımdır ki, Xocalının qəhrəman müdafiəçiləri təpədən dırnağa qədər silahlanmış düşmən qarşısında titrəməmiş, özünü itirməmiş, qeyri-bərabər döyüşdə əsl qəhrəmanlıq və şücaət nümunələri göstərmişdilər.

Xocalı faciəsini xatırlayarkən faciənin törədilməsinə imkan yaradan, öz vəzifə borclarının yerinə yetirilməsinə cinayətkarcasına məsuliyyətsiz yanaşan Azərbaycanın o zamankı rəhbərliyinin miskinliyinin və cılızlığının da şahidi oluruq.

Öz vətəndaşlarının təhlükəsizliyini və müdafiəsini təmin etməyə borclu olan hakimiyyət orqanları tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmiş, mühasirə

vəziyyətində olan şəhəri və onun sakinlərini xilas etmək üçün heç bir iş görməmişlər.

Təəssüf ki, müasirlərimizin gözləri qarşısında baş verən bu ağır faciəyə, soyqırımı aktında dünya ictimaiyyəti də biganə qalmış, ona prinsipial mənəvi-siyasi qiymət verməmişdir.

Bizim, bugünkü Azərbaycan rəhbərliyinin və ölkə vətəndaşlarının qarşısında dünya siyasi dairələri və beynəlxalq ictimaiyyət üçün Xocalı faciəsinin, Ermənistan–Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ probleminin obyektiv mənzərəsini yaratmaq, xalqımıza qarşı törədilən cinayətlərin xarakterini və miqyaslarını bütün çılpaqlığı ilə açıb göstərmək, məzlum, əzabkeş cildinə girmiş erməni millətçilərinin əsl simasını ifşa etmək vəzifələri durur. Bu həm soyqırımı qurbanlarının xatirəsi önündə müqəddəs borcumuzdur, həm də insanlığa belə zidd hərəkətlərin dünya təcrübəsindən götürülməsi üçün zəruridir.

Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimizin vicdan və vətəndaşlıq borcu haqqında düşünürük. Bu borcu ödəməyin ən yaxşı yolu Xocalı qəhrəmanlarının uğrunda öz həyatlarını qurban verdikləri idealları yaşatmaq, müstəqil Azərbaycan dövlətini qorumaq, onun sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməkdir.

Bu milli matəm günündə Xocalı şəhidlərinin məsum xatirəsi önündə bir daha baş əyir, onların haqq işinə sədaqətimizi bildirir, soyqırımı qurbanlarına Allahdan rəhmət diləyir, onların ailələrinə, yaxınlarına və bütün xalqımıza başsağlığı verirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 fevral 2001-ci il

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCANDAKI SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

26 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Cənab səfir, xoş gördük sizi, necəsiniz?

R o s s U i l s o n: Cənab Prezident, təşəkkür edirəm, yaxşıyam. Siz məni kifayət qədər məşğul edirsiniz.

H e y d ə r Ə l i y e v: Mən sizi məşğul etmirəm. Siz özünüz işlərinizlə məşğulsunuz. Sadəcə, mən bilirəm, siz iki gün bizim parlamentin iclasında iştirak etdiniz. Güman edirəm, bu da faydalıdır.

R o s s U i l s o n: Cənab Prezident, şübhəsiz, bu mənim üçün faydalı bir təcrübə idi. Hesab edirəm ki, bu, tarixi baxımdan Azərbaycan üçün də çox əhəmiyyətli hadisə idi.

Cənab Prezident, cümə və şənbə günləri Sizin şəxsi rəhbərliyiniz altında aparılan müzakirələr ona görə xüsusi əhəmiyyət kəsb edir ki, Azərbaycan ictimaiyyətini münaqişə barədə daha ətraflı məlumatlandırmaq, münaqişəni daha dərindən anlamaq, münaqişənin həlli yolları barədə fikir mübadiləsi aparmaq baxımından faydalı idi. Eyni zamanda münaqişənin sülh yolu ilə həllinə Sizin sadiq qalmağınızı bir daha nümayiş etdirdiniz. Səmimi-qəlbdən ümidvar olduğumu bildirmək istəyirəm ki, parlamentdə aparılan müzakirələr bu münaqişənin həllinə töhfə verəcək, hər iki tərəf üçün qəbul oluna biləcək qərarın tapılması ilə nəticələnəcəkdir.

Sizə bildirmək istəyirəm ki, dediyim bu sözləri Rusiyanın və Fransanın səfirləri də bölüşürlər. Hamımız belə fikirdəyik ki, bu münaqişənin sülh yolu ilə, dinc vasitələrlə aradan qaldırılması Azərbaycanın iqtisadi cəhətdən inkişafı, ölkədə demokratiyanın uğurla inkişaf etdirilməsi, Azərbaycan xalqının firavan yaşaması üçün olduqca vacib bir məsələdir. Həm Siz, həm də Azərbaycan Amerika Birləşmiş Ştatlarının, Minsk qrupu üzvlərinin dəstəyinə arxalana bilərsiniz.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm. Bəli, biz son illəri götürsək, beşinci, altıncı günlər Azərbaycanın Milli Məclisində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi yollarına həsr olunmuş müzakirə tarixi bir hadisədir. Yəqin xalq da bilir ki, son yeddi ildə biz nə qədər səylər göstərmişik ki, məsələni sülh yolu ilə həll edək. Mən orada rəqəmlər gətirdim – nə qədər görüşlər keçirilib, beynəlxalq təşkilatlarda nə qədər bəyanatlar vermişik, Minsk qrupunun həmsədrləri nə qədər Azərbaycanda olub, danışıqlar aparmışıq. Bu, həddindən artıqdır.

Ancaq son zamanlar mən daha da çox hiss etdim ki, ictimaiyyətimiz, Milli Məclisin deputatları, Azərbaycanda olan siyasi partiyalar bu vəziyyətin nə qədər ağır, nə qədər çətin olduğunu və məsələnin həllinin nə qədər çətin olduğunu dərk edə bilmirlər. Bəziləri dərk edirlər, ancaq öz şəxsi mənafeləri nöqteyi-nəzərindən bunu başqa tərəfə yönəltmək istəyirlər. Ona görə də mən Minsk qrupunun 1997-ci ildən indiyə qədər sənəd şəklində həm Ermənistana, həm də Azərbaycana verdiyi üç konkret təklifi dərc etdirdim.

Doğrudur, bu, təəccüb doğurdu və bəziləri hesab etdi ki, mən bu təkliflərin tərəfdarıyam, hansınısa keçirmək istəyirəm. Müxalifətin əlinə fürsət düşdü ki, özünü göstərsin, öz müxalifətçiliyini göstərsin. Ancaq müzakirələrin gedişi bunların hamısının əsassız olduğunu nümayiş etdirdi. Yəni insanlar mənim məqsədimi anlaya bildilər. Bilirəm ki, sənədlərin dərc

olunması Ermənistanda da narazılıq doğurubdur. Guya mən məxfiliyi pozmuşam. Bunların heç birisi məxfi deyildi. Cəmiyyət bilməliydi ki, biz hansı təklifləri almışıq və cəmiyyətin münasibəti bunlara nə cürdür.

Bizdən sonra Ermənistanda da bu təkliflər dərc olunubdur. Bu da pis deyildir.

Hər halda, mən hesab edirəm ki, bu barədə biz çox ciddi addım atdıq. Amma mənim əsas məqsədim ondan ibarət deyildi ki, bu təkliflərin hansınısa müzakirə edim və onların qəbul edilməsinə nail olum. Əgər onların hansısa qəbul oluna bilərdisə, mən bunu bizə verilən vaxt parlamentdə, cəmiyyətdə müzakirə edə bilərdim. Təklifləri alandan sonra, onlara münasibətimizi bildirəndən sonra heç bir nəticə əldə olmadığına görə bunları dərc etdirdim. Milli Məclisdəki müzakirənin əsas məqsədi ondan ibarət idi ki, qoy bizim Milli Məclisdə, dövlət orqanlarında oturanlar, siyasi partiyalar, ziyalılar, elm adamları, müxtəlif vətənpərvər insanlarımız öz təkliflərini versinlər ki, bu vəziyyətdən nə cür çıxaq.

Mən bilirəm, cəmiyyətimizin əksəriyyəti məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıdır. Bu, Milli Məclisdəki çıxışların əksəriyyətində bildirildi. Mən də bunun tərəfdarıyam. Ancaq bunu nə cür həll edək? Bu məsələyə sülh yolu ilə son qoymağa nə cür nail olaq? Bunun üçün əlavə tədbirlər görülməlidir. Qoy desinlər.

Bəziləri deyir, müharibə edək. Mən dedim ki, bir də bəyan edirəm, bəli, müharibə də edə bilərik. İndi bizim müharibə etməyə qadir ordumuz vardır. Ancaq müharibə ilə biz nə əldə edəcəyik? İşğal olunmuş torpaqları azad edə bilərik. Həddindən artıq qan töküləcəkdir. Bəs Dağlıq Qarabağ? Bəziləri hesab edir ki, gedib oradakı ermənilərı də qırmaq lazımdır, beləliklə, hər şeyi əlimizə keçirmək lazımdır. Bu da ağılsız şeydir. Amma müharibə istəyənlər, xüsusən müxalifətdəkilər deyirlər ki, gəlin müharibə edək, nə bilim, torpaqlarımızı

azad edək. Onlar hamısı bilməlidirlər ki, müharibənin öz qanunları var. Müharibə etmək üçün ölkədə ümumi səfərbərlik elan olunmalıdır, hamı müharibədə iştirak etməlidir, fövqəladə vəziyyət elan olunmalıdır. Bütün siyasi partiyalar bağlanmalıdır, bütün müxalifət qəzetləri bağlanmalıdır. Hamı müharibəyə cəlb olunmalıdır. Müharibənin başqa qanunları da var. Mən Ali Baş Komandan kimi, bunların hamısını bilirəm. Amma «müharibə, müharibə» deyənlər də bilsinlər. Mən müharibə elan edən günü onların hamısının bütün fəaliyyəti dayandırılacaqdır. Hamı müharibəyə getsin.

Bilirsiniz, məsələni uzadaq, məsələni donduraq, 5 ildən, 10 ildən sonra həll edək – bunu isti yerdə oturan adamlar deyirlər. Mən dünən demişəm, əgər kimsə doğrudan bu təklifi verib, mən gözləyəcəm, müraciət etsinlər ki, heç olmasa gedib 15 gün çadırlarda yaşasınlar, yaxud evlərinin bir hissəsini çadırlarda yaşayanlara versinlər. İnanıram ki, belələri tapılmayacaqdır. Amma mən gözləyəcəyəm.

Vəziyyət o qədər mürəkkəbdir ki, burada mühüm tədbirlər görmək lazımdır. Mən istəyirəm ki, bu tədbirlər barədə təklifləri cəmiyyət versin, insanlar versin, bizi tənqid edən siyasi partiyalar versin. Mən gözləyəcəyəm, bəlkə 10–15 günə bir şey alındı. Bəlkə indiyə qədər anlaya bilmədiyimiz bir şeyi bizə təklif edəcəklər.

Beləliklə, hesab edirəm ki, bu müzakirə çox əhəmiyyətli idi. Bilirəm ki, bu müzakirə bizim ictimaiyyətdə, xalqın arasında çox böyük əks-səda doğurubdur. Mən, hər halda, bununla razıyam.

R o s s U i l s o n: Cənab Prezident, çox sağ olun. Amerika Birləşmiş Ştatları Sizinlə tamamilə razıdır ki, münaqişənin həll olunması üçün müharibə yolu yaxşı yol deyildir. Bütün müharibələrin cəmiyyət, xalq, iqtisadiyyat üçün ağlagəlməz ziyanları, zərərləri olur. Hesab edirik ki, Azərbaycanın yolu müharibə yolu olmamalıdır. Sizinlə razıyam ki, bu məsələni

indi yox, başqa vaxt həll etmək yolunu tutmaq bu ölkənin seçə biləcəyi bir yol deyildir.

Mən də qaçqın düşərgələrində, çadırlarda olmuşam. Orada çox məğrur, igid insanlar yaşayırlar. O insanlar böyük ümidlə öz rəhbərinin cəsur, qorxmaz addımlar atmasını, sülhün bərqərar olunmasını arzulayırlar ki, doğma torpaqlarına, evlərinə qayıda bilsinlər. Hesab edirik ki, bu münaqişənin həll olunması yolu varsa, o da dinc, danışıqlar yoludur və biz Sizin bu sahədə atdığınız addımları, səylərinizi dəstəkləyirik.

Cənab Prezident, Sizinlə görüşməkdən ona görə məmnunam ki, prezident Corc Buşun məktubunu Sizə yetirmək istəyirəm. Prezident Corc Buş məktubla Sizə müraciət edərək Azərbaycanla və Sizin rəhbərlik etdiyiniz hökumətlə sıx və konstruktiv münasibətlərimizi gücləndirməyə şəxsən dəstək verdiyini bir daha təsdiq etmək istəyir. O, Amerika Birləşmiş Ştatlarının Azərbaycanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qəti surətdə sadiq qaldığını bir daha təsdiq edir. Prezident Buş Azərbaycanın Avropa Şurasına qəbul olunmasını ürəkdən alqışlayır və hesab edir ki, bu, Azərbaycan üçün tarixi bir hadisədir. Bu, Azərbaycanda demokratik, siyasi, iqtisadi təsisatların yaradılması, həmçinin Azərbaycanın Avroatlantik icmaya inteqrasiya olunması üçün səylərin artırılması baxımından geniş imkanlar açır.

Prezident Corc Buş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını özünün rəhbərlik etdiyi hökumətin ən çox üstünlük verdiyi önəmli məsələlərdən biri hesab edir. Cənab Buş münaqişənin həll olunması üçün Sizinlə prezident Köçəryan arasında danışıqların aparılmasını və müəyyən irəliləyişlərin əldə edilməsini yüksək qiymətləndirir. Prezident Buş onu da alqışlayır ki, Siz bu yaxınlarda, martın 4-5-də Parisdə yenidən görüşəcəksiniz.

Prezident Buş öz məktubunda Sizə yazır: Amerika Birləşmiş Ştatları bu prosesdə fəal surətdə iştirak etməkdə

davam edəcəkdir. Mən şəxsən ümid edirəm ki, bu il biz ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birgə çalışaraq Cənubi Qafqazda sülhün bərqərar olmasına nail ola biləcəyik. Cənab Buş eyni zamanda, qeyd edir ki, sülhü əldə etmək üçün şəxsən Siz, habelə Azərbaycan və Ermənistan xalqları çətin seçim etməli olacaqdır.

Prezident Buş həm özünün, həm də Amerika Birləşmiş Ştatlarının bütün imkanlarından istifadə edərək bu məqsədlərə nail olmaq üçün Sizə kömək etməyə hazır olduğunu bildirir. Prezident Şərq–Qərb enerji nəqli layihələrinin Azərbaycanın müstəqilliyi və təhlükəsizliyi üçün nə qədər böyük əhəmiyyət kəsb etməsini anladığını vurğulayaraq, ümidvar olduğunu bildirir ki, Azərbaycandan Gürcüstana, oradan da Türkiyəyə çəkiləcək qaz kəməri layihəsində də buna bənzər irəliləyiş əldə olunacaqdır.

Prezident Corc Buş öz məktubunun sonunda belə yazır: Mənim prezident kimi səlahiyyətlərimi icra etməyə başlamağım ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün çox böyük perspektivlər vəd edən bir vaxta təsadüf edir. Mən Azərbaycanda və Qafqazda sülhün, sabitliyin və demokratiyanın bərqərar olması, Azərbaycan xalqının və qonşu Qafqaz xalqlarının firavanlığının təmin edilməsi üçün mövcud imkanlardan tam istifadə olunması məqsədi ilə Sizinlə birlikdə çalışmaq əzmindəyəm.

Cənab Prezident, bu, olduqca ciddi bir məktubdur. Bu məktub yeni Buş hökumətinin bu münaqişənin həll edilməsi üçün Sizinlə dialoqlara başlamağa hazır olduğunu göstərən bir məktubdur. Ümidvaram ki, bu günlər ərzində Sizinlə daha sıx çalışaraq, Vaşinqtonda mənə rəhbərlik edən şəxsləri bu prosesə cəlb etməyim üçün birgə səylərimizi artıracağıq və təmaslarımızı çoxaldacağıq.

H e y d ə r Ə l i y e v: Hörmətli səfir, sağ olun. Mən öz prezidentlik səlahiyyətini həyata keçirməyə yenicə başladığı

zaman prezident cənab Corc Buşdan belə çox məzmunlu, böyük əhəmiyyətli məktub almağımdan məmnunam.

Siz bilirsiniz ki, şəxsən mənim son 7 il içərisində Amerika Birləşmiş Ştatlarının keçmiş hökuməti ilə, şəxsən prezident Klinton ilə, dövlət katibi xanım Olbraytla və başqa şəxslərlə daim sıx əlaqəm olmuşdur və Azərbaycan–Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərin inkişafı üçün bunun çox vacib olduğunu həmişə dərk etmişəm.

Mən bu əməkdaşlığı yeni hökumət ilə də davam etdirməyə hazıram və təşəkkür edirəm ki, prezident cənab Corc Buş işinin gərgin dövründə ölkəmizə diqqət yetiribdir, Azərbaycan prezidentinə çox əhəmiyyətli məktub göndəribdir. Mən məktubu diqqətlə oxuyacağam. Ancaq siz bu məktubun bəzi məqamlarından bəhs etdiniz. Bunlar bir daha təsdiq edir ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında əlaqələr yüksələn istiqamətdə inkişaf edir və inkişaf edəcəkdir.

Prezident cənab Corc Buşun Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün bundan sonra da Amerika tərəfindən səylər göstərilməsi haqqında verdiyi bəyanat və Minsk qrupunun həmsədrlərinin bundan sonra da birgə fəaliyyəti haqqında fikirləri məni çox nikbin edir.

Bizim ölkələrimiz arasında iqtisadi əməkdaşlığın da inkişaf etdirilməsi və bu münasibətlə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasına başlanması və Azərbaycan qazının Türkiyəyə ixrac olunması məsələlərinin bu məktubda əksini tapması təbiidir, onu göstərir ki, bizim son illər apardığımız işlər davam edir və bundan sonra sürətlə davam edəcəkdir.

Bu məktubun məhz bu günlərdə mənə gəlib çatması da çox əlamətdar bir hadisədir. Çünki gördünüz ki, mən parlamentdə iki gün bu məsələni müzakirə etdim və bütün ictimaiyyətin müzakirəsinə verdim. Martın 4-5-də Parisdə görüşlər keçirəcəyəm. Məhz bu məqamda məktubun gəlməsi təbiidir ki,

Amerika Birləşmiş Ştatlarının, onun hökumətinin bu məsələ ilə – mən Ermənistan–Azərbaycan münaqişəsini nəzərdə tuturam – daim məşğul olduğunu bir daha təsdiq edir.

Mən çox təşəkkür edirəm. Bu məktubu diqqətlə oxuyacağam və mütləq bu günlərdə məktuba cavab göndərəcəyəm. Çox sağ olun.

BOSNİYA VƏ HERSEQOVİNANIN
PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB JİVKO RADİŞİÇƏ

Hörmətli cənab Prezident!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və dost Bosniya və Herseqovina xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bosniya və Herseqovina arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq əlaqələri ölkələrimizin və xalqlarımızın mənafeyi naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *26 fevral 2001-ci il*

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT
VI MƏHƏMMƏDƏ

Əlahəzrət!

Mərakeş Krallığının milli bayramı münasibətilə Sizi və qardaş Mərakeş xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Mərakeş arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinə xüsusi əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da inkişaf edəcək və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *26 fevral 2001-ci il*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PETER STOYANOVA

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və dost Bolqarıstan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Bolqarıstan arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Ümidvaram ki, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *26 fevral 2001-ci il*

QANA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CERRİ CON ROLİNQSƏ

Hörmətli cənab Prezident!

Qana Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Qana xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Qana Respublikası arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın rifahına öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmn-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *26 fevral 2001-ci il*

«KASTEL» ŞİRKƏTİNİN PREZİDENTİ PYER KASTEL BAŞDA OLMAQLA BU ŞİRKƏTİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

27 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Xoş gəlmisiniz. Azərbaycanın əməkdaşlığı, mən hiss edirəm ki, sizinlə yaxşı istiqamətdə inkişaf edir.

P y e r K a s t e l: Cənab Prezident, tamamilə haqlısınız.

H e y d ə r Ə l i y e v: Mən ümid edirəm ki, ötən dəfə danışdığımız kimi, siz burada öz işlərinizi genişləndirəcəksiniz.

P y e r K a s t e l: Cənab Prezident, mütləq belə olacaqdır. Mən Sizinlə son söhbətimi, görüşümü yadımda saxlamışam. Doğrudan da həmin görüşümüz bizə böyük cürət və ümid verdi. Elə buna görə də biz buraya qoyduğumuz sərmayələrin miqdarını artırmaq fikrindəyik.

Cənab Prezident, bizim pivə zavodundan söhbət gedirsə, bu müəssisə haqqında onu deyə bilərəm ki, indi istehsal etdiyimiz məhsulun həcmini artırıb onu ixrac etməklə məşğuluq. Mən ümid edirəm ki, bu ilin sonuna kimi zavodun ümumi iş rejimini normal hala sala biləcək, istehsal etdiyimiz məhsulun isə 50 faizini ixrac edəcəyik. Biz bununla bağlı bu gün artıq təşkilati işləri qaydaya salır, qonşu ölkələrdə müəyyən anbarlar hazırlayırıq.

Cənab Prezident, bütün bu işlərimizi həll etməkdə bizə dəstək verdiyiniz, kömək etdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Bu sahədə bizə Əmlak naziri də çox kömək edibdir. Bir də onu əlavə etmək istəyirəm ki, bütün işlərimiz, demək olar, yüksək səviyyədə həll edilib, yalnız bir neçə kiçik

iş qalıbdır ki, o da gömrüklə, ixracla bağlıdır. Mənə elə gəlir ki, biz onu da cənab nazirlə birlikdə həll edəcəyik. O bu məsələlərdən xəbərdardır.

Cənab Prezident, mən hər şey üçün Sizə minnətdarlığımı bildirirəm. Yalnız Sizin sayənizdə Azərbaycanla əməkdaşlığımız baş tutdu, öz fəaliyyətimizi genişləndirə bildik. Bununla da Azərbaycanın iqtisadiyyatının inkişaf etməsinə öz yardımımızı göstərəcəyik.

Baxmayaraq ki, mən fəaliyyətimizin əvvəlində müəyyən çətinliklər gördüm, bu da mənim öz günahımdır. Yəqin mən yaxşı bir həmkar seçməmişdim, yaxşı əməkdaşlıq forması tapmamışdım. Amma indi Sizin sayənizdə bunların hamısı öz qaydasına düşdü. Ona görə də Sizə dərin minnətdarlığımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun, təşəkkür edirəm. Mən keçən dəfə də sizinlə görüşümüzdə bildirmişdim ki, «Kastel» şirkətinin, Fransa kapitalının Azərbaycana gəlməsinə çox maraqlıyam. Ona görə də mən həmin siz dediyiniz o problemləri hiss edən kimi, bu işə bilavasitə müdaxilə etdim və nə lazımdırsa etdim ki, sizin burada işləriniz yaxşı getsin. İndi hansı problemlər də həll olunasıdırsa – siz dediniz ki, nazirlə birlikdə həll edəcəksiniz – əgər çətinliklər olsa, nazir mənə xəbər verər.

Mən yanvar ayında sizin ölkədə idim. Prezident cənab Şirakın dəvəti ilə rəsmi səfərdə idim. Söhbətimiz zamanı prezident Şirak «Kastel» şirkətinə göstərdiyim diqqətə görə və xüsusən onun açılışında iştirak etdiyimə görə mənə təşəkkür etdi. Biz birlikdə xatırladıq ki, vaxtilə prezident Şirakla mən danışarkən o sizin «Kastel» şirkətinin Azərbaycanda gəlib iş görməsi haqqında məsləhət vermişdi. İndi prezident Şirak da, mən də çox məmnunuq ki, artıq bu işlər əməli surətdə həyata keçirilir.

Mən sizin burada, pivə zavodu haqqında verdiyiniz vədləri yadımda saxlayacağam. Mən belə anladım ki, bu ilin sonuna

qədər zavod tam gücü ilə işləyəcəkdir. Sizin dediyiniz kimi, onun istehsal etdiyi məhsulun 50 faizinin başqa ölkələrə ixrac olunması təmin ediləcəkdir.

P y e r K a s t e l: Cənab Prezident, bəli, doğrudan da belə olacaqdır. Mütləq belə olacaqdır. Biz artıq bu plan, layihə üzərində işləyirik və bunun üçün əlimizdən gələni edirik. Artıq indi bu işin ticarət, nəqliyyat məsələləri ilə məşğul oluruq. Marketinq məsələlərini həll edirik. Xüsusilə də qonşu ölkələrdə, Moskvada, Qazaxıstanda və sair yerlərdə bu gün biz anbarlar hazırlayırıq ki, oraya pivə məhsullarını ixrac edək.

H e y d ə r Ə l i y e v: Çox gözəl. Yenə də deyirəm. Əgər bundan sonra da hansı problemləriniz olsa, mənə xəbər verin.

P y e r K a s t e l: Cənab Prezident, çox sağ olun.

H e y d ə r Ə l i y e v: İndi siz görürsünüz ki, Azərbaycanda uğurlu iş görmək olar.

P y e r K a s t e l: Tamamilə doğrudur.

H e y d ə r Ə l i y e v: Ona görə də mən sizi dəvət edirəm ki, bizim şərabçılıq sahəsinə öz diqqətinizi yönəldəsiniz.

P y e r K a s t e l: Bəli, cənab Prezident. Ancaq bununla bağlı mənimlə danışığınız yadımdadır. Mən bu layihəni nəzərimdə saxlayıram, heç də unutmamışam.

Cənab Prezident, mən Sizə elə onu bildirməliyəm ki, bayaq Sizə dediyimiz ilkin layihəni axıra çatdıran kimi, həmin o layihə də nəzərimizdə olacaqdır. Məhz bundan sonra biz şərab sənayesi haqqında öz planlarımızı həyata keçirməyə çalışacağıq.

H e y d ə r Ə l i y e v: Bəli, bu bizim üçün çox vacibdir. Çünki bizim yaxşı, yüksək keyfiyyətli şərablar istehsal etmək üçün imkanlarımız vardır. Ölkəmizin torpağı, iqlimi, üzüm plantasiyaları, bunların hamısı buna əsas verir.

P y e r K a s t e l: Cənab Prezident, mən Sizin dediklərinizi yaxşı başa düşürəm. Çünki mənim əsas peşəm, məşğul oldu-

ğum sahə şərabçılıqdır. Mən deməliyəm ki, biz Fransada, böyük bir regionda artıq bu işlə – şərabçılıqla məşğul oluruq.

Bundan əlavə, Afrikanın şimalında, Mərakeşdə bizim 1200 hektar sahədə üzümçülüklə məşğul olan müəssisələrimiz vardır. Deməliyəm ki, mən bu işi yaxşı bilirəm və Mərakeşlə Azərbaycan məhz müəyyən xüsusiyyətlərinə görə bir-birinə uyğundur.

H e y d ə r Ə l i y e v: Vaxtilə Azərbaycanda 280 min hektar üzüm plantasiyaları var idi. Biz ildə 2 milyon ton üzüm istehsal edirdik. Bütün SSRİ-də 6 milyon ton üzüm istehsal olunurdu. Onun 2 milyon tonu Azərbaycanda istehsal edilirdi.

P y e r K a s t e l: Bəli, belədir.

H e y d ə r Ə l i y e v: Çünki o vaxt SSRİ-nin alimləri, şərabçılıq sahəsindəki mütəxəssislər tədqiqatlar aparmışdılar və Azərbaycanın həm torpağına, həm də iqliminə, o cümlədən günəşin hərarətinə və başqa əlamətlərə görə çox yüksək keyfiyyətli şərab üçün üzüm yetişdirməkdən ötrü əlverişli olduğunu sübut etmişdilər.

P y e r K a s t e l: Bəli, doğrudan da Siz düz deyirsiniz, günəş şüaları üzüm üçün ən mühüm şərtlərdən biridir. Cənubi Qafqaz isə belə bir regiondur. Ona görə də bura elə üzüm üçün ən əlverişli və məqsədəuyğun yerlərdən biridir.

Cənab Prezident, Siz çox düz buyurursunuz. Zənnimcə, bu sahənin gələcək inkişafı üçün indidən düşünmək lazımdır. Azərbaycanda doğrudan da gözəl üzüm sortları vardır. Amma bəzi yerlər də vardır ki, mənim bildiyimə görə, orada həmin o plantasiyalar yaş baxımından müəyyən mənada öz əhəmiyyətini itiriblər. Bəzi yerlərdə üzüm plantasiyalarına lazımi diqqət yetirilmədiyindən yaxşı vəziyyətdə deyildir. Ola bilsin, elə bununla bağlı fikirləşmək lazımdır ki, həmin yerlərdə üzümçülük ənənəsini davam etdirmək üçün yeni plantasiyalar

salmaq gərəkdir. Bu, üzümçülük texnologiyasının tələblərinə uyğun olar.

H e y d ə r Ə l i y e v: Olar. Belə imkanlar var.

P y e r K a s t e l: Gələcəkdə belə bir şeyə də fikir vermək lazımdır. Biz araşdırmalar aparırıq. Bunların nəticələrindən görünür ki, qırmızı şərab ağ şəraba nisbətən daha çox tələb olunur. Ona görə bunu da nəzərə alıb, qırmızı şərab istehsal etmək üçün müəyyən üzüm plantasiyaları salmaq lazımdır.

H e y d ə r Ə l i y e v: Burada elə çoxu belə sortlardır.

P y e r K a s t e l: Mən bunu bir də ona görə dedim ki, indi həkimlər tərəfindən həmişə qırmızı şərab məsləhət görülür. O, qan dövranına kömək edir. Ona görə də adamlar qırmızı şərab içməyə üstünlük verirlər.

H e y d ə r Ə l i y e v: Mən də bunu bilirəm. Hər halda, mən sizi dəvət edirəm. Gəlin uzunmüddətli iş proqramı tərtib edək və bərabər işləyək.

P y e r K a s t e l: Tamamilə doğrudur. Mən Sizin verdiyiniz məsləhəti qəbul edirəm.

H e y d ə r Ə l i y e v: Mən yaxın günlərdə, martın 4-5-də Parisdə olacağam, prezident Şirakla görüşəcəyəm. Sizinlə görüşümü və sizin işləriniz haqqında ona məlumat verəcəyəm.

P y e r K a s t e l: Çox yaxşı.

H e y d ə r Ə l i y e v: Sağ olun.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI BABƏK RAYONUNUN NEHRƏM KƏNDİNİN BİR QRUP SAKİNİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

28 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Necəsiniz? Nehrəmlilərlə çoxdandır görüşməmişdim. Naxçıvana çox gəlməyə imkanım olmur.

Ə q i l M e h d i y e v (*Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri*): Cənab Prezident, çox sağ olun, yaxşıyıq. Nehrəmlilər Sizin üçün çox darıxıblar.

H e y d ə r Ə l i y e v: Mən də belə düşünürəm ki, darıxırlar. Çünki nehrəmlilərlə mənim xüsusi əlaqəm var, xüsusi dostluğum var. Ona görə mən də darıxmışam, siz də darıxmısınız.

Naxçıvan necədir? Əqil müəllim, danışmaq istəyirsən, buyur.

Ə q i l M e h d i y e v: Cənab Prezident, Naxçıvanda bütün camaatın hamısı Sizi dəstəkləyir, buna söz ola bilməz. Xüsusilə, bir həftə bundan əvvəl biləndə ki, biz buraya gələcəyik, hamı yanıma gəlib xahiş etdi ki, onların salamını Sizə yetirim. İcazə verin, mən bəzi məsələlər haqqında bir-iki kəlmə danışım.

Hörmətli Prezident, Nehrəm camaatı, xüsusilə ağsaqqalları Sizə salam göndərirlər. İşinizin gərgin vaxtında, çətin dövrdə Nehrəmin sosial məsələləri ilə məşğul olduğunuz üçün camaat adından Sizə minnətdarlığımı bildirirəm.

Muxtar respublikanın ehtiyacını nəzərə alaraq, 675 milyon manat vəsait ayırıb Koreyadan rentgen aparatı gətirilib quraşdırılmışdır. Beləliklə də, müayinə üçün İrana getməyə ehti-

yac qalmamışdır. Buna görə Muxtar respublikanın əhalisi adından Sizə təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Mən bunu, yəni rentgen aparatının işləmədiyini bilmirdim. Vasif Talıbov mənə məlumat verən kimi, Səhiyyə nazirinə töhmət etdim. Necə ola bilər, Naxçıvan Muxtar Respublikasında müasir rentgen aparatı yoxdur. İnsanlar gedib Təbrizdə özünü rentgendən keçirir, sonra onun plyonkasını alıb buradakı həkimə göstərir. Bu biabırçılıqdır.

Ə q i l M e h d i y e v: Cənab Prezident, camaatın minnətdarlığının həddi-hüdudu yoxdur.

H e y d ə r Ə l i y e v: İndi bu rentgen aparatı Naxçıvanın əhalisini təmin edirmi?

Ə q i l M e h d i y e v: Bəli, təmin edir, özü də necə lazımdır, təmin edir. Müasir rentgen aparatıdır.

Hörmətli Prezident, səhiyyə işçilərinin əməyini qiymətləndirərək, Naxçıvanın səhiyyə işçilərinin, o cümlədən mənim də adımı təltif olunanların siyahısına daxil etdiyiniz üçün Sizə bütün səhiyyə işçiləri adından minnətdarlığımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Sən bunu çox demə, sonra deyərlər ki, Heydər Əliyev naxçıvanlılara tərəfkeşlik edir. Sən elə bir şəxssən ki, gərək mükafatlandırılaydın.

Ə q i l M e h d i y e v: Çox sağ olun, dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, Siz bilirsiniz, yadınıza salmaq üçün deyirəm, Nehrəmin 12 min əhalisi var. 6 min 500 nəfər əmək qabiliyyətli işçi qüvvəsi, 3 min təsərrüfatı, 4 min hektar torpaq sahəsi vardır. Bunun ancaq 3 min hektarını əkmək olur.

Nehrəmdə iki xəstəxana var. İki doğum evinin biri Nehrəmdə yerləşir. Bu, 35 çarpayılıq doğum evidir. O, vaxtilə Sizin sayənizdə tikilmişdir.

H e y d ə r Ə l i y e v: Yadımdadır.

Ə q i l M e h d i y e v: Xəstəxanada 200-ə yaxın adam işləyir. Nehrəmdəki 5 məktəbdə təxminən 2 min 500 şagird

oxuyur, 300-ə yaxın müəllim çalışır. Nehrəmin 400-ə yaxın ziyalısı, 3 kitabxanası vardır. Demək istəyirəm ki, Nehrəmdə lazım olan sosial obyektlərin hamısı vardır. Bunların işləməsi üçün imkan dairəsində şərait yaradılmışdır. Dörd ayın içərisində 600 yerlik gözəl bir məktəb tikilib istifadəyə verilmişdir. 1000 nömrəlik avtomat telefon stansiyası işə salınmışdır. İnşa edilmiş yeni nasos stansiyasının hesabına kəndin bir hissəsi su ilə təmin olunmuşdur.

Heydər müəllim, mən Sizə demişdim, yəqin yadınızdadır. Kəndin yuxarı hissəsində su çatışmır. Siz tapşırıq verdiniz və mənə də dediniz ki, Əqil, siz özünüz bu işə nəzarət edin. Oraya su çəkiləndən sonra 400 hektarlıq sahə su ilə təmin olundu. Hazırda kəndin içərisində təsərrüfat üçün suya ehtiyac yoxdur.

H e y d ə r Ə l i y e v: İçəridə?

Ə q i l M e h d i y e v: Bəli, kəndin daxilində 400 hektar torpaq sahəsi vardır. Vasif müəllim sağ olsun, həmin vaxtdan güclü nasos qoydu və indi həmin torpaqların suya ehtiyacı yoxdur. Qısa müddət ərzində xəstəxana və məktəblər təmir olunmuşdur.

Bir neçə kəlmə də ümumi işlərdən demək istəyirəm. Əgər müəyyən təşkilatlardan soruşsanız, deyəcəklər ki, bu gün Naxçıvanda mədəniyyət, maarif, səhiyyə, təsərrüfat və s. sahələrdə çox işlər görülmüşdür. Son vaxtlar 23 yeni məktəb tikilmiş, 20-si isə təmir edilmişdir. 4 xəstəxana və tibb məntəqəsi tikilmiş, 8-i əsaslı təmir olunmuşdur. Məktəbləri, xəstəxanaları tikəndə bir şey nəzərə alınır. Muxtar respublikanın Ermənistanla sərhəd rayonlarında, kəndlərində tikilir. Ona görə ki, camaat o kəndlərdən dağılmasın, uşaqlar oxumaq üçün başqa yerə getməsinlər. Beləliklə, onlar üçün lazımi şərait yaradılıbdır.

Cənab Prezident, yadınıza salmaq istəyirəm ki, Siz 6 il bundan əvvəl Naxçıvana gələndə müəyyən tədbirləri keçirmək üçün vaxtilə nanəcib adamlar tərəfindən körpü və yollar

dağıdılmışdı. Uşaqlar məktəbə gedə bilmirdilər. İndi 23 körpü salınmış, yüz kilometrlərlə yol çəkilmişdir. Elə dağ kəndi var ki, oraya getməyə yol yox idi, tamamilə dağıtmışdılar. Onların hamısı bərpa olunubdur. Doğrudan da indi o kəndlərə gedən adamlar özləri deyirlər ki, 5-6 il bundan əvvəl oralara getmək çox çətin idi.

Cənab Prezident, əsas odur ki, işləyən, təqaüd alan adamlar vaxtında əmək haqlarını və təqaüdlərini alırlar. Bunların hamısı Sizin sayənizdə, Sizin nəzarətiniz altında həyata keçirilir.

Mən bir neçə kəlmə də problemlərdən danışmaq istəyirəm. Əsas su təchizatıdır, bu olsa, hər şey yaxşı olacaqdır. Bundan istifadə edib aranı qatanlar var. Camaatı bir-birinə vuran, çətinliklərdən sui-istifadə edənlərə deyirik ki, buyurun, sözünüzü deyin, problemlər barədə təklifinizi verin. İndi Siz də mənə deyə bilərsiniz ki, problemlər barədə təklifini ver. İki əsas təklifimiz var.

Birincisi, su məsələsidir. Burada İsmayıl müəllimə söz verəcəyik. O, tarix müəllimidir və vaxtilə seçkilər zamanı Sizi birinci müdafiə edibdir. Bayaq dedim ki, Nehrəmdə su çatışmazlığı vardır. Camaatın vəziyyətinin yaxşılaşdırılması üçün mütləq Qızılvəng buraxılış məntəqəsi açılmalıdır. Bu problemlər həll olunmalıdır. Çünki camaatımızın yaşaması üçün bunlar əsas şərtdir. İmkan daxilində bu işlər həyata keçsə, Nehrəmin elə bir ciddi problemi qalmır. Qalan məsələləri həll etmək olar. Məsələn, Nehrəmdə 5 məktəb var. Mən Sədərəyi də buraya əlavə edirəm. Heç olmasa, bu məktəblərin birinin kompüterləşdirilməsi lazımdır. Çünki uşaqların kompüter savadı olması yaxşı olardı.

H e y d ə r Ə l i y e v: Bəlkə ikisi lazımdır?

Ə q i l M e h d i y e v: O da çox yaxşı olar. Sədərəkdə də etmək lazımdır.

H e y d ə r Ə l i y e v: Ona görə deyirəm, ikisi lazımdır.

Ə q i l M e h d i y e v: Bəli, biri Nehrəmdə, biri də Sədərəkdə.

Cənab Prezident, Nehrəmdə xəstəxana üçün UZİ aparatı lazımdır. Cərrahiyyə əməliyyatı üçün uzun yol getmək lazım olur. Ona görə Nehrəm xəstəxanasında cərrahiyyə əməliyyatı üçün şərait yaratmaq lazımdır. Bir ildə 300 adamın cərrahiyyə əməliyyatına ehtiyacı olur. Sədərəkdə də bu sahədə çətinlik vardır. İmkan daxilində bunlar edilsə, yaxşı olardı. Bu yaşayış məntəqələrinin hər ikisi böyük yerdir, Sizin dayağınızdır, Sizi dəstəkləyirlər.

Görülən işlərin şahidi olanda müxalifətdəkilər dərslərini alırlar. Vasif müəllimlə görüşəndə deyirəm, onların cavabı gördüyümüz işlərdir. Onların özləri də bilirlər ki, bundan artıq nəsə etmək olmaz. Amma nə edəsən, qanlarında var, bunları etməsələr, bəs nə işlə məşğul olmalıdılar? İşlərinin adı qarayaxmaqdır.

Heydər müəllim, nəinki Nehrəm, Naxçıvan, hesab edirəm, bütün Azərbaycan Sizi dəstəkləyir. Vasif müəllimin köməyi ilə nə imkanımız var, hər şeyi edirik. Sizdə olan humanistlik, səbir, güzəşt etmək və s. kimi keyfiyyətlərdən gərək müxalifətdə olanlar xəcalət çəkələr ki, bu cür işlərin qabağında belə hərəkətlər edirlər.

Vasif müəllim mənə dedi ki, Əqil müəllim, Babək rayonunda bir az narahatlıq var, xahiş edirəm, oraya gedin. Mən Babək rayonuna getdim. Orada dörd-beş adam var idi. Onlarla söhbət etdim, dedim ki, Sizin qarşınıza mən yox, kim gəlir gəlsin, ona heç bir hörmətsizlik etməyin. Qulaq asın, sözünü desin, sonra da təklifinizi verin, çıxıb getsin. İkinci tərəfdən, iqtidardan mümkün olmayan şeyi tələb etməyin. Əgər tələb edirsinizsə, o, mümkün olmayacaqdır. Siz deyirsiniz ki, işığımız yoxdur. Mən də, Vasif müəllim də bilirik, yoxdur. İşıq saatla verilir. Burada əhali çox olanda nə olar, fasilələrlə qonşu kəndlərə də verilir. Onun işığını kəsib sənə

verəndə, bəs, orada yaşayanlar yazıq deyil? O da sənin dostundur, yoldaşındır. Nəyə görə onun işığını kəsib sənə versinlər? Bu məsələlər həll olunana qədər dözmək lazımdır. Dedilər ki, Əqil müəllim, bizim günahımız yoxdur. Çünki neft yox, qaz yox, odun yox, çətindir. Mən gəlib Vasif müəllimə məlumat verdim. Sonra bu məsələ həll olundu. Həmin adamlar tutduqları işdən peşman oldular.

Heydər müəllim, Muxtar respublikanın əhalisi, xüsusilə Nehrəm camaatı Sizə bir daha minnətdarlığını bildirir. Gördüyünüz işlərə görə çox sağ olun. Sizin köməyinizlə, nəzarətinizlə Vasif müəllim orada çox yaxşı işlər görür. Sizə bir daha təşəkkür edirik.

Cənab Prezident, bağışlayın, buraya gəlmiş şəxsləri təqdim etmədim. İcazə verin, onları Sizinlə tanış edim.

Heydər Əliyev: İstəyirsən, tanış et.

Əqil Mehdiyev: İsmayıl Ələkbərov Nehrəm kənd orta məktəbinin tarix müəllimidir. Nəriman Mehdiyev kitabxana müdiridir. Həsən Mehdiyev Nehrəm kənd orta məktəbinin direktorudur. Heydər İsmayılov Babək rayonu İcra Hakimiyyəti başçısının müavinidir. Tofiq Abutalıbov kənd bələdiyyəsi sədrinin müavinidir, aqronomdur. Hüseyn Niftəliyev Nehrəm xəstəxanasının Baş həkimidir. Qadir Cəfərov baytar həkimdir. İsa Məmmədov mühəndisdir. Vilayət Mehdiyev isə rabitəçi mühəndisdir.

Heydər Əliyev: Çox sağ olun. İsmayıl müəllim, buyurun.

İsmayıl Ələkbərov (*Nehrəm kənd orta məktəbinin tarix müəllimi*): Hörmətli Prezidentimiz!

Sizə minnətdarlığımızı bildiririk ki, işinizin gərgin, çətin vaxtında Nehrəm kəndindən gəlmiş nümayəndələri qəbul etmisiniz.

Mən özümü xoşbəxt hesab edirəm ki, vaxtilə vəkili olduğum deputat indi Azərbaycanı xaosdan çıxarıbdır. İndi Azər-

baycan dünyada öz layiqli yerini tutub və bundan sonra da tutacaqdır.

Müdrik dövlət başçımızın siyasəti nəticəsində həm iqtisadiyyatda, həm də siyasətdə böyük irəliləyişlər əldə edilmişdir. Neft strategiyası uğurla həyata keçirilir.

Ümumiyyətlə, mənim dilim hər yerdə uzundur. Cənab Prezident, bütün bunlara görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, Əqil müəllim dedi, kəndimizdə çox işlər görülübdür, inkişaf vardır. Şəxsən biz Sizin bütün daxili və xarici siyasətinizi bəyənirik və həmişə Sizə dəstək olacağıq.

Birincisi, kəndimizin əsas problemi su problemidir. Təkcə bizim kəndimizdə yox, Naxçıvanın əksər kəndlərində su problemi vardır. Amma kəndimiz Naxçıvan Muxtar Respublikasında ən böyük kənddir, 4 min hektara qədər suvarılan torpağı vardır. Vaxtilə bundan səmərəli istifadə olunurdu. Lakin son dövrdə, xüsusən 1990–93-cü illərdə baxımsızlıq üzündən suvarma sistemlərinin bir hissəsi dağıdılmış, kəndə su vermək qeyri-mümkün olmuşdur. Mən əvvəllər olan bütün suvarma sistemlərini, sahələri yaxşı tanıyıram. Bizim kəndə əsasən Naxçıvan çayından, bir də Araz çayından su gəlir. İndi oralardan su gətirmək qeyri-mümkündür. Biz hələ 70-ci illərdə oradan su gətirəndə çox çətinliklər çəkirdik.

İkincisi, bizim əsas suvarma sistemimiz «tumbul nasosu» idi və onun vasitəsilə Araz çayından Nehrəm kanalına su vurulurdu. Əfsuslar olsun ki, indi torpaqlar camaata bölündüyünə görə kanal dağıdılıbdır və oradan su gətirmək heç cür mümkün deyildir. Bəs bizim çıxış yolumuz nədir? Araz SES-in bəndi yanında su nasosları qoymaq lazımdır. Hazırda orada bir suvarma sistemi hazırdır. Düzdür, 1990-cı ildə müəyyən qüvvələr onun bir hissəsini söküb dağıtdılar. Oradakı yardımçı stansiyanı da söküb dağıtdılar. Amma buna baxmayaraq, cüzi xərclə həmin xətti bərpa etmək olar. Bunun

vasitəsilə suyu Nehrəmin şərq tərəfinə vermək lazımdır. Çünki oradan həm kənddəki torpaqları suvarmaq mümkündür, həm də kəndin şərqindəki 500 hektar sahəni suvarmaq olar. Sonra həmin bəndin aşağısında nasos stansiyası tikilsin. Su oradan iki boru vasitəsilə Nehrəm kanalına töküləcəkdir. Körpülər hazırdır. Cəmi 11 kilometrlik məsafə vardır. Həmin kanalda 70-ci illərdə qoyulmuş nasoslar durur. Beləliklə, bütün sahələr, kəndin şimal hissəsində olan torpaqlar suvarılacaqdır. Əgər dediyim bu iki variant düzəlsə, onda Nehrəmin 4 min hektar məhsuldar torpaq sahəsi suvarılacaqdır. Bilirsiniz ki, vaxtilə pambığın, üzümün, tütünün ən çox hissəsini Nehrəm veribdir. Beləliklə, biz 4 min hektar sahəyə su çıxara bilərik və bununla da demək olar ki, kənddə əhalinin məşğuliyyəti təmin ediləcəkdir. Hərə gedib öz torpağında işləyəcək və kənddə heç bir dedi-qodu olmayacaqdır.

Bilirsiniz ki, indi kənddə məşğuliyyət, iş yoxdur. Ona görə də camaatın müəyyən hissəsi bəzi adamların təsiri altına düşür. Amma iş yeri olsa, onlar gedib öz torpaqları, təsərrüfatları ilə məşğul olacaqlar. Su probleminin aradan qaldırılması barədə təklifim bundan ibarətdir.

Əqil müəllim dedi, mən də təkrar edirəm, İranla Naxçıvan arasında Qızılvəng buraxılış məntəqəsi açılsa, nəinki Nehrəm camaatının, Naxçıvan əhalisinin də güzəranının yaxşılaşmasına müəyyən qədər köməyi olar. Xahişim odur ki, imkan daxilində o məntəqə açılsın.

O ki qaldı xırda işlərə, Vasif müəllim söz verib ki, bunları imkanlı şəxslərin, yaxud Muxtar respublikanın öz imkanları hesabına yoluna qoyacaqdır.

Mənim bir xahişim də var. Vasif müəllimin yanında bu barədə söhbət etdik. Nehrəm indi çox böyüyübdür. Qızılvənglə Nehrəmin arası 7 kilometrdir. İnsanlar hətta uşağına iynə vurdurmaq üçün Nehrəmə gəlməlidirlər. Ona görə kəndin aşağı hissəsində bir tibb məntəqəsi açılsa yaxşı olar.

Bundan əlavə, Qızılvəngdə yaşayan uşaqlar məktəbə gedirlər. Nehrəmdəki məktəbə gəlmək üçün gərək birinci sinif şagirdi neçə kilometr yol gəlsin. Orada kiçik bir ibtidai məktəb tikilsə, uşaqlar orada oxusa, daha yaxşı olar. Mənim kənd haqqında dediklərim bu qədərdir.

Heydər Əliyev: Mal-heyvan nə təhərdir?

İsmayıl Ələkbərov: Cənab Prezident, indi camaatda istər davar, istərsə də qaramal çoxdur. Adam var ki, onun 500–1000 başa yaxın heyvanı vardır. Amma yem cəhətdən korluq çəkirlər. Çünki torpaqlar əkilmədiyinə görə yem məsələsi çətindir.

Heydər Əliyev: Yaxşı, əyləş.

Güman edirəm, siz nə lazımdır dediniz. Mənim sizinlə bu görüşümün əsas məqsədi odur ki, birinci növbədə, mənim nehrəmlilərə olan münasibətimi, dostluğumu bilirsiniz. Mən hələ ki, Naxçıvana gəlmək üçün vaxt tapa bilmirəm. Ona görə dedim, gələsiniz, burada görüşək. Bir də eşitdim ki, sizin orada bəzi probleminiz vardır. İstədim, sizi dinləyim və görüm, nə etmək olar. Bu problemlər indi təkcə Nehrəmdə deyil, Azərbaycanın hər yerində vardır. Keçid dövründə yaşayırıq. İndi İsmayıl müəllim dedi, vaxtilə Nehrəmdə pambıq əkilirdi, sonra üzümə keçdik, nə qədər üzüm plantasiyaları yaratdıq. Həmin nasos stansiyalarından su verməyin hamısı mənim 70-ci illərdə Azərbaycana rəhbərlik etdiyim vaxt olubdur. Onda Nehrəmin hər tərəfi gül-çiçək idi, üzüm bağları idi. Siz ondan nə qədər gəlir götürürdünüz. İndi deyirsiniz ki, Nehrəm böyüyüb Qızılvəngə çatıbdır. Bu böyümə havadan gəlmir ki? Demək, insanlar ev tikir, özlərinə şərait yaradır, bununla da kənd böyüyür. Kənd rezin deyil ki, onu dartıb böyüdəsən. Hansı yaşayış məntəqəsi böyüyürsə, demək, orada yeni tikintilər gedir, evlər tikilir. Nehrəmin göstəriciləri budur.

Ancaq eyni zamanda 1990-cı ildən sonra – Ermənistan–Azərbaycan münaqişəsi qızışandan sonra, Naxçıvan Muxtar

Respublikası ilə Azərbaycanın əsas ərazisi arasında yollar kəsiləndən sonra naxçıvanlılar çox əzab-əziyyət çəkdilər. Mən sizinlə üç il bir yerdə yaşadım. Siz necə şəraitdə yaşayırdınız, mən də elə şəraitdə yaşayırdım. Bunu yaxşı bilirsiniz. Ona görə də mən Naxçıvanın şəraitini çox yaxşı bilirəm. Özüm üç il o şəraitdə yaşamışam. Mənim yaşayış şəraitimlə sizin yaşayış şəraitinizin o qədər fərqi olmayıbdır. Bəlkə Əqil müəllimin evi mən yaşadığım evdən daha da yaxşı olubdur. Çünki mən onun evində qonaq olmuşam. Allah uşaqlarına qismət eləsin, ikimərtəbəli yaxşı evi vardır. Amma mən bir balaca otaqda yaşayırdım. Yadındadır, balaca otaqda yaşayırdım.

Naxçıvanın böyük imkanları vardır. Ancaq vaxtilə Azərbaycana qəsd edilibdir və Azərbaycan torpağı olan Mehri rayonu, Zəngəzur Ermənistana verilibdir. Bu da Naxçıvanı ərazi nöqteyi-nəzərdən Azərbaycandan ayırıbdır. Sovet vaxtında bunu o qədər hiss etmirdik. Çünki hamısı bir idi. İndi, xüsusən Dağlıq Qarabağ münaqişəsi başlayandan sonra bu, vəziyyəti get-gedə gərginləşdirdi.

İndi deyirsiniz ki, kimsə orada elektrik enerjisindən şikayət edir. Bəs yadınızda deyil, mən orada yaşayanda lampa işığında oturub axşamlar işləyirdim? Sizin yadınızdadır. Bilmirdik ki, televiziyada nə var. Çünki işıq yox idi. Bəli, mən o vaxtlar İrana getdim. Oraya əvvəlcə İrandan elektrik xətti çəkdik. Ondan sonra Türkiyədən elektrik xətti çəkdik. Biz bununla Naxçıvana elektrik enerjisi verdik. Əgər biz o vaxt bunları edə bilməsəydik, onda Nehrəm yox, bütün Naxçıvan qaranlıq içində yaşayacaqdı. Son vaxtlar elektrik enerjisində bir az fasilə oldu. Onun da səbəbini bilirsiniz. İran bizə verdiyi elektrik enerjisini kəsdi. Ona görə də orada vəziyyət gərginləşdi. Biz İranla çox danışıqlar apardıq və onlara çox vəsait verdik, bunu bərpa etdik. İndi İrandan, Türkiyədən elektrik enerjisi gəlir. Araz SES-dən 20 meqavat elektrik ener-

jisi götürülür. Bir də orada kiçik stansiyalarınız var. Onları işlədirsiniz, yoxsa yox?

Vasif Talıbov (*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri*): Cənab Prezident, vaxtaşırı işlədirik.

Heydər Əliyev: İşlədirsiniz. Yadınızdadır, onları da o vaxtlar Türkiyədən gətirdik.

Vasif Talıbov: Bəli.

Heydər Əliyev: Biz indi İrana elektrik enerjisinə görə nə qədər pul veririk?

Artur Rasizadə (*Azərbaycanın Baş naziri*): Cənab Prezident, 3 milyon dollar. Ondan əlavə, Batabat xətti də dayandırılmışdı. Biz bu işlərlə daim məşğul oluruq. İndi Batabat xətti ilə 50 meqavat elektrik enerjisi gəlir.

Heydər Əliyev: İndi 50 meqavat...

Artur Rasizadə: Bəli. Amma Sizin sərəncamınızla 43 milyon dollar borc dörd il ərzində ödənilməlidir.

Heydər Əliyev: 43 milyon dollar ödənməlidir. Amma biz sonra da onun haqqını verməliyik. Yəni gələcəkdə də elektrik enerjisinin haqqını verməliyik.

Artur Rasizadə: Bəli.

Heydər Əliyev: Mənə de görüm, Naxçıvana hava yolundan başqa bir yol yoxdur. Bu hava yolu ilə, təyyarələrlə gediş-gəlişə güzəşt edirik?

Artur Rasizadə: Bəli, cənab Prezident. İldə 44 milyard manat güzəşt edilir.

Heydər Əliyev: İldə 44 milyard manat. Siz bunu bilməlisiniz. Bütün naxçıvanlılar bilməlidir. Naxçıvana təyyarə biletləri ümumi qiymətdən xeyli ucuzdur və bu fərqi dövlət bizim büdcəmizdən ödəyir. Başa düşürsünüz?

Məsələn, biz bəzən baxırıq. Təkcə Naxçıvanın yox, başqa ölkələrin vətəndaşları da bu reysdən istifadə edirlər. Həmin reyslərə başqa ölkənin vətəndaşları nə qədər verirsə, bunu da edə bilərdik. Elədirmi?

Artur Rasizadə: Bəli.

Heydər Əliyev: 44 milyard manat. Bilirsiniz, bu da Naxçıvana olan güzəştdir. Azərbaycanın hava yollarında Naxçıvana biletin qiyməti xeyli ucuzdur. «AZAL» Dövlət Konserninin borcunu ödəmək üçün biz büdcədən ildə 44 milyard manat veririk. Bu, Naxçıvana olan güzəştdir.

Artur Rasizadə: Cənab Prezident, bundan əlavə, son 4-5 il ərzində Naxçıvana 90 milyard manatlıq yanacaq verilibdir.

Heydər Əliyev: 90 milyard manatlıq yanacaq verilibdir?

Artur Rasizadə: Bəli.

Heydər Əliyev: Bunlar hamısı ona görədir ki, Naxçıvan blokada vəziyyətindədir. Ona görə biz bunu başa düşürük və imkan dairəsində bunları edirik. Bəzən bu bizim imkanlarımız xaricində olur. Bilirsiniz, biz bunu edirik və bundan sonra da edəcəyik. Naxçıvan Azərbaycanın əziz bir torpağıdır. İndi Naxçıvanda 400 minə qədər insan yaşayır. Ona görə də biz indi nə mümkündür edirik və edəcəyik.

Qaldı ki, su məsələsi, mən Vasif Talıbovdan soruşdum. İndi hamısını birdən etmək mümkün deyildir. Birinci növbədə nə etmək olar?

Vasif Talıbov: Cənab Prezident, birinci növbədə, keçmiş «Barat» kanalını, nasos stansiyalarını bərpa etsək Nehrəmin 4 min hektar sahəsi suvarılacaqdır. İndi müəyyən sahələr suvarılır, suvarılmayan hissələr də suvarılacaqdır.

Heydər Əliyev: Dediyiniz 4 min hektar...

Vasif Talıbov: Bəli.

Heydər Əliyev: Yaxşı. Başqa sözün yoxdur ki?

Vasif Talıbov: Xeyr.

Heydər Əliyev: Mən Baş nazirə göstəriş verirəm, hesablamalıdır, nə qədər lazımdır. Biz ölkənin ehtiyat fondundan götürəcəyik. Hesablayıb bu gün, ya sabah mənə deyə-

cəkdir və o vəsait ayrılacaqdır. Biz ayırandan sonra nə qədər vaxt lazım olacaqdır onu...

Vasif Talıbov: Cənab Prezident, bir ay.

Heydər Əliyev: Bir ay müddətində. Bunu öz təşkilatlarınız edəcək, yoxsa buradan...

Vasif Talıbov: Öz təşkilatlarımız.

Heydər Əliyev: Öz təşkilatlarınız edəcəkdir. Demək, biz vəsaiti ayıracağıq, öz təşkilatlarınız iş görəcəkdir. Onlar da, müəyyən adamlar da əlavə iş görüb qazanc götürəcəklər və 4 min hektar sahə də suvarılacaqdır. Necədir?

Əqil Mehdiyev: Cənab Prezident, çox sağ olun. Yaxşıdır. Vasif müəllim, nasos stansiyaları harada qurulacaqdır?

Vasif Talıbov: «Barat» kanalını və nasos stansiyalarını bərpa edəcəyik. Nasosun biri suyu yolun aşağı hissəsinə, ikinci nasos da yuxarı hissəsinə vuracaqdır.

Heydər Əliyev: İlkin kömək üçün bəsdir, yoxsa yox?

Əqil Mehdiyev: Cənab Prezident, kifayətdir.

Heydər Əliyev: Bəsdir. Onda Baş nazir Rasizadə iki gün müddətində bu vəsaitin ayrılmasını təmin edəcəkdir. Naxçıvan Muxtar Respublikasının başçısı Vasif Talıbov bəyan etdi ki, Muxtar respublikanın öz təşkilatları vasitəsilə bu nasoslar tikiləcəkdir və bir ay müddətində istifadəyə veriləcəkdir. İndi hələ qışdır, yazın əvvəlidir. Sizə də su əsasən yazda, yayda lazımdır. O vaxta qədər suyu alacaqsınız. Ancaq lazımdır ki, sudan səmərəli istifadə edəsiniz, 4 min hektar sahədə yaxşı əkin aparasınız. Nə əkmək lazımdır, özünüz bilirsiniz. Gərək həm camaat işləsin, həm məhsul götürə biləsiniz, həm də insanların rifah halını yaxşılaşdıraq.

Bilirsiniz, Nehrəm böyük kənddir. Tarixən nehrəmlilər heç vaxt Nehrəmə sığmayıblar. Azərbaycanın böyük-böyük ziyalıları Nehrəm kəndindən çıxmış adamlardılar. Naxçıvan Muxtar Respublikasının həm ziyalıları, həm dövlət işində

işləyən adamlar Nehrəmdən olan adamlardır. Mən Nehrəm haqqında, Nehrəmin xüsusiyyəti haqqında, Nehrəmin ənənələri haqqında dəfələrlə demişəm və son dəfə Naxçıvana gələndə, xatirinizdədir, Cəlil Məmmədquluzadənin muzeyini açarkən orada bu barədə öz fikirlərimi, qəlbimdə olan hissiyyatları bildirdim. Amma siz, Nehrəmin ağsaqqalları da gərək çalışasınız ki, Nehrəmin gözəl ənənələrini, yüksək əxlaqi ənənələrini qoruyub saxlayasınız. İnsanların əxlaqının pozulmasına yol verməyəsiniz.

Nehrəmi keçmişdə də, bu gün də dindar kənd hesab edirdilər. Mənim yadımdadır, gənc vaxtlarımda Naxçıvanda yaşayanda eşidirdim ki, nehrəmlilər xüsusi bir millətdir, nehrəmlilər dindardır, nə bilim, qadının çarşabını atmağa qoymazlar. Naxçıvanın hər yerində qadınlar, demək olar ki, çarşabsız gəzirdilər. Amma Nehrəmdə elə şey yox idi. Üzləri örtülüdür, filandır, filandır. Mən indi demirəm ki, siz qadınların başına çarşab salın. Amma əxlaqı qoruyun. Əxlaqı qoruyun, necə ki, o vaxtlar qoruyurdunuz.

Bilirsiniz, din bir tərəfdən də mənəviyyatdır. Mən böyük dindarlığın tərəfdarı deyiləm. Çünki biz dünyəvi dəyərlərlə yaşamalıyıq. Amma eyni zamanda biz öz milli-mənəvi dəyərlərimizi itirməməliyik, onları yaddan çıxarmamalıyıq. Onları bizim millətimizə yad olan hansısa dəyərlərlə əvəz etməməliyik.

Mən dəfələrlə demişəm, bizim gələcəyimiz milli-mənəvi dəyərlərimizin bəşəri dəyərlərlə, Avropa dəyərləri ilə sintezi vasitəsilə inkişaf edə bilər. Yəni biz nə qatı dindar olmalıyıq, nə bilim, qadını çarşab altında saxla, üzünü ört... Amma nə də bəzi yerlərdə olan – mən bunu açıqlamaq istəmirəm, bilirsiniz də – bəzi ölkələrdə olan insanların əxlaq normalarını qəbul edə bilmərik. Təəssüflər olsun ki, indi Azərbaycanda bu istiqamətdə vəziyyət bir az xoşagəlməz haldadır. Bizim gənc-

lərimiz – oğlanlar, qızlar, təəssüflər olsun ki, bəzən əxlaqsızlıq yoluna düşürlər.

Nehrəm bu barədə nümunə olmalıdır. Ancaq mən eşidəndə ki, – burada gecə barları var, orada səhərə qədər, nə bilim, yeyirlər, içirlər, başqa-başqa işlər görürlər – nehrəmlilərdən kimsə gəlib burada gecə barı düzəldibdir, bu məni narahat edir. Başa düşürsünüz?

Bakıda Nehrəmdən iş adamı çoxdur. İndi biznes hər yerdə biznesdir. Amma gərək elə biznes aparsın ki, əxlaqımız pozulmasın. Mən göstəriş verəcəyəm, araşdırsınlar. Vaxtilə kazinolar yaratmışdılar. Mən onları bağlatdırdım. Bizim nə qədər insanların əxlaqını pozurdu. İndi də bəli, gecə barları yaranıbdır. Səhər 5-6-ya qədər insanlar orada içki içirlər, nə bilim, nə edirlər, nə edirlər və əksəriyyəti də gənclərdir. Bunlardan birinin də sahibi nehrəmlidir. İndi təsəvvür edin, o nehrəmli, bu nehrəmli. Görürsünüz, bax, bizə belə inkişaf lazım deyildir. Mən bilirəm, ad çəkmək istəmirəm. Siz mərd adamlarsınız, qoçaq adamlarsınız, saf adamlarsınız. Bunları saxlayın.

Əqil müəllim, İsmayıl müəllim dedilər ki, bəzi adamlar aranı qarışdırırlar. Bilirsiniz, indi demokratiyadır. Hər adam öz fikrini deyə bilər. Hər adam öz dünya baxışlarını bildirə bilər. Bunların heç birisi qadağan deyil və bizi də narahat etmir. Biz özümüz demokratiyanı inkişaf etdiririk. Amma demokratiyanı təhrif edən, demokratiyanı istismar edib Azərbaycanda ictimai-siyasi vəziyyəti pozmağa çalışan, bundan sui-istifadə edən adamlara biz yol verməyəcəyik.

Mən eşidəndə ki, orada nehrəmlilər gəlib rayon icra hakimiyyətinin qarşısında nəsə ediblər, düzü, çox pərişan oldum. Belə hadisə mənim üçün elə bir narahatedici hadisə deyil, çünki belə şey ola bilər. Amma bunu nehrəmlilər edəndə... Nehrəmlilər indiyə qədər bu cür dilə-dişə düşməmişdilər.

Bizim özəl bir televiziyamız vardır, ANS televiziyası. Orada bir kadr çəkibdir. Onu 15 dəfə göstərir. Hər dəfə eyni şeyi

göstərir. Bir dəfə çəkilən kadrı 15 dəfə göstərir. Bu, nehrəmlilərə şöhrət gətirmir. Nə sözünüz var, gedin, Naxçıvanda müvafiq təşkilatlara müraciət edin. Əgər orada sizə baxmırlarsa, buraya gəlin. Mən bunu sizə demirəm, siz ağsaqqallarsınız. Sadəcə deyirəm ki, siz insanları tərbiyə edin.

Nehrəm böyük kənddir. Orada hər bir partiya, təşkilat ola bilər. Ancaq hər partiya gərək Azərbaycanın, Naxçıvanın, o cümlədən də Nehrəmin daxili ictimai-siyasi sabitliyinə xidmət etsin. Əgər onu pozmağa xidmət edirsə, o, qanun qarşısında cavab verəcəkdir. Necə ki, son hadisələrdə bəziləri cavab verdilər və cavab verəcəklər. Ona görə mən arzu edərdim ki, siz hər yerdə məşhur olan Nehrəm əxlaqı, Nehrəm mənəviyyatı, Nehrəm qeyrəti, Nehrəm mərdliyi, Nehrəm dözümlülüyünü saxlayasınız, yeni nəsillərə verəsiniz və həmişə Azərbaycanda nümunə olasınız.

Naxçıvan Muxtar Respublikasında gedən proseslər bizi sevindirir. Əqil müəllim, sən burada dedin, neçə məktəb tikilibdir, neçə xəstəxana tikilibdir, filan edilibdir. Bu, blokada şəraitində yaşayan Naxçıvanda gedir. Təəssüflər olsun ki, Azərbaycanın başqa bölgələrində bizim belə göstəricilərimiz yoxdur. Bilirəm ki, Naxçıvana daş gəlmir. Naxçıvanın özünün tikinti üçün daşı yoxdur. Mən 1990–93-cü illərdə orada işləyəndə bunların hamısını gördüm. Naxçıvana sement gətirmək çətindir. Naxçıvanda taxta yoxdur. Başa düşürsünüz, bunların heç biri yoxdur. Bunlar olmaya-olmaya, müxtəlif yollarla – bilirəm, bir qismi İran ərazisindən gəlir – çətinliklə gətirib orada xəstəxana tikmək, məktəb tikmək, mədəniyyət ocağı tikmək, bunları etmək onu göstərir ki, ağır şəraitdə Naxçıvan camaatı, əhalisi və Naxçıvanın rəhbərləri necə yaxşı işləyirlər. Mən buna çox sevinirəm. Çünki mən 1993-cü ildə Naxçıvandan çıxmışdım. Sonra oraya 1996-cı ildə və 1999-cu ildə gəldim. Naxçıvanın siması tamamilə dəyi-

şibdir. Biz o vaxtlar Naxçıvanda nə qədər ağır vəziyyətdə yaşayırdıq. Amma indi Naxçıvanın siması dəyişibdir.

Siz də bilməlisiniz, hamı da bilməlidir, dünya da bilməlidir: Naxçıvan Azərbaycanın ən qədim və ən mötəbər torpağıdır. Vaxtilə Naxçıvan Azərbaycanın Atabəylər dövlətinin paytaxtı olubdur. Onun VIII, XI, XII əsrlərdən indiyə qədər yaşayan abidələri vardır. Ona görə də sizin də, bizim də borcumuz Naxçıvanı inkişaf etdirməkdir, Naxçıvanı yaşatmaqdır. Bu işlərlə Naxçıvanda əhalini daha da məskunlaşdırmaq lazımdır.

Əgər kənd əhalisi kəndi sevirsə, kənddə yaşasın. Onsuz da gənclərin çoxu şəhərə gəlir, təhsil alır, müxtəlif işlərdə işləyir, kəndə qayıtmır. Ancaq gərək kənd əhalisi də inkişaf etsin. Gərək Naxçıvanın əhalisi də artsın. Məsələn, dünən Talıbov mənə deyir ki, son iki-üç ildə Azərbaycanda ictimai-siyasi vəziyyət sabitləşdiyinə görə, Naxçıvanda da ictimai-siyasi sabitlik, həm də maddi vəziyyət yaxşılaşdığına görə neçə ailə qayıtmışdır.

Vasif Talıbov: 300-ə yaxın ailə.

Heydər Əliyev: 300-ə yaxın ailə. Hansı ki, o ağır illərdə Naxçıvanı tərk etmişdilər, gedib təkcə Azərbaycanda yox, Azərbaycandan kənarda yaşamışdılar, artıq onlar qayıdırlar, öz torpağına qayıdırlar. Torpaq insanı çəkir. İnsan görəndə ki, torpaqda bir balaca yaşayış imkanı var, oradan ayrılmır. O imkanları siz yaradırsınız, biz yaradırıq, hamımız yaradacağıq. Ona görə də gərək naxçıvanlılar öz torpağının üstündə olsunlar, öz torpağını qorusunlar və biz də bunun üçün heç bir şey əsirgəməyəcəyik.

Həsən Mehdiyev (*Nehrəm kənd orta məktəbinin direktoru*): Möhtərəm cənab Prezident, mən 35 ildir məktəbdə direktor işləyirəm. Məktəbimizdə 200-dən çox müəllim var, buraya gələndə onlar məndən xahiş etdilər ki, səmimi salamımızı hörmətli Prezidentimizə çatdır. Mən indi onların salamını Sizə çatdırıram.

Biz sizi 1990-cı ildən sevmişik. Sizi parlamentə deputat seçmişik. İndi də sevirik, nehrəmlilər Sizi gələcəkdə də sevib müdafiə edəcək, dəstəkləyəcəklər. Əgər bəzi üzdəniraq qüvvələr buna qarşı çıxsalar, biz ziyalılar yol verməyəcəyik.

Nehrəm günbəgün gözəlləşir. Bu, Vasif müəllimin şəxsi təşəbbüsü nəticəsindədir. Tikilən məktəblərdən biri, 3 nömrəli məktəb Nehrəmin payına düşübdür. Deyə bilərəm ki, o təkcə Naxçıvan Muxtar Respublikasında yox, Azərbaycan Respublikasında ən nümunəvi məktəblər sırasındadır.

Mənim bir xahişim vardır. Bəlkə də yerinə düşən xahiş deyildir. Amma deyəcəyəm. Bizim məktəbimizin adı yoxdur. Vaxtilə Sizə də məktub yazmışdım. Mən buraya gələndə bütün müəllim kollektivi, nehrəmlilər xahiş etdilər ki, icazənizlə, məktəbimizə Sizin adınızı verərdik.

H e y d ə r Ə l i y e v: Bilirsən, çox təşəkkür edirəm. Amma mən dəfələrlə demişəm, hələ ki, mən dünyada yaşayıram, mənim adıma heç bir şey olmamalıdır. Amma dünyadan gedəndən sonra nehrəmlilər yaddan çıxarmazlar.

H ə s ə n M e h d i y e v: Cənab Prezident, məktəb direktoru kimi, bütün ziyalılar adından söz veririk: ömrümüz boyu Sizi dəstəkləmişik, bundan sonra da dəstəkləyəcəyik.

Möhtərəm cənab Prezident, icazənizlə, bir bənd şeir demək istəyirəm.

Yağı düşmən partlayacaq, öləcək,
Üzümüzə yerin, göyün güləcək,
Bütün dünya Sizi zirvə biləcək.
Sizsiz bizim gülüstanımız, cənnətimiz,
Dinlə məni, Heydər baba qüdrətimiz.

Bəli, bizim gülüstanımız da, cənnətimiz də sizsiniz. Biz həmişə Sizi dinləmişik, bundan sonra da dinləyəcəyik. Bütün

nehrəmlilər Sizin ardınızca gedəcək və Sizi dəstəkləyəcəklər. Bizi qəbul etdiyinizə görə də çox sağ olun.

Heydər Əliyev: Sən də danışmaq istəyirsən. Ancaq xahiş edirəm, bir kəlmə. Çünki bu gün mənim çox işlərim var.

Nəriman Mehdiyev (*Nehrəm kənd kitabxanasının müdiri*): Hörmətli Heydər Əliyev, 35 ildir ki, kitabxana müdiri işləyirəm. Kitabxanamızın 1500 oxucusu vardır. Onların adından Sizə salam gətirmişəm. Çünki mənə demişdilər ki, Bakıya getsən, bizim adımızdan möhtərəm Prezidentimizə salamımızı yetir.

Ümumiyyətlə, Siz 1969-cu ildən Nehrəm camaatının ürəyində yer eləmisiniz. O vaxtdan etibarən nehrəmlilər Sizi sevib, sevir və sevəcəklər.

1987-ci ildə Əbülfəz Əliyev, Xəlil Rza və Mikayıl Mirzə Nehrəm kəndinə gəlmişdilər. Onda kəndin 5-6 nəfər ağsaqqalı dedilər ki, Əbülfəz Əliyev, bunlar Heydər Əliyevdən nə istəyirlər, onun haqqında şantaj xarakterli məqalələr yazırlar. O dedi ki, Azərbaycan xalqı Heydər Əliyev kimi şəxsiyyəti yüz ildən bir yetirər. Siz çalışın, onu müdafiə edin. Ağsaqqallar dedilər ki, biz Heydər Əliyevi həmişə müdafiə etmişik, edəcəyik də. Həqiqətən də Əbülfəz Əliyevin dediyi sözlər indi yerinə düşür. Baxıb görürük ki, Siz həmişə – gecə, gündüz xalqın qayğısı ilə yaşayırsınız, həyat şəraitinin yaxşılaşdırılması barədə çalışırsınız. Ona görə də biz nehrəmlilər Sizə uzun ömür, cansağlığı arzu edirik ki, xalqı bu çətinliklərdən qurtarasınız.

Heydər Əliyev: Sağ olun. Nehrəmlilərə salam söyləyin. Naxçıvan Muxtar Respublikasının bütün əhalisinə, insanların hamısına salam söyləyin və mənim dostluq, məhəbbət hisslərimi hamıya çatdırın. Sağ olun.

«ŞEVRON» KORPORASİYASININ VİTSE-PREZİDENTİ RİÇARD MATSKENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

Prezident sarayı

28 fevral 2001-ci il

H e y d ə r Ə l i y e v: Çoxdandır ki, sizi görmürəm, Azərbaycana xoş gəlmisiniz.

R i ç a r d M a t s k e: Biz burada olmağımızdan çox şadıq. Buraya tez-tez gələ bilmədiyimizə görə mən üzr istəməliyəm.

H e y d ə r Ə l i y e v: İşləriniz necə gedir?

R i ç a r d M a t s k e: «Abşeron» blokunda qazma işləri davam edir. Ümidvaram ki, hər şey yaxşı olacaqdır.

H e y d ə r Ə l i y e v: Siz onda mənə söz verdiniz ki, çox böyük neft və qaz aşkar edəcəksiniz. Hətta «Şahdəniz»dən də çox.

R i ç a r d M a t s k e: Mən ümid edirəm ki, vədimə əməl edəcəyəm.

H e y d ə r Ə l i y e v: Çox gözəl, mən də bunu istəyirəm. Azərbaycanda bir məsəl var: «Kor nə istər, iki göz, biri əyri, biri düz».

---

* Görüşdə Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev və digər rəsmi şəxslər iştirak edirdilər.

R i ç a r d M a t s k e: Biz ümid edirik ki, «Abşeron» blokunda «gözlərin hər ikisi düz olacaqdır».

H e y d ə r Ə l i y e v: İkisi də düz olacaqdır, çox yaxşı. Başqa sahələrdə işləriniz necədir?

R i ç a r d M a t s k e: Dünyada neftin qiyməti yüksək olduqda, demək olar ki, işlərimiz yaxşı gedir.

H e y d ə r Ə l i y e v: Neftin qiyməti də gah qalxır, gah düşür. O sizə də təsir edir, bizə də.

R i ç a r d M a t s k e: Bir halda ki, nisbətən yüksək səviyyədə dəyişir, biz onunla yaşaya bilərik.

H e y d ə r Ə l i y e v: Yaxşı, mən başa düşürəm ki, gərək mətbuatı azad edək.

R i ç a r d M a t s k e: Mənə elə gəlir ki, yaxşı olardı. Ona görə ki, biz təkcə «Abşeron» bloku haqqında yox, həm də «Şevron»un Bakı–Tbilisi–Ceyhan neft kəmərinə qoşulması haqqında danışmaq istəyirik.

H e y d ə r Ə l i y e v: Bunu artıq bütün dünya bilir.

R i ç a r d M a t s k e: Yəqin ki, Siz demisiniz.

H e y d ə r Ə l i y e v: Yaxşı.

ATƏT-in HAZIRKI SƏDRİ, RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİRÇA COANE İLƏ TƏKBƏTƏK GÖRÜŞ

Prezident sarayı

1 mart 2001-ci il

Hörmətli qonağı mehribanlıqla salamlayan dövlətimizin başçısı ATƏT-ə sədrlik etdiyinə görə Rumıniyanın Xarici İşlər naziri Mirça Coaneni səmimi-qəlbdən təbrik etdi.

Göstərilən qonaqpərvərliyə və qəbula görə minnətdarlığını bildirən, prezident Heydər Əliyev ilə görüşdən şərəf duyduğunu söyləyən cənab Mirça Coane Rumıniya prezidenti İon İliyeskunun səmimi salamlarını və xoş arzularını respublikamızın rəhbərinə çatdırdı. ATƏT-in hazırkı sədri Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə dövlətimizin başçısı Heydər Əliyevi ürəkdən təbrik etdi.

Səmimi sözlərə görə qonağa minnətdarlığını bildirən prezident Heydər Əliyev çoxşaxəli fəaliyyəti ilə Avropada və dünyada mühüm rol oynayan ATƏT-lə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğunu nəzərə çatdırdı, sədrlik vəzifəsinin icrasına yenicə başlamış cənab Coanenin Azərbaycana səfərinin böyük əhəmiyyət daşıdığını vurğuladı.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasından, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır vəziyyətdə yaşamasından bəhs edən respublikamızın rəhbəri bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun fəaliyyətindən, habelə

Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan birbaşa danışıqlardan ətraflı söhbət açdı.

Azərbaycanın ATƏT-lə əməkdaşlığının bir neçə istiqamətdə davam etdiyini vurğulayan dövlətimizin başçısı 1992-ci ildən bəri fəaliyyət göstərən Minsk qrupunun və hazırda onun həmsədrləri olan Amerika Birləşmiş Ştatları, Fransa və Rusiyanın bu sahədəki səylərinin daha da artırılmasına xalqımızın böyük ümidlər bəslədiyini nəzərə çatdırdı.

Münaqişənin sülh yolu ilə həll edilməsinə Azərbaycanın tərəfdar olduğunu, bu problemin aradan qaldırılması üçün ölkəmizin konstruktiv mövqe tutduğunu vurğulayan prezident Heydər Əliyev təcavüzkar, işğalçı Ermənistanın qanunsuz tələblər irəli sürdüyünü bildirdi.

Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələnin bu günlərdə Azərbaycanın Milli Məclisində geniş müzakirə edildiyini xatırladan respublikamızın rəhbəri parlamentin BMT-yə, ATƏT-ə və Minsk qpunun həmsədrləri olan dövlətlərin başçılarına bu münaqişənin sülh yolu ilə nizama salınmasına kömək göstərilməsi üçün səylərini gücləndirmək barədə müraciətlər göndərmək haqqında qərar qəbul etdiyini nəzərə çatdırdı.

Martın 4-5-də Fransa, Azərbaycan, Ermənistan prezidentlərinin Parisdə keçiriləcək görüşlərindən bəhs edən, münaqişənin tezliklə aradan qaldırılması üçün belə görüşlərin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Heydər Əliyev eyni zamanda ATƏT-in Minsk qrupunun və ona həmsədrlik edən dövlətlərin bu sahədə fəallığı artırmasının vacib olduğunu qeyd etdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli üçün ATƏT-in öz səylərini gücləndirməyə hazır olduğunu bildirən cənab Mirça Coane Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin bu beynəlxalq təşkilat tərəfindən dəstəkləndiyini söylədi. O, prezident Heydər Əliyevi əmin etdi ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, qaç-

qınların doğma yerlərinə, yurdlarına qayıtması üçün ATƏT-in bütün imkanlarını səfərbər etməkdən ötrü əlindən gələni edəcək, Azərbaycanla bütün sahələrdə əməkdaşlığın daha da sıxlaşdırılmasına xüsusi diqqət yetirəcəkdir.

Cənab Mirça Coane bildirdi ki, prezident İon İliyesku Azərbaycan prezidenti Heydər Əliyevi Rumıniyaya rəsmi səfərə dəvət etməsi barədə məktub göndərmişdir.

Dəvəti məmnunluqla qəbul etdiyini bildirən respublikamızın rəhbəri özünün səmimi salamlarını, hörmət və ehtiramını cənab İliyeskuya çatdırmağı nazirdən xahiş etdi.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

ATƏT-in HAZIRKI SƏDRİ, RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİRÇA COANENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

1 mart 2001-ci il

H e y d ə r Ə l i y e v: Hörmətli cənab nazir!

Hörmətli qonaqlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İndi ATƏT təşkilatı Avropada, təkcə Avropada yox, dünyada çox mühüm rol oynayır. Onun fəaliyyəti çoxşaxəlidir. Biz ATƏT-in üzvü olaraq, təbiidir ki, onunla bütün sahələrdə əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Ona görə də ATƏT-in hazırkı sədrinin və nümayəndə heyətinin Azərbaycana gəlməsini çox əhəmiyyətli hesab edirəm.

Dost ölkəni – Rumıniyanın ATƏT-in sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Rumıniya və şəxsən siz, cənab nazir, bu sədrlik müddətinizdə ATƏT-in fəaliyyətinin artırılması üçün öz səylərinizi göstərəcəksiniz. Onu da xüsusi qeyd edirəm ki, Rumıniya bu il ATƏT-in sədri səlahiyyətlərini böyük məmnuniyyətlə öz üzərinə götürən kimi, siz, cənab nazir, ATƏT-in indi fəaliyyətdə olan sədri bizim bölgəyə gəlmisiniz.

Demək, ATƏT-in bizim bölgədə olan proseslərə diqqətinizi, münasibətinizi bildirirsiniz. Cənab nazir, buyurun.

M i r ç a C o a n e: Cənab Prezident, çox sağ olun. Bizi Azərbaycanın paytaxtında səmimi salamladığınıza görə Sizə təşəkkürümüzü bildiririk. Biz buraya gəlməkdən məmnunuq. Nümayəndə heyətində Avropa Birliyinin, Avstriyanın, Portuqaliyanın nümayəndələri də vardır.

Bu nümayəndə heyətinin tərkibində ATƏT-in müxtəlif təsisatlarını təmsil edən şəxslər də vardır. Məsələn, bizimlə bərabər ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu direktorunun müavini, habelə ən mühüm təsisatlardan birinin – münaqişələrin qarşısının alınması mərkəzinin təmsilçiləri də vardır. Yəqin siz mənim sağımda və solumda oturan bu iki şəxsi yaxşı tanıyırsınız. Onlar da çox gərgin iş görürlər. Biz onların fəaliyyətini qiymətləndiririk. Nümayəndə heyətinin tərkibində BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığının Avropa Departamenti direktorunun müavini də təmsil olunubdur. O da çox mühüm təşkilatdır və burada çox böyük fəaliyyətləri vardır. Şübhəsiz, bizim səfirimiz də nümayəndə heyətinin tərkibinə daxil edilmişdir.

Rumıniya ATƏT-də sədrliyə başladığı andan biz fəaliyyətimizin ilkin dövründə bu regiona səfər etmək qərarına gəldik. Ona görə ki, bu region coğrafi-strateji baxımdan olduqca böyük əhəmiyyət kəsb edən bir regiondur. Bu region ölkəmiz Rumıniya üçün də qonşu regiondur və bizim burada maraqlarımız vardır.

Mən ondan da məmnun olduğumu bildirmək istəyirəm ki, Avropa Birliyinin də buraya marağı artıbdır. Onlar bizim bu marağımızı bölüşürlər. Əslində biz Avropa Birliyindən olan yüksək nümayəndə heyətindən sonra regiona gəlmişik. Bu onu göstərir ki, həm ATƏT, həm də Avropa Birliyi buraya diqqəti artırmaq və buradakı problemlərin həllinə nail olmağa çalışırlar.

Fürsətdən istifadə edərək, Sizi və Azərbaycan xalqını Avropa Şurasına üzv qəbul olunmağınız münasibətilə təbrik et-

mək istəyirəm. Bu bir daha onu göstərir və əlavə sübutdur ki, Azərbaycan Avropanın demokratik dövlətlər ailəsinə getdikcə daha çox inteqrasiya olunmaqdadır. Bu, ATƏT-ə, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna imkan verir ki, gələcəkdə daha çox əməkdaşlıq edək və müxtəlif sahələrdə mövcud olan əlaqələrimizi genişləndirək. Güclü demokratiya və vətəndaş cəmiyyəti, eyni zamanda yaxşı idarə olunan iqtisadiyyat bu gün Avropanın inkişaf reseptidir və çox şadıq ki, o bu regiona da sirayət etməkdədir.

Cənab Prezident, Rumıniyanın ATƏT-ə sədrlik etdiyi bir dövrdə qarşısına qoyduğu iki mühüm məqsəd vardır. Birincisi, ATƏT-in regionlarda olan missiyalarını, nümayəndəliklərini region dövlətləri arasında ümumi maraq kəsb edən məsələlər ətrafında əməkdaşlığa və onları ümumi mövqedən çıxış etməyə sövq etməkdir. Çünki regionlarda mövcud olan problemlər, adətən, bir-birinə çox oxşardır. Problemlərdən doğan çətinliklər bir-biri ilə üzvi surətdə bağlıdır. Ona görə də bunların ümumi yanaşma əsasında həllinə nail olmaq lazımdır. Mən bu sözləri Cənubi Qafqaz regionu haqqında söyləməklə bərabər, eynilə Balkan regionu barədə də deyə bilərəm. İkincisi, ATƏT-i elə bir təşkilata çevirməkdir ki, burada ATƏT digər beynəlxalq təşkilatları – BMT-ni, Avropa Şurasını, Avropa Birliyini, NATO-nu əvəzləmək istiqamətində deyil, onlarla sıx əməkdaşlıq şəraitində, bir-birinin missiyalarını tamamlamaq, əlaqələndirmə şəraitində fəaliyyət göstərsin.

Biz bu regionu ATƏT üçün olduqca mühüm bir region hesab edirik. ATƏT burada çox mühüm rol oynamalıdır, rol oynayır və biz bu rolu gələcəkdə də oynamasını istəyirik. Hesab edirik ki, yaxın gələcəkdə ciddi irəliləyişlərə nail olmaq mümkündür və bunun sayəsində bu regionda ATƏT-in mövcudluğu daha da genişlənə bilər.

Cənab Prezident, icazə verin Sizinlə Ermənistan prezidenti arasında aparılan birbaşa danışıqları alqışladığımızı da bəyan

edim. Biz bu danışıqları bəyənir və hesab edirik ki, bu danışıqlar və ATƏT çərçivəsində aparılan danışıqlar bir-birini əvəz etmir. Biz bu danışıqlardan uğurlar gözləyirik.

Bilirik ki, son dövrlər ATƏT-in Minsk qrupu, onun həmsədri olan ölkələr və bunların təmsilçiləri barədə burada çox danışıqlar olub, müzakirələr aparılıbdır. Amma Cənab Prezident, Sizi əmin etmək istəyirik ki, ATƏT, onun Minsk qrupu, Minsk qrupunun həmsədri olan ölkələrin rəhbərləri əllərindən gələni etməyə çalışırlar ki, bu münaqişənin həllində faydalı və müsbət rol oynasınlar. Biz bu fəaliyyətimizi bundan sonra da davam etdirəcəyik. Eyni zamanda hesab edirik ki, ATƏT münaqişənin həll olunduğu halda – ümidvarıq ki, bu münaqişə sülh yolu ilə tezliklə həll ediləcək – prosesi həm siyasi, həm də maliyyə baxımından dəstəkləmək üçün beynəlxalq ictimaiyyətin və beynəlxalq ehtiyatların səfərbər olunmasında da katalizator rolunu oynayacaqdır.

H e y d ə r Ə l i y e v: Cənab nazir, təşəkkür edirəm. Bizim ölkəmiz haqqında ATƏT-in baxışlarını və fikirlərini bəyan etdiyinizə görə təşəkkür edirəm. Azərbaycanın Avropa Şurasına qəbul olunmasını ölkəmiz üçün tarixi hadisə hesab edirəm. Beləliklə, Azərbaycan Avropa qitəsində olmaqla yanaşı, eyni zamanda tamhüquqlu üzv kimi Avropa ailəsinə daxil olubdur. Təbiidir ki, Avropa Şurasının, ATƏT-in bütün prinsiplərini Azərbaycanda həyata keçirmək qarşımızda duran vəzifədir.

ATƏT-in, siz dediyiniz kimi, eyni zamanda Avropa Birliyinin bizim regiona, bölgəmizə son vaxtlar diqqətinin artırılması bizdə çox böyük razılıq hissi doğurur. Bizim ölkəmizin, Azərbaycanın ATƏT-lə əməkdaşlığı bir neçə istiqamətdə həyata keçirilir. Ancaq həm ATƏT-in prinsiplərini Azərbaycanda həyata keçirmək üçün, həm Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü, Azərbaycanın sərhədlərinin toxunulmazlığını təmin etmək üçün biz ATƏT-

lə əməkdaşlığımıza, xüsusən 1992-ci ildə ATƏT tərəfindən yaranmış Minsk qrupu ilə əməkdaşlığımıza, Minsk qrupunun həmsədrləri ilə əməkdaşlığımıza çox böyük əhəmiyyət veririk və bu əməkdaşlığa böyük ümidlər bəsləyirik.

ATƏT-in Minsk qrupu ilə, onun həmsədrləri ilə 7 ildir sıx əməkdaşlıq edirik. Bu əməkdaşlığın məqsədi, səbəbi Ermənistanın Azərbaycana torpaq iddiası nəticəsində, Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımızı sülh yolu ilə azad etməkdir.

Dağlıq Qarabağ problemi kimi meydana atılan məsələ sonra Ermənistan–Azərbaycan arasında müharibəyə çevrilib və bu müharibə böyük itkilərə səbəb olubdur, Azərbaycana böyük zərbələr vurulubdur. Azərbaycanın əvvəlcə Dağlıq Qarabağ vilayəti, ondan sonra isə Dağlıq Qarabağın ətrafında olan 7 rayonu – ümumiyyətlə, Azərbaycan ərazisinin 20 faizi Ermənitsan silahlı qüvvələri tərəfindən işğal olunubdur.

Bu işğal nəticəsində həmin torpaqlardan bir milyona qədər azərbaycanlı zorla yerindən-yurdundan çıxarılıbdır. Onlar Azərbaycanın müxtəlif regionlarında ağır vəziyyətdə yaşayırlar. Əksəriyyəti isə çadırlarda yaşayır.

1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında döyüşlərin dayandırılması haqqında saziş imzalanıbdır. Ondan sonra sülh danışıqları başlayıbdır. Biz indiyə qədər atəşkəs rejimini qoruyub saxlayırıq. ATƏT-in sizin yanınızda oturan nümayəndəsi neçə illərdir ki, bunu müşahidə edir və atəşkəsin qorunub saxlanması üçün bizə yardımlar edir. Biz bunu müsbət qiymətləndiririk. Amma eyni zamanda sülh əldə olunmayıbdır. İşğal edilmiş torpaqlar azad olunmayıbdır və yerindən-yurdundan çıxarılmış insanlar ağır vəziyyətdə yaşayırlar.

Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa dünyanın ən böyük dövlətləridir. Ancaq təəssüflər olsun ki, dünyada böyük imkanlarına baxmayaraq, böyük təsir gücü olmasına baxmayaraq, həm bu ölkələrin

dövlət başçıları, həm də onların nümayəndələri indiyə qədər apardıqları işlərlə istənilən nəticəni əldə edə bilməyiblər.

Biz bir neçə gün bundan öncə bu məsələləri Azərbaycanın parlamentində, Milli Məclisdə müzakirə edirdik. 1997-ci ildən indiyə qədər ATƏT-in həmsədrləri tərəfindən verilmiş üç təklif ilk dəfə mətbuatda dərc olundu və Azərbaycanın ictimaiyyətinə çatdırıldı. Baxmayaraq ki, biz 1997-ci ildə verilmiş iki təklifi – birini iyul ayında vermişdilər, birini də sentyabr ayında–şərti olaraq qəbul etmişdik. Amma Ermənistan bunları rədd etmişdi. Hətta bu təkliflər Azərbaycanın parlament üzvləri tərəfindən, artıq indi deyə bilərəm ki, ictimaiyyət tərəfindən çox ciddi tənqid olunur.

1998-ci ildə yeni bir təklif verilibdir – «ümumi dövlət» formulunu əks etdirən bir təklif. Biz bu təklifi alarkən Minsk qrupunun həmsədrlərinə dedik ki, Azərbaycanda bundan da artıq ədalətsizlik ola bilməzdi. Biz onu rədd etdik. Amma Ermənistan bunu qəbul etdi. Nə üçün? Çünki bu, Ermənistanı tamamilə təmin edirdi. Bu sənəd Ermənistanın Dağlıq Qarabağ haqqında 1988-ci ildən həyata keçirdiyi fəaliyyəti tamamilə qanuniləşdirirdi. Mən parlamentdə bəyan etdim. Baxmayaraq ki, biz 1998-ci ildə bu təklifi rədd etmişik, mən sizə açıq deyə bilərəm, indiyə qədər insanlar sakit ola bilmirlər ki, necə ola bilər, Minsk qrupu Azərbaycana qarşı bu qədər ədalətsizlik etsin və bu cür təklifi Azərbaycana təqdim etsin? Biz ATƏT-ə təşəkkür edirik ki, o, Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün Minsk qrupu yaradıbdır və Minsk qrupunun həmsədrləri dünyanın böyük dövlətləridir. Amma eyni zamanda Minsk qrupunun, onun həmsədrlərinin indiyə qədər bu məsələni həll edə bilməmələrinə görə təbiidir ki, narazıyıq və bizim ictimaiyyət, Azərbaycanın dövləti onların fəaliyyətinə çox ciddi tənqidlə yanaşır.

1999-cu ilin əvvəlində Minsk qrupunun təşəbbüsü və tövsiyəsi ilə Ermənistan və Azərbaycan prezidentləri arasında bi-

lavasitə görüşlərin keçirilməsi başlanmışdır. Biz bu müddətdə çox görüş keçirmişik. Hətta bəzən hesablayırlar ki, 15, ya 16 görüş keçirmişik. Əvvəldən də bəyan etmişik ki, məsələni həll etmək üçün qarşılıqlı kompromislərə getmək lazımdır. Ancaq bir nəticə əldə edə bilməmişik. Çünki Ermənistan Azərbaycandan çox böyük güzəştlər tələb edir. Buna isə biz razı ola bilmərik. Ermənistan bir tərəfdən, Azərbaycan torpaqlarını işğal edibdir, bir milyon insanı qaçqın vəziyyətinə salıbdır, təcavüzkardır. İndi də zor gücünə əldə etdiklərini qanuniləşdirmək istəyir. Ona görə də biz bununla heç razı ola bilmərik. Mart ayının 4-5-də Parisdə Ermənistan və Azərbaycan prezidentləri arasında üçtərəfli görüş olacaqdır. Mən çox arzu edərdim ki, Ermənistan prezidenti qarşıdakı görüşdə konstruktiv mövqe tutsun.

Biz dəfələrlə bəyan etmişik, bunu mən sizə də – ATƏT-in yüksək səviyyəli nümayəndəsinə bir də bəyan edirəm ki, Azərbaycan məsələnin sülh yolu ilə həllinin tərəfdarıdır və sülh yolu ilə həll olunmasına çalışır. Baxmayaraq ki, bizim Milli Məclisdəki müzakirədən sonra Azərbaycan ictimaiyyətində məsələnin hərb yolu ilə, müharibə yolu ilə həll edilməsinə daha da çox üstünlük verilir. Bunu da anlamaq olar. Tarixən gücə qarşı həmişə güc işlədilibdir, təcavüzə qarşı böyük xilaskarlıq hərəkəti işlədilibdir. Ancaq Azərbaycanın dövlət başçısı kimi, mən bəyan edirəm ki, sülh yolu ilə məsələnin həll olunması üçün hələ böyük imkanlar vardır. Bu imkanlar da birinci növbədə Minsk qrupundadır, onun həmsədrlərindədir. Təbiidir ki, bu imkanlar Ermənistan və Azərbaycan rəhbərliyindədir. Azərbaycan konstruktiv mövqe tutur. Ancaq biz Ermənistanın bütün tələblərini də yerinə yetirə bilmərik. Ona görə də, cənab nazir, mən rica edərdim ki, siz ATƏT-in Minsk qrupunda bu məsələni bir daha qaldırasınız.

Mən Minsk qrupu həmsədrləri olan ölkələrin dövlət başçılarının hamısı ilə dəfələrlə görüşüb bu məsələni müzakirə etmişəm. Amma Azərbaycanın parlamenti bunları yetərli hesab

etmir və parlament adından da həm Minsk qrupunun həmsədrlərinə, yəni dövlət başçılarına, həm də ATƏT-in sədrinə, həm də Birləşmiş Millətlər Təşkilatının rəhbərliyinə, o cümlədən Təhlükəsizlik Şurasının sədrinə məktublar göndərib ciddi tədbirlər görülməsini xahiş edən qərar qəbul olunubdur.

Mən hesab edirəm ki, Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri davam etməlidir. Amma bu, Minsk qrupu həmsədrlərinin fəaliyyətinin passivləşməsinə gətirməməlidir. Hər iki istiqamətdə biz çox sürətlə işlər görməliyik.

Mən sizə açıq demək istəyirəm, 8 ildir ki, çadırlarda yaşayan insanların səbri tükənibdir. Məsələnin sülh yolu ilə həll edilməsi üçün gördüyümüz tədbirlər nəticə vermədiyinə görə Azərbaycan xalqının səbri tükənibdir. Ona görə mən rica edirəm ki, siz – ATƏT-in rəhbərliyi ilə bu barədə yeni və çox təsirli tədbirlər həyata keçirəsiniz.

M i r ç a C o a n e: Cənab Prezident, çox sağ olun. İcazə verin, Sizi əmin edim ki, ATƏT və onun Minsk qrupu Sizinlə Ermənistan prezidenti arasında bu çətin danışıqlarda tərəfdaşınız, möhkəm tərəfdaşınız olmaqda davam edəcəkdir. Həmsədrlər tərəflərlə danışıqlar aparmaqda, işlərini görməkdə davam edirlər, bundan sonra da bu fəaliyyətlərini davam etdirəcəklər. Mən də ATƏT-in hazırkı sədri kimi, bu fəaliyyətin gücləndirilməsi üçün əlindən gələni etməyə hazıram.

Fransa, Rusiya və Amerika Birləşmiş Ştatları ən yüksək səviyyədə açıq sürətdə bəyan edirlər ki, onlar bu münaqişənin sülh yolu ilə həllinə nail olmağa sadiqdirlər və bunun üçün hər cür səylər göstərməyə hazırdırlar.

Ancaq münaqişənin uzunmüddətli və davamlı həllinə nail olmaq üçün gərək bütün tərəflər də ciddi kompromislər etməyə hazır olsunlar və bunu həyata keçirmək niyyətini nümayiş etdirsinlər. Amma mən həm şəxsən, həm də beynəlxalq təşkilatın təmsilçisi kimi, narahat oldum ki, hələ də cəmiyyətin elə

təbəqələri var ki, onlar müharibə dövrünün mentaliteti ilə yaşayır, sülh dövrünün fəlsəfəsi yolunu tutmurlar.

Cənab Prezident, gəlin bu cür adamlara sübut edək ki, onlar yanılırlar. Gəlin onlara nümayiş etdirək ki, sülh tərəqqi və milli qürur, danışıqlar yolu ilə də mümkündür. Ölkənizin lideri kimi, Siz çox haqlı olaraq vətəndaşlarınızın bu münaqişə nəticəsində hələ də öz torpaqlarından didərgin düşməsi və ağır şəraitdə yaşaması məsələsinə toxundunuz.

Sizinlə bu görüşdən əvvəl keçirdiyimiz təkbətək görüşümüzdə söylədiyim fikirləri təkrar edərək bir daha bildirmək istəyirəm: ATƏT-in hazırkı sədri kimi, mən mövcud imkanların müəyyənləşdirilməsi və səfərbər olunması üçün əlimdən gələni edəcəyəm ki, bunlar münaqişənin sülh yolu ilə aradan qaldırılmasına yardım edilməsi işinə yönəldilsin. O cümlədən münaqişə regionunda ərazilərin minalardan təmizlənməsi, qaçqın və köçkünlərin öz yurdlarına dönməsi, işğaldan azad ediləcək ərazilərdə bərpa və quruculuq işlərinin aparılması, infrastrukturların bərpa olunması və bir də sülhün monitorinqinin həyata keçirilməsi üçün tədbirlər görülməsinə yardım etməyə hazırıq.

Nəhayət, icazə verin Sizi əmin edim ki, Minsk qrupu fəaliyyətini passivləşdirməyəcək, zəiflətməyəcəkdir. Əksinə, bizdə hər cür enerji, imkan və siyasi iradə də vardır ki, Minsk qrupunun fəaliyyətini gücləndirək və o, siz iki prezidentin apardığı danışıqlara yardımçı olsun, öz töhfəsini versin.

Nəhayət, cənab Prezident, xahiş edirəm, ATƏT-in bu missiyasından, burada fəaliyyət göstərən ofisindən və ümumiyyətlə, ATƏT-də mövcud olan təsisatların fəaliyyətindən istifadə edin. Bizi özünüzə tərəfdaş kimi qəbul edəsiniz ki, ATƏT-in təsisatları ilə birlikdə mövcud olan hər hansı çətinlik və problemlərin, o cümlədən insan haqları sahəsində olan işlərin yaxşılaşdırılması üçün bizimlə və Avropa Şurası ilə müştərək fəaliyyət göstərəsiniz. Bizdə olan imkanlardan

istifadə edəsiniz və beləliklə də, ölkənizin güclənməsi, demokratikləşməsi üçün səylərimizi daha da artıraq.

Paris səfərinizdə Sizə uğurlar arzulayırıq. Sizin Xarici İşlər nazirinizə də uğur diləyirik.

Cənab Prezident, icazə verin, nəhayət, ölkəmizin prezidenti cənab İlhamov Sizə yetirim. Prezident İlham Əliyev Sizə və Azərbaycan xalqına səmimi salamlarını yetirir, ölkənizə sülh, tərəqqi arzu edir. O bu məktubu ilə Sizi bir daha Rumıniyaya münasib vaxtda rəsmi səfərə dəvət edir.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm. Belə bir məktub almaqdan mən çox məmnunam. Xahiş edirəm, mənim salamlarımı, ən xoş arzularımı prezident cənab İlhamova çatdırasınız. Mən dəvəti də məmnunluqla qəbul edirəm.

* * *

Görüşdən sonra ATƏT-in hazırkı sədri, Rumıniyanın Xarici İşlər naziri Mirça Coanenin jurnalistlərin suallarına cavabı.

S u a l: Azərbaycan və Ermənistan prezidentlərinin mart ın 4-5-də Parisdə keçiriləcək görüşdə ATƏT Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər hansı təklif irəli sürəcəkmi?

M i r ç a C o a n e: Bildiyiniz kimi, Azərbaycan və Ermənistan prezidentləri arasında danışıqlar və müzakirələr aparılmaqdadır. Ümumiyyətlə, bizim fikrimizcə, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsindən sonra Fransa prezidentinin təşəbbüsü ilə hər iki ölkənin prezidentlərinin Parisə dəvət olunmasını və orada görüşün təşkil edilməsi və keçirilməsini çox mühüm hesab edirik. Deyə bilərik ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin başçıları Azərbaycan prezidenti Heydər Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın görüşünü bəyənir, münaqişənin həlli prosesinə həm iqtisadi, həm siyasi, həm də digər nöqteyi-nəzərdən böyük dəstək verirlər.

S u a l: Cənab nazir, nə üçün 1997-ci ildə verilmiş iki təklifdən sonra 1998-ci ildə ATƏT Azərbaycanın mənafeyinə zidd olan belə bir təklif irəli sürübdür? Təkliflərin getdikcə Azərbaycanın zərərinə dəyişməsini ATƏT nə ilə izah edir?

M i r ç a C o a n e: Son illərdə verilmiş bu üç təklifin məzmunu haqqında siz kütləvi informasiya vasitələrindən kifayət qədər məlumat ala bilərsiniz. Sonuncu təklifə gəldikdə isə, ümumiyyətlə, mən deyə bilərəm ki, Yerevanda Ermənistanın Xarici İşlər naziri ilə keçirdiyimiz görüşdə o mənə dedi ki, «ümumi dövlət» təklifi ən yaxşı təklifdir. Əgər bu məsələnin cavabını axtarsaq, mən deyərdim ki, münaqişənin aradan qaldırılması üçün, həqiqətən, hər iki tərəfdən ciddi kompromislər olmalıdır. Bu kompromislərə və məsələnin həllinə nail olmaq üçün siyasi cəsarət tələb edilir. Tarixin verdiyi dəyərlər bizə onu öyrədir ki, uzunmüddətli sühlə nail olunarkən heç kim uduzmur və heç kim də udmur. Fikrimcə, Minsk qrupunun həmsədrləri də əmin ola bilərlər ki, biz buna nail olacağıq.

S u a l: ATƏT-in hər üç həmsədri ayrı-ayrı vaxtlarda Ermənistanı və erməniləri dəstəklədiklərini müxtəlif şəkildə göstəriblər. ABŞ 907-ci düzəlişlə, Fransa uydurma «erməni soyqırımı»nı tanımaqla, Rusiya Ermənistana silah satmaqla. Bu tərkibdə olan ATƏT hesab edirmi ki, münaqişəni sülh yolu ilə həll edə biləcəkdir?

M i r ç a C o a n e: Əgər icazə versəydiniz, deyərdim ki, bizdə nikbinlik yaradan xəbərlər də vardır. Mən bunları sizə çatdırmaq istərdim. Əgər iki ölkə – Azərbaycan və Ermənistan arasında ciddi dialoq aparılarsa, bu, hər iki tərəfin məsələnin həlli üçün iradə göstərdiyinə dəlalət edir. Bu çox lazımdır və labüd xarakter daşıyır. Digər yol yoxdur.

ATƏT-in Minsk qrupuna daxil olan nüfuzlu dövlətlər indi öz fəaliyyətlərini gücləndirmişlər. Biz Parisdə keçiriləcək qarşıdakı görüşü də müsbət qiymətləndiririk.

Q E Y D L Ə R

1. Avropa Şurası (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 5–19,20,25–34,53,93,95,111,112,121–133,135,136,137,147,154,157,166–186, 209,210,212,214,216,220,226,227,228,239,240,243,251,252,299,300,301, 302,303,304,305,308,310,311,315,378,381,404,442,443,444,449,450.

2. Avropa Şurasının Parlament Assambleyası (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 5–19,25–34,121–133,157,171,175–176,181–183,186,230,238.

3. ATƏT-in Parlament Assambleyası – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil–qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 5–19,25–34.

4. Avpora Şurasının Nazirlər Komitəsi – bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv ölkələrin Xarici İşlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Onlar–Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərini milli dəyərlərə əsaslanaraq həll edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşılğı məsələlərini həll edirlər. – 5–19,25–34,121–139,184–186,264,265,266.

5. Andreas Qross (d.1952) – siyasi elmlər üzrə mütəxəssis. İsveçrə Sosial-Demokrat partiyasının üzvü. 1991-ci ildən İsveçrə Nümayəndələr Palatasının üzvüdür. Son 8 ildə Avropa Şurası Parlament Assambleyasının üzvlərindən biridir. – 5–19,25–34.

6. «AQO» – seçki monitorinq qrupu. Qrupa cəmi 13 dövlət daxildir. Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 2001-ci ildə yaradılan «AQO» qrupunun vəzifəsi Cənubi Qafqaz ölkələrinin AŞ qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsinə nəzarət etməkdir. – 5–19, 25–34.

7. ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 5–19,25–34,53,88,93,106,201,261,262,263,312,353,371,372, 378,395,396,438–451.

8. Müsavat Partiyası – 1911-ci ildə Bakıda yaranıb. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 8,128.

9. Azərbaycan Milli İstiqlal Partiyası – 1991-ci ildə yaranıb. Sağmərkəz təmayüllü partiyadır. – 8,9.

10. Xalq Cəbhəsi, A z ə r b a y c a n X a l q C ə b h ə s i (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 8,128,391.

11. Araz Əzimov, A r a z B ö y ü k a ğ a o ğ l u (d.1962) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. 1994-cü ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 11.

12. Sorbonna – Paris universitetinin, xüsusən Fransadan xaricdə geniş yayılmış adı. 1253-cü ildə Parisdə keşiş R.de Sorbonun təşəbbüsü ilə yaradılmış və onun şərəfinə adlandırılmış ilahiyyat kolleji və tələbə yataqxanası. Fransa burjua inqilabı dövründə Sorbonna ilahiyyat məktəbi bağlanmış (1792), I Napoleon Sorbonnanın binasını Paris universitetinin sərəncamına vermişdir (1808). – 18.

13. Rusiya, R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km², əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 19,22,23,24, 27,32,33,35–95,107,138–141,148,153,159,191,192,198,199,200,205,211, 212,215,234,245,247,261,262,268,269,270,300,317,322,325,333,352,364, 371,372,373,374,379,383,391,395,401,439,448.

14. Putin, V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998-99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında yenidən Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. –19,22,23,24,27,35–95, 108,138,139,140,141,148,198,199,269,270,317,383.

15. Almaniya, A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km², əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 20–24,305.

16. Xristian Demokrat İttifaqı – Almaniyada siyasi partiya. 1950-ci ildə yaradılmışdır. Bundestaqda Xristian Sosial İttifaqı ilə birlikdə vahid fraksiyada çıxış edir. – 20.

17. ATƏT-in Minsk qrupu – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 21,32,36,47,68,70,77,92,148,149,155,158,159,160,175,191,193, 194,197,198,200,203,204,205,206,207,211,212,231,244,245,246,261,262, 352,354,370,371,372,375,378,382,383,384,385,388,390,395,396,401,405, 406,444,445,446,447,448,450.

18. Amerika Birləşmiş Ştatları (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km², əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 22,24,33, 52,77,146,149,153,159,162,191,200,205,211,212,239,245,246,259,261,269, 306,307,352,356,373,391,392,395,400–407,439,448.

19. Fransa, F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km², əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 22,24, 33,77,123,147–214,239,240,241,243,244,245,246,247,248,261,262,303, 304,305,307,352,373,391,395,401,438,439,448,449.

20. Klaus Klinkel (d.1936) – alman dövlət və siyasi xadimi. 1991-1992-ci illərdə Almaniya Ədliyyə naziri, 1992–1998-ci illərdə Almaniya Xarici İşlər naziri, eyni zamanda 1993–1998-ci illərdə Almaniyanın vitse-prezidenti olmuşdur. – 22.

21. İkinci dünya müharibəsi (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 23.

22. Birləşmiş Millətlər Təşkilatı (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 23,36,53, 88,93,94,106,247,248,261,265,302,312,322,352,353,371,377,379,439,448.

23. ATƏT-in Lissabon sammiti – 1996-cı il dekabrın 2–4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan–Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi, Azərbaycan

Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 23,200,231,245,261,262,264, 372,373,379.

24. Dağlıq Qarabağ Muxtar Vilayəti – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km^2-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 23,27,32,36,47,50,66,69,77,87,92,105,123, 124,148,150,155,158,159,160,161,168,174,189,191,192,194,195,196,197, 199,200,201,203,204,205,208,248,260,264,314,351,352,362–297,402,404, 406,426,445,450.

25. Müstəqil Dövlətlər Birliyi (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 36,39,68,79,93,94,236,338–343,379.

26. Dağıstan, D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km², əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 42,43,51,56–58,59,60.

27. İqor Sergeyev (1938–2006) – Rusiya dövlət və hərbi xadimi. 1997–2004-cü illərdə Rusiya Müdafiə naziri, 2001–2004-cü illərdə Rusiya Federasiyası prezidenti yanında Strateji sabitlik məsələləri üzrə köməkçisi, ilk Rusiya Federasiyası marşalı. – 45.

28. Türkmənistan, T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min km², əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 48,49,98,266,268, 269,319.

29. Vahid Ələkbərov, V a h i d Y u s i f o ğ l u (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. – 52.

30. «LUKoyl» – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 52.

31. «Şell» – infrastrukturların formalaşdırılmasında, neft və kəmərlərin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən korporasiya. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən «Şell»ə məxsusdur. – 52.

32. İqor İvanov (d.1945) – 1986–89-cu illərdə SSRİ Xarici İşlər Nazirliyinin ümumi katibliyində rəisin birinci müavini, 1989–91-ci illərdə rəis, 1991–93-cü illərdə Rusiya Federasiyasının İspaniyada səfiri, 1993–98-ci illərdə

Rusiya Xarici İşlər nazirinin birinci müavini, 1998–2004-cü illərdə Rusiya Federasiyasının Xarici İşlər naziri olmuşdur. – 53–54,325.

33. Viktor Xristenko (d.1957) – iqtisad elmləri doktoru, professor. 2000-ci ildən Rusiya Federasiyası Baş nazirinin müavini, 2004-cü ildən Rusiya Federasiyasının Sənaye və Energetika naziri, 2008-ci ildən Sənaye və Ticarət naziridir. – 54–55.

34. Məhəmmədəli Məhəmmədov (d.1930) – Rusiya dövlət və siyasi xadimi. 1983–2006-cı illərdə Dağıstan Respublikasının müxtəlif məsul vəzifələrində çalışmış və 2006–2010-cu illərdə Dağıstan Dövlət Şurasının sədri olmuşdur. – 56–58,59,60,61.

35. Yeltsin Boris Nikolayeviç (1931–2007) – Rusiyanın siyasi və dövlət xadimi. 1991–2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 58,215,234.

36. Dərbənd – Rusiya Federasiyasının Dağıstan Muxtar Respublikasında şəhər. Dərbənd Qafqaz Albaniyasının ən qədim şəhərlərindən biri olmuşdur. V əsrdə Dərbənd iqtisadi və siyasi cəhətdən Qafqaz Albaniyasının mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin iqamətgahı idi. Abbasilər xilafəti dövründə (750–1258) Dərbənd Avropa və Asiya ölkələri ilə ticarətdə əsas tranzit məntəqəsi idi. Dərbənd X əsrdə Şirvanşahların hakimiyyəti altına keçdi. Bundan sonra Azərbaycana yiyələnmək istəyən yadellilər arasında gedən müharibələr zamanı Dərbənd əldən-ələ keçirdi. 1509-cu ildə I Şah İsmayıl (1501–24) Dərbəndi tutdu. 1796-cı ildə V.A.Zubovun başçılığı ilə Rusiya qoşunu Dərbəndi işğal etdi. Gülüstan müqaviləsinə (1813) əsasən Dərbənd Rusiyaya verildi. – 60.

37. Xəzəryanı ölkələr – Rusiya Federasiyası, Azərbaycan, Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasıdır. – 64,72,76,269.

38. Sovetlər İttifaqı, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belarusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə

Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 70,73,75,96,199,225,265,268,270,271,288, 289,307.

39. Bakı Slavyan Universiteti – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 82–85.

40. Leninqrad – 1924– 1991-ci illərdə Sankt–Peterburq şəhərinin adı.

41. Leninqrad Universiteti – bax Sankt–Peterburq Universiteti.

42. Sankt–Peterburq Universiteti – Rusiya Federasiyasında ən böyük universitetlərdən biri, elmi mərkəz. 1819-cu ildə Baş Pedaqoji İnstitutun əsasında yaradılmışdır. 1820-ci ildən fəaliyyət göstərir. Burada 21 min tələbə təhsil alır. – 84.

43. Helsinki aktı – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 88.

44. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 92,94,174,247,261,380,395,448.

45. TRASEKA, T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 93,172,267,273,344–347, 348–361.

46. ATƏT-in İstanbul Zirvə görüşü – 1999-cu il noyabrın 18–20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirildi. Bu, ATƏT-in son toplantısı idi. İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında idi. Üçüncü sənəd isə siyasi bəyannamə idi. – 95,266.

47. Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km², əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. 96–102,124,134–137,149,164–165,189,194,202,239,240, 241,242,243,244,245,246,247,248,250,251,253,266,298–308,323,379, 380,426.

48. Polad Bülbüloğlu (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 96–102.

49. «Kitabi-Dədə Qorqud» – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 98,266.

50. Füzuli M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və

Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 98.

51. «Manas» – qədim qırğız qəhrəmanlıq eposu. Eposun manasçılar tərəfindən söylənilmiş 18-dən çox variantı qeydə alınmışdır. Nə vaxt yarandığı dəqiq müəyyənləşdirilməmişdir. – 98.

52. Süleyman Dəmirəl (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 98.

53. NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 103–108,303,368, 377,379.

54. Corc Robertson (d.1946) – İngiltərənin siyasi və dövlət xadimi. Müxtəlif illərdə 6 dəfə parlamentə deputat seçilib. 1999–2004-cü illərdə NATO-nun Baş katibi olmuşdur. – 103–108.

55. «Sülh naminə tərəfdaşlıq» proqramı – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi,

1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 103,104,106.

56. Yuqoslaviya hadisələri – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikasını (SRY) yaratdılar. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılığa başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovaya girdi. 2002-ci ildə SRY Serbiya və Çernoqoriya adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Çernoqoriya da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 104.

57. Şotlandiya – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş krallığının inzibati –siyasi hissəsi. Sahəsi 78,8 min km^2, əhalisi 5,2 milyon nəfərdir. Əsas şəhəri Edinburqdur. – 104.

58. Eldar Quliyev, E l d a r T o f i q o ğ l u (d.1941) – kino rejissoru. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 109–110.

59. Dünya Bankı – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir.

Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 111–120,218,236,293,359.

60. Dövlət Neft Fondu – 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 115,116,117,218,220.

61. Beynəlxalq Valyuta Fondu – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 115,216–221,236.

62. Bakı–Tbilisi–Ceyhan – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 118,306,307,313,316,317, 406,437.

63. Vulfonson Ceym (d.1933) –1995–2007-ci illərdə Dünya Bankının prezidenti olmuşdur. – 120.

64. Strasburq – Şərqi Fransada şəhər. X əsrdən Almaniya Krallığının hakimiyyəti altında olmuşdur. 1681-ci ildə Fransaya birləşdirilmişdir. Avrora Şurası bu şəhərdə yerləşir. – 121–133,147,154,166–202,210,230, 242,243,304,305,315.

65. 1990-cı ilin 20 yanvarı – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsər-

rüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 121.

66. Murtuz Ələsgərov, M u r t u z N ə c ə f o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 121–133.

67. Şəhidlər xiyabanı. Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 122.

68. Jak Şirak (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974–76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı Partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik Partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 123,147,148,150,151,152,153–161,164, 204–208,210,211,213,240,242,246,247,260,262,263,413.

69. Konqres, A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 124,239.

70. Avropa Birliyi (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVROya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 124,172,202,214,273, 325,327,378,442.

71. Yeni Azərbaycan Partiyası (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 128.

72. İlham Əliyev, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti. Ulu öndər Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən

böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru», Rusiya və Ukraynanın ali ordenləri ilə təltif olunmuşdur. Bir çox xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 128,157,168.

73. Səməd Seyidov, S ə m ə d İ s m a y ı l o ğ l u (d.1964) – filologiya elmləri doktoru, professor. 2000-ci ildən Azərbaycan Dövlət Dillər Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı. 2003-cü ildən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısıdır. – 128.

74. Gültəkin Hacıyeva, Gültəkin Yunis qızı (d.1973) – şərqşünas – hüquqşünas. Azərbaycan Respublikası Milli Məclisinin (2-ci çağırış) deputatı, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. – 128.

75. Vaqif Səmədoğlu, V a q i f V ə k i l o v (d.1939) – Azərbaycanın xalq şairi, dramaturq, publisist, ictimai xadim. Azərbaycanın Əməkdar

incəsənət xadimi. «Bəxt üzüyü», bir neçə şeir kitablarının, «Yaşıl eynəkli adam» və s. pyeslərin müəllifidir. 2000-ci ildən Milli Məclisin üzvüdür. – 128.

76. Əli Hüseynov, Əli Məhəmməd oğlu (d.1968)– hüqüq elmləri namizədi. 2000–2010-cu illərdə Milli Məclisin deputatı. Milli Məclisin Hüquq siyasəti və Dövlət quruculuğu komitəsinin sədri, AŞ-da Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini, MBD–nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü. – 128.

77. Bəxtiyar Əliyev (d.1961) – psixologiya elmləri doktoru, professor. 2000–2010-cu illərdə Milli Məclisin deputatı. Milli Məclisdə Elm və təhsil məsələləri komitəsi sədrinin müavini, MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü. – 128.

78. Nazim İbrahimov, Nazim Hüseyn oğlu (d.1963) – mühəndis mexanik. 2000–2005-ci illərdə Milli Məclisin deputatı. 1997–1999-cu illərdə Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli səfiri, 2002-ci ildən isə Azərbaycan Respublikası Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədridir. – 128.

79. Rafael Hüseynov (d.1955) – ədəbiyyatşünas, publisist. Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Nizami adına Ədəbiyyat Muzeyinin direktorudur. – 128.

80. Asim Mollazadə, Asim Nazim oğlu (d.1953)– tibb elmləri doktoru. 2000–2010-cu illərdə Milli Məclisin deputatı. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinın üzvüdür. – 128.

81. Rassel Conston (1932–2008) – Liberal–demokrat politoloqu. 1999–2008-ci illərdə AŞPA-nın sədri olmuşdur. – 129,181–183,186.

82. İndulis Berzinş (d.1957) – 1998–1999-cu illərdə Latviya Seyminin vitse–spikeri, 1999–2002-ci illərdə Latviya Xarici İşlər naziri və AŞ-nın Nazirlər Komitəsinin sədri olmuşdur. – 129,168,184–186.

83. Əhməd Necdət Sezər (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Kons-

titusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 135,136,242,244,250,299, 301.

84. Ecevit Büləndt (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi idi. – 135,136,252,301.

85. İsmayıl Cəm – (1940–2007) – Türkiyənin siyasi və ictimai xadimi, 1997–2003-cü illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. Türkiyə–Yunanıstan münasibətlərinin yaxşılaşmasında mühüm rolu olmuşdur. – 135,136,137,253.

86. Sergey İvanov (d.1953) – Rusiya dövlət və hərbi xadimi. 1998-ci ildə Federal Təhlükəsizlik Xidməti İdarəsində direktor müavini, 1999-cu ildə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, 2001–2006-cı illər isə Rusiyanın Müdafiə naziri olmuşdur. Hazırda Rusiya Federasiyasında Baş nazirin müavinidir. – 138–141,148,191.

87. Hindistan, H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon km^2, əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 142,143.

88. K.R.Narayanan (d.1920) – hind siyasi və dövlət xadimi. 1997-ci ildən Hindistanın prezidenti. – 142.

89. Atal Bixari Vacpai (d.1924) – XX əsrin sonlarında ən görkəmli hind siyasətçisi. 1996–2004-cü illərdə Hindistanın Baş naziri olmuşdur. Vacpai zamanı Hindistan ilk nüvə silahını sınaqdan keçirmişdir. – 143.

90. Avstraliya, A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 7,7 milyon km^2, əhalisi 18,3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 144,145.

91. Con Hovard (d.1939) – 1996-cı ildən Avstraliyanın Baş naziri. Avstraliya Liberal partiyasının lideri. – 145.

92. Çeyni Riçard (Dik) (d.1941) – Amerikanın siyasi xadimi. 1989-1992-ci illərdə ABŞ-ın Müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerikada Sahibkarlıq İnstitutunun direktorudur. «Hallibörtn» korporasiyasının prezidenti, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. Halhazırda ABŞ-ın vitse-prezidentidir. – 146.

93. Corc Buş (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 149,404,406.

94. «907-ci maddə» – ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 149.

95. Elenora Hüseynova, E l e n o r a M ə c i d q ı z ı (d.1947) – filologiya elmləri namizədi. 1994–2005-ci illərdə Azərbaycan Respublikasının Fransada Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda YUNESKO-da Azərbaycanın daimi nümayəndəsidir. – 151,157.

96. Yelisey sarayı – Parisdə Fransa prezidentlərinin iqamətgahı. – 147, 151,152,210.

97. «Total» – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 156.

98. «Elf Agiten» – Fransada ən böyük neft korporasiyası. 80 ölkədə fəaliyyət göstərən 833 şirkətdən ibarətdir. Karbohidrogenlərin kəşfiyyatı, hasilatı və satışı, kimya və neft-kimya sənayesi, farmokologiya və kosmetologiya sahələri şirkətin əsas fəaliyyət istiqamətləridir. Elmi-tədqiqat fəaliyyətində 8 min elmi işçi çalışır. – 156.

99. Vilayət Quliyev, V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. – 157,178, 179,364,374,378,380.

100. Valter Şvimmer (d.1942) – Tanınmış Avstriya dövlət xadimi. 28 il Avstriya parlamentinin üzvü, 1999–2004-cü illərdə isə Avropa Şurasının Baş katibi olmuşdur. – 168,177–180.

101. İpək Yolu, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 172,267, 273,346,347.

102. Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi – bax TRASEKA

103. Sevr müqaviləsi, Sevr sülh müqaviləsi (1920) – avqustun 10-da Sevr şəhərində (Paris yaxınlığında) Osmanlı dövləti ilə Birinci dünya müha-

ribəsində qalib gəlmiş, «başlıca müttəfiq dövlətlər» (B.Britaniya, Fransa, İtaliya,Yaponiya) və onlara kömək etmiş dövlətlər arasında bağlanmış müqavilə. Sevr müqaviləsinin əsasını türk torpaqlarının bölüşdürülməsi mətni təşkil edirdi. Sevr müqaviləsinin İstanbul və boğazlara aid şərtləri Türkiyəni nəinki boğazlardan, əslində, həm də İstanbuldan məhrum edirdi. Bu müyqavilə təkcə Osmanlı imperiyasının varlığına son qoymaqla kifayətlənməyərək, Türkiyənin müstəqilliyini və türk dövlətçiliyini də məhv etməyə yönəldilmişdi.

Sevr sülh müqaviləsi Türkiyədə Milli azadlıq hərəkatına güclü təkan vermiş və Mustafa Kamal Paşa Atatürkün başçılığı ilə xarici qəsbkarlara qarşı yönəlmiş Kamalçılar inqidabını sürətləndirmişdi. 1921-22-ci illərdə xarici işğalçılara ağır zərbələr endirərək onları ölkədən qovub çıxardılar. Sevr müqaviləsi Lozanna konfransının (1922-23) qərarları ilə ləğv edildi. – 190,202.

104. ÇUÖAM – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 192,197,267.

105. Şri-Lanka, Şri–Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km², əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 222.

106.Çandrika Kumaratunqa (d.1945) – 1994-cü ildə Şri-Lankanın Baş naziri, 1994–2005-ci illərdə isə Şri-Lankanın prezidenti olmuşdur. Onun atası və anası (1956–1959) Şri–Lankanın Baş nazirləri olmuşlar. – 222.

107. Yeni Zelandiya – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min km², əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçası. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 223.

108. Helen Klark (d.1950) – Yeni Zelandiyanın Baş naziri (1999–2008). Yeni Zelandiya Liberal partiyasının lideri. 2003-cü ildə Helen Klark Amerika ordusunun İraqa girməsini bərk tənqid etmiş və həmin ildə Yeni Zelandiyanın Respublikaya çevrilməsini «qaçılmaz» hesad etmişdir. Hal-hazırda rəsmi olaraq Böyük Britaniya kraliçası general–qubernator kimi ölkənin başçısıdır) – 223.

109. 1993-cü il iyun hadisələri – Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 233.

110. 1994-cü il oktyabr hadisələri –oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 233.

111. 1995-ci il mart hadisələri – martın 12–13-də Qazax və Agstafa, martın 16–17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 233.

112. Fransa Senatı – Fransada qanunverici orqan. – 239,240,241,242, 243,245,247,305.

113. Bolqarıstan, B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km^2, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 251,322,410.

114. Peter Stoyanov (d.1952) – Bolqarıstanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1991-92-ci illərdə Ədliyyə nazirinin müavini olmuşdur. 1997-ci ildən Bolqarıstan Respublikasının prezidentidir. – 251,410.

115. Moskva Dövlət Universiteti, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 observatoriya, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyatı var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. Bakıda 2009-cu ildə filialı açılmışdır. – 254.

116. Sadovniçi Viktor Antonoviç (d.1939) – informatika sahəsində alim. Rusiya Elmlər Akademiyasının akademiki. Dövlət mükafatı laureatı. 1992-ci ildən Moskva Dövlət Universitetinin rektoru. – 254.

117. Si-En-En, «K e y b l N y u s N e t u o r k» – ABŞ-da peyk-kabel informasiya televiziya kanalı. Əsası 1980-ci ildə Atlanta şəhərində qoyulmuşdur. Bütün sutka ərzində 150-yə qədər ölkəyə ingilis dilində xəbərlər yayımlayır. Dünyanın müxtəlif regionlarında 25 nümayəndəliyi var. – 255,256.

118. Böyük Britaniya, B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km^2, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 255–274.

119. Fatma Abdullazadə, F a t m a H ü s e y n q ı z ı (d.1948) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı humanitar siyasət şöbəsinin müdiri. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 255–274.

120. ATƏT-in Budapeşt sammiti – 1994-cü il dekabrın 3–7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan

ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – 261,372,379.

121. Atəşkəs rejimi – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 261,352,370.

122. Neft Daşları – Abşeron yarımadasından 42 km cənub–şərqdə, açıq dənizdə polad dirəklər üzərində salınmış «neft» şəhəri. Bu ərazi oradakı daşların (təqribən 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. – 269.

123. «Əsrin müqaviləsi» – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 272.

124. İsrail – Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km^2, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 275.

125. Ariel Şaron (1928–2006) – 2001–2006-cı illərdə İsrailin Baş naziri olmuşdur. 1998–2001-ci illərdə İsrailin Xarici İşlər, Kənd Təsərrüfatı, Tikinti və Müdafiə naziri vəzifələrində çalışmışdır. «Likud» partiyasının liderlərindən biri olmuşdur. – 275.

126. Ukrayna, U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km², əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 276.

127. Leonid Daniloviç Kuçma (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 276.

128. İran, İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km², əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 269,277,278,280–284,300,329–334, 426,427.

129. Xatəmi, S e y i d M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 277,283.

130. Ayətullah Xamenei, H ü s e y n X a m e n e i S e y i d Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 278.

131. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 279.

132. Devid Vuqvord (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «BP–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «BP» şirkətinin nümayəndəsi vəzi-

fələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 279.

133. Xətai Şah İsmayıl (1487–1524) – Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə, şair. 1501-ci ilin payızında Təbrizə daxil olan 1 Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. –124.

134. Qambiya, Q a m b i y a R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min km², əhalisi 1148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Bansuadır. – 297.

135. Qədri Ecvet Tezcan (d.1949) – Türkiyə diplomatı. 1998–2001-ci illərdə Türkiyə Cümhuriyyətinin Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 298–308.

136. Ramazan bayramı – müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbdən qardaş sanmaqdır. – 298.

137.Almaniya Bundestaqı – Almaniyada parlamentin aşağı palatası.– 305.

138. «Şevron» – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 306,307,316,436–437.

139. «Eksson» korporasiyası – dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biri. Mənzil-qərargahı Texas ştatının Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Xaricdəki ilk filialı 100 il əvvəl təsis edilmişdir. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. – 307.

140. Şevardnadze E d u a r d A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 310,311,312,313,315, 317,323.

141. Saparmurad Niyazov, Saparmurad Ata oğlu (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən 2007-ci ilədək Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 319.

142. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı – 1992-ci ildə İstanbul Zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 321–328,332–333.

143. Valeri Çeçelaşvili (d.1961) – 2000-ci ildən Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi. 1998–2000-ci illərdə Gürcüstan Xarici İşlər nazirinin müavini vəzifəsində çalışmışdır. – 321–328.

144. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) – BMT tərəfindən yaradılmış dövlətlərarası beynəlxalq təşkilat. Əsası 1945-ci ildə qoyulmuşdur. Bu təşkilatın məqsədi qidalanma haqqında informasiyanı toplamaq və öyrənmək, kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq və s.-dir. Mənzil-qərargahı Romadadır. – 322.

145. Prodi Romano (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında Sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci

ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. – 325.

146. EKO – İqtisadi Əməkdaşlıq Təşkilatı. Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 327,329–334,379.

147. Hafiz, Ş ə m s ə d d i n M ə h ə m m ə d Ş i r a z i (təqr.1325–1389, yaxud 1390) – böyük fars şairi. Mustəsna yaddaşı olan Hafiz Qurani – Kərimi əzbər bilirdi; «Hafiz» ləqəbi də bununla əlaqədarlır. Yaradıcılığı orta əsrlər farsdilli lirik poeziyanın ən yüksək zirvəsidir. – 330.

148. Sədi, M ü s l i h ə d d i n ə b i M ə h ə m m ə d Ə b d ü l l a h i b n M ü ş r i f ə d d i n (1203–10-cu illər arasında – 1292) – böyük fars şairi, mütəfəkkir. Sədiyə didaktik və mütəfəkkir şair kimi «Büstan» və «Gülüstan» əsərləri şöhrət qazandırmışdır. Sədi klassik fars əbədi – bədii nəsrinin əsasını qoymuşdur. – 330.

149. Nizami Gəncəvi, İ l y a s Y u s i f o ğ l u (1141-1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 330.

150. Firdovsi, F i r d o v s i Ə b ü l q a s i m (təqr. 934–1020, yaxud 1030) – böyük fars və tacik şairi. Farsdilli ədəbiyyatın monumental eposu, dünya ədəbiyyatının möhtəşəm abidələrindən olan «Şahnamə»nin müəllifidir. – 330.

151. Şəhriyar, M ə h ə m m ə d h ü s e y n H a c ı M i r a ğ a o ğ l u (1906–1988) – görkəmli Azərbaycan şairi, XX əsr Cənubi Azərbaycan və İran poeziyasının ən böyük nümayəndələrindən biri. Azərbaycan və fars dillərində yazmışdır. Şairin «Heydərbabaya salam» poeması təkcə onun yaradıcılığında deyil, eləcə də bütün müasir Cənubi Azərbaycan poeziyasın-

da yeni mərhələdir. Burada Cənubi Azərbaycan təbiətinin gözəllikləri, xalqın adət və ənənələri, ana yurduna tükənməz oğul məhəbbəti əlvan poetik boyalarla, canlı xalq dilində tərənnüm edilir. Poemada doğma yurdu Azərbaycanın ikiyə bölünməsini böyük ürək ağrısı ilə nəql edir. Poemanın ən böyük məziyyəti onun xəlqiliyindədir. Poema Cənubi Azərbaycanda anadilli poeziyaya geniş yol açmışdır. Şəhriyarın yaradıcılığı bütün türk dünyasında böyük şöhrət qazanmışdır. – 331.

152. Bruney, B r u n e y Dərussalam– Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km², əhalisi 300 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bandar – Seri –Beqavandır. – 335.

153. Həssənal Bolkia (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsi. – 335.

154. Küveyt, K ü v e y t d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 1708 km², əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 336.

155. Cabir əl-Əhməd əs-Sabah – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirilmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 336.

156. Estoniya, E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km², əhalisi 1492 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 337.

157. Lennart Meri (d.1929) – Eston yazıçısı. 1992-ci ildən Estoniya Respublikasının prezidenti. 1986–1990-cı illərdə Estoniya Yazıçılar İttifaqının katibi, 1990-cı ildən Estoniya Xarici İşlər naziri olmuşdur. – 337.

158. Konstantin Vasilyeviç Totski (d.1950) – general-leytenant. Hazırda Rusiya Federasiyası Sərhəd Qoşunları İdarəsinin direktorudur. Totski 1989–91-ci illərdə Azərbaycanda Lənkəranda sərhəd qoşunları idarəsinin rəisi olmuşdur. – 338–343.

159. Naxçıvan – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km², əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən muxtar respublikanın paytaxtı oldu. – 343.

160. Avropa İttifaqı – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 344,345,348–361.

161. Hacı Zeynalabdin Tağıyev (1838–1924) – məşhur messenat, maarifpərvər, «millətin başçısı, atası», Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və

jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» borusunu çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 345.

162. Anna Lind (1957–2003) – İsveç siyasətçisi, Sosial–Demokrat Partiyasının üzvü, 1998–2003-cü illərdə İsveçin Xarici İşlər naziri və Avropa İttifaqının sədri olmuşdur. – 348–361.

163. Havyer Solana (d.1942) – siyasi xadim, 1995–99-cu illərdə NATO-nun Baş katibi, 1999-cu ilin iyulundan Avropa İttifaqı Şurasının Xarici Siyasət və Təhlükəsizlik üzrə Baş katibidir. – 348–361.

164. XIX əsrin əvvəllərində, Rusiya – İran müharibəsi (XIX əsr) – 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı, Çar-Balakən camaatlığını (1803), Gəncə xanlığını (1804) tutması İran və Türkiyənin, həmçinin İngiltərə və Fransanın güclü müqavimətinə rast gəldi. İran 1804-cü ilin iyununda Rusiyaya qarşı müharibəyə başladı. Lakin Abbas Mirzənin qoşunu İrəvan yaxınlığında vuruşmada məğlub oldu. 1805-ci ildə Qarabağ, Şəki, Şirvan xanlıqları da işğal edildi. 1806-cı il oktyabrın 3-də rus ordusu Bakını işğal etdi. 1813-cü ilə qədər davam edən qanlı döyüşlər Gülüstan müqaviləsi ilə (1813) nəticələndi. Şimali Azərbaycan xanlıqları Rusiyanın tabeliyinə keçdi.

1826–28-ci illərdə aparılan müharibə nəticəsində isə Naxçıvan, Abbasabad, Yerevan, Xoy, Mərənd, Urmiyə, Ərdəbil, Təbriz işğal edildi. Nəticədə Türkmənçay müqaviləsi (1828) imzalandı. Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya verildi. – 365.

165. Romanovlar – Rusiyada XIV–XVI əsrlərdə boyar nəsli, 1613-cü ildən çar, 1721–1917-ci illərdə imperator sülaləsi, əcdadı Moskva boyarı Andrey Kobıla idi. Romanovlar nəslindən ilk çar Mixail Fyodoroviç olmuşdur. Onun nəvəsi I Pyotr (1721) imperator elan edildi. İmperator Aleksey Petroviçin ölümü ilə (1730) Romanovlar sülaləsinin kişi nəsli,

I Yelizaveta Petrovnanın ölümü ilə (1761) qadın nəsli kəsildi. Lakin Holşteyn – Qottorplar sülaləsinin nümayəndələri – III Pyotr, II Yekaterina, I Pavel və onun xələfləri də Romanovlar familiyası daşıyırdılar. Fevral burjua-demokratik inqidabından sonra Romanovlar monarxiyası devrildi və sonuncu imperator II Nikolay və onun ailəsi güllələndi. Romanovlar nəslindən qalanlar isə İtaliyaya,Fransaya, B.Britaniyaya, ABŞ-a, Avstriyaya mühacirət etdilər. – 365.

166. Azərbaycan Xalq Cümhuriyyəti – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 365.

167. Həsən Həsənov, H ə s ə n Ə z i z o ğ l u (d.1940) – Azərbaycanın siyasi xadimi, diplomat. Ayrı-ayrı illərdə Nazirlər Sovetinin sədri, BMT-də Azərbaycan Respublikasının daimi nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. Hazırda Polşada Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 370,371.

168. Tofiq Zülfüqarov, T o f i q N a d i r o ğ l u (d.1959) – diplomat, fövqəladə və səlahiyyətli səfir. 1998-99-cu illərdə Azərbay-

can Respublikasının xarici işlər naziri vəzifəsində işləmişdir. 2006-cı ildən Latviya Respublikasında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiridir. – 372.

169. Klinton Bill, U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 374,377.

170. «Ümumi dövlət» – ATƏT-in Minsk qrupu həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) Azərbaycana etdiyi təklif, yəni Azərbaycan ərazisində yeni bir erməni dövlətinin yaradılması. Beynəlxalq hüquqda isə «ümumi dövlət» adında anlayış yoxdur. Azərbaycan Dağlıq Qarabağa ancaq öz daxilində yüksək özünüidarəetmə statusu verə bilər. – 375.

171. Madlen Olbrayt (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin edilmişdir. 1997–2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 377,379.

172. Butros Qali (d.1922) – 1992–96-cı illərdə BMT-nin Baş katibi olmuşdur. – 378.

173. Kofi Annan (d.1938) – 1997–2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 378.

174. İslam Konfransı Təşkilatı (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 380.

175. Pənah Hüseynov, Pənah Çodar oğlu (d.1957) – Azərbaycan Respublikası Milli Məclisinin (2005–2010) üzvü. Milli Məclisin Təhlükəsizlik və Müdafiə məsələləri komitəsinin üzvüdür. 1993-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsində çalışmışdır. – 389.

176. Surət Hüseynov, S u r ə t D a v u d o ğ l u (d.1959) – 1993-94-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 389.

177. Şuşa – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 391.

178. Ayaz Mütəllibov, A y a z N i y a z i o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990–92-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 391.

179. Laçın – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km², əhalisi 51 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 391.

180. Kaliforniya – ABŞ-ın qərbində ştat. Sahəsi 411 min km², əhalisi 31,9 milyon nəfərdir. İnzibati mərkəzi – Sakramento. – 392.

181. Xocalı soyqırımı – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tama-

milə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 398–399.

182. Ross Uilson (d.1955) – 2000–2003-cü illərdə Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda Ross Uilson Türkiyədə ABŞ-ın səfiri vəzifəsində çalışır. – 400–407.

183. Bosniya–Hersoqovina – 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikası tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli- dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə, Birləşmiş Bosniya – Hersoqovinadan ibarət federativ respublika yarandı. – 408.

184. Jivko Radişiç (d.1937) – 1998–2002-ci illərdə Bosniya və Hersoqovinanın prezidenti. Bosniya və Hersoqovinanın Ali Sovetinin keçmiş sədri və Bosniya serblərinin tanınmış siyasətçisi. – 408.

185. Mərakeş, M ə r a k e ş K r a l l ı ğ ı – Şimal–Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km², əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefektura bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. – 409.

186. Məhəmməd VI, B i n ə l – H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sulaləsindən 18-ci kraldır. – 409.

187. Qana, Q a n a P e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 238,5 min km², əhalisi 16,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 10 vilayətə və paytaxt mahalına bölünür. Paytaxtı Akkradır. – 411.

188.«Kastel» – fransız şərab şirkəti. 1949-cu ildə Bordoda (Fransa) Pyer Kastel və üç qardaşı tərəfindən yaradılmışdır. Şirkətin yaradıcıları istehsalın yaxşılaşması prosesi üçün külli miqdarda kapital qoymuş, bir çox üzüm istehsalçıları ilə xammal almaq üçün müqavilələr bağlamışlar. Şirkət bütün dünyada öz şərabları ilə məşhurdur. Şirkətin bütün

məhsulları əla keyfiyyətlidir. «Kastel»in ən gözəl çaxırı «Meritant»dır. – 412–416.

189. Naxçıvan Muxtar Respublikası (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km², əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur (Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 417–435.

190. Babək rayonu (1978-ci ilədək Naxçıvan rayonu) – Naxçıvan MR-da inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1,17 min km², əhalisi 72,5 min nəfərdir. – 417–435.

191. Nehrəm – Naxçıvan MR-də Babək rayonunda kənd. Əhalisi 11784 nəfərdir. Nehrəm tarixi kənddir. 1885-ci ildə burada ilk dünyəvi məktəb açılmışdır. C.Məmmədquluzadə 7 ildən çox Nehrəm məktəbində müəllim və müdir işləmişdir. Yazıçı «Kişmiş oyunu» (1892), «Danabaş kəndinin əhvalatları» (1894) əsərlərini burada yazmış, mahalda ilk dəfə qızları məktəbə cəlb etmiş və məktəb-tarix diyarşünaslıq muzeyi yaratmışdır. – 417–435.

192. Artur Rasizadə, A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 417–435.

193. Vasif Talıbov, V a s i f Y u s i f o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 1995-ci ilin dekabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 417–435.

194. Mehri, M e g r i, M i q r i r a y o n u – Ermənistan ərazisində azərbaycanlılar yaşayan ərazi. Tarixi mənbələrdə bu ərazinin Azərbaycana məxsus olduğu göstərilir. – 426.

195. Zəngəzur mahalı, Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 426.

196. Cəlil Məmmədquluzadə, M i r z ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866–1932) – böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 430.

197. Atabəylər dövləti – Azərbaycanda Eldənizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət (1136–1225). Azərbaycan Atabəyləri Dövlətinin əsasını Şəmsəddin Eldəniz qoymuşdur. Azərbaycan Atabəyləri Dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Arranı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır.

Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. – 433.

198. Elçibəy, Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-ci ilin iyunundan 93-cü ilin iyununa qədər Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 435.

199. Xəlil Rza Ulutürk, X ə l i l o v X ə l i l R z a o ğ l u (1932-1994) – Azərbaycanın xalq şairi, Azərbaycanda müstəqillik hərəkatının görkəmli öndərlərindən biri. – 435.

200. Mikayıl Mirzə, M i r z ə y e v M i k a y ı l Ş a h v ə l ə d o ğ l u (1947–2007) Azərbaycan Respublikasının xalq artisti. 1976-cı ildən Azərbaycan Milli Dram Teatrında aktyor kimi fəaliyyət göstərmişdir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 435.

201. Mirça Coane (d.1958) – Rumıniya siyasətçisi. 2000–2004-cü illərdə Rumıniyanın Xarici İşlər naziri vəzifəsində çalışmışdır. 2008-ci ildən Rumıniya Senatının spikeridir. –438–451.

202. İon İliesku (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. 1992–96-cı və 2000–2004-cü illərdə Rumıniyanın prezidenti olmuşdur. – 440,450.

Şəxsi adlar göstəricisi

Abbasov Əli – 128
Abdullazadə Fatma – 255–274
Abutalıbov Tofiq – 417–435
Annan Kofi – 378
Berzinş İndulis – 129,168,184–186
Bolkia Həssənal – 335
Buadve Serj – 162
Buş Corc – 149,404,406
Camme Yaya – 297
Cəfəri Məhəmməd – 330
Cəm İsmayıl – 135,136,137,253,301
Coane Mirça – 438–451
Conston Rassel – 129,181–183,186
Çeçelaşvili Valeri – 321–328
Ceyni Dik – 146
Dəmirəl Süleyman – 98
Din Villiam Patrik – 144
Ecevit Büləd – 135,136,252,301
Eliasson Yan – 370,371
Erkole Pyetro – 5–19,25–34
Əl-Sabah Cabir – 336
Ələkbərov İsmayıl – 417–435
Ələkbərov Vahid – 52
Ələsgərov Murtuz – 121–133
Əliyev Bəxtiyar – 128
Əliyev Əbülfəz – 435
Əliyev İlham – 128,157,168
Əliyev Qulamhüseyn – 128

Əzimov Araz – 11
Firfovsi – 330
Füzuli Məhəmməd – 98
Ginyut Jan Pyer – 157
Hacıyeva Gültəkin – 128
Hafiz – 330
Hansen Yanke – 289
Həsənov Həsən – 370,371
Hüseynov Əli – 128
Hüseynov Pənah – 389
Hüseynov Rəfael – 128
Hüseynov Surət – 389
Hüseynov Şadman – 9
Hüseynova Elenora – 151,157
Xamenei Seyid Əli – 278
Xatəmi Məhəmməd – 277,283
Xəlil Rza – 435
Xətai Şah İsmayıl – 281
Xristenko Viktor – 54–55
İbrahimov Nazim – 128
İliyesku İon – 440,450
İsmayıl Heydər – 417–435
İvanov İqor – 53–54
İvanov Sergey – 138–141,148,191
İospen Lionel – 241
Kasan Gilyermo – 5–19
Kastel Pyer – 412–416
Kavano – 211
Kinkel Klaus – 22
Klark Helen – 223
Klinton Bill –374,377
Kokkonen Paula – 5–19,25–34

Köçəryan Robert – 37,47,123,148,150,155,159,160, 189–202,203,204–208,210,211, 212,213,260,381,382,383,390
Küçma Leonid – 276
Kumaratunqa Çandrika – 222
Qali Butros – 378
Qasımov Azər –128
Qəvahi Əbdülrəhim – 329–334
Qəzai Əhəd – 280–284
Qoberidze Lana – 315
Qraçov – 370
Qribkov – 211
Qross Andreas – 5–19,25–34
Quliyev Eldar – 109–110
Quliyev Rəsul – 370
Quliyev Vilayət – 157,178,179,364,374,378,380
Linq Anna – 348–361
Loğoğlu Osman Faruq – 134–137
Matske Riçard – 436 –437
Mehdiyev Əqil – 417–435
Mehdiyev Həsən – 417–435
Mehdiyev Nəriman –417–435
Menagarişvili İraklii – 309–318
Mered Maykl – 216–221
Meri Lennart – 337
Məhəmməd VI – 409
Məhəmmədov Məhəmmədəli – 56–58,59,60,61
Məmmədov Sakit –177
Mərd Azər – 162
Mikayıl Mirzə – 435
Miller Ceyms – 255–274
Mollazadə Asim – 128
Mütəllibov Ayaz – 391

Narayanan K.R. – 142
Niftəliyev Hüseyn – 417–435
Niyazov Saparmurad – 319
Nizami – 330
Okonnor Cudi – 111–120
Olbrayt Madlen – 377,379
Patten Kristofer – 348–361
Perrən Jan – 162
Polad Bülbüloğlu – 96–102
Putin Vladimir – 19,22,23,24,27,35–95,108,138, 139,140,141,148,198,199,269,270, 317,383
Radişiç Jıvko – 408
Rasizadə Artur – 417–435
Robertson Corc – 103–108
Rolinqs Cerri – 411
Rühe Folker – 20–24
Sadovniçi Viktor – 254
Sergeyev İqor – 45
Seyidov Səməd – 128
Sezər Əhməd Necdət – 135,136,242,244,250,299,301
Sədi – 330
Solana Havyer – 348–361
Stoyanov Peter – 251,410
Şafrannik – 52
Şahtaxtinskaya Nairə – 128
Şaron Ariel – 275
Şevardnadze Eduard –310,311,312,313,315,317,323
Şəhriyar – 331
Şirak Jak – 123,147,148,150,151,152,153–161,164,204–208,210,211,213,240, 242,246,247,260,262,263,413
Ştudman Jerar – 25–34

Şvimmer Valter – 168,177–180
Tağıyev Hacı Zeynalabdin – 345
Talay İstemihan – 96– 102
Talıbov Vasif – 417–435
Ter-Petrosyan Levon – 212,246,264,374
Tezcan Qədri – 298–308
Totski Konstantin – 338– 343
Uekman-Lin Jon – 216–221
Uilson Ross – 400–407
Vagenmakers Hendrik – 5–19
Vaqif Səmədoğlu – 128
Vik Yasper – 22
Vildbaxer Luçius – 182–187
Vimmer – 22
Vudvord Devid – 279
Vulfonson Ceym – 120
Yaspai Bihari – 143
Yeltsin Boris – 215,234
Zülfüqarov Tofiq – 372

Coğrafi adlar göstəricisi

Abxaziya – 312
Afina – 190
Afrika – 415
Almaniya – 20–24,305
Amerika Birləşmiş Ştatları – 22,24,33,52,77,146,149,153,159, 162,191,200,205,211,212,239,245, 246,259,261,269,306,307,352,356, 373,377,391,392,395,400–407,439, 448
Ankara – 306,316
Asiya – 166,227,303,323,349
Atlantik okeanı – 104
Avropa – 5,20,21,71,98,106,107,108,111, 112,154,156,166,167,171,173,174, 178,204,227,243,299,305,322,327, 345,346,,348,349,355,356,357
Avstraliya – 144,145
Babək (*Naxçıvan M R-da rayon*) – 417–435
Bakı – 9,22,23,86,87,99,100,101,105, 110,142,143,144,145,146,149,186, 222,223,250,251,252,253,254,319, 320,335,336,337,345,351,408,409, 410,411
Başqırdıstan – 271
Bolqarıstan – 251,322,410
Bosniya və Hersoqovina – 408
Böyük Britaniya –255–274
Bruney – 335

Brüssel – 325
Cənubi-Şərqi Avropa – 326
Cənubi Qafqaz – 36,37,47,67,68,69,71,103,106,
107,108,139,175,266,267,275,276,
277,278,279,294,297,307,317,344,
347,350,353,393,399,443
Cənubi Osetiya – 69
Çeçenistan – 59
Çin – 199
Dağıstan – 42,43,51,56–58,59,60
Dağlıq Qarabağ –23,27,32,36,47,50,66,69,77,87,
92,105,123,124,148,150,155,158,
159,160,161,168,174,189,191,192,
194,195,196,197,199,200,201,203,
204,205,208,248,260,264,314,351,
352,362–297,402,404,406,426,445,
450
Dərbənd – 60
Estoniya – 337
Ərdəbil – 281
Finlandiya – 5,25,245,261,262,372,373
Fransa – 22,24,33,77,123,147–214,239,
240,241,243,244,245,246,247,248,
261,262,303,304,305,352,391,395,
401,412–416,448
Gilan – 281
Gürcüstan – 38,49,54,71,92,104,292,307,309–
318,350,382,386
Həştərxan – 55
Hindistan – 142,143
Hollandiya – 16,52

Xəzər dənizi – 37,40,41,48,52,64,72,91,104,105, 141,156,256,268,269,291,292,293, 294,315,316,349
Xocalı – 398–399
İran – 269,277,278,280–284,300,329–334,426,427
İspaniya – 15
İsrail – 275
İsveçrə – 261
İtaliya – 10,29,371,372
İstanbul – 99,300,323,326
Kaliforniya (*ABŞ-da ştat*) – 392
Kuba – 51
Küveyt – 336
Qafqaz –36,38,40,46,47,49,50,57,59, 60,67,68,69,70,77,78,89,91,92, 93,105,139,205,266,267,307, 311,364
Qambiya – 297
Qana – 411
Qazaxıstan – 72,98,266,268,316
Qərbi Azərbaycan – 281
Qırğızıstan – 98
Laçın – 391
Latviya – 17,184–186
Leninqrad – 84
Lissabon – 199
London – 103,257,316
Mərakeş – 409,415
Mərkəzi Asiya – 96,147,379
Moskva –38,51,53,82,83,92,103,234, 307,343,370
Murmansk – 271

Naxçıvan – 343
Naxçıvan MR – 417–435
Nehrəm – 417-435
Neftçala – 293
Norveç – 379
Novorossiysk – 44
Nyu-York – 247
Orta Asiya – 96,347
Orta Şərq –167
Özbəkistan – 98,192
Paris –114,147,151–165,189,210, 396,406,450
Rumıniya – 395,438–451
Rusiya – 19,22,23,24,27,32,33,35–95, 107,138–141,148,153,159,191, 192,198,199,200,205,211,212, 215,234,245,247,261,262,268, 269,270,300,317,322,325,333, 352,364,371,372,373,374,379, 383,391,395,401,448
Sakit okean – 323
Strasburq –121–133,147,154,166–202, 210,230,242,243,304,305,315
Sumqayıt – 22,196
Şərqi Almaniya – 22
Şərqi Azərbaycan – 281
Şimali Koreya – 199
Şimali Qafqaz – 60
Şotlandiya – 52
Şri-Lanka – 222
Şuşa – 391
Tbilisi – 271,311,312
Tehran – 332,333

Təbriz – 281,333
Tümen – 271
Türkmənistan – 48,49,98,266,268,269,319
Türkiyə – 96–102,124,134–137,149,164–165,189,194,202,210,213,239,240,241,242,243,244,245,246,247,248,250,251,253,266,298–308,323,379,380,426
Ukrayna – 276,322
Urmiya – 281
Vaşinqton – 219,377
Vyana – 373
Yaxın Şərq – 167
Yaponiya – 355
Yeni Zelandiya – 223
Yerevan – 292
Yuqovlaviya – 104,106
Yunanıstan – 190,191,324
Zəncan –281

KİTABIN İÇİNDƏKİLƏR

BEYNƏLXALQ TƏŞKİLATLARIN – AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ, ATƏT-in PARLAMENT ASSAMBLEYASININ VƏ AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN «AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

6 yanvar 2001-ci il *5*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

6 yanvar 2001-ci il *20*

BEYNƏLXALQ TƏŞKİLATLARIN – AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ, ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN, PARLAMENT ASSAMBLEYASININ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN «AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏTİ

8 yanvar 2001-ci il *25*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

9 yanvar 2001-ci il *35*

AZƏRBAYCAN–RUSİYA NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN DANIŞIQLARI

9 iyun 2001-ci il *39*

RUSİYA–AZƏRBAYCAN SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN BİRGƏ BƏYANATLARI VƏ MƏTBUAT KONFRANSI

9 yanvar 2001-ci il *62*

AZƏRBAYCAN PREZİDENTİ ADINDAN RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

9 yanvar 2001-ci il *73*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNƏ BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

10 yanvar 2001-ci il *82*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

10 yanvar 2001-ci il *86*

AZƏRBAYCAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ BAKI BƏYANNAMƏSİ 88

TÜRKSOY TƏŞKİLATININ XV TOPLANTISINDA İŞTİRAK EDƏN TÜRKDİLLİ ÖLKƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

16 yanvar 2001-ci il *96*

NATO-nun BAŞ KATİBİ LORD CORC ROBERTSON VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

16 yanvar 2001-ci il *103*

XALQ ARTİSTİ ELDAR QULİYEVƏ

17 yanvar 2001-ci il.....*109*

DÜNYA BANKININ AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ GÜRCÜSTAN ÜZRƏ DİREKTORU XANIM CUDİ OKONNOR İLƏ GÖRÜŞDƏ SÖHBƏT

18 yanvar 2001-ci il.....*111*

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN STRASBURQA GEDƏCƏK NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

19 yanvar 2001-ci il.....*121*

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ OSMAN FARUQ LOĞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

20 yanvar 2001-ci il.....*134*

RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ SERGEY İVANOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

22 yanvar 2001-ci il.....*138*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB K.R.NARAYANANA

22 yanvar 2001-ci il.....*142*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ATAL BİHARİ VACPAİYƏ

22 yanvar 2001-ci il.....*143*

AVSTRALİYANIN BAŞ VALİSİ ZATİ-ALİLƏRİ CƏNAB VİLLİAM PATRİK DİNƏ

22 yanvar 2001-ci il.....*144*

AVSTRALİYANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB CON HOVVARDA

22 yanvar 2001-ci il.....*145*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ VİTSE-
PREZİDENTİ CƏNAB DİK ÇEYNİYƏ

22 yanvar 2001-ci il.....*146*

FRANSAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN
ƏVVƏL BAKININ BİNƏ BEYNƏLXALQ HAVA
LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

23 yanvar 2001-ci il.....*147*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN FRANSA SƏFƏRİ

23 yanvar 2001-ci il.....*151*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ JAK ŞİRAK
İLƏ GÖRÜŞ

24 yanvar 2001-ci il.....*153*

GÖRÜŞ VƏ RƏSMİ QƏBUL BAŞA ÇATDIQDAN SONRA
AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV VƏ
FRANSA PREZİDENTİ JAK ŞİRAKIN YELİSEY SARAYI
QARŞISINDAKI MEYDANA TOPLAŞMIŞ JURNALİSTLƏR
QARŞISINDA BƏYANATLARI VƏ ÇIXIŞLARI

23 yanvar 2001-ci il.....*158*

FRANSA – AZƏRBAYCAN TİCARƏT PALATASININ
RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

24 yanvar 2001-ci il.....*162*

TÜRKİYƏLİ JURNALİSTLƏRLƏ MÜSAHİBƏ

24 yanvar 2001-ci il.....*164*

AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA ŞURASINA ÜZV QƏBUL EDİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

25 yanvar 2001-ci il.....166

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SESSİYASINDA NİTQ

25 yanvar 2001-ci il.....169

AVROPA ŞURASININ BAŞ KATİBİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞDƏ SÖHBƏT

25 yanvar 2001-ci il.....177

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ LORD RASSEL CONSTON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

25 yanvar 2001-ci il.....181

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ İNDULİS BERZİNŞ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

25 yanvar 2001-ci il.....184

İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN PREZİDENTİ LUÇİUS VİLDBAXER İLƏ GÖRÜŞDƏ SÖHBƏT

25 yanvar 2001-ci il.....187

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN BİRGƏ MƏTBUAT KONFRANSI

25 yanvar 2001-ci il.....189

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ
ROBERT KÖÇƏRYANIN TƏKBƏTƏK GÖRÜŞÜ

26 yanvar 2001-ci il *203*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN,
FRANSA PREZİDENTİ JAK ŞİRAKIN VƏ ERMƏNİSTAN
PREZİDENTİ ROBERT KÖÇƏRYANIN GÖRÜŞÜ

26 yanvar 2001-ci il *204*

BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLA
ÇIXIŞLAR

26 yanvar 2001-ci il *205*

FRANSAYA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA
BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA
JURNALİSTLƏRİN SUALLARINA CAVAB

27 yanvar 2001-ci il *209*

RUSİYA FEDERASİYASININ İLK PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BORİS YELTSİNƏ

29 yanvar 2001-ci il *215*

BEYNƏLXALQ VALYUTA FONDUNUN NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

30 yanvar 2001-ci il *216*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST
RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
XANIM ÇANDRİKA KUMARATUNQAJA

1 fevral 2001-ci il *222*

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
XANIM HELEN KLARKA

1 fevral 2001-ci il 223

AZƏRBAYCAN GƏNCLƏRİ GÜNÜ MÜNASİBƏTİLƏ
GƏNCLƏRLƏ GÖRÜŞDƏ NİTQ

2 fevral 2001-ci il.....224

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

5 fevral 2001-ci il 250

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PETER STOYANOVA

5 fevral 2001-ci il.....251

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB BÜLƏND ECEVİTƏ

5 fevral 2001-ci il 252

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
CƏNAB İSMAYIL CƏMƏ

5 fevral 2001-ci il.....253

M. V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT
UNİVERSİTETİNİN REKTORU, RUSİYA ELMLƏR
AKADEMİYASININ AKADEMİKİ
CƏNAB VİKTOR SADOVNİÇİYƏ

5 fevral 2001-ci il.....254

BÖYÜK BRİTANİYANIN «KASPİAN» JURNALININ BAŞ
REDAKTORU, AZƏRBAYCANIN DÖVLƏT KİTABININ
NƏŞRİ LAYİHƏSİNİN ƏLAQƏLƏNDİRİCİSİ CEYMS
MİLLERƏ MÜSAHİBƏ

6 fevral 2001-ci il.....255

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB ARİEL ŞARONA

8 fevral 2001-ci il.....275

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB LEONİD KUÇMAYA

8 fevral 2001-ci il.....276

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

8 fevral 2001-ci il.....277

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ
AYƏTULLAH SEYİD ƏLİ XAMNEİ HƏZRƏTLƏRİNƏ

8 fevral 2001-ci il.....278

AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN
PREZİDENTİ CƏNAB DEVİD VUDVORDA

8 fevral 2001-ci il.....279

İRAN İSLAM RESPUBLİKASININ BAKIDAKI
SƏFİRLİYİNİN ÖLKƏNİN MİLLİ BAYRAMI – İRAN
İSLAM İNQİLABININ 22-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ
TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

9 fevral 2001-ci il.....280

BAKI ŞƏHƏRİ YAXINLIĞINDA, ABŞERON RAYONU
ƏRAZİSİNDƏ «KASPİAN FİŞ» MÜƏSSİSƏSİNİN AÇILIŞI
MƏRASİMİNDƏ NİTQ

10 fevral 2001-ci il.....285

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YAYA CAMMEYƏ

10 fevral 2001-ci il.....297

TÜRKİYƏNİN BAKIDAKI SƏFİRİ
QƏDRİ ECVET TEZCAN İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

12 fevral 2001-ci il.....298

GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ İRAKLİ
MENAĞARİŞVİLİNİ VƏ ONU MÜŞAYİƏT EDƏN
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

13 fevral 2001-ci il.....309

TÜRKMƏNİSTANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA

15 fevral 2001-ci il 319

«TRUD» QƏZETİNİN BAŞ REDAKTORU
CƏNAB ALEKSANDR POTAPOVA

15 fevral 2001-ci il.....320

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
(QİƏT) BAŞ KATİBİ VALERİ ÇEÇELAŞVİLİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

16 fevral 2001-ci il.....321

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (EKO) BAŞ
KATİBİ ƏBDÜLRƏHİM QƏVAHİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

17 fevral 2001-ci il.....329

BRUNEY DARUSSALAMIN SULTANI ƏLAHƏZRƏT
HƏSSƏNAL BOLKİANA

17 fevral 2001-ci il 335

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX
CABİR ƏL-ƏHMƏD ƏS-SABAHA

17 fevral 2001-ci il.....336

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LENNART MERİYƏ

17 fevral 2001-ci il.....*337*

MDB ÖLKƏLƏRİ SƏRHƏD QOŞUNLARI KOMANDANLARI
ŞURASININ NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN
ÖLKƏMİZƏ GƏLMİŞ MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN
SƏRHƏD QOŞUNLARI NÜMAYƏNDƏ HEYƏTLƏRİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

20 fevral 2001-ci il.....*338*

BAKIDA TRASEKA HÖKUMƏTLƏRARASI KOMİSSİYASI
DAİMİ KATİBLİYİ OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ
NİTQ

21 fevral 2001-ci il.....*344*

AVROPA İTTİFAQININ NÜMAYƏNDƏ HEYƏTİ – HAZIRDA
BU BEYNƏLXALQ TƏŞKİLATA SƏDRLİK EDƏN İSVEÇ
KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ XANIM ANNA LİND,
AVROPA İTTİFAQININ BAŞ KATİBİ HAVYER SOLANA, BU
İTTİFAQIN KOMİSSARI KRİSTOFER PATTEN VƏ ONLARI
MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

21 fevral 2001-ci il.....*348*

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN
NÖVBƏTİ İCLASINDA ERMƏNİSTAN–AZƏRBAYCAN,
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN SÜLH YOLU İLƏ
HƏLL OLUNMASI PROSESİNƏ AİD MƏSƏLƏNİN
MÜZAKİRƏSİNDƏ NİTQ

23 fevral 2001-ci il.....*362*

YEKUN NİTQİ

24 fevral 2001-ci il.....*387*

XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR
AZƏRBAYCAN XALQINA MÜRACİƏT

24 fevral 2001-ci il.....398

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
AZƏRBAYCANDAKI SƏFİRİ
ROSS UİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

26 fevral 2001-ci il.....400

BOSNİYA VƏ HERSEQOVİNANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB JİVKO RADİŞİÇƏ

26 fevral 2001-ci il.....408

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

26 fevral 2001-ci il 409

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB PETER STOYANOVA

26 fevral 2001-ci il 410

QANA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CERRİ CON ROLİNQSƏ

26 fevral 2001-ci il 411

«KASTEL» ŞİRKƏTİNİN PREZİDENTİ PYER KASTEL
BAŞDA OLMAQLA BU ŞİRKƏTİN NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞDƏ SÖHBƏT

27 fevral 2001-ci il 412

NAXÇIVAN MUXTAR RESPUBLİKASI BABƏK
RAYONUNUN NEHRƏM KƏNDİNİN BİR QRUP SAKİNİ
İLƏ GÖRÜŞDƏ SÖHBƏT

28 fevral 2001-ci il.....417

«ŞEVRON» KORPORASİYASININ VİTSE-PREZİDENTİ
RİÇARD MATSKENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

28 fevral 2001-ci il.....*436*

ATƏT-in HAZIRKI SƏDRİ, RUMINİYANIN XARİCİ İŞLƏR
NAZİRİ MİRÇA COANE İLƏ TƏKBƏTƏK GÖRÜŞ

1 mart 2001-ci il *438*

ATƏT-in HAZIRKI SƏDRİ, RUMINİYANIN XARİCİ İŞLƏR
NAZİRİ MİRÇA COANENİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

1 mart 2001-ci il.....*441*

Q E Y D L Ə R.....*452*

Şəxsi adlar göstəricisi *490*

Coğrafi adlar göstəricisi.....*495*

Kitabı çapa hazırlayan *Tofiq Babayev*

Rəssamı *Fuad Fərəcov*
Texniki redaktoru *Zoya Nəcəfova*
Yığım üzrə operator *İlhamə Kərimova*
Kompüter tərtibatı *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 32.
Uçot vərəqi 32,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.